RƏŞİD TƏHMƏZOĞLU

# UCALIQ YURDU

*(Qafan bölgəsinin tanınmış adamları)*

799

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

BAKI – Qismət – 2004

63.3(5Aze)8
Q-86

BBK 45.2.2
T 53

Redaktor: **İSRAFİL MƏMMƏDOV**
*tarix elmləri namizədi*

T 53 **Təhməzoğlu Rəşid.** Ucalıq yurdu , **"Qismət"** nəşriyyatı, Bakı. 2004. 392 səh.

Şair-tərcüməçi, tədqiqatçı-alim, filologiya elmləri namizədi Rəşid Təhməzoğlunun yeni kitabında Zəngəzur torpağının Qafan bölgəsindən olan tanınmış adamlar, öz istedad və bacarığı ilə dünya şöhrəti qazanmış alimlər, ictimai və dövlət xadimləri, habelə mədəniyyət sahəsində müəyyən mövqe tutan şəxsiyyətlər barəsində portret-oçerkləri və publisistik yazıları toplanmışdır. Bunları tarixi yağılarımızın əli ilə öz doğma dədə-baba yurdundan didərgin düşmüş insanların yaşam yazıları da adlandırmaq olar.

T $\frac{4502020000}{M-085-2104}$

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

© "Qismət", 2004

# MÜƏLLİFDƏN

*Desələr ki, çox az zaman kəsiyində belə bir kitab yaratmaq, araya-ərsəyə gətirmək mümkündür, doğru olmaz. Bu işi görmək üçün aylarla, illərlə axtarış aparmaq, sənədlər, xatirələr toplamaq, yaddaşları çözələmək, onları ərişdən-arğacdan keçirmək, idrakın durğun sularında durulayandan sonra, yazmaq, çoxlarının bəyənəcəyi düşüncə ifadəsinə çevirmək gərəkdir. Bunsuz yazılan və nəşr edilən qalın-qalın kitablar bir o qədər kəsərli sayılmaz, quru söz yığını təsiri bağışlayar.*

*Neçə ildir, bu kitabın yazılması və tərtibi ilə məşğulam. Arada fasilələr də olub, çətinliklər də meydana çıxıb. Mənə elə gəlir ki, kitabda toplanan yazıları hələ vərəqlərə köçürməmişdən öncə, ürəyimdə, düşüncəmdə yaşatmışam. İllər uzunu məqam gözləmişəm ki, haçansa onları işıq üzünə çıxarım, gələcək nəsillər öz ulu soydaşlarının həyat yolunu, amalını, başlıcası isə, yurdsevərliyini, torpaq sevgisini izləyə bilsinlər. Şerlərimin birində ulu soydaşlarımızın yurd-yuvasına bağlılığını belə ifadə etməyə çalışmışam:*

*Mənim ürəyimi parçalasalar,*
*"Qaraqapı" - deyib, min haray salar!..*

*Bakı ucalığı barmağım altda,*
*Qartal qanadında ucaldar məni!*
*Araz ayrılığı ayağım altda,*
*İllərin əlində qocaldar məni!*
*Gözümü açınca dəniz görərəm,*
*Gözümü yumunca dağlar çəməni...*

*Bakı genişliyi öz ovcumdadır;*
*Yolum küçə içi, evlər arası...*
*İşıq kipriyimin lap ucundadır;*
*Səpərəm şəhərə işıq sarısı!*
*Gözümü açınca bina görərəm,*
*Gözümü yumunca qaya sırası!*

*Bakı gözəlliyi duyğumda mənim;*
*Nəğməmdə səslənər, sözümdə çağlar!*
*Bakı ağrıları ağrımda mənim;*
*Varlığın köksünü odlayar, dağlar!*
*Gözümü açınca təpə görərəm,*
*Gözümü yumunca qayalı dağlar!..*

*Bütöv Azərbaycan qaynar qanımda,*
*Bölüm-əyrisindən, düzündən çıxar!*
*Mənim ürəyimin qaynar qanında*
*Haray ildırımlar özündən çıxar!*
*Gözümü yumanda qorxaram, açım,*
*Birdən Qaraqapı gözümdən çıxar?!*

*Mənim ürəyimi parçalasalar,*
*"Qaraqapı" – deyib, min haray salar!..*

*Bəlkə də, buna görədir ki, mən Zəngəzur-Qaraqapı torpağının təbiətini; dağlarını, dərələrini, meşələrini, yaylaqlarını, çaylarını, bulaqlarını-axar-baxarını nə qədər xoşlamışamsa, başqa sözlə, bu təkrarsız gözəlliklər gözlərimdə nə qədər incəliklə əks olunubsa, adamlarını da qat-qat ondan artıq sevmişəm, onların uğurları ilə iftixar hissi keçirmişəm. Ona görə ki, hara getsələr, hansı ölkədə olsalar, o torpağın, o el-obanın havasını, suyunu, nəfəsini özlərində-işlərində, əməllərində, ürəklərində, yuxularında yaşadıblar. Belə adamlardan yazmaq, onların şöhrətini dildən-dilə, diyardan-diyara yaymaq ürəyimcədir, mənəvi ehtiyacımdır...*

*Uzun illər arxiv quruculuğu sahəsində çalışmağım mədəniyyətin özgə sahələrində olduğu kimi, bu yazıların da yaranmasında köməyimə gəldi. Arxiv sənədləri üzərində iş apararkən Qafan bölgəsinin tanınmış adamları barəsində önümə çıxan, gözümə çarpan ən kiçik qeydi belə diqqətdən yayındırmamışam. Bəzilərinin ömür yolunu yaxşı bildiyim, yaxud daha çox anamdan öyrəndiyim üçün onlar haqqında tez yazmışam. Sənədlər olmadığından, yaxud məlumatın məhdudluğundan bir sıra oçerklərin yazılması müəyyən vaxt tələb edibdir.*

*Axtarışlar, əziyyətlər arxada qalıb. Ən önəmlisi odur ki, bu yönümdə ilk kitab meydana çıxıb, oxuculara təqdim olunur. Kitabı oxuyanlar, ilk növbədə, bu cəhətə diqqət yetirəcəklər: Qafan bölgəsindən Bəşir Bünyatov Şuşa Qəza İcraiyyə Komitəsinin ilk sədri olub; Ənvər Əlixanov Lenin Mükafatı Laureatı fəxri adına layiq görülüb, Azərbaycan Respublikası hökumətinin başçısı seçilib; Umud Süleymanov həmin bölgədən ilk Sosialist Əməyi Qəhrəmanıdır; Ələkbər Süleymanov iki dəfə Stalin Mükafatı, bir dəfə Azərbaycan Dövlət Mükafatı Laureatı fəxri adlarını alıb; Baxış Sultanov ilk azərbaycanlı geoloqdur; Qəhrəman Qəhrəmanov vaxtilə Nobel Mükafatına namizəd irəli sürülüb; Bəhlul Ağayev bizim bölgədən ali təhsil ocağının rektoru təyin olunan ilk alimdir; yaxud biləcəklər ki, İmaş İmaməliyev Qafan bölgəsi üzrə Ali Sovetə ilk azərbaycanlı xalq elçisidir; Fatma Əzizova həmin bölgənin azərbaycanlılardan ilk qadın müəllimi, ilk qadın deputatıdır; yaxud Cəlal Zeynalov bölgədə ilk əməkdar müəllim adını alıb; Eldar Abasov müstəqil Azərbaycan Respublikası Milli Məclisinin ilk üzvlərindən olub; yaxud Qarabağ savaşı qızışanda Xankəndində endirilmiş Azərbaycan bayrağını ilk qaldıran Lüdviq Muradov olub; bu kitaba müraciət edənlər öyrənəcəklər ki, bizim bölgənin Məhəmməd Əlizadə, Teymur Bünyatov, Murad Hüseynov kimi generalları, Hafiz Baxış kimi şairi, Əli Mehdiyev kimi müğənni-opera salisti, Niftalı Quliyev kimi boks üzrə beynəlxalq dərəcəli hakimi var. Hələ neçə-neçə ictimai xadimi, alimini, orqan işçisini və hərbçisini demirəm...*



*Bu bölgənin adamları çağdan-çağa həyatın hər üzünü görüblər, qaçqınlığın və didərginliyin müsibətlərini çəkiblər, sınmayıblar, əyilməyiblər, nəsillərə örnək olacaq parlaq ənənələr qoruyub saxlayıblar. Kökü torpağın dərinliklərinə işləyən götüklərdən yeni şivlər göyərib, qol-budaq atıb, öz ucalığı ilə göylərə meydan oxuyub. Bax, belələrini arayıb tapmaq, onların ömür yolundan, həyat amalından yazmaq, sabahın adamlarına nümunə göstərmək gərəkdir. Belələri isə hələ çox-çoxdur; bu yönümdə fəaliyyəti bitmiş hesab etmək düzgün sayılmazdı. Sözsüz ki, daha təpərli adamlar, qələm sahibləri köksünü irəli verəcək və daha sanballı kitablar yaradacaqlar. Bu kitabı isə həmin sıradan ilk təşəbbüs kimi dəyərləndirmək olar...*

*Kitabın yazılmasında və işıq üzü görməsində bir çoxları mənə öz köməklərini əsirgəməyiblər. İlk növbədə, xeyirxah əməlləri ilə daim yaddaşlarda qalacaq Lüdviq Muradovun adını hörmətlə çəkirəm. Məhz belə bir kitabın yaranmasını hamıdan əvvəl, o arzulamışdı. Professor Eldar Abasov, general-mayor Murad Hüseynov, polkovnik Nurəddin Həsənov, ictimai xadim Zülfüqar Kazımov və başqaları da təşəbbüsü müdafiə etmiş, məni daim bu işə həvəsləndirmişlər.*

*Kitabın redaktoru, tarix elmləri namizədi İsrafil Məmmədov həm bəzi materialların əldə edilməsində fəallıq göstərib, həm də "Axar su duruluğu" (Bilal Kərimov), "Su aydınlıqdır!" (Oqtay Əsədov), "Yaşanmış ömür kitabı" (Sabir Əsədov), "Xatirə işığı sozalmayacaq!" (Cəlal Zeynalov) və "Yaddaşlardan silinməyəcək..." (Mikayıl Heydərov) kimi oçerklərin müəllifidir.*

*Kitab üçün materialların toplanmasında ilk çağlardan qocaman jurnalist, bölgənin ayrı-ayrı kəndlərindən olan adamları yaxşı tanıyan, "Didərgin şəhidlər" toplusunun və "Telefon sorğu kitabçası"nın tərtibçisi Bahadur Xanməmmədov mənə yaxından kömək göstəribdir.*

*Kitabın tərtibi və materialların toplanmasından ötrü əlindən gələn*

*köməyi əsirgəməyən dostum Seyfulla Sadiq Abbasovun xidmətlərini ayrıca qeyd edirəm. O, eyni zamanda, "Uzaqda yanan işıq" (Saleh Muradov) və "Bayrağı enməyə qoymadı..." (Lüdviq Muradov) oçerklərinin yazılmasında yaxından iştirak edibdir.*

*Professorlar Təhməz Quliyev, Arif Şəkərəliyev, tibb elmləri namizədləri Ramiz Bünyatov, Zenta Əlixanova, Elmira Sultanova, ağsaqqal Səməd Qarayev, mühəndis Əziz Qarayev, müəllim Surxay Həsənov və başqalarının da materialların toplanmasında böyük fəallıq göstərdiklərinə görə, adlarını səmimiyyətlə çəkməyi özümə borc bilirəm.*

*Bir sözlə, bu yönümdə mənə yardımçı olanların hamısına öz dərin təşəkkürümü və sonsuz minnətdarlığımı bildirirəm. Oxuculardan xahişim budur ki, bəzi oçerklərin bir neçə il öncədən yazıldığını nəzərə alsınlar. Qoy bu kitab zaman-zaman öz doğma torpaqlarından aralı düşmüş insanların bir-birini arayıb-axtarmasında bir vasitə olsun!*

*RƏŞİD TƏHMƏZOĞLU,*
*filologiya elmləri namizədi*



# UCALIĞA APARAN CIĞIRLAR





**1895-1967**

## BƏŞİR NURƏLİ OĞLU BÜNYATOV

İctimai və dövlət xadimi, pedaqoq, hüquqşünas. Daha çox dövlət xadimi və pedaqoq kimi tanınıb.

## SABİR ADINA BAĞDA SÖHBƏT

Bakının yay günlərindən biri idi. Sabir bağının hündür ağaclarının kölgəsində bir qoca oturmuşdu. Dalğın-dalğın gəlib-gedənlərə baxırdı. Bir azdan ucaboylu bir qoca da ona yaxınlaşıb, salam verdi. Qoca salamı alıb, onun üzünə baxdı: baxışından hiss olunurdu ki, tanımır, mülayimcə gülümsündü. Gələn qoca onunla yanaşı oturdu. Bir anlıq heç birisi dillənmədi. Gələn qoca söhbəti xatirədən başladı:

– Mən Şuşada Şura Firqə Məktəbində təhsil aldığım vaxt Siz Qəza İcraiyyə Komitəsinin sədri idiniz... Sizi o illərdən tanıyıram...

– Əsliniz hardandır?

– Zəngəzurluyam...

– Elliyik ki?!

– Siz də zəngəzurlusunuz?

– Bəli, Qafanın Yuxarı Girətağ kəndindənəm...

– Bu lap yaxşı oldu. "Zəngəzur qartalları" adlı kitab yazıram. Ora Zəngəzurun tanınmış adamları barədə oçerklər daxil olacaq. Elə Sizin haqqınızda da yazaram...

– Mən indi 1905-1920-ci illərdə baş verən inqilabi

hadisələrdə iştirakım barədə xatirələrimi kitab şəklində nəşr etdirmək istəyirəm. Sağlıq olsun, kitab çıxar, istifadə edərsiniz...

– Xeyr, həyat yolunuz haqqında şifahi də danışsanız, kifayətlənərəm...

Bu qocalardan biri tanınmış ictimai və dövlət xadimi Bəşir Bünyatov, o biri isə xalq yazıçısı Əli Vəliyev idi...

Əli Vəliyev, adəti üzrə, əlində tutduğu qəzetə bükülü şagird dəftərini açıb, qələmini çıxardı və qeydlər etməyə başladı. Bəşir Bünyatov danışırdı:

– 1894-cü ildə (**rəsmi sənədlərdə 1895-ci il yazılıb - R.T.**) Zəngəzur qəzasının Qafan bölgəsindəki Yuxarı Girətağ kəndində yoxsul bir ailədə anadan olmuşam. 9-10 yaşım olanda kəndin bir sıra uşaqları ilə birgə iş dalınca Bakıya qaçmışıq...

O zamanın məşhur neft sahibkarlarından olan Mantaşev qardaşlarının Ramanadakı mədənlərində işə girmişəm. 1905-1907-ci illərdə həmin mədənlərdə ayda 8 rublaya vedrə ilə neft daşımışam.

1907-1913-cü illərdə "Moskva-Qafqaz əməkdaşlığı" mədənlərində, 1913-1915-ci illərdə isə Rotşildin mədənlərində işləmişəm. O illər çox ağır zamanlar idi. Fəhlələrin iş və yaşayış şəraiti olduqca dözülməzdi. Ona görə də tez-tez tətil edirdilər. 1914-cü ildəki Balaxanı mədənlərinin tətilində iştirak etdiyimizə görə, 50 nəfərə yaxın fəhlə, qardaşım Nəcəfqulu, uşaqlıq dostum Musa, o cümlədən mən işdən qovulduq. Bir müddət işsiz qaldıq. Sonra yenidən Rotşildin mədənlərində telefonçu vəzifəsinə qəbul olundum. 1917-ci ilə kimi, həmin mədəndə çalışdım, ancaq tətil hərəkatından uzaqda qalmadım. Fevral ayından sonra fəhlələrin tətil hərəkatı daha da genişləndi. Artıq bu hərəkata partiya rəhbərliyi mövcud idi və hakimiyyəti ələ almaq uğrunda mübarizə gedirdi. Nəhayət, 1917-ci ilin 31 oktyabrında bolşeviklər hakimiyyəti ələ aldılar və Bakı Sovetini təşkil etdilər. Lakin axıra kimi saxlaya bilmədilər. 1918-ci ilin 31 iyulunda öz mövqelərini əldən verdilər.

Biz gəmiyə minib, Lənkəran tərəfə getdik. Uşaqlıq dostum Əlipənah Rzayevlə bir müddət Kosalar kəndində yaşadıq. 1918-ci ilin dekabr ayında yenidən Bakıya qayıtdıq.



Bütün bu fəhlə hərəkatında iştirakımla bərabər, təhsil almağa da can atırdım. 1910-1915-ci illərdə Sabunçu ibtidai məktəbini bitirdim. 1915-1917-ci illərdə pedaqoji kurslarda təhsil aldım. Savadlı olduğumdan fəhlələr arasında hörmət qazanmışdım. Onlara tez-tez qəzet və jurnallar oxuyurdum. Yadımdadır, "Molla Nəsrəddin" jurnalı onların daha çox xoşuna gəlirdi...

1919-1920-ci illərdə Suraxanı fəhlə klubunun sədri idim. Azərbaycanda Şura Hökuməti qurulandan sonra, məni Suraxanı rayon milis idarəsində rəisin siyasi işlər üzrə müavini təyin etdilər.

1921-1923-cü illərdə Bakı Sovetində inzibati şöbənin rəisi vəzifəsində çalışdım. 1923-cü ildə isə Şuşa Qəza İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkdilər. 1925-ci ilə kimi orada çalışdım. Onu da deyim ki, erməni millətindən olan adamlarla işləmək o qədər də asan deyildi. Siz bunları yazmayın. Xatirələrimdə də mən bunları qeyd eləməmişəm. Onların iç-üzünü hələ 1905-ci ildə görmüşdüm. Bizim kənddən bir kişini öldürmüşdülər. Mənim fəhlə yoldaşım Qədimalının əmisi idi. Bu hadisəni eşidən kimi, o, kəndə qayıtmış, həmin erməniləri tapıb, qisasını almışdı. Ancaq faydası nə oldu? Ermənilərin təhriki ilə tutuldu və çar kazakları onu kəndin içindəcə güllələdilər. Bakıda L.Mirzoyan birinci katib seçilən kimi, məni vəzifədən uzaqlaşdırdılar. İki ilə yaxın Zaqatala Qəza Komitəsinin məsul katibi işlədim. Sonra Xalq Maarif Komissarlığının təşkilati şöbəsinə müdir təyin etdilər. Bir il əvvəl, Azərbaycan Dövlət Darülfününun hüquq fakültəsinə qəbul olunmuşdum. Qiyabi şöbədə təhsilimi davam etdirirdim. 1930-cu ildə həmin fakültənin sovet hüququ şöbəsini bitirdim. Bir müddət Azərbaycan Həmkarlar İttifaqı Şurasında (1933-1934) mədəniyyət şöbəsinin müdiri, MK-da instruktor vəzifələrini apardım. 1936-cı ildə yeni bir sahəyə - Baş Ət Birliyi idarəsinə rəis təyin etdilər. 1939-cu ilə qədər orada vəzifə borcumu yerinə yetirdim. 1939-1941-ci illərdə partiya arxivində baş elmi işçi kimi çalışdım. 1942-ci ildən pedaqoji fəaliyyətdəyəm: Piyada qoşunları məktəbində dərs demişəm, 44-cü ordunun təşviqatçısı olmuşam. Onu da deyim ki, bir pedaqoq kimi heç vaxt bu

sənətdən ayrılmamışam. Təqaüdə çıxınca Azərbaycan Sənaye İnstitutunda siyasi iqtisad fənnini tədris etmişəm. Mənə "Respublikanın Əməkdar müəllimi" fəxri adı verilmişdir. Lenin və Qırmızı Əmək Bayrağı ordenləri, səkkiz medalla təltif olunmuşam. Hazırda fərdi təqaüdçüyəm...



*Bəşir Bünyatov (soldan birinci) həyat yoldaşı Əzizə xanım, qardaşı oğlanları Teymur, Bahadur və Nurəli Bünyatovlarla birgə. 1950-ci illər.*

Mən həyat yolumu Sizə danışdım, yazmağı Sizdən...

O, ayağa qalxdı, Əli Vəliyevlə evə sarı getməyə başladılar və universitet binasının qarşısında xudafizləşib ayrıldılar. Bu, son ayrılıq oldu...

Bir neçə il keçdi. Xalq yazıçısı Əli Vəliyevin yazdığı "Qocaman bolşevik" oçerki, əvvəlcə, "Azərbaycan" jurnalında, sonra isə "Zəngəzur qartalları" (1970) kitabında verildi. Lakin Bəşir Bünyatov həmin oçerki oxuya bilmədi. Artıq dünyasını dəyişmişdi. 1967-ci ilin aprel ayının 13-dən Fəxri Xiyabanda uyuyurdu.





## ƏNVƏR NƏZƏR OĞLU ƏLİXANOV

İctimai və dövlət xadimi, Lenin mükafatı laureatı, dağ mühəndisi geoloqu, elmlər doktoru, xalq elçisi, pedaqoq. Daha çox təcrübəli neft mütəxəssisi, istehsalat rəhbəri və dövlət xadimi kimi tanınıb.

**1917-1992**

## DAĞLAR QOYNUNDA DOĞULMUŞDU...

Onun həyatına, keçdiyi ömür yoluna dair bütün rəsmi sənədlərdə Sabunçuda dünyaya göz açdığı qeyd olunur. Çoxunu da özü yazmış, yaxud anketləri öz xətti ilə doldurmuşdu. Bunları mən arxiv sənədlərini və arxivdə saxlanan şəxsi işini araşdırarkən görmüşdüm. Ancaq yaxın qoyumları, soykökünə bələd olanlar yaxşı bilirdilər ki, Ənvər Nəzər oğlu Əlixanov Zəngəzurun Qafan bölgəsindəndir. Dağ kəndlərinin birində doğulub, körpə ikən, daha doğrusu, bir yaşından Sabunçuda yaşayıblar. Sözsüz ki, şəxsiyyətini təsdiqləyən rəsmi sənədləri də burada alıb...

Bəs necə olub ki, Nəzər kişinin ailəsi doğma yerlərdən didərgin düşüb, Sabunçu kəndinə pənah gətirib? Bu sualın qısa cavabı belədir:

– Daşnakların azğınlığı və amansızlığı nəticəsində! Ənvər Əlixanovun qohumu, filoloq Qızılgül xanım Babazadənin nənəsindən eşitdiyi xatirələrdə bu suala daha ətraflı cavab tapırıq.

**Nənəm Balaxanım Firudinqızı danışardı ki:**

“ – Nəzər mənim doğmaca əmimoğludur, arvadı Bilqeyis

xanım Oxdar kəndindən idi. Nikolay hökumətinin yıxılan vaxtlarında Nəzərin iki uşağı vardı; qızı Bacıxanım, oğlu Ənvər. Noraşenik kəndində ermənilər də yaşayırdılar. Onlar bizimlə sakit dolanardılar. Ancaq qaxtaqanlar gələndən sonra, onların da üzü döndü: hədələyib deyirdilər ki, biz üzü yaya gedən vaxt gəlmişik, siz üzü qışa gedəndə buranı tərk edəcəksiniz!

Doğrudan da, onlar deyən kimi oldu. Qışın soyuqları düşən çağda bizi kənddən qovdular. Ancaq bibim qızı Cəvahiri, əmim oğlanları Lətifi, Qaraxanı, onların anasını qaxtaqanlardan qoruyacaqlarını vəd edib, saxlamışdılar. Sonradan öyrəndik ki, onları işgəncə ilə öldürüblər...

Yaxşı yadımdadır; çiskinli bir gün idi, Baydaq yalında arvad-uşaq bir daşın dibinə sığınmışdıq. Kəndin kişiləri atışa-atışa bizi qoruyurdular. Atışma qızışırdı. Dedilər ki, Cahanbaxış adlı bir kişi təklif etdi ki, bizi gülləyə tutsunlar. Kişilər iki odun arasına düşmüşdülər; bilmirdilər, bizi qorusunlar, ya azğınların əlinə düşməmək üçün gülləyə tutsunlar?! Tanrıdan olan kimi, şıdırğı bir yağış başladı. Atışma ara verdi. Kişilər də qayaların dibinə sığındılar. Yağış bizi ölümdən qurtardı. Qaranlıq düşməsini gözlədik. Elə ki, hava qaraldı, Oxçu çayının qırağı ilə üzüaşağı yeriməyə başladıq. Balaca Ənvəri anası Bilqeyis dalına bağlamışdı. Hələ onda, heç bir yaşı tamam olmamışdı. Bacıxanımı isə növbə ilə biz aparırdıq. Minbir əzab-əziyyətlə gəlib Qubadlıya çıxdıq. Bir müddət orada dolandıq. Türklər gəlib çıxmışdılar. Daha ermənilər sarıdan qorxu yox idi. Yaşayış çox ağırdı. Bakıya-qohumlarımızın yanına getmək istəyirdik. Oradan Malaqana (indiki Füzuli bölgəsi), sonra isə Yevlağa gəldik. Yevlaxdan Bakıya qatar gedirdi. Mən ehtiyat pul saxlamışdım. Həmin pula bilet alıb, qatara mindik.

Kənddən çıxmağımızdan altı ay keçirdi. Qatar səhər Bakıya çatdı. Mənim əmim Məşədi Ağalar Sabunçuda yaşayırdı. Bir gecə onun evində qaldıq. Nəzərin bacısı Ziynət xanımgilin mənzili də burada idi. Əmim xəbər göndərdi, əri Əli kişi gəlib, Nəzərgili apardı. O vaxtdan Nəzərin ailəsi Sabunçuda məskunlaşdı, sonrakı uşaqlar burada dünyaya gəldilər...“

Ənvər Əlixanov 1917-ci il aprel ayının 14-də anadan olmuşdu. Bir yaşından Sabunçuda buruqlar gördü, neftin kəskin



qoxusunu duydu. Bəlkə də, neftçi olmaq arzusu onun ürəyində elə körpəlikdən baş qaldırmışdı?! 7 yaşı tamam olanda 1924-cü ildə Sabunçudakı 19 saylı məktəbə getdi. 1931-ci ildə yeddiillik təhsilini başa çatdırıb, burada yerləşən Lassal adına texnikumun kəşfiyyatçı-geoloq fakültəsinə daxil oldu. 1934-cü ildə həmin texnikumu bitirən Ənvər Əlixanovu neft mədənlərinə işə göndərdilər. 1936-cı ilə kimi 3-cü mədəndə öz ixtisası üzrə çalışdı. Lakin hiss edirdi ki, həqiqi neft mütəxəssisi olmaq üçün mütləq ali təhsil almalıdır. Odur ki, elə həmin il Azərbaycan Sənaye İnstitutunun dağ-mədən geoloqu fakültəsinə qəbul olundu. Təhsil almaqla yanaşı, 1934-cü ildən bitirdiyi texnikumun axşam şöbəsində ixtisas fənnindən dərs deyirdi. İnstitutda təhsili başa çatan kimi, onu ilk əmək fəaliyyətinə başladığı 3-cü mədənə geoloq vəzifəsinə təyin etdilər. Yenicə işə alışırdı ki, alman-sovet savaşı başladı. 1941-ci ilin iyul ayında onu da səfərbərliyə alıb, daha doğrusu, sevdiyi sənətindən ayırıb, Tbilisiyə – hərbi hazırlıq məktəbinə göndərdilər. Artıq həmin ilin dekabr ayında 6 aylıq kurs keçmiş leytenant rütbəli Ənvər Əlixanov Krım cəbhəsində vuruşurdu. O, 143-cü atıcı briqadasının ştab rəisi idi. 1942-ci ilin oktyabr ayına kimi, Krım uğrunda döyüşlərin iştirakçısı oldu. Sonra Şimali Qafqazda döyüşən 75-ci ehtiyat alayına dəyişdilər. Cəbhəyə neft lazım idi, ancaq istismar sahələrində ixtisaslı kadrlar çatışmırdı. Bu səbəbdən Ənvər Əlixanovu 1942-ci ilin sonunda ordudan tərxis edib, yenidən neft sənayesi sahəsinə köməyə qaytardılar. O, 7-ci mədənin baş geoloqu vəzifəsində işləməyə başladı. 1945-ci ilin may ayına kimi, əvəzsiz xidmətlər göstərdi. Həmin dövr ərzində partiya təhsili almağı da unutmamışdı. 1944-1945-ci illərdə marksizm-leninizm universitetini də bitirdi.

Onda öz ixtisasını dərindən bilmək bacarığı ilə yanaşı, yüksək təşkilatçılıq səriştəsi də bariz şəkildə özünü göstərirdi. Bunu nəzərə alıb, Ənvər Əlixanovu 1946-1947-ci illərdə, əvvəlcə, MK-nın Sənaye şöbəsinə instruktor, sonra isə BK-nın müvafiq şöbəsinin müdir müavini vəzifələrinə irəli çəkdilər. Az keçmədən Bakının rayonlarından birinin partiya komitəsinin 2-ci katibi, sonra komitənin başçısı oldu.

1950-ci ildə ona daha məsul vəzifə tapşırıldı. İki ilə yaxın MK-nın ağır sənaye şöbəsinin müdir müavini kimi iş apardı və şöbənin rəhbəri təyin edildi. 1951-ci ildə "Azneftkəşfiyyat" birliyinin təşkili ilə bağlı rəis müavini vəzifəsi ona həvalə olundu.

O, iş yeri aramırdı, neft sənayesi üzrə boşluq hiss olunan sahəyə onu göndərirdilər. O da yüksək təşkilatçılıq bacarığını inamla nümayiş etdirir, çoxlarına örnək olurdu.

1952-1954-cü illərdə "Azdənizneft" birliyinin rəisi işlədi. 1954-cü ildə "Azneft"in rəis müavini, 1956-cı ilə kimi isə Azərbaycan Neft Sənayesi nazirinin müavini vəzifələrində uğurla çalışdı. 1959-cu ilə qədər isə Neft Sənayesi naziri olaraq böyük nüfuz qazandı.

Həmin ilin iyul ayının 9-dan Ənvər Əlixanovun daha yüksək vəzifə kürsülərinə həqiqi yolları açıldı. Onu MK-nın katibi və büro üzvü seçdilər. 1962-ci ilin fevral ayının 9-dan isə Respublika Nazirlər Sovetinə başçılıq etməsi qərara alındı. Bu vəzifədə o, 8 ilə yaxın işlədi. 1970-ci ilin aprel ayının 7-dən öz ərizəsi ilə tutduğu vəzifədən azad olundu. 1970-1976-cı illərdə Azərbaycan EA Geologiya İnstitutunun direktorunu əvəz etdi. Bir müddət isə Respublika EA Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunda dəniz geologiya laboratoriyasının rəhbəri oldu...

Adam sual qarşısında qalır. Görəsən, bu qədər yüksək vəzifələr tutmuş bir şəxsiyyətin, ictiami və dövlət xadiminin xidmətləri keçmiş Sovet imperiyasının hakimiyyət orqanlarının diqqətindən kənarda qalmayıbmı? Ona layiq olduğu qiyməti veriblərmi?

Arxiv sənədlərindən aydın olur ki, Ənvər Əlixanov neft sənayesi sahəsindəki kollektiv tədqiqatçılığına görə, 1961-ci ildə Lenin Mükafatı laureatı fəxri adına layiq görülüb. İki çağırış SSRİ Ali Sovetinə, iki çağırış isə Respublika Ali Sovetinə deputat seçilib. İki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və bir sıra medallarla təltif olunub, başqa fəxri adlar və fəxri fərmanlar da öz yerində.

Ənvər Əlixanov qayğıkeş ailə başçısı, gözəl pedaqoq, səriştəli elm xadimi kimi də yaddaşlarda yaşayır. Bu barədə qızı



Zenta xanımın "525-ci qəzet"ə verdiyi müsahibədə daha ətraflı;

**Azərbaycan Tibb Universitetinin dosenti Zenta Əlixanova xatırlayır ki:**

"– Atam 8 il bundan qabaq dünyasını dəyişsə də, elə gün olmur ki, onu xatırlamayaq. Onunla hərdən söhbət edəndə deyərdim ki, bu dünyada səndən yaxşı ata yoxdur. Cavab verərdi ki, bütün övladlar atalarını çox istəyirlər, hamısı elə bilir ki, onun atasından yaxşısı yoxdur...

...Atam heç vaxt özü haqda danışmağı xoşlamazdı. Onun yerlibazlıqla arası yox idi...

...Atam birinci dəfə Qafanı 1953-cü ilin əvvəllərində Naxçıvandan qayıdarkən görmüşdü. Geri dönəndə doğma torpağından yanıqlı-yanıqlı danışardı...

...1961-ci ildə namizədlik, 1965-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə edib. Özü də doktorluğu Moskvada müdafiə edib ki, vəzifədə olduğu üçün söz-söhbət yaranmasın...



*Neft daşlarında bir gün: Ənvər Əlixanov (ortada) Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəli müşayiyət edənlər arasında. 1967-ci il.*

...Atam mütaliəni çox sevərdi. Ömrünün son illərində şəkər xəstəliyindən əziyyət çəkdiyinə görə, gözləri yaxşı görmürdü. Xahiş edərdi ki, çıxmış əsərləri onun üçün oxuyaq. Nazirlər Sovetinin sədri işləyərkən Naxçıvanda ona gənc bir şairin

şerlərini təqdim ediblər. Atam Bakıya qayıtdıqdan sonra, o vaxtkı mədəniyyət nazirini yanına çağıraraq həmin şairin “Ana“ adlı şerinə kimin musiqi bəstələyə biləcəyini soruşub. Nazir tanınmış bəstəkar Cahangir Cahangirovu məsləhət görüb. Məhz atamın göstərişi ilə C.Cahangirov unudulmaz müğənni Rəşid Behbudov üçün “Ana“ mahnısı bəstələyir. Həmin mahnı ilk dəfə 1964-cü ilin yeni il gecəsində R.Behbudov tərəfindən efirdə səslənib...

...Atamın bizə həmişə məsləhəti bu olardı ki, çalış, sənə pislik edənə yaxşılıq et. O, insanlara həssaslıqla, xeyirxahlıqla yanaşmağımızı istəyirdi...“

Bütün bunlar göstərir ki, Ənvər Əlixanov bütün şüurlu həyatını respublikanın neft və qaz sənayesinin inkişafına sərf etmiş, yüksək vəzifələr tutaraq misilsiz xidmətlər göstərmişdir. Lakin təəssüflənirik ki, belə bir tanınmış, görkəmli şəxsiyyət haqqında ASE-də (IV cild, səh.183) kiçik bir məlumat verilmiş, hətta şəkli də dərc olunmamışdır...

Ənvər Nəzər oğlu Əlixanov 1992-ci ilin 31 iyulunda öz dünyasını dəyişib. Onu vəsiyyətinə görə, Yasamal məzarlığında – anasının yanında dəfn etmişlər...





## UMUD SÜLEYMAN OĞLU SÜLEYMANOV

İctimai və dövlət xadimi, xalq elçisi, Sosialist Əməyi Qəhrəmanı, pedaqoq. Daha çox dövlət xadimi və pedaqoq kimi tanınıb.

**1903-1981**

## YARIMÇIQ NEKROLOQ

"Bakı" qəzetinin 1981-ci il, 14 dekabr tarixli nömrəsində "U.S.Süleymanov" başlıqlı, şəkilsiz, bir nekroloq dərc olunmuşdu. Yoldaşları adından verilən bu nekroloqda yazılmışdı: "1926-cı ildən Sov.İKP üzvü, ittifaq əhəmiyyətli fərdi pensiyaçı Umud Süleyman oğlu Süleymanov 78 yaşında vəfat etmişdir..." Həmin nekroloqda Umud Süleymanovun həyat və fəaliyyətinin çox az hissəsi öz əksini tapıb. Mən onun çoxşaxəli ömür yolunu nisbətən, geniş şəkildə şərh etməyi qərara aldım...

Umud Süleymanov 1903-cü ildə Zəngəzur qəzası, Qafan bölgəsinin qədim Dovrus kəndində yoxsul bir ailədə doğulmuşdu. Erkən atasını itirdiyindən bir müddət atalığı Həsən Vəliməmmədoğlunun himayəsində böyümüşdü. 12 yaşına kimi, kəndin imkanlı adamlarının qoyun-quzu sürüsünü otarmış, Qənimət meşəsini, Kölgəli, Təpəsər, Gəzbel yaylaqlarını qarış-qarış gəzmişdi. 1915-ci ildə anasını itirdikdən sonra, arana üz tutmuş, Qubadlı bölgəsinin Xocamsaxlı və Qazıyan kəndlərində 1917-1920-ci illərdə varlılara nökərçilik etmişdi...

Şura hökumətinin yetim və yoxsul uşaqlarına qəyyumluq

edib, öz tərəfinə çəkmək siyasətinin Umud Süleymanova da köməyi olmuşdu. O, 1921-ci ildə Qubadlı bölgəsinin Xanlıq kəndində ilk dəfə məktəbə getmiş, 1922-1923-cü illərdə Şuşada birillik komsomol kursunu bitirmişdi. Bir il sonra isə Bakıda partiya məktəbində oxumuşdu. Partiya təhsili başa çatan kimi, onu komsomol işinə göndərmişlər. 1925-1929-cu illərdə Umud Süleymanov Qafan, Dilican bölgələrində və Azərbaycan LKGİ-da gənc komsomol kimi iş aparmışdı.

Lakin, görünür, daha məsul vəzifələr tutmaq üçün partiya təhsilini artırmaq lazım gəlmişdi. Odur ki, 1929-cu ildə onu Leninqrada - Kommunist Universitetində oxumağa yolladılar. 1932-ci ildə Azərbaycana dönən Umud Süleymanov Mil pambıqçılıq sovxozunda mədəni işlər müdiri, partiya təşkilatı katibinin müavini, 1934-1936-cı illərdə isə Ağcabədi bölgəsində MTS direktorunun müavini vəzifələrində fəallıq göstərdi. Bu fəallıq diqqətdən yayınmadı; onu daha yüksək vəzifələrə irəli çəkdilər. 1936-1939-cu illərdə Qaryagin (indiki Füzuli) rayon partiya komitəsinin ikinci katibi, Zuvand (indiki Lerik) və Lənkəran rayonları partiya komitələrinin birinci katibi vəzifələrini apardı. 1938-ci ildə Umud Süleymanov respublika Ali Sovetinə deputat seçildi. Həm dövlət və partiya orqanlarındakı, həm də ictimai fəaliyyəti irəli çəkilməsinə geniş imkanlar açdı. Onu Azərbaycan Yeyinti Sənaye nazirinin müavini vəzifəsinə məsləhət bildilər. 1941-ci ilin dekabr ayına kimi həmin vəzifədə çalışdı.

Ölkədə ölüm-dirim müharibəsi gedirdi. Bölgələrin çoxunda raykomun birinci katiblərini cəbhəyə göndərirdilər. Ona görə də Bakıda işləyən yüksək vəzifəli şəxslər onların yerinə təyin edilirdilər. Umud Süleymanov da onlardan biri idi. Onu yenidən Lənkəran rayon partiya komitəsinin birinci katibi seçdilər. 1946-cı ilin fevral ayına kimi, həmin vəzifədə qaldı. Aprel ayında isə Nuxa (indiki Şəki) rayon partiya komitəsinin ikinci katibi vəzifəsinə dəyişdilər. Birinci katib uzun müddət xəstə idi. Ona görə, raykomun bütün məsuliyyəti Umud Süleymanovun üzərinə düşdü. Tez bir zamanda bölgənin təsərrüfat işlərini yoluna qoydu. İkinci dəfə respublikanın Ali Sovetinin deputatı oldu. Ən ümdəsi bu idi ki, 1948-ci ildə



Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldü. Qafan bölgəsindən bu fəxri ada ilk layiq görülən Umud Süleymanov idi. O, respublika Ali Soveti Rəyasət Heyətinə üzv və Nuxa (Şəki) rayon xalq deputatları sovetinə deputat seçilmişdi.



*Umud Süleymanov (sağdan birinci) İstisu sanatoriyasında dincələrkən. Sağdan ikinci Teymur Bünyatov.1967-ci il.*

Onu Lenin, "Şərəf nişanı", "I dərəcəli Vətən Müharibəsi" ordenləri və bir sıra medallarla təltif etmişdilər. Bakı-Astara yolunun çəkilişində böyük fəallıq göstərdiyinə görə, "Əlaçı yolçəkən" fəxri adı da verilmişdi. Lakin onun ömrü boyu iftixar etdiyi bir fəxri adı da vardı: "Zəngəzur torpağının oğlu!"

1949-cu ildən Umud Süleymanovun rəsmi şəkildə vəzifə kürsüsündə oturmaq borcu ödənilmiş oldu. Onun həyat yolunun yeni bir yönümü açıldı; bu da pedaqoji fəaliyyət sahəsi idi! Uzun müddət texnikum və kurslarda siyasi iqtisad fənnindən dərs deməklə ömrünün yeni səhifələrini yazdı...

Mürəkkəb bir həyat yolu keçən Umud Süleymanov 1981-ci ilin dekabr ayında öz dünyasını dəyişdi... Ancaq ömrünün ən gözəl çağlarını Şura quruluşunun möhkəmlənməsi və kommunist ideyalarının təbliğinə həsr etmişdi...



## ƏLƏKBƏR BAĞIR OĞLU SÜLEYMANOV

İctimai və dövlət xadimi, elmlər doktoru, əməkdar elm xadimi, Dövlət mükafatları laureatı, professor, pedaqoq, xalq elçisi. Daha çox ixtisaslı neft mütəxəssisi, bu sahədə təcrübəli rəhbər işçi və dövlət xadimi kimi tanınıb.

**1916-2000**

## QATAR GÖYNƏRTİSİ

"...Tüfənglərdən səmaya qalxan tüstülər atların və piyada əsgərlərin yürüşündən əmələ gələn qanlı, tozlu, yandırılan evlərin dumanları zavallı kəndin üstündə bəla buludları kimi mücəssəm durmuşdu. Bu buludların altında birisi milli istəyinə çatmaq hərisliyi ilə gözü qızmış, digəri isə əziz canından keçmiş millətlər bir-birinə qarışıb, bahar yağmurunun yerə çırpıb, yerdən qaldırdığı, bir-birinə baş-ayaq qalxıb düşən qətrələri kimi bir-biri ilə çarpışmada idilər. Sübhdən axşama kimi, qanlı müharibə oldu. Ermeni-müsəlman bir-birinə qarışıb müharibə edirdilər..."

Böyük ədib M.S.Ordubadinin 1911-ci ildə nəşr olunmuş "Qanlı sənələr" kitabından aldığım bu parça 1905-1906-cı illərin qırğın günlərini yaşamış bir kəndin faciəsindən xəbər verir...

Bu kəndin adı Qatar idi. Oxçu çayından azca aralı torpağı sarıya çalan dağın qatında salınmışdı. Bəlkə, qədim adı da buradan irəli gəlirdi. XIX əsrin ikinci yarısından sonra, fransızlar burada mis mədənləri açmışdılar. Qafanın "Mədən"



adlanması da bununla bağlı idi. Mis mədənlərinin qaranlıq şaxtaları içərisində, dözülməz şəraitdə fəhlələr işləyirdilər, ailələrini dolandırmaq üçün dırnaqla "gor" qazırdılar. Bunlardan biri də Bağır kişi idi. Qazandığı az əmək haqqı ilə pis-yaxşı dolanırdı, ancaq qanlı qırğın törədənlər qoymadılar. 1905-ci il hadisələri bu ailənin də yurd-yuvasını alt-üst etdi. Pərən-pərən oldular. Ara sakitləşən kimi, yenidən kəndə döndülər. Cağ qalanlar mədənlərdə işə başladılar. Bağır da öz iş yerinə qayıtdı. Bir neçə il işlədi, özünə dolanışıq düzəltdi və Sara adlı bir qızla evləndi. 1913-cü ildə onların ilk oğlan övladları dünyaya gəldi. Onun adını Abbas qoydular. Daha üç il keçdi. 1916-cı ildə dekabr ayının 31-də Sara xanım bir oğul da dünyaya gətirdi. Ona isə Ələkbər adı verdilər Bu yazımda onun barəsində söhbət açacağam.

Körpə Ələkbər heç iki yaşına çatmamışdı ki, ara təzədən qızışdı. Qana susamış daşnaklar Zəngəzurun azərbaycanlılar məskunlaşan kəndlərini dağım-dağım etdilər, yandırdılar, külə döndərdilər. Bağır kişi öz ailəsini böyük çətinliklə onların əllərindən qurtardı, Sara xanımı və iki oğlunu yağıların caynağına düşməyə qoymadı...

Şura hökuməti quruldu. İndi də ermənilər qoyun cildinə girmişdilər. Daşnak kimi qan tökənlərin çoxusu daha "bolşevik" olmuşdu. Onların əhatəsində yaşamaq "cəhənnəm" əzabına dözmək demək idi. Bağır kişi artıq dözə bilmədi. Ailəsini Bakıya köçürdü. Zabrat kəndində kiçik bir koma tapıb, məskunlaşdı. Az sonra, Bülbülə kəndinə köçdülər. Oğlanları böyümüşdülər. Onları oxutmaq lazım idi. Neft mədənlərində işləmək fikri vardı. Lakin Qafan mis mədənlərinin zəhərli tozları bir çoxları kimi, onun da sağlamlığını əlindən almışdı. Ona görə, çox yaşaya bilmədi: 1924-cü ildə ömrünü ailə üzvlərinə tapşırıb, dünyasını dəyişdi...

On bir yaşlı Abbas və səkkiz yaşlı Ələkbər atadan yetim qaldılar. Sara xanım övladlarına həm analıq, həm də atalıq etməyə başladı. Ailə sıxıntılar içərisinə düşdü. Abbası uşaq evinə verdilər. Ələkbəri isə on yaşı olanda, 1926-cı ildə

Sabunçudakı 2 nömrəli məktəbə qoydular. O burda 7 il oxudu. Sonra Lassal adına Neft Texnikumuna qəbul olundu. 1937-ci ildə texnikumu uğurla bitirib, gənc neft mütəxəssisi kimi, mədənlərdə işə göndərildi. Sabunçu yaxınlığındakı 2-ci mədəndə onu neftçıxarma ustası-operator vəzifəsinə götürdülər. Bir ilə yaxın işlədi. Öz bacarığı və işgüzarlığı sayəsində tez bir zamanda mədən kollektivinin hörmətini qazandı. Onu mədən müdirinin müavini vəzifəsinə yüksəltdilər. 1938-1939-cu illərdə həmin vəzifədə çalışdı. Sonra 4-cü mədənin müdirliyi ona həvalə olundu. Artıq 1940-cı ildə Ələkbər Süleymanov 24 yaşında Korgöz Neftçıxarma Trestinə başçılıq edirdi. Ümumiyyətlə, o, 1944-cü ilə kimi müdirlik kürsüsündən düşmədi; 5-ci və 7-ci mədənlərə də rəhbərlik etmək ona tapşırılmışdı. Həmin ildən "Binəqədineft" trestinin baş mühəndisi vəzifəsini apardı.

Neftçıxarma sahəsində böyük ad qazanmışdı, təcrübəli bir neftçi kimi tanınırdı. Sovet-alman müharibəsinin ağır illərində bu vacib sahənin öncüllərindən biri oldu. "Azərbaycanın neft ustası" fəxri adını almışdı. Ancaq ali orta təhsili onu qane etmirdi. Mütləq öz sahəsinin ali təhsilli mütəxəssisi olmalı idi. Bu məqsədlə 1945-ci ildə Azərbaycan Sənaye İnstitutuna girdi. Həmin təhsil ocağını 1950-ci ildə bitirsə də, Ələkbər Süleymanovun Moskvada oxuması tövsiyə olundu. O, 1951-1953-cü illərdə akademik Qubkin adına Moskva Neft İnstitutunda təhsil aldı, eyni zamanda, Neft Sənayesi Akademiyasının dinləyicisi oldu.

1953-cü ildə ona yenidən neftçıxarma sənayesi sahəsində məsul vəzifə tapşırıldı. "Suraxanıneft" neft mədənləri idarəsinin rəisliyi Ələkbər Süleymanova etibar edildi. 1959-cu ilə qədər bu vəzifədə bacarıqlı və öz işini dərindən bilən rəhbər işçi kimi özünü göstərdi. Həmin il onu "Azneft" Birliyi rəisinin birinci müavini vəzifəsinə irəli çəkdilər. Üç il sonra, isə bu birliyin rəisi kimi yüksək vəzifə kürsüsünə qalxdı. Öz sahəsinin kamil bilicisi idi, ancaq vəzifə dalınca qaçmırdı, vəzifələr onu tapırdı. 1965-1970-ci illərdə Azərbaycan Neft Sənayesi



nazirinin müavini kimi vəzifəyə təyin olunması da onun rəhbər işçilərə məxsus keyfiyyətlərinin ildən-ilə artdığını sübut edirdi...

Bütün bunlarla yanaşı, o, elmi fəaliyyətindən də heç zaman geri qalmırdı. 1960-cı ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi, 1964-cü ildə isə texnika elmləri doktoru alimlik dərəcəsi aldı. 1965-ci ilin noyabr ayının 10-da isə ona professor elmi adı verildi.

1972-ci ildə "Xəzərneft birliyi" yaradılarkən tərəddüdsüz yeni birliyə Ələkbər Süleymanovu rəis təyin etdilər. 1976-cı ildə artıq birliyin baş direktoru vəzifəsini aparırdı. 1979-cu ildə onu daha yüksək vəzifəyə-Ümumittifaq Neftqaz Birliyi rəisliyinə məsləhət gördülər. Bu etimad neft-qaz sənayesinin ixtisaslı mütəxəssisinin şöhrətindən az söz demirdi.

O, 1980-ci ildən dünyasını dəyişənə qədər "Dənizneftlayihə" Dövlət Elmi Tədqiqat Layihə İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışdı. Görkəmli alimin elmi fəaliyyəti respublikada neft və qaz yataqlarının mənimsənilməsi ilə sıx bağlıdır. Elmi işləmələri həmin sahələrə ən çox tətbiq olunan alimlərdən biri də Ələkbər Süleymanov idi. Alim 200-dən çox elmi əsərin və 150 ixtiranın müəllifi kimi tanınırdı. Onun rəhbərliyi altında 13 elmlər namizədi, 5 elmlər doktoru dissertasiya müdafiə etmişdir. Onun elmi axtarışları həmişə respublika Elmlər Akademiyası ilə əməkdaşlıq şəraitində keçmişdir. Bunun nəticəsində neft və qaz sənayesində böyük əhəmiyyəti olan bir sıra probolemlər yüksək elmi və texnoloji həllini tapmışdır...

Belə ki, 1945-1950-ci illərdə bir qrup elmi işçi ilə birlikdə ştanqlı nasos istismarı sahəsində texnikanın və texnologiyanın köklü şəkildə yeniləşdirilməsi yönümündə gərgin iş aparmışdır. Alınan nəticələrin səmərəliliyinə görə, həmin elmi işçilərlə birlikdə o, 1950-ci ildə Stalin Mükafatı Laureatı adına layiq görülmüşdür.

Buna baxmayaraq, elmi axtarışlarını müntəzəm davam etdirirdi. Bir qrup ixtisaslı mütəxəssislə birgə çoxsaylı

yataqlarda çoxsıralı quyuların istismarı probleminin əsaslarını işləyib, uğurla başa çatdırdığına görə, Ələkbər Süleymanov 1952-ci ildə ikinci dəfə Stalin Mükafatı Laureatı adını aldı.

1954-cü ildə isə o, neftçıxarma texnologiyasının kompleks avtomatlaşdırılması məsələlərini elmi əsaslarla işləyib hazırladı və ayrıca kitabı nəşr olundu.

Xəzər dənizində neft yataqlarının kəşfi və istismarı, bu sahənin texnologiyasının hazırlanması problemlərinin həllində də onun xidmətləri əvəzsizdir. Hələ 1976-cı ildən Ələkbər Süleymanovun yaxından iştirakı və rəhbərliyi ilə "Günəşli" yatağında 1 saylı platforma qurulub, istifadəyə verilmişdi.



*Ələkbər Süleymanov (sağdan 3-cü) tanınmış neftçilər arasında. Neft daşları. 1970-ci illər.*

"Günəşli" yatağının məqsədyönlü və texnoloji əsaslarla istismarı nəticəsində dənizdən neft hasilatının səviyyəsi xeyli dərəcədə artmışdı. 1990-cı ildə bu uğurlu işinə görə, o, bir qrup mütəxəssislə birgə Azərbaycan Respublikasının Dövlət Mükafatını aldı. Ona "Əməkdar mühəndis" və "Əməkdar elm xadimi" fəxri adları da verilmişdi.

Ələkbər Süleymanov uzun müddət Respublika Elmlər



Akademiyası Neft-Kimya Prosesləri İnstitutu, Akademiya. Xüsusi Konstruktor Texnoloji Reaqentlər bürosu ilə sı əməkdaşlıq etmişdir. O, Azərbaycan Ali Attestasiya Komissiyasının üzvü idi və bu sahədə də öz əməyini əsirgəmirdi.

Onun əməyi yüksək qiymətləndirilmiş, bir sıra orden və medallarla təltif olunmuş, fəxri fərmanlar almışdır. O, bacarıqlı dövlət xadimi olduğu kimi, səriştəli ictimaiyyətçi təki də böyük hörmət qazanmışdı. SSRİ Ali Sovetinə və Respublika Ali Sovetinə deputat seçilmişdi.

Ələkbər Süleymanovun mənalı həyat yolu gələcək nəsillərə canlı nümunədir, neft sənayesi sahəsində çalışanlar onun iş üsullarından, öncül təcrübəsindən daim bəhrələnəcəklər. Təki xalqımız bir də Qatar göynərtisini çəkməsin!..

**SÖZ ARDI.** Bu yazının ilk variantı bir il əvvəldən hazırlanmışdı. Özü ilə görüşəcəkdim. Bir sıra əlavələr etməliydim. Ağır xəbər eşitdim: Ələkbər Süleymanov 2000-ci il iyul ayının 27-də qəflətən vəfat etmişdi. Hayıf ki, o, dünyasını dəyişəndən sonra, yazıya əlavələr olundu...

İndi onun işini oğlanları Bağır, Arif, qardaşı Abbasın övladları İsgəndər, Sevda və Sara Süleymanovlar davam etdirirlər. Arif Süleymanov elmlər namizədidir, doktorluq dissertasiyasını başa çatdırmışdır. Atasının təhsil aldığı və uzun illər pedaqoji fəaliyyət göstərdiyi Azərbaycan Neft Akademiyasında dərs deyir. İsgəndər Süleymanov "Suraxanıneft"də mədən müdiridir. Onun bacıları Sevda və Sara Süleymanovlar hər ikisi əmilərinin son iş yerində - Layihə İnstitutunda baş elmi işçidirlər. Sara xanım nənəsinin adını daşıyır. Onun Süleymanovlar soykökü barədə söhbətini yazıya əlavə edirəm:

"– Atam Abbas Bağır oğlu Süleymanov da əmim Ələkbər kimi neftçi idi. Uşaq evində yeddilliyi bitirmişdi. Sonra dənizçilik məktəbində oxusa da, neft sənayesində işləməyi üstün tutmuşdu. Azərbaycan Sənaye İnstitutunda ali təhsil aldıqdan sonra, bir sıra vəzifələrdə çalışmış, mədən müdirliyinə kimi yüksəlmişdi. İndi qardaşım İsgəndər onun yolunu inamla davam etdirir. O biri qardaşım Əlipənah təyyarəçilik üzrə mütə-

xəssisdir. Bacılarım Elmira və Mehriban musiqi müəllimidirlər. Atam Lenin və Qırmızı Əmək Bayrağı ordenləri, bir sıra medallarla təltif olunmuşdu. 1968-ci il noyabr ayının 21-də vəfat etdi. Onun ölümü Ələkbər əmimi sarsıtdı, bir müddət özünə gələ bölmədi. Axı böyük qardaş kimi onu ata əvəzi hesab edirdi. Əmim çox böyük vəzifələr tutmasına baxmayaraq, həmişə atamla məsləhətləşər, ona ehtiram bəslərdi. Atamın ölümündən sonra, biz onun yoxluğunu hiss etmədik. Əmim buna heç zaman yol verməzdi. 30 ilə yaxın o bizə atalıq qayğısı göstəribdir. Biz də onun yoxluğuna inanmırıq, çünki əmim öz varlığı ilə çoxdan ürəkləri fəth etmişdir..."

Bakıda məşhur neftçi şöhrətini daşıyan ailə çoxdur. Bu şöhrət Süleymanovlara da nəsib olmuşdur.





## MƏNZİLƏ ƏLİ QIZI RZAYEVA

1920-1971

İctimai və dövlət xadimi, mühəndis-texnoloq, pedaqoq. Daha çox istehsalat rəhbəri və pedaqoq kimi tanınıb.

## MƏZARLIQDA SON GÖRÜŞ

1937-ci ilin yayı idi. Şəhərcik kəndinin yaxınlığındakı məzarlıqda bir qız dolaşırdı. Ora-bura boylanmağından hiss olunurdu ki, bu yerlərə bələd deyil. Dağdağan pirinin yanında sıra-sıra düzülmüş köhnə məzarlardan birinin başdaşı önündə dayandı. On yeddi yaşında qız dörd yaşından itirdiyi atısını axtarırdı...

Atası Bakının Ramana neft mədənlərində fəhlə işləyirdi. 1924-cü ildə doğma kəndi Yuxarı Girətağa gələndə yolda xəstələnmişdi. Şəhərciyə qohumunun yanına dönməli olmuşdu. Xəstəliyin şiddətinə davam gətirməmiş, burada vəfat etmişdi. Onu doğma kəndinə aparmaq çətin olduğundan Dağdağan pirinin yanında torpağa tapşırmışdılar. Bunları ona anası Saçlı danışmışdı. Ona görə də atasının məzarını tez tapmışdı.

Ata məzarının başında durmuşdu. Göz yaşları yanağından diyirlənib torpağa düşürdü...

– Başını qaldır, ata! Sənin son anda üzünü görə bilmədiyin qız balan böyüyüb, görüşünə gəlib! Başını qaldır. Görüşünə gəlmişəm!..

Məzar isə lal idi, səs-səmir gəlmirdi...

Atasının ölümündən on üç il keçirdi. Əmisi Əlipənah Rzayev onu Bakıya aparmış, qəyyumluq edərək oxutmuşdu. 1926-cı ildə Bakının 43-saylı məktəbinə girmiş, 1933-cü ildə 7-ci sinfi bitirmişdi. 3 il Bakı Pedaqoji Texnikumunda oxumuşdu. Texnikumu qurtarıb müəllim ixtisası alan ili xəstələnmiş, həkimlərin məsləhəti ilə doğma kəndi Yuxarı Girətağa qayıtmışdı. Bir il idi ki, kənd məktəbində dərs deyirdi.

Bakıya – müəllimləri təkmilləşdirmə kursuna getməli idi. Atasının məzarına baş çəkməmiş yola düşmədi...

– Bıy, ay bala, Əlinin qızısan?

O geri dönəndə Xanqulu kişinin qızı Xoşqədəm xalanı gördü:

– Hə, Xoşqədəm xala, mənəm, Əlinin qızı, Mənziləyəm!

– Ay bala, mən səni görəndə çox balaca idin, indi çox şükür, böyümüsən! Atanın qəbrinə baş çəkməyə gəlmisən, düz eləmisən! Yazıq Əli xəstələnib bizə dönmüşdü. Axı Namazalı ilə qohumdurlar. Elə bizdə də rəhmətə getdi. Məsləhət bildilər ki, burada - pirin yanında torpağa tapşırsınlar. Alnının yazısı belə imiş! Qəbrini düz tapmısan, qızım, ağ günlü olasan!

Mənzilə o gecəsi Şəhərcikdə qaldı. Səhəri kəndə qayıdan kimi, el qaydası ilə, atasına ehsan verdi. Ürəyində gəzdirdiyi ata nisgilindən azca yüngülləşdi. Bir gün sonra Bakıya yola düşəcəkdi... Onu hələ qabaqda böyük-böyük işlər gözləyirdi... Məzarlıqdakı görüş isə atası ilə son görüş oldu.

Müəllimləri təkmilləşdirmə kursunu keçəndən sonra, ona meşə komissarlığının fabrik-zavod məktəbində dərs deməyə icazə verdilər. Az keçməmiş, o, ət-süd sənayesi komissarlığının süd sənayesi idarəsinə rəis təyin olundu. Böyük təşkilatçılıq bacarığı vardı; az sonra onu Mərkəzi Kəndlilər evinin direktoru vəzifəsinə göndərdilər. İki ilə yaxın həmin vəzifədə çalışdı, özünün rəhbər işçilərə məxsus keyfiyyətləri ilə çoxlarından seçildi. 1941-ci ildə daha məsul bir vəzifəyə – Bakı Baş Şəkər Birliyinə müdir təyin etdilər. Müharibə gedirdi, Ukrayna torpaqları düşmən əlinə keçmişdi, qənd zavodları da dayandırılmışdı. Qənd istehsalı sarıdan ağırlığın çox hissəsi Bakı Baş Şəkər Birliyinin öhdəsinə düşürdü. Mənzilə Rzayeva 1947-ci ilə qədər bu vəzifədə çalışdı. Bir yandan dava illərinin



ağırlığı, o biri yandan sosializm quruluşunun tuthatut, kəshakəs çağlarında uzun müddət bir vəzifədə qalmaq onun təşkilatçılıq məharətindən az söz demirdi. Bakı Baş Şəkər Birliyi ləğv edildikdən sonra, onu konditer fabrikinin direktoru kimi saxladılar. Bir il də bu vəzifədə işlədi. O, sanki rəhbər vəzifələri tutmaq üçün doğulmuşdu; 1948-ci ildə Mənzilə Rzayevanı başqa bir sahəyə - Yüngül Sənaye Nazirliyinin toxucu-tikiş modalar artelinə direktor vəzifəsinə dəyişdilər. 1949-1954-cü illərdə isə Əli Bayramlı adına tikiş fabrikinin direktoru kimi fəaliyyət göstərdi. 1954-cü ilin sentyabr ayının 28-də onun vəzifəsini daha da böyütdülər; Bakının ən iri sənaye müəssisələrindən biri olan Volodarski adına tikiş fabrikinə



*Ömrün son günləri; Mənzilə Rzayeva (ortada) qohumları arasında. 1971-ci il.*

direktor təyin edildi. O, ömrünün sonuna kimi bu vəzifədə çalışdı... Əlbəttə, bu onun üçün böyük etimad idi. Bu etimadı axıra qədər şərəflə doğrultdu. Böyük bir qadın kollektivində dərin hörmət qazanmışdı. Millətindən asılı olmayaraq, hər bir tikişçi başına and içirdi. Uzun illər onunla bir yerdə çalışmış adamlardan kimi dindirsən, Mənzilə Rzayeva haqqında xoş sözlər eşidərsən!

O, məsul vəzifələrin öhdəsindən bacarıqla gəlsə də, hiss edirdi ki, öz sahəsi üzrə ali təhsilə malik olmalıdır. 1950-ci ildə Moskvada tikiş sənayesi işçiləri rəhbərlərinin təkmilləşdirmə kursunu bitirmişdi. Ancaq bununla kifayətlənmək olmazdı.

1954-cü ildə Moskvada Ümumittifaq Toxuculuq və Yüngül Sənaye İnstitutunun qiyabi şöbəsinə daxil oldu. Həmin ali məktəbi 1965-ci ildə bitirib, mühəndis-texnoloq ixtisasına yiyələndi.

Orta məktəbdə oxuduğu illərdən ictimai işlərdə böyük fəallıq göstərirdi. Bakı şəhəri rayonlarından birinə və Bakı Sovetinə deputat seçilmişdi. Bakı və Nəsimi rayon Partiya Komitələrinin üzvü idi.

Xalq qarşısında xidmətləri nəzərə alınıb, Lenin ordeni, medallar və Fəxri Fərmanlarla təltif edilmişdi. 1966-cı ildə ona birinci dərəcəli yüngül sənaye işçisi fəxri adı da verilmişdi.

1971-ci ilin mart ayının 17-si idi. Volodarski adına fabrikdən keçmiş Sovet küçəsinə doğru böyük bir izdiham axırdı. Tikişçilər öz sevimli direktorlarını son mənzilə yola salırdılar. Onu ikinci Fəxri Xiyabanda dəfn etdilər...

1920-ci ilin dekabr ayının 20-də Qafan bölgəsinin Yuxarı Girətağ kəndində dünyaya göz açan Mənzilə Rzayeva zəhmətlə yaşadı, xalqa xidmət pilləsində dünyadan köçdü. Xatirəsi min-min insanın ürəyində həmişəlik ünvan tapıb.





## ƏLİPƏNAH AĞAYAR OĞLU RZAYEV

İctimai və dövlət xadimi, iqtisadçı-mühəndis. Daha çox dövlət xadimi və istehsalat rəhbəri kimi tanınıb.

**1897-1977**

## ÖMRÜN OXŞAR ÇAĞLARI

1971-ci ilin mart ayının 17-də keçmiş Volodarski adına tikiş fabrikinin klubunun geniş zalına bir tabut qoyulmuşdu. Tikişçilər ömrünün 17 ilini bu böyük müəssisənin fəaliyyətinə həsr etmiş Mənzilə Rzayeva ilə son dəfə vidalaşırdılar. Fəxri qaraulda dayananlar bir-birini əvəz edirdilər. Onların arasında saçları illərin keşməkeşli çağlarında ağarmış, ortaboylu bir kişi də vardı. O, göz yaşlarını güclə saxlayırdı. Hiss olunurdu ki, bu ağır itki onu dərindən sarsıtmış, ömrünün ağrılı çağlarının üstünə ağrılar gətirmişdi. Həmin ağsaçlı kişi mərhumun əmisi Əlipənah Ağayar oğlu Rzayev idi. Onun dörd oğlu vardı. Qız övladı olmamışdı. Atadan yetim qalmış, qardaşı Əlinin qızı Mənziləni körpə yaşlarından Bakıya gətirmiş, anası Gülsənəm arvad və ömür-gün yoldaşı Rəfiqə xanımla birgə onu qız övladları kimi böyütmüşdülər. Mənzilənin təhsil alması, həyatın enişli-yoxuşlu dolaylarında pillə-pillə yüksəlməsində Əlipənah Rzayevin çox böyük əməyi olmuşdu. Əslində, indi o, qız övladını itirirdi. Vaxtsız ölümündən bir ata kimi ürək ağrısı keçirir, təlaş içərisində qovrulurdu... Hər ikisinin həyat yolunda

və ömür çağlarında oxşar cəhətlər çox idi... Bu oxşar cağlar onları ata-övlad kimi, illər boyu bir-birinə bağlamışdı...

Əlipənah Rzayev 1897-ci ildə Zəngəzur mahalı, Qafan bölgəsindəki Yuxarı Girətağ kəndində anadan olmuşdur. Erkən atasını itirmiş, gənc yaşlarından Bakıya gəlmiş və bir neçə il burada fəhləlik etmişdir. Sovet hakimiyyəti illərində həm təhsil almış, həm də müxtəlif məsul vəzifələrdə çalışmışdır.

Onun "Əmək kitabçası" qarşımdadır. Orada 1938-ci ilə aid ilk qeydi bura köçürürəm:" Qırmızı Oktyabr" Bakı Mebel Fabrikinə işə girənə qədər ümumi iş stajı 17 il təşkil edir..."

Əlbəttə, Əlipənah Rzayev həmin fabrikin direktoru vəzifəsinə təyin olunana kimi (1938, 25 mart), müəyyən əmək yolu keçmişdi. Bu barədə isə onun 1974-cü ilin 14 martında yazdığı bir ərizədə cavablar tapırıq: "... 1920-ci ilin may ayının 5-də könüllü Qızıl Ordu sıralarına qəbul olunmuş, rabitə alayında qulluq etmişəm. Həmin il sentyabr ayının 15-də Azərbaycan Ordusu Siyasi İdarəsinin sərəncamı ilə mən Respublikanın ticarət mühafizə gəmilərinin hərbi komissarı təyin olundum. 1921-ci ildə isə N.Nərimanov adına 48 saylı zirehli qatarın hərbi komissarı vəzifəsini apardım. Ordudan tərxis olunduqdan sonra, müxtəlif sahələrdə təsərrüfat işlərində çalışdım. 1928-ci ildə isə istehsalatdan ayrılmadan Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna daxil oldum. 1933-cü ildə oranın iqtisadçı-mühəndis şöbəsində nəzəri məşğələləri bitirdim. İxtisasım üzrə işə təmin olunmağım üçün məni "Azneft" Birliyinin sərəncamına göndərdilər. Həmin birliyin təşkilati şöbəsinin iqtisadçı-mühəndis vəzifəsinə qəbul olundum.

1933-cü ilin fevralında Respublikanın Ağır Sənaye komissarı S.Qocayevin zəmanəti ilə məni Ağır Sənaye İdarəsinə dəyişdilər. Orada plan-iqtisad şöbəsinin rəisi vəzifəsini tutdum və bir neçə ay çalışdım. Sonra Azərbaycan KP Mərkəzi Komitəsi Bürosunun qərarı ilə MK-nın sənaye-maliyyə bölməsinin instruktoru işlədim...

1936-cı ildə Bakı şəhər Molotov rayon Partiya Komitəsinin katibi vəzifəsini apardım. 1937-1938-ci illərdə isə partiya katibi



işləmişəm...

İnstitutu bitirən ili diplom işini müdafiə edə bilmədim. Çünki partiya işində çalışanlara icazə verilmirdi. Səbəb də bu idi ki, diplom işi könüllü surətdə müdafiə edilir, imkanı olmayanlar üçün məcburi deyil..."

Bu qeydlərdən sonra, yenidən "Əmək kitabça"sına müraciət edirəm. Burada Əlipənah Rzayevin fəaliyyəti bütün dəqiqliyi ilə göstərilib. Bunlar onun haqqında yazının əsasını təşkil etdi...

O, iki il mebel fabrikinin direktoru işlədi. 1940-cı ilin fevral ayında onu Meşə Komissarlığının sərəncamı ilə Meşə Sənayesi İdarəsinin rəisi təyin etdilər. Lakin bu vəzifədə heç ikicə ay işləməmişdi ki, repressiyanın qara yelləri Əlipənah Rzayevi də axtarıb tapdı. Onu heç bir əsas olmadan aprel ayında işdən azad etdilər. İyun ayına kimi, sorğu-suala tutuldu. Heç bir işdə günahlandıra bilmədilər. Odur ki, həmin ayın 14-də Respublika Xalq Komissarları Soveti yanında Tədris-kurs kombinatına direktor təyin olundu. 1941-ci ilin avqust ayında ona yeni bir vəzifə tapşırıldı; bir aya yaxın mədən nəzarəti üzrə mühəndis işlədi. Sentyabr ayının 11-dən həmin idarənin metal kombinatının direktoru vəzifəsini tutdu.

Artıq Respublikada xüsusi təşkilatçılıq bacarığına malik olan rəhbər işçi kimi tanınırdı. 1941-ci ilin dekabr ayında onun iş yerini yeni bir sahəyə Respublika Dövlət Tikinti Trestinə dəyişdilər. Əlipənah Rzayevə həmin trestin müdirinin müavini vəzifəsi həvalə olundu. İki il bu vəzifəni apardı. Ölkədə qanlı savaş gedirdi. Bütün sənaye müəssisələri müharibə üçün işləyirdi. Belə bir zamanda tikinti işlərini sürətlə aparmaq o qədər də asan məsələ deyildi. Başqa sahələrdə də vəziyyət belə idi. Mütəxəssislər öz iş yerlərini tərk edib, cəbhəyə yollanırdılar. Əlipənah Rzayevin iş yerini tez-tez dəyişməsi bununla bağlı idi. Tikinti trestində yenicə mövqeyini möhkəmləndirməkdə ikən onu yeni bir vəzifəyə göndərdilər. Müharibə ilə bağlı "Baş Əlvan Metal Təchizatı"nın Bakı kontoru yaradılmışdı. Əlipənah Rzayevi həmin kontorun müdiri vəzifəsinə yüksəltdilər. Bu olduqca məsul bir vəzifə kürsüsü idi. Cəbhə üçün neft məhsulları qədər

əlvan metallar da təchiz etmək çox vacibdi. Kontorun bir vəzifəsi də ondan ibarətdi ki, müharibəyə kömək göstərən xarici ölkələrlə sıx əlaqə yaratmalıydı. Bütün bunlar göstərir ki, Əlipənah Rzayevi nə qədər məsuliyyətli bir vəzifəyə təyin etmişdilər. O bu vəzifədə düz beş il çalışdı. Bu illər onun fəaliyyət salnaməsinə ən uğurlu çağlar kimi daxil oldu.

O, dövlət xadimi idi, ictimai vəzifəsini hər yerdə layiqincə yerinə yetirirdi. Ancaq qapısı hamının üzünə açıq olardı. Bir iş üçün Bakıya üz tutan qohumları, dostları və tanışları həmişə onun təmənnasız köməyinə umud bağlayardılar. Heç kimdən bacardığını əsirgəməzdi...



*Əlipənah Rzayev (ortada) Ə.Əsədov və T.Bünyatova ilə.*

1948-ci ilin oktyabr ayının 16-da Əlipənah Rzayev tutduğu vəzifədən azad olundu. Bu, "Baş Əlvan Metal Təchizatı"nın Bakı kontorunun ləğvi ilə bağlı idi. Dörd gün sonra, oktyabrın 20-də "Baş Tikinti Təchizatı İdarəsi"nin Bakı agentliyinin müdiri vəzifəsi ona tapşırıldı. Bir il keçməmiş, agentlik ləğv olundu. Onu Bakı Su Kəmərləri Tikintisi Trestinin müdirinin müavini vəzifəsinə təyin etdilər. 1964-cü ilin dekabr ayına kimi, bu sahədə öz bacarığını göstərdi. Həmin ayın 16-dan Əlipənah Rzayev 8 saylı Tikinti Quraşdırma İdarəsinin rəis köməkçisi vəzifəsinə göndərildi. O, 1960-cı ilin avqust ayına kimi, burada



çalışdı. Ölkədə Ali Xalq Təsərrüfatı Şuralarının yaradılması ilə əlaqədar olaraq həmin təşkilat şuranın 26 saylı tikinti idarəsinə çevrildi. Onu öz vəzifəsində saxladılar.

1960-cı ilin noyabr ayının 3-dən bir təcrübəli inşaatçı kimi Əlipənah Rzayevi 2 saylı Dəmir-beton hissələri zavodunun direktorunun müavini təyin etdilər. 1968-ci ilin mart ayından zavod 5 saylı trestin Evtikmə Kombinatı adlanmağa başladı. O, kombinat rəisinin müavini vəzifəsini apardı...

Əlipənah Rzayev təqaüdə çıxmışdı, fərdi təqaüdçü idi. Lakin işdən, istehsalat rəhbərliyindən ayrılmırdı. 1969-cu ilin may ayından Kombinat 3 saylı Evtikmə Kombinatı, 1971-ci ilin noyabr ayından 2 saylı Dəmir-beton Hissələri Zavodu adlandırıldı. Zavod 1973-cü ilin noyabr ayından isə Bakı Baş Tikinti İdarəsinin tabeçiliyinə keçirildi. Bütün bunlar yalnız ad dəyişmələri idi. İstehsalatın ahəngini dəyişməyə qoymayanlar isə təcrübəli və bacarıqlı işçilərdi. Onların qadir əlləri ilə Bakı şəhərinin yeni-yeni binalar hesabına hüdudları getdikcə genişlənirdi. Bu qadir inşaatçılar sırasında Əlipənah Rzayevin də adı hörmətlə, səmimiyyətlə çəkilirdi. 1977-ci ildə zavodun kollektivi onun 80 illik yubileyini təntənəli surətdə qeyd etdi. Müdiriyyət xüsusi təbrik hazırlamış və oraya kollektiv üzvlərinin ürək sözlərini qeyd etmişdi. Deməyəsən, bu kollektivin üzvləri ilə onun son görüşü imiş. Həmin ilin may ayında Əlipənah Rzayev dünyasını dəyişdi. Ondan bu yazıda öz əksini tapan və tapmayan xatirələr qaldı. Bu xatirələr yaşayır və yaşayacaq...



1926-2000

## BİLAL MUSA OĞLU KƏRİMOV

İctimai və dövlət xadimi, xalq elçisi, dağ-mədən mühəndisi, elmlər namizədi, pedaqoq. Daha çox ictimai və dövlət xadimi, istehsalat rəhbəri kimi tanınıb.

## AXAR SU DURULUĞU

İtiqələmli jurnalist, istiürəkli insan İsrafil Məmmədovla bir institutda işləyirdim. Tanışlığımızın tarixi uzun olsa da, dostluğumuz bir neçə ildir, boy atmağa başlayıb. Hər dəfə görüşəndə özümə zarafatla dediyim "dahi şair" ifadəsini işlədər və gülərüzlə salamlaşar. Bir gün yenə, adəti üzrə görüşdükdən sonra, gülə-gülə dedi:

– Dahi şair! Dünən sənin bir qohumunla, yaxşı bir kişi, gözəl insanla tanış olmuşam!

Mən böyük maraqla:

– Kimdir o yaxşı kişi, gözəl insan?!

– Bilal Kərimov! Adını eşitmişdim, özü ilə dünən görüşdüm...

Elə bil, fürsət gözləyirdim:

– Onda, tərtib etdiyim kitab üçün Bilal Kərimov barədə Siz yazacaqsınız! O bizim mənəvi dünyamızın ağsaçlı zirvəsidir!

– Yazaram! Elə adamlardan yazmaq ürəyimcədir!..

Əmin idim ki, İsrafil müəllim sözündə möhkəm adamdır. Doğrudan da, bir müddət sonra, yazını mənə təqdim etdi. Mən də, öz növbəmdə, olduğu kimi kitaba saldım:



"– Deyirəm, allah versin kənd yerinə. Ahıllı-cahıllı hamı bir-birini əməlli-başlı tanıyır. Di, gəl şəhərə, tanı görüm, kimi tanıyacaqsan, necə tanıyacaqsan?! Ürəyə yatanı var, beyinə yatmayanı var! Kimin kimdən xəbəri?! Elə bil, ulduz olub səpələniblər səmaya. Ürəyinə yatanı tap görüm haradan, haçan tapacaqsan. Ayır görüm, yaxşını pisdən necə ayıracaqsan?! Neçə il eyni şəhərdə yaşamışıq. Neçə vaxt qonşu olub məhəllədə. Amma alicənab, nəcib bir insanı tanımamışam. Hardan-hara, Əli Bayramlıdan Bakıyadək gələni-gedəni, həyat təcrübəsinə, dünyagörüşünə, paklığı-saflığına baş əyəni olub, indi də var, saysız-hesabsız. Xoş bir təsadüf olmasaydı, yenə də tanımayacaqdım əziz, işıqlı o insanı, Bilal Musa oğlu Kərimovu. Köhnə dostu itirmək dəhşət, yeni dost tapmaq ziynətdir!

Nurlu ocağına ilk gəlişim idi. Səhər yenicə açılırdı. Süfrə nizamına söz ola bilməzdi. Adi nizam deyildi bu. Kübar bir ailənin nəzakəti, mərifəti və ülfətindən düzəldilmiş yaşam fəlsəfəsinin bütün çalarlarını apaydın göstərən qeyri-adi bir güzgü idi. Köhnə tanışlar ötən günləri, suları hərəkətli, torpağı bərəkətli Zəngəzuru xatırlayır, mehriban-mehriban söhbət edirdilər. Qürbətə düşmüş qərib səyyah kimi mən də sakitcə oturub, o qeyri-adi güzgüyə tamaşa edə-edə sərvət sahiblərində gördüyüm süfrə nizamı ilə bu ailədəki mərifət və səxavət süfrəsinin nizamı arasındakı fərqləri öz-özümə araşdırdım...

Qəriblikdə çox qalmayım deyə dostum Sabir Əsədov məni Bilal kişiyə təqdim eləməyə başladı. Amma lap uzaqlardan yapışdı:

– Otuz beş ildir, biz dostuq, - dedi.

Dözmədim, qolundan dartdım:

– Saxla, - dedim. - Otuz beş deyil, qırx beş ildir. Göz görə-görə on ilimizi kimə bağışlayırsan?! Yadındamı, Gürcüstana getmişdik. Qaraçöpdə dilli-dilavər bir oğlan badə qaldırdı, doxsan doqquz il ömür dilədi sənə. Yazığı peşiman elədin. - Bura bax, a bala, - dedin, - Əzrayılsan, Cəbrayılsan sən?! Bir ilimi nə deyib, əlimdən alırsan?! Mənəm, yüz yaşamaq istəyirəm. Qaytar, qaytar mənim bir ilimi! Hə, nisyə bir il üstə aləmi qatdın bir-birinə. İndi isə on ilimizi bir dilimə yerə

vurmaq istəyirsən? Qaytar, qaytar on ilimizi, əzizim...

Bilal kişi ucadan, həm də ürəkdən güldü. Gülüşü, gümüşü saçları nurlu simasına qəribə bir yaraşıq verirdi. Dağ irmaqlarından başaşağı qıjıltı ilə axan suların şaqraq şırıltısına, çalxalandıqca durulan bulaqların zümzüməsinə oxşayırdı onun gülüşü. Susmuşdum, bu zümzüməni dinləyir, daha heç nə deyə bilmirdim. Bir anlığa o da dinmədi, zənnində nəsə götür-qoy eləyəndən sonra üzünü Sabirə tutdu:

- Bayaqdan qulaq asıram, oxşayır, radioda tez-tez çıxış edən İsrafil Məmmədov var e, lap onun səsinə oxşayır. O günü yenə coşmuşdu, deyirdi ki, səma qan dənizinə dönəndə, dövran anasız, amansız qalanda:

*Nə mərhəmət umdum yad səmalardan,*<br>
*Nə yad qanadının altına girdim.*<br>
*Xalqım qara günə düşdüyü zaman,*<br>
*Orda xalq çəkəni mən də çəkirdim...*

– Görüşmək, əlini sıxmaq istərdim, ürəkdən "sağol" demək istərdim. Çox təəssüf ki, tanımıram...

- Görmək, tanış olmaq istəyirsən? - deyə Sabir onun sözünü kəsdi:

- Bəli, ürəkdən istərdim.

- Onda, buyur, tanış ol, elə sən dediyin İsrafildir, Öz ayağı ilə hüzuruna gəlib...

Bundan sonra yazdıqlarım onun öz dilindən eşitdiklərimdir:

Diz çökmək, baş əymək bilməyən ulu dağın vüqarlı, qarlı zirvəsindən bayaqdan bəri xumar-xumar boylanan bədirlənmiş Ay dincini almaq üçün başını bulud yastığa qoydu. Dərə-təpələrə səxavət səpələnmiş dupduru narın və sərin işıq saçları birdən göyə çəkildi, qeyb oldu, gözdən itdi. Qaranlıqdan gileyli Musa kişi oğlu Bilalın qolundan tutub ehmalca:

- Təntimə, tələsmə, oğlum, - dedi. - Tanrıya min şükür ki, bu qaranlığı qovan-boğan Günəş var, Ay var! Yoxsa dünya məhv olar. Ay dincəlir, gəl otur, biz də bir az dincimizi alaq.

Ata və oğul hələ əsrin əvvəllərində fransızların tikdiyi elektrik stansiyasında işləyirdilər. Stansiya kənddən xeyli aralı



idi. Növbəni başa vurub, kəndə qayıdırdılar. Çəkilib yolun qırağında mamır bağlamış yastı daşın üstündə əyləşdilər. Yanyanaşı döyünürdü iki doğma ürək, hər birində ayrı istək, isti dilək. "Min adaxlının gəlini olmuş bu qoca dünya"nı seyrə dalan Musa kişi, elə bil, haçandan bəri əlinə düşməyən, səbrsizliklə gözlədiyi əlverişli fürsəti indicə, mamır bağlamış bu yastı daşın üstündə, bu qəfildən çökmüş qaranlıqda tapmışdı. Asta-asta, fikirləşə- fikirləşə danışır, ürəyindəkilərin hamısını dilə gətirmək, dünyanın büründüyü rəngləri, duruluğa və paklığa aparan yolları oğluna göstərməyə, yaxşını-pisi öz əqli ilə seçə bilməyin sirrini ona öyrətməyə, dövranın yazdığı əmri sətir-sətir, həm də çox ucadan oxumağa can atırdı:

- İndi gedib-gəldiyimiz bu yol, bu cığır ki var e, oğul, heç vaxt boş qalan deyil. Mənnən sonra öz oğlunla sən gəlib-gedəcəksən, sənnən sonra gərək öz oğlu ilə oğlun keçsin bu yoldan. Gözdə-qulaqda olun, bala, ot basmasın, yad tapdağında qalmasın, sizləri dartıb qaranlıqlara aparmasın bu yollar, bu cığırlar. Zəngəzurun dağları ilə danışmağı öyrənin, bu dağların səsini dinləməyi öyrənin, bu dağlara bənzəyin. Duruşuna-yerişinə fikir verin. Elə bil, haçansa qatarlanıb, karvanlanıb yola düşmək, haralarasa getmək istəyirmişlər. Dönüb geri boylananda torpaqdakı həsrəti, xiffəti görüb, elə olduqları yerdə qatar-qatar, karvan-karvan bitib qalıb, bu torpağın keşiyini çəkməyə başlayıblar...

Ata əhdinə vəfalı oğul elektrik stansiyasında maşinist işləyə-işləyə Qafan rayonunun Şəhərcik kəndində oxudu, oxuduğu məktəbdə dərs dedi, dağların dilini bilmək, dünyanı boyayan rənglərin sirrini öyrənmək, paklıq və saflığa aparan yolların səmtini düzgün müəyyən etmək üçün qərib düşmüş səyyah kimi Bakıya gəldi. 1946-cı ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil oldu. 1949-1951-ci illərdə həmin institutun komsomol komitəsinin birinci katibi kimi nüfuzlu ictimai vəzifəni şərəflə yerinə yetirdi. Dağ-mədən geoloqu ixtisası ona təkcə yerin üstü deyil, altını da öyrənməyə imkan verdi. 1952-ci ilin yanvar-sentyabr aylarında neft mədənlərində böyük geoloq, 1952-1958-ci illərdə Artyomneftin 5-ci mədənində yenə də böyük geoloq vəzifəsində əzmlə, müs-

təsna bacarıqla işlədi. Çox keçmədən "Artyomneft"in baş geoloqu oldu. İşləyə-işləyə Sənaye İnstitutunun aspiranturasında təhsilini davam etdirərək müvəffəqiyyətlə dissertasiya müdafiə edib, alimlik dərəcəsi aldı və vaxtilə oxuduğu institutda dərs deməyə başladı.

Əmək və elmi fəaliyyətindəki gözəçarpan, diqqəti cəlb edən uğurlarını nəzərə alaraq onu 1961-ci ilin oktyabr ayında Azərbaycan KP MK-nın ağır sənaye şöbəsinin müdirinin müavini təyin etdilər. İki il bu məsul vəzifədə yorulmaq bilmədən işlədikdən sonra, Əli Bayramlı şəhər partiya komitəsinin birinci katibi seçildi. İctimai-siyasi fəaliyyətdə müstəsna qabiliyyəti, səmərəli təşkilatçılıq bacarığı, insanlarla ülfətindəki səmimilik, qəlbindəki işıq, ruhundakı incəlik, taleyinə ciddi yanaşmaq vərdişi, ağlı sönük nadanlara qarşı barışmazlıq, gərəksiz əzab olan haqsızlığa tab gətirmək, ata əhdinə sadiq qalaraq tariximizin qədimliyindən və adət-ənənələrimizin zənginliyindən bol-bol bəhrələnmək sayəsində Bilal Kərimov qısa müddət ərzində respublika ictimaiyyətinin dərin hörmət və etimadını qazandı. Onu Azərbaycan KP MK-nın üzvü və Respublika Ali Sovetinə deputat seçdilər.

Lakin o, göylərin tağında vəzifə iştahı ilə məst olan məmur olmadı. Təlaş keçirən ürəyi şişirdilmiş ad-sandan qaçdı, yöndəmsiz sözə, mənasız vədə, pisliklərə, ayrıliklərə ədalətin əli ilə divan tutmağa tərəfdar oldu. Yaxşını pisdən öz əqli ilə seçdi, qəmlə viranə qalan qəlblərə şəfa dərmanı axtardı, pak vicdanlı insanın qəlbindən gələn səsi özünün ürək səsi kimi dinlədi, yorulmaq-dincəlmək bilmədən işlədi, səkkiz ildə Əli Bayramlıda təkcə şəhər komitəsinin birinci katibi deyil, həm də bənna, dülgər oldu, həkim və müəllim oldu, mühəndis və texnik oldu, yeni məişət və yeni yaşam fəlsəfəsindən dərs deyən oldu, şəhər memarı, şəhərin havadarı oldu. Şəhər sakinləri də onun bu istəyi, bu diləyi, bu qeyrəti və bu hünərini son dərəcə yüksək qiymətləndirərək yol ağzında deyil, öz qəlblərində Bilal Kərimov adlı əziz və möhtəşəm bir abidə ucaltdılar. Ürəklərdə məskən salan abidə! Şair demişkən ürək olan yerdə mükafat nədir, mədhiyyə və gurultu qoparan yubiley nədir?! Ürək olan yerdə kimə və nəyə lazım yubiley komitəsi?!"



Bütün bu ürəyəyatımlı sözlərdən sonra, hiss etdim ki, İsrafil müəllim Bilal Kərimovun həyat yolunun bəzi məqamlarını qeyd etməyib. O, 1926-cı il oktyabr ayının 25-də Qafan bölgəsindəki Yuxarı Girətağ kəndində doğulub. Atası Musa Cəfərqulu oğlu Kərimov Bakı neftçisi, el ağsaqqalı idi. Bir müddət Bakıda yaşamışdılar. Odur ki, onun uşaqlığı həm Bakıda, həm kənddə, həm də ermənilərin Ciraxor adlandırdıqları qəsəbədə keçmişdir.



**Bilal Kərimov (sonuncu sıra, sağdan 5-ci) Azərbaycan Sənaye İnstitutunun hazırlıq qrupunun tələbələri arasında. 1945-ci il.**

Doğma kənddə keçən günlər ömrünün ən gözəl çağları idi; o uca dağları, yaylaqları, şır-şır bulaqları, dərin-dərin dərələri unutmaqmı olardı?

1951-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirəndə ona yüksək vəzifə kürsüsü də təklif olunmuşdu. Lakin o, dəniz neft mədənlərində işləməyi üstün tutmuşdu.

1971-ci ilin mart ayında Əli Bayramlıdan Bakıya dönəndən sonra, uzun müddət neft quyularının təmiri idarəsində baş mühəndis vəzifəsini apardı.

Onun xidmətləri Qırmızı Əmək Bayrağı ordeni, neçə-neçə medal və fəxri fərmanlarla qiymətləndirilib. Lakin bunların heç

biri insanlara, doğma Zəngəzur torpağına olan sevgisini əvəz edə bilməz! Bu sevgidə axar su duruluğu yaşanır...

**SÖZ ARDI.** Hayıf ki, Bilal Kərimov ömrünün axar su duruluğuna güzgü tutan bu şirin yazını oxuya bilmədi. 2000-ci ilin iyul ayının 2-də dünyasını dəyişdi. Ona hər cür tərif desən, layiqdi, yalnız bu cağsız dünyadəyişmə yaraşmazdı...





1915-1996

## SALEH CABBAR OĞLU MURADOV

İctimai xadim, dağ-mədən mühəndisi, texnoloq-energetik. Daha çox ictimai xadim, istehsalat rəhbəri və el ağsaqqalı kimi tanınıb.

## UZAQDA YANAN İŞIQ

Gündüzkü bürküdən sonra, Oxdar kəndinə axşam sərinliyi çökmüşdü. Səmada saysız-hesabsız ulduzlar göz qırpır, buluddan-buluda girən parlaq Aysa xumarlana-xumarlana Burgurşad dağının arxasına doğru süzürdü. Adama elə gəlirdi ki, dağın ardında hardasa, onun bir günlük yatacaq yeri var, o biri gün yenidən Oxdar səmasına qayıdacaq...

Molla Cabbarın ailə üzvləri, adəti üzrə, eyvana yığışmışdılar. Kişi hər gün olduğu kimi, bu gün də keçənlərdən uşaqlara maraqlı söhbətlər edirdi. Balaca Saleh bu söhbətlərlə daha çox maraqlanır, tez-tez atasına gözlənilməz suallar verirdi...

Qaçqınlıqdan yenicə qayıtmışdılar. 20-ci illərin ağır günləri idi. 4-5 il bundan əzəl, azğın daşnak guruhunun qanlı dalğası onların kəndindən yan keçməmişdi. Yağılar bu bölgənin başqa kəndləri kimi, Oxdara da soxulmuş, qırdıqlarını qırmış, taladıqlarını talamış, yandırdıqlarını yandırmışlar. Sağ qalanlar, ayağı yer tutanlar baş götürüb, kənddən çıxmış, Zəngilan, Qubadlı bölgələrinə pənah aparmışlar. Bu gün də söhbət qaçqınlıqdan

düşmüşdü. Molla Cabbar deyirdi:

- Neçə gün idi ki, kənddə döyüş gedirdi. Qonşu erməni kəndlərində daldalanmış daşnaklar hər gün bizi gülləyə tuturdular. Ancaq hər dəfə də cavabını alırdılar. Bizim patron ehtiyatımız yavaş-yavaş tükənməyə başladı. Ağsaqqallar kənddən çıxmağı məsləhət gördülər. Bir gün yığışıb, gecə ikən kənddən çıxdıq...

Balaca Saleh sual verdi:

- Ay dədə, niyə gecə, gündüz çıxmaq olmazdı?

Cabbar kişi oğluna sarı döndü:

- Yox, ay oğul, gündüz çıxmaq olmazdı, daşnaklar bizi gülləyə tutardılar. Elə gecə çıxdıq ki, sən də yolda itmişdin...

- Yox, mən itməmişdim, qaranlıqdan qorxmuram, necə itə bilərdim?

Cabbar kişi onun başını sığalladı:

- Oğul, doğrudan, itməmişdin, yuxulu olduğundan meşədə azıb qalmışdın. Ağgöldən keçib, Süsən meşəsinə doğru gedirdik. Mən qabaqda yüklü atı çəkə-çəkə aparırdım, arvad-uşaq arxamca gəlirdi. Qəfildən, bax, bu ananız Bilqeyis haray-qışqırıq saldı:

- Ay Cabbar, ay Cabbar, evimiz yıxıldı, uşaq yoxdu, Saleh yoxdu?!

- Atın cilovunu kola bağlayıb, arvadın qarasınca deyinə-deyinə geri qayıtdım. Ağgöldəki Sınıq kilsənin yanına çatanda gördüm ki, səni yuxu tutub, kolun dibində uzanıbsan. Ehmalca oyadıb, götürüb gəldim. Səhərə kimi qalsaydın, daşnakların əlinə keçə bilərdin...

Saleh bu söhbəti neçə kərə anasından eşitmişdi. Hər dəfə də dinləyəndə öz doğma yurd-yuvalarından onları didərgin salan daşnaklara qarşı ürəyində gizli bir nifrət hissi baş qaldırardı. Bu nifrət duyğuları onun gələcək fəaliyyətində daima yol yoldaşı olacaqdı... Başını qaldırıb, göyə baxdı: ulduzlar parlaq, Ay süd kimi ağ işıqlı idi... Baxışları Oğlannıca pirinin ucalığına zillənib qaldı; " - Qayanın zirvəsində işıq necə yana bilərdi?" Özündən asılı olmadan qışqırdı:

- Ora baxın, qayanın başında işıq yanır?

Hamı dönüb, onun barmağı ilə göstərdiyi səmtə boylandı.



Doğrudan da, qayanın zirvəsində işıq yanırdı. Bu, qayanın başı ilə tuş gələn dan ulduzu idi. Ata-ana bunu yaxşı bilirdi. Bilqeyis arvad oğlunun işığa inamını qırmadı:

- Oğul, Oğlannıca pirdir, onun başında işıq yana bilər... Gecə keçir, gedin yatmağa...

Cabbar kişi arvada acıqlandı:

- Dəymə, ay Bilqeyis, qoy baxsınlar, Saleh balam çox uzaqgörən olacaq!..

Saleh Muradov ömrü boyu bu işığa tapındı, qaranlıq görəndə, işi düyünə düşəndə, yaxud fikirləri qarışanda o işığı yada salırdı, atasının sözləri bir təskinlik nidası kimi qulaqlarında səslənirdi: "Saleh balam çox uzaqgörən olacaq!"

Bir çox yaşıdları kimi, onun da körpəliyi qaçqınlıq illərinə təsadüf etdi. 3 yaşında olanda öz doğma kəndlərindən didərginlik köçü başladı. 4 ilə yaxın Qubadlı bölgəsinin Dəmirçi-Dondarlı kəndində yaşadılar. Oxdara dönəndə evlərini yanmış gördülər. Cabbar kişi minbir əziyyətlə uçuq evi bərpa etdi. "Qürbət cənnət olsa da, yenə Vətən yaxşıdı!" - bayatısını təkrar edə-edə ailəsini öz doğma komasına yığdı, balalarını ana yurdun suyu, havası ilə böyütməyə başladı. Özü təhsil almamışdı, ancaq Hünüt kəndindən olan Molla İmandan həm ərəb əlifbasını, həm də Quran oxumağı öyrənmişdi. Salehə də ərəb əlifbasında yazıb-oxumağı atası kömək etmişdi. Ancaq üç il Molla Həmiddən dərs almışdı. Bu o zaman ibtidai təhsil hesab olunurdu. Doğrudur, neçə il əvvəl, Şura hökuməti qurulmuşdu, ancaq azərbaycanlılar yaşayan kəndlərdə yalnız molla məktəbləri fəaliyyət göstərirdi. Qonşu erməni kəndlərində isə onların öz ana dilində məktəblər açılmışdı.

Molla Həmid bir neçə şagird öyrətmişdi. Onlardan üçü - Saleh, Bəşir və Səlim o birilərdən hər cəhətdən seçilirdi, dərs öyrənməkdə, ayələri əzbərləməkdə xüsusi qabiliyyətləri vardı...

Cabbar kişi oğlu Salehi oxutmaq istəyirdi, lakin məktəb yox idi. Məktəblər yalnız erməni dilində açılmışdı. Yağı dilində uşağının təhsil almasını istəməzdi. Bir də düşünürdü ki, yağıya qarşı savaş açmaq üçün onun öz dilini bilmək daha vacibdir. Odur ki, Molla Həmidin məsləhəti ilə Bəşir Həsənov, Səlim

Əhmədovla birgə Salehi də qonşu Dəymədağlı kəndindəki erməni məktəbinə oxumağa göndərdi (ermənilər bu kəndin adını dəyişib, sonradan Şervenants qoymuşlar - R.T.).

Bununla da Saleh Muradov yeddiillik məktəbi erməni dilində bitirdi. Sonra isə Qafan şəhərində açılmış texniki peşə məktəbinə daxil oldu. Bir il orda təhsil alıb, mədən işçisi ixtisası qazandı və 1932-ci ilin dekabr ayının birindən Zəngəzur Mis kombinatında normalaşdırıcı texnik vəzifəsinə qəbul olundu.

O, təhsilini də yaddan çıxarmamışdı; 1929-cu ildə Yerevan Dağ-Metallurgiya texnikumuna girmişdi, qiyabi oxuyurdu, hələ texnikumu bitirməmiş onu bu vəzifəyə təyin etmişdilər. Elə o vaxtdan da fəaliyyətini həmin kombinatla bağladı. Bu kombinatda müxtəlif millətdən olan fəhlələr işləyirdilər. Saleh Muradov onlarla tez bir zamanda "dil" tapdı, fəhlələrin əmək huquqlarının müdafiəçisi kimi çıxış etdi. 1943-cü ilin yanvar ayından onu şöbə rəisi vəzifəsinə irəli çəkdilər. 1947-ci ilə qədər bu vəzifənin öhdəsindən bacarıqla gəldi. Dava illəri çox ağır və gərgin keçdi. Cəbhəyə çoxlu mis tələb olunurdu. Odur ki, başqaları kimi, Saleh Muradov da gecə-gündüz işləməli idi. Atası Cabbar kişinin fikri düz çıxmışdı; erməni dilini bilməsi ona hər yerdə lazım olurdu. Millətçilər heç vəclə onu sıxışdıra bilmirdilər. Onun təşkilatçılıq bacarığı, işçilərlə, mədən fəhlələri ilə mülayim rəftarı hər cür çətinlikdən üzüağ çıxmağa kömək göstərirdi. İllər keçdikcə hiss edirdi ki, təşkilatçı olmaq hələ azdır, ideoloji təhsilə yiyələnməlidir.

1947-ci ildə onu İrəvana partiya məktəbinə oxumağa göndərdilər. İki il orada təhsil aldı. Qayıdandan sonra tutduğu vəzifədən azad edib, daha məsul bir iş tapşırdılar. Saleh Muradov 1950-ci ildə Zəngəzur Mis- Mədən İdarəsinin partiya təşkilatı bürosunun katibi seçildi. 1952-ci ilə qədər bir katib kimi böyük təşkilatçılıq işi apardı. Həmin ildən onu yenidən istehsalata bağlı vəzifəyə – Mədən Qazma işləri şöbəsinin rəisi vəzifəsinə təyin etdilər. Altı il bu vəzifəni layiqincə apardı. Təbiət ona hərtərəfli bilik, iti qavrayış bəxş etmişdi. Həm texniki, həm iqtisadi, həm də təşkilati məsələlərin həllində böyük səriştəsi və təcrübəsi vardı. Bircə faktı qeyd etmək yerinə düşərdi; 1950-ci ildə ABŞ-dan avtomat telefon kommutatoru alınmışdı. Onu Mis kombinatında quraşdırmaq lazım idi. Lakin mütəxəssis olmadığından bu işə heç kəs girişmirdi. Saleh Muradov bu problemin həllini öz öhdəsinə götürdü. Onun rəhbərliyi ilə avtomat telefon kommutatoru vaxtında quraşdırıldı. Bu işinə görə o, quraşdırıcı fəhlələrlə birgə respublika mükafatına layiq görüldü.



1958-ci ildə Saleh Muradovu kombinatın texniki-komissiya şöbəsinə rəhbər təyin etdilər. O bu vəzifə kürsüsündə düz on il işlədi. Sonra isə 1968-ci ildə həmin kombinatın Baş Energetiki vəzifəsini tutdu və bu vəzifədən təqaüdə çıxdı...

Qüsursuz fəaliyyəti nəzərə alınıb, onu "Əmək veteranı", "Şücaətli əməyə görə" medalları və "Şərəf nişanı" ordeni ilə təltif etmişlər. O, dəfələrlə raykomun büro üzvü, Ali Məhkəmənin xalq iclasçısı seçilmişdi.

Molla Cabbarın altı uşağından biri olan Saleh Muradov öz doğmaları, əzizləri və dostları arasında da böyük nüfuz sahibi idi.

Maarif əlaçısı Vəli Vəliyev xatırlayırdı:

– Saleh Muradov mənim xatirimdə gözəl insan, bacarıqlı təşkilatçı, torpaq, yurd təəssübkeşi kimi qalıb. Heç kəsdən öz köməyini əsirgəməyib. Mənim özümü bir neçə dəfə Qafanda ermənilərin yamanlığından qurtarıb. Yaxşı yadımdadır; məni partiya sıralarına qəbul etmirdilər, ermənilər nə yolla olur-olsun, mane olmaq istəyirdilər. Saleh Muradov raykomun büro iclasında çıxış edib, onlara kəskin cavab verdi ki, siz kimin partiya sıralarına qəbul olunmasına qarşı çıxırsınız? Bakı fəhləsi, inqilabçı Əlinin oğlunumu? Bu çıxışdan sonra, bir səslə məni partiyaya qəbul etdilər. Mən ailənin tək oğlu olduğum üçün hərbi xidmətdən azad edilməli idim. Lakin Hərbi komissarlıqda bunu nəzərə almırdılar. Saleh Muradov komissiyanın üzvü idi, məsələyə qarışan kimi, işi yoluna qoydu...

Atasının vəfatından sonra, qardaş və bacılarının bütün qayğılarını Saleh çəkdi, özündən kiçiklərə nəsihət verib deyərdi: – Hər yetənə inanmayın, bir iş görəndə tələsməyin; yüz ölçüb, bir biçin!“

Həmişə torpağa qayıdış umudu ilə yaşayırdı; “biz o

torpaqları bir daha görməsək də, görənlər olacaqlar" – söylərdi. Xəstə yatanda son sözləri qohumlarını həmişə kədərləndirir:

– Nə olaydı, ya Qənimət çayından, ya da Ağgölün Qartutan bulağından bir stəkan su gətirən olaydı, içib ayağa qalxaydım!.."



*Saleh Muradov (solda) qohumu Humay Quliyevlə. 1963-cü il.*

Lakin o bir daha ayağa qalxa bilmədi. 1997-ci ilin mart ayının 1-də əbədi olaraq gözünü yumdu. Onu Şəhriyar adına qəsəbənin məzarlığında torpağa tapşırdılar. Məzarüstü abidəsində belə yazılıb:

"Muradov Saleh Cabbar oğlu Zəngəzurlu" (1915-1997). "Zəngəzur" sözünün abidəyə həkk olnması, əlbəttə, övladlarının arzusundan irəli gəlib. O, iki oğul, bir qız böyütmüşdü. Övladları onun xatirəsi ilə yaşayır, adını daima əziz tuturlar. Bu, səbəbsiz deyil:

**Uzaq düşdü qoca pirim Oğlannıca,**
**Göyü yaran uca pirim Oğlannıca;**
**Şah vüqarı – vüqarımda, boyumdadır,**
**Torpaq gedib, haqqı-sayı boynumdadır!..**



Saleh Muradov torpağın haqq-sayını çiyinlərində daşıyan kişilərdən idi... İndi bizdən uzaq Oğlannıca pirinin zirvəsində gecələr bir işıq yanır; bu, Saleh Muradov kimi insanların ürək odundan alışıb, heç zaman sönən deyil!



## LÜDVİQ SALEH OĞLU MURADOV

İctimai xadim, mədən mühəndisi, idmançı. Daha çox istehsalatda, elmi müəssisələrdə, nazirlikdə və Turizm mərkəzində rəhbər işçi kimi tanınıb.

1943-2000

## BAYRAĞI ENMƏYƏ QOYMADI...

Xocalı faciəsinə onca gün qalırdı. "Mərkəz"in təhriki ilə qazışdırılan ermənilər Dağlıq Qarabağda olmazın özbaşınalıqlar edir, torpağı Azərbaycandan "qoparmaq" üçün dəridən-qabıqdan çıxırdılar. Xankəndində böyük çaxnaşma salmışdılar. Hər yerdə Azərbaycanın bayrağını çıxarır, yerinə Ermənistan bayrağı asırdılar. Dağlıq Qarabağ üzrə xüsusi dövlət komitəsi yaradılmışdı. Nə yerli rəhbərlik, nə inzibati orqanlar bu özbaşınalığın qarşısını alırdı. Sözsüz ki, onlara da "ayrıca" tapşırıq verilmişdi. Hamının gözü qarşısında Vilayət Partiya Komitəsi binasının üstündəki bayraq çıxarılmış, Ermənistan bayrağı ilə əvəz olunmuşdu. Heç kəs cəsarət edib, bu bayrağı dəyişdirməyə təşəbbüs göstərmirdi; qorxulu idi, hər tərəf silahlı ermənilərlə dolmuşdu. Azərbaycan bayrağı yerə atılmışdı. Adamların içindən eynəkli bir şəxs çıxdı və iri addımlarla bayrağa yaxınlaşdı. Nəzərlər heyrətlə ona dikildi. O isə bayrağı yerdən qaldırıb, dəmir pilləkənlə binanın üstünə çıxdı. Çəkinmədən yad bayrağı çıxarıb, yerə tulladı və yerinə Azərbaycanın o zamankı bayrağını sancdı. Bayraq küləkdə



dalğalanmağa başladı. Bu cəsarətli adam xüsusi dövlət komitəsinin sədr müavini Bakı partiya komitəsinin təlimatçısı Lüdviq Saleh oğlu Muradov idi...

O, 1943-cü il mart ayının 22-də Novruz bayramı günü Zəngəzurun Qafan şəhərində anadan olmuşdu. Atası Saleh Muradov bölgənin Oxdar kəndindən idi. Ona görə, Lüdviqin uşaqlığının şirin çağları bu kənddə keçmişdi. Hələ uşaqlıqdan ermənilərin ikiüzlü, yaltaq, hiyləgər, başlıcası isə qatı millətçi olmalarını yaxşı duymuşdu. Onlarla bir yerdə oxumuşdu, işləmişdi, hətta futbol komandasında oynamışdı. Ermənilərin bu iyrənc xasiyyətlərinə qarşı ürəyində dərin nifrət hissi yaşadırdı. Bu nifrət hissi Xankəndində Azərbaycan bayrağını enməyə qoymayanda daha bariz şəkildə üzə çıxdı...

Lüdviq Muradov 1950-ci ildə Qafan şəhərindəki 3 saylı məktəbə getdi. 1960-cı ildə isə onuncu sinfi bitirdi. Dörd il Qafan Mədən-Metalurgiya Texnikumunda oxudu və burada axtarışçı-texnik ixtisasına yiyələndi. Hələ texnikumda oxuya-oxuya əmək fəaliyyətinə başladı; gündüzlər şəhərdəki elmi-tədqiqat institutunun laboratoriyasında işləyir, axşamlar isə təhsilini davam etdirirdi. Uşaqlıqdan idmanı çox sevirdi. Hətta şəhərin futbol komandasında ölkə birinciliyində çıxış edirdi. 1965-ci ildə onu hərbi xidmətə çağırdılar. Hərbi xidməti müddətində, eyni zamanda, təyyarəçilik məktəbində oxudu. 1967-ci ilin oktyabr ayında Qafana qayıtdı. Bir ay sonra, onu Qafan Mədən-Metalurgiya Kombinatının xüsusi şöbəsində inspektor vəzifəsinə qəbul etdilər...

1968-1974-cü illərdə Kombinatda müxtəlif vəzifələrdə çalışdı. Paralel olaraq Qafan musiqi məktəbinin nəfəsli alətlər sinfində oxudu.

1974-cü ildə onu Bakı Ali Partiya məktəbinə oxumağa göndərdilər. O vaxtdan taleyini Bakı şəhəri ilə bağladı. 1978-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirən Lüdviq Muradovu "Elektroştamp" Bakı Təcrübə Zavoduna işə götürdülər. O xüsusi konstruktor bürosunun müdiri vəzifəsinə təyin olundu. Az sonra onu zavodun partiya təşkilatının katibi

seçdilər. İki il ictimai işlərdə fəallıq göstərdi. Bu müddətdə onun təşkilatçılıq və təşviqatçılıq bacarığı barədə yüksək fikir formalaşdı. 1981-ci ildən Lüdviq Muradovu Bakı Şəhər Komitəsinin təşkilat şöbəsinə təlimatçı vəzifəsinə irəli çəkdilər. O, ali partiya məktəbi bitirsə də, təşkilatçılıq bacarığını və təşviqatçılıq səriştəsini atası Saleh Muradovdan öyrənmişdi. Atasının ömür yolu onun üçün həyat məktəbi, fəaliyyət örnəyi idi. 1989-cu ilin iyul ayına kimi, təlimatçı vəzifəsini apardı. Lakin o, istehsalatla bağlı idi, daha çox işçilər arasında olmağa öyrəşmişdi. Ona görə, yenidən "Elektroştamp" Bakı Təcrübə Zavodunun partiya təşkilatının katibi vəzifəsinə qayıtdı. 1991-ci ilin sentyabr ayına qədər katib kimi öz vəzifəsinin öhdəsindən bacarıqla gəldi. Lakin o illərin respublika rəhbərliyinin birtərəfli seçim siyasətinin soyuq yelləri onun da başının üstündən əsdi. Lüdviq Muradovu işindən uzaqlaşdırdılar. Bir ilə yaxın işsiz qaldı. 1992- ci ildə "Çetel" adında Azərbaycan-Türkiyə birgə müəssisəsi yaradılmışdı. Onu həmin müəssisəyə komersiya üzrə direktor təyin etdilər. 1994-cü ilin sentyabr ayına kimi burada çalışdı. Eyni zamanda, Bakı Qərb Universitetinin Xarici İqtisadiyyat fakültəsində oxuyub, ikinci ixtisasa – biznes- menecer ixtisasına yiyələndi.

1994-cü ildə Respublika Gənclər və İdman Nazirliyi yaradıldı. Lüdviq Muradovu həmin nazirliyin işlər idarəsinin müdiri vəzifəsinə təyin etdilər. İki il bu vəzifəni bacarıqla apardı.

1996-cı ildə isə yeni bir vəzifə kürsüsü- "Gənclik" Beynəlxalq Turizm Mərkəzinin direktorluğu ona həvalə olundu. Onun direktorluğu zamanında mərkəzin beynəlxalq əlaqələri daha da genişləndi, dünyanın qabaqcıl ölkələrində tanınmağa başladı... Hayıf ki... Hayıf ki, ömür vəfa etmədi. Lüdviq Muradov gözlənilmədən sağalmaz bir xəstəliyə düçar oldu. 57 yaşında yarımçıq qalan ömrü kimi, neçə-neçə diləyi də çiçək açmamış qaldı...

Mən indi minnətdarlıqla xatırlayıram ki, bu kitabın



yaranmasının ilk təşəbbüskarı Lüdviq Muradovdur. Onunla "Gənclik" Mənkəzində bir neçə dəfə görüşmüşəm. Qafan və qafanlılar, o bölgədən olan tanınmış adamlar barəsində kitab yazılmasının vacibliyindən elə hərarətlə, elə inamla danışırdı ki!.. Həm də kitabın tez işıq üzü görməsi üçün bizi tələsdirirdi. Atası Saleh Muradov haqqında yazını oxuyandan sonra, kitabın yaranmasına inamı daha da artmışdı. Təsəllimiz budur ki, kitabın ilk variantını hazırlayıb, ona çatdıra bildik. Lakin tale öz amansız hökmünü verdi. 2000-ci ilin may ayının sonunda Lüdviq Muradov dünyasını dəyişdi. Yaz çağı varlığa göz açmışdı, yaz çağı dünyadan getdi...

Onu da qeyd etməyi vacib sayıram ki, kitabın ilk nüsxəsinin hazırlanması və Lüdviq Muradova çatdırılmasında "Gənclik" Beynəlxalq turizm Mərkəzinin sabiq şöbə müdiri Seyfulla Abbasovun ayrıca xidməti oldu. Lüdviq Muradov barəsində vida yazısını da qəzetdə ilkin Seyfulla dərc etdirdi. "Xalq qəzeti"nin 2000-ci il 31 may tarixli sayında verilən yazını bura əlavə etməyi münasib bilirəm:

"O da bütün insanlar kimi adi ömür yaşayırdı. Amma deyəsən onun arzuları daha çox idi.

O da bütün vəzifə sahibləri kimi öz borcunu yerinə yetirməyə çalışırdı. Amma deyəsən onun təşəbbüskarlığı daha çox idi.

O da bütün azərbaycanlılar kimi yurduna, torpağına, daşına bağlı adam idi. Amma onun ürək yanğısı bizdən xeyli çox idi. Kaş elə az olaydı. Çünki ürək yananda öz sahibini də yandırır. Necə ki, böyük arzularla yaşayan, qurub-yaratmağa çalışan Lüdviq müəllimi öz ürəyindəki od yandırdı.

Söhbət ömrünün 57-ci ilində dünyasını dəyişən, çoxunun, bəlkə də, çoxlarının xeyirxah insan kimi xatırlayacağı Lüdviq Saleh oğlu Muradovdan gedir.

Bu qısa yazının ilk abzasında qeyd elədik ki, onun arzuları çox idi. Necə də çox olmaya bilərdi? Doğulub boya-başa çatdığı Zəngəzur mahalı, Qafan şəhəri, Oxdar kəndi, Oxçu çayı yadlar əlində olan, öz Vətəni ilə ancaq yuxularda görüşə bilən adamın arzusu az olardımı?

Doqquz il əvvəl canından çox sevdiyi Qarabağda göstərdiyi mərdanəlik - Xankəndində ermənilərin gözü qabağında Ermənistan bayrağını çıxardıb, yerində Azərbaycan bayrağını asmasından sonrakı arzularını ölçüb-biçmək olardımı? O Qarabağda Azərbaycan bayrağını görməyi necə də arzulayırdı. (O arzuların hamısı çin olacaq. Çünki arzu heç zaman ölmür. Hətta yetim qalsa da). Hər dəfə bayraq görəndə Azərbaycan bayrağının Xankəndi üstündə dalğalanacağı günü arzulayırdı. Hər dəfə Xəzərin sahilində oturanda Oxçu çayın Xəzərə qarışmasını, Oxdardan bir yarpaq gətirməsini arzulayırdı.



*Lüdviq Muradov (birinci sıra, soldan 4-cü) veteranlar arasında*

Biz yuxarıda qeyd elədik ki, Lüdviq müəllim çox təşəbbüskar adam idi. Onun Qafandan başlanan yolunun başqa bir türk diyarı olan Kazana gedib çıxması, Tatarıstanda mədən mühəndisi ixtisası alması, sonra Bakı Ali Partiya Məktəbini fərqlənmə diplomu ilə bitirməsi, on il müddətində Bakı "Elektroştamp" zavodunda müxtəlif vəzifələrdə çalışması və həmişə də işgüzar, səmimi, qayğıkeş insan kimi irəli çəkilməsi sübut edirdi ki, o, həqiqətən, təşəbbüskardır.

1988-ci ildən sonrakı fəaliyyəti isə onun həqiqi vətəndaş



olduğunu sübut eləmişdi. Dəfələrlə cəbhə bölgələrində olan Lüdviq Muradov heç bir siyasi quruma və silahlı dəstəyə qoşulmur, ancaq Azərbaycanın ərazi bütövlüyünü, millətin düçar olduğu bəlalardan çıxış yollarını düşünürdü. Təəssüf ki, o zaman belə düşünənlərə qəribə baxırdılar.

Biz yuxarıda qeyd qeyd elədik ki, o bütün azərbaycanlılar kimi yurduna, torpağına bağlı adam idi. Ancaq deyəsən onun ürəyində yanğı daha çox idi. Məhz həmin yanğı onu 1992-ci ilin qara günlərində çıxış yolu tapmağa çağırırdı. Həmin çıxış yolunu böyük siyasətçi Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsində görən Lüdviq Muradov xalqın xilaskarına müraciət edilməsinin təşəbbüskarlarından olmuşdur. Dövlət başçımız Heydər Əliyev sonradan həmin təşəbbüsü cəsarətli adamların xalqa sədaqəti kimi qiymətləndirmişdi.

Ömrünün son dörd ilini Zuğulbadakı "Gənclik" Beynəlxalq Turizm Mərkəzinin əvvəlki şöhrətinin bərpasına həsr edən Lüdviq Muradov orada istədiyindən də artıq nəticəyə nail ola bilmişdi. Amma qurub-yaratmaq istəyən bu insan Xəzər sahilində, Beynəlxalq Turizm Mərkəzində də dinclik tapa bilmədi. Öz yaratdıqlarını görəndə nə qədər sevinirdisə, bu yerə tez-tez üz tutan xocalı uşaqları ilə rastlaşanda o qədər ürəyi üzülürdü. Xocalı uşaqları onun ən əziz qonaqları idi. Lüdviq müəllim həmin uşaqların hər birinə paltar, idman geyimi və başqa şeylər alınması üçün həmişə pul ayırardı.

Onun ürəyindən Vətən, Vətənə sadəqət, xalqa xidmət hissləri bitib tükənən deyildi. Həmin hisslərin hər birindən isə yüzlərlə arzu doğurdu. Dostlarına, qohumlarına və yaxınlarına söylədiyi arzular. Kiməsə söylənilən arzu isə mütləq çin olacaq. Ən azı Lüdviq Muradovun qayğısını görmüş, hələ heç bir təsirə düşməmiş cocuqlar onun bütün arzularını çin edəcəklər.

Oxçuçaydan bir yarpaq gələcək. Xankəndində üçrəngli bayraq dalğalanacaq...

Biz isə rəhmət oxunmalı soydaşlarımıza rəhmət oxuyacağıq."



## MİRAĞA SEYİDƏLİ OĞLU ƏLİYEV

İctimai və dövlət xadimi, elmlər namizədi, pedaqoq, müharibə veteranı. Daha çox dövlət xadimi, kənd təsərrüfatı mütəxəssisi və pedaqoq kimi tanınıb.

**1912-1973**

## "NAĞILLAŞAN ÖMÜR"

Onun barəsində mənə Qafan torpağının Oxdar bölgəsindəki kəndlərin adamlarını nəsilbənəsil tanıyan Vəli Vəliyev danışmışdı. Onun dediyinə görə, Mirağa Əliyevin atası Seyidəli Qafanın Dorhnu kəndindəndir. Əsrin əvvəllərindən başlanan daşnak guruhunun fətnə-fəsadı və azərbaycanlıların soyqırımı nəticəsində həmin kənddən iki-üç ailə sağ qalıbsa, biri Seyidəlinin ailəsidir. Onun böyük oğlu Mirağa 1912-ci ildə Dorhnuda anadan olub, o biri qardaşları Mehdi və Yusif isə Qubadlının Çardaxlı kəndində dünyaya göz açıblar. Vəli müəllimin köməkliyi ilə Mirağanın qohumu, mənim şair dostum Rafiq Yusifoğlu əmisi barədə qocaman jurnalist Mürsəl Qocayevin "Nağıllaşan ömür" məqaləsini, şəkil və tərcümeyi-halını mənə gətirdi. Mürsəl müəllimin qələminə bələd olduğumdan həmin məqaləni kitaba daxil etdim:

– İnsanın özünün nə dünyaya gəlişindən, nə də gedişindən xəbəri olur. Bu iki məqam arasında yaşadığı illər isə onun fəaliyyət dövrüdür. Xoşbəxt o adamdır ki, sağlığında camaatın hörmətini qazana, dünyasını dəyişəndən sonra isə ehtiramla xatırlanıb, ruhuna rəhmət oxuna. Belə adamlardan biri də Əliyev Mirağa Seyidəli oğludur.



Bir çoxları onu Taqanroq adına 416-cı Azərbaycan diviziyasının döyüş şöhrəti ilə ad-san qazanmış zabit, mülki işlərdə isə bacarıqlı kənd təsərrüfatı mütəxəssisi, qurucu və təşkilatçı, alim-pedaqoq, xeyirxah və qayğıkeş bir insan kimi tanıyırdılar.

1912-ci ildə anadan olmuş Mirağanın yeniyetmə illəri keşməkeşli I Dünya müharibəsi, fevral, oktyabr, aprel inqilabları, vətəndaş müharibəsi, milli qırğın dövrünə düşmüşdür. Bu keşməkeşlərin içərisində həmişə xoşbəxt bir həyata qovuşmaq arzusu ilə yaşamışdır. Elə bu arzu ilə o, iyirminci illərdə kənddə açılmış ilk məktəbə getmişdir.

Deyirlər, saf toxum hara düşsə, mütləq cücərər. Deyəsən, tale ondan səxavətini əsirgəməyibmiş. Elə ibtidai məktəbdə, Quba Kənd Təsərrüfatı Texnikumunda uğurla oxuması bunu aydın göstərir. O, 1930-cu ildə Qubadlıda müəllim kimi fəaliyyətə başlayır, 1932-35-ci illərdə Laçın Heyvandarlıq Texnikumunda dərs hissə müdiri, sonra isə direktor işləyir. İşgüzarlığına görə, Kənd Təsərrüfatı Nazirliyində kadr hazırlığı üzrə təlimatçı vəzifəsinə irəli çəkirlər. 1937-ci ildə Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olub, 1941-ci ildə oranı müvəffəqiyyətlə bitirir.

O, elmi fəaliyyətini davam etdirmək arzusunda idi. Lakin müharibə onun bu arzusunu ürəyində qoydu. Diplomunu almamış həmyaşıdları ilə bərabər, döyüşən orduya səfərbəyliyə alındı. Hərbi xidmətə 335-ci artilleriya polkunun 8-ci batareyasında sıravi əsgər kimi başladı. İki aydan sonra həmin polkun 14-cü batareyasına, 1942-ci ilin fevralında isə 396-cı diviziyanın 696-cı minamyot batalyonuna komissar təyin olundu. Krım işğal edildikdən sonra qısa müddətdə Zaqafqaziya cəbhəsinin siyasi idarəsində çalışdı və 1942-ci ilin iyununda 416-cı diviziyanın minamyot batalyonuna komissar təyin edildi. Artıq müharibənin bir ili arxada qalmışdı. O, bir ildə diqqətəlayiq döyüş hazırlığı keçmişdi. Buna görə də 1943-cü ilin fevralında diviziyanın 1368-ci polkuna komissar oldu.

Diviziyanın döyüş şöhrəti haqqında çox yazılmış və deyilmişdir. Müharibə illərində respublika qəzetlərində, habelə müharibədən sonra F.E.Bokovun, R.Zeynalov və Borodetskinin

"Azərbaycan oğullarının ölməz hünəri", "416 – ataların yolu oğulların yoludur", "Qafqaz dağları ətəklərindən Berlinədək" adlı kitablarında bütövlükdə diviziyanın və ayrı-ayrı döyüşçülərin, zabitlərin, o cümlədən 1368-ci atıcı polkunun komissarı mayor Mirağa Əliyevin döyüş şöhrətindən iftixarla söhbət açılır.

1943-cü ilin iyul ayında respublika qəzeti "Kommunist"də, M.Əliyev haqqında yazılmış "Şərəf və namus yolunda" adlı oçerkdə onun çox strateji əhəmiyyəti olan bir təpədə mövqe tutmuş düşmən arxasına keçmək, kəşfiyyat vasitəsilə onu öyrənmək haqqında qaldırılan təşəbbüsü həyata keçirmək üçün 8 gün ardıcıl əməliyyat aparmaqla tapşırığı layiqincə yerinə yetirməsindən söhbət açılır. Bu əməliyyata görə o, "Qızıl Ulduz" ordeni ilə təltif olunur.

Onun ailə arxivində saxlanılan cəbhə xatirələrini vərəqləyirik. Bu xatirələrdə yarım əsr bundan əvvəl, keçən qanlı-qadalı illərin nəfəsi duyulmaqdadır. O yazır ki, 1943-cü ildə faşistlər hələ qələbə ümidini itirməmişdilər. Komandanlığın teleqramına görə, bizi mövqe tutduğumuz Taqanroq ətrafında düşmən 500 təyyarə, 500 tank cəmləşdirmişdi. Buna görə, sayıqlığı artırmaq əmri verilmişdi.

Bu işin ağırlığı biz siyasi işçilərin üzərinə düşürdü. Ona görə batalyon komissarı kapitanlar Firudun Süleymanov, İsmayıl Sayılov, Məhəmməd Heydərov, partiya təşkilatı katibi Heydər Dadaşov, komsorq Ələkbərov ön mövqedə əsgərlər arasında geniş izahat işi aparır, onları düşmənə layiqli cavab verməyə hazırlayırdılar.

Bütün bu tədbirlər Taqanroq uğrunda avqustun 27-də gedən döyüşlərdə öz parlaq nəticəsini vermişdi. Taqanroq azad olundu. Düşmən diviziyaları mühasirəyə alınmış, 35 min əsgər məhv edilmiş, 5100 əsgər və zabit əsir götürülmüşdü.

Melitapol uğrunda gedən döyüşlərdə ayrı-ayrı batalyonlar xüsusilə fərqlənmişdi. Bu döyüşlərdə fərqlənən pulemyotçu Adışirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı adına, Beydulla Sadıqov Lenin ordeninə, Maslov, Abbasov, Mirağa Əliyev "Qırmızı bayraq" ordeninə, mərdliklə vuruşan, igidliklə həlak olan, polkda əfsanəvi kapitan adlandırılan İsmayıl Sayılov isə



ölümündən sonra "1-ci dərəcəli Vətən müharibəsi" ordeninə layiq görülmüşdü.

1943-cü il oktyabrın 23-də Melitapolun tam azad edilməsində fəal iştirakına görə isə diviziyanın özü "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu.

416-cı Taqanroq adına diviziya Şimali Qafqazda, Stavropolda, Rostov vilayətində, Zaporojiyedə 140 iri yaşayış məntəqəsi, o cümlədən Stavropol, Taqanroq, Maridial, Melitopol şəhərlərini azad etməkdə şücaət göstərmişdir. Bu döyüşlərdə 1867 nəfər, o cümlədən 393 nəfər zabit müxtəlif orden və medallarla təltif olunmuşdur. Mayor M.Əliyev də onların sırasındadır. O, üç orden və beş döyüş medalını ömrünün sonunadək sinəsində iftixarla gəzdirmişdi...

...Mirağa artıq 1000 sutka idi ki, daim ön cəbhədə ölümlə üz-üzə dururdu. Bu müddət ərzində çox bərkə-boşa düşmüşdü. Ancaq güllə heç şeyə baxmır. Dnepr çayı Nikolayev şəhəri ətrafında gedən gərgin döyüşlərin birində – 1944-cü il fevralın 15-də ağır yaralanıb xəstəxanaya düşür. Həmin ilin noyabrına kimi uzun müddət müalicə olunur və dekabr ayında ikinci qrup əlil kimi ordudan tərxis edilir.

Mirağa müəllim 1945-ci ili soyuq səngərlərdə deyil, Bakıda, öz evində qarşıladı. Artıq qələbəyə heç bir şübhə yox idi. Ancaq onun hansı gün qurtaracağını bilmək olmazdı. Nəhayət, dünyanı lərzəyə salan faşizmin məğlub edildiyi tarixi gün – Qələbə günü gəlib çatdı.

İndi qarşıda bərpa və quruculuq işləri dayanırdı. Onun kimi təşkilatçı, işgüzar adamlara isə dərin ehtiyac duyulurdu. Buna görə də onu kənd təsərrüfatı üçün kadrlar hazırlayan texnikuma direktor təyin etdilər. 1948-ci ildə isə Qubadlı rayon partiya komitəsinin birinci katibi vəzifəsinə irəli çəkdilər.

Həmin vaxt mən APİ-ni qurtarıb rayon mərkəzindəki orta məktəbə təyinat almışdım. Mirağa müəllimi institutdan tanısam da, rayonda necə işləməsi ilə daha yaxından tanıdım. İşlədiyi üç ilə yaxın müddətdə mədəni-quruculuq, abadlıq işləri, iqtisadiyyatı yüksəldən tədbirlər görə bildi. Həm də özünün yüksək intelekti, rəftarı, qayğıkeşliyi ilə rayonun fəallarına şəxsi nümunə göstərib, camaatın nüfuzunu qazandı.

Sonralar Duvannı, İmişli, Gəncə vilayət, Gəncə şəhər, Goranboy rayon partiya komitəsində birinci katib, kənd təsərrüfatı nazirinin müavini vəzifələrində bacarıqlı fəaliyyəti onun yüksək mədəni rəftarı, tələbkar, işgüzar adamlara son dərəcə qayğıkeş olmağı ilə bağlıdır. O illər çətinliklər çox idi. Müharibə saysız-hesabsız problemlər yaratmışdı. Camaat çox yoxsul yaşayırdı. Kişilərin çoxu cəbhədən qayıtmışdı. Əsgər ailələri, çoxuşaqlı analar, qocalar, şikəstlər daha çox əziyyət çəkirdilər. Mirağa müəllim işlədiyi rayonlarda qarşıya çıxan bu problemlərin həllində cəbhədə olduğu kimi, əsgəri tələbkarlıq və intizam nümunəsi göstərir, camaatı bacarıqla səfərbəyliyə alırdı. Məktəb, dəyirman tikdirdi. Yol çəkdirdi, yaşayış evi, istehsalat-sosial əhəmiyyətli obyektlər inşa etdirdi.



*Mirağa Əliyev ailə üzvləri ilə. 1952-ci il.*

Mirağa müəllim 1961-ci ildən elmi-pedaqoji fəaliyyətini yenidən davam etdirməyə başlamışdı. İxtisasca riyaziyyatçı-fizik olsa da, humanitar elm sahəsində müdafiə etmiş və fəlsəfə kafedrasında çalışmışdır. O, alim kimi də özünün bütün yaxşı keyfiyyətləri ilə çalışdığı elmi kollektivdə yüksək nüfuz sahibi olmuşdur.



Bəli, dünya nə ömrə acıyan, nə yaşa baxan dünyadır. Mirağa müəllim 1973-cü ildə öz dünyasını dəyişdi. İndi onun ömrü artıq nağıllaşmaqdadır. Ancaq bu nağıllar gələcəkdə "biri var imiş, biri yox imiş" kimi sözlərlə başlasa da, əhvalatlar xəyalda deyil, burada yazdığımız 1941-45-ci illər müharibəsinin real hadisələri, Mirağa kimi real qəhrəmanları olacaqdır. Bu hadisələrin, bu adamların yaddaşlarda nağıllaşması isə nəsillər üçün çox ibrətamizdir".



## BƏŞİR İMAN OĞLU HƏSƏNOV

İctimai xadim, hüquqşünas, pedaqoq. Daha çox hüquq orqanları işçisi və maarif xadimi kimi tanınıb.

**1912-1992**

## QATARINDAN AYRI DÜŞƏN DURNA

Gecənin qaranlığı səngərlər üstünə qanad gərmişdi. Kerç uğrunda vuruşlar gedirdi. 819-cu atıcı dviziyasına daxil olan vzvodun döyüşçüləri atəş mövqeyi tutmuşdular. Bu vzvoda leytenant Bəşir Həsənov komandirlik edirdi. O, cəbhəyə düşdüyü bir ay müddətində neçə ağır döyüşdən çıxmış, hətta yara almışdı. Döyüşçülər onun hücum əmrini gözləyirdilər. İşıqlaşan kimi, hücum başlanacaqdı...

Hardasa, uzaqlarda fişənglər atılır, toplardan, pulemyot və avtomatlardan atəşlər açılırdı. Çox qəribə idi; bu hay-küyün içərisində döyüşçülərin başlarının üstündən durna qatarları keçirdi. Bəşir Həsənov hərdən başını qaldırıb, durnalara baxırdı. Uşaqlıqda eşitdiyi bir şerin misralarını xatırladı:

*Qatar-qatar olub, qalxıb havaya,*
*Nə çıxıbsız asimana, durnalar!*
*Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,*
*Üç tutubsuz nə məkana, durnalar?!*

Doğrudan da, durnalar hara uçurdu, hansı məkana gedirdi, demək çətindi. Bəşir Həsənova bircə o aydındı ki, cənuba-doğma torpaqlara doğru uçur durnalar... Kaş onun da qanadı



olaydı, kaş o da durnalar kimi doğma torpaqların üstündən uça biləydi...

Qəfildən projektor işığını durna qatarının üstünə saldılar. Qatar pozuldu, hətta durnalardan biri müvazinətini saxlaya bilməyib, tappıltı ilə səngərə düşdü. Əsgərlərdən biri onu tutub, qucağına aldı, başını sığalladı. Ancaq gec idi, qatarından ayrılan durna yerə dəyib, əzilmişdi. Başını yana əyib, gözlərini yumdu...

Bəşir Həsənov qatarından ayrılan durnaya baxa-baxa xəyala dalmışdı. Ona elə gəldi ki, bu döyüşçülər də bir durna qatarıdır, hər birinin başına nə gələcək, kəsdirmək çətindi. Sabah-biri gün bu qatardan həmişəlik ayrıla bilərlər. Bu məqamda o da qatarından ayrılan durna kimiydi, sanırdı ki, onu namərd əli öz qatarından ayırıb. Ancaq həmin qansızları yaxşı tanıyırdı; gündə neçə kərə üzünə hırıldayıb, özünü dost kimi göstərən, əslində, gizlicə ayağının altını qazıyan hiyləgər ermənilər necə də tanımayaydı?!

O, 1912-ci ildə Qafan bölgəsinin Oxdar kəndində anadan olmuşdu. Atası İman kişi bölgədə tanınmış molla sayılırdı. Əsli-nəsli Hünüt kəndindəndi. Sonra Oxdarda Molla Həmid ona üç il dərs demişdi. Xatirindən çıxmırdı; Şura hökuməti yenicə qurulmuşdu. Hələ Azərbaycan dilində məktəblər açılmamışdı. Ona görə, atası onu da Saleh Muradov və Səlim Əhmədovla birgə qonşu Dəymədağlı kəndikdəki erməni məktəbinə qoydu. 7 illiyi erməni dilində bitirdi. 1927-ci ildən isə Qafan şəhərindəki 1 saylı məktəbdə təhsilini davam etdirib, 1930-cu ildə qurtardı. Onu Qafan rayon İcraiyyə Komitəsində tərcüməçi vəzifəsinə götürdülər. İki ilə yaxın tərcüməçi kimi çalışdı. 1932-ci ildə isə ali hüquqşünaslıq kursunda oxumaq üçün İrəvana göndərildi. Kursu başa vurub, rayona dönən Bəşir Həsənovu hüquq orqanları sistemində işə qəbul etdilər. Bir müddət rayon Xalq Məhkəməsində fəaliyyət göstərdi. İki dili yaxşı bilməsi məhkəmə proseslərinin sənədləşdirilməsində lazımlı kadr kimi diqqət mərkəzində idi. Bu da onun bir hüquqşünas təki önəmli mövqe tutmasına geniş imkanlar açdı. Çox keçmədən Bəşir Həsənovu Qafan rayon Xalq Məhkəməsinin sədri seçdilər. O, bölgədə məhkəmə sədri

seçilən ilk azərbaycanlı idi. Onun bu vəzifəyə seçilməsi bölgə tarixində önəmli bir hadisəydi. Çünki bölgənin məsul vəzifə kürsülərinin çoxunda ermənilər oturmuşdular. 1938-ci il avqust ayının 21-dən 1941-ci il dekabr ayının 28-nə kimi həmin vəzifəni ləyaqətlə apardı. Lakin gözügötürməyən çox idi. Onun həm ermənilər, həm də azərbaycanlılar arasında böyük nüfuz qazanması bəzi millətçi erməninin xoşuna gəlmədi...

**Həyat yoldaşı, əməkdar müəllim Səriyyə Həsənovanın xatirəsindən:** – Bəşirin iki dili bilməsi və onlardan sərbəst istifadə etməsi erməniləri acıdırdı. Onun günü-gündən hörmət qazanması çoxlarını qorxuya salırdı. 1940-cı ildən sonra, İrəvana teleqramlar göndərilməyə başladı. Yaxşı ki, teleqramların cavabları həmişə Bəşirin xeyrinə olurdu. Axırda, onlar istədiklərinə çatdılar; rayona Geğam adında ikinci məhkəmə sədri də seçildi. Bir dəfə rayon hərbi komissarının qohumu öz arvadını öldürmüşdü. Geğam bu işi Bəşirin əli ilə gördürmək istədi və məhkəmə prosesinə onun sədrlik etməsini məsləhət gördü. Bəşir də qatilə qanun əsasında iş kəsdi. Bununla da hərbi komissarla arasında soyuqluq yarandı. Müharibə Bəşirin məhkəmə sədrliyindən uzaqlaşdırılması üçün ermənilərə fürsət verdi. Altı ay idi ki, qanlı dava başlamışdı. Cəbhəyə vurhay adam yığırdılar. Bir gün Bəşir evə gələndə dedi ki, məni İrəvana göndərirlər, çağırışçıları oradan yola salıb qayıdıram. Deməyəsən, bu, bir qurğu imiş. Onu da cəbhəyə göndərilənlərin siyahısına salıblarmış. Bir neçə gün gözlədim, qayıtmadı...

Sonradan məktub aldım ki, cəbhədədir. Krımda döyüşür. Mən məcbur olub, kəndə köçdüm. Qafan şəhərindəki evimizi də əlimizdən aldılar...

O illəri yada salanda ürəyim göynəyir. Uzun müddət ondan soraq almadım. Nigarançılıqdan üzülmüşdüm. Bir gün məktubu gəldi. Yazırdı ki, sağ-salamatam, Pribaltikada vuruşuram. Qayıdandan sonra, danışırdı ki, dörd dəfə yaralandım, özüm sənə xəbər vermək istəmirdim. Hətta döyüşlərin birində ağır yaralanmış yoldaşını minbir əziyyətlə od-alovun içərisindən çıxarmışdı. Həmin döyüşçü ömrü boyu ona minnətdarlığını bildirib, deyərdi ki, "Bəşir olmasaydı, mən sağ qalmazdım..."

Bəşir Həsənovu 1945-ci ilin sonunda ordudan tərxis etdilər.



Bir müddət kənddə yaşadı. 1946-cı ildə ilin avqust ayında Qafan Maliyyə şöbəsində işə girdi. Qanunsuz zəbt edilmiş mənzilini geri aldı. Bütün bunlar isə erməniləri bir daha yerindən oynatdı. Bir daha ona haqsız hücumlar başladı. Ona görə, kəndə qayıdıb, vəfalı Səriyyəsinin direktor olduğu məktəbdə dərs dedi. 1956-cı ildə isə Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsinin qiyabi şöbəsinə daxil oldu və 1962-ci ildə ali təhsil diplomu aldı.

Doğma torpaq, yaxın adamlar ona yeni inam, yeni yaşam vermişdilər; vəfalı Səriyyəsi ilə eyni məktəbdə dərs deyir, övladlarını böyüdür, adamlara lazım olduğunu duyduqca fərəhlənirdi. Müharibə veteranı kimi, qələbənin ildönümləri münasibətilə ona medallar verilir, yada salır, hörmət edirdilər. Hətta 1985-ci ildə "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif olundu. "Əmək veteranı" fəxri adı da aldı. Ən önəmlisi o idi ki, ömrünün ulu çağlarını doğma torpaqda yaşayırdı...

**Qızı Gülşən Məmmədovanın xatirəsindən:**

– Atam təbiət vurğunu idi. Varlığa göz açandan uca dağlar, qalın meşələr, barlı-bərəkətli bağlar görmüşdü. Ona görə, ağac əkmək, onlara qulluq etmək ürəyincə idi. Bölgənin nüfuzlu ağsaqqallarından sayılırdı; hər yerdə hörmətini saxlayırdılar. Bir xeyirdən, kiminsə qəminə kədərinə şərik olmaqdan qalmazdı. Rayonun bütün təşkilatlarında sözü keçirdi. Onun təşəbbüsü ilə Hünüt kəndinə su çəkildi, yolu qaydaya salındı, işıq verildi, Oxdar kəndində orta məktəb binası inşa edildi. Onu mehriban ailə başçısı, qayğıkeş, eyni zamanda, tələbkar bir ata təki, xatırlayıram. Övladları kimi, nəvələrini də çox sevərdi...

Günlər öz axarı ilə axıb gedirdi. Lakin "qarnı qara sancılı" ermənilər yenidən onun dinc həyatına barmaq uzatdılar. 1988-ci ildə başlanan qarma-qarışıqlıqdan sonra, bir daha doğma yurdunu tərk etməyə məcbur oldu. Həyatının qalan illərini Bakıxanov qəsəbəsində keçirdi. 80 yaşını qeyd etməyə hazırlaşırdı. Ancaq amansız ölüm buna imkan vermədi. 1992-ci ilin yanvarında öz dünyasını dəyişdi. İndi onun ömrü vəfalı Səriyyəsinin ağ saçlarında, övladlarının, nəvələrinin xatirəsi ilə dolu günlərində, bir də... bir də köçəri durnaların nəğməli, səsli-küylü qatarında yaşanır...



## İMAŞ MƏHƏMMƏD OĞLU İMAMƏLİYEV

Xalq elçisi, təsərrüfat rəhbəri və ictimaiyyətçi. Daha çox təsərrüfat başçısı və el ağsaqqalı kimi tanınıb.

**1903-1943**

## SON MƏKTUBU SİVAŞDAN GƏLDİ...

Axşam üstü idi. Ətəyi meşələrlə örtülmüş dağların zirvələrində Günəşin son qızartıları işarırdı. Oxçu çayı boyunca Şəhərcik kəndinə doğru səmtlənən yolla bir atlı gedirdi. Hərdənbir üzəngiyə keçirdiyi ayaqlarını atın yanlarına vurub, onu dəhmərləməsindən hiss edərdin ki, tələsir. Qaranlıq çökməmiş, kəndə çatmaq istəyirdi. Bu onun həyatda, bəlkə də, ən qısa yolu idi. Ömür yolu isə enişli-yoxuşlu olmuşdu. At yoxuşa dirənirdi. Bu zaman yavaşıyır, ayaqlarını asta-asta atırdı. Çınqıllara dəyib, tappıldayan nalların səsləri onu keçmişə – daha uzaqlara çəkib aparırdı. Sanki bu səslər onun ömür yolunun təkrarsız notları idi...

...1903-cü ildə Şəhərcik kəndində doğulmuşdu. Ailənin ikinci oğlu idi. Uşaqlığı 1905-1907-ci illərin qırğınlarına, yetkinliyi isə 1918-1920-ci illərin soyqırımına, qaçqınlıq müsibətlərinə, gənclik çağları isə 30-cu illərin ağır günlərinə düşmüşdü. Üç qardaş, bir bacısı vardı. Qardaşları Məlik, Bəhlul və Kərim kənddə idilər. Bacısı Gülləri vaxtsız itirmişdilər. Atası Məhəmməd kişi ilə anası Yasəmən arvad onları boya-başa çatdırmaq üçün daha hansı müsibətlərlə qarşılaşmamışdılar?!



Uzaqdan Qırqalası görünürdü. Ona baxanda didərginlik günlərini xatırladı. Qırqalasından başlayan qaçqınlıq yolları Burgurşad silsiləsindən keçdi. Qapıcıqdan Naxçıvan ərazisinə aşdı... Onlar Dırnıs kəndindən keçib, Əylisə gəldilər. Ordubaddan keçib, o tay-bu tay Culfaları ayaqladılar. Cənub Culfasında olan bir əhvalatı heç zaman unuda bilmirdi:

Məhəmməd kişinin yeganə xalısını oğurlamışdılar. Onu qaragün üçün saxlamışdı. Hansı insafsızsa qaçqının malına göz dikmişdi. Kişi yerli xana şikayətə getdi:

– Xan, başına dönüm, gözümüzün tikəcəyi bircə xalımız vardı, onu da gecə gəlib aparıblar...

Xan kişini arxayın saldı:

– Qəm yemə, qoca, xalını, harada olsa, tapdırram!

O, nökəri çağırtdırıb, şallaqla döyməyə başladı:

– Köpək oğlu, xalını sən gətirmisən, boynuva al!

Nökər isə hər dəfə vuranda deyirdi:

– Ağa, başıva dönüm, mən gətirsəm, səndə olardı!..

Məhəmməd kişi anladı ki, xalını bu nökər gətirib, xana verib. Daha onu geri almaq olmaz. Həm də xan şallağı göyə qaldırıb, nökərə ehmalca vurur. Odur ki, onunla sağollaşıb, kor-peşiman qayıtdı, uşaqları götürüb, Qubadlının Xocahan kəndinə gətirdi... Sonralar Məhəmməd kişi bu əhvalatı tez-tez danışıb adamları güldürərmiş:

– "Ağa, başıva dönüm, mən gətirsəm, səndə olardı!.."

Onlar Xocahan kəndində üç ilə yaxın yaşadılar. Qafanda Şura hökuməti qurulandan sonra, yenidən kəndə qayıtdılar...

Cəmil Məlikoğlu Məhəmməd kişinin ailəsinin Xocahanda keçən günləri barədə yazır: "– 1920-ci ilin aprel ayında XI Qızıl Ordunun köməyi ilə Azərbaycanda Şura Hökuməti quruldu. Ordu öz qüvvələrini daşnakların hakimiyyəti altında olan Qərbi Azərbaycana yönəltdi. Zəngəzura yönəldilən hissələr Qubadlı bölgəsinin Xocahan kəndində yerləşdirildi. Həmin çağlarda Məhəmməd kişi və onun övladları ehtiyac ucbatından ordunun rəhbərlərinin bir sıra tapşırıqlarını yerinə yetirməli olurlar: onlar əsgərlərin yeməklərini hazırlayır, təsərrüfat işlərinə baxır, atlarını yemləyirdilər. Beləliklə, onların XI Qızıl Ordu rəhbərləri, o cümlədən siyasi rəhbər – Bakı bolşeviklərinin

nümayəndəsi Savalan Şirinovla tanışlığı başlayır. Bu həmin adamdır ki, Şura hakimiyyətinin ilk illərindən 30-cu illərin axırınadək Qafan rayon İcraiyyə Komitəsinin siyasi şöbəsinin rəisi olmuşdur..."

Qafandan Şəhərciyə gələn atlı İmaş İmaməliyev idi. Savalan Şirinovun çağırışı ilə onun yanında olmuş, xoş xəbərlə geri dönürdü. Bu xəbər Şəhərcik kəndinin, o cümlədən bütün bölgənin sevincinə səbəb olacaqdı; İmaşı Respublika Ali Sovetinə deputatlığa namizəd göstərmişdilər. Şəhərcikdən ali məclisə seçilən ilk xalq elçisi İmaş İmaməliyev idi.



*İmaş İmaməliyev (sağdan birinci) atası Məhəmməd, qardaşları Məlik, Kərim və qohumları arasında. 1935-ci il.*

O, ordu hissələri ilə Qafana necə qayıtdıqlarını da yaxşı xatırlayırdı; qış günü qaçqın düşmüşdülər, qış günü də doğma kəndə üz tutmuşdular. Azğın daşnaklar kəndi yandırmışdılar. Evlərin yerində xarabalıqlar qalırdı. Atası Məhəmməd kişi birtəhər komanın üstünü örtüb, ailəsini başına topladı. Bir məsələ yoxsulların xeyrinə idi, torpağı onlara paylamışdılar. Hərə öz bağını dirçəldir, bostanını ləkləyir, zəmisini əkirdi. Mal-qara saxlamaq da öz növbəsində. 30-cu illərin əvvəllərinə yaxın artıq bütün kəndlərdə fərdi təsərrüfatlar dirçəlməyə başlamışdı. Kollektivləşmə siyasəti hər şeyi alt-üst etdi. Bir sıra



kəndlərdə, o sıradan Şəhərcikdə kolxoz quruculuğunun əleyhinə çıxan çox oldu. Ona görə də, burada kolxoz bir neçə il gec quruldu...

İmaş fəal komsomolçulardan idi. O, kənddə kolxozun qurulmasına az kömək etmədi. Odur ki, kolxozun ilk təsərrüfat briqadirliyi ona həvalə olundu. İki il bu vəzifəni uğurla apardı. 1938-ci ildə İmaşı kolxoz sədri seçdilər. Bir il idi ki, təsərrüfata başçılıq edirdi. Deputatlığa namizəd göstərilməsi isə məsuliyyəti ikiqat artırırdı... Xəyaldan, sanki indi ayıldı. At kəndin girəcəyində durmuşdu...

İmaş İmaməliyevin xalq elçiliyi, ilk növbədə, Şəhərcik kəndində özünü göstərdi; onun köməkliyi ilə orta məktəb binası və klub inşa edildi. Qonşu kəndlərin də gəncləri orta təhsil almaq imkanı qazandılar. İctimai işlər İmaş İmaməliyevin özünə təhsilini davam etdirmək imkanı verməmişdi. İrəvan Kənd Təsərrüfatı Texnikumuna oxumağa göndərildi. Bir il oxumuşdu ki, başlanan dava təhsilini yarımçıq qoydu. Kəndin adamları neçə il üz-gözünə öyrəşdikləri, nəfəsinə isinişdikləri bir başçını göz yaşları ilə cəbhəyə yola saldılar. İki ilə yaxın ön cəbhədə vuruşdu. 1943-cü ilin payızında Krım uğrunda döyüşlərdə iştirak edirdi. Son məktubu Sivaşdan gəldi...

İndi övladlarının ömür-günündə yaşanır İmaş İmaməliyev!..



## FATMA DADAŞ QIZI ƏZİZOVA

Xalq elçisi, maarif xadimi. Daha çox xalq təhsili sahəsində rəhbər işçi, pedaqoq və el ağbirçəyi kimi tanınıb.

**1915**

## "ÖZÜM DEDİKLƏRİMİ YAZ!"

Anam biləndə ki, tərtib edəcəyim kitabda onun barəsində yazı veriləcək, dedi:

- Ay oğul, sən mənim haqqımda yazma. Deyərlər, öz anasını tərifləyir. Otur, özüm dediklərimi yaz, həyatımın yaddaşımdan silinməyən izləri var...

Mən də anamın sözünü yerə salmadım. Necə söylədisə, eləcə də qələmə aldım...

- 1915-ci ilin yayında Dulan yaylağına yaxın olan Novruz yurdunda dünyaya göz açmışam. Atam Zəngilan bölgəsindəki Gilətağ kəndindən, anam isə Qafanın Yuxarı Girətağ kəndindəndir. Bu iki kəndi, yalnız ərazi bir-birindən ayırır. Əslində, elə bir kənddir; aran-dağ kimi ayrı düşübdür. Tale elə gətirib ki, iki yaşımda olanda mən dünya işığına göz açdığım yaylaqda atamı itirmişəm. Məzarı da həmin yerdə qalıb. On beş yaşına kimi, dayılarım Səməd və Məhəmmədqulunun himayəsində böyümüşəm. Uşaqlığım aran kəndimiz - Gilətağda keçib. 1924-cü ildə birinci sinfə getmişəm. 1931-ci ildə yeddiilliyi bitirmişəm. İlk müəllimim Əbülfəz Bəxtiyarov olub. Orta məktəb müəllimlərimi; Xocahandan Vəli müəllim,



Sofuludan Nuşirəvan müəllim, Xocamsaxlıdan Baxış müəllim Gürgülüdən Hümmət müəllim, Aşağı Yeməzlidən Namazqulu müəllimi minnətdarlıqla xatırlayıram. Nuşirəvan Kərimov həm da şair idi, gülməli şerlər yazardı. Bunlardan bəziləri "Molla Nəsrəddin" jurnalında dərc olunub. Onun qəribə xasiyyəti vardı; yazı dəftərlərini paylayar, hər bir şagirdin soyadına uyğun sözlər deyərdi. Onlardan bir neçəsi yadımda qalıb:

**Allahverdi Yarışlı,**
**Saqqalı bir qarışdı;**
**Şamama Namazova,**
**Çox yazıb, çəkib cəfa** və s.

Əvvəllər, məktəbimiz köhnə bir damda yerləşirdi; eyvanın qarşısına çəpərə çəkib, üstünü suvamışdılar. Nuşirəvan müəllimin bu məktəb barədə yazdığı şer "Molla Nəsrəddin" jurnalında çıxmışdı; bir bəndi hələ də yadımdadır:

**O nədir ki, zığı var,**
**Altında çubuğu var.**
**Pəncərəsi yoxsa da,**
**Hər yandan işığı var?**

Jurnalda isə bu şerə belə cavab yazmışdılar:

**Çəpərədir, zığı var,**
**Altından çubuğu var.**
**Gilətağ məktəbidir,**
**Hər yandan işığı var.**

Bunun böyük təsiri oldu; 1929-cu ildə kənddə yeni məktəb binası tikdilər. Sonradan bu məktəb onillik kimi bölgədə məşhurlaşdı. Bir sıra yaxın kəndlərin uşaqları da bizim məktəbdə oxuyurdular...

1931-ci ilin avqust ayı idi. Yeddiilliyi bitirmişdim. Rayon mərkəzindən xəbər gəldi ki, Bakının tikiş fabrikində işləmək üçün qızlar tələb olunur. Üç nəfər qız; Sürəyya, Güllü və mən

yazıldıq. Əbülfəz müəllim (onun ruhu qarşısında baş əyirəm!) bizi Qubadlı qəsəbəsinə gətirdi. O zaman rayon mərkəzi həmin qəsəbədə yerləşirdi. Sonradan Zəngilan ayrılıb müstəqil·rayon adını aldı.

Başqa kəndlərdən də qızlar toplaşmışdılar. Bizi Akara stansiyasına gətirib, vaqonlara mindirdilər. O vaxt dəmiryol vaqonları çox kiçik idi, 50-ci illərin ortalarına kimi, onlardan istifadə olunurdu...

O gecə, bəlkə də, ömrümüzdə ilk dəfə idi ki, səhərə qədər çimir etmədik. Gözümüzü vaqonun kiçik pəncərəsindən bayıra dikib qaldıq. Bunun iki səbəbi vardı; həm təkərlərin yeknəsək səsinə alışmamışdıq, həm sevincimizdən yata bilmirdik. Bəs necə, kənddən şəhərə gedirdik, özü də Azərbaycanın paytaxtı Bakı şəhərinə!

Bir ilə yaxın tikiş fabrikində işləməklə yanaşı, xüsusi dərzilik kursu keçdik. O zaman fabrik-zavod kurslarını bitirənləri məktəblərə birinci növbədə qəbul edirdilər. Güllü ilə Bakı Pedaqoji Texnikumuna (Bakı Darülmüəllimi adlanırdı) daxil olduq. Bir ilə yaxın orada oxudum...

1933-cü ildə ailə həyatı qurduğumdan qiyabi şöbəyə dəyişilib, Yuxarı Girətağ kəndinə qayıtdım. Lakin Bakı Pedaqoji Texnikumunun kollektivini, Abdulla Şaiq, Qafur Əfəndi Qantəmir, Abidov, Atamalıyev və başqalarını ömrüm boyu unutmadım...

Həyat yoldaşım Təhməz Əzizov müəllimlər kursunu bitirmişdi. Onu Qafan bölgəsinin Kurud kəndinə müəllim təyin etdilər. Texnikumda oxuduğum və müəllimlərə ehtiyacın böyük olduğunu nəzərə alıb, mənim də dərs deməyimə icazə verildi. 1933-34-cü tədris ilində Kurudda, 1934-35-ci tədris ilində Baharlıda, 1935-36-cı tədris ilində isə Gığıda dərs dedik. Gığı kəndindəki fəaliyyətimiz daha yaddaqalan oldu. Burada məktəbin direktoru Həbib İsmayılov idi. (şair Hafiz Baxışın atası) Onun həyat yoldaşı Narınc İsmayılova isə kənd klubunun kitabxanaçısı işləyirdi. Biz gündüzlər dərs deyir, axşamlar isə kənd klubunda teatr tamaşaları verirdik. Dövrün, şura quruluşunun tələbi belə idi; müəllimləri əsas təbliğatçılar kimi hazırlayırdılar...



1936-cı ildə yenidən Yuxarı Girətağ kəndinə qayıtdıq. Həbib müəllim direktor, biz isə müəllim işləyirdik. Həyatımın ən mənalı illəri idi; kənddə təzə otaq tikdirmişdik, at almışdıq, üç uşaq anasıydım, mənə zərbəçi adı vermişdilər, 1939-cu ildə rayon sovetinə deputat seçilmişdim... Qanlı müharibə başlamasaydı...

1939-cu ilin dekabr ayında həyat yoldaşımı hərbi qulluğa çağırdılar. Bütün ailənin qayğıları mənim üzərimə düşdü... 1941-ci ilin iyun ayında qayıtmalı idi. May ayında yazdığı son məktubunda belə bir cümlə vardı: "İşin içindən iş çıxmasa, bir aydan sonra görüşərik..." Ancaq "işin içindən iş" çıxdı; 1941-ci ilin iyun ayının 22-də qanlı müharibə başladı. Yalnız 1943-cü ilin noyabr ayında ondan "xəbərsiz itməsi" barədə soraq aldım...



*Fatma Əzizova (sağdan birinci) Yuxarı Girətağ kənd məktəbi müəllimləri arasında. 1948-ci il.*

Dava bir qorxunc əjdahaya dönmüşdü; ağzını açıb, müəllimləri bir-bir kamına çəkirdi. 1942-ci ilin əvvəllərində Həbib müəllimi də hərbi qulluğa apardılar. Direktorluğu mənə həvalə edib getdi. Maarif şöbəsində də buna razılıq vermişdilər. Vəziyyət xeyli çətinləşdi. Məktəbin bağlanmaq təhlükəsi vardı. Odur ki, yeddiillik təhsili belə olmayan qadınları dərs deməyə

cəlb etdim. Məktəbin bağlanmasına yol vermədim. Bir il beləcə işlədim. Ən böyük çətinlik rayon mərkəzinə gedib-gəlmək, müəllimlərin aylıq əmək haqqını gətirmək idi. Bir il sonra, Baharlı məktəbində bədən tərbiyəsi müəllimi işləyən Zülfüqar Bünyatovu direktor, məni isə dərs hissə müdiri təyin etdilər. 1956-cı ilə kimi, dərs deməklə yanaşı, həmin vəzifədə çalışdım...

1943-cü ildə mənə "Maarif əlaçısı" fəxri adı veriblər. Bir neçə dəfə şəxsi təşəbbüsümlə cəbhəyə yardım göstərmişəm. Bütün bunlar nəzərə alınaraq bir sıra medallarla, o cümlədən arxa cəbhədə "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşam.

1946-cı ildə respublika Ali Sovetinə deputat seçilmişəm. 1956-58-ci illərdə Xalq iclasçısı olmuşam.

Bütün bunlara baxmayaraq, 1941-45-ci illər müharibəsini ömrümün ən qüssəli beş ili hesab edirəm. Çünki bu qanlı-qadalı illərdə mən təkcə öz həyat yoldaşımı deyil, Həbib İsmayılov, Nəbi Məmişov, Ələkbər Məmişov, Mirzəli Əliyev, Hüseyn Bünyatov, Murad Nuriyev, Baxış Babayev, Yaqub Kərimov, Mustafa Şıxəliyev kimi həmkarlarımı da itirmişəm. Bu gün onları dərin hörmətlə, sonsuz kədərlə yada salıram. Həmin müəllimlər xalqın maariflənməsi yolunda çox iş görə bilərdilər... onda, müəllimlərimiz getdi, indi isə doğma torpaqlarımıza həsrət qaldıq... Qoy bunları gələcəkdə oxuyan hər bir övladımız dostu ilə düşmənini, doğma ilə yad torpağı yaxşı tanısın!

Anam susdu... Gözlərində yaş gilələnmişdi...Mənə isə 1971-ci ildə yazdığım "Anam mənim" şerini bu xatirəyə əlavə etmək qaldı:

**Ömrüm uzun olsun deyə-**
**Gəncliyinə daş atmısan!**
**Ürəyimi körpə bilib,**
**Çox arzumu, diləyimi**
**Ürəyində yaşatmısan,**
**Anam mənim!**



**Gözlərimin işığını**
**Ulduz-ulduz parlatmısan!**
**Günlərim ağ olsun deyə-**
**Gecə rəngli saçlarını**
**Çağdan çağa qarlatmısan,**
**Anam mənim!**

**Sözlərim bal dadsın deyə-**
**Acı dadıb, qəm yemisən!**
**Qəlbim məşəl olsun deyə-**
**Öz odunda, göz odunda**
**Bir şam kimi ərimisən,**
**Anam mənim!**

**Qayğıların pilləsində**
**Atama da əvəz oldun!**
**Bu Azərbaycan ömrümə**
**Əyilməyən, başıqarlı**
**Şahdağ oldun, Kəpəz oldun,**
**Anam mənim!**
**Anam mənim!**



1952

## ELDAR ŞAMXAL OĞLU ABASOV

İctimai xadim, xalq elçisi, elmlər doktoru, professor. Daha çox tibb elmləri mütəxəssisi, alim-pedaqoq və xalq elçisi kimi tanınıb.

## XALQA XİDMƏT AMALI

Bilmirəm, bu təvazökarlıq bizi hara aparıb çıxaracaq?! Neçə vaxtdır ki, Eldar Abasovdan özü haqqında yazmasını xahiş edirəm, təvazökarlıq göstərir. Qafan bölgəsinin başqa tanınmış adamlarından yazmağı məsləhət bilir; "Mənim adım kitaba düşməsə də olar, təki qabaqcıl adamlarımız barəsində daha çox yazılsın!" – deyir. Xasiyyətinə daha çox bələd olduğumdan üz vurmuram. Yoxsa deyərdim ki, ay qardaş, axı sənin heç əlli yaşın tamam olmamış, elmin zirvəsinə yüksəlmisən. Milli Məclisə deputat seçilmisən, sənətinin mahir bilicisi kimi xarici ölkələrdə belə məşhursan! Həm də bu ucalığa öz istedadın, öz səriştən və öz hörmətin sayəsində qalxmısan! Kitaba salınan yazıların çoxu el-obamızın məşhur adamları barəsindədir, bunların sırasında sənin haqqında yazı niyə olmasın?!

Nəhayət, özünün tələm-tələsik yazdığı iki səhifəlik tərcümeyi-halını mənə göndərdi. Daha demir ki, onun yazdıqlarını mən əzbər bilirəm, bir qalır adların və tibb terminlərinin dəqiqləşdirilməsinə! Daha demir ki, Milli Məclisə deputat seçilən ərəfədə dövri mətbuat səhifələrində gedən yazıları və bəzi müraciətləri qoruyub saxlamışam. İndi bu



yazıda onlardan da istifadə edəcəyəm...

1968-ci ilin iyul ayı yadıma gəlir; Eldar Abasov Qafan bölgəsinin Gığı kəndindəki orta məktəbi qızıl medalla bitirib, Bakıya gəlmişdi. Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunmaq arzusundaydı. Sənədləri qəbul komissiyasına təqdim etdik. Hələ sənəd verən çox azdı. Onları bir-bir nəzərdən keçirən oğlan heyrətlə Eldarın üzünə baxdı; "–Necə, on altı yaşında orta məktəbi bitirmisən, özü də qızıl medalla?!"

O, sənədləri götürüb, qəbul komissiyası sədrinin yanına getdi. Bir azdan Eldarı da ora çağırdılar. Onlara bildirdi ki, mən altı yaşından məktəbə getmişəm, burada təəccüblü nə var ki,?!

Yenə inanmadılar. Qəbul komissiyasının sədri nazirliyə zəng vurdu. Oradan icazə alandan sonra, sənədləri qəbul etdilər. Onda qayda belə idi; orta məktəbi qızıl medalla bitirənlər bir imtahan verib, "beş" qiymət alsa idilər, qəbul olunurdular. Eldar da bir imtahan verdi, lakin "beş" qiymət yazmadılar. Bütün imtahanları uğurla verib, institutun müalicə-profilaktika fakültəsinə qəbul edildi.

Eldar Abasov həkim sənətinin sirlərinə yiyələnmək üçün 7 il burada təhsil aldı, xəstəxanalarda təcrübə keçdi. Oxumaqla yanaşı, institutun ictimai işlərində, tələbə elmi cəmiyyətində fəallıq göstərdi. Bütün təhsil illərində Nərimanov adına təqaüdlə oxudu, 1974-cü ildə institutu fərqlənmə diplomu ilə bitirdi. Elmi Şuranın qərarı ilə onu "Travmatologiya-ortopediya və hərbi-səhra cərrahiyyəsi" kafedrasında baş laborant vəzifəsində saxladılar. Bir ilə yaxın həmin vəzifədə çalışdı. 1975-ci ildə Eldar Abasovu oynaq xəstəlikləri üzrə təcrübə keçmək üçün Moskvaya ezam etdilər. Tibb Elmləri Akademiyasının Elmi-Tədqiqat Revmatologiya İnstitutunda bir ilə yaxın təcrübə keçdi. Bu təcrübə onun tibb elmi sahəsində fəaliyyəti üçün böyük təkan oldu. 1976-cı ildə həmin institutda revmaortoped ixtisası üzrə aspiranturaya daxil oldu. Ona "Revmatoidli poliartridin erkən cərrahi müalicəsi" mövzusunda tədqiqat aparmağı məsləhət bildilər. Üç il gərgin şəraitdə işlədi; həm xəstəxanada həkim kimi çalışdı, həm də namizədlik dissertasiyası üzərində tədqiqatını davam etdirdi. Əməyi hədər getmədi. 1979-cu ildə dissertasiyasını uğurla müdafiə edib, tibb elmləri namizədi

alimlik dərəcəsi aldı. İxtisaslı alim kimi Bakıya dönən Eldar Abasov əmək fəaliyyətinə başladığı kafedrada assisent vəzifəsində çalışdı. Tibb İnstitutunda dərs deməklə yanaşı, xəstələri müalicə ilə də məşğul olurdu. Tezliklə respublikada gözəl mütəxəssis kimi tanınmağa başladı. İllər boyu oynaq xəstəliklərindən əzab çəkənlər ona müraciət edirdilər. O, Respublika Səhiyyə Nazirliyinin bu sahədə baş mütəxəssisi oldu. Moskva xəstəxanalarında keçdiyi təcrübə hər yerdə əlindən tuturdu. Lakin daha yüksək elmi dərəcə almaq vacib idi. Odur ki, 1982-ci ildə yenidən Moskvaya – Elmi-Tədqiqat Revmatologiya İnstitutuna doktoranturaya göndərildi. Ona "Diz oynağının xroniki iltihabı proseslərinin diaqnostikası və kompleks müalicəsi" mövzusunda doktorluq işi yazmağı tövsiyə etdilər. Əlbəttə, bu özlüyündə sadə problem deyildi; nəzəri məsələləri təcrübədə tətbiq edib, yaxşı nəticə verən müalicə üsulları meydana çıxarmaq vəzifəsi qarşıya qoyulurdu. Dörd il müddətinə çəkilən zəhmət uğurla nəticələndi.

Eldar Abasov 1986-cı ildə həmin mövzuda doktorluq dissertasiyası müdafiə etdi. Bu işdə akademik Valentina Nasonova və professor Vadim Pavlov kimi mütəxəssislər ona az kömək etmədilər. O, diz oynağının xroniki iltihabı ilə meydana çıxan 20-dən çox xəstəliyin xüsusiyyətlərini öyrənib, ümumiləşdirilmiş nəticələrə gəlmişdi. Mütəxəssislər onun nəticələrini yüksək qiymətləndirdilər. O, eyni zamanda, keçmiş SSRİ məkanında bu sahə üzrə ən gənc elmlər doktoru idi. Bir il sonra, 1987-ci ildə Eldar Abasov professor elmi adına layiq görüldü. 1991-1994-cü illərdə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun "Travmatologiya-ortopediya" kafedrasının müdiri vəzifəsində çalışdı. O neçə il idi ki, Bayılda "Elmi Artroloji Mərkəz" yaratmaq üçün böyük səy göstərirdi. 1994-cü ildə "Mərkəz" yaradıldı və Eldar Abasov onun rəhbəri təyin edildi.

O, 70-dən çox elmi məqalənin, bir monoqrafiyanın və bir tədris vəsaitinin müəllifidir. Uzun illərdir ki, Azərbaycan Dövlət Tibb Universitetində dərs deyir.

Eldar Abasov Respublika ortopediya elmini xaricdə, o cümlədən ABŞ, Almaniya, Hollandiya, Macarıstan, Türkiyə,



İran, İngiltərə və b. ölkələrdə dəfələrlə təmsil etmişdir. 1995-ci ildən Ümumdünya Travmatoloqlar Birliyi İdarə Heyətinin üzvüdür.

Tibb xidməti və elm sahələrində böyük uğurlar qazanan Eldar Abasov siyasi fəaliyyətə qoşulur. Respublikada gedən ictimai-siyasi hadisələr bir ziyalı kimi, onu da narahat edir, xalqın taleyi dərindən düşündürür. 1992-ci ilin oktyabr ayının 16-da "Səs" qəzetində dərc olunmuş Heydər Əliyevə müraciət imzalayan 91 ziyalıdan biri də Eldar Abasovdur. Həmin müraciətdə deyilirdi: "...Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən, minlərlə insanı ölümə aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda "sürətli artım", ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi partiyaların rəhbərləri arasında, sözün əsl mənasında, geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.

Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz!"

Bu inamla da o həmin müraciətə imza atmışdır...

1995-ci ilin noyabr ayında Eldar Abasovun ictimai fəaliyyətində önəmli bir hadisə baş verdi. O, Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçildi. Qəzetlərin birində "Nə səbəbə deputat seçilmək istəyirsiniz?" sualına belə cavab vermişdir: – Mən bu günə qədər bir amalla yaşamışam. Xalqıma xidmət həmişə şəxsi mənafeyimi ikinci plana çəkmişdir... İndiyə qədər bir həkim kimi, fərdlərin müalicəsi ilə məşğul olmuşam, bundan sonra, cəmiyyətimizin problemləri ilə məşğul olmaq fikrindəyəm...

Eldar Abasov öz amalına daim sadiqdir. Bu amal 1952-ci ildə dünyaya göz açdığı Qafan bölgəsindəki Yuxarı Girətağ kəndindən başlayır... Həkim olmaq arzusu isə babası Qara kişinin sınıq sarıma, çıxıq salma səriştəsini müşahidədən başlayır... Kimya-biologiya müəllimi - atası Şamxal Abasovun bu elmin ilk sirlərini körpəlikdən ona aşılamasından başlayır... Bir də... Bir də öz fitri istedadı və fərdi bacarığından...

Bu fitri istetadı qiymətləndirənlərdən biri də mənəm. Kitablarımdan birini avtoqrafla ona bağışlamış və yazmışdım:

Kəsərsən kökünü azar-bezarın,
Ağrılar ağrından çəkilər geri.
Yarıb yara açar nur barmaqların,
Nurladar, sağalar yaranın yeri.
Bir yurd itirmişəm, itkisi ağır,
Bir dərd bitirmişəm, bitkisi ağır!
Qardaş, ürəyimə özün qulaq as,
Loğmansan, ayrılıq yarama köz bas!





1950

## ZÜLFÜQAR MUSA OĞLU KAZIMOV

İctimai və dövlət xadimi, mühəndis-texnoloq, icra hakimiyyətinin başçısı. Daha çox ictimaiyyətçi, istehsalat rəhbəri və dövlət xadimi kimi tanınıb.

## HƏYATIN SÜRƏT QATARI

Qafan-Bakı sərnişin qatarının yola düşməsinə az qalırdı. Hamı vaqonlarda artıq öz yerini tutmuşdu. Bəziləri vaqonların pəncərələrindən onları yola salanlara əl edirdilər. Nəzarətçi işarə verdi. Paravoz fit verib, fısıldaya-fısıldaya irəli şığıdı. Stansiyanı boz bir duman bürüdü. Birdən hamının nəzəri eyni səmtə doğru yönəldi; qatarın ardınca iki uşaq qaçırdı. Onlar sonuncu vaqona çatıb, qapıya doğru can atdılar. Qapının ağzında dayanan sərnişinlərdən biri onlara vaqona minməkdə kömək etdi. Hər yer tutulmuşdu. Dəhlizdə özlərinə yer eləyib, ayaq üstündə dayandılar...

Bu hadisə 1965-ci ilin avqust ayında olmuşdu. Həmin oğlanlardan biri Zülfüqar, o biri isə onun sinif yoldaşı və uşaqlıq dostu İmran idi. Doğma Oxdar kəndində səkkizinci sinfi bitirmişdilər. Bakıya oxumağa gedirdilər. Kənddən gələn avtobus gecikdiyindən qatara yubanmışdılar. Bir az da keçsəydi, yəqin ki, çata bilməyəcəkdilər...

Qatar ilan kimi qıvrıla-qıvrıla Oxçu çayı boyunca Pirçivana sarı şütüyürdü. Dostu ilə yanaşı durub, pəncərədən çölə

baxırdılar. Oxçu çayının boz-bulanlıq suyu onlara qəribə gəlirdi. Axı Oxdar çayının suyu göz yaşı təki duru idi. O çayda çimərdilər, balıq tutardılar. Suyun dibi əl içi kimi görünərdi. Saatlarca oturub, balıqların o yan-bu yana üzməsinə tamaşa edərdilər. Yolun hər iki tərəfi kolluq və qayalıq idi. Ağaclar, necə də, Qənimət meşəsinin ağaclarına, qayalar Kölgəlinin, Təpəsərin qayalarına oxşayırdı. Bir anlıq doğma yerlərdən ayrılmaq Zülfüqara çox ağır gəldi. Doluxsundu. Dönüb dostu İmranın üzünə baxdı; onun da gözləri yaşarmışdı. Vaqonun kiçik pəncərəsindən kino lenti kimi gəlib keçən meşələrə axşam toranlığı çökürdü... Onlar körpəcə ürəklərində böyük bir torpağın həsrət nisgilini aparırdılar. Lakin Bakını görmək marağı, Bakıda təhsil almaq həvəsi daha güclü idi. Qatar da, elə bil, onların istəyini duymuşdu, dərindən nəfəs ala-ala Bakıya tələsirdi...

Sübh tezdən Biləcəri stansiyasına çatdılar. Orada qatardan düşüb, Sumqayıta getdilər. İmranın qardaşı Mahir Sumqayıtda yaşayırdı. Zülfüqar bir neçə gün onlarda qaldı. Məsləhət bildilər ki, hər ikisinin sənədlərini orada texniki-peşə məktəbinə versinlər. Ancaq Zülfüqar Bakıda oxumaq istəyirdi. Həm də qardaşı Şahsuvar neft mədənlərinin birində çalışırdı. Ona görə Zülfüqarı Bakıya gətirdilər. Qardaşı onu L.Şmidt adına zavodun (indiki Səttarxan adına zavod —R.T.) lap yaxınlığında yerləşən 10 saylı texniki-peşə məktəbinə apardı. Onun sənədlərini xarratlıq peşəsi şöbəsinə verdilər. Zülfüqar üç ilə yaxın həmin məktəbdə bu sənətin sirlərinə yiyələndi, inşaat meydançalarında təcrübə qazandı. Məktəbi qurtardıqdan sonra, onu 42 saylı Tikinti İdarəsinin sərəncamına göndərdilər. Bu idarə zavodlar inşa edirdi. Zülfüqar bir neçə il yeni zavodun tikintisində öz bacarığını göstərdi. Peşə təhsilini davam etdirməklə yanaşı, axşam on birinci sinfi də bitirmişdi.

Ali təhsil almaq arzusundaydı. Sənədlərini Azərbaycan Politexnik İnstitutuna təqdim edib, qəbul olundu. Bir neçə ay oxumuşdu ki, hərbi xidmətə çağırıldı. Təhsili yarımçıq qaldı...

Üç il də hərbi xidmətdə keçdi. 1972-ci ildə Zülfüqar Kazımov ordudan tərxis olundu. Sözsüz ki, institutun axşam şöbəsində təhsilini davam etdirəcəkdi. Maşınqayırma



fakültəsinin tələbəsi idi. Demək, ixtisasına uyğun olan zavodlardan birində iş tapmalıydı. Çox axtarmalı olmadı. Onsuz da, texniki-peşə məktəbində təhsil aldığı illərdə yaxındakı L.Şmidt adına zavodda işləməyi qət etmişdi. Burada qohumlarından və uşaqlıq dostlarından da çalışanlar vardı. Onlarla bir yerdə işləmək lap ürəyincə olardı...

Onu dəmirçi sexinə fəhlə götürdülər. İlk gündən zavodun səsli-küylü həyatına alışmağa başladı. Kollektivin üzvləri müxtəlif millətlərin nümayəndələrindən ibarət idilər. Onların hamısı ilə az bir müddətdə "dil" tapmaq və böyük kollektivə birdən-birə isinişmək çətin idi. Zülfüqar Kazımov öz işgüzarlığı, həlim xasiyyəti ilə bu çətinliyin öhdəsindən bacarıqla gəldi. İctimai işlərdə öz fəallığına görə çoxlarından seçilirdi. Yığıncaqlarda çıxış edir, fəhlələrin hüquqlarının qorunması barədə ağıllı tələblər irəli sürürdü. Bu da işçilər arasında ona gündən-günə hörmət qazandırırdı.

İllər, elə bil ki, qanad taxmışdı, sürətlə uçurdu. 1979-cu ildə Azərbaycan Politexnik İnstitutunda təhsilini başa çatdıran Zülfüqar Kazımov mühəndis-texnoloq ixtisasına yiyələndi. İctimai işlərdə fəallığını nəzərə alıb, onu zavodun xalq nəzarəti komitəsinə sədr seçdilər. Bir neçə il sonra, o artıq zavod partiya komitəsinin katibi, Nərimanov rayonu partiya komitəsi plenumunun üzvü idi. Lakin zavodun yerləşdiyi bu rayonda rəhbər işçilərin çoxu ermənilər idilər. Onlar dinc oturmur, azərbaycanlı kadrların irəli çəkilməsinə hər vasitə ilə mane olurdular. Zülfüqar Kazımovu da gözləri götürmür, hər addımda onun qarşısına kötük atırdılar...

**ÖZÜNÜN DEDİKLƏRİNDƏN:**

-Qarabağ hadisələri yenicə qızışmışdı. Mənə çatdırdılar ki, "Qabaqcıl texnika uğrunda" qəzetinin (onda, rus dilində çıxırdı - R.T.) redaktoru Albert Avakyan "Krunq" təşkilatının üzvüdür, bizim əleyhimizə təbliğat aparır. Hər yerdə döşünə döyürdü ki, 30 ildən artıq partiya üzvlük stajım var, heç kəs mənə "güldən ağır" söz deyə bilməz! Onun məsələsinə partiya bürosunun iclasında baxıldı. Millətçilik etdiyi və milli münaqişəni qızışdırdığına görə, bir səslə qərar qəbul etdik ki, Avakyan partya üzvlüyündən çıxarılmalı, vəzifəsindən və zavoddan

qovulmalıdır. Məsələ Nərimanov rayon partiya komitəsinin bürosunda müzakirə olundu. Mən o zaman partiya komitəsinin birinci katibi işləyən Rəfail Allahverdiyevə öz minnətdarlığımı bildirirəm ki, böyük iradə və səbatlıq göstərdi. Büronun üzvləri yekdil rəylə bizim qərarın lehinə səs verdilər. Bakı Şəhəri İcraiyyə Hakimiyyətinin sabiq başçısı Rəfail Allahverdiyevin mənim həmin zavodda direktor seçilməyimdə də böyük rolu oldu. 1987-ci ilin dekabr ayında, məhz onun təklifi ilə zavoda baş direktor seçildim. O vaxta kimi, direktor yuxarı orqanlarda təyin edilirdi. Bu yol ilə seçilən ilk direktor mən oldum...

Bu, səbəbsiz deyildi. Zülfüqar Kazımov istehsalata rəhbərlik və ictimai işlərdə daha çox fəhlələrə mövqe verilməsi yolunda hər kəsə nəsib olmayan bacarıq nümunəsi göstərmişdi. Zavod kollektivinin üzvləri ona inanırdılar. Böyük etimad göstərib, Nərimanov rayon Zəhmətkeş Deputatları Sovetinə xalq elçisi seçmişdilər. O, ictimai işləri islehsalatla əlaqələndirməyi köklü şəkildə mənimsəmişdi.

1988-ci ilin avqust ayına kimi baş direktor vəzifəsini apardı. Bu dövrdə respublikada neftçıxarma avadanlıqları istehsalı sürətlə yüksəldi, kəmiyyət və keyfiyyət göstəriciləri bir-birini tamamladı. Zülfüqar Kazımov bir sıra səmərələşdirici təklifinə və bunların istehsalatda uğurlu tətbiqinə görə, keçmiş SSRİ məkanında Ümumittifaq mükafatlarına layiq görüldü. 1982-ci ildə isə Ali Sovetin Fəxri fərmanı ilə təltif olundu.

Respublikada milli azadlıq hərəkatı dalğaları getdikcə geniş vüsət alırdı. Bu hərəkatın güc aldığı əsas qüvvələrdən biri də Zülfüqar Kazımovun başçılıq etdiyi zavodların fəhlələri idilər. Milli azadlıq hərəkatını boğmaq üçün "Mərkəz"in önə çəkib, arxasında qan tökən silahlarla dayandığı Vəzirov guruhu öz "fəaliyyəti"nə kadr siyasətindən başladı. "S etoqo legiona" - prinsipini əsas götürən bu guruh bir il müddətinə əməkçilər arasında böyük hörmətə malik olan istehsalat rəhbərlərinin başına daha nə oyunlar açmadı?! Zülfüqar Kazımov da onlardan biri oldu. Onu öz işindən ayırıb, 1989-cu ilin yanvarında "Azərelektroişıq istehsalat birliyi" baş direktorunun birinci müavini vəzifəsinə təyin etdilər. Bir il sonra, 1990-cı ildə Nizami rayon sakinləri ona etimad göstərərək Bakı Sovetinə deputat seçdilər.



O öz işgüzarlığı və bacarığı ilə bu etimadı doğrultmuşdur...

Mən onun fəal ictimaiyyətçi, xalq elçisi, mahir istehsalat rəhbəri olduğunu öyrənəndən sonra, bilәndə ki, o, eyni zamanda, karate və aykido Şərq döyüş növləri üzrə "Qara kəmər" ustasıdır və bu sahədə özünün yaratdığı "Mərkəz"in prezidentidir, heyrət etmədim. Çünki Zülfüqar Kazımovun varlığına ulu Qaraqapı-Zəngəzur torpağının körpəlikdən bəxş etdiyi tükənməz bir enerji hakimdir. Bu enerji hələ uzun illər öz gücünü və qüdrətini saxlayacaq! Məsələ isə bu enerjidən el-oba üçün, topaq üçün, başlıcası, xeyirxahlıq yolunda səmərəli istifadə etməkdir. O buna hər baxımdan layiq olduğunu çoxdan sübuta yetirmişdir...



*İcra Hakimiyyətinin başçısı veteranları qəbul edir: Zülfüqar Kazımov (ortada) veteranlar arasında. 2000-ci il, fevral.*

On beş yaşında qaça-qaça sərnişin qatarına yetişən Zülfüqar Kazımov, ucala-ucala əlli dörd yaşına çatmışdır. O, həyatın sürət qatarından bir addım da geri qala bilməz!

Doğrudan da, belə oldu. 2000-ci ilin fevral ayında xoş bir xəbər aldıq, Respublika Prezidentinin sərəncamı ilə o, Bakı şəhəri Nərimanov rayonu İcra Hakimiyyətinin başçısı təyin edildi.

Həmin il Zülfüqar Kazımovun 50 yaşı tamam oldu. Bu

münasibətlə ona həsr etdiyim şerdən bir parçanı nümunə çəkirəm:

Pay aldın yurduma sevgi payından,
Bu payı de, kimsə aldıra bilər?!
Qolların güc alıb Oxtar çayından,
İki yer şarını qaldıra bilər,
Bu gücü de kimsə aldıra bilər?!

Yaşamın əlli yaş pilləsindəsən,
Başını dik tutub, gələcəyə bax!
Demə, qarlı qışın çilləsindəsən,
Soyuqluq yolunda vurar baş-ayaq,
Başını dik tutub, yüz yaşına bax!





## XUDAYƏT MƏHƏMMƏD OĞLU CABBAROV

İctimai xadim, icra hakimiyyətinin başçısı, pedaqoq. Daha çox ictimai təşkilatlarda rəhbər işçi, idman təhsili sahəsində müəllim və məşqçi kimi tanınıb.

**1957**

## AÇIQ QALAN PƏNCƏRƏLƏR

Xızı torpağı özünün güz çağlarını yaşayırdı; narın-narın əsən sərin meh saralmış otları, üzünə allıq çökmüş yarpaqları sığallayıb keçirdi. Meşələrin seyrələn yerində, dağ silsiləsi ucalıqlarına duman yatmışdı. Ala-tala buludlar göy üzündə gah o yana, gah bu yana axırdı...

O, atası ilə bayaqdan bu mənzərələrə tamaşa edir, gözlərində Oxtarın bağları, Qənimət meşəsinin ağacları, Burgurşad dağlarının qoşa-qoşa yaylaqları canlanırdı. Ürəyindən aşığın tanış misrası keçdi:

Yaylaq, bizim yaylaqlara bənzərsən!

Üzünü atasına tutdu:

- Ata, bu yerlər lap bizim dağlara oxşayır, havası da mülayimdir, burda yaşamağa dəyər...

Atası Məhəmməd kişi də oğlunun sözlərinə qəhmər çıxdı:

- Nə deyirəm, ay oğul, bu yerlər elə mənim də xoşuma gəlir.

Onlar torpaq sahəsi götürüb, ev tikdirdilər, Cabbarovlar ailəsi Xızı qəsəbəsində məskunlaşdı... Doğma Oxtar kəndi

uzaqlarda, çox uzaqlarda qaldı...

Xudayət Cabbarov 1957-ci il avqust ayının 22-də Zəngəzur mahalı, Qafan bölgəsinin həmin kəndində doğulmuşdu. Anası Səkinə Hüsüqızı Qaradığa kəndindən idi.

Xudayət səkkiz yaşında ikən 1965-ci ildə məktəbə getdi və ilk təhsilini Əlqəmə müəllimdən aldı. Bağlı-bağatlı, güllü-çiçəkli, çaylı-bulaqlı, bir aləmin qoynunda keçən uşaqlıq illəri quş qanadında uçdu. O, 1973-cü ildə doğma kənd məktəbində səkkizilliyi bitirib, Sumqayıt şəhərinə gəldi. 9-cu və 10-cu sinifləri şəhərin 17 saylı məktəbində davam etdirdi və orta təhsil haqqında, o dövrün dili ilə desək, kamal attestatı aldı. Təhsilini artırmaq istəyirdi, lakin hərbi xidmətə çağırış buna imkan vermədi. 1975-1977-ci illərdə ordu sıralarında xidmət etdi. 1977-ci ilin noyabr ayında hərbi xidməti başa çatlırıb, yenidən Sumqayıt şəhərinə döndü. Hələ orta məktəbdə oxuduğu çağlardan idmana böyük marağı vardı. Hərbi xidmətdə olanda bu maraq daha da artmışdı və idmanın ağırlıq qaldırma növü üzrə məşğul olmağa başladı. 21 yaşında ustalığa namizəd normasını yerinə yetirdi. 1979-cu ilin fevral-avqust aylarında Sumqayıt Şüşə zavodunda çilingər işləməsinə baxmayaraq, idman məşqlərini müntəzəm davam etdirirdi...

Elə bu həvəs və maraq onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gətirdi. Həmin il ali məktəbə qəbul olundu. Bu ona idmanla daha ciddi məşğul olmağa geniş imkanlar açdı. 1983-cü ildə institutu bitirəndə həm bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnmiş, həm də bir idmançı kimi müəyyən dərəcələr qazanmışdı. Təyinatını doğma bölgəyə – Qafan rayonuna götürdü. Onu Gığı kənd orta məktəbinə bədən tərbiyəsi müəllimi təyin etdilər.

1983-1984-cü il tədris ilində həmin məktəbdə çalışdı, müəyyən müəllimlik təcrübəsi topladı. Ancaq daxili bir istək, hansı qüvvə isə onu ana kəndinə, doğma el-obaya, doğma Oxtar məktəbinə, əziz müəllimlərinin yanına çəkirdi. Bu istəyinə də çatdı, düz dörd il – 1984-1988-ci illərdə Oxtar kənd orta məktəbinin bədən tərbiyəsi müəllimi oldu. Tez bir zamanda şagirdlərin sevimlisi kimi böyük hörmətə yiyələndi. Bir hadisəni heç zaman unuda bilmir; rayon üzrə məktəblilərin



spartakiadası keçirilirdi. Onun yarışlara hazırladığı qızlardan ibarət voleybol və oğlanların futbol komandaları uğurla çıxış etdi. Əgər futbol yarışının final matçında erməni hakimi tərəfkeşlik etməsəydi, sözsüz, birinci yeri tutacaqdılar...



*Xudayət Cabbarov (sağdan ikinci) Almaniyanın Azərbaycandakı səfiri ilə Yeni Yaşma qəsəbəsində inşa edilmiş uşaq bağçası binasının açılışında.*

Xudayət Cabbarov özü də rayon mərkəzində ağırlıq qaldırma üzrə məşqlərini davam etdirirdi. 1986-cı ildə Eçmiazdində keçirilən yarışların iştirakçısı oldu və çempion adını qazandı. Hələ tələbə ikən iki dəfə, Sumqayıt şəhər yarışlarında isə üç dəfə bu ada layiq görülmüşdü...

1988-ci ildə ermənilərin başladığı məkrli oyun hər şeyi alt-üst etdi. Xudayət Cabbarov onların boz üzünü həmin ilin fevralında Yerevanda başlanan mitinqlərdə gördü. Onda, Yerevanda idi. Azğınlar onları da doğma yurd-yuvadan didərgin saldılar. O, köçkün düşdükləri günü yaşamın ən ağır günü hesab edir. Köçəndə qayıdıb, bir də evlərinə sarı baxdı; qapı-pəncərələr açıq qalmışdı, pəncərədən onun uşaqlığı boylanırdı. O pəncərələri bir də örtməyəcəkdilər, bəlkə, elə indi də açıq qalıb...

Bir çox qaçqın kimi, Cabbarovlar ailəsi də Sumqayıt şəhərinə gəldi. Xudayət Cabbarov 1989-cu il yanvar ayının 2-

dən Ehtiyat Əmək Qüvvələri Könüllü İdman Cəmiyyətində müəllim-məşqçi işləməyə başladı. Həmin ilin sentyabr ayından Xızı qəsəbəsinə köçdülər. Üç ilə yaxın vaqon evlərində yaşadılar. O, qəsəbə orta məktəbində idman dərslərini apardı. Tez bir zamanda təhsil şöbəsində və məktəb kollektivində böyük hörmət qazandı. Onu təhsil şöbəsi həmkarlar Komitəsinin sədri seçdilər. 1991-ci ilin fevral ayının 1-dən Xızı rayonu Bədən Tərbiyəsi və İdman Komitəsinin sədrliyini ona tapşırdılar. Həmin ilin noyabr ayının 25-dən isə Xudayət Cabbarovu Xızı rayonu İcra hakimiyyəti başçısının Xızı qəsəbəsi üzrə nümayəndəsi vəzifəsinə irəli çəkdilər. 2001-ci ilin iyul ayının 3-nə qədər bu vəzifədə çalışdı. Sonra ona daha məsuliyyətli vəzifə etibar etdilər. Xudayət Cabbarov Xızı rayonu İcra Hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət üzrə müavini təyin olundu. Onda idmançılara məxsus iradə keyfiyyətləri və dəqiq təşkilatçılıq bacarığı vardı. Ona görə də, hər bir vəzifənin icrasında bu keyfiyyətlər qabarıq üzə çıxırdı…

İndi Xudayət Cabbarov Xızı rayonunda ən nüfuzlu şəxslərdən biridir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası prezidentinin 2002-ci il 22 iyun tarixli fərmanı ilə o, Xızı rayonu İcra Hakimiyyətinin başçısı təyin olunmuşdur. Yeni təyinat onu daha da ruhlandırmışdır. Xızı qəsəbəsində yeni quruculuq işləri başlanmışdır. Qəsəbənin mərkəzində təzə park salınır, yollar abadlaşdırılır. Bundan sonra, qəsəbəyə gələn hər kəs özünü yeni bir aləmdə hiss edəcəkdir… Bundan başqa, YAP-ın rayon təşkilatı üçün də bina inşa edilir. Axı 1993-cü ilin 26 fevralında bu təşkilat yaradılanda onun ilk sədri Xudayət Cabbarov seçilmişdi. Elə həmin çağdan təşkilatın sədrliyini aparır. YAP-ın I və II qurultaylarının nümayəndəsi olmuş, siyasi şuraya üzv seçilmişdir.

Uşaqlıqda uca Oğlannıca pirinin üstünə çıxıb, oradan durbinlə ətraf kəndləri seyr etmişdi. Uca vəzifə kürsüsünə təyin olunmuşdu. Hər iki gün ömrünün ən işıqlı anlarıdır. Doğma evi tərk etdikləri gün isə onun yaşamının ən ağır günüdür!





1955

## OQTAY SABİR OĞLU ƏSƏDOV

İctimai xadim, səhmdar su cəmiyyətinin prezidenti, mühəndis-texnik, Milli Məclisin üzvü. Daha çox istehsalat rəhbəri və ictimaiyyətçi kimi tanınıb.

## SU AYDINLIQDIR!..

2000-ci il, 5 noyabrda müstəqil Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilər Qafan bölgəsi üçün də öz uğur payını verdi. 21 saylı Binəqədi seçki dairəsindən deputatlığa namizəd göstərilmiş Oqtay Sabir oğlu Əsədov Milli Məclisə üzv seçildi. Ta körpəliyindən bu günə kimi, ömür yolunu, həyat amalını gözəl bilən, yüksəliş pillələrini fəxrlə izləyən, tarix elmləri namizədi, jurnalist İsrafil Məmmədovun onun barəsində xatirə-yazısını kitaba daxil edirəm:

"– İnsan taleyi də ikiqanadlı olur, varlığı səmadan seyr edən quşlar kimi. Bu taleyin bir qanadı daim Ulu Tanrının tapımında açılır, o biri isə ömür boyu bəndənin öz ixtiyarında qalır. Yol da belədir, müəyyən mənada taleyə bənzəyir. Biri səni haralardan götürüb, haralaradək rahatca gətirir, oradan da istədiyi vaxt itədiyi sahilə yetirir. Digəri isə səndən xəbərsiz, gözləmədiyin, istəmədiyin bir anda qəfildən üzünə bağlanır və uzun müddət beləcə bağlı, qapanmış qalır. İndi qədim Oğuz yurdu Zəngəzur mahalının Qafan adlı bölgəsinə gedən yollar kimi.

Dağı-daşı məğrur, düzü-dərəsi məbədgah, təbiəti məlhəm

bu bölgəyə gedən yol hələ üzümüzə açıq idi 1955-ci ildə. Elə həmin il bölgənin Şəhərcik kəndində köklü bir ziyalı ailəsində dünyaya göz açmışdı Oqtay. Atası Sabir Əsədovu da elə həmin il tale çəkib, Qafan-Naxçıvan yolu ilə qədim türk şəhəri İrəvana gətirmişdi. Yolları gəlimli-gedimli, gur axarlı idi o illər İrəvanın. Bu yolların sağında-solunda durna qatarı kimi səf bağlamışdı türk kəndləri. Şəhərin də hər küçəsi, meydanı, məhəlləsində hələ uca, gur səslənməkdəydi türk nidası, türk kəlməsi, türk sözü, türk səsi, türk ləhcəsi.

Dərəkənddə türklərin damlarının üstündən boylanan qoşa-qoşa eyvanların, sərdar Hüseynəli xanın tapşırığı ilə salınan "Dərə" və "Dəlmə" üzüm bağları, şəhəri tən yarı bölən Zəngi çayı boyu-göz işlədikcə uzanıb gedirdi. Çayın o tayını bu tayına bağlayan altı yüz yaşlı "Qırmızı körpü"nün başından iki yol qalxırdı şəhərə; biri "Tələbaşı" məscidinin həyətinə gedirdi, o biri isə 1898-ci ildə açılmış "Həşim bəy məktəbi"nin qənşərindəki meydançaya. Məktəbdən az aralı, qədim şəhər meydanındakı "Səngəkxana" və "Qantar"ın qarşısında iki bina ucalırdı. Eyni daşdan, bir üslubda tikilmiş bu binaların hər ikisinin qapısı ağzında divara iki qara mərmər lövhə vurulmuşdu. Bu lövhələrin birində Azərbaycan dilində "Yerevan şəhər soveti", digərində isə "Sovet Ermənistanı" qəzeti redaksiyası" adları yazılmışdı. Oqtayın atası Sabir Əsədovla mən bu redaksiyada çalışırdıq. O tanış, o açıq yollarla tale məni də Mığrı rayonundan çəkib gətirmişdi buraya.

O yay günü xatirimdən çıxmır; işdən geri dönürdük, yolbir olmuşduq. Redaksiyanın qənşərindəki "Göy məscid"in həyətindən gəzə-gəzə gəlib, "Gedərçay"ı keçdik, "Körpüqaşı"na çatanda ayaq saxlayıb, "Günlüklü məscid"in naxışlı, sehrli günbəzinə doyunca tamaşa etdik. Sonra üzümüzü "Dəmirbulaq" məhəlləsinə tutub, yola düzəldik. Lakin daha sehrli, daha cazibəli bir mənzərə yenə yoldan qoydu bizi. Dayanıb, böyük heyranlıqla pətəkdən beçə verən arılar kimi yolda qaynaşan uşaqlara tamaşa etməyə başladıq. Bunlar "Axundov məktəbi"ndən dəstə-dəstə evə dönən şagirdlərdi. Uşaq olub,



uşaqlara qoşulduq və onlarla gəlib, "Dəmirbulağ"a çatdıq. Şəhərcikdən şəhərə təzə gələndə Sabir Əsədov bu məhəllədə qalırdı. Ömür-gün yoldaşı Şükufə adlı iyirmi yaşlı, nazlı bir gəlin sevimli, körpə balası Oqtaya şəhərin bu qədim türk məhəlləsində Azərbaycan dilində şirin-şirin layla deyirdi. O təzə ocaqdan umud dolu gözlərlə hələ mübhəm görünməkdə olan həyata boylanan balaca Oqtayla ilk tanışlığım o ocağın qırağında, o çırağın işığında, o yay günündən başladı...

Sonra onlar şəhərin o biri qolunda "Doqquzlar" deyilən məhəllədə birotaqlı mənzilə köçdülər. Ailə böyüdü: Oqtayın qardaşı Nazim, bacıları Elmira və Gülnarə dünyaya gəldilər. Ailəyə "Şiləçi" məhəlləsində üçotaqlı mənzil verdilər. Oqtay bu mənzildə böyüdü. 1961-ci ildə bu mənzildən 9 saylı məktəbə getdi. Yollar isə açıqdı: İrəvandan, Qafana, şəhərdə isə məhəllədən məhəlləyə köç eyləyən ailə 1967-ci ildə Bakıya gəlməli oldu...

Buna görə də Oqtay Əsədov Bakı şəhərindəki 7 saylı məktəbdə təhsilini davam etdirməyə başladı. 1971-ci ildə orta məktəbi bitirdi. Müasir inkişafın çağdaş yönümünü öz ağlının gözü ilə aydın gördüyündən elə həmin il başqa ali məktəbə deyil, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun neft-mexanika fakültəsinə daxil oldu. 1976-cı ildə ali təhsilini uğurla başa vurub, mühəndis-texnik ixtisasına yiyələndi. O, Bakı Məişət Kondinserləri zavoduna işə qəbul oldu. 1979-cu ilə qədər burada usta köməkçisi və usta kimi çalışdı. Sonra isə Azərbaycan Quraşdırma və Xüsusi İnşaat İşləri Nazirliyində böyük mühəndis vəzifəsinə dəyişildi. Dörd il bu vəzifədə böyük bacarıq göstərdi. Oqtay Əsədov uzun müddət "Azsantexquraşdırma" birliyində işlədi. Burada, əvvəlcə, idarə rəisi, daha sonra, birliyin rəisi vəzifələrini apardı.

O, 1996-cı ildən Abşeron Regional Səhmdar Su Cəmiyyətinə rəhbərlik edir, həmin cəmiyyətin prezidentidir. Respublikanın iqtisadi, ictimai və siyasi həyatında təəssübkeşliklə fəallıq göstərdiyinə və fərqləndiyinə görə, 1999-cu ildən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasına üzv seçilmişdir.

Oqtay Əsədov Respublika üçün son dərəcə gərəkli, nəhəng bir cəmiyyətin prezidenti olmaqla məsul vəzifənin öhdəsindən bacarıqla gəlir. Başçılıq etdiyi cəmiyyətin dörd min nəfərə yaxın işçisi var. O, dörd min ürəyə məharətlə yol tapır, ülfət bağlayır, neçə min ailəyə dar gündə dayaq durur, qayğı göstərir. Eldə ulu bir deyim var; su aydınlıq, həyat, sağlamlıq və təmizlik deməkdir. Milyonlarla insana bu ülvi neməti yetirmək adi iş deyil, xidmətin ululuğu rəmzidir. Bu xidmət təkcə su təchizatı ilə bitmir, qaçqınlara, didərginlərə, köməksizlərə uzanan "yardım əli" ilə reallaşır.

Millət vəkili, xalq elçisi seçilməsi Oqtay Əsədovun məsuliyyətini daha da artırmışdır. Onun su aydınlığı kimi, aydın bir yolu var; minlərlə seçicinin sualı heç zaman cavabsız qalmasın, tanıdığı və tanımadığı insanların heç biri kədər, qəm dustağı, ehtiyac acizi olmasın! Ədalətə həyan olmaq, haqqa sirdaş qalmaq, torpaq həsrətində olan insanları intizarda qoymamaq, öz iradəsinə güvənib, öz taleyinə sahib durmaq, Vətənin taleyinə alovlanmaq könül aynasının uzaqdan apaydın oxunan yazılarıdır!.."

2000-ci il, 5 noyabrda müstəqil Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilər Qafan bölgəsi üçün də öz uğur payını verdi. 21 saylı Binəqədi-1 seçki dairəsindən deputatlığa namizəd göstərilmiş Oqtay Sabir oğlu Əsədov Milli Məclisə üzv seçildi.

SÖZ ARDI. Bu günlərdə daha bir xoş xəbər bizi sevindirdi; Azərbaycan Respublikasının prezidenti, möhtərəm İlham Əliyevin 2004-cü il, 11 iyun tarixli fərmanı ilə Abşeron Regional Səhmdar Su Cəmiyyəti "Azərsu" Səhmdar Cəmiyyəti adlandırılmış və Oqtay Sabir oğlu Əsədov yenidən bu cəmiyyətin prezidenti təyin olunmuşdur. Ürəkdən onu təbrik edirik!





1933

## BƏŞİR ZİYAD OĞLU FƏRƏCOV

İctimai xadim, kafedra müdiri, elmlər namizədi, pedaqoq. Daha çox ictimai xadim, alim-pedaqoq kimi tanınıb.

## TANRIYOXUŞU

Yayın ortaları idi. El-oba yaylaqlarda yaylayırdı. Hansı səmtə baxsaydın, ağlı-qaralı alaçıqlar, qoyun-quzu sürüləri, naxırlar, ilxılar görərdin. Bəşir uşaqlığının ən dadlı çağlarını bu yaylaqlarda keçirmişdi. Qoyun gölündən tutmuş Təpəsərəcən, Ortayoldan ta Gəzbeləcən, Kölgəlidən Oğlannıcaya kimi yaylaqları qarış-qarış gəzmiş, ömrünə şirin xatirə yarpaqları düzmüşdü. O günlərin rənglərini heç nə yaddaşından silə bilməz!..

Belə günlərdən birində Gəzbel düzənliyində uşaqlarla "oba qoruma" oynayırdı. Səhərdən ora-bura qaçmaqdan lap əldən düşmüşdülər. Oyun qurtardı. Göy çəmənliyin yaşıl məxmər kimi otu üstündə uzanıb, dincəlirdilər. Bəşirin ağlına nə gəldisə, ayağa qalxdı:

– Gəlin, Tanrıyoxuşuna dırmanaq, kim Motaldaşın üstünə tez çıxsa, o da qoçaqdı...

Uşaqlar razılaşdılar. Yoxuş yuxarı qaçmağa başladılar. Tanrıyoxuşu Gəzbel aşırımından uc götürüb, Qırxlar dağına doğru uzanan əyrim-üyrüm bir elat yolu idi. Onu birbaşa çıxmaq olmazdı. Elat köçləri yoxuşun başına çıxmaq üçün neçə yerdə dayanıb, nəfəs dərməli olurdu. Elə buna görə də yol əyrim-üyrüm düşmüşdü.

Bəşir uşaqlıqdan ucaboy idi. Qaçanda heç kəs ona çata

bilmirdi. Yoxuşa dırmananda da yorulmazdı. Bu dəfə də uşaqları yarı yolda qoyub, yoxuşu çıxırdı. O, Motaldaşın üstündə oturanda o biriləri hələ də töyşüyə-töyşüyə qalxırdılar. Azca nəfəs dərib, ayaq üstündə dayandı və yoldaşlarına əl eylədi. Onun gözləri qarşısında qəribə mənzərələr açılmışdı; aşağıda boz dumanla dolu Tatev dərəsi idi, bir tərəfdə Təpəsər dağı görünürdü. Öndə Buzxana, Qırpığanlı, Oğlannıca, Yellicə silsiləsi ta Çıraqbalı dağınadək uzanırdı. Uzaqda Xustup dağının əzəmətli zirvəsi gözə dəyirdi. Elə bil ki, Bəşir bu mənzərələri gözünə köçürürdü, baxışları ilə Burgurşad dağlarının xəritəsini çəkirdi... O, Tanrıyoxuşunu birnəfəsə çıxmışdı, ömür yolu isə çox, olduqca çox enişli-yoxuşludur. Bu yolun əsas məqamlarını isə özünün yazdığı ömür yazısından oxuyuram:

– Bəşir Ziyad oğlu Fərəcov 1933-cü ilin may ayının 12-də Qafan bölgəsindəki Keypəşin kəndində varlığa göz açmışdır. Atası Ziyad Qasımov bölgədə tanınmış bir adamın - Kərbəlayı Fərəc bəyin oğlu idi. Bəyin ailəsi xalq qəhrəmanı Qaçaq Nəbiyə yaxın olmuş, necə deyərlər, evi onun düşərgah yeri sayılmışdır. Hətta Qaçaq Nəbi ona bir at da bağışlamışdı. Anası Tamaşa Mehdiqaraqızı, əslən, bölgənin Dorhnu kəndindən idi. 1918-ci il qırğınından sonra, qaçqınlıq müsibəti çəkən ailələrdən olmuşdular. Qardaşı Allahverdi Dorhnuda öldürülüb. Birtəhər Qubadlının Əyin kəndinə gəlib çıxıblar. Həmin kənddə xalası Nərgizə xırmanda güllə dəyib. Çardaqlı kəndinə köçməli olublar. Burada isə həm atası Mehdiqara, həm də kiçik qardaşı Tanrıverdi ağrılara tab gətirməyib, dünyalarını dəyişiblər. Ailə Qaziyan kəndinə köçüb. 1924-cü ildə bura gələn Ziyad Qasımov Tamaşanı görüb-bəyənib və ata mindirərək Keypəşin kəndinə qaçırdıbdır. Lakin Sovet imperiyasının 30-cu illərdə həyata keçirdiyi repressiya siyasəti bu ailədən də yan keçməyib. Ziyad Qasımovu bəy oğlu olduğu üçün təqib etməyə başlayıblar. O, ailə üzvlərini götürüb, Dovrus kəndinə köçmək məcburiyyətində qalıb, 1948-ci ildə isə orada dünyasını dəyişibdir...

Balaca Bəşir 1939-cu ildə, 6 yaşında məktəbə gedib, ibtidai təhsilini həmin kənddə alıb. Böyük təsəllisi budur ki, atasının sağlığında məktəbə gedib. Atasının sağlığında Qaradığa kəndi



yaxınlığındakı Hurmas 7 illik məktəbini bitirib. Yaxşı yadındadır; 1946-cı ildə atası onu Bakıya yola saldı. O özü ilə ilk dərs aldığı Osman müəllimin əziz xatirəsini apardı. Şəbadin kəndindən idi, qanlı müharibənin qurbanı oldu. Hurmas 7 illik məktəbinin direktoru Güləli müəllimin tələbkarlığını, təlim-tərbiyəyə, nizam-intizama ciddi münasibətini ürəyində daşıdı. Həmin il Bakıda S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı Texnikumunun yer quruluşu şöbəsinə daxil oldu. Üç il burada təhsil aldı və yer quruluşçusu ixtisasına yiyələndi. Onun göndərişini Qubadlı rayonu Kənd təsərrüfatı şöbəsinə verdilər. İki ilə yaxın yer quruluşçusu vəzifəsində çalışdı. Bu işin bir xüsusiyyəti həmişə Bəşir Fərəcovun ürəyincə olardı; xəritələr çəkən zaman Gəzbel aşırımını, Tanrıyoxuşunu, onun köksündən diklənmiş Motaldaşı xatırlardı. Ona elə gələrdi ki, ilk dəfə baxışları ilə çəkdiyi o xəritə daima əlindən tutur...

Anasıgil yenidən Əyin kəndinə köçmüşdülər. Yaxın idilər, tez-tez onlara dəyirdi. Anasının bacısı oğlu Mirağa Əliyev Qubadlı rayon partiya komitəsinin birinci katibi idi. Həmişə onlara arxa dururdu, kömək göstərirdi...

Texniki təhsil Bəşir Fərəcovu təmin etmirdi. Sözsüz, ali məktəbə girməliydi. Bu məqsədlə 1951-ci ildə indiki Bakı Dövlət Universitetinin tarix fakültəsinə imtahan verib, qəbul olundu. 1956-cı ildə buranı fərqlənmə diplomu ilə bitirib, yenidən Qubadlı rayonuna təyinat aldı. 1961-ci ilin sentyabr ayına kimi, bir sıra məsul vəzifələrdə çalışdı; əvvəlcə, partiya komitəsində təlimatçı, rayon komsomol komitəsinin birinci katibi, rayon partiya komitəsində şöbə müdiri, siyasi-maarif kabinəsinin müdiri, rayon partiya komitəsinin üçüncü və ikinci katibi.

1961-ci ildə onu Moskvaya-Ali Partiya Məktəbinə göndərdilər. 1963-cü ilə qədər orada oxudu, təhsili fərqlənmə diplomu ilə başa çatdırıb, respublikaya qayıtdı. Bir ilə yaxın Zəngilan rayon kolxoz-sovxoz istehsalat idarəsi partiya komitəsinin siyasi maarif kabinəsinin müdiri işlədi. 1964-cü ilin iyun ayında onu yenidən Qubadlı rayon partiya komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkdilər. Altı ilə yaxın həmin vəzifəni apardı. 1970-ci ilin mart ayından Bəşir Fərəcova daha məsul vəzifə – Qubadlı rayon Zəhmətkeş Deputatları Soveti

İcraiyyə Komitəsinə başçılıq etmək tapşırıldı. Bu rayonun sakinləri arasında böyük nüfuz qazanmışdı. Odur ki, hansı sahə ona etibar olunurdu, bacarıqla idarə edirdi. Altı il İcraiyyə Komitəsinin rəhbəri olması da bunu aydın göstərir...

1975-ci ilin sentyabr ayından Bəşir Fərəcovun ictimai fəaliyyəti yeni istiqamət aldı. Hələ ictimai vəzifələrdə çalışdığı illərdə, daha doğrusu, 1972-ci ildə dissertasiya müdafiə etmiş, ona fəlsəfə elmləri namizədi alimlik dərəcəsi verilmişdi. Bu, pedaqoji fəaliyyətə başlamaq üçün yeni imkanlar açırdı. Həmin illərdə Xankəndindəki Pedaqoji İnstitutun Azərbaycan şöbəsi fəaliyyət göstərirdi. Ərizə yazıb, institutda işləmək arzusunu bildirdi. Onu baş müəllim kimi, işə qəbul etdilər. 1988-ci il Qarabağ hadisələri qarışana qədər, orada dərs deməklə yanaşı, dosent, dekan müavini, dekan vəzifələrinə də seçildi. Eyni zamanda, 13 il İnstitutun partiya təşkilatının katibi işlədi, şəhər partiya komitəsinin büro üzvü oldu. 1988-ci ildə İnstitutun Azərbaycan şöbəsini, əvvəlcə, Şuşa şəhərinə, oradan isə Ağcabədiyə köçürdülər. Bəşir Fərəcov da öz iş və yaşayış yerini dəyişməli oldu. Onu Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialının fəlsəfə kafedrasına dosent vəzifəsinə götürdülər.

Bir il filialda fəlsəfə dərslərini tədris etdikdən sonra, 1990-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin müvafiq kafedrasına dəyişildi. Bir müddət dosent kimi dərs dedi. İctimai işlərdə və pedaqoji fəaliyyətində böyük təcrübəsi nəzərə alınıb, Bəşir Fərəcovu fəlsəfə kafedrasının müdiri vəzifəsinə seçdilər. Hazırda bu vəzifəni ləyaqətlə aparır. Bir alim-pedaqoq kimi, 2 monoqrafiyanın, 6 kitabçanın, 1 metodik vəsaitin, 100-dən çox qəzet-jurnal məqaləsinin müəllifidir. Əməyi yüksək qiymətləndirilmiş, "Şərəf nişanı" ordeni, bir neçə medal, yarış qalibinin döş nişanları və Respublika Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Bəşir Fərəcov böyük bir ailənin başçısıdır; iki oğlu, üç qızı var-hamısı ali təhsilli ixtisas sahibidir.

Mən onunla yarımca saat söhbət etdim. Tanrıyoxuşu kimi, enişli-yoxuşlu həyat yolu ilə tanış olduqdan sonra, ağlıma belə bir sual gəldi:



– Bəşir müəllim, böyük, mürəkkəb bir ömür yolu keçmişsiniz, müxtəlif adamlarla görüşmüsünüz?! Bəs yağıların əli ilə qırılmış, pərən-pərən salınmış, ananızın doğma kəndi Dorhnudan olan bir qohuma heç rast gəlmisinizmi?

– Çox rast gəlmişəm. İndi xatırlaya bilmirəm. Yadıma salıb, axşam telefonla sizə çatdıraram...

– Telefon zənginizi gözləyəcəyəm...

Doğrudan da, çox gözləməli olmadım. Elə evə yenicə çatmışdım ki, telefon zəng çaldı. Danışan Bəşir müəllimdi. O mənə iki xatirə danışdı. Hər iki xatirəni yazıya əlavə edirəm:

**Birinci xatirə.** 1948-ci il idi. Texnikumda oxuyurdum. Bizi İsmayıllı rayonuna təcrübəyə aparmışdılar. Lahıc kəndinin yaxınlığında Qaranohur deyilən yerdə ölçmə işləri görürdük. Orda bir çayxana vardı. Hər gün çay içməyə gedərdik.



*Şuşa günlərindən bir yarpaq: Bəşir Fərəcov (ortada) Qarabağ ziyalıları arasında. 1985-ci il.*

Mehriban adlı bir qarayanız, ucaboy arvad bizə çay verərdi. Yerli adamlara oxşamırdı. Hiss edirdim ki, mənə baxıb, tez-tez ah çəkir. Bir gün daha dözə bilmədi:

– Ay oğul, mənə suyuşirin gəlirsən, hardansan?

– Zəngəzurdan – Qafan tərəfdənəm, xala...

– Bıy, başıma xeyir, Qafanın hansı kəndindən, oğul?!

– Atam Keypəşindəndi, anam Dorhnudan...

Elə bunu demişdim ki, arvad əlindəki çayniki yerə qoyub, məni qucaqladı, duz kimi yalamağa başladı, isti göz yaşları üz-gözümü islatdı:

– Qədəmlərinə qurban, ay bala, mən də ordanam – Dorhnudanam, Məşədi Abbasın nəslindənəm. Bəs sən kimin oğlusan?

– Anamın adı Tamaşadı. Mən də Mehdiqaranın nəvəsiyəm.

– Tamaşa ilə mən xalauşağıyıq...

Mən yerimdə donub qalmışdım. Heç bir söz deyə bilmirdim. Mehriban xala məni Lahıc kəndinə - evlərinə apardı. Evdə oğlu Fərhadla tanış oldum. Sonra mənə danışdı ki, qaçqınlıq illərində Qafanda bir misgərə qoşulub gəlibmiş. Daha sonralar onlarla əlaqə saxlaya bilməyib...

**İkinci xatirə.** Bir neçə ilin söhbətidi. Növbəti mühazirədən sonra, kafedraya qayıdırdım. Gördüm ki, dəhlizdə bir qoca kişi o tərəf-bu tərəfə gedir, bir-bir qapıları açıb örtür. Kimisə axtarırdı. Ona yaxınlaşıb soruşdum:

– Kimi axtarırsınız?

– Mənə təzə rektor lazımdı, eşitdim, Qafandandı, gəldim, onunla görüşüm...

– Siz də ordansız?

– Ordanam, Qafanın Dorhnu kəndindənəm...

– Mənim də atam-anam qafanlıdırlar, bəs mən Sizi niyə tanımıram?!

– "Azərbaycan müəllimi" qəzetinin redaktoru Ağəli Bədəlovun adını eşitmisiniz?

– Bəli, eşitmişəm, ancaq Qafandan olduğunuzu bilmirdim...

– Dorhnuda kimlərdənsiniz?

– Mehdiqaranın qızı Tamaşanın oğluyam...

– Mehdiqara mənim atamın da qohumudur...

Onu Bəhlul Ağayevin yanına apardım, xeyli söhbət etdik. Sonra mehribanca görüşüb ayrıldıq. Anamın bir qohumu ilə də belə tanış oldum...

Bəşir müəllimlə telefonda sağollaşdıq. Günahsız insanların acı taleyi bir daha məni dərin düşüncəyə qərq etdi...





## İLYAS ƏMRAH OĞLU MƏMMƏDOV

İctimai xadim, dəmiryolu mühəndisi, sərnişin vağzalı rəisi. Daha çox dəmiryolu sistemində ixtisaslı mütəxəssis və rəhbər işçi kimi tanınıb.

**1948**

## YARIMÇIQ EVİN SONBEŞİYİ

Əmrah kişi eyvanda oturub, çay içirdi. Nigaran adamlar kimi, gözünü kənd yolundan çəkmirdi. Nə isə ürəyinə dammışdı; bu gün xoş bir xəbər eşidəcəkdi.

– Ay Rəna bacı, hardasan, qənşərə çıx!

O, səs gələn tərəfə boylandı, çağıranın əlində kağız görüb dözmədi:

– Ay Balaxanım, xeyir ola səhər-səhər?!

– Xeyirdi, Əmrah qağa, gözünüz aydın, İlyas məktəbə girib, muştuluğumu verin!

Rəna arvad bir göz qırpımında özünü Balaxanım bacının qənşərinə çatdırdı. Onun əlindəki kağızı alıb, gözünün üstünə tutdu:

– Muştuluğun məndə, ay Balaxanım, xeyir xəbər olasan, keç içəri...

Əmrah kişi gözlüyünü istədi, kağızı alıb baxdı. Bu, İlyasın Rostov şəhərindən vurduğu teleqramdı.

Teleqramın mətni belə idi: "Postupil v VUZ, skoro uvidimsya. İlyas".

Əmrah kişi rus dilini bilirdi. Ona görə, "VUZ" kəlməsinin

"ali məktəb" mənasında olduğunu o saatca başa düşdü. Ürəyində "son beşiyi"nə "sağ ol!" dedi. Bəs rus dilini harda öyrənmişdi? Rus dilində sözləri görən kimi, xəyal onu düz 35 il əvvələ – 37-ci ilə çəkib apardı...

O illərdə kəndin varlı-karlı kişilərindən sayılırdı. İndi eyvanında oturduğu bu ikimərtəbəli evi 1937-ci ildə tikib, başa çatdırmalı idi. Bir oğlu, iki qızı vardı; kiçik qızı bir yaşındaydı. Onun varlı yaşaması, xüsusən ikimərtəbəli mülk ucaltması çoxlarına xoş gəlmirdi. Bundan daha çox ermənilərin qarnına qara sancı dolurdu. Tuthatut çağları idi. Ermənilərə də kiçik bir işarə lazımdı ki, başıçıxan yerli azərbaycanlı sakinləri aradan götürsünlər. Onu da səsiz-səmirsiz gəlib apardılar. Günahsız-filansız 10 il müddətinə Qazaxıstana sürgün olundu. Başladığı ev yarımçıq qaldı. Uşaqları analarına tapşırıb getdi. Ancaq Qafandan yola düşəndə nigarançılığı birə-on qat artdı. Suçsuz bir adamı on il müddətinə sürgünə göndərən erməniyə demişdi ki, mənim uşaqlarım böyüyüb səndən qisas alacaqlar. Erməni isə cavab vermişdi: "– Uşaqlarını da sənin dalınca göndərəcəyəm!" Bax, bu idi, onun nigarançılığını birə-on qat artıran qorxu! Bu qorxu bütün sürgün illərində onu izlədi, lakin gələcəyə-ailəsinə qovuşmaq umudunu itirmədi. Doğma torpağın ona bəxş etdiyi gücə, inama söykəndi. Sürgündə çəkməçilik eylədi. Qəpik-qəpik pul toplamağa başladı. Yaxşı işlədiyinə görə, ona bir il əvvəldən, 1946-cı il-dən bəraət verdilər. Bir dəsmal pul toplamışdı, ancaq onu necə gətirmək barədə düşünürdü. Ağlına qəribə fikir gəldi; köhnə paltarlarından bir box-ça bağladı, pulları isə onun arasına doldurdu. Bundan heç kəs şübhələnməzdi: sürgündən qayıdan adamdı, nimdaş paltarlarını da özü ilə aparır. Altı aydan çox yol gəldi, qatardan qatara, vaqondan vaqona düşdü, ancaq boxçanı əlindən buraxmadı. Yaxşı xatırlayırdı; gəlib Mincivan stansiyasına çıxmışdı. Oturub, Qafana gedəcək qatarı gözləyirdi. Qəfildən qatar tərpəndi. Qaçdı ki, vaqona minsin. Minə bilmədi, yerə yıxıldı. Boxça isə vaqonun qapısındakı qarmağa ilişib qaldı. Umudsuz halda qalxıb oturdu; "görünür qismət deyilmiş, bura qədər gətirdim, evə çathaçatda itirdim". Stansiya rəisinin yanına getdi, əhvalatı ona danışdı. Xeyirxah adam idi; təcili Şayıflı stansiyasına zəng çaldı,



dəsmalı götürüb saxlamalarını tapşırdı. Əmrah kişi növbəti qatarla ora çatanda gözlərinə inanmadı; boxça olduğu kimi qalırdı, heç kəs ona əl vurmamışdı. Dəsmalı açdı, stansiya işçilərinə pul təklif etdi, götürmədilər: bu əziyyətlə gətirmisən, uşaqlarına qismət olsun! – dedilər. Aydınlıq gecə idi, çölə çıxdı. Süsən dağlarına sarı boylandı; – Hənirinə qurban olum, a torpaq, məni uşaqlarıma yetir, onları görmək üçün burnumun ucu göynəyir, ürəyim sızım-sızım sızlayır!

Özünü Oxçu çayına vurub, o taya keçdi. Baydağa çıxan kimi, üzüyuxarı Oxdar dərəsinə doğru səmt götürdü. Gecənin hansı çağındasa, Çobanlıya söykəkli təpəyə çatdı. Oturub nəfəsini dərdi. Kənd yuxudaydı. İkimərtəbəli evini yerində gördü. Dərindən köks ötürdü. Doğma torpağın havasını ciyərlərinə çəkdi. Göz yaşları üzünü islatdı. Kəndin yaxınlığındakı bulaqdan keçirdi. Əyilib su içdi, üzünə su vurdu, "oxxay" – dedi. İkimərtəbəli evə nə vaxt çatdığını hiss etmədi. Evin o yan–bu yanına nəzər saldı, tikilib başa çatmışdı. Nə yaxşı ki, onun ömrü də bu ev kimi hardasa yarımçıq qalmadı, axırı gəlib doğma yurda qovuşdu...

Titrək barmaqları ilə pəncərənin şüşəsini ehmalca tıqqıldatdı. Nigaran-nigaran içəri boylandı. Kimsə durub, lampanı yandırdı, əlbəttə, ömür-gün yoldaşı Rəna arvad idi. Uşaqlar da oyandılar. Oğlu İnşallah qışqırdı: "– Nənə, dədəm gəldi, dədəm gəldi!" Qızları Ayna və Durna da oyanmışdılar. Bir daha rahat nəfəs aldı: "– Uşaqların üçü də sağ-salamatdı!"

Bu anda gərək daş olaydın ki, əriməyəydin, qaya olaydın ki, yıxılmayaydın! Bu anın həsrəti ilə dözmüşdü, indi də dözdü. Qapını açdılar, özünü içəri atdı. Bü görüşü yadda saxlamaq, yaxud təfsilatı ilə danışmaq çətindi. Bircə o yadında qaldı ki, boxçanı açıb, pulları qarşısına tökdü. Altı aydan bəri yol gələn pullar indi uşaqların əlində oyuncağa dönmüşdü. Bundan artıq nə ola bilərdi?!

Bu hadisədən bir il sonra, 1948-ci ildə teleqramını əlində tutduğu İlyas dünyaya gəlmiş, ömür-gün yoldaşı Rəna arvadın tikdirib başa çatdırdığı yarımçıq evin sonbeşiyi olmuşdu. Bəlkə də, onillik ayrılığın dağ boyda kədərindən doğan "dam dolusu" sevinc payı idi İlyas.

Həmin o İlyas ki, hazırda Bakı Sərnişin Vağzalının rəisidir və bütün bunları o mənə danışıb. Atası Əmrah kişinin ömür yolu ailələrinin faciəsi o qədər təsirlidir ki, özü haqqında sual verməyə cəsarət etmirəm. Çünki bunları doluxsuna-doluxsuna danışıb, göz yaşını saxlaya bilmir. Özü haqqında söhbətimiz isə o biri günə qaldı...

O biri günün axşamı yenə onun yanındayam. Sakit bir guşədə də oturub, söhbət edə bilərik. Amma mən bilərəkdən belə edirəm. İstəyirəm ki, onun işi ilə tanış olum, bu qarmaqarışıqlıqdan necə baş çıxardığını, vəzifəsinin öhdəsindən necə gəldiyini müşahidə edim. Onsuz da kabinetin açıq qapısından biri girib, biri çıxır; bilet problemi, qatarların yola salınması, ardı-arası kəsilməyən telefon zəngləri...daha nələr... nələr... Kişinin sözünü ağzında kəsirlər, söz deməyə, göz açmağa qoymurlar. Arada fürsət tapıb, özü barəsində, tələbəlik illəri, gənclik macəraları, əmək yolu haqqında danışır, sakitcə qulaq asıram, qeydlər edirəm...

1956-cı ildə, səkkiz yaşında məktəbə gedib. Birinci sinifdə ona Susənbər müəllimə dərs deyib. Uşaqlıqdan çox dəcəl olub, güclü olub; tay-tuşlarından qolunu bükən, dizini qatlayan yadına gəlməyir. Bununla yanaşı, oxumaqda da heç kəsdən geri qalmayıb, müəllimlərinin sevimlisi sayılıb. 1964-cü ildə səkkizilliyi bitirəndə bir çox tay-tuşları kimi, o da Bakı şəhərinə-təhsil almağa can atıb. Həmin il Bakı Neftayırma Texnikumuna qəbul edilib, dörd il orada təhsil alıb. 1968-ci ildə ona metalların soyuq emalı ixtisası üzrə diplom verilib və Bakı Neftayırma Zavoduna təyinat alıbdır. Zavodda onu tokar kimi işə qəbul ediblər. Lakin təzə işə hələ alışmamış, 1968-ci ilin noyabr ayında hərbi qulluğa çağırılıb. İki ilə yaxın Dağıstanın Mahaçqala şəhərində qulluq edəndən sonra, 1970-ci ilin dekabr ayında ordudan tərxis olunub. Yenidən Bakıya qayıdan İlyas Məmmədov bu dəfə Bakı Vaqon Təmiri Zavoduna işə girib. Ona zavodun nəzarət şöbəsində qəbuledici vəzifəsini həvalə ediblər. Bu iş ürəyincə olub. 1971-ci ilin ilk aylarından ta bu günə kimi ömrünü dəmir yolu sistemində müxtəlif vəzifələrə bağlayıb. Bu da səbəbsiz deyil...

Artıq ikinci il idi ki, Bakı Vaqon Təmiri Zavodunda çalışırdı.



İlk gündən zavodun səsli-küylü həyatına öyrəşmişdi, ancaq hər addım başında hiss edirdi ki, bu sahə üzrə ixtisaslı işçi kimi yetişməlidir. Gənclik enerjisi, bilik səviyyəsi ona irəli getmək üçün geniş imkanlar açırdı. Bunun üçün mütləq ali təhsil almalı idi. Bakıda bu sahədə ali təhsil ocağı fəaliyyət göstərmirdi. Ona Rostov şəhərinə getməyi məsləhət bildilər. 1972-ci ildə böyük bir həvəs və maraqla Rostov Dəmiryolu İnstitutunun mühəndis-mexanika fakültəsinin əyani şöbəsinə qəbul olundu. Yuxarıda söhbət açdığım, ata-ananın, bütün kəndin sevincinə səbəb olan teleqramı da oradan yollamışdı. Düz beş il qərib şəhərdə, doğmalarından, əzizlərindən uzaq yerdə gecəli- gündüzlü çalışdı. Gündüzlər oxudu, axşamlar işlədi, özünü təkcə tələbə təqaüdünün öhdəsinə buraxmadı. 1977-ci ildə institutu fərqlənmə diplomu ilə bitirib, dəmir yolu üzrə ali təhsilli ixtisas sahibi oldu. Ürəyindən keçirdi ki, yenidən Bakıya qayıtsın, işlədiyi zavodun sexlərindən birində çalışsın. Lakin bu mümkün deyildi. Axı bitirdiyi institut SSRİ Yollar Nazirliyinə tabe idi. Ona görə də İlyas Məmmədovu nazirliyin sərəncamına göndərdilər. O, Moskvaya getməli idi, ancaq bilmirdi ki, keçmiş SSRİ məkanının hansı şəhərinə təyinat verəcəklər...

Bəzən həyatda xoş təsadüflər olur və bunlar kiminsə düyünlü məsələsinin açılmasında mühüm rol oynayır. İlyas Məmmədov da Moskvaya getməmişdən əvvəl, belə bir xoş təsadüflə qarşılaşdı; yaxşı tanıdığı Mobil Əliyev Bakı Vaqon Təmiri Zavodunun direktoru idi. Rostov Dəmiryolu İnstitutunun Bakı filialına direktor təsdiq olunmaq üçün həmin şəhərə gəlmişdi. İlyas Məmmədov, söz verdi ki, Bakıya qayıdan kimi, nazirliyə zəng vuracaq və onun təyinatının Azərbaycana dəyişdirilməsini xahiş edəcək. Doğrudan da, belə etdi. Onun köməkliyi ilə İlyas Məmmədov yenidən doğma kollektivinə qayıtdı. Onu vaqon təmiri sexinin rəisi təyin etdilər. İki ilə yaxın bu vəzifəni layiqincə apardı. 1979-cu ildə isə zavoddan yollara çıxdı; Azərbaycan Dövlət Dəmir yolu İdarəsinin sərəncamı ilə Bakı-Qafan sərnişin qatarının rəisliyi ona tapşırıldı. Bu sərəncamı sonsuz sevinclə qarşıladı; səbəbi özünə gün kimi aydın idi. Uşaqlıqdan çox sevdiyi, daim qucağına can atdığı doğma Zəngəzur torpağı ilə iki gündən bir

görüşəcəkdi, ata-anasına baş çəkib qayıdacaqdı. Bu istəyinə də çatdı: altı il günləri təkərlər üstündə keçdi, onların yeknəsək səsində yatdı, onların tıqqıltısından oyandı. 1985-ci ildə İlyas Məmmədovu təzədən zavod rəhbərliyinə qaytardılar. Bakı Vaqon Təmiri Zavodunun direktor müavini kimi yüksək vəzifə kürsüsünə təyin olundu. Direktor tələbə yoldaşı Samiq Əmrahov idi.



*İlyas Məmmədov (soldan ikinci) xarici qonaqları qəbul edərkən.*

Üç il tələbə yoldaşı ilə çiyin-çiyinə işlədi. 1988-ci ildə başqa işə keçməsi ilə bağlı S.Əmrahov zavoddan getməli oldu. Zavoda yeni rəhbər təyin etmək vəzifəsi ortaya çıxdı. Həm də direktorun təyin olunması seçki yolu ilə aparılmalıydı. Üç namizəd irəli sürülmüşdü; onlardan biri, sözsüz ki, İlyas Məmmədov idi. Zavodun kollektivi ona inanırdı, işçilər onu müdafiə edirdilər.Nəsimi rayon Partiya Komitəsinin birinci katibi Afiyəddin Cəlilov da bir neçə dəfə İlyas Məmmədovu yanına çağırmış, həmin vəzifəyə seçilməsini məsləhət bilmişdi. Lakin bu, Ə.Vəzirovun birinci katib olduğu dövrə təsadüf edirdi. Onun guruhunun "legion" siyasəti vəziyyəti mürəkkəbləşdirirdi. Bunu hiss edən İlyas Məmmədov öz namizədliyini geri götürdü. Hələ tələbəlik illərindən ictimai işlərdə təcrübəsi



və təşkilatçılıq səriştəsi vardı. Odur ki, onun Bələdçilər Ehtiyat İdarəsinin Həmkarlar Komitəsinin sədri seçilməsi də təsadüfi deyildi. Bir müddət bu ictimai vəzifəni də apardı. 1989-cu ildən onu Bakı Vaqon deposu rəisinin kadrlar üzrə müavini vəzifəsinə dəyişdilər. Bu yeni vəzifəsi isə Xalq Cəbhəsinin hakimiyyəti dövrünə düşdü. Keçmiş kadrlar cərgəsində vəzifədən uzaqlaşdırdılar. 1992-1993-cü illərdə depoda adi mühəndis kimi çalışdı, seçdiyi ixtisasdan ayrılmadı. 1993 - 1996-cı illərdə Azərbaycan Dövlət Dəmiryol İdarəsi Bakı Təsərrüfat hissəsinin rəisi vəzifəsini icra etdi. 1995-ci ildə ona "Fəxri dəmiryolçu" adı verildi. Bu adı uzun müddət dəmir yolu sahəsində səmərəli fəaliyyətinə görə almışdı...

1997-ci ildən Bakı Sərnişin Vağzalının rəisidir. İki günlük müşahidəmdən bu qənaətə gəldim ki, İlyas Məmmədov öz sahəsi üzrə bacarıqlı ictimai xadim, tanınmış rəhbər işçidir. Bunlarsız hər an operativlik tələb olunan bir idarəyə başçılıq etmək asan deyildi...

Söhbətimiz o qədər maraqlı keçib ki, vaxtın saat 23-ü haqladığını hiss etməmişik. Yolumuz birdir; daş pillələrlə vağzalın qarşısındakı meydançaya enirik. Onun orada saxladığı şəxsi maşınına oturub, yola düşürük. O, sabah bu pillələri yenidən qalxacaq...

Yolda ailəsi barədə sual verirəm. Sakitcə deyir:

– Üç oğul atasıyam, birini bu yaxınlarda evləndirmişəm. Sonrasını gələcək göstərəcək.



1947

## AYDIN YUNUS OĞLU PİRİYEV

İctimai xadim, inşaatçı-mühəndis, institutun direktoru, elmlər namizədi. Daha çox hidro-texniki obyektlərin və dövlət əhəmiyyətli tikintilərin layihəçi-konstruktoru, bu sahənin rəhbər işçisi kimi tanınıb.

## QIZILQALANIN PARILTISI

Eşitdiyi qərib səsdən gözlərini açdı. Pəncərədən axan işıqda ona yad görünən otağa göz gəzdirdi. Ömür-gün yoldaşı və körpələri şirin-şirin yatırdılar. Onları oyadacağından ehtiyat etdi. Yataqdan ehmalca sürüşüb çıxdı. Barmaqları ucunda pəncərəyə yaxınlaşdı. Ətraf tamam gün işığına qərq olmuşdu. Qolundakı saata baxdı: heyrətləndi, saat hələ dördə qalırdı. Bu necə işdi? Gecənin bu çağında dan sökər, Günəş boylanar? Yadına düşdü ki, dünəndən qərib bir diyarda, uzaq Vyetnam torpağındadır. Nə qəribə yerdir bura? Gecə Günəş doğur? Bir də xatırladı ki, axı bura Gündoğan ölkəsidir! Uzaqda səhərin işığında uca bir dağ par-par yanırdı. Necə də tanış gəlirdi bu dağ ona?! Bu doğma Gığı kəndinin qənşərindəki Qızılqala dağı deyilmidi? Dağ-dağa bənzəyərmiş, torpaq-torpağa, səhər-səhərə, parıltı-parıltıya...

Bu parıltı Aydın Piriyevi xəyalən uşaqlıq çağlarına çəkib apardı. 1947-ci ilin dekabr günündə Qafan bölgəsinin Gığı kəndində Yunus İsmayıloğlunun ailəsində varlığa göz açmışdı. Atası Qara Yaqubun nəslindən idi. Anası Güllübəyim Əhmədqızı kəndin özündə böyüyüb boya-başa çatmışdı.



Aydın Piriyev 1955-ci ildə məktəbə getdi. İlk müəllimi Şirəli Pirəliyev oldu. Ona dördüncü sinfə kimi dərs dedi. Sonrakı siniflərdə Həsən Şəkərəliyev, Əliş Qarayev, Baxış Tanrıverdiyev kimi zəngin pedaqoji təcrübəyə malik olan müəllimlərdən çox şey öyrəndi, həyatda davranışın, təlim-tərbiyənin və biliklərin əsasını mənimsədi. Hələ məktəbə getməmişdən atası ona şerlər öyrədərdi. Onun çoxlu şer əzbər bilməsinə heyrət edərdi. Sən demə, onların çoxunu atası özü yazardı, özü qoşardı. Atasının ölümünü heç unuda bilmirdi. 8-ci sinifdə oxuyurdu. Bir müddət dərslərdən soyumağa başlamışdı. Günlərini şahmat oynamaqla keçirirdi. Müəllimlərdən bəziləri anasına şikayət edirdilər. Axı bütün fənlərdən əla qiymətlər alan şagird birdən-birə niyə dərslərə biganə yanaşırdı? Anası böyük qardaşı Möhbalıya öyüd-nəsihət verirdi ki, Aydına acıqlansın. Qardaşının anasına cavabı isə belə olmuşdu:

– Oxuyar özü bilər, oxumaz özü bilər, mən onun işinə qarışmıram!..

Möhbalının bu cavabı Aydına böyük təsir etmişdi. O gündən özünə söz verdi ki, daha dərslərinə soyuq yanaşmayacaq, daha ciddi çalışacaq. 1966-cı ildə onbirilliyi gümüş medalla bitirməsi də bu ciddiyyətin canlı sübutu oldu...

Qərib Vyetnam torpağında, dan yeri söküləndə bunları xatırlayan zaman o çağdan on dörd il keçirdi. Bu on dörd ildə Aydın Piriyev istər təhsil yolunda, istərsə də əmək fəaliyyətində ömrünün ən qaynar çağlarını yaşamışdı. Gözəl ailə həyatı qurmuşdu; iki övladı vardı, onları özü ilə Vyetnam Respublikasına gətirmişdi...

Üzünə pəncərədən işıq düşürdü, baxışları uca dağın parıltısına dikilib qalmışdı. Lap doğma Gığı kəndində hər səhər durub, pəncərədən Qızılqala dağının parıltısını seyr etdiyi kimi. Bu parıltını o, Gığı çayında çiməndə də, balıq tutanda da, qayanın üstündə oturub, saatlarca mənzərələr çəkəndə də seyr etmişdi... Bütün dərsləri əla öyrənirdi, ancaq Həsən müəllimin tədris etdiyi riyaziyyatın sehrindən ayrıla bilmirdi. Bu həvəslə də sənədlərini Azərbaycan Dövlət Universitetinin fizika

fakültəsinə verdi. İmtahanlardan yaxşı qiymətlər aldı, ancaq müsabiqədən keçmədi. Azərbaycan Politexnik İnstitutunun axşam şöbəsinə qəbul davam edirdi. Həmin institutun inşaat fakültəsinə imtahan verib, sənaye və mülki tikinti şöbəsinə qəbul olundu. İnşaatçı-mühəndis ixtisası qazanmaq ürəyincə idi. Lakin axşam şöbəsində təqaüd verilmirdi. Ona görə, mütləq işləməli idi...

Əmək fəaliyyətinə fəhləlikdən başladı. Onu Xəzər Dəniz Tikinti Trestində işə götürdülər. Bir müddət tikinti obyektlərində fəhləlik etdi. Sonra laborant işlədi. Dərslərinə müntəzəm davam edir, hər yerdə rəssamlıq səriştəsi əlindən tuturdu. Bu səriştə onda yeni tikinti obyektlərinin layihələrini yaratmaq meylini daha da gücləndirdi...

1970-ci ildə, daha doğrusu, institutun 3-cü kursunda oxuyanda Bakı Dövlət Layihə İnstitutuna işə girdi. Əvvəlcə, onu texnik vəzifəsinə qəbul etdilər. İlk gündən özünü bacarıqlı işçi kimi göstərdi. Ona etibar edib, vəzifəsini pillə-pillə yüksəltdilər. Belə ki, 1970-1976-cı illərdə burada texnik, böyük texnik, mühəndis, böyük mühəndis, qrup rəhbəri kimi vəzifələrdə çalışdı. Artıq onu təcrübəli layihəçi-konstruktor, ali təhsilli mütəxəssis kimi tanımağa başladılar.

İnstitutun direktoru Dilarə xanım Seyidova idi. Aydın Piriyev onu böyük hörmətlə xatırlayır. Onun bir mühəndis-konstruktor kimi yetkinləşməsində bu qayğıkeş və səmimi qadının böyük rolu oldu. Baş konstruktor Kamil Kərimovu da minnətdarlıqla yada salır. Təcrübəli mütəxəssis öz köməyini ondan əsirgəmirdi. Heç yadından çıxmaz, bir dəfə Qırğızıstandan sifariş gəlmişdi. Taxtakul SES-in inzibati binasının liyihəsi işlənməliydi. Direktor tərəddüd etmədən bu layihənin hazırlanmasını Aydın Piriyevin qrupuna həvalə etdi. O, Frunze şəhərinə (indi Bekdaş adlanır) ezamiyyə olundu. Az bir müddətdə həmin layihə tərtib edildi və razılıqla qarşılandı. Tbilisi şəhərində daşqınlara qarşı yaradılan möhkəmləndirmə qurğularının layihələndirmə işlərində də Aydın Piriyevin rəhbərlik etdiyi qrup böyük fəallıq göstərdi.



O, 1976-cı ildən iş yerini dəyişdi. Bakı Hidrolayihə Layihə-Axtarış İnstitutunda bir qrupun rəhbərliyi ona tapşırıldı. Burada isə daha məsul layihənin hazırlanmasında iştiraka cəlb etdilər. Sovet hökumətinin köməyi ilə Vyetnam Respublikasında gücü Mingəçevir SES-dən beş dəfə artıq olan Xoabin su elektrik stansiyası tikilməli idi. Bu nəhəng tikintinin layihəsinin hazırlanmasında sovet mütəxəssisləri ilə yanaşı, Bakının tanınmış mühəndis-konstruktorları da iştirak edirdilər. Aydın Piriyevin rəhbərlik etdiyi qrupun əməkdaşları üç ildən artıq müddətdə bu layihənin başa çatdırılmasında öz bacarıqlarını əsirgəmədilər. Layihənin uğurla başa çatması onun hörmətini qat-qat artırdı. Bunun nəticəsi idi ki, tikintiyə baş konstruktor təyin etmək məsələsi qalxanda ilkin Aydın Piriyevin namizədliyini irəli sürdülər. Beləliklə, o, 1980-cı ildə Vyetnam Respublikasına işə göndərildi.

Vyetnam torpağında ilk gecə idi ki, yuxuya gedirdi, ilk dəfə idi ki, burada dan yerinin parıltısı ilə səhəri açırdı...

Su elektrik stansiyası Da çayının (Qara çayın) üzərində inşa olunurdu. O, baş konstruktor kimi, burada beş il çalışdı. Çayın sahilində salınmış yeni qəsəbədə yaşayırdılar. Dörd tərəf dağlarla əhatə olunmuşdu. Dağların sinəsi sıx cəngəlli meşələrlə örtülmüşdü. Lap Gığı dağlarına, Gərd meşələrinə oxşayırdı. Lakin insanı heyrətə salan qəribəliklər çoxdu; beş ili o, qəribəliklər içərisində keçirdi. Burada zoğallar iri olurdu, almalar balaca. Palıd ağacları xırda-xırda yarpaqlar açırdı, qozaları bizim palıdlara oxşayırdı. Ən qəribəsi o idi ki, dənizdə, yaxud çayda çimməndə insanın bədəni gecələr par-par parıldayırdı. Bütün bunlar isə onu qərib torpağa daha artıq bağlayır, inşaat işlərinə fəal iştirakını təmin edirdi. İşin çətinliyi və mürəkkəbliyi bir də onda idi ki, stansiyanın əsas turbinləri dağın altında yerləşməli idi. Qızılqalaya bənzər dağın parıltısı isə heç vaxt göz önündən getmirdi. Bu parıltı beş ildə böyüdü, dairələrini genişləndirdi və Xoabin SES-in ilk işıqlarında daha gur yanmağa başladı... Bir də bu parıltı onun əməyinin bəhrəsi olan Vyetnam Respublikasının "Xalqlar dostluğu" ordeni və

medallar, SSRİ səfirliyinin fəxri fərmanında əks olundu. Ona üstü parıltılı sədəflə işlənmiş nərd də bağışladılar...

Aydın Piriyev 1985-ci ildə yenidən Bakıya - köhnə iş yerinə qayıtdı. İndi onu Azərbaycanda, Kür çayı üzərində qurulacaq Yenikənd su elektrik stansiyasının mühəndis-konstruktor sənədlərinin hazırlanmasına cəlb etdilər. Dörd ilə yaxın bu yönümdə böyük əmək sərf etdi, SES-in sürətlə inşası üçün heç bir çətinlikdən çəkinmədi...



*Aydın Piriyev ailə üzvləri ilə birgə İ.Nəsiminin məzarı üstündə. Hələb, 1990, iyul.*

Aydın Piriyevin işıq axtarışında və parıltı sorağında keçən ömrünün üç ili Suriyanın Hələb şəhəri ilə bağlıdır. 1989-cu ildə o, 30 nəfər sovet mütəxəssisinin rəhbəri kimi Tişrin su elektrik stansiyasının inşasında iştirak etmək üçün Suriyaya göndərildi. Qrupa daha 40 nəfər ərəb inşaatçısı cəlb olundu. Burada müxtəlif millətlərin nümayəndələri vardı. Onlarla ümumi dil tapmaq o qədər də asan deyildi. Aydın Piriyev bu işdə böyük təcrübə toplamışdı. Çətinlik meydana çıxan kimi, təcrübəsinə və biliyinə söykənirdi. Hələb şəhərində günləri pis keçmirdi. Ailə üzvləri də yanında idilər. Bu şəhər tamam Bakıya oxşayırdı; isti günləri, küləkləri, əyri ağacları, küçələri və evləri



ilə. Bilirdi ki, böyük Azərbaycan şairi Nəsiminin qəbri bu şəhərdədir. Bir gün imkan tapıb, şairin qəbrini ziyarət etdi. Uşaqlarını da özü ilə aparmışdı. Ancaq qəribə idi: qəbri ziyarətə gəlmişdi, qəbrin üstündə çılçıraq yanırdı. Həmin gün onun yaddaşında işıqlı bir xatirəyə döndü...

Lakin Suriyada işlədiyi müddətdə ən kədərli gününü də yaşadı. 1990-cı il yanvar ayının 21-də "Azadlıq" radiosundan işğalçı sovet iperiya ordusunun Bakı şəhərində törətdiyi qanlı faciəni eşitdi. Hiddətləndi, neçə gün özünə gələ bilmədi, tabeçiliyində işləyənlərin çoxuna nifrətlə baxmağa başladı, ömrünün dəyərli illərində sovet vətəndaşı adını daşıdığına təəssüf etdi. Arada vaxt tapıb, çətinliklə Bakıya qayıtdı. Qohum-qardaşdan, yaxından-dostdan xəbər tutdu. Həmin faciəli gecənin kasetini əldə edib, geri döndü. Bu vəhşiliyin əleyhinə Suriyada geniş təbliğata başladı...

Tişrin SES-in inşası hələ başa çatmamışdı. Aydın Piriyev 1991-ci ildə yenidən doğma kollektivə qayıtdı. O, baş mütəxəssis-konstruktor vəzifəsini yerinə yetirməyə başladı. 25 ildən artıq idi ki, bu kollektivdə çalışırdı. Bütün işçilərin dərin hörmətini qazanmışdı. Elə buna görə də, az müddətdən sonra, ona böyük etimad göstərildi və institutun direktorluğu vəzifəsinə irəli çəkildi. İndi neçə ildir ki, bu vəzifə kürsüsündə öz təşkilatçılıq bacarığını nümayiş etdirir... 1992-ci ildən MBD ölkələri üzrə Hidrolayihə assosasiyası direktorlar şurasının üzvü, 1997-ci ildən Avropa Birliyinin TASIS proqramı üzrə məsləhətçisidir. Dissertasiya müdafiə etmiş, elmlər namizədidir.

İndi Aydın Piriyev öz maşını ilə Respublika sarayı, Gülüstan sarayı, Tikinti Bankı binalarının yanından keçəndə, yaxud Əhmədli yaşayış massivindəki evlərin işıqlarını seyr edəndə Qızılqala dağının parıltısı göz önünə gəlir. Axı bu binaların layihələrinin hazırlanmasında onun da böyük əməyi var. Bu əməyin parıltısı isə təkcə Aydın Piriyevin deyil, saysız-saysız insanın ömrünün dolaylarında işıq saçır...



## MURAD ZİYAD OĞLU FƏRƏCOV

İctimai xadim, şöbə rəisi, iqtisadçı. Daha çox daxili işlər orqanlarında və ictimai idarələrdə şöbə rəhbəri kimi tanınıb.

**1938**

## YUXUSU ÇİN OLMUŞDU...

Gecə yarıdan keçmişdi. O, dəhşətli bir yuxu görürdü; Əyin kəndindəki evləri yanırdı. Alov dilləri evin damından göyə ucalırdı. Tüstü dörd yanı bürümüşdü. Anası Tamaşa onu çağırırdı:

– Murad, ay Murad, oğul, evimiz yanır, tez gəl!..

O, anasına doğru can atırdı. Nə qədər çalışsa da, əlləri ona çatmırdı. Alov dilləri üz-gözünü qarsırdı. Dirəklər çartaçartla yanırdı. Dirəyin biri düz onun üstünə aşırdı. "Ana!"-deyə qışqırıb oyandı. Qalxıb yerində oturdu. Yoldaşları heyrətlə ona baxırdılar:

– Murad, sənə nə olub, niyə qışqırırsan?!

– Yuxumda gördüm ki, evimiz yanır, anam məni köməyə çağırır. Sabah mütləq kəndə getməliyəm...

Bu hadisə 1955-ci ildə olmuşdu. Onda, Murad Fərəcov Bakı Maliyyə-Kredit Texnikumunda oxuyurdu. Səhəri direktorun yanına gedib, bir neçə günlüyə icazə aldı. Direktor yaxşı adam idi, anasından nigaran olduğunu bilən kimi, razılıq verdi. Murad Fərəcov yubanmadan vağzala qaçıb, Bakı-İrəvan sərnişin qatarının Qafan vaqonuna bilet götürdü. Elə həmin günün axşamı qatarla yola düşdü...



Qatar gedir, o isə pəncərə önündə oturub, çölə baxırdı. Gözlərində Bakıya gəlincəyə qədər keçirdiyi günlərin məqamları canlanırdı. 17 yaşın içindəydi. Yaşı o qədər çox olmasa da, ailələrinin başına gələn müsibətlər böyük idi...

1938-ci ilin sentyabr ayında varlığa göz açmışdı. Atası Qafan bölgəsinin Keypəşin kəndindən, anası Dorhnu kəndindən idilər. Özü isə Dovrus kəndində doğulmuşdu. Bu, ailənin ilk müsibəti ilə bağlı idi. 1936-cı ildə atası Ziyadın bəy nəslindən olmasını bəhanə edib, sıxışdırmağa başlamışdılar. O da Dovrus kəndinə köçməli oldu. Atanın dördüncü oğlu burada dünyaya gəldi. Ancaq özü burada dünyadan getdi.

Bu, 1948-ci il idi. Ermənilərin təhriki ilə deportasiya prosesi başlanmışdı. Ana atasız uşaqları Əyin kəndinə gətirdi. Min bir əzab-əziyyətlə həmin kənddə özlərinə təzə yuva qurdular...

Murad Fərəcov ibtidai təhsilini Dovrus kəndində almışdı. Qubadlıya köçəndən sonra, Çardaqlı kəndindəki 7 illik məktəbdə təhsilini davam etdirdi. Orta məktəbi isə Qubadlı qəsəbəsində bitirdi. Həkim olmaq arzusundaydı. Ona görə, Bakıya gəlib, sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna təqdim etdi. Lakin qəbul ola bilmədi. Geri dönmək olmazdı. Mütləq Bakıda qalıb, təhsil almalı, ixtisas qazanmalı idi. Bu məqsədlə də hazırda oxuduğu texnikuma daxil oldu...

Qatar Qafana səhər çatdı. Gorusa gedən avtobusu gözləmədi, evlərinə tez çatmaq istəyirdi. Bir yük maşınına minib, Çayzəmiyə qədər getdi. Oradan Əyin kəndinə isə 15 km-dən artıq yol qalırdı. Bu yolu necə getdiyini hiss etmədi. Bir də göz açanda özünü kəndin qənşərindəki təpədə gördü. Evləri yanmış, damın kömürə dönən pərdiləri qaralırdı. Yuxusunun belə çin olacağını gözləmirdi. Ağlına minbir fikir gəldi; "bəlkə, anam, qardaşlarım yanıblar?!"

Gözləri yaşardı, ağlamaq istədi, ancaq kişiliyinə sığışdırmadı. Ehmalca yerə oturdu. Bir azdan qapı açıldı, anası da, qardaşları Bəşir və Salman da çölə çıxdılar. Onları sağ-salamat görəndə yerindən qalxıb, evə qədər qaçdı, hər birini elə qapıdaca qucaqladı. Deməyəsən, dama yığılan ot sobanın borusundan od alıbmış. Bir təhər yanğını söndürüblər. Murad Fərəcov yuxusunu onlara danışanda çox heyrətləndilər. Ancaq bir məsələ çətin idi; kənddə damı örtmək üçün material yoxdu,

bunun üçün Qafana getməliydilər. Elə də etdilər, səhəri gün qardaşları ilə Qafana – bölgədə yaxşı ad-san qazanmış, bibioğlu Şəmsəddinin yanına yollandılar. İş elə gətirdi ki, Qafana yetişən kimi, kişi özü qarşılarına çıxdı. Murad Fərəcov indi böyük minnətdarlıqla Şəmsəddin kişini xatırlayır. Deyir ki, onun köməyi olmasaydı, evin damını təcili təmir etdirə bilməzdik, anamgil həmin qış yağışdan-qardan çox əziyyət çəkərdilər. Ruhu qarşısında baş əyirəm, çox xeyirxah adam idi...

Murad Fərəcov 1958-ci ildə Bakı Maliyyə – Kredit Texnikumunu fərqlənmə diplomu ilə bitirdi. Onun təyinatını Qubadlı rayonuna verdilər. Hələ texnikumda oxuyarkən ictimai işlərdə xüsusi fəallıq göstərmişdi. Bunu nəzərə alıb, rayon komsomol komitəsində təlimatçı vəzifəsinə təyin etdilər. Az sonra isə şöbə müdirliyinə irəli çəkildi.

1962-ci ildə Qubadlı və Zəngilan rayonları birləşdirildi. Murad Fərəcovu da komsomol komitəsindən daxili işlər orqanına dəyişdilər. O, Zəngilan rayon Daxili işlər şöbəsi üzrə sahə müvəkkili vəzifəsinə təyin olundu. Bir il həmin vəzifəni apardı, daxili işlər orqanlarında ilk təcrübəsini qazandı, neçə-neçə cinayətin üstünü məharətlə açdı. Daha ona daxili işlər orqanlarında məsul sahələri etibar etmək olardı. Belə də oldu. Onu Cəbrayıl rayon Daxili işlər şöbəsinin sərəncamına göndərdilər. Murad Fərəcova sosialist əmlakı düşmənləri ilə mübarizə üzrə müfəttiş vəzifəsi həvalə olundu. İlk gündən işə böyük məsuliyyətlə yanaşdı. Uzun müddət üstü açılmayan, müxtəlif məqsədlərlə yubandırılan cinayətlərin izinə düşməyə, düyünlərini çözələməyə nail oldu.

**Onlardan biri:** Neçə vaxtdı ki, rayon istehlak idarəsinin anbarında dövlət əmlakının mənimsənilməsi barədə Daxili işlər şöbəsinə məlumat verilirdi. Yoxlamalar aparılmışdı. Lakin yeyintinin mənbəyi, mənimsəmənin yolları aşkarlanmamışdı. Murad Fərəcov buranı xüsusi nəzarət altına aldı. Anbarın müdirinə nə üçün "Taxta Şamil" deyilməsinə ayrıca diqqət yetirdi. Güman etdi ki, cinayətin çox hissəsi taxta satışından irəli gəlir. Gümanında yanılmamışdı. Bir dəfə anbardan taxta yüklü maşın çıxanda saxlanıldı və Daxili işlər şöbəsinə aparılıb yoxlanıldı. Məlum oldu ki, qaimədə taxtanın həcmi 3 kub metr



göstərilir, halbuki, maşında aparılan 2 kub metrdir. Bununla da anbarda yoxlama keçirmək üçün əsas tapıldı. 6 aylıq yoxlama nəticəsində müəyyən olundu ki, 70 min manatlıqdan çox mal əskik gəlir. Bir ilə yaxın çəkən istintaq sübuta yetirdi ki, burada 16 nəfərin əli var. Onlar məsuliyyətə cəlb olundular. Beləliklə, Murad Fərəcov böyük bir cinayətin üstünü məharətlə açdı. Bu işinə görə, həm mükafat aldı, həm də hərbi rütbəsi artırıldı.

İki il sonra, onu Ağcabədi rayon Daxili işlər şöbəsinin SƏDM üzrə baş müfəttişi vəzifəsinə irəli çəkdilər. Artıq cinayət düyünlərinin açılmasında müəyyən təcrübəsi vardı. Neçə il idi ki, bu rayonda da bir sıra qanun pozuntularının qarşısı alınmır, ört-basdır edilirdi. Murad Fərəcov bura gələndən sonra, bu iş öz axarına düşməyə başladı, bir sıra cinayətlər açıldı.

**Onlardan biri:** Qaradolaq kəndində bir nəfəri qətlə yetirmişdilər. Üç il idi ki, istintaq aparılırdı. Ancaq heç bir nəticə hasil olmurdu. Qatili gizlədirdilər. Murad Fərəcov işin materialları ilə tanış oldu, qərara gəldi ki, işi aparan müstəntiq başqası ilə əvəz edilməlidir. Bu əvəzedilmə müsbət nəticə verdi. Üç il açılmayan cinayət üç ay müddətində aşkarlandı. Qatil sürücü yaxalandı və məsuliyyətə cəlb edildi. Bu işinə görə, Murad Fərəcov qol saatı ilə mükafatlandırıldı.

Daxili işlər orqanlarının mövcud qaydalarına uyğun olaraq onun iş yerini dəyişməli oldular. Əvvəlcə, Şəmkir rayon (o zaman Şamxor adlanırdı – R.T.) Daxili işlər şöbəsinə göndərmək istədilər, razılıq vermədi. Onu İmişli rayon Daxili işlər şöbəsinin SƏDM üzrə baş müfəttişi vəzifəsinə təyin etdilər. 1975-ci ildə bu işin icrasına başladı. Dörd ildən sonra, daha məsul vəzifəyə – Cəlilabad rayon Daxili işlər şöbəsinin SƏDM üzrə rəisliyi ona tapşırıldı. Bu böyük etimad idi. O həmin vəzifə kürsüsündə düz on il işlədi. 1990-cı ildə Xalq Cəbhəsi guruhunun köhnə kadrları "təmizləmə" üsulu ona da aid edildi. Murad Fərəcov polis podpolkovniki rütbəsində təqaüdə çıxdı və yenidən Qubadlıya qayıtdı. Lakin işsiz qala bilməzdi. Onu rayon mərkəzindəki çörək zavoduna direktor təyin etdilər. Üç ilə yaxın işlədi. 1993-cü ildə azğın ermənilərin oranı işğalından sonra, rayonu tərk etməli oldu...

**Söz ardı:** Murad Fərəcov hazırda Bakı şəhərində yaşayır və

işləyir. Onunla görüşdüm. Yuxarıda xüsusi ardıcıllıqla şərh etdiyim ömür yolu və ictimai fəaliyyəti öz yerində, cəmi onca il Qafan bölgəsinin Dovrus kəndində keçən uşaqlığı barədə suallar verdim. Cavabı belə oldu:

– Uşaqlıq ömrün ən şirin çağlarıdır. Sıxıntı içərisində keçirsəm də, o çağları heç zaman unuda bilmərəm. Atam Ziyadın məzarını orada qoyub gəlmişəm. Qənimət meşəsini, Şahlıqdakı alma, armud bağlarını, Mələmverdi, Təpəsər, Bombu yurdu kimi yaylaqları, Qoyungölünü, Qoşabulağı, Növlubulağı unutmaqmı olar?! Mələmverdidə bir uzun ağ daş vardı, deyirdilər ki, göydən düşmədir. Üstünə baxanda elə bilərdin, dünyanın bütün bər-bəzəyi, ən əlvan naxışları o daşa həkk olunub. Bəlkə də, buna görə, adına "Çil-çil daş" deyirmişlər. Ermənilər sonradan "xaç" şəkli çəkib, dikəltmişdilər. Ancaq bu da onların saxtakarlıqlarından biri idi. Qubadlıda işləyən zaman bir neçə dəfə o yerlərə getdim, anamın doğma kəndi Dorhnudan keçdim, atamın məzarını ziyarət etdim. O yerləri yaddan çıxarmaqmı olar?!



# ULDUZ QONAR ÇİYİNLƏRƏ





1919

## MƏHƏMMƏD ƏLİ OĞLU ƏLİZADƏ

General-mayor, ictimai və dövlət xadimi, neftçi-geoloq, xalq elçisi. Daha çox mühafizə orqanları işçisi və dövlət xadimi kimi tanınıb.

## UCALIQ PİLLƏSİNDƏ

1965-ci il yanvar ayının 5-də dövri mətbuatda bir fərman dərc olunmuşdu. Fərmanda yazılmışdı: "Məhəmməd Əli oğlu Əlizadə Azərbaycan SSR İctimai Asayişi Mühafizə naziri təyin edilsin".

O zaman daxili işlər nazirliyi belə adlanırdı. Çoxları onu yaxşı tanıyırdılar. Həyat yoluna bələd olmayanlar isə yeni nazirin Moskvadan göndərildiyini və təcrübəli bir təhlükəsizlik orqanı işçisi kimi ad çıxardığını söyləyirdilər. Deyilənlərdə böyük həqiqət vardı; doğrudan da, Məhəmməd Əlizadə bu yüksək vəzifə kürsüsünə qalxıncaya qədər uzun və mürəkkəb bir həyat yolu keçmişdi...

1919-cu il mart ayının 22-də yaz bayramı günü anadan olmuşdu. Doğma kəndi Qaradığada qarma-qarışıqlıq idi. Oxdar dərəsi qan içində çalxalanırdı. Daşnakların qanlı əli bu yerlərə də uzanmışdı. İllər bir-birindən ağır gəlirdi. Atası Əli Məhəmmədoğlu 1917-ci ildən Bakıda neft mədənlərində fəhlə işləyirdi. Ara sakitləşən kimi, gəlib ailəsini də ora köçürdü. Məhəmməd Əlizadənin uşaqlığı Bakının Ramana kəndində keçdi. 8 yaşı olanda onu Ramana kənd məktəbinə qoydular.

1934-cü ildə yeddiillik təhsili başa vuran Məhəmməd Əlizadə Lassal adına Neft Texnikumuna qəbul olundu və dörd il oxuduqdan sonra, texnik-geoloq ixtisası qazandı. Onu neft mədənlərində öz ixtisasına uyğun işlə təmin etdilər. Lakin o daha çox ali təhsil almağa can atırdı. Bu məqsədlə 1938-ci ildə sənədlərini Azərbaycan Sənaye İnstitutuna təqdim etdi və geoloji-kəşfiyyat fakültəsinin dağ-mədən geoloqu ixtisası şöbəsinə qəbul olundu. 3-cü kursda ikən alman-sovet müharibəsi başladı. Məhəmməd Əlizadəni ordu sıralarına çağırdılar. 1942-ci ilə kimi, Bakı hərbi məktəbində zenit-topçu zabitləri hazırlayan kursda təhsil aldı. Təhsil müddəti qurtardıqdan sonra, 180-ci zenit-topçu alayına göndərildi.

**Elbrus Şahmarın "Daxili İşlər Orqanları generalları" (1999) kitabından:** "...Hərbi təhsilini başa vuran M.Əlizadə, 1945-ci il müharibə qurtarana kimi, Azərbaycanla Dağıstan sərhədində böyük strateji əhəmiyyəti olan körpünü qoruyan 180 saylı Zaqafqaziya hərbi dairəsində xidmət edir. Həmin körpü ona görə çox əhəmiyyətli idi ki, cəbhənin Bakı nefti ilə təminatı buradan keçən qatarlarla mümkün idi. Az-çox tarixdən baş çıxara bilənlərə yaxşı məlumdur ki, bu müharibədə ruslara qələbə gətirən ən əsas amil Bakı nefti, onun döyüş zonasına vaxtlı-vaxtında daşınması olub. Bu barədə general deyir ki, almanlar körpünü partlatmaq istəyirdilər, ancaq ona bu imkanı vermirdik və körpünü bombalamağa cəhd edən faşist təyyarələrini yaxına buraxmırdıq.

İllər keçir, müharibə sona yetir. Lakin M.Əlizadəni tərxis etmirlər ki, sənin kimi zabitlərə ordunun böyük ehtiyacı var və ona görə, xidməti davam etdirməlisən.

Ancaq Məhəmmədin ürəyi Bakıya can atırdı. Onun həm təhsil ocağı, həm də tələbə yoldaşlarının arasında sevib-seçdiyi, könül verdiyi, könül aldığı bir Azərbaycan gözəli gözləyirdi. Ona görə, o vaxt Azərbaycandan SSRİ Ali Sovetinə deputat seçilmiş, Moskvada yüksək vəzifə tutan, əslən bakılı olan Baybakova müraciət edəsi olur. Və Baybakova yazmış olduğu məktubunda atasının adını çəkir. Ona görə ki, Baybakov onun atasını fədakar bir neftçi kimi tanıyırdı. Daha sonra isə institutda təhsilinin yarımçıq qaldığını göstərir.



Çox çəkmir ki, Baybakovun işə qarışmasından sonra... 1947-ci ilin sonundan mülki işə keçir.

Ən əvvəl, bir məqamı yaddan çıxartmayaq. M.Əlizadə Dağıstan sərhəddindən Bakıya qayıdan kimi, həmişə sözləri əzizləyə-əzizləyə məktub yazdığı Gülsənəm Sərin qızı ilə ailə həyatı qurur. Daha sonra, bu ailədə üç oğlu dünyaya gələcək; İlyas, Əli və İlqar adlarında və illər keçəcək İlyas anasının yolunu davam etdirəcək, neftçi olacaq və müdafiə edib, elmlər namizədi adı alacaq. Əli də elmlər namizədi olacaq, ancaq neft sahəsində yox, səhiyyə sahəsində, özü də adlı-sanlı ankoloq kimi. İlqar isə ali təhsil alandan sonra, Moskvada yaşayacaq..."

1946-cı ildə onu Bakıda yerləşən 1522-ci atıcı alayına batalyon komandirinin müavini vəzifəsinə dəyişdilər. Bir müddət hərbi kadrların hazırlanmasında böyük əmək sərf etdi. Neft sənayesi mütəxəssisi idi. Ona görə də 1947-ci ilin avqustunda tərxis olunan kimi, istehsalata getdi. 1947-1948-ci illərdə 7-ci mədəndə texnik-geoloq, 1948-1950-ci illərdə isə 5-ci mədəndə böyük geoloq və trest müdirinin müavini vəzifələrini apardı. İki il əvvəl, ali təhsilini başa vurmuşdu, artıq neft sənayesinin bacarıqlı və təcrübəli işçisi kimi tanınmağa başlamışdı... Lakin neft mədənlərindən ayrılmalı oldu.

1950-1953-cü illərdə Bakı şəhər polis orqanlarında çalışmaq üçün Moskvaya - dinləyicilər kursuna göndərdilər. İki ilə yaxın həmin kurslarda oxudu. Qayıdandan sonra 1952-1953-cü illərdə Bakı şəhər polis orqanlarında müxtəlif vəzifələr tutdu. 1954-cü ilin aprel ayının 13-də isə onu Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini vəzifəsinə təyin etdilər. Az müddət sonra, komitənin sədri oldu və 1960-cı ilin iyun ayına kimi bu vəzifədə çalışdı. Həmin ildə onu daha yüksək vəzifəyə - SSRİ Təhlükəsizlik Komitəsinə apardılar. Məhəmməd Əlizadə 2-ci şöbənin Baş İdarəsi rəisinin müavini kürsüsünü tutdu. O, 1964-cü ilin sonunadək bu vəzifədə öz bacarığını göstərdi. Yuxarıda qeyd etdiyim kimi, 1965-ci ilin əvvəlindən yeni vəzifəyə təyin olunması ilə bağlı doğma respublikaya qayıtdı. 1969-cu ilin dekabr ayının 30-nadək Respublika Daxili İşlər naziri vəzifəsində işlədi. 1970-ci ilin

may ayının 19-dan onu Respublika material-texniki təchizat Baş İdarəsinin rəisi müavini vəzifəsinə dəyişdilər. İki il bu vəzifəni apardı. Sonra isə təqaüdə çıxdı.



*Məhəmməd Əlizadə (mülki geyimdə) Daxili İşlər Nazirliyi rəhbərlərinin müşavirəsinin iştirakçıları arasında. Ön cərgədə E.Şevardnadze (onda Gürcüstan Daxili İşlər naziri idi) və ikinci sırada Teymur Bünyatov. Moskva, 1969-cu il.*

Məhəmməd Əlizadə təkcə dövlət xadimi olmaqla qalmadı. Respublika Ali Sovetinə və MK-nın üzvlüyünə də seçildi. İctimai işlərdə böyük fəallıq və xüsusi bacarıq göstərdi.

Bütün bu xidmətlərinə görə, Məhəmməd Əlizadə orden və medallar almış, fəxri fərmanlarla təltif olunmuşdur.

Zəngəzur qəzasının Qafan bölgəsindəki qədim Qaradığa kəndində varlığa göz açan qaraca oğlan yüksək vəzifələri tutduqca özü də xalqın gözündə ucaldı. Bu ucalıq pilləsi isə həyatda hər kəsə qismət olmur...





## TEYMUR NAĞDALI OĞLU BÜNYATOV

General-mayor, ictimai və dövlət xadimi, iqtisadçı-mühəndis, pedaqoq. Daha çox ictimai və dövlət xadimi kimi tanınıb.

1911-1974

## "BAŞINI DİK TUTSUN ÇIRAQBALIMIZ!.."

Stalinqrad ətrafında qızğın döyüşlər gedirdi. 1943-cü ilin sonlarına yaxın alman faşist işğalçıları daha da azğınlaşmışdılar. Hücumların ardı-arası kəsilmirdi. Lakin hər bir hücum onların ağır məğlubiyyəti ilə başa çatırdı. Ara azca sakitləşmişdi. Bölmələrin birində döyüşçülər səngərə toplanmışdılar. Qarayanız, hündürboylu bir gənc odlu-odlu danışır, döyüşçüləri ölümün gözünə dik baxmağa çağırırdı. Bu, qvardiya mayoru Teymur Bünyatov idi...

Gözlənilmədən səngərə dolu kimi güllələr yağmağa başladı. Faşist avtomatçıları yenidən hücuma keçdilər. Bölmənin komandiri yaralanmışdı. Otuz bir yaşlı, qvardiya mayoru Teymur Bünyatov bir göz qırpımında komandirliyi öz öhdəsinə aldı və hücuma keçmək barədə əmr verdi. Onun komandirliyi ilə həm bölmə mühasirədən çıxdı, həm də xeyli sayda faşist əsgər və zabitləri məhv edildi... Bu igidliyə görə, Teymur Bünyatov "Qızıl ulduz" ordeni və "Stalinqrad müdafiəsi" medalı ilə təltif olundu. "Kommunist" qəzeti 1943-cü il, 3 oktyabr tarixli nömrəsində onun şəklini dərc etmiş və "Alovlu aqitator" adlı məqalə vermişdi. Belə hadisələr Teymur Bünyatovun bir neçə illik cəbhə həyatında, az olmamışdı...

O, 1941-ci ilin iyul ayında hərbi xidmətə çağırılmışdı. Moskvada hərbi komissarlıq kurslarında 10 aylıq təlim keçəndən sonra, onu 2-ci Döyüşən ordunun siyasi şöbəsinə baş inspektor vəzifəsinə yollamışdılar. Bir müddət keçdi. Onu 1-ci Döyüşən ordunun siyasi şöbəsinə dəyişdilər. Teymur Bünyatov III Cənubi-Qərb Ukrayna cəbhəsində siyasi idarənin baş təşviqatçısı idi. Ona rus olmayan əsgərlər arasında siyasi-təşviqat işi aparmaq tapşırılmışdı. Stalinqraddan başlanan cəbhə yolu Krım torpaqlarından, Dnepr çayından adladı, Sofiya, Belqrad, Dubrovnik, Konstansiya, Vena şəhərlərindən keçdi və Praqada başa çatdı. Onu 1946-cı ilin martında ordudan tərxis etdilər...

Teymur Bünyatov 1911-ci ilin oktyabr ayında Zəngəzur mahalı, Qafan bölgəsinin Yuxarı Girətağ kəndində anadan olmuşdu. 7 yaşında ikən atasını itirmiş, üç qardaş, bir bacı ilə anası Mədinə Niyazalı qızının himayəsində qalmışdı. Onların uşaqlığı 1918-1920-ci illərin qaçqın və didərginlik çağlarına düşmüşdü. Balaca Teymur qaçqınlığın da, yoxsulluğun da boz üzünü o çağlarda görmüşdü. On bir yaşına kimi, Çəməndağında, Qazmayurdda, Göygədikdə, Hamarda, Yellicədə mal otarmış, yaylaqların, oylaqların təkrarolunmaz gözəlliyinə heyran kəsilmişdi. Bu heyranlıq ömrü uzunu onunla yaşanmış, yay aylarında imkan tapdıqca o yerlərin görüşünə getmişdi...

1923-cü il idi. Əmisi Bəşir Bünyatov xəbər göndərmişdi ki, Mədinə uşaqları Şuşaya gətirsin. Onda, əmisini Şuşa Qəza İcraiyyə Komitəsinin sədri vəzifəsinə təyin etmişdilər. Mədinə arvad minbir əziyyətlə uşaqları Şuşaya aparıb çıxardı. Teymuru da qardaşı Bahadurla məktəbə qoydular. Bir il orada oxuduqdan sonra, əmisi onu Bakıya göndərdi. Teymuru Maştağa kəndindəki uşaq evinə qəbul etdilər. 1925-ci ildə isə Bakı Pedaqoji Texnikumu yanında təşkil olunmuş internata dəyişdilər. Qayda belə idi; həmin internatı bitirənlər Pedaqoji Texnikuma qəbul edilirdilər. Teymur Bünyatov da 1926-cı ilədək Bakı Pedaqoji Texnikumuna daxil oldu. Təhsil almaqla yanaşı, 1928-ci ildə fəhlə-gənclər məktəbində də dərs deyirdi. Bu onun ilk müəllimlik fəaliyyəti idi. Müəllim kimi daha geniş fəaliyyəti isə 1930-cu ildən hesab olunur. Həmin il texnikumu bitirən Teymur Bünyatovu ixtisaslı müəllim olaraq



Gəncə şəhərinə göndərdilər. O, 7 saylı məktəbin dərs hissə müdiri vəzifəsinə təyin olundu. Eyni zamanda, şəhərdəki İnşaat Texnikumunda fizika və riyaziyyat müəllimi işlədi.

Lakin bütün bunlar Teymur Bünyatovu təmin etmirdi. Mütləq ali təhsil almaq arzusunda idi. Ona görə də, 1931-ci ildə Azərbaycan Sənaye İnstitutunun iqtisad fakültəsinə qəbul olundu. 1938-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib, iqtisadçı-mühəndis ixtisasına yiyələndi. Onun təyinatını birbaşa istehsalata verdilər. Bir müddət "Azərneftkəşfiyyat" qazma trestində, əvvəl, baş mühəndis, sonra isə plan-iqtisadiyyat şöbəsinin rəisi vəzifələrini apardı. 1939-1941-ci illərdə Moskvada Ali Partiya məktəbində təhsil aldı...

Qanlı müharibə başlamasaydı, görəsən, hansı yüksək vəzifə kürsülərini tutacaqdı?!.

Sonrakı illərdə tutduğu yüksək vəzifələr də bunu təsdiq etməkdədir...

1946-1947-ci illər; Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsində inspektor; 1947-1949-cu illər; "Buzovnaneft" trestində idarə müdirinin müavini; 1949-1952-ci illər; "Baş Qərbneft" tikinti trestinin müavini; 1952 (sentyabr) - 1955 (sentyabr) -ci illər; 266-cı və 34-cü Milli Azərbaycan dviziyasının siyasi şöbəsinin rəisi; 1955 (sentyar) - 1959 (dekabr) -cu illər; Azərbaycan Daxili İşlər nazirinin ümumi işlər üzrə müavini; 1959-1960-cı illər; Azərbaycan Daxili İşlər Nazirliyinin Təsərrüfat şöbəsinin rəisi; 1960-1967-ci illər; Azərbaycan Daxili İşlər Nazirliyi yanında 56-cı hərbi birləşmənin komandiri...

1965-ci ilin dekabr ayında Teymur Bünyatovun həyat və fəaliyyəti yolunda çox önəmli bir hadisə baş verdi; hərbi sahədə xidmətlərinə görə, polkovnik rütbəsinə qədər yüksəlmişdi. Həmin il ona general-mayor hərbi rütbəsi verildi...

Mən bu xəbəri eşidib, ürəkdən sevindim. Böyük iftixar duyğusu ilə "Bizim general" adlı şer yazdım. Səhəri təbrik üçün iş yerinə getdim. Özü hələ gəlməmişdi. Qapıda dayanan rus əsgəri məni içəri buraxmadı. Sonra bir azərbaycanlı zabiti çağırdılar. Ona təbrik şeri yazdığımı bildirdim və xahiş etdim ki, stolunun üstünə qoysun. Zabit xahişimi yerinə yetirdi. Bundan

sonra, general hər məclisdə həmin şerdən söhbət açar və iki misranı tez-tez təkrar edərdi:

*Başını dik tutsun Çıraqbalımız,*
*Artıq bizim də var generalımız!*

Poeziyanı çox sevərdi. Məclislərdə məni ayağa qaldırar, dağlardan şerlər söyləməyimi xoşlardı. Hüseyn Cavidin şerlərini əzbər bilərdi; "Şeyx Sənan" dramından parçalar söylərdi. 30-cu illərdə tələbə ikən Şeyx Sənan rolunda çıxış etmişdi...



*Teymur Bünyatov (arxada, soldan 1-ci) anası, bacısı və qardaşları ilə. 1950-ci illər.*

Teymur Bünyatovun sonuncu iş yeri Azərbaycan Daxili İşlər Nazirliyinin İslah Əmək İdarəsi oldu. O, 1970-ci ildən 1973-cü ilin avqust ayının 1-nə kimi həmin idarənin rəisi vəzifəsində çalışdı. Sonra təqaüdə çıxdı. Lakin uzun illərin əzab-əziyyəti, müharibə illərinin dəhşətləri, vəzifə rəsmiyyətçiliyi onun səhhətinə ciddi təsir etmişdi. Son illərdə ürəyindən şikayətlənirdi. Bu ürək dövlət qanunlarının tələblərinə baxmayaraq, xalq üçün, dünyaya göz açdığı Qaraqapı torpağı, dağların



qoynuna sığınmış Yuxarı Girətağ kəndindən ötrü döyünmüşdü. Çoxlarının güvəndiyi uca dağa bənzəri vardı...

1974-cü ilin aprel ayının 10-da bu ürək dayandı, elimiz öz general oğlunu itirdi. Ürəkdən sızladıq, ürəkdən ağladıq. Mən də ürək ağrısı ilə onun ölümünə ağı yazdım:

*Ağla, dağlarımın çeşməsi , ağla,*
*Ağla, dərələrin nəğməsi, ağla!*
*Hönkür, göy üzündə qaralan bulud,*
*Dağıl, zirvələri çulğayan sükut!*
*Bu gün elimizin matəm günüdür,*
*Bu gün ömrümüzün dərd, qəm günüdür!*

*Sən də saçlarını yol, ay şəlalə,*
*Gözündə şehdən yaş görüm, a lalə!*
*Donsun təbəssümün dodaqlarında,*
*Göz yaşın qurusun yanaqlarında...*
*Bu gün elimizin matəm günüdür,*
*Bu gün ömrümüzün dərd, qəm günüdür!*

*Başını köksünə əy, a dağlarım,*
*Dumandan qaralar gey, a dağlarım!*
*Çəmənlər sərməsin bəzəkli xalı,*
*Güllər bürüməsin yamacı, yalı;*
*Bu gün elimizin matəm günüdür,*
*Bu gün ömrümüzün dərd, qəm günüdür!*

*Doğma kənd, doğma kənd, səsini qaldır,*
*Sənin taleyində bu, bir sualdır;*
*Vaxtsız tərk eyləyir oğlun həyatı,*
*Odlansın dilində yenə bayatı:*
*Dağlar dağımdır mənim,*
*Qəm oylağımdır mənim.*
*Dindirmə, qan ağlaram,*
*Yaman çağımdır mənim!*

***1974, 10 aprel.***

Həmin gün generalın tabutu indiki Şəhriyar adına klubda qoyulmuşdu. Xalq öz oğlu ilə vidalaşırdı. Onu 2-ci Fəxri Xiyabanda torpağa tapşırdıq... Bu böyük insanın həyat yolu, vətən sevgisi, yurd təəssübkeşliyi, torpağa səcdəsi gələcəyin hər bir övladı üçün canlı nümunədir!





## MURAD QOŞUN OĞLU HÜSEYNOV

D.x. genenral-mayoru, elmlər namizədi, pedaqoq, idarə rəisi. Daha çox daxili işlər orqanlarında rəhbər işçi və pedaqoq kimi tanınıb.

**1948**

## "ÖZGƏNİN UŞAĞI OCAQ YANDIRAR..."

Qoşun kişinin evində hay-küy qopmuşdu. Hamı deyib-gülürdü. Ata-anasının sevinci yerə-göyə sığmırdı. Bəs necə? On bir uşaq böyütmüşdülər! Onlardan biri - Murad bu yaxınlarda Xarkov şəhərində məktəb qurtarıb gəlmişdi. Neçə illik ayrılıqdan sonra, oğlu ilə görüşən Qoşun kişi üzünü ona tutub soruşdu:

- Oğlum, hansı məktəbi qurtarıb gəlmisən, nə sənətə qulluq edəcəksən?

Murad şəstlə cavab verdi:

- Dədə, yanğınsöndürən məktəbini bitirmişəm, yanğın söndürəcəyəm!..

Kişi üz-gözünü turşutdu:

- Ay Firuzə, gözün aydın, özgənin uşağı ocaq yandırar, bizimkinə də ocaq söndürmək öyrədiblər...

Hamı gülüşdü. Qoşun kişi bu sözü sevindiyindən deyirdi. O, yaxşı bilirdi ki, od nədir, ocaq nədir?! Yaxşı bilirdi ki, ehtiyatsızlıq ucbatından adi kibrit çöpü alışsa, o boyda Qənimət meşəsi bircə gündə yanıb külə dönər! Hünər bu bircə kibrit çöpünü alışmağa qoymamaqdır!..

Murad atasının zarafatından alınmadı. Gözucu anasına baxdı. Elə bil, anası Firuzəni indi görürdü; saçları ağarmışdı, ancaq həmişəki kimi, üzündə həlim təbəssüm cilvələnirdi. Ona elə gəldi ki, ağ saçların işığı üzünə düşüb. Bu işıq isə arxayınlıq, ötkəmlik vəd edirdi. Bu işıqlı sima həyat yolunun ən ağır çağlarında belə gərəkli olmuşdu, indiki kimi... Hansısa məclisdə eşitdiyi bir şerin misralarını xatırladı:

*Gözlərimin işığını*
*Ulduz-ulduz parlatmısan,*
*Günlərim ağ olsun deyə*
*Gecə rəngli saçlarını*
*Çağdan-çağa qarlatmısan,*
*Anam mənim!*

Qalxıb həyətə çıxdı. Doğma torpağın havası üzünə dəydi. Həyətdə ocaq yanırdı. Bir anlıq çırthaçırtla alışan odunlara baxdı. Xəyal onu ömrünün qatarla axıb gedən illərinə çəkdi..

Murad Hüseynov 1948-ci ilin aprel ayının 11-də Zəngəzur qəzası, Qafan bölgəsindəki Oxdar kəndində anadan olmuşdu. 8 illik təhsilini kənd məktəbində almış, 1969-cu ildə Bakı şəhərinə gəlmişdi. O burada həm təhsilini davam etdirmək, həm də işləmək fikrində idi. Həmin ilin sentyabr ayında neft trestinin 11-ci mədənində işə düzəldi. Gündüzlər buruqda işlədi, axşam məktəbində isə təhsilini davam etdirdi. Neft buruğunda baş vermiş yanğın heç yadından çıxmaz; quyudan püskürən qaz açılmış, buruğu alov bürümüşdü. Yanğınsöndürənlər vaxtında özlərini çatdırmasaydılar, alov dilləri o biri buruqları da yalaya bilərdi.

Murad Hüseynov belə hadisəni birinci dəfə idi ki, görürdü. Yanğınsöndürənlərin məharət və cəsarətinə heyran kəsilmişdi. Elə həmin gün yanğınsöndürən olmağı qət etdi...

1966-cı ilin sentyabr ayı idi. Bu məqsədlə Respublika İctimai Asayişi Mühafizə Nazirliyinin Yanğından Mühafizə İdarəsinə gəldi. Onu 1-ci Tabeli Hərbiləşdirilmiş Yanğın hissəsinə işə götürdülər.

İki ilə yaxın sıravi yanğınsöndürən kimi, xidmət göstərdi. Az



bir müddətdə öz peşəsinin sirlərinə dərindən yiyələnməyi, tapşırıqları layiqincə yerinə yetirmək bacarığı idarə rəhbərliyinin diqqətini cəlb etdi. Onun Xarkov şəhərində təhsil alması məsləhət görüldü.

O, 1968-ci ildə Xarkov Yanğın Texniki məktəbinə qəbul oldu. Üç il təhsil aldıqdan sonra, Bakıya qayıtdı. Neçə il idi ki, ata-anasını, doğma və əzizlərini görməmişdi. Qəriblikdə onları xatırladıqca burnunun ucu göynəyirdi. Bax, indi yenidən doğmalarının arasındaydı!..

Səs-küyə xəyaldan ayrıldı... Uşaqlıq illərinin sirdaşları, məktəb yoldaşları, onunla görüşə gəlmişdilər...

Xarkov şəhərində təhsilini uğurla başa vurduqdan sonra, leytenant hərbi rütbəsi almışdı. Ona görə, Bakıya dönən kimi, onu 2-ci Tabeli Hərbiləşdirilmiş Yanğın hissəsində qarovul rəisi vəzifəsinə təyin etdilər. Bir müddət işlədi. Özündə Xarkov məktəbində qazandığı biliyi kiməsə aşılamaq, kiməsə öyrətmək ehtiyacı duyurdu. Bu duyğu Murad Hüseynovu yanğından mühafizə orqanları üçün kiçik və orta rəis heyətini hazırlayan məktəbə gətirdi. O, əvvəlcə, müəllim, sonra baş müəllim kimi dərs dedi. 1972-1983-cü illərdə öz biliyini gənc yanğınsöndürənlərə aşılamaqda gərgin əmək sərf edən Murad Hüseynov nazirliyin əmri ilə Naxçıvan Muxtar Respublikasına göndərildi. Ona Muxtar Respublikanın Yanğından Mühafizə Şöbəsinin rəisliyi etibar edilirdi. Beş ilə yaxın həmin vəzifəni apardı. Onun rəhbərliyi illərində Muxtar Respublikada yanğına qarşı mübarizə sahəsində bir sıra köklü yeniləşmələr aparıldı, xidmət yerlərində fəallıq artdı, təşəbbüskarlıq xeyli gücləndi. Bütün bunlar isə Murad Hüseynovun öz sahəsinin bacarıqlı rəhbərlərindən olduğunu bir daha nümayiş etdirdi.

1988-ci ilin yanvarında Bakıya dəvət olundu və respublika yanğından mühafizə xidməti mərkəzi aparatında işlədi. Sonra onu Bakı Yanğından Mühafizə və Qəza-Xilasetmə İşləri İdarəsinin əməliyyat-taktiki şöbəsinin rəis müavini vəzifəsinə təyin etdilər. 1992-ci ilin noyabrına kimi, həmin vəzifədə çalışdı, respublikanın ən ağır çağlarında bütün bacarıq və səyini yanğından mühafizə işlərinin yüksəlişinə həsr etdi. 1988-ci ilin avqust ayında onun bu sahədəki xidmətləri yüksək qiymətləndirildi. Respublika Ali

Soveti Rəyasət Heyətinin fərmanı ilə Murad Hüseynov "Yanğında igidliyə görə" medalı ilə təltif olundu.

1992-ci ildə o, "Azərneft" Dövlət Neft Şirkəti üzrə Yanğından Mühafizə dəstəsinə rəis təyin edildi. Bu yeni sahədə də təcrübəli yanğınsöndürən öz işgüzarlığını göstərə bildi...

1995-ci ilin aprel ayından Murad Hüseynov Respublika Daxili İşlər Nazirliyi Yanğından Mühafizə və Qəza-Xilasetmə İşləri Baş İdarəsinin rəisidir. Keçən müddət ərzində bir sıra problemlərin həll edilməsinə nail olmuşdur; bu problemlər yanğından mühafizə sahələrinin yeni bacarıqlı kadrlarla və xaricdən alınma texniki və mexaniki vasitələrlə təchiz olunmasından ibarətdir. İndi Baş İdarənin tabeliyində Bakı Yanğın-Texniki Məktəbi fəaliyyət göstərir, öz orqanı olan "Yanğınla mübarizə" jurnalı nəşr edilir...

Bir cəhət də qeyd olunmalıdır; Murad Hüseynov öz sahəsinin nəzəri biliklərinə yiyələnmiş bir mütəxəssisdir. 1998-ci ildə uğurla müdafiə etdiyi namizədlik dissertasiyası da bir daha bunu təsdiq edir. Texniki elmlərin mühüm bir probleminə həsr olunmuş həmin dissertasiya "Azərbaycanda neft istehsalı və neftkimya müəssisələrində yanğın təhlükəsizlik məsələləri və həlli yolları" adlanır. Bu əsərin yanğından mühafizə müəssisələrinin elmi-nəzəri əsasda yenidən qurulmasında və inkişafında böyük rolu olacaqdır. Ona görə ki, burada 35 illik səmərəli bir fəaliyyətin və təcrübənin uğurlu nəticəsi öz əksini tapıb...

Respublikanın prezidentinin 1998-ci il, 24 dekabr tarixli fərmanı ilə Daxili İşlər Nazirliyi sisteminin bir qrup işçisi, o cümlədən d.x. polkovniki Murad Qoşun oğlu Hüseynov "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur!..

Hər dəfə təhlükəli bir yanğın söndürüləndən, obrazlı desək, od suya döndəriləndən sonra, o, atası Qoşun kişinin sözlərini xatırlayıb gülümsünür:

- "Özgənin uşağı ocaq yandırar, bizimkinə də ocaq söndürmək öyrədiblər!..."

Elə bil, aşağıdakı şer arçası Murad Hüseynovun dilindən deyilib:

**Anamız varlıqdan payım belədir,**



**Min hayqırtı qopsa, hayım belədir!**
**Mənim yazım belə, yayım belədir;**
**Yanğın odlarına yol verəmmərəm!**

Bir önəmli hadisəni də qeyd etməmək ürəyimcə olmazdı; Murad Hüseynov öz həmkarı Hikmət Cəmilzadə ilə birgə Azərbaycanın yanğından mühafizə xidmətinin tarixi oçerklərini yazmağa başlayıblar. Artıq "Odlu tarix" adlı ikinci kitab işıq üzü görüb. Onlara bu yolda uğurlar diləyirəm.



*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev daxili xidmət general-mayoru hərbi rütbəsi alması münasibətilə Murad Hüseynovu təbrik edir.*

**SÖZ ARDI.** Bir neçə il öncə qələmə alınan bu yazı belə sonluqla bitirdi. Ürəkdən şadam ki, daha xoş və önəmli sonluqla onu başa çatdırıram; Azərbacan Respublikası Prezidentinin 2002-ci il 17 yanvar tarixli fərmanı ilə Murad Qoşun oğlu Hüseynova daxili xidmət general-mayoru hərbi rütbəsi verilmişdir. Bu isə bütün Azərbaycan xalqının ürəyincə oldu. Mən də öz sevincimi bir şerlə ifadə etdim. Şerin son misraları belə idi:

**Daha yolumuzun Dan ulduzu var,**
**General, o sənin çiynində yanar!**



## NURƏDDİN HƏSƏNALI OĞLU HƏSƏNOV

Polis polkovniki, radio-texnika mühəndisi, hüquqşünas. Daha çox daxili işlər orqanlarında rəhbər işçi kimi tanınıb.

1946

## YAŞA DOLAN ULDUZLAR

Onu lap uşaqlıqdan tanıyıram; necə deyərlər, varlığa göz açdığı gün belə yadımdadır (1946, 20 oktyabr). Aramızda yaş fərqi o qədər də çox deyil (cəmi 7 yaş). Buna baxmayaraq, yaşıdlar kimi uzun illərdir, dostluq etmişik., yenə də çoxlarının həsəd apara biləcəyi səmimiyyət duyğularını yaşadırıq. Bu, yalnız bir kənddə varlığa göz açmağımız, yaxud bir mühitdə böyüyüb, boya-başa çatmağımızla bağlı deyil. Ata-analarımız da bir-biri ilə səmimi olublar; həmin pozulmaz dostluq işartıları ürəyimizə sirayət edibdir. Bizi uzun illər bir-birimizə bağlayan başqa sarı simlər də var; şeri, sənəti sevirik, poeziyanı qiymətləndirməyi bacarırıq, bu da səmimi duyğuların, dostluq hisslərinin göyərib açılmasına münbit zəmin yaradır. Yadıma gəlmir ki, dövri mətbuatda dərc edilmiş hər hansı bir yazımdan onun xəbəri olmasın. Özümün unutduğum neçə-neçə misram dostumun hafizəsində yaşayır. Elə bir çağ xatırlaya bilmirəm ki, onunla görüşdüyüm anlarda ədəbiyyatdan, sənət adamlarından söhbət açılmasın, üst-üstə qalanan qayğılarımız bir yana...

...Yenə də Daxili İşlər Nazirliyinin məsul idarələrindən birinin rəhbəri, polis polkovniki Nurəddin Həsənovun qəbulundayam. Ondan yazacağım yazını necə başlayıb, harada qurtaracağım barədə düşünürəm. O isə həmişəki kimi, söhbəti poeziyadan başlayır:

- Hər il uşaqlarla Zağulbada istirahət edirəm. Bu il də ordaydım. Havası, dəniz mənzərəsi, qayaları çox xoşuma gəlir. Bir axşam qayaların üstünə çıxdım; göydə ala-tala buludlar axırdı. Ay da öz yerindəydi, buludlarda batır, bir azdan yenə görünürdü. Önümdə isə Xəzərin maviliyi açılmışdı; Ay işığında gümüşü rəngə çalırdı...

Oturmuşdum. Bir anlıq mənə elə gəldi ki, Qazmayurdun sal qayasının üstündəyəm. Yazın yaşıl çağıdır, aşağıda kəndimizin maviliyi canlanır... Şirin xəyalın zərif qanadları məni elə ucalıqlara qaldırmışdı ki, oğlum Fəridin yaxınlaşdığını hiss etmədim...

- Ata, burda tək niyə oturmusan?

Xəyaldan ayrıldım. Onun əlindən tutub, özümə sarı çəkdim:

- Dincəlirəm, oğlum, burada oturub dincəlirəm!..
- Tək oturub, necə dincəlirsən?

Əlimi səmaya doğru qaldırdım:

*Göydə parçalanıb buludlar lay-lay,*
*Yenə öz yerində yuvarlanır Ay.*
*Artıq nə Cəlal var, nə də ki Humay;*
*Nə ömrə acıyır, nə yaşa dünya!*

-Bax belə dincəlirəm, oğlum, təbiətlə poeziya dilində danışa-danışa, - dedim. Fərid də şeri çox sevir, o məni başa düşdü...

Bilirdim ki, Nurəddin Həsənov, əvvəl, Bakı Energetika Texnikumunu bitirib, Azərbaycan Politexnik İnstitutunun radiotexnika fakültəsində təhsilini davam etdirib, mühəndis-radiotexnik ixtisası qazanıb. Sonra isə SSRİ DİN-nin Akademiyasını bitirib, hüquqşünasdır. Ona görə də, təhsilinə dair suallar vermədim. Özü ədəbiyyatdan necə imtahan verdiyini danışdı:

- 1960-cı il idi. Baharlı kəndində 7 illiyi qurtarmışdım. Axı 1953-cü ildə birinci sinfə gedəndə cəmi iki ay kəndimizdə

oxumuşdum. Bu iki ayı Fatma müəllim dərs deyib. Atamı Baharlı kənd məktəbinə direktor təyin etdiklərindən mən də anamla ora köçməli olduq. Baharlıda keçən günlərimi, mənə dərs deyən müəllimlərim; Bəhlul Bayramov, Surxay Həsənov və başqalarını hörmətlə xatırlayıram. Elə bilirəm ki, şerə bu qədər həvəsim, marağım olmağında ədəbiyyat müəllimim Bəhlul Bayramovun ayrıca təsiri olub...

- Nə isə... 1960-cı il idi. Texnikumda ədəbiyyatdan şifahi imtahan verirdim. Suallardan biri belə idi: "Vaqiflə Vidadinin deyişməsi". Bir qadın imtahan götürürdü. Ondan soruşdum ki, deyişməni əzbər söyləyə bilərəmmi? O da razılıq verdi. Deyişmədən bir parçanı xüsusi intonasiya ilə söyləməyə başladım:

*- Ey Vidadi, sənin bu puç dünyada,*
*Nə dərdin var ki, zar-zar ağlarsan?!*
*Ağlamalı günün axirətdədir,*
*Hələ indi səndə nə var, ağlarsan?!*

*- Vaqif, nə çox yan-baş-ayaq atarsan,*
*Mənə dersən, nə bu qədər ağlarsan?!*
*Sənin də başında məhəbbət beyni,*
*Əgər olsa, eylər əsər, ağlarsan!..*

Sonra bəndləri bir-bir təhlil etdim. Müəllim yarıda saxlayıb sual verdi:

- Bunlar hamısı öz yerində, de görüm, Vaqiflə Vidadi necə şairdirlər?

Fikirləşmədən cavab verdim:

- Müəllim, yaxşı şairdirlər!..

O güldü. Açıq pəncərədən məni müşahidə edən qohumlarım da gülüşdülər. Müəllim mənə "əla" qiymət yazıb, dedi: - Yadında saxla, onlardan biri nikbin, o biri bədbin şairdir. Sonralar öyrəndim ki, müəllim dərslikdə yazılanı deməyimi tələb edirmiş...

Nurəddin Həsənov öz həyat yolunun epizodlarını o qədər maraqlı danışırdı ki, sözünü yarımçıq kəsmədim. Polkovnik sözünə davam edirdi:



- 1964-cü ildə texnikumu bitirdim. Hüquqşünas olmaq arzusundaydım. Bu məqsədlə də BDU-nun hüquq fakültəsinə girməyi qərara aldım. Heç yadımdan çıxmaz; "Azərbaycan ədəbiyyatı"ndan yazılı imtahan verirdim. Üç mövzudan biri "S.Vurğunun "Avropa xitirələri" şerləri" idi. Şerlərin çoxunu əzbər bilirdim. Onların təhlili mənim üçün çətin deyildi. Başım qarışmışdı. Yazını bitirib, qəddimi düzəltdim. Yalnız bu zaman gördüm ki, Yusif Şirvan yaxında dayanıb, yazıma diqqət yetirirmiş. O, yazını götürüb, oradaca oxudu. Bircə iki nöqtəni nöqtəli vergüllə əvəz etməyi məsləhət bildi. Sonra dedi ki, yazın "əla" qiymətə layiqdir... Mən ordan çıxan kimi, birbaşa sizə xəbərə gəldim. Yadındamı? (Başımı tərpətməklə cavab verdim.) Bir daha oturub yazdım. Birlikdə yoxladıq. Sən dedin ki, yazıya "əla" qiymət verilə bilər. Görək Yusif Şirvan dediyinə əməl edəcəkmi?

İki gün sonra, şifahi imtahandan da "əla" qiymət aldım. Lakin "tarix" imtahanından "kəsdilər". Deməyəsən, hüquq fakültəsinə "qəbul" ediləcək abituriyentlərin kimliyi artıq çoxdan məlum imiş...

Nurəddin Həsənov 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun radiotexnika fakültəsinə daxil olub və 1972-ci ildə mühəndis diplomu alıb. Oxuduğu müddətdə Daxili İşlər Nazirliyində texnik vəzifəsində çalışır.

Bir illik hərbi xidməti başa çatdırdıqdan sonra, yenidən Daxili İşlər Nazirliyinin ekspert xidməti şöbəsində baş mühəndis vəzifəsinə işə götürülüb. 1983-cü ilə kimi, bu vəzifədə çalışıb. Həmin il SSRİ DİN-nin Akademiyasında hüquqşünas ixtisası qazanıb. Onu şöbə rəisinin müavini, 1992-ci ildə isə rəis vəzifələrinə irəli çəkiblər. Az sonra, şöbə Nazirliyin idarələrindən birinə çevrildi. Onu idarəyə rəis təyin etdilər. Neçə ildir ki, bu vəzifənin öhdəsindən bacarıqla gəlir. Burada yerinə yetirilən funksiyaları sadalamaq fikrində deyiləm. Yalnız mürəkkəb əməliyyatları həyata keçirən bir idarənin rəisinin öz işindən məharətlə baş çıxarmaqla yanaşı, poetik duyuma malik olmasını söyləmək diləyindəyəm. Ona görə də idarədəki işlər barədə sual vermədim. Yalnız hərbi rütbələri nə zaman aldığını soruşdum:

- 1974-cü ildə leytenant rütbəsinə layiq görülmüşəm. Hər il sentyabrın 30-da ilk hərbi rütbə aldığım günü qeyd edirəm...

Mən bunu bilən kimi, qeydlərimə belə bir başlıq seçdim: "Yaşa dolan ulduzlar". Bu o demək idi ki, hər il Nurəddin Həsənov sentyabrın 30-da hərbi rütbə ulduzlarının ad gününü keçirir. 1992-ci ildən bəri isə polkovnik rütbəsinin ulduzlarını daşıyır. O öz işindən danışmadı, bəlkə də, bu vəzifənin xüsusiyyəti belədir, müəyyən ölçü həddini gözləməlisən!



*Nurəddin Həsənov (ikinci sırada birinci) xidməti yoldaşları arasında*

Yadıma düşdü ki, hədiyyə verdiyim təzə kitabıma şerlə yazdığım avtoqrafda buna işarələr etmişəm. Həmin şer parçasını yazıya əlavə etməyi lazım bildim:

***Yüz-yüz cinayətdən düyün açarsan,***
***Bəzən isti-isti, yeyin açarsan!***
***Təbiət bəxş edib bacarıq sənə,***
***Qardaşım, bir anlıq qulaq as mənə;***
***-Yurdumu əlimdən alıbdır yağı,***
***Ömrümə qılınclar çalıbdır yağı...***
***Cinayət varmıdır bundan da ağır,***
***Yollara baxmaqdan gözlərim yağır?!***



***Bir möcüzə göstər, aç bu düyünü,***
***Görüm torpağımı öpdüyüm günü!***

Onu da deyim ki, polkovnik Nurəddin Həsənov öz qüsursuz xidmətlərinə görə, dəfələrlə mükafatlandırılıb, medallar və fəxri fərmanlarla təltif olunub. Bunlardan biri daha önəmlidir; Respublika prezidentinin 1998-ci il 24 dekabr tarixli fərmanı ilə ona "İgidliyə" görə medalı verilib. Bu isə gələcək uğurlu fəaliyyətə aydın cığırlar açır...

**SÖZ ARDI.** Bu yerdə yazıya nöqtə qoyacaqdım. Telefon zəng çaldı. Demə, bu zəng səsi işıqlı bir ömrün son səsi imiş; atamın ən əziz sirdaşlarından biri, Nurəddinin sevimli atası Həsənalı müəllim dünyasını dəyişdi. Telefonun dəstəyi əlimdə quruyub qaldı; sanki Nurəddin Həsənov barəsində yazdıqlarımı bir anlıq unutdum. Yeganə oğlunun boya-başa çatmasında, təlim-tərbiyəsində heç nəyi əsirgəməyən Həsənalı müəllim uzun, ağrılı-acılı və çoxlarına örnək olacaq bir ömür yaşamışdı. İki dəhşətli davanın od-alovu içindən keçmiş, bir məktəb direktoru kimi, neçə-neçə şagirdinin həyat yoluna, yüksəliş pillələrinə inam işığı salmışdı. Nurəddinin radiotexnika mühəndisliyi ixtisasına yiyələnməsində onun əvəzsiz xidmətləri olmuşdur. Axı qanlı-qadalı davanı radist kimi başa vurmuşdu. Sakit, həlim təbiətli, səmimi davranışı vardı. Onun haqqında yazmağı gələcəyə saxlayıb, əziz ruhu önündə ehtiramla baş əyirəm. Bu kitabda gedən yazıların heç birinin yazılma tarixini göstərməmişəm. Yalnız bu yazının sonunda "10 oktyabr 1999-cu il!" tarixini qeyd edirəm. Qoy bu tarix Həsənalı müəllimin xatirə günü kimi yaddaşlarda qalsın!..



## ŞƏMSİ NURU OĞLU RƏHİMOV

Pokovnik, təhlükəsizlik orqanları işçisi, hüquqşünas. Daha çox təhlükəsizlik orqanlarında rəhbər işçi kimi tanınıb.

**1924-1994**

### 70 YAŞINA AZ QALIRDI...

O, adəti üzrə, gecə saat 12-də evə dönərdi. Yaşadığı binanın önündə maşından düşər, asta-asta pillərlərlə ikinci mətəbəyə çıxardı...

1994-cü ilin sentyabr ayının 29-u idi. Yenə yorğun halda evə qayıdırdı. Doqquz ay idi ki, Azərbaycan Respublikası prezidenti yanında "Xüsusi İdarə"nin rəisi vəzifəsinə təyin olunmuşdu. Respublikada ağır günlər keçirdi: ona görə, iş günü çox gərgin keçir, yorulub əldən düşürdü. Bir neçə saat əvvəl, qanlı cinayət törədilmişdi. Şəhər narahatlıq içindəydi. Başqa hadisələr də baş verə bilərdi. Təcili tədbirlər barədə düşünür, dalğın-dalğın pillələrlə çıxırdı. Ortadakı meydançaya çatanda bir anlıq dayandı. Yaxından təhlükə həniri duymuşdu. Dalbadal dörd güllə atıldı. Onu hədəf seçmişdilər. Ürəyini tutub məhəccərdən yapışdı. Lakin müvazinətini saxlaya bilməyib, meydançaya yıxıldı...

70 yaşına az qalırdı. Dekabr ayının 18-də tamam olacaqdı. Saysız-hesabsız insan ömrünün qoruyucusu bir anın içində sükuta döndü. İnsanların işıqlı günləri üçün döyünən bir ürək susdu, dayandı. Şəmsi Rəhimov dünyaya göz yumdu...

O, Qafan bölgəsindəki Yuxarı Gödəkli kəndində Nuru müəllimin ailəsində doğulmuşdu. Atası Nuru Nuruyev ömrünün çox hissəsini maarif işinə – gənc nəslin təlim-tərbiyəsinə sərf



etmişdi. Şəmsi Rəhimov ailənin dörd oğlundan biri idi. Kənddə 7 illiyi bitirdikdən sonra Bakıya gəlmiş, texniki peşə məktəbinə daxil olmuşdu. Yenidən kəndə qayıtmış və məktəbdə müəllim işləmişdi. Oğlunun belə erkən əməyə alışması və ona kömək göstərməsi Nuru müəllimi sevindirmiş, fərəhləndirmişdi. Lakin onun sevinci uzun çəkməmişdi. 1941-ci ildə başlanan müharibə hər şeyi alt-üst etdi. Şəmsini hərbi xidmətə çağırdılar və Bakıda Ümumqoşun Komandirlər Məktəbinə daxil oldu. Həmin məktəbi bitirdikdən sonra zabit rütbəsi aldı və 1942-ci ildə qanlı savaşın od-alovuna düşdü. Novorossiyskidə ilk döyüşə girən Şəmsi Rəhimov uzun bir cəbhə yolu keçdi. Bacısı Sürəyya Nuruqızı o illəri belə xatırlayır:

– Atam Şəmsidən çox nigaran qalmışdı. İki dəfə yaralanması xəbərini eşidincə daha da üzüntü keçirirdi. 1944-cü il idi. Kənd sovetinin sədri rayon mərkəzindən xoş bir xəbər gətirdi. Şəmsi Taqanroq uğrunda ağır döyüşlərdə böyük şücaət göstərmiş, "Qızıl ulduz" ordeni ilə təltif olunmuşdu. Bu, atam üçün böyük fərəh idi, onun adını hər yerdə iftixarla çəkirdi. Hər dəfə Şəmsidən məktub gələndə atamı beləcə... sevinən görmüşəm...

Şəmsi Rəhimovun sonuncu sorağı Berlin şəhərindən gəldi. Müharibə başa çatmaqda idi. O, "Qırmızı bayraq" ordeni və medallarla təltif olunmuşdu. Bir zabit kimi daha da mətinləşmişdi. Bakıya qayıtdı, kəndə gedib, ata-anası, qardaş-bacıları ilə görüşdü. Lakin hərbi xidmətdən qalmadı. Yenidən Azərbaycan diviziyasında xidmət etməyə başladı. İctimai işlərin öhdəsindən bacarıqla gəlirdi. Ona görə də diviziyanın komsomol komitəsinin katibi seçilmişdi. Lakin təhsilini artırmaq lazım idi. Odur ki, onu 1949-cu ildə "Xüsusi şöbə"yə hərbi xidmətə göndərdilər. Şəmsi Rəhimov eyni zamanda, Novosibirsk şəhərindəki Ali Dövlət Təhlükəsizliyi Məktəbinə daxil oldu. Həmin məktəbi bitirib, Dövlət Təhlükəsizliyi orqanlarında xidmətini davam etdirdi. 1956-cı ildə isə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsilini başa çatdırıb, hüquqşünas ixtisası qazandı...

1961-ci ildə onu Gəncəyə – Dövlət Təhlükəsizliyi Komitəsinin "Xüsusi şöbə"sinə rəis təyin etdilər. Orqanlarda qüsursuz xidmətinə görə və 40 yaşının tamam olması münasibətilə 1964-cü ildə Şəmsi Rəhimov ikinci dəfə "Qızıl ulduz" ordeninə layiq görüldü. Eyni zamanda mayor rütbəsi aldı.

1966-cı ildə onu Leninakan şəhərinə – "Xüsusi şöbə"nin rəisliyi vəzifəsinə göndərdilər. Həmin il podpolkovnik hərbi rütbəsi də verildi. Üç ilə yaxın orada çalışdı. Artıq təhlükəsizlik orqanları sistemində yüksək mövqe tuturdu, böyük təcrübə qazanmışdı, ayrıca hörmətə malik idi. 1969-cu ildə Şəmsi Rəhimovu Bakıya – "Xüsusi şöbə"nin rəis müavini vəzifəsinə



*Şəmsi Rəhimov (soldan birinci) xidməti yoldaşları arasında. 1980-ci illər.*

göndərdilər. O, polkovnik rütbəsini də həmin il aldı. Sonra 1985-ci ilə qədər, daha doğrusu, təqaüdə çıxıncaya kimi, Zaqafqaziya Hərbi Dairəsi 4-cü ordusu üzrə "Xüsusi şöbə"nin rəis müavini vəzifəsində çalışdı. Həmin il təqaüdə çıxdı...

Şəmsi Rəhimov doğma kəndini – Yuxarı Gödəkliyini çox sevirdi. Heç bir il olmazdı ki, yay aylarında kəndinin, doğmalarının görüşünə getməsin. Lakin son zamanlar azğın ermənilər bu imkanı da ona çox gördülər. O, sevdiyi məkanına gedə bilmədi, bir ovçu kimi təbiətin qoynuna çıxa bilmədi... 1994-cü ilin sentyabr ayının 29-u günü isə... onu birinci Fəxri Xiyabanda dəfn etdilər. Uzun müddət yaşadığı Monolit binanın divarına və həlak olduğu evin blokuna Xatirə lövhələri vurulub. Bakı küçələrindən biri indi Şəmsi Rəhimovun adını daşıyır...

Onun kiçik oğlu gənc bir zabit kimi atasının yolunu davam etdirir, xidmətdədir...





## AYDIN BƏŞİR OĞLU BÜNYATOV

Polkovnik, təhlükəsizlik orqanları işçisi, ölkəşünas. Daha çox təhlükəsizlik orqanlarında və xarici ölkələrdəki səfirliklərdə çalışan rəhbər işçi kimi tanınıb.

**1928-1987**

## YOLU DA ADI KİMİ...

Deyirəm, biz qəribə çağda yaşayırıq. Texniki tərəqqinin bu günkü möcüzəsini sabahın kəşfi qəbul etmir. Göz açıb yumunca gündə bir qəribəliklə rastlaşırıq. Aydın Bünyatov barəsində yazmaq istəyəndə də belə bir qəribəliklə üz-üzə gəldim. Düyməni basmaqla Moskva şəhərindən ikisəhifəlik xatirə ovcumun içində oldu. Bu xatirəni polkovnikin bacısı qızı, tarix elmləri namizədi Zahirə Abdulla qızı Məlik-Aslanova göndərmişdi. Yazıma da həmin xatirədən başlamağı qərara aldım:

« - Mən 1942-ci ildə anadan olmuşam. Bəşir babam və atam Abdulla cəbhəyə getmişdilər. Biz anamla onlarda yaşayırdıq. Evdə nənəm, xalam, anam və məndən başqa, kişi yalnız on dörd yaşlı Aydın idi...».

- Aydın Bünyatov 1928-ci il sentyabr ayının 13-də Bakı şəhərində Varlığa göz açmış, 1935-ci ildə 7 yaşında ikən 134 saylı məktəbə getmişdi. 1945-ci ildə orta təhsilini başa çatdırmış və sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə vermişdi. Bir il sonra, 1946-cı ildə Moskva şəhərinə getmiş, Şərqşünaslıq İnstitutunun «Ölkəşünaslıq» fakültəsinə girmişdi...

« - Yaşca aramızda elə böyük fərq olmasa da, o mənə həmişə kiçik bacı kimi yanaşardı. Mən isə onu böyük qardaşım hesab edirdim. Bütün azərbaycanlı ailələrdə olduğu kimi, bizim evdə də oğula və qardaşa xüsusi münasibət vardı. Aydın barəsində layiq olmayan söz və ya ondan narazılıq yadıma gəlmir. Evdəkilərin hamısı onun canına and içərdi. Doğrudur, babam bunun əleyhinə idi. O tez-tez nənəmə irad tuturdu ki, oğlan uşağını bu qədər istəməzlər. Ancaq babamın narahatlığına elə də əsas yox idi. Mənim doğmalarımın bir-birinə sonsuz və qarşılıqlı sevgiləri vardı, ömürlərinin sonuna kimi, onu yaşatdılar…».

- Aydın Bünyatov 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunun fərqlənmə diplomu ilə bitirdi və ölkəşünas ixtisası qazandı. Eyni zamanda, fars və ingilis dillərini mükəmməl öyrəndi. Həmin il Bakıya qayıtdı və aspiranturaya daxil olaraq ərəb dilini də öyrənməyə başladı…

« -Təhsildə Aydının işi həmişə gətirərdi… Lakin aspiranturaya girsə də, alimlik dərəcəsi almaq ona qismət olmadı. Çünki 1951-ci ildə onu Dövlət Təhlükəsizlik orqanlarına işə dəvət etdilər. İmtina edə bilməzdi. Ailəsinin başına nələr gələcəyini dərindən dərk edib, bu işə razılıq verdi. Vicdanla işləməsi, prinsipiallığı, Avropa və eləcə də Şərq dillərində gözəl danışması və parlaq düşüncəsi ona respublikanın ən yaxşı çekistlərindən biri səviyyəsinə qalxmağa imkan yaratdı. O bütün ömrü boyu öz üzərində işləyir, biliyini təkmilləşdirmək qayğısına qalırdı. Onun maraq dairəsi hər hansı bir ədəbiyyat üzərində məhdudlaşmır, tarixdən, şərqşünaslıqdan, dilçilikdən tutmuş, riyaziyyat və tibb elminə qədər bütün sahələri əhatə edirdi…».

- Aydın Bünyatov düz 32 il – (1954-1986-cı illər) Dövlət Təhlükəsizlik orqanlarında çalışdı. Onun bu fəaliyyətini xarici ölkələrdə apardığı vəzifələr də tamamlayır. Belə ki, o, 1968-1970-ci illərdə Suriyanın Aleppo şəhərində açılmış SSRİ Konsulluğunda vitse-konsul vəzifəsində işləmişdir. 1977-1982-ci illərdə isə Türkiyə Cümhuriyyətinin Ankara şəhərində, SSRİ səfirliyinin Birinci Katibi vəzifəsini tutmuşdur…

« -Evimizdə zəngin kitabxana vardı; orada müxtəlif lüğətlər,



məlumat kitabları və ensiklopediyalar tapmaq olardı. Aydın kitablardan istifadə etməyi mənə də öyrətdi, bu isə gələcəkdə çox lazım oldu. Təhsil aldığım illərdə o həmişə yanımda olub, çətinlik çəkdiyim hər hansı suala ondan gərəkli cavabı almışam…

Aydın zarafat etməyi və oyunları çox sevir, qohumu ilə belə oyunlar tez-tez təşkil olunurdu…



*Aydın Bünyatov (sağdan üçüncü) ailə üzvləri və qohumları arasında.*

Ən çox şənlik bayramı yeni il gecəsi keçirilirdi. Həmin gün evdə iri bir yolka qurulardı. Biz onu bəzəyərdik. Bütün qonaqlar yığılan kimi, qapının zəngi çalınar, Aydın Şaxta baba geyimində və çiynində yekə bir hədiyyə dolu kisə içəri girərdi. Moskvada oxuduğu illərdə bütün tətil günlərini Bakıda keçirərdi. Onun hər gəlişi hamımız üçün böyük sevinc olardı. Bakı vağzalının perronunda qohumların, dostların və qonşuların böyük bir dəstəsi onu qarşılardı. O illərdə doğma adamları belə qarşılayıb yola salmaq adət idi. Sözsüz ki, onun gəlişinə hamıdan çox mən sevinərdim. Axı o «Moskvadan konfetlər, hədiyyələr, başlıcası isə Bakıda tapılmayan şəkilli kitablar gətirərdi. Onun gəlişi ilə evimiz gənclərlə dolardı. Buraya onun məktəbli dostları və təzə yoldaşları toplaşardılar. Onların şənlik və sevinc səsləri evi başına götürərdi.

1950-ci illərdə bakılı gənclər caz musiqisinə uyuşmağa

başlamışdılar. Evimizdə belə musiqi gecələrinin təşkil olunduğunu yaxşı xatırlayıram. Böyük otaqda pianino vardı, onun yan panellərini çıxardardılar. Bu da caz musiqisinin gur səslənməsinə imkan yaradırdı. Aydın uşaqlıqdan musiqini çox sevirdi. Bütün uşaqların musiqi ilə məşğul olmaları məcburi idi. O, bacıları ilə klassik musiqi gecələrinin hamısına gedərdi, heç bir opera tamaşasını buraxmamışdı, teatrı sevir, operetta və kinonu ürəkdən xoşlayırdı. Onlar sevimli partiyaları əzbər bilirdilər və həmişə evdə xorla oxuyar, hətta ayrı-ayrı bütöv səhnələri oynayardılar. «Böyük vals» musiqili filminə iyirmi dəfə baxmışdılar.

Aydın 20-30-cu illərin görkəmli ictimai və dövlət xadimi, gözəl pedaqoq və hüquqşünas, Azərbaycan ziyalılarının tanınmış nümayəndəsi Bəşir Bünyatovun ailəsində böyüyüb, boya-başa çatmışdı. O öz həyatını şərəflə yaşadı. Heç vaxt öz atasının ləyaqətinə xələl gətirmədi. Əksinə, nəslinə olan hörməti daha da artırdı…».

Aydın Bünyatov ömrünün son illərində Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Xüsusi İnspeksiya şöbəsinə rəhbərlik etmişdir. Bu vəzifəyə çatana qədər o, çox mürəkkəb bir yol keçmiş və polkovnik hərbi rütbəsinə yüksəlmişdir. Dövlət Təhlükəsizlik orqanlarında işlədiyi uzun müddətdə orden və medallarla təltif olunmuş, dəfələrlə qüsursuz işinə görə fəxri fərmanlar almışdır. Onun adı kimi, yolu da aydın idi. Lakin bu aydınlığı hər kəs görə bilməzdi. 1986-cı ildə xəstəlik üzündən təqaüdə çıxdı. Bircə il keçməmiş, 1987-ci il iyul ayının 10-da dünyasını dəyişdi.

İndi Aydın Bünyatovun iki yadigar övladı var: oğluna atası Bəşir müəllimin, qızına isə anası Əzizə xanımın adını vermişdir…





## HƏSƏN İSA OĞLU ŞAHMURADOV

Polis polkovniki, daxili işlər orqanlarında idarə rəisi. Daha çox əməliyyat müvəkkili və rəhbər işçi kimi tanınıb.

**1958**

## TELEFON SÖHBƏTİ

Onunla bir neçə dəfə ötəri görüşsəm də, həyat yolu, daxili işlər orqanlarında fəaliyyəti barədə söhbət edə bilməmişdim. Hər dəfə vaxtın azlığı buna əsas səbəblərdən olurdu. Başa düşürdüm; daxili işlər orqanlarında çalışmaq böyük məsuliyyət tələb edir. Bu işdə gərək gecən-gündüzün olmasın, şəxsi məsələlərə vaxtın çatmaz. Yaxud mühüm bir əməliyyatı gecikdirərsən, gərəkli məqamı əldən verərsən. Kim deyə bilər ki, bu gün, ya da sabah bir hadisə baş verməyəcək və sənin o hadisənin qarşısını almaqda üzərinə məsuliyyət düşməyəcək?!

Bütün bu çətinliklər Həsən Şahmuradovla üz-üzə oturub, söhbət etməyə mane olurdu. Çıxış yolunu dostum, polis polkovniki Nurəddin Həsənov tapdı. Onun məsləhəti və köməyi ilə Astaraya zəng vurub, əlaqə saxladıq. Həsən Şahmuradovla telefonda söhbət aparmalı oldum. Bu yazını həmin söhbət əsasında qələmə almışam...

Telefon zəng çalır. Nurəddin Həsənov dəstəyi götürür. Həsən Şahmuradovdur, Astaradan danışır. İki polkovnik telefonda zarafata başlayır:

- Həsən, işlərin necədir, çox yaxşı! Bu yazarlar ki, var, bir adamın ömür yazısını axıra kimi öyrənməsələr, əl çəkməzlər. İndi səninlə şair danışacaq gör, səndən nə öyrənmək istəyir?

Mən zarafatdan alınmıram, çünki bu, həqiqətən, belədir. Bir adamın həyat yolunu bilmədən onun barəsində necə yazasan? Polkovnik dəstəyi mənə verir və telefonda Həsən Şahmuradovun həlim səsini eşidirəm. O salamlaşıb, hal-əhval tutandan sonra, sözə qənaət edə-edə özü haqqında danışmağa başlayır:

– 1958-ci il, noyabr ayının 9-da Qafan bölgəsinin Oxdar, kəndində İsa kişinin ailəsində anadan olmuşam. Uşaqlığım o bölgənin gözəl təbiəti qoynunda keçib. Yaşıl-yaşıl çəmənlər, əlvan çiçəkli yamaclar, bol meyvəli bağlar, sərin bulaqların başı, çay qırağı düzənliklər ilk oyun yerlərim olub, gözlərimə işığı o yerdən köçürmüşəm, nəfəsimə təmiz havanı o torpaqdan qatmışam. Harda olmuşamsa, o torpaq üçün burnumun ucu göynəyib, kaş uşaqlaşıb, bir də doğma yerlərə dönəydik... Nə isə... 1965-ci ildə, 7 yaşım olanda Səriyyə Həsənovanın direktor olduğu məktəbin birinci sinfinə getmişəm. İlk dərsimi müəllimim Əlqəmə Davudovdan almışam. Sonrakı siniflərdə məktəbin, biliyin dəyərini yüksək qiymətləndirən, təlim-tərbiyənin yolunu düzgün seçən, təcrübəli müəllimlər dərs keçiblər. Həyatda qazandığım uğurların çoxunda onlara minnətdaram.

1975-ci ildə orta məktəbi bitirdim. Bir çoxları kimi, mən də təhsilimi artırmaq üçün Bakıya can atdım, Bakıya gəldim. Lakin ali məktəbə girə bilmədim. Bakıda qalıb, işləməli oldum... Məni L.Şmidt adına zavoda (İndiki Səttarxan adına zavod) apardılar. Məndən əvvəl, orada yerlilərim Eldar Hüseynov, Zülfüqar Kazımov və başqaları işləyirdilər. Eldar Hüseynov sex rəisi idi. Onun köməkliyi ilə, əvvəlcə, zavoda fəhləliyə düzəldim. Sonra məni tokarlar sexinə dəyişdilər. Burada işləməyin bir xeyri də o idi ki, zavodun ayrıca yataqxanası vardı. Mənzil tapmaq məsələsinin qayğısına qalmırdın. Əlbəttə, gözəl, sakit bir təbiətin qoynundan ayrılıb şəhərin və zavodun



səsli-küylü həyatına alışmaq birdən-birə mümkün deyildi. Mən də ilk günlər qorxdum, çəkindim, dəzgahların yeknəsək, darıxdırıcı səsinə öyrəşə bilmədim. Bulaq suyu, meşə sərinliyi, bağ kölgəliyi arzuladım. Lakin geriyə yol yox idi. İlk çətinliklərə öyrəşməli oldum. Ağac kəsən, taxta yonan alətləri tanıyırdım, ancaq polad yonan, dəmir deşən, yivlər açan dəzgahları birinci dəfə görürdüm. Ona görə, birdən-birə tokarlıq etmək də mənə çox-çox ağır gəlirdi. Sonradan öyrəndim ki, bu sənətə yiyələnmək üçün, ilk növbədə, diqqətçil olmaq, tələsməmək lazımdır. Məni təcrübəli tokarlara təhkim etdilər. Onların hər bir hərəkətinə göz qoyur, bu sənətin incəliklərini öyrənməyə çalışırdım. Bir müddət keçdi: usta tokarlar işimi bəyənməyə başladılar. Bu mənə ürək-dirək verdi. Bir də baxdım, əməllibaşlı tokaram, dəzgahın dilini beş barmaq kimi öyrənmişəm. İki il bu sənətdə işlədim, necə deyərlər, gündən-günə ustalaşdım. Daha mənə inanırdılar; müxtəlif detalların hazırlanmasını etibar edirdilər. Yerlilərimin və təzə dostlarımın əhatəsində həvəslə işləyirdim. Amma hərbi xidmətdə olmamışdım. 1977-ci ildə məni hərbi xidmətə çağırdılar.

Üç il Qazax şəhərindəki hərbi hissədə xidmət keçməli oldum. Mürəkkəb bir hissəyə düşmüşdüm, kimyəvi hərbi texnikanın işlənməsi və kimyəvi silahların tətbiqini öyrədirdilər, bunlar zavoddakı dəzgahlardan daha təhlükəli idi. Fərq bu idi ki, bu texnikanın sirlərini daha ciddi rejim altında öyrənməliydik. Vaxt sürətlə gəlib keçdi. 1979-cu ildə ordudan tərxis olunub, yenidən zavoda-tokarlıq sənətimə qayıtdım...

Yenə də köhnə iş yeri, tanışlar, dostlar, zavodun səsli-küylü həyatı... Yataqxanada da yer vermişdilər. Bir sözlə, işlərim köhnə axarına düşmüşdü... Qazancım da pis deyildi. Yalnız bir məsələ məni tez-tez düşündürürdü; təhsil almalıydım!..

Mən bu yerdə polkovnikin söhbətini kəsib, sual verdim: – Ömür yazınızdan öyrənmişəm ki, Barnaulda təhsil almısınız. Bəs necə oldu ki, uzaq Altay vilayətinə getdiniz?

– Bunun da öz tarixçəsi var. Hər gün işə gedəndə bir dəstə

qəzet alırdım. Fasilə zamanı bir tərəfə çəkilib oxuyardıq. Ali məktəblərə qəbul barəsində elanları izləyərdim. Bir gün Moskva qəzetlərinin birində Barnaul şəhərində yerləşən SSRİ Daxili İşlər Nazirliyinin Xüsusi Məktəbinə qəbul elanına rəst gəldim. Bakıda belə ali məktəb yox idi. Həmin məktəbdə oxumaq istədiyimi dostlarıma da bildirdim. Hamı fikrimi bəyəndi. Artıq 1981-ci il idi. Hərbi xidmətdən tərxis olunmağımdan iki il keçirdi. Zavod kollektivinə isinişmişdim, bir yandan da dostlarımdan ayrılmaq mənə ağır gəlirdi. Ancaq qərarım qəti idi; həmin məktəbdə oxumalıydım...

Mən yenidən soruşdum: -Polkovnik, bəs bilmirdiniz ki, oxumaq istədiyiniz məktəbdə dərslər rus dilində keçilir? Hələ qəbul imtihanlarını demirəm?

– Bilirdim. Axı 1975-ci ildən Bakıda yaşayırdım. Üç il də hərbi xidmət. Bu illərdə rus dilini pis öyrənməmişdim. Ona görə, həm qəbul imtahanlarında, həm də təhsildə elə bir çətinlik çəkmədim. Təhsil almağıma idmanla məşğul olmağım da xeyli kömək etdi. Zavodda işləyə-işləyə idmanla məşğul olurdum. 1981-1983-cü illərdə həmin Xüsusi Məktəbdə oxudum. Bu şəhərə düşməyimə ürəkdən şad idim. Buranın gözəl təbiəti vardı; axar-baxarlı mənzərələri, meşələri, dağları, çayları, gölləri adama xoş ovqat bağışlayırdı. Lap bizim Oxdar bölgəsinin təbiəti kimi.

Məktəbi bitirəndə mənə leytenant rütbəsi verdilər. Bu, çox yaxşı idi. Bir məsələ qəlizdi; artıq SSRİ Daxili İşlər Nazirliyinin sərəncamına keçirdik, iş yerinə göndərişi "yuxarıda" həll edirdilər. Məni uzaq Perm vilayətinin Kizel şəhərinə göndərdilər. Orada İslah Əmək Müəssisəsində xidmətə başladım...

Əlbəttə, bura nə zavod idi, nə də hərbi xidmət. Bu işin də xüsusi qanunauyğunluqları vardı. Çətinlik bunda idi. Mən könüllü bu məktəbdə oxumuşdum, çətinliklərə dözümlü olmalıydım. Çətinlikləri sadalamaq fikrində deyiləm. Bircə onu bildirirəm ki, 3 ilə yaxın bir müddətdə doğmalarımdan, dostlarımdan uzaqda belə ağır işdə xidmət göstərməyim heç də



asan olmadı. Hərbi rütbəmi artırmışdılar, müdiriyyətin hörmətini qazanmışdım. Ali təhsil almaq fikri isə başımdan çıxmırdı. Bu barədə istəyimi müəssisənin rəisinə bildirdim. O razılıq verdi, hətta xüsusi təqdimat yazıb, ali məktəbə göndərəcəyini bildirdi...

Doğrudan da, müdiriyyətin təqdimatı ilə 1986-cı ildə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərinə gəldim. Burada Daxili İşlər Orqanlarının Ali Məktəbi yerləşirdi. Artıq imtahan verməkdə təcrübəm vardı. Qəbul imtahanları sınaqlarından üzüağ çıxdım. Həmin məktəbin müdavimi kimi 1986-1989-cu illərdə Kiyev şəhərində təhsil aldım. Ali təhsilli hərbi mütəxəssis diplomu ilə yenidən Kizel şəhərinə döndüm. Komandirlik postlarından biri mənə tapşırıldı. Burada daha iki il işlədim. Paqonlarımda kapitan rütbəsinin ulduzlarını daşıyırdım. 1990-cı il 20 yanvar qırğınından sonra, beşguşəli ulduzlara həqarətlə baxmağa başladım. Respublikamız müstəqillik qazanmışdı. Daha mən orada qalıb, xidmət edə bilməzdim. 1991-ci ildə kapitan rütbəsində Azərbaycana qayıtdım, daha doğrusu, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeçiliyinə dəyişdirildim. Məni 2 saylı İslah Əmək Müəssisəsinə xidmət etmək üçün göndərdilər. Bu sahədə on beş illik təcrübəmi nəzərə almışdılar. Bir il sonra, Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsinə dəyişilmək barədə sərəncam aldım. 1992-1995-ci illərdə bu idarədə əməliyyat müvəkkili və baş əməliyyat müvəkkili vəzifələrində çalışmışam. Bu idarədə işlədiyim müddətdə keçirdiyimiz mürəkkəb əməliyyatlarda iştirakım barədə təfsilatı ilə danışmaq istəməzdim. Bircə onu qeyd etməyi lazım bilirəm ki, uğurla keçən əməliyyatlardan sonra, təşəkkürlər almışam, mükafatlandırılmağa layiq görülmüşəm. Bəlkə də, bütün bunları nəzərə alıb, məni 1996-cı ildə Quba rayon polis şöbəsinin rəis müavini vəzifəsinə təyin etdilər. Bir ilə yaxın orada çalışdım.

1996-cı ildə vəzifəmi daha da böyütdülər. Ağdaş rayon polis şöbəsinə rəis təyin olundum. Vəzifələr dəyişildikcə paqonlarımdakı ulduzların da sayı artırdı. Bunlar daha beşguşəli

deyil, iftixarla daşıdığım səkkizguşəli ulduzlardı...

1999-cu ilin aprel ayından Astara rayon polis şöbəsinin rəisi vəzifəsinə təyin olundum. 2000-ci il iyul ayının 29-dan isə Daxili İşlər nazirinin əmri ilə mənə polkovnik rütbəsi verilib. Ailəliyəm, bir oğlum, iki qızım var. Həyat və fəaliyyətimin əsas məqamları bunlardır, necə yazarsınız, özünüz bilərsiniz, çox sağ olun!



*Həsən Şahmuradov nazirliyin kollegiya iclasında. 2000-ci il.*

Mən özümdən asılı olmayaraq əzbər bildiyim deyimlərdən birini təkrarladım:

– İşinizdə uğurlar diləyirəm, polkovnik!

Telefon söhbətini polkovnik Nurəddin Həsənov tamamladı:

– Həsən Şahmuradovu 1992-ci ildən tanıyıram. Həmin vaxtdan nazirliyin Baş Cinayət Axtarışı İdarəsində işləyirdi. İstər idarənin rəisi, istər iş yoldaşları, istərsə də nazirliyin başqa əməkdaşlarından onun barəsində yalnız xoş sözlər eşitmişəm. Astara üçüncü rayondur ki, öz iş yerini dəyişir. Hər üç rayonda çox böyük hörmət qazanıb. Belə hörmət hər orqan işçisinə nəsib olmur. Bir sözlə, Həsən Şahmuradov haqqında yazmağına dəyər...





**1950**

## BAYRAM NOVRUZ OĞLU NOVRUZOV

Polkovnik, inşaatçı-mühəndis, hərbi idarə rəisi. Daha çox hava hücumundan müdafiə sistemində hərbi qulluqçu və rəhbər işçi kimi tanınıb.

## "QAÇAQ" NOVRUZUN OĞLU

Necə müddətdi ki, polkovniklə görüşmək istəyirdim; ömür yazısından öyrənmişdim ki, Qafan bölgəsinin Gığı kəndində 1950-ci ilin oktyabr ayının 4-də, 20-ci illərin sonlarında "Qaçaq" kimi adı Zəngəzur mahalında məşhur olan Novruz kişinin ailəsində varlığa göz açıb. Bir çoxları təki nə 30-cu illərin ağır günlərini keçirib, nə də 41-45 savaşının qara yelləri başının üstündən əsib. Üç yaşına kimi, Ciraxor qəsəbəsində yaşayıblar. Sonra yenidən doğma Gığı kəndinə dönüblər. O, 1957-ci ildə məktəbə gedib, 1968-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olunub. 1973-cü ildə institutu bitirəndə ixtisaslı mühəndis kimi inşaat obyektlərinə yollamaq əvəzinə, leytenant rütbəsində hərbi qulluğa göndərilib. Elə o zamandan da taleyini hərbi xidmətə bağlayıb, ta bu günə qədər. İndi təqaüdədir.

Bütün bunlar Bayram Novruzovun ömür yazısından qısaca qeydlərdir. Bunlara bir daha qayıdacağam. Ancaq mənim üçün qaranlıq qalan və qələmə ala bilmədiyim iki məsələ vardı, biri onun hərbi qulluğu ilə bağlı baş açmadığım gizli xidmət, o biri

isə atası Novruz kişinin "qaçaq" düşməsinin səbəbi. Bu məqsədlə də görüşüb söhbət etməliydim. Bir-birimizi tanımırdıq. Vədələşdik ki, "Sevinc" kino-teatrının qarşısındakı meydançada görüşək, ancaq o, hərbi geyimdə olsun. Mənə elə gəldi ki, vədə yerinə tez gəlmişəm. Sən demə, polkovnik məndən qabaq özünü ora çatdırıb. Tez tanımasına və cəsarətlə qolumdan tutmasına , yalnız heyrət eylədim. Bəlkə də, bu hərbçilərə xas olan bir ayıqlıqdır, deyə bilmərəm...

Birlikdə özünün iştirakı ilə tikilən binadakı mənzilinə gəlirik; bina 8-ci kilometr qəsəbəsində, Əli Vəliyev küçəsində yerləşir.

Divanda yanaşı oturub, söhbətə başlayırıq. Soykökləri barədə suallar verirəm; məlum olur ki, Novruz kişi Qara Yaqubun soyundadır, babasının adını daşıyır. Atası haqqında danışmasını xahiş edirəm. Polkovnik ayağa qalxıb, telefona yaxınlaşır:

– Yox, atam barəsində mən az bilirəm, qoy qardaşım Salman müəllimə zəng edim ki, o gəlsin.

Zəng edib, öyrənir ki, hələ Salman müəllim məktəbdən qayıtmayıb. O gəlincə söhbətin səmtini hərbi xidmətə doğru yönəldirik.

– Biz nağıllarda deyildiyi kimi, yeddi qardaş, bir bacıyıq. Böyük qardaşımız Salman müəllimdir. O da babasının adını daşıyır. Qardaşım atamın xatirinə, oğluna Novruz adı verib. Anam Əcəb Əhmədağaqızı əslən Daşbaşı kəndindəndir. Elə bilirsiz, mən elə-belə inşaatçı ixtisasını seçmişəm. Yox bunun da öz səbəbi var. 1957-ci ildə ilk dəfə məktəbə gedəndə Şamil müəllimdən dərs almışam. Bütün fənləri sevirdim . Ancaq riyaziyyata xüsusi meylim vardı. Bu fənni mənə rəhmətlik Həsən Şəkərəliyev sevdirmişdi. Onun riyaziyyatı tədris etməkdə ayrıca məharəti vardı. Hər müəllim onunla bəhsə girişə bilməzdi. 1967-ci ildə orta məktəbi bitirəndə tərəddüd etmədən sənədlərimi universitetin mexanika-riyaziyyat fakültəsinə verdim. Üç-"dörd", bir-"beş" qiymət alsam da, müsabiqədən keçmədim. 1968-ci ildə yenidən həmin fakültəyə



imtahan vermək istədim. Lakin qohumum və uşaqlıq dostum Aydın Piriyev məsləhət verdi ki, inşaat fakültəsinə sənədlərimi təqdim edim. Onun özü də Politexnik İnstitutunda oxuyurdu. Mən imtahan verib, qəbul olundum...

Beş il günlərimi havayı başa vurmadım. İxtisaslı, təcrübəli müəllimlərdən inşaata aid biliklərin əsaslarını öyrəndim, layihələr işləmək, yeni tərtibatlar yaratmaq səriştəsinə yiyələndim. Bu yönümdə tikinti obyektlərində keçirdiyimiz istehsalat təcrübələrinin də çox böyük faydası oldu. Eyni zamanda, hərbi kafedra üzrə keçirilən dərslərə də ciddi fikir verdim. 1973-cü ildə institutu bitirəndə məni leytenant rütbəsində hərbi xidmətə göndərdilər. Tbilisi şəhərində yerləşən Zaqafqaziya Hərbi Dairəsinin sərəncamına düşdüm. 1975-ci ilə qədər orada xidmət etdim. Sonra məni Bakı Hərbi Hava Hücumundan Müdafiə Dairəsinə dəyişdilər...

Bu ara telefon zəng çaldı. Polkovnik cəld qalxıb telefonun dəstəyini götürdü. Danışan Salman müəllim idi. Ona ataları barədə söhbət etmək lazım olduğunu demədi, "gələrsən, bilərsən!" deyə dəstəyi yerə qoydu. Mən başa düşdüm ki, Salman müəllim gəlməsinin səbəbini soruşurdu, lakin polkovnik, nədənsə, gizlətdi...

Heç yarım saat keçməmişdi ki, Salman müəllim özünü çatdırdı. Mənimlə səmimiyyətlə görüşdü, elə bil, çoxdan bir-birimizi tanıyırdıq. Ata və anamın adlarını söyləyəndə bu tanışlıq daha artıq özünün təsdiqini tapdı. Onunla söhbətimiz tez tutdu. Atası Novruz kişidən belə bir söhbət danışdı:

– Atamın "qaçaq" düşməsi məsələsi qara bir kölgə kimi bizim ailənin başı üstündə dolaşıb. Həyatda azca irəli getmək istəmişiksə, bu kölgə gözümüzün önünə gəlib, bizi cəsarət etməyə qoymayıb. Mən özüm kommunist partiyası sıralarına girmək istəyəndə yazmışdılar; xeyli çək-çevirə saldılar. Bir dəfə atamdan "qaçaq" düşməsinin səbəbini soruşdum. Onun söhbəti heç vaxt yadımdan çıxmaz.

"– Atam Salmandan çoxlu arı qalmışdı. Hər il 300 səbətdən çox arı saxlayırdıq. Atamın ölümündən sonra, bu işi mən davam

etdirirdim. Bu arıların balını satıb, ailəni dolandırırdım. Şura hökumətinin vaxtları idi. 1926-cı ildə bizim kəndə bir şura sədri göndərmişdilər. O da özünü layiqli aparmırdı. Qulağıma söz çatırdı ki, kəndin qız-gəlininə söz atır, onlara alçaq nəzərlə baxır. Bir gün arılığın yanında səbət hörürdüm. Kəndin ağsaqqallarından üçü yanıma gəldi. Azeylənə-azeylənə danışmağa başladılar:

– Bu kənddə bir başıpapaqlı yoxdu ki... hansı dərəninsə gədəsi gəlib, burda fironluq eləyir?!

Soruşdum ki, kimdir, o gədə?

– Kim olacaq, şura sədri!

– Qan vurdu beynimə, hirsimdən dinə bilmədim. Əllərim əsirdi, o günü səbət yarımçıq qaldı. Çayın o tayında alaçıqlar qurulmuşdu, kənd camaatının yarısı orada mal-qara saxlayırdı. Öyrəndim ki, sədr hər axşam obaya gedir. Axşam düşən kimi obaya tərəf getdim. Gizli bir yerdə onu gözləməyə başladım. Bir azdan gördüm ki, alaçıqdan çıxıb, kəndə doğru gəlir. Əlində üçatılan tüfəng vardı. Ehtiyatlı olmaq lazım idi. Ona görə, qəfildən üstünə atılıb, tüfəngdən yapışdım. Yalvarmağa başladı. Tüfəngi buraxıb, yolun altına tullandı. Kolluq idi, qaranlıqda seçə bilmədim. Ancaq hədələdim ki, kənddən çıxıb getməsə, bu tüfəngin patronlarının üçünü də beyninə çaxacağam. Səhəri dayımla yanıma gəlmişdi ki, tüfəngi qaytarım. Qaytarmadım, bir daha hədə-qorxu gəldim ki, çıxıb getsin. Doğrudan da, kənddən qaçdı. Bu tüfəng sonradan ələ keçdi, mən "qaçaq" düşdüm...

Mən namus üstündə, qeyrət yolunda "qaçaq" düşmüşəm, oğul, özgəsinin var-dövlətində gözüm olmayıb. Altı il "qaçaq" oldum, Zəngəzurda, Qarabağda, Naxçıvanda keçmədiyim dağ-dərə qalmadı. Ermənilər qanıma susamışdılar. Hər yerdə gözətçilər qoyulmuşdu, məni güdürdülər. Kəndlilərin var-dövlətini əllərindən alıb, kolxozlara yığırdılar. Bunun üstündə "qaçaq" düşənlərin sayı gündən-günə artırdı. Kurutdan Muradverdi, Babaxan, Şahverdi, Xudaverdi və Həcətidən Məmməd bu işə görə, qaçıb məni özlərinə başçı seçmişdilər.



1932-ci ildə bizi Dərməzurdə "Qaçaq küfülü"ndə yaxaladılar. Sözsüz ki, kənddən bizim yerimizi tuşudanlar da olmuşdular. Muradverdini, Şahverdini və Xudaverdini öldürdülər. Meyitlərini isə sürüyə-sürüyə apardılar. Küfüldə Babaxanla mən qalmışdım. O da özünü güllə ilə vurdu. Aldatdılar ki, hökumət səni bağışlayacaq, təslim ol. Gördüm, yoldaşlarımın qisasını təkbaşına ala bilməyəcəyəm, ondan ötrü, təslim oldum. Sonra başa düşdüm ki, ermənilərin "yağlı" dillərinə inanmışam... "Bağışlanmaq" əvəzinə, on üç il Sibir sürgünündə işgəncə çəkdim... mən namus üstündə, qeyrət yolunda "qaçaq" düşmüşəm, oğul!"

Atam bunları mənə ağlaya-ağlaya danışardı. Onun ömür yolu məşəqqətli, əzablı, işgəncəli hadisələrlə doludur. Yazılsa, necə deyərlər, bir kitab bağlamaq olar. Adam fikirləşəndə heyrətdən donur. Nə qədər iradəli və möhkəm olasan ki, belə ağırlıqlara dözəsən, həm də 70 il yaşayasan?! Atam 1945-ci ildə evlənmişdi. Fəxr edirik ki, qardaşımız Bayram öz bacarığı, biliyi və istedadı hesabına polkovnik rütbəsinə qədər yüksəlib, həm də başımızın üstündəki bu "qara kölgə"nin qorxusunu hər addımda duya-duya...

Salman müəllimin söhbətləri o qədər maraqlı idi ki, yazının polkovnik barəsində olacağını unutmuşdum. Yaxşı ki, əvvəlcədən, qeydlər etmişdim. Sovet qadağaları vaxtı olsa idi, Bayram Novruzov haqqında yalnız "N" hərbi hissəsində qulluq edir" sözlərini yazmaq olardı. İndi müstəqillik şəraitində onun fəaliyyətindən söhbət açmaq o qədər də təhlükəli deyildi. Belə ki, Bayram Novruzov 1980-1992-ci illərdə birbaşa SSRİ Hərbi Hava Hücumundan Müdafiə Qoşunlarına tabe olan "N" hərbi hissəsində müxtəlif vəzifələr tutub, kapitan rütbəsindən polkovnik-leytenant çininə qədər ucalıb. Bir məsələ gün kimi aydındır ki, o, fəaliyyəti illərində qüsursuz xidmət göstərməsəydi, bu rütbələri ala bilməzdi. Onun hərbi fəaliyyətini dərindən-dərinə şərh etmək də mümkün deyil, bəlkə də, indi bu bizə qəribə görünərdi. Keçmiş SSRİ məkanının müxtəlif şəhərlərində, o cümlədən Moskva,

Leninqrad, Bakı, Tbilisi, Soçi, Rostov-Don, Stavropol, Kapustinyar, Tixoreyskdə gizli hərbi müdafiə obyektlərinin qurulmasında böyük fəallıq göstərməsi Bayram Novruzovun mühəndislik bacarığından az söz demir. Əgər nəzərə alsaq ki, o, eyni zamanda, hərbçilər üçün yaşayış evləri və inzibati binaların layihələşdirilməsi ilə bərabər, inşasında da birbaşa iştirak edib, onun fəaliyyətinin bizə gizli görünən məqamları daha artıq aydınlaşmış olar.



*Bayram Novruzov (arxa sıra, soldan 2-ci) xidməti yoldaşları arasında. 1978-ci il.*

1990-cı il 20 yanvar qırğını baş verəndə Bayram Novruzov Moskvada idi. Axşam televizorda M.Qorbaçovun çıxışını eşidib sarsıldı. Bir də ona görə əsəbləşirdi ki, o cinayətkar bütün günahları Respublika rəhbərlərinin üstünə atırdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra, Bayram Novruzov Müdafiə Nazirliyinə tabe olan tikinti idarəsinə başçılıq etmişdir. Neçə ildir ki, çiyninə qonan ulduzların işığında inamla yaşayır və fəaliyyət göstərir. Paqonlarına səkkiz guşəli ulduzlar sancandan bu inam və həvəs daha da artmışdır...

**SÖZ ARDI.** Bu yazı neçə il əvvəl, qələmə alınmışdır. Sonradan öyrəndim ki, Salman müəllim dünyasını dəyişib. Ruhuna min hörmət diləyirəm...





1938

## ƏVƏZ YUSİF OĞLU ƏSƏDOV

D.X. polkovniki, rabitə mühəndisi, silahlı qüvvələr veteranı. DaHa çox telefon rabitə sistemində və mühafizə orqanlarında rəhbər işçi kimi tanınıb.

## BİR TELEFON ZƏNGİ

O, divanda oturmuşdu. İlk dəfə ayaq basdığı bu şəhər evində həm sıxılır, həm də qəbul imtahanlarındakı uğursuzluğundan sarsılırdı. Fikir içərisində idi; bir nəfərə tapşırmışdılar, onu dəmiryol vağzalına aparacaq, bilet alıb, qatarla yola salacaqdı. Ona elə gəlirdi ki, bu uğursuzluq taleyin işidir. Körpəlikdən həmin uğursuzluq onu izləyir, həyatda göz amağa, irəli getməyə qoymur, çəkib yerində oturdur.

Atasını erkən itirmişdi. Evin sonbeşiyi idi. Anası Gülcahan bir saçını ağ, bir saçını qara hörüb, onunla birgə qardaş və bacısını da böyütmüş, 41-45 savaşının ağır günlərindən minbir əziyyətlə çıxarmışdı. Anasının kolxoz fermasında işlədiyi illər gözünün önündən qatar-qatar gəlib keçdi; yaylaqdan-yaylağa, qışlaqdan-qışlağa köçən ferma ilə o da gedirdi. Sal qayası üstündən saatlarca doğma kəndi seyr etdiyi Qazmayurd, uşaqlığını qoyub gəldiyi Göygədik, Ağıllıyurd kimi yaylaqları bir də xatırladı, nədənsə, könlü su istədi, bumbuz bulaq suyu. Ancaq bu da mümkün deyildi; Bakının qızmar yay günündə dişgöynədən suyu haradan tapasan?!

1938-ci il may ayının 5-də Yuxarı Girətağ kəndində anadan olmuşdu. 1946-cı ildə məktəbə getmişdi. Heç üç il oxumamışdı ki, taleyin amansız hökmünə tuş gəldi; anası Gülcahan dünyasını dəyişmişdi. Qafan şəhərində yaşayan böyük qardaşı Əmrah onu öz yanına apardı.

Həmin ildən onun ata-ana qayğısını qardaşı çəkdi, təhsilini artırmaq qeydinə o qaldı. Həm evdə, həm də məktəbdə müəllimi oldu. Şəhərdəki 1 saylı məktəbdə oxuyurdu. Burada ona İsa İbrahimov, Nüsrət Şıxalıyev, Suvara Əmirova kimi müəllimlər dərs deyirdilər... Bir il əvvəl, yenə də sənədlərini Xalq Təsərrüfatı İnstitutuna vermişdi, imtahanlardan keçə bilmədi. Onda, yenidən Qafana döndü. Bir il şəhər kitabxanasında işlədi. Hazırlaşdı ki, bu il təkrar imtahan versin. Görünür, Xalq Təsərrüfatı İnstitutuna qəbul olunmaq qismət deyilmiş... İndi bir daha Qafana qayıtmaq da ona ağır gəlirdi...

– Ay bala, nə fikrə getmisən, canın sağ olsun, bu il olmadı, gələn il yenidən imtahan verərsən?!

Əvəz hamının hörmətlə "Ağa əmi"- deyə müraciət etdiyi ucaboy kişini, elə bil, indi gördü. Hiss edilmədən səsizcə içəri girmişdi. Ayağa qalxdı və çəkinə-çəkinə:

– Ağa əmi, fikir eləmirəm, bir də Qafana qayıtmaq mənə birtəhər gəlir...

– Onda, qal, texnikumların birində oxuyarsan! Hansı texnikumda oxumaq istəyirsən?

Əvəzin üzünə-gözünə işıq qondu. Bu kişini Qafanda görmüşdü. Kürəkəni Teymur Bünyatovla onlara gəlmişdilər. Odur ki, ürəklənib dedi:

– Texnikaya aid məktəb olsa, oxuyaram...

– Onda, rabitə texnikumuna qəbul olarsan, Qurbanovun məktəbinə...

Əvəz nə "rabitə" sözünü başa düşürdü, nə də Qurbanovu tanıyırdı, dayanıb ehmalca başını tərpədirdi.

Ağa əmi daha heç nə deməyib, dəhlizdə qoyulmuş telefon aparatına yaxınlaşdı və kiməsə zəng vurdu. Onun telefonda dediyi sözləri heç zaman unuda bilmir:



– Teymur, bu uşağı niyə göndərirsən geri, gedib Qafanda neyləyəcək, qoy rabitə məktəbində oxusun?!

Sonra nə danışdılar, kəsdirə bilmədi. Ağa əmi dəstəyi yerə qoyub, ona sarı döndü:

– Bala, otur, gözlə, axşam Teymur özü gələcək, heç yana getmək lazım deyil!

Doğurdan da, bu telefon zəngi Əvəz Əsədovun taleyində dönüş nöqtəsi oldu. Səhərisi Teymur Bünyatov (o zaman Daxili İşlər nazirinin müavini vəzifəsində işləyirdi-R.T.) onu Rabitə Texnikumuna apardı. Əvəz Əsədov elə o gün texnikumun adını və direktorun soyadının da Qurbanov olduğunu öyrəndi. Texnikum nazirliyin qarşısındakı binada yerləşirdi.

Elə bil, çiynindən ağır daş qaldırıldı. Bir telefon zəngi onun həyat yolunu müəyyən etdi və həmişəlik məftillərin səs axarına qoşdu...

Bu, 1957-ci ilin avqust ayında olmuşdu. Əvəz Əsədov Qafana qayıtdı, bir də Bakı Rabitə Texnukumunun tələbəsi kimi geri dönmək üçün. Burada üç il oxudu. 1960-cı ildə texnikumu bitirib, telefon rabitəsi üzrə texnik ixtisası qazandı. Onu Bakı şəhər telefon rabitəsi qovşaqlarından birinə texnik vəzifəsinə göndərdilər. Bir müddət sonra, işlədiyi Avtomat Telefon Stansiyasına rəis təyin edildi. Başqa sözlə, səsi səsə caladı, insanların ürək sözlərini bir-birinə çatdırmağa köməkçi oldu. Doğrudur, məftillərdə axan səslərdə xoş xəbər də verilir, dalğın xəbərlər də söylənirdi. Hər ikisi vacib idi. Yalnız bir şərtlə; telefon rabitəsinin saz işləməsi təmin olunsun. Əvəz Əsədov 1965-ci ilə qədər çalışdığı bu stansiyada belə bir məqsəd üzərində öz işini qurdu və buna nail olmağa səy göstərdi...

Beş il müddətinə müəyyən təcrübə qazanmışdı, bu sahənin daha məsul qovşaqlarında işləyə bilərdi. 1965-ci ildən Daxili İşlər Nazirliyi sisteminin rabitə qovşağına işə qəbul olundu. Onu qovşağın baş texniki vəzifəsinə təyin etdilər. O zaman nazirlik - Respublika Asayişi Mühafizə Nazirliyi adlanırdı. Bir il baş texnik kimi, nazirliyin və onun tabeliyində olan idarələrin telefon rabitəsi sisteminin təkmilləşdirilməsində öz bacarığını

göstərdi. Nazirliyin rabitə qovşağının rəisliyi yeri boşalmışdı. Bu vəzifəyə göz dikən çox idi. Onun da namizədliyini irəli sürürdülər. Məsələnin həll olunması o zamankı nazir, general M.Əlizadədən asılı idi. Nazir razılıq versəydi, o, rəis vəzifəsini tuta bilərdi. Əvəz Əsədov nazirin qəbulundakı söhbəti minnətdarlıqla xatırlayır:

– Kəndinizin adını niyə düz yazmayıblar? "Qratak" nədi?

– Qafanda ermənilər yazıblar...İndi düzəltmək çətindir...

– Bəs o rabitə qovşağında işləyənlərin çoxu ermənilərdir, onların arasında baş çıxara biləcəksənmi?

Əvəz Əsədov nazirin bu səmimi söhbətindən bir az özünü yığışdırdı:

– Yoldaş nazir, mən onların dilini də bilirəm, necə deyərlər felini də... Ermənilərlə "dil" tapmağı bacararam...

Bu cavab deyəsən, nazirin xoşuna gəldi və onun Daxili İşlər Nazirliyinin rabitə qovşağına rəis təyin olunmasına razılıq verdi...

Bununla da Əvəz Əsədov 1966-cı ildən həmin vəzifədə işləməyə başladı. Bir neçə aydan sonra, ona ilk hərbi rütbə-kiçik leytenant rütbəsi verdilər. O, 1983-cü ilə qədər rabitə qovşağına rəhbərlik etdi. Bu rabitə təkcə telefon aparatlarından ibarət deyildi. Müxtəlif siqnal qurğuları ildən-ilə təkmilləşir, yeniləri ilə əvəz olunurdu. Elə işçilər də onun kimi. İllər ötdükcə burada kök salmış ermənilər yavaş-yavaş seyrəlir, özlərinə başqa yerdə iş axtarırdılar. O, rabitə qovşağında on yeddi il çalışdı...

Əvəz Əsədov öz işinə ciddi yanaşmaqla bərabər, ali təhsil almağı da unutmurdu. Hələ 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun Radio rabitəsi və radio verilişi fakültəsinin axşam şöbəsinə qəbul olunmuşdu. 1969-cu ildə həmin fakültəni bitirib, radio rabitəsi və radio verilişi mühəndisi ixtisası almışdı. 1983-cü ildə onu Daxili İşlər Nazirliyi Mühafizə İdarəsinin texniki şöbəsinə rəis təyin etdilər. Bir il keçməmiş, bu idarənin texnika üzrə rəis müavini vəzifəsinə irəli çəkildi...

Özünün dediklərindən: – Mənim rəis müavini vəzifəsinə



təyin olunmağım bir çoxlarına xoş gəlmirdi. Çünki məndən əvvəl, bu vəzifəni aparanlar bütün rayonların mühafizə idarələrində siqnal qurğularının qoyulduğu barədə yalan hesabat vermişdilər. Hər bir rayonun mühafizə idarələrində oldum və məsələni yerindəcə araşdırdım. Bu məsələ lap Moskvaya qədər gedib çıxdı. Xüsusi yoxlama komissiyası göndərdilər. Bunun üstündə neçə adam vəzifədən götürüldü. Məndən yuxarı təşkilatlara yazmağa başladılar. Yadımdadır, bir dəfə yazmışdılar ki, Əvəz Əsədov texniki təhsili olmasına baxmayaraq, idarənin rəis müavini vəzifəsini tutur və s. Lakin mən işimdə boşluq yeri qoymurdum, ona görə də, yoxlamadan sonra, material yazanların özləri pis vəziyyətdə qalırdılar...



*Əvəz Əsədov (birinci sıra, sağdan 2-ci) xidməti yoldaşları və müdavimlər arasında. 1985-ci il.*

Odur ki, bir neçə ilə aparatların saz işləməsi və oğurluq hallarının aradan qaldırılması üzrə keçmiş ittifaqda bizim Mühafizə İdarəsi birincilər sırasına çıxdı...

Əvəz Əsədov 1992-ci ilə qədər, daha doğrusu, təqaüdə çıxana kimi, bu vəzifədə çalışdı. Hələ 1981-ci ildə "milis əlaçısı" döş nişanı ilə təltif olunmuşdu, medallar, fəxri fərmanlar və mükafatlar da öz yerində. Başlıcası isə Daxili İşlər

orqanlarında çalışdığı illər ərzində vaxtaşırı hərbi rütbəsi artmış və 1987-ci ildən paqonlarında polkovnik rütbəsinin ulduzlarını daşıyır...

Əvəz Əsədov, eyni zamanda, Azərbaycan Respublikasının silahlı qüvvələr veteranıdır... Hər dəfə telefon aparatı səslənəndə o ilk zəng yada düşür və ona elə gəlir ki, ömür yolunun ayrı-ayrı məqamlarını təzədən yaşayır...





1960

## RƏŞİD İSMİXAN OĞLU SƏFƏROV

Polis polkovniki, Qarabağ müharibəsi veteranı, hüquqşünas. Daha çox daxili işlər orqanlarında əməliyyatçı və rəhbər işçi kimi tanınıb.

## ÇÖZƏLƏNƏN DÜYÜNLƏR

Səhər tezdən su gətiməyə gedən rus qadını donmuş gölün buz yarığına yaxınlaşdı. Yarığın ağzını nazik buz qatı tutmuşdu. Qadın çiyninə aşırdığı kiçik çəlləklərdən birini yarığa buraxdı. Çəllək buz qatını sındırıb, suya düşdü, ancaq dərinə bata bilmədi. O, çəlləyi qaldırıb, yenidən suya salladı, ancaq faydası olmadı, çəllək nəyəsə toxunub, dərinə batmışdı. Qadın əyilib, buzun altına baxdı, donmuş meyiti görcək bərkdən qışqırdı. Su aparmağa gələn o biri arvadlar da oraya toplaşdılar. Suyun içində donmuş qadın meyidi var idi.

Xəbər tezliklə şəhərin baş sahə müvəkkili Rəşid Səfərova çatdı. O da, öz növbəsində, yubanmadan şəhərin daxili işlər orqanlarına məlumat verdi. Təcili əməliyyat-istintaq qrupu yaradıldı və bu əməliyyatın aparılması həmin qrupa tapşırıldı. Qrupun tərkibində orada çalışan başqa bir azərbaycanlı sahə müvəkkili Hüseyn Əsədov da vardır. İlkin mərhələdə qadının şəxsiyyətini müəyyən etdilər. Ünvanını öyrənəndən sonra qonşular və qohumlar dindirildi. Açıqlandı ki, qətl gecəsi həmin qadının evində Sergey Vorobyov adlı bir nəfər varmış. Ancaq Sergeyi tapmaq mümkün olmadı. Hara isə qaçıb gizlənmişdi. Bir neçə günün axtarışı öz nəticəsini verdi. Onu qonşu qəsəbədə yaxaladılar. Sergey Vorobyov qadını necə qətlə yetirdiyini və

onu əl arabasında aparıb, gölə atdığını boynuna almalı oldu...

Bu, Rəşid Səfərovun daxili işlər orqanlarında çalışdığı az müddətdə apardığı ilk uğurlu əməliyyat idi.

Hadisə 1985-ci ildə uzaq Sverdlovsk vilayətinin Nevyansk şəhərində baş vermişdi. Onda, Rəşid Səfərovun 25 yaşı yenicə tamam olmuşdu, 5 ilə yaxın idi ki, daxili işlər orqanlarında çalışırdı...

Bəs necə olmuşdu ki, Rəşid Səfərov uzaq şimal vilayətinə düşmüş və daxili işlər orqanlarına işə girmişdi? Bu sualın cavabını onun yaşam yazısı ilə tanışlıqdan sonra öyrənmək mümkündür...

1960-cı il yanvar ayının 25-də Zəngəzur mahalının Qavan şəhərində varlığa göz açmışdı. Atası Gığı kəndindən, anası Hava Əli qızı isə Şəhərcik kəndindən idi. Ata-ananın həmin il dördüncü uşağı dünyaya gəlmişdi. Adını Rəşid qoymuşdular.

1960-cı illərdə İsmixan kişi doğma Gığı kəndinə qayıtdı. Dağlarda axtarış aparan geoloqlarla işləyir, kənddə ictimayyətçi kimi tanınırdı. Uşaqları isə Gığı orta məktəbində oxuyurdular. Rəşid Səfərov da yeddi yaşında ikən, 1967-ci ildə həmin məktəbə getdi. İlk dərsini təcrübəli müəllim kimi tanınan Nüsrət Vəliyevdən aldı. Sonrakı illərdə ona İdris Piriyev, Balay Ərəbov, Bağman Piriyev, Ağabala Babayev, Əziz Nuriyev və başqa müəllimlər dərs dedilər.

1977-ci ildə orta məktəbi bitirən Rəşid Səfərov Bakıya gəldi. Texniki fənlərə marağı böyük idi. Ona görə də, Azərbaycan Dövlət Politexnik İnstitutuna imtahan verdi, ancaq qəbul ola bilmədi. Bir çoxları kimi, o da sənaye müəssisəsinə işə düzəldi. Zabratdakı maşınqayırma zavodunun yığma sexində çilingər şagirdi işləyirdi. Əlbəttə, bu onun üçün o qədər də asan deyildi; rus millətindən olan bir ustaya tapşırmışdılar. Həm dili yaxşı bilmirdi, həm də çilingər alətlərini, dəzgahları birinci dəfə görürdü. Burada bir ilə yaxın işlədi. 1978- ci ilin may ayında isə onu əsgərliyə çağırdılar. Üç il Krımın Feodasiya limanında yerləşən Qaradəniz hərbi donanmasında xidmət etdi. 1981-ci ildə yenidən zavoda qayıtdı; çilingərlik sənətinə mükəmməl yiyələnmək istəyirdi. Lakin qohumu Eldar Şərifov Sverdlovsk vilayətinə gedirdi, onu da özü ilə aparmağa söz vermişdi. Bu-



nunla, Rəşid Səfərov bir daha zavoddan ayrılmalı oldu...

O, 1981-ci ilin oktyabr aynın 17-dən Sverdlovsk vilayətinin Nijni-Tagil şəhəri daxili işlər orqanında çalışmağa başladı. Bir il sonra, onu həmin şəhərdəki xüsusi orta milis məktəbinə oxumağa göndərdilər. 1984-cü ildə məktəbi bitirən Rəşid Səfərov ilk hərbi rütbə - leytenant rütbəsi aldı. Bu da ona baş sahə müvəkkili və ictimai təhlükəsizlik şöbəsinin rəisi kimi məsul vəzifələrdə işləməyə imkan yaratdı. Ümumiyyətlə, o, Nevyansk şəhərində 4 ilə yaxın çalışdı. Bu müddət ərzində neçə-neçə çətin əməliyyatın açılmasında iştirak etdi, neçə-neçə düyünləri çözələdi. ..

Rəşid Səfərov 1988-91-ci illərdə Kiyev Ali Milis Akademiyasında təhsil almışdır. 1991-ci ildə Azərbaycana döndükdən sonra, Daxili İşlər Nazirliyinin Cinayət Axtarışı İdarəsində əməliyyat müvəkkili kimi fəaliyyət göstərdi.

1992-ci ildə Oğuz rayonu ərazisində böyük qətl hadisəsi törədilmiş, üç nəfər öldürülmüşdü. Cinayətin açılmasından ötrü nazirlik onu həmin rayona ezam etdi. Rəşid Səfərov bu əməliyyatın üç gün ərzində tam qətiyyətlə açılmasında təcrübəli işçi kimi böyük fədəkarlıq göstərdi. Dağıstan ərazisinə keçmək istəyən üç nəfər meşədə yaxalandı. Onlar yolda üç nəfəri öldürmüş, onların pullarını götürmüş və maşını qaçırmışdılar. Bu uğuruna görə, Rəşid Səfərova erkən mayor rütbəsi verildi.

Həmin il o, Qarabağ müharibəsində də iştirak etdi. Bu günə qədər Xocalının faciə gecəsini unuda bilmir. Ağdam-Xocalı yolunda onları aparan maşın minaya tuş gəldi. Rəşid Səfərov ağır yaralandı, mina qəlpəsi qarın nahiyəsinə işləmişdi. Onu xəstəxanaya çatdıra bildilər. 15 gün huşsuz qaldı. İki aya yaxın Sabunçudakı xəstəxanada müalicə olundu. Xocalı uğrunda qanı tökülsə də, ağrılı günlər sovuşub keçdi...

1993-cü ildə o Xətai rayon Polis İdarəsinin rəis müavini vəzifəsində çalışdı. 1994-cü ildə ona yeni biri vəzifə etibar edildi. O, Daxili İşlər Nazirliyi Əməliyyat-Statistika İnformasiya İdarəsinin baş inspektoru oldu. 1995-ci ildə Xususi Təyinatlı Milis Dəstələri Ağstafa rayonunda ixtişaş törətmişdilər. Onlarla mübarizəni gücləndirmək məqsədi ilə Rəşid Səfərovu rayonun Polis Şöbəsinin əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyin

etdilər. 1996-cı ilə kimi, orada cinayətkarlığa və Xususi Təyinatlı Milis Dəstələrinə qarşı mübarizənin gücləndirilməsinə başçılıq etdi. Bir il ərzində yeddi ağır cinayətin düyünlərini çözələdi. Bunların hamısı ölüm hadisəsi ilə bağlı idi. Bunlardan birini xatırlamaq yerinə düşərdi; bir qadını qətlə yetirmişdilər. Qatillər tutulandan sonra məlum oldu ki, onun qolların kəsib ayaqyoluna atmışdılar. Qadının başını hasarın dibində, meyitini isə meyvə ağacının altında basdırmışdılar. Cinayəti törədən ata-oğul idi. Özbəkistandan gəlmişdilər. Belə bir qətlin düyününü yalnız Rəşid Səfərov kimi təcrübəli əməliyyatçı aça bilərdi…



*Rəşid Səfərov (sağdan birinci) ABŞ-ın Lyuzana ştatı, Baton-Ruş şəhər polis akademiyasının dinləyiciləri və müəllimləri arasında. 2001-ci il*

1997-ci ildə onu Cəlilabad rayonu Polis Şöbəsinə dəyişdilər. Burada 7 aya yaxın rəis müavini vəzifəsini yerinə yetirdi. 1998-ci ildə yenidən nazirliyə qaytarıldı. Beş ilə yaxın Əməliyyat Statistika-İnformasiya İdarəsinin Əməliyyat şöbəsinin rəisi vəzifəsində çalışdı. Bir önəmli faktı da qeyd etmək vacibdir; Rəşid Səfərov iki dəfə ABŞ-ın Lyuzan ştatının Baton-Ruş və Vaşinqton ştatının Takoma şəhərlərində xüsusi kurs keçmişdi. Bu kurslarda beynəlxalq terrorizmə qarşı mübarizə tədbirləri öyrədilirdi…

2003-cü ilin mart ayından onun çiynindəki ulduzların sayı üçə çatmışdı. Bu o deməkdir ki, təcrübəli əməliyyatçı polkovnik



rütbəsi almışdı…

Yasamal rayonu Polis İdarəsi rəis müavinin kabinetində oturub, söhbət aparıram. Bu vəzifəni 2002-ci ilin avqust ayından yaşam illərinin çox hissəsi əməliyyat düyünlərinin çözələnməsində keçən polkovnik Rəşid İsmixan oğlu Səfərov tutur.

**SÖZ ARDI.** Axırda, Rəşid Səfərovdan soruşdum: — Səfərovlardan Sizin yolunuzu davam etdirən varmı? Cavabı çox qısa oldu:— Bəli, var, ailənin sonbeşiyi İlqar Səfərov polis mayoru rütbəsindədir. Hazırda, Xızı rayon Polis Şöbəsinin pasport qeydiyyatı bölməsinə başçılıq edir. Hər iki qardaşa bu məsul fəaliyyətlərində uğurlar dilədim.



1956

## TELMAN XANSUVAR OĞLU HƏSƏNOV

Qarabağ müharibəsi veteranı, polis mayoru, hüquqşünas.
Daha çox daxili işlər orqanlarında əməliyyatçı və rəhbər işçi kimi tanınıb.

## QRAD QƏLPƏSİ

Gözünü açanda otağın ağ tavanını gördü. Hər yan ağ idi, divarlar da, çarpayılar da, onların üstündəki yatacaq da... Bura haradır, ağ yataqda yatanlar kimlərdirlər?! Qıçını çəkmək istədi, küt bir ağrı hiss etdi. Dəhlizdə danışıq eşidib, qapıya sarı boylandı. Başa düşmədiyi bir dildə danışırdılar. Bəlkə, ermənilərdi?! Yox, erməni dilində danışsaydılar, az-maz başa düşərdi. Yalnız həmin anda xatırladı ki, qıçından yaralıdı, onu Tehran şəhərinə müalicəyə gətiriblər... Alnını soyuq tər basdı; yoxsa, qıçını kəsiblər?! Əlini ehtiyatla uzadıb, qıçını axtardı; şübhəsi dağıldı, qıçı yerində idi, ancaq bərk-bərk sarımışdılar. Görünür, qəlpəni çıxarıblar...

Laçın meşəsində yaralandığı gün yadına düşdü. 1993-cü ilin fevral ayı idi. Hər tərəf ağappaq qarla örtülmüşdü. Bir gün əvvəl, ermənilərin iki dəfə hücumunu dəf etmişdilər. Gecə nisbətən, sakit keçmişdi. Qarlı səngərdə mövqe tutmuşdular. Deməyəsən, səhərin açılmasını gözləyirmişlər. Qəfildən üstlərinə qrad yağmuru yağdı. Göz açmağa macal tapmadılar. O, ayağa qalxmaq istəyəndə üzüstə yıxıldı. Ağrıdan huşunu itirdi. Ayılanda özünü qan apardığını gördü. Bir gün huşsuz qar içində



qalmışdı. Sol qıçından qan axırdı. Ayağa qalxmaq istədi, özünü saxlaya bilmədi. Təzədən yerə yıxıldı. Köynəyini cırıb, yarasını sarıdı. Döyüş yoldaşlarından heç kəs gözə dəymirdi. Orda-burda meyidlər qaralırdı. Dəhşətə gəldi, qorxu onu üstələdi...

Qardan ovuclayıb, üzünə çəkdi. Tanış gəlməyən səmtə doğru sürünməyə başladı. Qarın soyuğu qıçlarını dondurur, sazaq üz-gözünü kəsir, barmaqlarını gizildədirdi. Lakin necə olursa-olsun, özümüzünkilərə çatmalıydı. Meşədən çıxıb, seyrək kolluğa düşmüşdü ki, səs eşitdi. Yaxında əsgərlər vardı. Kolun arxasında gizlənib, dinləməyə başladı. Onların danışığı aydın eşidilirdi; doğma dildə söhbət edirdilər. Ürəyi aramla döyündü. Gözlərində yaşamağın umud ulduzları yandı. Özündən asılı olmadan çığırdı, onları köməyə səslədi, bütün gücünü toplayıb, umud işığına sarı can atdı...

Əskərlər köməkləşib, onu hərbi hissəyə gətirdilər. İlk yardım göstərib, yarasını sarıdılar: sonra hansı xəstəxanayasa aparıldı. Müayinə bir nəticə vermədi. Bakıya çatdırmağı məsləhət bildilər...

Yevlax meydançasında vertalyota minəndə ikinci dəfə böyük sarsıntı keçirdi; vertalyot meyidlə dolu idi.

Bir aya yaxın Daxili İşlər Nazirliyinin qospitalında müalicə edildi. Lakin əsas ağrı – qrad qəlpəsinin qıçından çıxarılması mümkün olmadı...

Tehranda müalicə edilmək üçün 15 nəfər yaralı seçmişdilər; onların içində onun da adı vardı. Artıq neçə gün idi ki, Tehran şəhərində xəstəxanadaydı. Dünən onun qıçında cərrahiyyə əməliyyatı aparılmışdı. Həkimlər tez-tez yaralılara baş çəkirdilər. Danışıq fars dilində gedirdi, başa düşmürdü. Ancaq baxışlarından hiss edirdi ki, yarası bir o qədər də qorxulu deyil. Sonra jurnalistlər gəlməyə başladılar. "Cümhuri-islam" qəzetinin əməkdaşı onunla müsahibə apardı. Bir qrup yaralının şəklini də qəzetdə dərc etdilər. Ay yarım Tehran xəstəxanasında müalicə olundular...

Bu, Telman Xansuvar oğlunun Qarabağ savaşında qrad qəlpəsindən aldığı yaranın qısa tarixçəsidir. Ömür yolunun əsas məqamları isə belədir:

1956-cı ilin noyabr ayının 10-da Qafan bölgəsindəki Yuxarı

Gödəkli kəndində doğulub. İki yaşında olanda Bakının Binəqədi qəsəbəsinə köçüblər. Telman 1963-cü ildə qəsəbədəki 99 saylı məktəbə gedib.

Atası Xansuvar Həsənov Abşeron sovxozlarından birində direktor işləyirdi. Buna baxmayaraq, onlar yay aylarını doğma kəndlərində keçirərdilər. Kəndin təmiz havası, bulaqlarının dişgöynədən suyu, meşələrinin minbir gözəlliyi, bolluca meyvəsi Telmanın yadından heç zaman çıxmaz...



*Telman Həsənov (sağdan ikinci) Tehranda müalicə olunub Vətənə qayıdanlar arasında. 1992-ci il.*

Səkkizinci sinfi bitirib Dəmiryol Texnikumuna daxil oldu və 1976-cı ildə oranı bitirdi. Həmin il hərbi xidmətə çağırıldı. 1979-cu ildə ordudan tərxis olunduqdan sonra, Daxili İşlər orqanlarında işə düzəldi. 1981-ci ilə qədər Binəqədi mühafizə polisində mülki inspektor vəzifəsində çalışdı. Sonra Qobustanda yerləşən 3 saylı İslah-Əmək düşərgəsində işlədi. Bir müddət isə Mərdəkandakı 2 saylı İslah-Əmək müəssisəsində yanğınsöndürən oldu. Lakin Daxili İşlər orqanlarında işləməyə meyli güclü idi. Ona görə də 1986-cı ildə Daxili İşlər Nazirliyinin N.Rizayev adına Xüsusi Orta Milis Məktəbinə girdi. İki ilə həmin məktəbin əyani şöbəsini bitirdi və onu 7 saylı İslah-Əmək müəssisəsinə mühəndis vəzifəsinə



göndərdilər. İşləyə-işləyə təhsilini də artırmağı unutmadı; Ufa şəhərindəki Ali Milis Məktəbinin hüquq fakültəsini bitirdi...

Telman Həsənov Qarabağ savaşında igidliklə döyüşənlərdən biridir. Onun döyüş yolu 1991-ci ildə Mingəçevir şəhərindən başladı. Rota komandiri kimi SES-in mühafizəsi ona tapşırılmışdı. Sonra öz rotası ilə Şuşa şəhərinə ezam olundu. Kosalar, Qarakav kəndlərində mühafizə əməliyyatlarını uğurla yerinə yetirdi. Ağdam, Laçın uğrunda döyüşlərin ən qaynar nöqtələrində şücaət göstərdi. Bircə qrad yağmuruna düşməsəydi?! Bircə bu qrad qəlpəsi yarası olmasaydı?!

Laçın döyüşündə aldığı qəlpəni Tehran şəhərində qoyub gəldi Telman. 1993-cü ildə onu Bakı şəhəri Nərimanov rayonu üzrə mühafizə polisində vzvod komandiri təyin etdilər. 1994-cü ilə kimi bu vəzifədə şərəflə öz borcunu yerinə yetirdi. Ona yenicə yaradılmış Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsində rota komandirliyi etibar edildi. Az sonra, batalyon komandiri oldu. Telman Həsənov 1994-1995-ci illərdə dövlətçiliyimiz əleyhinə baş verən qiyamların yatırılmasında, reket dəstələrinin zərərsizləşdirilməsində fəal iştirak etdi.

O, 1995-ci ildən Abşeron rayon Polis Şöbəsində çalışır. Əvvəlcə, qrup rəhbəri olmuş, hazırda isə əməliyyat müvəkkili vəzifəsini aparır. Onun həyata keçirdiyi əməliyyatların sərhəddi yoxdur. O, ən təhlükəli cinayətkarları respublikamızın ərazisindən çox-çox uzaqlarda yaxalayır. Artıq peşəkar əməliyyatçıdır. Neçə-neçə belə əməliyyatı - respublikadan kənarda qaçıb gizlənən cinayətkarları yaxalamaq uğurla başa çatıb... Bu xidmətlərinə görə Telman Həsənov təşəkkür də, mükafat da alıb. Lakin o, xalqın, Vətənin qeyrətini çəkməyən qeyrətsizləri ifşa edəndə ən böyük mükafatını qazanmış olur. Onun ürəyində iki nisgil baş-başadır; körpəliyini qoyub gəldiyi Zəngəzur nisgili, qanı ilə suvardığı Qarabağ torpağının nisgili. Kaş ki, bu nisgillər o torpaqlara qayıdış sevincində əriyəydi...

# ZƏKA AYDINLIĞI





## BAXIŞ İSMAYIL OĞLU SULTANOV

Elmlər doktoru (1962), professor, Əməkdar elm xadimi, pedaqoq. Daha çox neftçi-geoloq, alim-pedaqoq kimi tanınıb.

**1884–1977**

## BÖYÜKLÜYÜ SADƏLİYİNDƏN DOĞURDU...

Bu kəndin qədim adı Armudlu idi. Yerli azərbaycanlı sakinləri qovduqdan sonra, ermənilər adı tərcümə edib, Danzaver qoydular. Didərginlik müsibətinə düçar olan ailələr çoxdu. Sultanovlar ailəsinin də başına bu müsibət gəldi. Həmin nəslin bölgədə böyük hörməti vardı. Qatar kəndi yaxınlığındakı mis mədənlərinin bir hissəsinə onlar sahibdirlər. Ermənilərin də gecə-gündüz rahatlığını pozan, qarınlarına qara sancılar dolduran bu məsələ idi. Nəyin bahasına olsa da, Sultanovları bölgədən uzaqlaşdırmaqdan ötrü hiylələr qurur, müxtəlif yollar düşünürdülər. Əsrin əvvəllərində daşnak guruhu qara niyyətlərinə nail oldu. Çar hökumətinin təhriki ilə törədilən türk-erməni münaqişəsi ermənilərin bu yerlərdə məskunlaşmasına, torpaqların onların himayəsinə keçməsinə geniş imkan yaratdı. Armudlu kəndi də erməniləşdi...

**Fətulla Abdullaoğlunun "Çarpazlaşan qılınclar"** kitabından:

– Bizim əslimiz Qubadlı rayonunun Bəxtiyarlı kəndindəndir, – deyə təzə müsahibim fikirli-fikirli söhbətə başladı. Yaz-yay aylarında aran bürküsünə dözə bilməyən kənd camaatı dağlara qalxardı...



...Çoxları kimi, bizim ailə də Armudlu yaylağına köçərdi. Quşqonmaz yalçın qayalardan aşağılarda, güneyə dirsəklənən və zümrüd göylərində parlaq ulduzlar sayrışan bu yerin, bu kəndin ayağından qıjıltı ilə dağ çayı şütüyüb gedir. Qarşıdakı dağın ətəkləri armudluqdur. Ondan yuxarılarda - yamaclarda yaşıl biçənək zolağı, qalın palıd və ulas meşəsi uzanır...

...Müxtəsər, 1894-cü ilin payızında, rəhmətlik nənəm Səadət qarı demişkən "el dağdan enəndə" mənim dünyaya gəldiyim Armudlu kəndi təsəvvürümdə, hafizəmdə, bax, bu cür qalıb...

Qədəmim uğurlu olub. Arxamca on üç uşaq gətirmişəm - üç oğlan, on qız...

Bunları jurnalistə Baxış Sultanovun özü danışmışdı. Ona görə də maraqlı olduğu üçün yazıya əlavə etdim.

Baxış Sultanov bu kənddə varlığa göz açmışdı. Uşaqlıq çağlarından qaçqınlığın, didərginliyin dözülməz dəhşətlərini gördü. Atası İsmayıl bəy Sultanov oğlunu oxutmaq üçün onu Şamaxı şəhərinə apardı. Anası Gilə xanımın əmisi Yusif orada işləyirdi. Onun razılığı ilə Baxışı aparıb, texniki təmayüllü realnı məktəbə qoydu. Baxış Sultanov 20 yaşında həmin məktəbi bitirdi. 1914-cü il idi. Birinci dünya savaşının qanlı günləri başlamışdı. Yaşayış ağır, həyat acı idi. Buna baxmayaraq, atasının onu oxutmağa imkanı çatdı. O, oğlunu Novoçerkassk şəhərinə göndərdi. Baxış orada Don Politexnik İnstitutunun dağmədən fakültəsinə daxil oldu. Ali təhsilini bitirdikdən sonra, Azərbaycana qayıtdı. 20-ci illərdən başlayaraq, ömrünün sonuna kimi, Baxış Sultanov Azərbaycan neft yataqlarının kəşfiyyatı sahəsində və neft sənayesinin ixtisaslı kadrlarla zənginləşməsində misilsiz xidmətlər göstərdi. O, ilk azərbaycanlı neft geoloqu idi. Lökbatan, Şorbulaq, Ələt, Daşgil, Naftalan, Puta, Korgöz kimi neft-qaz yataqlarında kəşfiyyat işlərinin aparılması və məhsuldar qatların aşkara çıxarılmasında Baxış Sultanovun ayrıca əməyi vardır. Xəzər dənizində bir çox neft-qaz yataqlarının kəşfi onun adı ilə bağlıdır. O, uzun müddət Azərbaycan Sənaye İnstitutunda "Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasına bacarıqla rəhbərlik etmişdir. Namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə etmiş, professor elmi adına layiq görülmüşdür. Bütün bunlara o,

asanlıqla nail olmamışdır. Əgər əsrin əvvəllərində qaçqınlıq və didərginlik əzabları çəkmişsə, 30-cu illərdə təqiblərə məruz qalmış, repressiyanın qara yelləri onun da başının üstündən əsmişdir. Lakin dövrün işgəncələri dağ kimi sərt iradəsini qıra bilməmiş, o öz bacarıq və istedadı ilə bütün maneələri dəf etmişdir. 93 il ömür sürmüş, 1977-ci ilin oktyabr ayının 6-da dünyasını dəyişmişdir. Neft-qaz kəşfiyyatı sahələrində və elmi müəssisələrdə tutduğu müxtəlif vəzifələri sadalamaq fikrində deyiləm. Bircə onu qeyd etməklə kifayətlənirəm ki, bir alim-pedaqoq kimi Baxış Sultanovun da çoxlu yetirmələri var. Onlar öz sevimli müəllimlərinin yolunu ləyaqətlə davam etdirirlər. Bunlardan biri də geologiya-mineralogiya elmləri doktoru Pənah Mehdiyevdir. Onun "Görkəmli neftçi-alim, müəllim" adlı məqaləsini mənə kimyaçı alim Təhməz Quliyev gətirdi. "Sirlər xəzinəsi" qəzetinin 1986-cı il 1 may tarixli nömrəsində dərc olunan bu məqaləni oxudum. Çox xoşuma gəldi. Həm Baxış Sultanovun unudulmaz xatirəsinə, həm də sevimli müəllimi barəsində ürək sözlərini səmimiyyətlə yazan Pənah Mehdiyevə hörmət əlaməti olsun deyə, həmin məqalə-xatirəni buraya əlavə etməyi üstün tutdum:

"– Baxış müəllim haqqında yazmaq mənim üçün həm asandır, həm də çətin. Asanlıq onunla bağlıdır ki, istər yaradıcılığına, istərsə də şəxsiyyətinə yaxından bələdəm və odur ki, deməyə sözüm çoxdur. Çətinlik ona görədir ki, məhdud həcmi olan bir yazıda onun geniş və çoxcəhətli fəaliyyətini əhatə etmək imkan xaricindədir. Odur ki, xeyli düşünüb götür-qoy etməli oldum. İstədim, onun istehsalat, elmi, pedaqoji fəaliyyətlərini ayrılıqda işıqlandırım, ancaq bacarmadım! Çünki onun fəaliyyətinin müxtəlif istiqamətləri bir-biri ilə elə sıx bağlıdır ki, onları təcrid edib, qiymətləndirmək də qeyri-mümkündür.

...Hörmətli müəllim zəngin həyat yolu keçmişdir. Don Politexnik İnstitutunda ali təhsil aldıqdan sonra Azərneft Birliyinin Qaradağneft trestində geoloq, böyük və baş geoloq vəzifələrində çalışmışdır. Eyni zamanda o, Qərbi Abşeron kimi mürəkkəb geoloji quruluşla səciyyələnən rayonun müxtəlif sahələrində neft-qaz axtarışı - kəşfiyyatı işlərinə rəhbərlik etmişdir.



1931-ci ildən ömrünün son günlərinədək B.İ.Sultanov M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının müəllimi, dosenti və professoru olmuşdur. 1944-cü ildə namizədlik, 1962-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Geniş yaradıcılıq hüdudları və sistemli tədqiqat metodları ilə fərqlənən B.İ.Sultanovun neft geologiyasının inkişafında yüksək ixtisaslı istehsalatçı kadrların və alimlərin hazırlanmasında böyük xidmətləri vardır.

O, neftli-qazlı rayonların geoloji quruluşu, hidrogeokimyası, hidrogeologiyası, geotermiyası, palçıq vulkanizmi, lay fluidlərinin mənşəyi, lieqrasiyası, toplanması və pozulması məsələləri arasında qarşılıqlı əlaqələri dərindən əsaslandırmaqla bu sahədə özünəməxsus orijinal tədqiqatlar aparmış, yüzə yaxın çap olunmuş qiymətli elmi əsərlərin, dərsliklərin və fond materiallarının müəllifi kimi şöhrət tapmışdı.

Professor müəllimlər müəllimi kimi tanınmışdı, şöhrət qazanmışdı. Onun əsl elm adamları arasında böyük nüfuzu vardır. Baxış müəllim öyrədirdi ki, tədqiqat işlərində nəticə və təkliflər o vaxt real, təbii yeraltı şəraiti düzgün əks etdirir ki, kompleks kriteriyalara əsaslansın. Həm də sübut edirdi ki, neft işi ilə bağlı elə bir nəzəri və praktiki məsələ yoxdur ki, onun həllində lay sularının öyrənilməsinə ehtiyac olmasın. O, göstərirdi ki, nefti, qazı, suyu, geoloji quruluşu bir-birindən ayrılıqda öyrənmək düzgün nəticə verməz. Bu baxımdan Baxış müəllim elmə böyük yenilik gətirmişdir.

Lay sularının kimyəvi tərkibinin dəyişmə xüsusiyyətlərinin düzgün araşdırılması, eyni layda müxtəlif tip suların varlığı, antiklinal tipli neft-qaz yataqlarının tağında suların olması kimi yeniliklər ilk dəfə B.İ.Sultanov tərəfindən ədəbiyyata düşmüşdü. Belə kompleks tədqiqatlar əsasında Baxış Sultanov, xüsusilə Abşeron yarımadası yataqlarının geoloji quruluşunun və neftlilik-qazlılığını öyrənilməsində fəal iştirak etmiş, mübahisəli problemlərin həllində öz sözünü inadkarlıqla deyə bilmişdi. Onun orijinal fikir və ideyaları təcrübədə təsdiq olunmuşdur. Məsələn, palçıq vulkanlarının tədqiqatları o vaxtkı

tanınmış rus alimlərinin hamısının fikrinə zidd olmaqla Lökbatan neft yatağının kəşf edilməsi ilə nəticələnmiş və buna bənzər strukturlarda kəşfiyyat işlərinin müvəffəqiyyətlə aparılmasına zəmin yaratmış, Baxış Sultanovu 30-cu illərdəki təqiblərdən azad etmişdir. Professor B.İ.Sultanov məhsuldar qat çöküntülərində neft-qaz yataqlarının ilkin mənşəli olmaqla lateral miqrasiya nəticəsində əmələ gəlməsi ideyasının ilk



*Baxış Sultanov (sağdan üçüncü) kafedra üzvləri arasında. 1960-cı illər.*

tərəfdarlarından biri kimi, karbohidrogen yığımlarının şaquli miqrasiya ilə bağlı formalaşmasını qəbul etmişdir. Bu ideya tərəfdarlarının qarşısında tutarlı kompleks kriteriyalarla öz fikrini əsaslandırmışdı. Məsələn, geoloji kəsiliş üzrə yuxarıda yatan lay dəstələrində kalsiumlu-xlorlu, aşağıdakı horizontlarda isə natriumlu-bikarbonatlı tibb suların varlığı faktı neft-qaz yataqlarının şaquli miqrasiya nəticəsində əmələ gəlməsini təqzib edən tutarlı arqument kimi ilk dəfə B.İ.Sultanov tərəfindən irəli sürülmüşdür. Baxış Sultanov "qara qızıl" axtarışlarının əzablı yollarında ideyalar toqquşmasına mərdliklə sinə gərən öz məsləki naminə canından belə keçməyə hazır olan və şəxsiyyətə pərəstiş dövrünün əsassız ittihamlarına məruz qalan görkəmli mütəxəssis geoloq idi.

Bu gün isə Baxış Sultanovu tanıyanların, onun pərəs-



tişkarlarının, tələbələrinin, ən böyük arzusu odur ki, bu görkəmli alimin adı əbədiləşdirilsin. Yəni uzun illər işlədiyi Qaradağ rayonuna, yaxud kəşf etdiyi yataqlar əsasında neftçilər üçün salınmış Lökbatan qəsəbəsinə, heç olmasa, oradakı küçələrin birinə professor Baxış Sultanovun adı verilsin.

Professor Baxış Sultanov görkəmli alim olduğu kimi, həm də gözəl insan idi. Bir şəxsiyyət kimi onun böyüklüyü, sadəliyi, təvazökarlığı alimliyi ilə sıx bağlılıq təşkil edirdi."



## NURƏLİ NAĞDALI OĞLU BÜNYATOV

Elmlər doktoru (1966), əməkdar həkim, professor, pedaqoq. Daha çox ixtisaslı cərrah, tibb müəssisələrində rəhbər işçi kimi tanınıb.

**1917-1980**

## SÜMÜYÜ KƏSƏN CƏRRAH BIÇAĞI...

O, uşaq çığırtısına evdən çıxdı. Qapılarında bir uşağı yerə uzatmışdılar. Sağ qolu sınmışdı. Əmisi Məmmədqulu sınığı sarıyırdı; parçanın üstünə yumurta yaxılmışdı; yonulmuş taxta tilişkələri sınan yerin üstünə qoyub bağlayırdılar. Uşağın "dədə, vay" səsi kəndi başına götürmüşdü. Ətrafındakılar nə qədər ürək-dirək verirdilərsə, kirimirdi...

Balaca Nurəli belə hadisələri çox görmüşdü. Sınıq-çıxıqları olanı tez-tez əmisinin yanına gətirirdilər. Elə o çağdan da onun uşaq dünyasında belə bir arzu oyanmışdı: "Kaş mən də əmim kimi sınıqçı olaydım!"

Sonralar tez-tez kəndə qayıdar, uşaqlığı keçən Xızalanı bir də gəzər, Şərbətalı çeşməsindən su içər, Quzugizlənənə baxar, Çiməndə çilikağac oynardı. Böyük ad-san sahibi, tanınmış tibb alimi olmasına baxmayaraq, kəndə gələndə bir körpə uşağa dönərdi. Əlinə uzun ağac götürüb, kəndi, onun ətrafını dolaşar, Kürdüm çiməninə, Kəkilli pirə dəyərdi. Əzzalı bulağından içməmiş geri dönməzdi. İndi bu böyük alim barəsində yazanda bütün bunlar mənim gözümdə bir daha canlanır və belə adamların torpağa bağlılığı, yurd sevgisinin sonsuzlğu önündə donub qalırsan...

Onun uşaqlağı sıxıntı, ehtiyac və qaçqınlıq illərinə düşdü.



Belə bir zamanda arzuyamı çatmaq olardı?! Ailənin son beşiyi idi. Körpəlik çaxlarından ata üzünə həsrət qalmış, anası Mədinənin himayəsində böyümüşdü. Əmisi Bəşir Bünyatov Bakıda tanınmış adamlardan sayılırdı. Nurəli 10 yaşında olanda özündən böyük qardaşı Teymur və Bahadurdan sonra, onu da əmisinin yanına gətirdilər. Orta məktəbi Bakıda bitirdi. 1935-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə qəbul olundu. Nurəli Bünyatov 1941-ci ildə yenicə institutu bitirmişdi ki, qanlı müharibə başladı. Onu da səfərbərliyə alıb, cəbhə xəstəxanalarında işləməyə göndərdilər. Qospitallarda baş cərrah və cərrahiyyə şöbəsinin rəhbəri kimi öz bacarığını göstərdi. 1946-cı ilin oktyabrında ordudan tərxis olundu...

Əməkdar elm xadimi, professor Qəhrəman Qəhrəmanov "Bakı" qəzetinin 1998-ci il, 16 oktyabr tarixli nömrəsində dərc edilmiş "Yurdun nəcib övladı" adlı xatirəsində öz həmkarı haqqındda yazır: "...Nurəli Nağdalı oğlu Bünyatovun anadan olduğu 1917-ci ilin sonundan başlayaraq, Azərbaycanın bir çox bölgələri kimi, Zəngəzur əyalətini də daşnak erməni ünsürləri işğal etmişdilər. Nankor ermənilər dünyada misli görünməmiş qəddarlıqları ilə məşhurlaşan Andronik Ozanyanın və polkovnik Qaragin Nijdehin bilavasitə iştirakı ilə yerli azərbaycanlı əhaliyə qarşı soyqırımını amansızlıqla həyata keçirirdilər. Atadan yetim qalmış uşaqlardan biri də Nurəli idi...."

Professor daha sonra, Nurəli Bünyatovla ilk görüşünü belə xatırlayır: "Onun hərbi xidmətə səfərbər edildiyi vaxtdan neçə il keçsə də, hələ 1942-ci ildə Nurəli Bünyatovla görüşümüzü unuda bilmirəm. Tibb zabiti libasında, boylu-buxunlu, 24-25 yaşlarında gülərüz gəncin nurlu siması hələ də gözlərimin önündədir. Yaşca məndən böyük həmyerlilərimizlə söhbətindən belə başa düşdüm ki, orduda ləyaqətli xidmətinə görə, Nurəliyə bir neçə günlük məzuniyyət vermişdilər. O da bu fürsətdən istifadə edib, kəndlərinə getmiş, qardaş-bacısına və qohumlarına baş çəkmişdi... Yenidən cəbhəyə qayıdacaqdı..."

Dava illərində Nurəli Bünyatovun "sümüyü kəsən cərrah bıçağı", doğrudan da, böyük "möcüzələr" göstərdi. Bu bıçaq neçə-neçə yaralı əsgəri "ölümün pəncəsindən" xilas etdi, varlıqdan əlini üzən yüzlərlə umudsuza umud verdi, yenidən

həyata qaytardı. Bu bıçaq mahir bir cərrahın əlində idi. Uşaqlıqda adi "sınıqçı" olmağı arzulayan bir cərrahın!



*Nurəli Bünyatov (sağdan birinci) 1941-ci ildə Tibb İnstitutunu bitirən tələbə-veteranlar arasında. 1966-cı ii.*

Professor Qəhrəman Qəhrəmanovun xatirəsində bir daha oxuyuruq: "Müharibələrə bəzən "travma epidemiyası" da deyirlər. Cəbhə illərindən sonra, hərbi cərrah həyatını yenidən həkimlik sənətinə və elmi-pedoqoji işə sərf etdi. Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda kiçik elmi işçi vəzifəsinə qəbul edilən N.Bünyatov namizədlik və doktorluq dissertasiyalarını müdafiə etdikdən sonra, həmin institutun direktoru vəzifəsinədək şərəfli bir yol keçdi. Daha sonra isə o, Nərimanov adına ATU-nun travmotologiya və ortopediya kafedrasının müdiri seçildi, ömrünün sonuna kimi öz sənətini tələbələrə öyrətməklə yanaşı, mühüm elmi tədqiqatlarla da məşğul oldu..."

Nurəli Bünyatov hələ 1954-cü ildə cərrahlığın mühüm bir sahəsi üzrə "Gec sağalan yaralar zamanı dəri-plastiki cərrahilərin ən yaxın və uzun müddətli nəticələri" adlı namizədlik dissertasiyası müdafiə etmişdi. 1966-cı ildə isə daha mürəkkəb tədqiqat işini başa çatdırdı. Doktorluq dissertasiya isə "Bud-çanaq oynağının vərəm xəstəliyində rezeksiya əməliyyatı



və autohomo-heterotransplaktatlardan istifadə etməklə oynağın bərpası" kimi aktual bir problemin tədqiqinə həsr olunmuşdu. Bir il sonra, ona professor elmi adı verildi.

O, "Əlaçı səhiyyə işçisi" adını daşıyırdı. Azərbaycan Səhiyyə Nazirliyi yanında attestasiya komissiyasının üzvü, Azərbaycan Travmotoloq Ortopedlər Cəmiyyəti Rəyasət Heyətinin sədr müavini idi. 100-dən çox elmi əsərin, neçə-neçə dərsliyin və tərcümələrin müəllifi olan Nurəli Bünyatov fəxri fərmanlar və medallarla təltif olunmuşdu. Respublikanın əməkdar həkimi fəxri adını almışdı.

Görkəmli cərrah bir pedaqoq kimi elmi kadrların yetişməsində də əvəzsiz xidmətlər göstərmişdi. Hazırda neçə-neçə yetirməsi onun işini uğurla davam etdirir.

Qədim Zəngəzur mahalının Qafan bölgəsindəki Yuxarı Girətağ kəndində dünyaya göz açan Nurəli Bünyatov 1980-ci ilin aprel ayının 23-də dünyasını dəyişdi. Onun məharətlə işlətdiyi "Sümüyü kəsən cərrah bıçağı" etibarlı əllərdədir! Onların sırasında sevimli övladı, tibb elmləri namizədi Ramiz Nurəli oğlu Bünyatovun da adı var...



## QƏHRƏMAN MEHDİQULU OĞLU QƏHRƏMANOV

Elmlər doktoru (1966), professor, əməkdar elm xadimi, tibb ixtiraçısı, pedaqoq. Daha çox ixtiraçı-alim və pedaqoq kimi tanınıb.

**1925**

## NOBEL MÜKAFATINI ALA BİLƏRDİ...

Əsgər Zeynalovu çoxdan tanıyıram. Fransız dili mütəxəssisidir, hazırda öz sahəsi üzrə kafedraya başçılıq edir. Bir neçə il eyni institutda çalışmışıq. 1998-ci ilin mart ayı idi. Əsgər müəllim əlində qəzet yanıma gəldi. "Ağrıdağ" qəzetini gətirmişdi. Həmin qəzetin növbəti nömrəsində onun "Onlar Nobel mükafatına namizəd idilər..." adlı məqaləsi dərc olunmuşdu. O, məqaləni mənə göstərib dedi:

– Sizin qafanlıdan da yazmışam...

Məqaləni alıb baxdım. Qəhrəman Qəhrəmanov barəsində çox eşitmişdim. Hətta bir neçə məclisdə də görüşmüşdük. Lakin onun Nobel mükafatına təqdim edildiyini bilmirdim. Qəzetin bir nömrəsini saxlamışdım. Qafan bölgəsinin tanınmış adamları barədə kitab tərtib edəndə yadıma düşdü. Bir daha məqaləni oxudum. Qəhrəman müəllimin həyat yolunun əsas məqamları şərh olunmuşdu. Həm də müsahibə üsulunda yazıldığından arxayın oldum ki, Qəhrəman müəllimin ondan xəbəri var. 1999-cu ildə nəşr olunan "İrəvan ziyalıları" kitabına həmin müsahibənin daxil edilməsi inamımı daha da artırdı. Odur ki, tərtib edilən kitabda Əsgər Zeynalovun müsahibəsini verməyi qərara aldım:



– Qəhrəman Qəhrəmanov 1925-ci il dekabr ayının 26-da Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan rayonundakı Qaradığa kəndində anadan olmuşdur. Oxdar kənd orta məktəbini bitirib, Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini davam etdirmiş, Stalin təqaüdçüsü olmuş, 1952-ci ildə İnstitutun müalicə-profilaktika fakültəsini uğurla başa vurmuşdur. Həmin il normal fiziologiya üzrə aspiranturaya daxil olan Q.Qəhrəmanov 1958-ci ilin may ayında "İnteroresptorlara qıcıq verilməsinin Asetilxolen mübadiləsinə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1960-1966-cı illərdə SSRİ Elmlər Akademiyasının Normal və Patoloji Fiziologiya İnstitutunda "Mərkəzi sinir sisteminin ümumi fiziologiyası" laboratoriyasında dünya şöhrətli alim, Lenin mükafatı laureatı, akad. Pyotr Anoxinin rəhbərliyi altında işləyərək "Baş beyin fəaliyyətinin xolinerkiq və adrenerkiq mexanizmlərinə dair" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Q.Qəhrəmanov 1966-70-ci illərdə Azərbaycan Tibb İnstitutunun normal fiziologiya kafedrasının professoru, 1970-1991-ci illərdə həmin kafedranın müdiri olmuşdur.

Professorun kafedraya rəhbərlik etdiyi illərdə funksional neyrokimya laboratoriyası Nobel mükafatı laureatları Levin (Stokholm), Qoşke (Berlin), Miller (Nyu-york), habelə Moskva alimi akademik Vildmanı heyrətə gətirmişdi. Hətta Miller azərbaycanlı alimin kafedra və laboratoriyasını İsveç Kral Fiziologiya İnstitutu ilə müqayisə etmişdir. Bu o elmi mərkəzdi ki, orada fiziologiya sahəsində dünyanın ən yuksək mükafatı təqdim edilir.

Bəs prof. Q.Qəhrəmanovun elmdəki xidmətləri nədən ibarətdir?

Vaxtilə akademik P.Anoxin öz yetirməsinin tədqiqatlarını belə qiymətləndirmişdi: "Onun tədqiqatları Sovetlər İttifaqında funksional neyrokimyanın inkişafında başlanğıc oldu".

1959-cu ildə Q.Qəhrəmanovun yaratdığı üsullar mədənin, pankreasın, nazik bağırsağın şirələrini və ödü eksperimentdə bir fistuladan bir neçə şirəni ayrı-ayrılıqda və eyni vaxtda almaq, təcrübə aparıldıqda isə həzm kanalına qaytarmağı mümkün etdi.

Həmin üsullar bunlardır:
– mədə şirəsinin alınması;
– ödün alınması;
– ödün və mədə şirəsinin eyni vaxtda ayrı-ayrılıqda alınması, mədəaltı vəzi şirəsinin alınması;
– pankreas şirəsinin və ödün eyni vaxtda alınması;
– mədə və pankreas şirələrinin eyni vaxtda alınması;
– ödün, mədə şirəsinin və pankreas şirəsinin eyni vaxtda ayrı-ayrılıqda alınması.

Sadalanan üsulların ixtiralar olduğunu keçmiş SSRİ Nazirlər Sovetinin ixtiralar və kəşflər komitəsi müəlliflik şəhadətnaməsi ilə təsdiq etmişdi.

Q.Qəhrəmanovun ixtira və kəşfləri ilə bağlı çox misallar gətirmək olar. Ancaq birinin üzərində dayanmağı lazım bilirik.

O, 1978-ci ildə qurbağa ürəyini venoz cibi, qulaqcıqları və mədəciyin təqəllüslərini eyni vaxtda ayrı-ayrılıqda yazmağa imkan verən elektron-mexaniki kardioqrafiya üsulunu yaratdı. Bu ixtiranın tətbiqi ilə ürəkdaxili aparıcı sistemin funksional neyrokimyasına dair yeni və mühüm faktlar toplandı.

Prof. Q.Qəhrəmanov Azərbaycan elmini bir sıra beynəlxalq konfranslarda layiqincə təmsil etmişdir. Təkcə onu qeyd etmək lazımdır ki, 1974-cü ildə Dehli şəhərində keçirilən ümumdünya fizioloqlarının 27-ci konqresində "Sinir sisteminin mediatorları və modulyatorları" bölməsinə sədarətlik azərbaycanlı alimə etibar edilmişdir.

1971-ci ildə dünya şöhrətli alimə "Əməkdar elm xadimi" adı verilmişdir. Q.Qəhrəmanov bu gün də Tibb Universitetinin professoru və funksional neyrokimya laboratoriyasının rəhbəri kimi fəaliyyət göstərir.

Alimlə söhbətimiz istər-istəməz Nobel mükafatı məsələsinin üzərinə gəlib çıxdı.

– Qəhrəman müəllim, biz hər dəfə görüşəndə, Siz söhbətin əksər hissəsini Mustafa bəy Topçubaşovdan etmisiniz. Bu dahi alimi necə səciyyələndirirsiniz?

– Öncə, onu deyim ki, Mustafa bəy 100 ildə bir dəfə yetişən şəxsiyyətdir. O, həm alim, həm də insan kimi əvəzsiz idi...

– Eşitmişik ki, M.Topçubaşovla Sizin əsəriniz Nobel



mükafatına təqdim edilmişdir. Bu hadisə necə olmuşdur?

– 1977-ci ildə akademik Mustafa bəy Topçubaşovun və mənim ünvanıma Nobel Mükafatı Komitəsindən məktub gəldi. Komitə təklif edirdi ki, bizə göndərdiyi anket suallarına cavab yazaq və nəşr edilmiş elmi işlərimizi birləşdirilmiş şəkildə dekabr ayından gec olmayaraq poçt vasitəsilə Komitəyə göndərək. Biz "Davamlı analgeziya təbabətin və fiziolgiyanın problemidir" adlı yenicə çapdan çıxmış kitabımızı Komitəyə göndərdik. Sənədləri Mustafa bəyin nəvəsi Ceyhun Moskvadan yola saldı. 1978-ci ilin əvvəllərində Komitədən bizə məktubla xəbər verdilər ki, göndərdiyiniz sənədlərə baxılacaq və oktyabr ayının birinci yarısında elan olunacaqdır.

Ceyhun Topçubaşov: "Yadımdadır, Nobel Mükafatı Komitəsindən Mustafa bəy və prof. Q.Qəhrəmanova məktub gəlmişdi. Sənədləri hazırlamaqda gecikdik. Mən Mustafa bəyə dedim ki, vaxtdan keçibdir, sənədləri qəbul etməyəcəklər, onlar bizim kimi deyillər, dəqiqdirlər. Mustafa bəy cavab verdi ki, göndərək, qəbul edib-etməmək onların işidir. Qış idi, sənədləri aparıb, Moskvadan göndərdim. Bir müddət keçmişdi, Mustafa bəy mənə dedi ki, sənədlər çatıb, Komitədən cavab gəlibdir.

– Qəhrəman müəllim, çox təəssüflər olsun ki, Nobel mükafatı azərbaycanlı namizədlərə verilmədi. Bu barədə nə deyə bilərsiniz?

– Komitədən cavab aldıqdan az sonra, "Bakinski raboçi" qəzetində 2 nömrədə dalbadal Alfred Nobelin əleyhinə irihəcmli bir məqalə dərc olundu. Qəzetin yazdığına görə, guya Nobel Azərbaycana zərər və fəlakətlər gətirmişdir. Görünür, azərbaycanlı alimlərin Nobel mükafatı laureatları sırasına düşmək ehtimalının gerçəkləşə biləcəyi ərəfədə dünyada elmin tərəqqisi və sülhün qorunması yolunda misilsiz səxavət göstərmiş Nobelin qəzet vasitəsilə "ifşa" olunması kimlərə isə yazım idi. Bu əcaib məqalə barəsində Mustafa bəy dedi: "Bizə Nobel mukafatı verilməsi kimlərəsə sərf etmirdi. Ancaq çox istərdim ki, Nobel mükafatına layiq görülənlərin siyahısına azərbaycanlıların da adı düşəydi." Lakin bədxahlıqla yazılmış məqalə öz işini gördü.

1978-ci ilin oktyabr ayında əl radiosunu götürüb, bağa

getdik. Həmin Nobel mükafatı laureatlarının adları söyləndi. Bizim adımız çəkilmədi. 1978-ci ildə tibbə və fiziologiyaya nəzərdə tutulmuş mükafat heç kəsə verilmədi. Mustafa bəy mənə dedi: "Qəhrəman, mən dünyanı görə-görə gəlmişəm. Sənin başın çox qovğalıdır, mükafat səni hücumlardan qoruya bilərdi".

– Qəhrəman müəllim,Sizə elə gəlmirmi ki, kəşflərinizə görə həm Mustafa bəyə, həm də sizə ayrı-ayrılıqda Nobel mükafatı verilə bilərdi?

Professor bu suala cavab vermək istəmədi.

Əlbəttə, onu başa düşmək olar. Bu təvazökarlıq əlamətidir. Ancaq tarixi faktlar bunun mümkünlüyünü təsdiq edir. Təkcə mədəaltı vəzin şirəsinin alınması üsulunu ixtira etdiyinə görə, 1904-cü ildə görkəmli alim İ.P.Pavlova Nobel mükafatı verilmişdi, halbuki Q.Qəhrəmanovun üsulları bir neçə şirənin – mədə, bağırsaq, mədəaltı vəzi şirələrinin və ödün eyni vaxtda və ayrı-ayrılıqda alınmasına, lazım olmadıqda isə şirələrin həzm yoluna axıdılmasına imkan verir. Nə etmək olar, Azərbaycanı dünyanın ən mötəbər elmi məclislərində layiqincə təmsil edə bilən böyük fizioloq alimimizə müsahibə üçün təşəkkür edib ayrılırıq...





## MİKAYIL XUDAYAR OĞLU HEYDƏROV

Elmlər doktoru (1971), şərqşünas, ictimaiyyətçi, pedaqoq. Daha çox tədqiqatçı-alim və pedaqoq kimi tanınıb.

**1926-1991**

## YADDAŞLARDAN SİLİNMƏZ!

O, 1926-cı ildə Zəngilan bölgəsindəki Gilətağ kəndində varlığa göz açmışdı. Atası Xudayar kişi müəllim idi, uzun müddət kənd məktəbində dərs demişdi. Mikayıl səkkizinci sinfi öz kəndlərində bitirdi. Sonra Qafan bölgəsindəki Ciraxor qəsəbəsinə köçdülər. İki il də Şəhərcik orta məktəbində oxudu. 1943-cü ildə orada orta təhsilini başa çatdırıb, yenidən doğma kəndlərinə döndü. İbtidai siniflərdə ona dərs deməyə icazə verdilər. Əvvəlcə, Gilətağ və İskəndərbəyli kəndlərində, sonra isə Şəhərcik orta məktəbində dərs dedi. İctimai işlərdə fəallığını nəzərə alıb, 1944-cü ildə Şəhərcik məktəbinin ilk komsomol təşkilatı katibi seçmişdilər. Elə həmin il onu hərbi xidmətə çağırdılar. 1945-ci ilin noyabr ayında ordudan tərxis edildi...

Orta məktəbdə oxuyarkən bütün fənləri yaxşı mənimsəyirdi. Lakin ədəbiyyata meyli daha güclü idi. Ona görə də, heç bir tərəddüd etmədən sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Dil və ədəbiyyat" fakültəsinə verdi. Lakin ədəbiyyatdan dərs deyəcək müəllim kimi ixtisas qazana bilmədi. Bir kurs sonra, 1946-cı ildə onu Moskvada təhsil almağa göndərdilər. Mikayıl Heydərov Moskva Şərqşünaslıq İnstitutunun İran şöbəsinə daxil oldu. Beş il həmin institutda

oxudu. Bu təhsil onun dünyagörüşünün formalaşmasında, bir şərqşünas kimi yetkinləşməsində mühüm rol oynadı.

Mikayıl Heydərov1951-ci ildə öz təhsilini uğurla başa vurub, Azərbaycana qayıtdı. Rus və ingilis dillərini mükəmməl öyrənmişdi. Həmin dillərdən dərs demək üçün ona Ağdam şəhərinə təyinat verdilər. İki ilə yaxın orada çalışdı. Yazmağı da çox sevərdi; ara-sıra şerlər qoşar, hekayələr işlər, məqalələr yazardı. "Bakı kommunisti" adlı yeni qəzet nəşr olunmağa başlamışdı. Mikayıl Heydərov həmin qəzetin redaksiyasında işləmək arzusunu bildirəndə heç bir etiraz olmadı. Onu ədəbi işçi vəzifəsinə qəbul etdilər. Bir müddət redaksiyada çalışdı. Ancaq bilik və bacarığını elmə sərf etmək, şərqşünas alim kimi tədqiqat aparmaq diləyində idi. Bunun üçün yenidən Moskvada oxumaq, aspiranturanı bitirmək lazım gələcəkdi. Ona görə, 1953-cü ildə Azərbaycan EA Tarix İnstitutunun tədqimatı ilə Moskvaya aspiranturaya göndərildi. O, SSRİ EA Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil oldu. Ona "Azərbaycan şəhərlərinin ictimai-iqtisadi problemləri" mövzusu üzərində tədqiqat işi aparmağı məsləhət bildilər. Mikayıl Heydərov üç il professor Petruşevskinin rəhbərliyi ilə həmin problemin elmi yollarını araşdırdı. 1956-cı ildən İrəvan Pedaqoji İnstitutunda dərs deməyə başladı. Orta əsr, qədim dünya, antik dövr və Azərbaycan tarixi üzrə mühazirələr oxudu. Eyni zamanda, "Sovet Ermənistanı" qəzeti səhifələrində müxtəlif səpkili yazılar dərc etdirdi...

İrəvan mühitindəki fəaliyyəti barədə xatirə yazmağı onun istiürəkli dostlarından biri, tarix elmləri namizədi İsrafil Məmmədovdan xahiş etdim. İsrafil müəllim xahişimi yerə salmadı:

"– Tanrı səxavətini əsirgəməmiş, gözoxşayan boy-buxun vermiş, heyranedici camal, qibtəediləsi kamal bəxş etmişdi ona. Şaqraq gülüşü, nurlu baxışı, nizamlı yerişi diqqəti çox çəkərdi. Səsində məlahət, sözündə səmimiyyət, əməlində sədaqət duyulan, üzündən həya təcəssümü əskik olmayan vətəndaş ziyalı, şair və nasir, tədqiqatçı-alim, sözün geniş mənasında, kamil insan idi. Hamımızın sevimlisi olmuşdu. Hamımız ona Mikayıl deyil, Maşallah deyirdik ki, bədnəzərdən uzaq olsun,



göz dəyməsin! Körpəlikdən onu belə çağırardılar.

Moskvada təhsil almış ziyalılardan idi. İrəvana yenicə gəlmişdi. Dövlət Pedaqoji İnstitutunda azərbaycanlı tələbələrimizə Azərbaycan tarixini öyrədirdi. "Sovet Ermənistanı" qəzeti redaksiyasına çox tez-tez gələrdi. Şer, hekayə, elmi məqalə gətirər, dərc olunmasına tələsər, hədsiz maraq göstərərdi. Hər yazısı, hər gəlişi əməkdaşların ona olan marağını da qat-qat artırardı. Təkcə bir gəlişi, bir görüşü yerinə düşən olmadı. Ancaq o gəlişi, o görüşü də yazıldı.

"Malenkov, Molotov... və onlara qoşulan Şepilovun antipartiya qrupu" xəbərini yenicə eşitmiş, bərk sarsılmışdıq. Dərin təlaş içində Moskvadan bu barədə SİTA-nın rəsmi məlumatını gözləyirdik. Qapı açıldı. Maşallah müəllim həmişəki kimi, ədəb-ərkanla, həmişəki kimi, xoş təbəssümlə salam verib içəri gəldi. Dinib-danışmadığımıza cavab olaraq yarızarafat, yarıərkyana dedi:

– Əntiqə şer yazmışam, sabahkı nömrədə dərc ediləcəyinə söz verin, oxuyum, yoxsa... sözünə ara verdi, gözlərini otaqda əyləşənlərin üzünə dikərək hamının təəccüb və təlaş içində olduğuna işarə edərək:

– Yoxsa siz də Şepilovun gününə düşməkdən qorxursunuz?

Sanki ağır bir yükü burada bayaqdan bəri donuq qalmış əməkdaşların çiynindən götürdülər. Maşallah müəllim, nədənsə, şerini oxumadı, nəbzimizi tuta bildi, başqa bir rəvayət söylədi:

– Deyirlər, günlərin bir günündə Nadir şah at belində Zəngəzurdan keçirmiş. Görür ki, əlində oraq tutan kəndli ona salam verəndən sonra, dayanıb təzim etmədən hal-əhval tutub, "xoş gəldin" demədən çıxıb getmək istəyir. Əmr edir ki, zavallı kəndlini darta-darta şahın hüzuruna gətirirlər. Şah soruşur: — Mən kiməm, tanımadın?!

Kəndli cavab verir ki, niyə tanımadım, tanıdım, Nadir şahsan?!

Bu dəfə şah daha qəzəblə soruşur: – Elə isə de görüm, şah böyükdür, yoxsa Allah, hansından daha çox qorxursan?

Çarəsiz qalan kəndli əlindəki orağı göstərib deyir: – Şah sağ olsun, hərə öz işini görür, Allah göydə öz bildiyini eləyir, sən yerdə. Əldən gedən mənim arpa zəmimdir, gün düşənədək biçməsəm, sünbülü vağanıyıb, küləşi qalacaq...

Nəyi harada və necə deməyi gözəl bilirdi Mikayıl. Sözü mənalı, özü doğma idi. Elə qeyri-adi görüşdə, o təlaş içində çantasından bir kitab çıxarıb, mənə sarı uzatdı:

– Götür, şer deyil, kitabdı, – dedi, – sənə gətirmişəm, gələn həftənin birinci günündən instituta gələrsən, zəhmət çəkib, tələbələrimizlə görüşər, tarix fənninin tədris metodikasını öyrədərsən. Bu sənin üçün dərslik, bu da proqramı... Hə, ürəkdən təbrik edirəm, ali məktəb müəllimi oldun, uğurlar diləyirəm!..



*Mikayıl Heydərov (sağdan) Elməddin Əlibəyzadə və Sabir Əsədovla bir yerdə. İrəvan, 1950-ci illər.*

Ali məktəb müəllimliyinə yolum da, elə o gündən, o görüşdən başlandı. Bu yolun bələdçisi də xeyirxahlığına, insanpərvərliyi və ülfətinə valeh olduğum Mikayıl Heydərov idi. Əllinci illərin sonu yaxınlaşırdı. İrəvan mühitimiz getdikcə darısqallaşırdı. Bakıya köçməli oldu Mikayıl. Çox keçmədən Elmlər Akademiyasında orta əsr Azərbaycan tarixinin qadir və qabil mütəxəssisi kimi tanındı, sanballı əsərləri ilə elmin inkişafına dəyərli töhfələr daxil etdi. Min təəssüf ki, ömür yolu qısa oldu. Bildikləri, demək istədiklərinin hamısını deyə bilmədən getdi. Gözəl insan, mehriban dost, zəhmətkeş alim kimi onun xatirəsi tanıyanların qəlbində əziz tutulacaq, yaddaşlardan silinməz olacaq. Məzarı nurla dolsun!"

Mikayıl Heydərov 1991-ci ildə öz dünyasını dəyişib. Mehdiabad qəsəbə qəbristanlığında atası Xudayar müəllimlə yanaşı uyuyur...

O, 1959-cu ildə Bakıya köçmüşdü. Elmi fəaliyyətinin daha



səmərəli çağları da həmin ildən başlayır. Onu Azərbaycan EA Tarix İnstitutuna kiçik elmi işçi vəzifəsinə qəbul etdilər. 1962-ci ildə "XVII əsr Azərbaycan şəhərlərində sənətkarlıq istehsalı" mövzusunda dissertasiya müdafiə edib, tarix elmləri namizədi alimlik dərəcəsi aldı. 1967-ci ildə İnstitutda baş elmi işçi vəzifəsini tutdu. Həmin il ilk monoqrafiyası nəşr olundu. Lakin Mikayıl Heydərov elmi axtarışlarını inamla davam etdirirdi. Axtarışların, araşdırmaların nəticəsi uğurlu oldu. O, 1971-ci ildə "XVII əsr Azərbaycan şəhərlərində sənətkarlıq istehsalı və ticarət" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Tarix elmləri doktoru və şərqşünas kimi, çoxcildli Azərbaycan tarixinin yazılmasında ən fəal müəlliflərdən idi. Aparıcı şöbələrdən birinə rəhbərlik etmək ona tapşırılmışdı.

Mikayıl Heydərov İnstitutun ictimai işlərində, Beynəlxalq konfrans və simpoziumlarda yaxından iştirak etməklə yanaşı, sanballı bir monoqrafiya üzərində də gərgin iş aparırdı. Lakin bu əsəri sağlığında nəşr etdirə bilməmişdi.

Rus dilində yazılan bu monoqrafiya onun sevimli bacısı Şükufə Xudayar qızı Əsədovanın kiçik oğlu Nazim Sabir oğlu Əsədovun qayğısı sayəsində işıq üzü görüb. Kitabın elmi redaktoru tarix elmləri doktoru Sabir Əsədovdur. Ön sözü də o yazmışdır. Bu, Mikayıl Heydərovun xatirəsinə ən gözəl abidədir!



## İBRAHİM AĞAMURAD OĞLU BƏXTİYAROV

Elmlər doktoru (1975), professor, neft-mədən mühəndisi, pedaqoq. Daha çox ali məktəbdə kafedra rəhbəri və pedaqoq kimi tanınıb.

**1928-1997**

## ÜRƏYİ DÖZMƏDİ...

Abşeronun Mehdiabad qəsəbəsinin məzarlığına çoxlu adam toplaşmışdı. Universitet müəllimləri, adlı-sanlı adamlar, tələbələr, qohumlar, doğmalar və əzizlər bir tanınmış şəxsiyyəti son mənzilə yola salırdılar. Çıxışlar bir-birini əvəz edir, onun haqqında yana-yana danışırdılar. Çoxunu göz yaşları boğur, sözünü axıra çatdıra bilmirdi... Onlar Azərbaycan İnşaat-Mühəndisləri İnstitutunun kafedra müdiri, professor İbrahim Ağamurad oğlu Bəxtiyarovla vidalaşmağa gəlmişdilər. Bəziləri onun həyat yolunun önəmli məqamlarını xatırlayırdılar. İbrahim Bəxtiyarovun ömür yolu çox maraqlı və önəmlidir...

1928-ci ildə Zəngəzur qəzasının Qafan bölgəsindəki Açağu kəndində doğulmuşdu. Atası Ağamurad kişi fəhləlik edərdi. Uşaqlıq çağlarından onu da əməyə alışdırmışdı. 7 yaşından məktəbə getmiş, ibtidai təhsilini öz kəndində almışdı. Sonra Şəhərcik orta məktəbində oxumuşdu. Alman-sovet müharibəsinin ağır illərini Açağu və Şəhərcik kəndlərinin arasındakı yollarda addımlamışdı. Kəmərə qayadan adlamış, Sulu dərədən keçmişdi. Lakin baxışları daim irəliyə - elmin işıqlı və daşlı-kəsəkli yollarına dikilmişdi... Bu yollarda da inamla



addımlamaq üçün özündə daxili güc və tükənməz qüvvə hiss edirdi...

1945-ci ildə orta məktəbi bitirdi. Kəndlərinin gözü düz uca Xustup dağına baxırdı. Bu dağın ayağından köpüklənə-köpüklənə Oxçu çayı axırdı. Hələ XIX əsrin sonlarında Qafan mis mədənlərini istismar edən fransızlar çayın üstündə Su Elektrik Stansiyası tikmişdilər. İbrahim Bəxtiyarov həmin stansiyada işə qəbul edildi. İki ilə yaxın maşinist köməkçisi işlədi. Bəlkə də, onda texniki elmlərə və xüsusən mexanikaya güclü meylin oyanması və ömrünün çox hissəsini bu sahəyə bağlamasının əsas səbəblərindən biri elektrik stansiyasında işləməsi qüvvətli təsir göstərdi...

1947-ci ilin yayında Bakıya gəldi və sənədlərini Azərbaycan Sənaye İnstitutuna təqdim etdi. İmtahanları uğurla verib, neft-mədən fakültəsinə qəbul olundu. Qarşıda isə hələ elmin çətin yolları, mürəkkəb sınaqları dururdu...

İbrahim Bəxtiyarov 1952-ci ildə ali təhsilini uğurla başa çatdırdı. Müəllimləri onun bacarıq və istedadını yüksək qiymətləndirirdilər. Ona görə, tərəddüd etmədən "Materiallar müqaviməti" kafedrasında assistent vəzifəsində saxlanması barədə rektorluq qarşısında məsələ qaldırdılar. Məsələ İbrahim Bəxtiyarovun xeyrinə həll olundu. Üç ilə yaxın həmin vəzifəni apardı. 1955-ci ildə Sənaye İnstitutunun aspiranturasına, bir il sonra isə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul olundu. Həm fizika, həm də riyaziyyata dair biliyini daha da artırmaq niyyətindəydi. Qiyabi şöbədə təhsil aldığından 1957-ci ildən Azərbaycan Politexnik İnstitutunda və Azərbaycan Kommunal Tikinti Texnikumunda dərs dedi. İnstitutun "Nəzəri mexanika" kafedrasında baş müəllim, sonra isə dosent vəzifələrini tutdu...

1961-ci il İbrahim Bəxtiyarov üçün çox əlamətdar bir zaman kəsiyidir. O həmin il Azərbaycan Dövlət Universitetini bitirməklə yanaşı, elastiklik nəzəriyyəsi ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etdi. Ona fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi verdilər.

Lakin onu "gözügötürməyənlər" də vardı. On beş il müddətində onun ali təhsil müəssisələrində yüksək vəzifə

tutmasına imkan verilmədi. Yalnız 1974-cü ildə İbrahim Bəxtiyarov layiq olduğu vəzifəyə seçildi. Azərbaycan Politexnik İnstitutunun "Materiallar müqaviməti" kafedrasına rəhbərlik etmək ona tapşırıldı. Bir il sonra, Azərbaycan İnşaat-Mühəndisləri İnstitutunun təşkili ilə bağlı İbrahim Bəxtiyarov da ora dəyişildi və ömrünün sonuna kimi bu vəzifədə qaldı. Bir il sonra doktorluq dissertasiyası müdafiə etdi. 1978-ci ildə, 20 ildən çox pedaqoji stajı olan fizika-riyaziyyat elmləri doktoruna



*İbrahim Bəxtiyarov (ortada) rəhbəri olduğu kafedranın üzvləri arasında. 1970-ci illər.*

professor adı verdilər. Halbuki, o, bu yüksək ada çoxdan layiq olmalıydı, həmin adın verilməsi üçün onun elmi və pedaqoji fəaliyyətini şərtləndirən bütün amillər mövcud idi; 300-dən çox elmi əsəri, 15 monoqrafiyası, neçə-neçə dərsliyi nəşr olunmuşdu. Onun rəhbərliyi ilə 65 nəfər namizədlik, 10 nəfər isə doktorluq dissertasiyaları müdafiə etmişdi. O, 20 ilə yaxın material müqaviməti, inşaat texnikası, elastiklik və plastiklik nəzəriyyəsi üzrə elmi-metodik şuranın sədr müavini və rəyasət heyətinin üzvü, respublika təhsil nazirliyinin elmi metodik şurasının mexanika bölməsinin sədri idi. Bir neçə ixtisaslaşdırılmış elmi şuranın üzvü, Qafqaz bölgəsinin mexanika bölməsi üzrə metodik şuranın rəhbərlərindən olmuşdu.

İbrahim Bəxtiyarovun tədqiqat üsullarının bir çoxu xalq



təsərrüfatının müxtəlif sahələrində tətbiq edilmişdi. Onun mexanika sahəsindəki yenilikləri və elmi çıxışları bir sıra xarici ölkələrin dövri mətbuatında dərc olunmuşdu.

O, ömrünün son illərini hər yay doğma kəndi Açağuda keçirirdi. Lakin erməni qəsbkarlarının işğalçılıq siyasəti onun bu arzusunun önünə sədd çəkdi. Torpağa, el-obaya bağlı bir insanın işıq dolu ürəyi buna dözmədi, dözə bilməzdi də...

1997-ci ilin dekabr ayının 30-da İbrahim Bəxtiyarov dünyasını dəyişdi. İndi o, Mehdiabad məzarlığında anası ilə yanaşı uyuyur... Bir şerdə deyildiyi kimi:

**Dağlar qucağında göz açan insan**
**Abşeron düzündə məzara getdi...**



## ƏSƏD AĞAMƏMMƏD OĞLU ƏSƏDOV

Elmlər doktoru (1981), jurnalist, pedaqoq. Daha çox ictimai-mühazirəçi, jurnalist və pedaqoq kimi tanınıb.

**1916-1992**

## BİR XATİRƏ YADA DÜŞDÜ...

Onun öz əli ilə yazdığı səhifəyarımlıq ömür yazısı qarşımdadır. Rus dilində, haçansa, səliqə ilə yazılıb. Fikirlərini dəyişmədən həmin yazını tərcümə edirəm: "Mən, Əsədov Əsəd Ağaməd oğlu 1916-cı ilin dekabr ayında Zəngəzur qəzasının Gilətağ kəndində yoxsul kəndli ailəsində anadan olmuşam. Atam Ağaməmməd Əsədoğlu 1918-ci ilin avqust ayında dünyasını dəyişib. Atamın ölümündən sonra, 1930-cu ilə qədər ögey atam Bəbirov Əli Şükür oğlunun (əvvəllər Bakıda neftçi-fəhlə olmuşdu, sonra kolxozda işləyirdi) himayəsində böyümüşəm. O, 1938-ci ildə dünyadan getdi...

Mən 1930-1932-ci illərdə Bakıda texniki-peşə məktəbində oxumuşam. 1932-1936-cı illərdə isə Ağamalı oğlu adına Bakı Torpaq Quruculuğu Texnikumunda təhsil almışam. 1936-1937-ci illərdə Zəngilan rayonunda texnik-topoqraf vəzifəsində işləmişəm. 1937-1941-ci illərdə Qafan şəhərindəki orta məktəbdə dərs demişəm. Eyni zamanda, (1939-cu ildən) "Mis uğrunda" qəzeti redaksiyasında şöbə müdiri vəzifəsini aparmışam. 1942-ci ilin yanvar ayından Sovet Ordusu sıralarına çağırılmışam. 1949-cu ilin iyun ayına kimi, Zaqafqaziya Hərbi



Dairəsi və Zaqafqaziya Cəbhəsi Siyasi İdarəsi sistemində partiya-siyasi işində fəal iştirak etmişəm..."

Ömür yazısının bu yerinə gələndə Əsəd müəllimlə bağlı bir xatirə yadıma düşdü; onun adını eşitmişdim, ancaq özü ilə tanış deyildim. Bilirdim ki, anamın kəndindəndir, bir məktəbdə oxumuşdular. Elə ki, ilk dəfə tanış edəndə də mən "Fatmanın oğlu" kimi təqdim olunmuşdum. Ona görə, atamın adını bilmirdi, hərdən Dənizkənarı parkda (evi sahilə yaxın olduğundan tez-tez gəzməyə çıxardı) rastlaşanda salamlaşar, həmişə üzümə baxıb, soruşardı:

– Fatmanisənin oğlusan?!

Anamı qohumları və həmkəndliləri "Fatmanisə"–deyə çağırardılar. Odur ki, mən də üz vurmaz, başımı tərpətməklə sualını təsdiqləyirdim. Ancaq təhsilimi, iş yerimi də soruşmuşdu. Bilirdi ki, filoloqam, ədəbiyyat və incəsənət arxivində çalışıram...

1974-cü ilin oktyabr ayı idi. Yenidən Dənizkənarı parkda rastlaşdıq. Daha kimliyimi soruşmadı:

– Bilirəm, ədəbiyyatçısan, sənin üçün maraqlı olar, Səməd Vurğunla görüşüm barədə bir xatirə yazmışam, "Ədəbiyyat və İncəsənət" qəzetində çıxacaq, oxuyarsan!

Doğrudan da, həmin qəzetin 1974-cü il 7 noyabr tarixli nömrəsində "Bir şerin tarixi" adlı xatirə-yazı və Səməd Vurğunun "Qaliblər ordusuna" şeri dərc olunmuşdu. O vaxtdan qəzeti saxlamışam. İndi yerinə düşdüyündən həmin xatirə-yazını bura köçürürəm:

"1944-cü il oktyabr ayının son günləri idi. Alman-faşist işğalçıları sovet şəhər və kəndlərini... bir-birinin ardınca tərk edirdilər. Mən o vaxt Zaqafqaziya hərbi cəbhəsinin orqanı olan "Fəhlə-kəndli Qızıl ordusu döyüşçüsü" qəzetində işləyirdim. Sovet torpağının alman-faşist işğalçılarından tamamilə azad olunacağı gün yaxınlaşırdı. Bu tarixi günə redaksiyamızda geniş hazırlıq işi aparılırdı.

Redaksiya... bu hadisə ilə əlaqədar xüsusi səhifə buraxmağı və həmin səhifədə sevimli şairimiz Səməd Vurğunun şerini dərc etməyi qərara almışdı.

Artıq noyabrın biri idi. Vaxtı itirmək olmazdı. Redaksiyanın

tapşırığı ilə mən noyabrın 2-də Tbilisidən Bakıya yola düşdüm. Qatardan düşən kimi, vağzaldan birbaş şairin evinə telefonla zəng vurub, onu soruşdum. Bir neçə dəqiqədən sonra, S.Vurğun özü telefonda idi. Soruşdu:

– Danışan kimdir?

– Əsəddir,-deyə cavab verdim.

– Hansı Əsəd?

– Komsomol Əsəd.

O məni tanıdı. Əvvəllər Qafqaz cəbhəsində görüşmüşdük. Onda mən polk komsomol bürosunun məsul katibi idim.

– Sən burada neyləyirsən?

– Redaksiyanın tapşırığı ilə gəlmişəm. Sizi vacib məsələdən ötrü görməliyəm.

– Nə məsələ?

Mən gəlişimin səbəbini telefonla deməyə məcbur oldum.

– Ay allahsız, sifarişlə şermi yazılar?! Gəl, görək.

Bir azdan sonra, mən S.Vurğunun yaşadığı mənzildə idim. Şair yorğun görünürdü...

Yorğunluğuna baxmayaraq, o, redaksiyanın xahişinə çox ciddi yanaşdı... Şərtləşdik ki, həmin gün saat ikidə evə zəng vurum, olmasa, Yazıçılar İttifaqına gedim.

Günortadan sonra, onu Yazıçılar İttifaqında tapdım. S.Vurğun şeri rus dilinə hərfi tərcümə etməklə məşğul idi. Təxminən saat dörddə şair şerin həm orijinalını, həm də rus dilinə tərcüməsini zərfə qoyub, mənə uzatdı.

Axşam Bakı – Tbilisi qatarı ilə yola düşdüm və noyabrın 4-də səhər şeri redaksiyaya çatdırdım. Şerin azərbaycancası qəzetin 1944-cü il 5 noyabr tarixli 122-ci nömrəsində dərc edilmişdir. Ruscaya tərcüməsini isə o vaxt Tbilisidə yaşayan və cəbhə qəzeti ilə əməkdaşlıq edən şair Boris Serebryakov hazırlamış və şer qəzetin 7 noyabr tarixli nömrəsində çıxmışdır...

Bu şer S.Vurğunun kitablarına düşməmişdir..."

Ə.Əsədov Zaqafqaziya Hərbi Dairəsi Siyasi İdarəsində işləməklə yanaşı, Tbilisi Dövlət Universitetinə daxil olmuş və oranı vaxtından əvvəl bitirmişdir. Ordudan tərxis edildikdən sonra, bir neçə ay Azərbaycan Dövlət Radioverilişləri



Komitəsinin xarici verilişlər şöbəsində redaktor-nəzarətçi işləmişdir. 1950-1954-cü illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Mədəni-Maarif Müəssisələri Komitəsində mühazirəçi olmuşdur. 1954-cü il dekabr ayının 31-dən 1957-ci il sentyabr ayının 10-na kimi Mərkəzi Komitənin Təbliğat və Təşviqat şöbəsinin mühazirəçisi vəzifəsini tutmuşdur. 1957-1963-cü illərdə isə mühazirəçilər qrupuna rəhbərlik etmişdir. 1963-cü il fevral ayının 1-dən Partiya İnstitutunun Azərbaycan filialında baş elmi işçi kimi fəaliyyət göstərmişdir. Həmin dövrdən sonra, onun elmi və pedaqoji fəaliyyətinin yeni mərhələsi başlamışdır; belə ki, 1963-cü ilin iyun ayında dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1973-cü ilin dekabr ayında isə ona dosent elmi adı verilmişdir. Lakin o, elmi axtarışlarını davam etdirmiş və 1981-ci ilin oktyabr ayında üzərində işlədiyi doktorluq dissertasiyasını başa çatdırmış, əsərin müdafiəsi uğurla keçmişdir.



*Əsəd Əsədov (sağdan birinci) siyasi və elmi biliklərin təbliğatçıları arasında. 1960, yanvar.*

Ə.Əsədov neçə-neçə elmi və publisistik məqalənin müəllifi idi. O, 1982-ci ilin aprelin 23-də dünyasını dəyişmişdir. Yeganə qızı Əsədova Nailə Əsəd qızı Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, musiqişünasdır.

Bəs Ə.Əsədovu yaxınları və doğmaları necə xatırlayırlar? Bu

məqsədlə onun uşaqlıq dostu, qocaman maarif işçisi Qüdrət Bəxtiyarova müraciət etdim. O mənə aşağıdakıları söylədi: "– Əsəd Əsədov mənim dos-doğmaca bibim oğludur. Anası bölgənin tanınmış ağsaqqalı sayılan Alyar yüzbaşının qızıdır. Bir kənddə doğulmuşuq. 1923-cü ildə o, məktəbə gedəndə mən anadan olmuşam. İbtidai təhsil aldıqdan sonra, 1927-ci ildən Qubadlı rayonunun Muradxanlı kəndindəki 7 illik məktəbdə oxumağa başlayıb və oranı 1930-cu ildə bitirib.

Kəndə az-az gələrdi. Gələndə isə həmişə dayısı evi kimi bizdə qalardı. Əsəd müəllimlə ya Tbilisidə, ya da Bakıda görüşmüşəm. Elə vaxt olmayıb ki, mən Bakıya gələm, onun əhvalını sormamış, qayıdam. Təbliğat işində kəskin mövqe tutardı. Ona görə, "kölgəsini qılınclayanlar" çox olardı. Bəlkə də bu səbəbdən Mərkəzi Komitənin mühazirəçilər qrupunun rəhbəri kimi uzun müddət işləyə bilməmişdir. Buna baxmayaraq, elmi və pedaqoji sahədə öz bacarığını göstərə bildi, elmlər doktoru səviyyəsinə yüksəldi. Bibim oğlu Əsəd Əsədovun xatirəsi mənim üçün həmişə əzizdir..."





**1932**

## BAXŞƏLİ RƏSUL OĞLU BAXŞƏLİYEV

Elmlər doktoru (1988), professor, cərrah, pedaqoq. Daha çox cərrah və pedaqoq kimi tanınıb.

## DUSTAĞIN İKİNCİ TANRISI

Onun təyinatını uzaq Karaqanda şəhərinə vermişdilər. Lakin o, doğma bölgəyə qayıtmağı üstün tutdu. Qacaran qəsəbə xəstəxanasına müalicə həkimi vəzifəsinə göndərdilər. Buradakı həkimlərin əksəriyyəti "hay" soyundan idi. Onun işi o qədər də asan olmayacaqdı. Lakin özündən arxayındı; akademik Mustafa bəy Topçubaşovun klinikasında təcrübə keçmiş, cərrahlığın sirlərinə dərindən yiyələnmişdi. Güman etdiyi kimi də oldu; ona hələ dustaqlıqdan azad edilməmiş bir xəstənin müalicəsini tapşırdılar. Xəstə üç ay idi ki, yüksək hərarət içində yatırdı. Həkimlər nə qədər "baş sındırsalar" da xəstəliyin diaqnozunu müəyyənləşdirə bilmirdilər. O, xəstəliyin tarixini öyrəndi, müqayisələr apardı, səbəblərini araşdırdı. Nəhayət, dəqiq diaqnozunu təyin etdi; xəstə cərrahiyyə əməliyyatından keçməliydi. Onun fikrinin əksinə çıxanlar da oldu. Ancaq qərarı qəti idi. Bəlkə də, onu "sınaq"dan keçirmək istəyirdilər?! Hər şey əməliyyatın uğurundan asılı qalmışdı. Əməliyyatı uğurla nəticələndi; əlini həyatdan üzmüş xəstə ayağa qalxdı, dirçəldi. Sonra hər yerdə deyirdi ki, "mənim ikinci tanrım - cərrah Baxşəli Baxşəliyevdir!"

Belə hadisələr Baxşəli Baxşəliyevin cərrahlıq fəaliyyətində çox olmuşdu...

1932-ci ildə Qafan bölgəsindəki Keypəşin kəndində dünyaya göz açmışdı. 1949-cu ildə Gığı orta məktəbini bitirmiş, həmin il Azərbaycan Tibb İnstitutuna daxil olmuşdu. 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirdi. O zaman möhkəm qadağalar vardı; onu SSRİ Daxili İşlər Nazirliyinin sərəncamına göndərirdilər. Lakin çox böyük çətinliklə bu göndərişdən azad ola bildi. "Yağışdan çıxıb, yağmura düşmüşdü"; Qacaran qəsəbə xəstəxanasında "hay"lar arasında baş çıxarmaq çox çətin idi... Odur ki, Baxşəli Baxşəliyev bir ildən sonra, Azərbaycanın bölgələrindən birində işləməyə razılıq verdi. Onu 1956-cı ildə Laçın bölgəsinə göndərdilər. Dörd ilə yaxın rayon xəstəxanasında cərrah işlədi. Tezliklə böyük hörmət qazandı, qəzetlərdə ondan yazdılar, radio verilişlərində ondan söhbət açdılar. Respublika Ali Sovetinin və Səhiyyə Nazirliyinin Fəxri Fərmanları ilə təltif olundu.



*Gərgin anlar: professor Baxşəli Baxşəliyev (solda) cərrahiyyə əməliyyatı aparır.*

Laçında olan bir hadisəni ömrü boyu unuda bilməyəcək Baxşəli Baxşəliyev. Gecəyarı xəstəxanaya bir qadın gətirdilər. Qarıkaha kəndindən idi. İlk sorğu-sualdan məlum oldu ki,



qadının 39 yaşı var. Uzun illərdən bəri ərdə olmasına baxmayaraq, həmin il hamiləlik çağını keçirirdi. Yoxlamadan aydın oldu ki, qadının əkiz uşağı var, ancaq onları dünya üzünə gətirmək çox ağırdı. Əvvəla, qadın yaşlıdı, ikincisi, körpələrin hərəsi bir yönümdədi. Qəti sözü cərrah Baxşəlinin bıçağı deməli idi. O, götür-qoy etdikdən sonra, təcili cərrahiyyə əməliyyatına başlamağa qərar verdi. İndi özü də etiraf edir ki, cərrah işlədiyi uzun illər boyu belə mürəkkəb əməliyyat aparmamışdı. Bütün gecəni yatmadı, əməliyyatı uğurla başa çatdırmaq üçün bilik və bacarığını topladı, istədiyinə nail oldu. Sadə məsələ deyildi; üç insanın taleyi onun cərrah bıçağından asılı idi...

Səhər Laçında hamı bu gənc cərrahın məharətindən danışırdı...

Öz sahəsi üzrə tədqiqat aparmaq, alimlik dərəcəsi almaq istəyirdi. Altı il ona mane oldular, aspiranturaya yaxın buraxmadılar.

Baxşəli Baxşəliyev öz inadından dönmədi, həyatda hər çətinliyin üzünü görmüşdü, buna da dözdü.

1966-cı ildə öz diləyinə çatdı. Akademik Mustafa bəy Topçubaşovun klinikası üzrə aspiranturaya qəbul olundu. Dörd il gərgin zəhmət çəkməklə yanaşı, klinikada aparılan mürəkkəb cərrahiyyə əməliyyatlarında da iştirak etdi, təcrübəsini artırdı.

Bütün bunlar öz bəhrəsini verdi; Baxşəli Baxşəliyev 1971-ci ildə dissertasiyası müdafiə edib, tibb elmləri namizədi alimlik dərəcəsi aldı. Klinikada onu mahir bir cərrah kimi tanıyırdılar. Hələ iki il əvvəl, 1969-cu ildən ona assistent vəzifəsini etibar etmişdilər.

İllər ötürdü. O bu etimadı öz uğurlu cərrahiyyə əməliyyatları ilə doğrultdu. Qarın boşluğu nahiyyəsində ən mürəkkəb əməliyyatlar ona tapşırılırdı. Onun cərrah bıçağı uğurla işləyirdi. Şəfa tapan xəstələrin dodaqlarına qonan xəffif təbəssümlər Baxşəli Baxşəliyevin ən böyük mükafatı idi...

Nəzəri bilikləri artırmamaq, yalnız təcrübəyə və istedada arxalanmaq isə öz yerində saymaq demək olardı. Bunu dərindən başa düşən cərrah doktorluq dissertasiyası üzərində işləmək qərarına gəldi. Ustadı, akademik Mustafa bəy Topçubaşovun məsləhəti ilə "Mədə-bağırsaq traktı qanaxmalarının

diaqnostikası və müalicəsi" mövzusunda tədqiqat aparmağa başladı. Onun tədqiqatının əsasını mədə və onikibarmaq bağırsaq qanaxan xoralarında yeni-yeni cərrahiyyə üsullarının tətbiqi təşkil edirdi. İlk dəfə tətbiq olunan bu üsullar barədə 1980-cı ildə çağırılan Zaqafqaziya cərrahlarının qurultayında Baxşəli Baxşəliyev məruzə etdi. Məruzə böyük maraq və diqqətlə dinlənildi.

Bu uğur onu doktorluq dissertasiyası üzərində işini daha səylə davam etdirməyə həvəsləndirdi. Bu məqsədlə 1984-cü ildə Moskva şəhərinə ezam etdilər. Dörd il gecə-gündüz çalışdı. 1988-ci ildə həmin mövzunu uğurla müdafiə edib, tibb elmləri doktoru alimlik dərəcəsi aldı. Bakıya döndükdən sonra, cərrahlıq və pedaqoji fəaliyyətini davam etdirdi. Bir il keçdi, - ona prfessor elmi adı da verildi. Həmin ildən Azərbaycan Tibb Universitetində 3-cü Cərrahiyyə kafedrasında professor vəzifəsində çalışır. 80-ə yaxın elmi əsərin, 5 tədris vəsaitinin müəllifidir. Elmi ictimaiyyət və səhiyyə sahəsinin mütəxəssisləri tərəfindən onun "Qarınboşluğu üzvlərinin kəskin cərrahi xəstəlikləri" monoqrafiyası yüksək qiymətləndirilir. O, neçə-neçə gənc alimin tədqiqat əsərlərinə elmi rəhbərlik etmişdir...

Baxşəli Baxşəliyev, nədənsə, hər bir ağır cərrahiyyə əməliyyatından sonra, ilk müalicə etdiyi dustağı yada salır: "Cərrah Baxşəliyev mənim ikinci tanrımdır!"





1937

## BƏHLUL İSFƏNDİYAR OĞLU AĞAYEV

Elmlər doktoru (1990), professor, bioloq, universitetin rektoru. Daha çox ictimai və maarif xadimi, alim-pedaqoq kimi tanınıb.

### EPİQRAF

Gecədən xeyli keçmişdi. O hələ də yazı masasının arxasında oturmuşdu. Yazdığı yeni dərsliyin son səhifələrini tamamlayırdı. Axırıncı cümləni yazıb, ayağa qalxdı. Evdə hamı yuxuda idi. Əsəri bitirməmiş, yata bilməzdi. Bir neçə günə nazirliyin metodiki şurasına təqdim olunacaqdı. Pəncərənin tülünü aralayıb, çölə baxdı. Şəhərin küçələrində sakitlikdi. İndi çoxu beş yuxu almışdı. Oyaq qalan təkcə işıqlardı. Göz qırpa-qırpa alışan bu işıqlar, elə bil, evlərin keşiyini çəkirdi...

O, ürəyində yüngüllük hiss etdi. Bəs necə?! Uzun müddət üzərində səylə işlədiyi bir dərsliyi bu gecə başa çatdırırdı. Nədənsə, atası İsfəndiyar Ağaoğlunu xatırladı. Ona elə gəldi ki, atası pəncərədən baxır, bu əməyinə sevinir, fərəhlənir, "sağ ol, oğlum!" – deyir, arzumu gözümdə qoymadın, oxuyub müəllim oldun, həm də yaxşı müəllim, qayğıkeş müəllim – neçə-neçə alimin müəllimi!

Atasının üzü necə də işıqlı idi, gözləri də od tutub yanırdı! Eynən birinci sinfə getdiyi çağlarda olduğu kimi... Onda da gəlib sinfin pəncərəsindən içəri boylanar, onun şer deməyindən, mətnləri ucadan, həlim səslə oxumağından

xoşlanar, sevincindən yerə-göyə sığmazdı. Sinəsi sözlə dolu idi. Təbiəti çox sevərdi. O, ilk dərsini atasından almışdı, təbiətə, həyata bağlılığı ondan götürmüşdü...

Bəhlul İsfəndiyar oğlu Ağayev 1937-ci il oktyabr ayının 28-də Qafan bölgəsindəki Pəyhan kəndində yoxsul bir ailədə dünyaya göz açmışdı. Onun doğulduğu kənd Oxçu çayının yuxarı axarında, mənzərəli bir yerdə qərar tutmuşdu. Güneyli-quzeyli, dağlı-dərəli, durğun bulaqlı, bağlı-bağatlı, meşəli-çəmənli bir guşədi Pəyhan kəndi. Təbiət bu kənddən heç bir gözəlliyi əsirgəməmişdi. Belə bir torpaqda böyüyüb, yaşa dolan Bəhlul Ağayevin də sağlam düşüncəyə, həlim təbiətə, qayğılı münasibətə malik olmasının ümdə səbəblərinin əsasını bu yönümdə aramaq gərək!

1947-ci ildə sevimli atası dünyasını dəyişəndə onun ürəyində dərin bir ağrı qoyub getdi. On yaşlı uşaq sarsıldı, bir neçə gün özünə gələ bilmədi. Atasının arzusu yadına düşdü: "Bəhlul oxusun, müəllim olsun, mənim kimi savadsız qalmasın!" On yaşından bu arzunun işığını tutdu, bu arzunun işığında həyat yolu seçdi, elmin pillələrində addımladı...

El anası, kişi qeyrətli Nənəxanım Cəbrayılqızı övladlarını sağlam böyüdüb, boya-başa çağdırmaq, öncəsi isə oxutmaq üçün od ayaqladı, kipriyi ilə köz götürdü. İstədi ki, ata yoxluğunu, ata nisgilini heç zaman hiss etməsinlər, qayğılar qoynunda yaşa dolsunlar, həyatın bərkinə-boşuna alışsınlar. Bəhlul Ağayev də o biri övladlar kimi, atasının arzusuna sığındı, anasının qayğısına sığındı...

Doğma kəndindəki 7 illik məktəbi tərifnamə ilə bitirdi. Orta təhsilini isə qonşu Gığı kəndində başa vurdu. Qızıl medal almağa namizəd idi. İrəvanda ermənilər təsdiq etmədilər. Bundan məyus olsa da, sarsılmadı, gələcəyə inamı böyük idi. Axı ata arzusuna sığınmışdı, ana qayğısına söykənmişdi...

Ona həmin məktəbdə Məhəmməd Hətəmov, Muxtar Baxşəliyev, Həmzə Həmzəyev, Həşim Tağıyev, İdris Piriyev, Həsən Şəkərəliyev, Əziz Nuriyev, Ağabala Babayev, Baxış Tanrıverdiyev kimi tanınmış müəllimlər dərs dedilər. Biliyin və təlimin əsaslarını, məhz onlardan öyrənmişdi. Dil-ədəbiyyat müəllimi Muxtar Baxşəliyevin ruhu önündə daim baş əyib,



sevimli müəlliminin tövsiyələri onun təhsil yollarında çıraq kimi yanıbdır...

Orta məktəbi bitirəndə, əvvəlcə, həkim olmaq istədi, lakin baş tutmadı. 1958-ci ildə sənədlərini indi rektoru olduğu N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin təbiət fakültəsinin coğrafiya-biologiya şöbəsinə verdi. Bir il oxumuşdu ki, şöbəni indiki M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinə köçürdülər. Daha universitet tələbəsi sayıldı. 1963-cü ildə ali təhsilini başa çatdırdı. Maarif Nazirliyində təyinatını aran rayonlarından birinə-Sabirabada verdilər. O, Cəfərxan qəsəbə məktəbinə müəllim təyin olundu...

Dağ adamının isti arana düşməsi ilk günlərdə ağır olur. Bəhlul Ağayev də ilk günlər bürküdən təntidi, ağcaqanadların əlindən təngə gəldi. Ancaq yolundan dönmədi; atasının arzusu ilə müəllim işləməliydi, hər bir çətinliyə dözməliydi, dözdü də... İstidən təngiyəndə Qafan yaylaqlarını yada saldı, yananda doğma kəndin bulaqlarının suyunu arzuladı. Xatirələrlə yaşadı, 7 ili xatirələrlə başa vurdu. Sənətində bir gün də səhlənkarlığa yol vermədi. Buna baxmayaraq, təhsilini davam etdirmək, elmi dərəcə almaq istəyirdi. Artıq müəyyən təcrübəsi vardı, bu illər ərzində müşahidələr aparmış, materiallar toplamışdı.

Bir gün Azərbaycan EA Zoologiya İnstitutundan professor Niyazi Səmədovun rəhbərliyi ilə Saatlıya elmi ekspedisiya gəlmişdi. Onlarla görüşdü. Onu aspiranturaya qəbul olunmaq üçün Bakıya dəvət etdilər.

1970-ci ilin oktyabr ayından Bəhlul Ağayevin taleyi N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinə bağlandı. Onu Zoologiya kafedrasında laborant vəzifəsinə götürdülər. 1971-ci ildə Zoologiya İnstitutunun aspirantı kimi, dissertasiya müdafiə edib, biologiya elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra, önündə yeni yönümlər açıldı. Ali təhsil ocağında pillə-pillə irəlilədi; assisent, baş müəllim və dosent kimi fəaliyyət göstərdi. Bununla yanaşı, elmi yaradıcılığını da davam etdirib, doktorluq dissertasiyasını tamamladı. Lakin həmin elmi-tədqiqat işini Bakıda müdafiə etmək mümkün deyildi. Çünki onun məşğul olduğu elm sahəsi üzrə respublikada müdafiə şurası yox idi. Onu Ukrayna EA Zoologiya İnstitutunda müdafiə etməli idi. Bəhlul

Ağayev bərk narahatlıq keçirirdi. Ona görə ki, orada Azərbaycandan iki dissertasiyanın müdafiəsi uğursuzluqla nəticələnmişdi. Bir yandan da respublika ağır günlərini yaşayırdı.

1990-cı ildə o, Kiyev şəhərinə yola düşdü. Böyük iş təcrübəsinə, dərin biliyinə, mövzunun hər tərəfli tədqiqinə arxayın olan Bəhlul Ağayev yad diyarın məşhur elm xadimləri qarşısına hazırlıqlı bir alim kimi çıxdı. Müdafiə gözlədiyindən də uğurlu oldu. Ona biologiya elmləri doktoru alimlik dərəcəsi verilməsi qərara alındı. Bir il sonra isə elmi şuranın təqdimatı ilə professor adı aldı və işlədiyi kafedraya müdir təyin olundu.

1994-cü ildə Bəhlul Ağayev ali təhsil müəssisəsində ictimai vəzifə sarıdan daha bir pillə yüksəldi. Onu tədris işləri üzrə prorektor vəzifəsinə təyin etdilər. Bu, uzun illər boyu pedaqoji sahədə çəkdiyi gərgin əməyin, böyük bir kollektivdə dərin nüfuza malik olmağın işıqlı yolu idi. Həmin yol elə işıqlı, elə aydın idi ki, bundan daha yüksək vəzifə kürsüsünə qalxmağa geniş üfüqlər açırdı. Bəhlul Ağayev 1997-ci ilin iyun ayının 29-nu ömrünün, pedaqoji fəaliyyətinin ən işıqlı günü, ən önəmli səhifəsi hesab edir. Məhz həmin gün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev onu qəbul etmiş, bir neçə namizədin içərisindən bu məsul vəzifəni, yalnız Bəhlul Ağayevə tapşırmışdı. İndi o, istedad və bacarığını etimadı doğrultmağa həsr edir, rəhbəri olduğu ali məktəbdə sağlam bir şəraitin yaranmasına çalışır, təlim-tərbiyə prosesini pozanlara qarşı barışmaz mövqedə dayanır. Onu kollektivdə qaçqınların, kasıbların, imkansızların və kimsəsizlərin müdafiəçisi kimi tanıyırlar. Daimi yurdundan-yuvasından didərgin düşənlərin problemlərinin həllində fəallıq göstərir. Bir də gələcəyinə böyük ümid bəslədiyi gənclərin qayğısına qalmağı ən ümdə vəzifəsi sanır...

Bəhlul Ağayev müntəzəm öz üzərində işləyən alimlərdəndir. Bir alim-pedaqoq kimi, 55-dən çox elmi əsəri, monoqrafiyası, neçə-neçə dərsliyi nəşr olunub. O, dünyanın 15-dən artıq ölkəsini, o cümlədən ABŞ, Fransa, İtaliya, Polşa, Bolqarıstan, Almaniya, Çexiya, Rusiya, Ukrayna və başqa ölkələrin alimləri ilə yaradıcılıq əməkdaşlığı aparır, onun əsərləri hər yerdə yüksək dəyərləndirilir.



O, gözəl ailə başçısıdır. İki qız, bir oğul böyütmüşdür. Qızlarından biri həkim, o birisi müəllimdir. Oğlu isə hüquqşünasdır. Bəhlul müəllim ona atası İsfəndiyarın adını vermişdir...



*Bəhlul Ağayev (ayaq üstə) N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində növbəti yığıncağı açarkən.*

...Bayaqdan bəri pəncərə önündə atasının ruhu ilə üz-üzə dayanan Bəhlul Ağayev nə düşündüsə, yenidən yazı masasının arxasına keçdi və dərsliyin əlyazmasının ilk səhifəsini açıb, epiqraf yazdı. Həmin dərslik metodiki şurada rəğbətlə qarşılandı və 1997-ci ildə nəşr olundu. İndi bu dərsliyi açan tələbələr ilk səhifədə bu epiqrafı oxuyurlar:

"Böyük bir arzuyla – ilk övladını müəllim görmək arzusuyla yaşayan və bu xoşbəxt günü görməyən atam Şahməmmədov İsfəndiyar Ağa oğlunun və övladlarını ata ideyaları işığında böyük namus və qeyrətlə böyüdüb, boya-başa çatdıran anam Şahməmmədova Nənəxanım Cəbrayıl qızının əziz xatirəsinə ithaf edirəm. Qoy övlad fərəhindən şad olan ruhları bir daha şad olsun!"

Bu epiqraf ata arzusundan, ana qayğısından su içmiş, qədim bir torpağın yurd sevgisindən işıq almışdı...



1948

## ARİF CAVANŞİR OĞLU ƏFƏNDİYEV

Elmlər doktoru (1991), laboratoriya rəhbəri, pedaqoq. Daha çox tədqiqatçı-alim və ictimaiyyətçi kimi tanınıb.

## GÖY RƏNGLİ SU

– Qafanın Atqız kəndində doğulmuşam. Ana babam həmin kənddəndir. Doğrudur, atamın işi ilə bağlı gah Qacaran, gah da Qafan şəhərlərində yaşamışıq. Ancaq yay aylarını çox zaman doğma Atqız kəndində keçirmişəm...

Bir dəfə kənd uşaqları ilə oynayırdıq. Mənə dedilər ki, geoloqların qazdıqları mağaralardan göy rəngli su axır, gedib baxaq! Razılaşdım. Bir dəstə uşaq kəndin kənarındakı köhnə mağaranın yanına gəldik. Doğrudan da, mağaradan göy rəngli su axırdı. Bu məni çox maraqlandırdı. Kənddə qaldığım müddətdə hər gün gəlib, daşın üstündə oturar, saatlarla həmin suya tamaşa edərdim. Kənddə başqa bir məşğuliyyətimiz də vardı; mağaraya yaxın yerdə "Vərəq quyusu" deyilən bir oyuq açılmışdı. Oradan lay-lay, lövhə-lövhə işıldar daşlar çıxırdı. Bu laylardan parça-parça sındırar, evcik qurar, tamaşa edərdik.

Elə o zamandan torpaqda olan bu təbiət möcüzələri önündə heyrətlənmişəm, onları öyrənməyə səy göstərmişəm. Mağaradan axan göy rəngli su, "Vərəq quyusu"ndakı işıldar lay təbəqələri olmasaydı, bəlkə də, mən kimya elmini tədqiqat sahəsi kimi seçməzdim... Müəllimlərimdən aldığım bilik və anlayışlar öz yerində...



Bunları mənə Arif müəllimin özü danışırdı. Onunla Azərbaycan EA Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun laboratoriyasının kiçik bir otağında üz-üzə oturmuşduq. Arif müəllimin rəhbəri olduğu bu laboratoriya "Oksidləşmə proseslərinin ginetikası və mexanizmi" adlanır. O danışdıqca ömür yolu barədə qeydlər edirdim. Bu qeydlər isə qısaca şəkildə aşağıdakılardan ibarətdir:

Arif Cavanşir oğlu Əfəndiyev 1948-ci il oktyabr ayının 10-da Qafan bölgəsindəki Atqız kəndində ziyalı ailəsində anadan olub. Səkkiz yaşında Qafan şəhərindəki 4 saylı məktəbə gedib. İlk müəllimi bölgədə təcrübəli maarif işçilərindən sayılan Piri Babayev idi. 1966-cı ildə həmin məktəbi qızıl medalla bitirdikdən sonra, Arif Əfəndiyev Bakı şəhərinə gələrək Azərbaycan Neft və Kimya İnstitutuna imtahan verib. İmtahanlardan üzüağ çıxıb və institutun Kimya-texnologiya fakültəsinə qəbul olunub.

Orta məktəb müəllimləri Ələkbər Qurbanovu, İsa İbrahimovu və başqalarını minnətdarlıqla yada salır. Ələkbər müəllim kimya fənnini ona sevdirmişdi. Bu sevgi onun elm sahəsindəki sonrakı inkişafına, sözsüz, böyük təsir göstərmişdi. Ədəbiyyatı da çox sevirdi; gah hekayə yazar, gah da şerlər qoşardı. Bu həvəs isə ona ya İsa müəllimin gözəl ədəbiyyat tədrisindən, ya da atası Cavanşir Əfəndiyevin şer yazmaq istedadından irəli gəlirdi. Lakin bu həvəs kimyəvi maddələrin daxilində gizlənən sirlərin açılmasında daha çox büruzə verdi...

İctimai işlərə də marağı böyük idi. Orta məktəbdən başlayan bu fəallıq institutun ictimai təşkilatlarının fəaliyyətindəki iştirakı ilə davam etdi, ta müasir çağlara qədər...

Arif Əfəndiyev 1971-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirdi. Necə deyərlər, hələ nəfəs almamış, onu hərbi xidmətə çağırdılar. İşi elə gətirdi ki, hərbi xidmətin müddətində də öz sevimli kimya elmindən uzaq düşmədi. Onu hərbi hissədə laboratoriya müdiri təyin etdilər. 1973-cü ildə tərxis olundu və kimya elmi sahəsində tədqiqatlar aparmağı qərara aldı. Həmin vaxtdan Azərbaycan EA sistemində işlədi. 1974-cü ildə isə Neft-Kimya Prosesləri İnstitutunun aspiranturasına daxil oldu. Elmi rəhbəri akademik T.N.Şaxtaxtinski idi. Oksidləşmə reaksiyaları kimi mürəkkəb bir mövzuda tədqiqat işi aparmalı

oldu. Üç il gecəli-gündüzlü çəkilən gərgin əmək öz bəhrəsini verdi. Arif Əfəndiyev 1977-ci ildə başa çatdırdığı dissertasiya işini uğurla müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi aldı. 1977-1986-cı illərdə Azərbaycan EA Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda, əvvəlcə, kiçik elmi işçi, sonra baş elmi işçi vəzifələrini tutdu. Lakin namizədlik dərəcəsi onu təmin etmirdi. Öz sahəsi üzrə elmlər doktoru dərəcəsi almaq çoxdankı arzusu idi. 1988-ci ildə onu SSRİ EA Neft Kimya Sintezi İnstitutuna – dokturanturaya göndərdilər. İki il dokturanturada oxudu. "S1-S4 xlorlu karbohidrogenlərin oksid katalizatorlar üzərində heterogen



*Arif Əfəndiyev (soldan ikinci) UÜfada Beynəlxalq kimyaçılar konfransının nümayəndələri arasında. 1982-ci il.*

katalitik oksidləşməsi" mövzusunda dissertasiya müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi aldı. Bu dərəcə, eyni zamanda, onun institutda yeni vəzifələr tutmasına ciddi təkan verdi. Əvvəl, şöbə müdiri, 1991-ci ildən isə laboratoriya



rəhbəri təyin olundu. Hazırda laboratoriyaya bacarıqla rəhbərlik edir...

Onun uzun illər boyu apardığı elmi araşdırmaların nəticələri 104 elmi əsərdə, o cümlədən 10 müəlliflik şəhadətnaməsində öz əksini tapıb. Bir sıra əsərləri ABŞ, Macarıstan, Hollandiya, Hindistan, Rusiya, Ukrayna, Litva, Gürcüstan, Belorusiya və b. ölkələrin dövri mətbuat orqanlarında dərc olunub.

Arif Əfəndiyev bir çox beynəlxalq, respublika simpoziumlarında və konfranslarda elmi məruzələrlə çıxış edib. 1997-ci ildə ABŞ-ın San-Dieqo şəhərində keçirilən 3-cü Ümumdünya Oksidləşmə Katalizi Konqresinə dəvət alıb. 1980-1983-cü illərdə Sovet – Fransa Kataliz proqramı çərçivəsində birgə elmi-tədqiqat işləri aparıb. 1988-ci ildə Hindistanda elmi ezamiyyətdə olub və bir sıra məruzələr oxuyub.

Arif Əfəndiyev ictimai işlərdə də çox fəaldır. O, gənc alimlər şurasının sədri, Akademiyanın azad həmkarlar şurasının sədr müavini kimi uzun müddət fəaliyyət göstərib. İnstitutun Elmi Şurasının üzvü olmaqla yanaşı, bir neçə aspirantın elmi rəhbəridir. O, pedaqoq kimi də fəaliyyətindən qalmayıb. 1997-ci ildən Bakı şəhərindəki "Zəngi" litseyində kimya fənnini tədris edir...

Əlbəttə, Arif Əfəndiyev indi Atqız kəndinə gedəsi olsa və həmin mağaradan axan göy rəngli suyu görsə, buna heyrət etməyəcək. İnamla bildirəcək ki, bu su mis tərkibli maddələrin içindən axıb gəlir...

Mən bu fikri ona deyəndə köks ötürdü:

– Təki elə bir gün olaydı!..



1949

## ARİF ŞƏKƏRƏLİ OĞLU ŞƏKƏRƏLİYEV

Elmlər doktoru (1991), professor, pedaqoq. Daha çox iqtisadçı, ictimai xadim və alim-pedaqoq kimi tanınıb.

# GÖYQURŞAĞI

Bakıya uçan təyyarə Sankt-Peterburq aeroportundan start götürdü. Aşağıda seyrək duman, göyün yuxarı qatında isə ala-tala buludlar qalaqlanmışdı. Quzeyin güz fəsli bomboz üzünü göstərirdi. Təyyarə sığıyıb, buludların üstünə çıxdı. Sərnişinlər köksdolusu nəfəs aldılar və qayışları boşaltdılar...

Arif Şəkərəliyev oğlu Aydınla yanaşı oturmuşdu. Üzündə yorğunluq, əzginlik cizgiləri ilk baxışda diqqəti çəkirdi. Bəs necə?! İlin-günün qarmaqarışıq çağında, Sovet imperiyasının darmadağın olduğu bir vaxtda Azərbaycandan gəlib, Sankt-Peterburqda iqtisadiyyat mövzusunda doktorluq dissertasiyasını müdafiə etmək hər bir alimə nəsib olan uğur deyildi.

Təyyarənin girdə pəncərəsindən aşağı boylandı; ala-tala buludların arasından torpaq görünürdü, topa-topa meşələr, qırçın-qırçın əkin yerləri, qəsəbələr, yollar, çaylar, daha nə bilim, nələr...

Bir anlıq ona elə gəldi ki, təyyarə ilə göyə qalxıb, yerə enməyin özü də bir arzu yoludur, qövsəbənzər dilək cığırıdır. Bu yolun, bu çığırın göyqurşağına da oxşarı vardı; yeddirəngli, bərli-bəzəkli. Bircə fərq istisna idi; göyqurşağı tez sönüb gedirdi, ancaq bu yol istəklərin sonsuzluğuna doğru uzanırdı...



Müdafiə ərəfəsində keçirilən seminarı xatırlayıb gülümsündü; ömründə belə imtahan verməmişdi, belə həyəcanlı dəqiqələr keçirməmişdi. Taleyin yeni sınağıydımı, yeni dövrün oyunuydumu, kəsdirə bilmirdi?! Sankt-Peterburq Maliyyə-İqtisadiyyat Universitetinin akt zalında keçirilən bu seminara nə qədər adam yığılmışdı, nə qədər alim gəlmişdi?! Çoxu da müxtəlif millətdən, müxtəlif ərazilərdən. Daha bir təhlükəli məsələ onu rahat buraxmırdı: seminarda iştirak edənlər içərisində erməni iqtisadçılarından da vardı. Onlar da ki, "harda aş, orda başdı"lar, hansı nankorluq desən, əllərindən gələr, hansı hiyləgərlik desən, törədərlər...

Arif Şəkərəliyev bütün bunları düşünəndə nə qədər həyəcan keçirmişdisə, seminarda verilən sualları sayanda ondan ikiqat dəhşətə gəldi. Seminarda nə az, nə çox, ona iyirmi yeddi sual vermişdilər. Hamısı stenoqramda qeyd olunmuşdu: cavabları da öz yerində əhatəli, dolğun. Buna baxmayaraq, müdafiə prosesində onu hansı çətinliklər gözləyirdi, demək olmazdı, öncədən, proqnoz vermək mümkün deyildi. Lakin seminarın yaxşı keçməsi müdafiə prosesinə də öz təsirini göstərdi. Rəsmi opponentlərin çıxışlarından və müxtəlif respublikalardan gələn müsbət rəylərin oxunuşundan sonra, müdafiə şurasının üzvləri Arif Şəkərəliyevə iqtisad elmləri doktoru alimlik dərəcəsi alması lehinə yekdilliklə səs verdilər. İndi ürəyində yüngüllük hiss edirdi. Şirin xəyallar onu qoynuna almışdı, gözləri önündə göyqurşağı rəngləri alışıb yanırdı...

1949-cu ilin dekabrın 1-də Qafan bölgəsindəki Pürülü kəndində Şəkərəli müəllimin ailəsində anadan olmuşdu. 8 illik məktəbi doğma kəndlərində bitirmişdi. Atası Şəkərəli müəllim həmin məktəbin direktoru idi. Anası Püstə qonşu Daşbaşı kəndindən, onun anası isə Yuxarı Girətağ kəndindəndi. Arif yazıb-oxumağı atasından öyrənmişdi. Ancaq ilk müəllimi Şamil Aslanov olmuşdu.

Uşaqlığı Çilədərə, Çınqıllıyurd, Oyuq, Damlar yalı, Dulan, Qızılağıl, Oyuqkədiyi, Kahabaşı, Yolyurd, Qaraquşqonan, Ayılıdərə kimi mənzərəli, gül-çiçəkli, suyu dişgöynədən yerlərdə keçmişdi. Təyyarənin pəncərəsindən göyqurşağı rəngləri içərisində indi o yerləri görürdü. O yerlər yadına

düşürdü. Bir də yadına düşürdü ki, kənd dükanına tez-tez müfəttiş gəlirdi. Anasının uzaq qohumlarından olduğundan bir-iki gün onlarda qalardı. O, altdan-altdan onun işinə göz qoyardı, atası ilə söhbətlərinə qulaq asardı. Elə o çağdan da onda iqtisadçı olmağa meyl gücləndi. 8 illiyi qurtaran kimi, sənədlərini Bakı Plan-Uçot Texnikumuna verdi. 1966-cı ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirərək iqtisadçı ixtisasına yiyələndi. Lakin ixtisası üzrə işləmədi, ali təhsil almağı üstün tutdu. Həmin il D.Bünyadzadə adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil oldu. Bütün fənlərdən əla qiymət almaqla bərabər, ictimai işlərdə də fəallar sırasında oldu. Şəkli "Şərəf lövhəsi"ndən düşmədi. 1970-ci ildə uşaqlıqdan xoşladığı və arzuladığı iqtisadçı ixtisasını ikinci dəfə qazandı. Lakin bu dəfə ali təhsilli iqtisadçı oldu. İnstitutun Elmi Şurasının qərarı ilə onu aspiranturada saxladılar. Üç il aspirant kimi təhsil aldı,elmi-tədqiqat mövzusu üzərində gərgin iş apardı. Ancaq aspirantura müddəti başa çatanda onu hərbi xidmətə çağırdılar. Yaxşı yadındadır, Batumi şəhərində xidmət edirdi. Hərbi təlimlərlə bağlı tez-tez Türkiyə sərhəddinə gedirdilər. Sərhəddə olanda azərbaycanlıları xüsusi nəzarət altında saxlayırdılar. Bu da ona çox qəribə gəlirdi. Həm də leytenant rütbəli zabit olduğu üçün onlara ayrıca tapşırıq verilirdi.

Ordudan tərxis olunduqdan sonra, yenidən elmi-tədqiqat mövzusu üzərində işlədi və iqtisad elmləri doktoru, professor Adil Qasımovun rəhbərliyi ilə 1975-ci ildə dissertasiya müdafiə edib, alimlik dərəcəsi aldı.

Yaxşı xatırlayırdı: pedaqoji fəaliyyəti Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu ilə bağlı olub. Buranın "Siyasi iqtisad" kafedrasında baş laborant, müəllim, baş müəllim və dosent vəzifələrində çalışmış, 1978-1982-ci illərdə dekan müavini, 1982-ci ildə kafedra müdiri seçilmişdi. Həmin il təzədən yetirməsi olduğu instituta qayıtdı. Əvvəlcə, müsabiqə yolu ilə "Siyasi iqtisad" kafedrasında dosent vəzifəsini tutdu. 1987-ci ildə onu fakültənin dekanı seçdilər.

Pedaqoji və ictimai fəaliyyətini davam etdirməklə bərabər, doktorluq dissertasiyasını da yazırdı. Bu məqsədlə 1983-cü ildə



Rostov Dövlət Universitetində, 1990-cı ildə isə M.İ.Lomonosov adına Moskva Dövlət Universitetində təkmilləşdirmə kurslarında iştirak etdi. Bütün bunlar doktorluq dissertasiyası müdafiəsinin sürətləndirilməsində onun böyük köməyinə gəldi, həmin kurslarda qazandığı təcrübə əlindən tutdu...

Arif Şəkərəliyev xəyaldan ayrıldı, gözlərini göyqurşağı rənglərindən çəkdi, ətrafına baxdı. Oğlu yanında yuxuya getmişdi. Neçə gün idi ki, o da atası ilə bərabər, ayaq üstündə idi, yorulmuşdu. Təyyarə Bakı səmasına girmişdi. Aşağıda isə onları qohumları və əzizləri qarşılayırdılar. Ata-oğul bir təyyarə dolusu sevinc gətirirdilər...



*Arif Şəkərəliyev (soldan üçüncü) Azərbaycan Dövlət İqtisad Universitetinin uçot-iqtisad fikültəsində dövlət imtahanı qəbul edərkən. 1997, 15 iyun.*

Bu hadisə 1991-ci ilin oktyabr ayının 15-də olmuşdu. Onda, Arif Şəkərəliyevin 42 yaşı vardı. Yeni əsrə isə 52 yaşın içində gəlib. 1992-ci ildən professor elmi adını daşıyır. O, müxtəlif elmi şuraların və ixtisaslaşdırılmış müdafiə şuralarının üzvüdür. Dəfələrlə xarici ölkələrdə olmuş, elmi konfrans və simpozium-larda məruzələrlə çıxış etmişdir. Bir tədqiqatçı, alim-pedaqoq kimi, 100-dən çox elmi məqalə, monoqrafiya və dərsliklərin müəllifidir.

Arif Şəkərəliyev "Beynəlxalq iqtisadi münasibətlər və

beynəlxalq bazarın təşəkkülü" (1996), "Biznesin əsasları" (1996), "İqtisadi nəzəriyyə" (1999), "Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər" (1999) kimi dərslik və monoqrafiyaların yazılmasında müəlliflərdən biri kimi böyük əmək sərf etmişdir.

Arif Şəkərəliyev 4 övlad atasıdır. Övladları həkim, iqtisadçı və maliyyə ixtisasları üzrə ali təhsil alıblar.

Onunla yolüstü görüşdük. Tələsirdi, yeni məqaləsini qəzetin növbəti nömrəsinə çatdırmalıydı. Ona sonuncu sualı verdim:

- Ən böyük arzunuz nədir?

Düşünmədən cavab verdi:

- Zəngəzur dağlarını, Qafan bölgəsini bir də görmək, uşaqlığım keçən yerləri bir daha qarış-qarış gəzmək!..

Bu arzunun işığında sağollaşıb ayrıldıq...

**SÖZ ARDI.** Arif Şəkərəliyev yeni fəxri ad alıb. Yazının ilk variantı neçə il öncədən qələmə alındığına görə, bu qeyd olunmamışdı: Azərbaycan Dövlət İqtisad Universitetinin 70-illiyi münasibətilə Respublika Prezidentinin fərmanı ilə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.





1947

**EYLAZ PİRİ OĞLU BABAYEV**

Elmlər dotkoru (1991), professor, mühəndis-mexanik, pedaqoq. Daha çox biomexanika sahəsində elmi kəşfin müəllifi, tədqiqatçı alim və elmi müəssisələrdə rəhbər işçi kimi tanınıb.

## UZAQ AMERİKADAN GƏLƏN SORAQ

Nə çağdan bəri, uzaq Amerikada yaşayıb, fəaliyyət göstərən mühüm bir elmi kəşfin müəlliflərindən olan alimimiz barədə soraq gözləyirik. Bu yaxınlarda faks vasitəsilə həmin sorağı almışıq. Sözsüz ki, professor Eldar Abbasovun təşəbbüsü və yaxından köməyi ilə. Professor Eylaz Babayevin faksla göndərdiyi məlumatın tərcüməsini burada verməyi gərəkli bilirəm:

«Canlı insan və heyvan sümüklərində mövcud olan xüsusi gərginliyin təzahürü» (№ 181).

Texnika elmləri dotkoru V.İ.Loşilov, akademik Q.A. Nikolayev və texnika elmrəi namizədi E.P.Babayev canlı insan və heyvan sümüklərində mövcud olan xüsusi gərginliyin təzahür formalarını kəşf etmişlər.

V.İ.Loşilov bu barədə fikirlərini belə şərh edir:

- Biomexanika sahəsindəki bu kəşf cərrahlarla birgə çoxillik tədqiqatın nəticəsində canlı orqanizmin sümüklərinin ultrasəs problemlərinin işlənməsi yolu ilə açılmışdır. Biz ilk dəfə canlı insan və heyvan sümükləri toxumalarındakı orqanizmin yaşından və skeletin ayrı-ayrı hissələrindən asılı olan və həcmin artmasını tarazlaşdıran mürəkkəb sahələrdə birinci dərəcəli xüsusi gərginliklərin mövcudluğunu aşkar etdik.

Təcrübələr göstərdi ki, boruvari sümüklər üst hissədə sıxılmış, daxildə isə gərilmiş xüsusi gərginliklərə malikdir. Xüsusi gərginliklər boruvari sümüklərdə həmişə uzununa mövcud deyil. Daxili gərginliklərin yüksəkliyi sümüklərin orta hissəsinə doğru yaxınlaşmanın səviyyəsi ilə müəyyən edilir.

Kəllə sümüklərinin toxumalarında xüsusi gərginlik sahələrinin ğədqiqi göstərdi ki: xüsusi gərginliklər kəllənin xarici üzündə gərilmiş, daxilində isə sıxılmış haldadır. Müəyyən edilmişdir ki, xüsusi gərginliklərin lazımi səviyyəyə yüksəlməsinə yaş həddinin güclü təsiri vardır. 21 yaşından 71 yaşınadək insanın kəllə sümüyündə xüsusi gərginliklər 250 kq santimetr kvadratdan 120 kq santimetr kvadrata qədər azalır. Təcrübi tədqiqatlar bu nəticəyə gəlməyə imkan yaratdı ki, insanın qıç sümüklərində xüsusi gərginliklər sıxılmış halda olur. Onların böyüklük səviyyəsi 100-200 kq santimetrə bərabərdir. Bununla da sümük toxumalarının formalaşması barədə bilgi almaq xüsusi gərginliklərin sahələrini müəyyənləşdirməklə mümkündür...».

Eylaz Babayevin akademik Q.A.Nikolayev və professor V.İ.Loşilovla birgə açdığı bu elmi kəşf tibb sahəsində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, artıq sınmış sümüklər üzərində cərrahiyyə əməliyyatı aparılan zaman xüsusi gərginliklərin təsiri altında toxumalarda meydana çıxan forma dəyişmələri də nəzərə alınmalıdır. Bu da əməliyyatın uğurla başa çatmasına və qüsurların aradan qalxmasına xeyli kömək edəcəkdir.

1976-cı ildə açılan bü yenilik həmin ilin 29 dekabrında biomexanika sahəsində 181 saylı elmi kəşf kimi o zamankı Dövlətin Kəşflər və İxtiralar kitabına daxil edilmişdir. Bəs elmi kəşfin müəlliflərindən biri Eylaz Piri oğlu Babayev kim idi və hansı fəaliyyəti ilə elmin ucalıq pilləsinə çatmışdı?!

O, 1947-ci ildə Zəngəzur mahalının Qafan şəhərində müəllim ailəsində anadan olmuşdu. Atası Piri Babayev Qatar kəndindən idi. 1941-1945-ci il savaşının iştirakçısı olmuş, məşhur partizan Mehdi Hüseynzadə ilə bir yerdə döyüşmüşdü. Davadan sonra, müəllimlik fəaliyyətini davam etdirirdi. Anası Suvara Babayeva da müəllim idi. Belə bir ailədə Varlığa göz açan Eylaz Babayev altı yaşında ikən 1953-cü ildə ata-anasının çalışdığı Qafan şəhərindəki 4 saylı məktəbə getdi. 1964-cü ildə



həmin məktəbi qızıl medalla bitirəndən sonra, heç bir tərəddüd etmədən sənədlərini Azərbaycan Politexnik İnstitutunun «Qaynaq sənayesi avadanlığı və texnologiyası» fakültəsinə verdi. Texniki fənləri gözəl mənimsəmişdi, odur ki, heç bir çətinlik çəkmədən imtahandan uğurla çıxıb, instituta qəbul olundu. Beş il tələbəlik çağları sürətlə ötüb keçdi. Eylaz Babayev öz istedadı və bilik səviyyəsi ilə müəllim və tələbələrin dərin hörmətini qazandı, institutun ictimai işlərində fəallıq göstərdi. Bunun nəticəsi idi ki, 1969-cu ildə ali təhsilini başa vuranda onu institutda assistent kimi saxladılar. Mühəndis-texnik ixtisasına yiyələnmişdi, elə öz ixtisasına aid fənlərdən dərs deyirdi. Bir müddət sonra, baş müəllim vəzifəsinə keçirildi.



*Eylaz Babayev (soldan birinci) professor Eldar Abasovla Beynəlxalq konfransın iştirakçıları arasında. 1987-ci il.*

Dörd il baş müəllim kimi dərs dedi. 1973-cü ildə Moskvaya gedib, N.E.Bauman adına Moskva Ali Texniki Məktəbinin əyani aspiranturasına daxil oldu. 1975-ci ilə qədər akademik Q.A.Nikolayevin rəhbərliyi altında namizədlik dissertasiyası üzərində işlədi. Hələ aspirantlıq müddəti başa çatmamışdan xeyli qabaq, tədqiqat işini qurtarıb, müdafiə etdi. Ona texnika elmləri namizədi alimlik dərəcəsi verdilər. Aspiranturada

oxumaqla yanaşı, ikiillik ingilis dili kursunu da əla qiymətlərlə bitirdi.

Eylaz Babayev yenidən Azərbaycan Politexnik İnstitutuna qayıtdı və burada 22 il assistentdən tutmuş, kafedra müdirliyinə qədər pedaqoji yol keçdi.

1977-ci ildə onu elmi təcrübə keçmək üçün Polşa Xalq Respublikasına göndərdilər. İki il orada professor A.Moretskinin biomexanika və akademik Filipçinskinin akustika laboratoriyalarında elmi təcrübədə oldu. 1979-cu ildə Bolqarıstan Xalq Respublikasında akademik Q.Brankovun laboratoriyasında elmi təcrübə keçdi. 1988-ci ildə isə bu məqsədlə Çinə getdi. O, 1991-ci ildə uzun müddət üzərində işlədiyi doktorluq dissertasiyasını Riqa şəhərində müdafiə edib, texnika elmləri doktoru alimlik dərəcəsi aldı. Onun elmi fəaliyyətinə beynəlxalq konfransların iştirakçısı olmaq və ultrasəs texnologiyası mövzusunda məruzələr etmək də daxil olur. Bu yönümdə o, Türkiyə, İspaniya, Almaniya, İran və b. ölkələrdə keçirilən elmi konfranslarda maraqlı çıxışlar etmişdir. Eylaz Babayev ultrasəs texnologiyası sahəsində dünya miqyasında tanınmış alimlərdən hesab olunur. Nəşr edilmiş xeyli elmi əsərin və patent almış 30-dan çox ixtiranın müəllifidir.

Hazırda ABŞ-ın Minisota Ştatının Mennonones şəhərində elmi laboratoriyaya rəhbərlik edir…





1956

## SƏFİXAN ŞAMİL OĞLU HƏSƏNOV

Elmlər doktoru (1996), professor, pedaqoq. Daha çox tibb sahəsində ixtiraçı-pediator, alim-pedaqoq kimi tanınıb.

## "SƏMƏNİ, SAXLA MƏNİ!"

İşdən evə təzəcə gəlmişdi. Paltarını soyunmaq istəyirdi ki, qonşuda ağlartı eşitdi. Heyrətlə atasının üzünə baxdı:

– Ata, qonşuda nə hadisə üz verib, ağlartı gəlir?

Atası Şamil kişi təəssüflə:

– Oğul, qonşuların ilk nəvəsi olacaqdı, o da ölü doğulub...

Elə bu zaman qapının zəngi çalındı, keçib açdı. Qonşudakı qarı idi. Qucağında mələfəyə bükülmüş uşaq vardı:

– Doktor, bu körpəni, balnisədən qaytarıblar... ətinə əl vurdum, istidi, canı var... Ölü görməmişik?! Ölü axı bumbuz olar?! Doktor, umudum sənədi, nəvəmi mənə qaytar...

Səfixan Həsənov pediator kimi çalışdığı zamandan bəri belə hadisələr çox görmüşdü. Neçə körpəni də klinik ölüm vəziyyətindən çıxarmışdı. Ona görə, təcrübəli pediator bir söz demədən uşağı qarıdan alıb, o biri otağa keçdi. Pencəyini çıxarıb, ağ xalatını geyindi. Ehmalca mələfəni açdı və ilk yoxlamadan keçirdi. Qarı düz deyirdi, körpənin hələ canı vardı; nəbzi vururdu, ağır-ağır nəfəs alırdı... Təcili iynə vurmaq lazımdı. İynəni qaynatmaq üçün mətbəxə keçdi. Qonşu qarı da, atası Şamil kişi də onun hərəkətlərinə böyük heyrət və umudla baxırdılar...

Körpənin çənə nahiyəsində doğuşdan sonra, yarıq açılmışdı. Həmin zədə yerini silib təmizlədi, dərman vurub sarıdı. Sonra iynə vurub, körpənin rahat nəfəs almasına imkan yaratdı. Elə bu vaxt körpə gözlərini açdı, qurcalanıb ağladı. Bu isə həyat demək idi, varlığa ilk vəsiqə demək idi!..

Qonşu qarı özünü içəri atdı:

– Ayaqların altda ölüm, ay doktor, əlin-qolun var olsun, nəvəm sağdımı?!

Səfixan Həsənov inamla bildirdi:

– Nənə, nəvən sağdı, yaşayacaq!..

Həmin gün qonşunun evinə "dam dolusu" sevinc, şadlıq bəxş olundu...

Bu, Səfixan Həsənovun ömür salnaməsinin maraqlı məqamlarından birinin xatirəsi idi. Belə məqamlar isə onun ömür salnaməsinin, həyat fəaliyyətinin yaddaqalan izləridir...

O, 1956-cı ilin yanvar ayında Qafan bölgəsinin Gərd kəndində doğulmuşdu. 7 yaşında doğma kəndlərində məktəbə getmiş, müəllimi Ələkbər Müzəffərovdan ilk dərsini almışdı. 8 illiyi bitirdikdən sonra, bir il Kığı kənd orta məktəbində oxumuşdu. Lakin həmin il baş verən təbii hadisə-yer tərpənməsi bütün kəndin köçməsinə səbəb oldu...

**Xatirə dəftərindən:**

– Kənddə minbir əzab-əziyyətlə təzə ev tikmişdik. Yaxın günlərdə həmin evə köçəcəkdik. İş elə gətirdi ki, köçəsi olduq. Səhər yenicə açılmışdı. Birdən gurultu eşitdik. Yer tərpəndi-evlər titrədi, pəncərələr, şüşəbəndlər əsim-əsim əsdi, cingildədi. Adamlar bir-birinə dəydilər. Gözümüzün qarşısında kəndin qənşərindəki dağ yarıldı, böyük bir torpaq parçası aşağı sürüşməyə başladı... O gündən kənddə səksəkəli günlərimiz bizi rahat buraxmadı. Sovet imperiyası dövründə təbii fəlakətlər diqqət mərkəzində olardı. Tezliklə Zeyvə qəsəbəsində taxtadan Fin evləri quraşdırıldı, hətta məktəb binası da tikdilər. Bütün kənd yeni qəsəbəyə köçdü. Mən də orta məktəbi orada bitirdim...

Səfixan Həsənov hansı ali məktəbə qəbul olunmaq barədə düşünmədi. 1973-cü ildə Bakıya gəlib, sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna verdi. Həkim olmaq arzusu hələ



uşaqlıqdan onun ürəyində doğulmuş, illər keçdikcə daha da şirinləşmişdi. Atası kolxozun baytarı idi. İrəvanda kurs bitirmişdi. Göz açandan evlərində baytarlığa aid alətlər görmüşdü. Saatlarca mikroskopun gözlüyündən baxmışdı. O çağlardan da həkim olmağı qət etmişdi. "Niyyətin hara, mənzilin ora"–demişlər. Bu məsəl istək dalınca düşənlər barədə söylənmişdir. Artıq arzu yolunun ilk pilləsində idi; uşaq həkimliyi-pediatriya fakültəsinə qəbul olunmuşdu. 6 illik təhsil illəri səmərəsiz keçmədi; 1979-cu ildə fərqlənmə diplomu ilə institutu qurtardı...

**Xatirə dəftərindən:**

– Təyinatımı Zərdab rayonuna verdilər. Aran bölgəsi olmasına baxmayaraq, razılaşdım. İşləmək, aldığım biliyi, qazandığım təcrübəni insanlara xidmətə sərf etmək istəyirdim. Məni rayonun Körpükənd xəstəxanasına həkim-pediator təyin etdilər. Üç ilə yaxın orada çalışdım. Saysız-hesabsız xəstə müalicə etmişəm. Sənətimlə iftixar hissi keçirməyimə, elə bilirəm ki, haqqım çatar. Neçə uşağını itirən, bu səbəbdən soyuqluq yol tapan ailələrə sevinc işığı vermişəm. Mənim təcrübəmdə gəldiyim nəticə bundan ibarət idi ki, körpələrin sağlamlığı qayğısına hələ onlar varlığa göz açmamışdan qalmaq lazımdır. Uşaqların əksəriyyəti bu qayğıdan məhrum olduqlarına görə, yaşaya bilmirlər...

Yaxşı yadımdadır; bir qadının beş uşağı tələf olmuşdu. Düzgün müalicə nəticəsində altıncı uşaq sağlam doğuldu və indi böyük oğlandır. Məni, hətta həmin gəncin toyuna dəvət etmişdilər...

Bölgədə yaxşı pediator kimi hörmət qazanan Səfixan Həsənov 1983-cü ildə Bakıya qayıtdı. Onu Azərbaycan Dövlət Tibb İnstitutunun 2-ci uşaq xəstəlikləri kafedrasında klinik oridinator vəzifəsinə götürdülər. 1986-cı ildə isə həmin kafedrada baş laborant vəzifəsinə keçirildi. Eyni zamanda, "Erkən yaşlı uşaqlarda kəskin pnevmoniya zamanı leykositlərin ferment statusunun korreksiyasının klinik-patogenetik əsaslandırılması" mövzusu üzərində tədqiqat aparmağa başladı. Tədqiqat uğurla başa çatdı. 1988-ci ildə həmin mövzuda dissertasiya müdafiə edib, tibb elmləri namizədi alimlik dərəcəsi aldı.

1989-1998-ci illərdə "Neonatologiya" kafedrasında assisent vəzifəsində çalışdı. 1998-ci ilin noyabr ayından həmin kafedranın professoru seçildi...

**Xatirə dəftərindən:**

– Novruz bayramı yaxınlaşırdı. Evdə səməni əkmişdilər. Nimçəyə yayılmış islaq buğda dənələrindən ilk cücərtilər çıxırdı. Onlara tamaşa edə-edə fikrə getmişdim; buğdanın tərkibində onun cücərməsini və xarici mühitlə əlaqəsini yaradan hansı amillər mövcuddur? Bu amillərin varlığı cücərtilərin boy artımını təmin edir. Bunsuz onlar inkişafdan dayanardı. Səməni barəsində xalq deyimi yadıma düşdü:

Səməni, saxla məni,
İldə göyərdərəm səni...



*Səfixan Həsənov (soldan üçüncü) Avropa pediatrlar cəmiyyətinin konqres iştirakçıları arasında. Berlin, 1999, may.*

Deməli, səməninin müalicə əhəmiyyəti var ki, onun suyundan halva çalırlar, zahı qadınlara quymaq, yaxud bulamac bişirirlər. Boş yerdən xalq "Səməni, saxla məni!" – deməzdi. Doktorluq dissertasiyası üzərində işlərkən bu məsələ ilə ciddi məşğul olmağa başladım. Xeyli elmi ədəbiyyat oxudum,



səməninin tərkibi ilə maraqlandım. Məlum oldu ki, onun tərkibində 14 amin turşusu, zülallar və bütün vitaminlər var. Mikroelementlərin mövcudluğu asan həzm olunan karbohidratların zənginliyini yaradır. Bu da inkişafa güclü təsir göstərən çox vacib amillərdir. Bəs bu amillər ana bətnində olan körpələrin inkişafına təsir göstərməzmi? Doktorluq dissertasiyamın bütöv bir fəslini bu məsələyə həsr etdim. Bilirdim ki, Kiyevin dərman preparatları buraxan zavodu yaşıl kütlədən "səməni ekstraktı" istehsal edir. Bu dərmanın texnologiyasını öyrənmək üçün Kiyevə ezamiyyə götürdüm. Proqnozlarım doğru çıxdı. Hamilə qadınların bu ekstarktı qəbul etmələri üçün elmi əsaslı təkliflər hazırladım. Təkliflər qəbul olundu və buna görə mənə müəlliflik şəhadətnaməsi verdilər. Hayıf ki, respublikamızda bu dərmanı hazırlamağa şərait tapılmadı...

Səfixan Həsənov 1996-cı ildə dissertasiya müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. Dissertasiya, hələ dünyaya gəlməmiş uşaqların sağlamlıq vəziyyətinin proqnozlaşdırılması və bu sahədə profilaktik tədbirlərin təkmilləşdirilməsi məsələlərinə həsr olunmuşdur. O, 100-dən çox elmi məqalənin, 7 metodik və tədris-metodik tövsiyənin, 1 ixtiranın, pediatriya sahəsində 3 səmərələşdirici təklifin müəllifidir. Bir sıra elmi şuraların və Beynəlxalq Pediatorlar Cəmiyyətinin üzvüdür. Xarici ölkələrdə keçirilən bir çox elmi konqreslərdə iştirak etmişdir.

Hazırda Azərbaycan Dövlət Tibb Universitetində dərs deyir, təcrübəsini və biliyini tələbələrə öyrədir. Səfixan Həsənovun rəhbərliyi ilə pediatriya sahəsində bir neçə elmi işçi öz dissertasiyasını uğurla müdafiə etmişdir.

Onun elmi və pediatorluq fəaliyyəti ilə tanış olduqdan sonra, adama elə gəlir ki, səməni barəsində bu söz hələ varlığa göz açmamış körpələrin dilindən deyilib:

Səməni, saxla məni!



## BAĞIR ƏLƏKBƏR OĞLU SÜLEYMANOV

Elmlər doktoru (1997), dağ-mədən mühəndisi, ictimai xadim. Daha çox neft sənayesi sahəsində ixtiraçı mütəxəssis, elmi müəssisələrdə rəhbər işçi kimi tanınıb.

**1959**

### ATA YOLU

O, dəmir pilləkəndən ehmal-ehmal aşağı düşüb, buruqdan harasa uzanan əyri borunun üstündə oturdu. Dərindən nəfəs çəkib, yorğunluğunu aldı. Ucalıqdan çəkinirmiş kimi, buruğun dəmir şəbəkələri arasından yuxarı boylandı. Səmada buludlar qalaqlanmışdı. Hava soyuq idi…

Bir saatdan çox buruğun üstündə əlləşmişdi. Quyuda təzyiqi azaltmaq üçün siyirtməni bağlamalı idi. Torpağın altından püskürən neftin tərkibində parafin vardı. Bu da boruların içinə tıxanır, təzyiqi gücləndirirdi. Nə qədər çalışsa da, siyirtməni bağlaya bilmirdi. Ürəyində tapşırıq verən ustanı yamanladı. Ona elə gəldi ki, rus onu qəsdən sınağa çəkib, bacarığını yoxlamaq istəyir. Birdən ağlına gəldi ki, anbara gedən borunun üstündəki siyirtməni bağlamaq lazımdır. Elə də etdi. Bundan sonra, təzyiqi aşağı salan siyirtməni bağlamaq mümkün oldu. Bir azdan usta özü gəlib çıxdı. O, başının hərəkəti ilə razılığını bildirdi…

Bu hadisə 1981-ci ildə uzaq Tümen vilayətinin Nijni Vartovsk qəsəbəsi ərazisində olmuşdu. Onda, Bağır Süleymanov bir neçə tələbə yoldaşı ilə bura istehsalat təcrübəsinə göndərilmişdi. Atası təcrübəli və tanınmış neft mütəxəssisi Ələkbər



Süleymanovun tövsiyəsi ilə bura gəlmişdi. Sözsüz ki, ata oğlunu bacarıqlı bir dağ-mədən mühəndisi görmək istəyirdi. Bunun üçün çətinlikdən qorxmamaq, sınaqlardan uğurla çıxmaq lazım idi. Başqa sözlə, atanın yolu belə olmuşdu, oğul da onun açdığı işıqlı cığırı tutub, irəli getməliydi…

Bağır Süleymanov 1959-cu il iyun ayının 22-də Bakı şəhərində varlığa göz açmışdı. 1966-cı ildə məktəbə getmişdi. Onun oxuduğu 28 saylı məktəbdə ilk müəllimi Şəfiqə xanım olmuşdu…

1974-cü ildə 8-ci sinfi bitirdikdən sonra, 44 saylı məktəbdə təhsilini davam etdirmişdi. 1976-cı ildə orta məktəb təhsilini başa çatdırıb, sənədlərini Azərbaycan Neft və Kimya İnstitutuna vermişdi. İmtahanlardan əla qiymətlər almış, institutun «Neft yataqlarının işlənməsi və istismarı» fakültəsinə qəbul olunmuşdu. Orta məktəbdə bütün fənlərdən yaxşı qiymətlər alırdı. Ancaq fizika və riyaziyyat dərslərinə xüsusi maraq göstərirdi. Bu da elə-belə ötəri maraq deyildi. Neftçi ailəsində doğulmuş, atasının, əmisinin və dayısının əhatəsində böyüyüb, boya-başa çatmışdı. Onların hamısı neft sənayesi sahəsinin əvəzsiz mütəxəssisləri idilər. Evlərində atası neftə aid xeyli kitab saxlayırdı. Onların arasında amerikalı müəllif Haroldun neftdən bəhs açan şəkilli kitabı uşaqlıqdan Bağır Süleymanovun xoşladığı nümunələrdən idi. Bütün bunlar onda neft mühəndisi olmaq istəyini gücləndirmiş, instituta girməsi isə bu yolda parlaq işıq yandırmışdı…

Beş il müddətinə bir çox müəllimdən dərs almış, seçdiyi ixtisas barədə bilik kəsb etmişdi. Onlardan akademik Azad Mirzəcanzadəni, professorlar Zahid Kərimovu və Kazım Quluzadəni, xüsusilə hörmətlə xatırlayırdı… Diplom təcrübəsini isə Başqırdıstanın Neft-Kamsk şəhərində keçdi…

Bağır Süleymanov 1981-ci ildə institutu (indi Neft Akademiyası adlanır) fərqlənmə diplomu ilə qurtardı və dağ-mədən mühəndisi ixtisası qazandı. Onu N.Nərimanov adına Neft mədənləri idarəsinə göndərdilər. Bu idarə neft və qaz hasilatı sahəsində böyük təcrübə və uğurlar qazanmışdır. İstehsalatın özündə çalışmaq onun ürəyincə idi. Təcrübə və biliyi təkmilləşdirməyə geniş imkanlar açılırdı. Onu neft mədənlərinə operator vəzifəsinə götürdülər. İdarənin rəisi

texnika elmləri doktoru Həsən Hümmətov idi. Bağır Süleymanov bir təcrübəli mütəxəssis kimi, ondan neft və qaz hasilatının bir sıra sirlərini öyrəndi, kollektivdə böyük hörmət qazandı... Lakin istehsalatla yanaşı, nəzəri biliklərə də yiyələnmək lazım gəlirdi. 1982-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasına qəbul olundu. Üç il akademik Azad Mirzəcanzadənin rəzbərliyi altında «Neft quyularının məhsuldarlığının artırılması» mövzusu üzərində tədqiqat apardı. Bir məsələ önəmli idi ki, Bağır Süleymanov öz elmi işini istehsalatla birbaşa əlaqədə öyrənirdi. Odur ki, tezliklə dissertasiyanı başa çatdırdı və 1986-cı ilin dekabrında müdafiə edib, texnika elmləri namizədi alimlik dərəcəsi aldı. 1983-cü ildə onu idarənin mühəndisi vəzifəsinə irəli çəkdilər. İki ilə yaxın həmin vəzifədə çalışdı. Eyni zamanda, 1985-ci ildən Neft və Kimya İnstitutunda assistent vəzifəsini tutdu.



*Bağır Süleymanov (soldan beşinci) Bakı şəhərində keçirilən IV Beynəlxalq Xəzər "Neftqazyataq" konfransının iştirakçıları arasında. 2002-ci il.*

O, 1988-ci ildən sırf elmi sahəyə keçdi və Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun laboratoriyasında çalışmağa başladı. Bu ona doktorluq dissertasiyası üzərində işləməyə yeni təkan verdi. Lakin həmin işin yerinə yetirilməsi gərgin və sıxıntılı illərə təsadüf etdi.



Bağır Süleymanov on ilə yaxın «Neft hasilatında texnoloji proseslərin və məhsuldarlığın yüksəldilməsi üçün geterogen sisteminin tətbiqinin nəzəri və təcrübi əsasları» mövzusu üzərində böyük maraq və həvəslə çalışdı. 1997-ci ilin dekabrında tədqiqat işini müdafiə edib, texnika elmləri doktoru alimlik dərəcəsi aldı. Onun gəldiyi nəticələr başqa respublikaların neftçilərinin də nəzərini cəlb etdi. Bunlar Qərbi Sibir və Başqırdıstan neft mədənlərində tətbiq olunmağa başladı və onu bir sıra ixtiraların müəllifi kimi tanıdılar. O çağa qədər 88 elmi əsəri vardı. Bunlardan 30-u dövlətdən potent almışdı. Onun elmi əsərləri Amerika Birləşmiş Ştatları, İngiltərə, Almaniya, Rusiya və b. xarici ölkələrdə nəşr olunan jurnal və toplularda dərc edilmişdir.

Bağır Süleymanov 1998-ci ildən atasının çalışdığı «Dənizneftlayihə» Elmi Tədqiqat Layihə İnstitutunda aparıcı elmi işçi vəzifəsində fəaliyyətini davam etdirdi. 2000-ci ildən sonra isə atanın tutduğu Layihə İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsini ona tapşırdılar. Hazırda isə həmin institutun direktoru vəzifəsini aparır və böyük bir kollektivə bacarıqla rəhbərlik edir...

Bağır Süleymanovun yaşam dünyasına işıqlı günlər yazan bir yol var – bu onu ucalığa aparan ata yoludur!..



## TƏHMƏZ NƏSİB OĞLU QULİYEV

Elmlər doktoru (1998), pedaqoq, ictimaiyyətçi. Daha çox ali məktəbdə kafedra rəhbəri və alim-pedaqoq kimi tanınıb

1935

## ATAMIN ADAŞI

Kığı kəndinin səhəri gözəl olur. Ona görə ki, kəndin üzü Şərqə baxır. Dan yerindən Günəş çırtan kimi, onun ilk şəfəqləri kəndə çilənir...

1935-ci ilin yay səhərlərindən biri idi. Səhər xoş xəbərlə açılmışdı; Nəsib kişinin oğlu olmuşdu. Görənlər ona gözaydınlığı verirdilər. Bunlardan biri də Təhməz müəllim idi. O, Yuxarı Girətağ kəndindən gəlmişdi. Bir ilə yaxın idi ki, Gığı məktəbində dərs deyirdi. Nəsib kişi ilə dostlaşmışdı. Hər səhər məktəbə gedəndə yolda bir-biri ilə rastlaşar, hal-əhval tutar, mehribanca sağollaşardılar. Nəsib kişi həmişəki kimi, yenə də yolun üstə dayanmışdı. Təhməz müəllim ona yaxınlaşdı:

- Sabahın xeyir, ay Nəsib kişi, nə var, nə yox, necəsən?
- Aqibətin xeyir, ay müəllim, mən yaxşıyam, sən necəsən?
- Çox sağ ol, ay Nəsib kişi, müəllim babayıq da, məktəbdə dərsimizi deyib, qayıdırıq... Eşitdim, oğlun olub, gözün aydın!
- Olub, ay müəllim, oğlum olub! Ona sənin adını verəcəyəm, qoy böyüyəndə sənin kimi müəllim olsun!
- Mən etiraz eləmirəm, Nəsib kişi, bu sənin diləyindir, diləyinə çatasan!

Onlar əl tutub, yenə də, mehribanca sağollaşdılar...



O çağdan aylar keçdi, illər dolandı. Balaca Təhməz böyüdü, boya-başa çatdı. Səkkiz yaşında ikən 1943-cü ildə anası Nabat onu məktəbə apardı. Ağır illər idi. Dava bütün ailələrə buz soyuqluğu gətirmişdi. Nəsib kişi də yaralanıb, davadan qayıtmışdı. Əlbəttə, o, çox istərdi ki, oğluna Təhməz müəllim dərs deyəydi. Taleyin sərt sınağından isə qaçmaq çətin idi...

Bu söhbəti mənə anam Fatma Əzizova bir neçə dəfə söyləmişdi. Axı həmin illər anam da Gığı məktəbində dərs deyirdi.

Öyrənmişdim ki, atamın adaşı Bakı Dövlət Universitetində müəllimdi. Onunla görüşmək arzusunda idim. Fürsət düşməmişdi. Hətta özüm universitetin məzunu olsam da... İş elə gətirdi ki, ondan yazmaq qərarına gəldim.

İş yerində görüşdük. Fotoşəklini, qısa tərcümeyi- halını, bir də elə bu günlərdə müdafiəsinə hazırlaşdığı doktorluq dissertasiyasının avtoreferatını gətirmişdi. Tərcümeyi-halı çox qısa idi. Odur ki, onu sorğuya tutdum:

- Təhməz müəllim, necə oldu ki, kimyaçı ixtisasını seçdiniz?
- 1953-cü ildə kənddə orta məktəbi bitirdim. Lakin bəzi səbəblərdən ali məktəbə qəbul imtahanlarına gələ bilmədim. Yayda uşaqlıq dostum Şahsuvar Təhməzov nənəsigilə gəlmişdi. O, universitetin hüquq fakültəsində oxuyurdu. Onunla sözləşdik ki, mən də həmin fakültəyə imtahan verim. Doğrusu, bu təklif ürəyimcə idi; hüquqşünas olmaq istəyirdim. Sənədlərimi hazırlayıb, Bakıya gəldim. Qəbul komissiyasına getdim; uzun dəhliz başdan-başa adamla dolu idi. Hüquq fakültəsinə daxil olmaq üçün ərizə forması doldurmaq istəyənlər daha çoxdu. Ona görə, məsul katibin qəbuluna düşdüm. Katib arıq, qarayanız bir kişi idi; hüquq fakültəsinə daxil olmaq istəyimi biləndə nəsihətə başladı; - Ay bala, attestatından görürəm ki, yaxşı oxumusan. Ancaq mən sənin hüquq fakültəsinə girməyini məsləhət bilməzdim. Biz kommunizm cəmiyyəti qururuq. Gələcəkdə, bəlkə, heç hüquqşünaslara ehtiyac qalmadı. Gələcək cəmiyyət kimyaçıların əlində olacaq. Mənə qulaq as, ərizəni apar, kimya fakültəsinə ver. Görürsən, bizim rektor Yusif Məmmədəliyev də məşhur kimyaçı alimdir, akademikdir. Həmin arıq, qarayanız kişi, "saqqızımı necə oğurladısa",

ərizəmi kimya fakültəsinə verdim və qəbul olundum.

Sonradan öyrəndim ki, həmin kişi elə universitetin də məsul katibi imiş. Kimya fakültəsinə ərizə verənlərin sayı az olduğu üçün belə təbliğat aparırmış.

Mən zarafata keçdim:

- Təhməz müəllim, keçənə güzəşt deyərlər, amma öz aramızdadır, o kişi "saqqızınızı yaman oğurlayıb, ha!"

Təhməz müəllim xeyli güldü:

- Təzəcə şəhərə gəlmiş, hər kəsə, hər sözə inanan, sadədil kənd uşağının "saqqızını oğurlamağa nə var ki!.." Mən kimyaçı ixtisasına yiyələnməyimə peşimançılıq çəkmirəm, görürsənmi, artıq doktorluq dissertasiyası müdafiyə edirəm.

Mən soruşdum:

- Bəs universitetdə hansı müəllimlər Sizə dərs deyiblər, onları necə xatırlayırsınız?

- 1959-cu ildə universiteti bitirdim. Əlaçı təqaüdü alırdım. Onu da deyim ki, kimya fakültəsində çox görkəmli alimlər dərs deyirdilər. Akademiklərdən Yusif Məmmədəliyev, Əli Quliyev, Sultan Mehdiyev, Murtuza Nağıyev, akademiyanın müxbir üzvü Cümşüd Zülfüqarlı müxtəlif vaxtlarda mənə dərs demişlər. Onları ehtiramla xatırlayıram...

- Hansı ildə namizədlik dissertasiyası müdafiyə etmisiniz?

– Yusif Məmmədəliyev universitetin rektorluğundan akademiyanın prezidenti kürsüsünə irəli çəkilmişdi. Onun təşəbbüsü ilə 40 nəfər müxtəlif ixtisaslı tələbə Moskvaya - aspiranturaya göndərildi. Onların arasında mən də vardım. İmtahan verib, SSRİ EA Ümumi və Qeyri-üzvü Kimya İnstitutunun aspiranturasına qəbul olundum. Onu da deyim ki, təhkim olunduğum laboratoriyanın müdiri professor N.P.Lunskaya idi. Çox tələbkar qadındı. Eyni zamanda, aspirantlara xüsusi qayğı göstərirdi. Elmi rəhbərim kimi mənim mövzu üzərində səmərəli işləməyimdə onun böyük təsiri oldu... 1965-ci ildə dissertasiya mövzusunu başa çatdırdım. Azərbaycan Elmlər Akademiyasının Kimya İnstitutuna təqdimat göndərildi və elə həmin il müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi aldım...

Bundan sonra, Təhməz Quliyev Azərbaycan Dövlət Universitetində assistent, baş müəllim, dosent, dekan, kafedra müdiri kimi vəzifələr tutmuş, bir sıra ictimai işlərdə çalışmışdır. Onun kimya elminin inkişafında xidmətlərindən biri də budur ki, ilk dəfə Azərbaycanda yarımkeçiricilər kimyası sahəsində elmi tədris laboratoriyaları yaratmış, xüsusi kursların proqramını hazırlamış, maraqlı mühazirələr oxumuşdur.



*Təhməz Quliyev (sağdan altıncı) kafedra üzvləri arasında. 1995-ci il.*

O, 20-dən çox beynəlxalq elmi konfrans və seminarlarda çıxış edib. 60-dan çox elmi məqalənin müəllifidir.

Təhməz Quliyev 40 ilə yaxındır ki, Bakı Dövlət Universitetində qeyri-üzvi və fiziki-kimyanı tədris edir. İstedadlı tələbələrindən bir neçəsinin adını çəkməyi xahiş etdim. Təhməz müəllim professorlar Abel Məhərrəmovun, Məmməd Babanlının və Fuad Sadıxovun adlarını iftixarla çəkdi.

Yazını bitirib, nöqtə qoymaq istəyirdim ki, onun bir vərəqlik tərcümeyi-halına təkrar nəzər saldım. Vərəqin arxasında Təhməz Quliyevin qeydləri vardı. Həmin qeydləri də buraya daxil etməyi lazım bildim: "30-cu illərdə bizim məktəbin müəllimləri, əsasən, başqa kəndlərdən gələrmişlər. Yuxarı Girətağ kəndindən olan Təhməz Əzizov və onun həyat yoldaşı Fatma Əzizova, xüsusilə böyük hörmət qazanmışlar. Təhməz

Əzizov atamla dostluq etmişdir. Bu dostluğun şərəfinə mənə onun adını vermişlər. Ata və anam onların adlarını həmişə əziz tutardılar. Mən Təhməz müəllimin adını daşımağımla həmişə fəxr etmişəm və bu adı bir əmanət kimi əzizləyirəm..."

Mən isə öz kiçik oğluma atamın adını vermişəm. Gələcəkdə onun barəsində yazsam, gərək başlığı "Atamın adaşının adaşı" adlandıram.





## CƏBRAYIL ƏBDÜLƏLİ OĞLU AZADƏLİYEV

Elmlər doktoru (1998), mühəndis-geoloq, professor. Daha çox elmi işçi, pedaqoq və ictimaiyyətçi kimi tanınıb.

**1935**

## "MƏNİM BAĞIM, BAHARIM..."

26 oktyabr 1998-ci il. Azərbaycan EA Geologiya İnstitutunun akt zalında doktorluq dissertasiyası müdafiə olunurdu. Zalda dissertasiyaya aid xeyli qrafik və kartoqrafik materiallar və modellər asılmışdı. Bütün bunlar uzun illər ərzində elmi axtarışların məntiqi yekunu kimi təqdim edilmiş dissertasiya işinin səviyyəsindən xəbər verirdi. İxtisaslaşdırılmış şuranın sədri akademik Akif Əlizadə iclası açaraq bildirdi ki, nəhayət, bu gün uzun illər boyu elmlər doktoru kimi tanıdığımız Cəbrayıl Azadəliyevin doktorluq dissertasiyasının rəsmi müdafiəsidir. İddiaçı haqqında qısa anket məlumatı elan edildikdən sonra, sədr onu kürsüyə dəvət etdi.

Yaraşıqlı saçlarına sanki güz qarı səpələnmiş ortaboylu, iddiaçı kürsüyə qalxdı... O, rus dilində çox sərbəst və təmkinlə öz məruzəsinə başladı. Mən onu həyatda yaxşı tanıyırdım, lakin elmdəki nailiyyətləri barədə başqalarından eşitmişdim. Bugünkü yığıncaqda isə hələlik məni valeh edən Zəngəzur mahalının Qafan bölgəsindəki Mahmudlu (Çaykənd) kəndində qanlı-qadalı və əzablı dövrdə dünyaya göz açan Cəbrayıl Azadəliyevin uca kürsüdən rus dilində çox sərbəst və dolğun

danışması oldu. Geologiya elminin spesifik terminləri ilə tanış olmadığıma görə, rəylərdən və çıxışlardan anladım ki, Cəbrayıl müəllimin geologiya elmində mühüm yenilikləri var. Hətta rəsmi opponentlərdən biri geologiya-mineralogiya elmləri doktoru, professor Çingiz Xəlifəzadə elan etdi ki, o, Bakıda daim müdafiə şuralarının üzvü olmuş, lakin son 20-25 ildə belə yüksək səviyyəli doktorluq dissertasiyasına rast gəlməyib...

Müdafiənin gedişini izlədikcə Cəbrayıl müəllimin mənə söylədiyi keşməkeşli həyat yolunu xəyalımda canlandırırdım...

O, 1937-ci ilin qara günlərini yaşamış bir ailədə doğulmuşdu. Atası Əbdüləli Azadəli oğlu repressiya qurbanı olmuş, sonradan bəraət qazanmışdı. Artıq "xalq düşməni damğası" vurulmuş ailəyə kənddə münasibət çox pis idi. Anası Sona Piriş qızı övladlarını böyütmək üçün hər cür əzab-əziyyətə, iftira və böhranlara mərdliklə dözdü. Dörd qardaş, bir bacı idilər. Böyükləri Kəmənd ögey olsa da, analığının xatirini əziz tuturdu, Sona ana da onu doğma balası sayırdı. Atasının həbsindən sonra ailəyə ümid verən yalnız Kəmənd idi. Çünki Əbdüləli kişi ikinci oğlu, 14 yaşlı Əhmədi 1937-ci ilin avqustunda İrəvana aparıb, Pedaqoji Texnikumda oxumağa qoymuşdu. 1937-ci il oktyabrın 20-də Əbdüləli kişi Qafandan evə qayıdarkən yoldaca həbs edilmiş və bir daha ailəsinin üzünü görməmişdi. Qanlı-qadalı günləri xatırlayarkən Sona ana Cəbrayıla danışdığı "quduz canavar" əhvalatı bu ailəyə az qala faciə və fəlakət gətirəcəydi: "Əhməd İrəvanda oxuyurdu, atan həbs edilmişdi, yeri məlum deyildi. Əmlakımızın bir hissəsini əlimizdən almışdılar. İsmayılın 8, Zibanın 5 yaşı var idi, sən isə qucağımda körpə idin... Seçki günü idi. Qarlı-şaxtalı gecəydi. Uşaqlar yatırdılar, mənim isə gözümə yuxu gəlmirdi. İtimiz həyətdə özünü didirdi. Eyvanda hansı heyvansa ora-bura qaçırdı, elə it də ona hürürmüş. Kəməndi oyatdım ki, bəlkə, tövlə açıq qalıb, at eyvana gəlib? Kəmənd cəld qalxıb çıxdı, otağa qayıtmaq istəyəndə bərkdən qışqırdı. Vəhşi heyvan onun üstünə atılmış, üz-gözünü gəmirmişdi. Mən çölə çıxanda Kəməndi qan içində gördüm, onun qulağı və üst dodağı parçalanmışdı. Şivən-qiyamətlə qonşuları köməyə çağırdım. Seçki məntəqəsindəkilər gəldilər. Kömək və yardım etmək



əvəzinə, məqam tapıb, yazdılar ki, guya ögey ana Kəməndi balta ilə çapırmış. Buna inananlar da oldu, inanmayanlar da. Kəməndi isə qan aparır, danışa bilmir, ancaq əli ilə onlara etirazını bildirirdi. Qaynım Cəmili çağırtdırdım ki, həm yaraları sarıyaq, həm də məni tutsalar, uşaqlara sahib dursun. Üz-gözümü cırmışdım. Uşaqlar da bir-birinə qarışmışdılar...

Səhər açıldı. Keypəşin və Pəyhan kəndlərindən xəbər gəldi ki, quduz canavar kəndlərdə bir neçə adamı şil-küt edib. Bu mənə bir az rahatlıq verdi. Yaralıları Qafana xəstəxanaya apardılar. Kəməndi də əmisi apardı. Xəstəxanada quduzlaşıb ölən də oldu. 40 gündən sonra Kəmənd sağalıb evə döndü. Bədbəxt uşaq o quduz canavarın yarasından sağaldı, lakin "quduz" Hitlerin savaş yarasından qurtula bilmədi, izi də qalmadı."

Əhməd təhsilini başa vurub 1939-cu ildə kəndə qayıtdı, məktəbdə müəllim, sonra direktor işlədi.

Savaş illərinin ağırlığı Sona anaya 3 uşağı oxutmaq imkanı vermədi. Odur ki, Cəbrayıl məktəbə gecikdi, lakin qardaşından sərbəst yazıb oxumağı öyrənmişdi.

Özü o illəri belə xatırlayır: "1946-cı ildə bir qrup gənc müəllim, qardaşım Əhməd, Həsən Şəkərəliyev, Əliş Qarayev, Ağabala Babayev və b. İrəvanda Azərbaycan dilində fəaliyyət göstərən Pedaqoji İnstitutda biraylıq kurs keçib, kəndə qayıtmışdılar. Həsən müəllim Əhmədlə dostluq edirdi, tez-tez bizə gəlirdi, kurs işlərini birgə yazırdılar, hər şeylə maraqlanan adam idi. Bir gün hiss etdi ki, onların yazıları ilə maraqlanıram. Tez qardaşımdan soruşdu: – Əhməd, Cəbrayıl məktəbə gedirmi?

– Xeyr, bu il gedəcək, ancaq, Həsən, Cəbrayıl sən deyən şagird olacaq, sərbəst yazıb oxuyur, vurma cədvəlini su kimi içir, əzbərdən şerlər söyləyir, hətta erməncə də...

Sanki Həsən müəllimə belə bir işarə lazım imiş. Əvvəlcə, məndən vurma cədvəlini soruşdu. Bir nəfəsə bütün cədvəli söylədim. Çox razı qaldı və bir mətn oxutdurdu. Mən bu mətni də sərbəst oxudum.

Sonra dedi: – Cəbrayıla bir cümlə yazdıracam, əgər düzgün yazsa, onu birbaşa ikinci sinfə götürəcəyəm. ( o, Gığıda dərs

hissə müdiri idi. Onun yazdırdığı cümlə indiki kimi yadımdadır: "Anam həyətdə paltar yuyur" o dövrdə istifadə etdiyimiz qoşasəsli ə, ö, e işlədilirdi).

– "Əhməd, ikinci sinfə, ikinci...", – böyük sevinclə, Həsən müəllim yerindən dik qalxdı və dedi ki, çox az şagird "yuyur" sözünü düzgün yaza bilir, hətta bəzi müəllimlər də səhv edirlər. Mənə daha üç məsələ verdi, həll etdim, çox razı qaldı:

– Cəbrayıl, bir şer deyə bilərsənmi?

Mən "Məktəbə çağırış" şerini dedim:

**Mənim bağım, baharım,**
**Fikri işıqlı oğlum!**
**Məktəb zamanı gəldi,**
**Dur, yaraşıqlı oğlum!**
**Ey gözüm, ey canım,**
**Get məktəbə, cavanım!...**

Sonra dedi:

– Əhməd, mən Cəbrayılın hafizəsinə vuruldum.

1946-cı il sentyabrın biri, yuxudan lap erkən durmuşdum, məktəbə hazırlaşıram. Mənə təzə kostyum alıblar, şalvarı uzun olduğuna görə ayağını içəriyə qatlayıblar. Onsuz da utancaq idim, şalvarımın belə olması mənə lap böyük dərd oldu. Şagirdlərə qoşulub, Gığıya – məktəbə getdim. Məni müəllimlər otağına apardılar. Hamı suallar verir, mənimlə maraqlanırdı, uşaqlar odanın qapısında cəmləşmişdilər. Özümü lap itirmişdim, ancaq bütün suallara cavab verdim.. Məni apardılar 2-ci sinfə... həmin il ikinci sinfi əla qiymətlərlə başa vurdum. Sonra birbaşa 4-cü sinfə keçirtdilər. 4-cü və 5-ci siniflərdə də əla oxuduğuma görə, 7-ci sinfə keçirtmək qərara alındı. Mən etiraz etdim, çünki o zamanlar cəbr, həndəsə və fizika 6-cı sinifdən başlanırdı. Onilliyi səkkiz il ərzində bitirdim. 10-cu sinifdə bəlli idi ki, məktəbdən qızıl medala namizədəm. Demə, ədəbiyyatdan yazı işimi İrəvana – Maarif Nazirliyinə göndərmək əvəzinə, məktəbdə saxlayıblar... Mən isə qızıl medala arxayın olduğum üçün bütün iyul ayı ev işlərinə kömək etdim. O illəri bizim dağlarda geoloqlar işləyirdilər. Onların işi



ilə maraqlanırdım. Bu, geologiyaya marağımı bir qədər də artırdı və indi də peşiman deyiləm, öz peşəmi ürəkdən sevirəm. Evdə Tibb İnstitutuna girməyi məsləhət bildilər, qəti etiraz etdim. Geologiya çox dəbdə idi. 8 imtahan verdim, 7-sindən "5" aldım, rus dilinin şifahisindən isə "4" verdilər...

Cəbrayıl müəllim Universiteti də fərqlənmə diplomu ilə bitirdi, 2-ci kursdan sonra şəkli Universitetin şərəf lövhəsindən düşmədi. Müəllimlərin dərin hörmətini qazanmışdı. Onlar isə adi adamlar deyildilər. Akademiklərdən Mirəli Qaşqay, Şamil Əzizbəyov, Əzəl Sultanov, Şəfahət Mehdiyev, Heydər Əfəndiyev, professorlardan Midhət Mustafabəyli, Səttar Süleymanov, Manaf Zairi, Əziz Ələsgərov, Həbib İsrafilov və b. dərin bilik və təcrübələrini ondan əsirgəməmişlər.



*Cəbrayıl Azadəliyev (sağdan üçüncü) Azərbaycan EA Geolociya İnstitutunun əməkdaşları arasında. 1987-ci il.*

Cəbrayıl müəllim geologiya sahəsində sayılan və seçilən nüfuzlu alimlərdəndir. O öz mənalı ömrünün 40 ilini elmə həsr etmiş, 1960-cı ildə Ümumittifaq Mineralogiya Cəmiyyətinə, 1972-ci ildə SSRİ EA-nın Filizəmələgəlmə Şurasına, 1982-ci ildə Metamorfizm və Metamorfogen Filizəmələgəlmə Komissiyasına, 1983-cü ildə isə Petroqrafiya Komitəsinə üzv seçilmişdir, Azərbaycan Mineralogiya Cəmiyyətinin vitse-prezidentidir. 150-dən çox elmi məqalə və monoqrafiyanın müəllifidir, keçmiş SSRİ-nin bir çox şəhərlərində, Çində,

İranda, Türkiyədə elmi əsərləri dərc edilmişdir. Onun əldə etdiyi 20-dən çox elmi nəticə SSRİ EA- nın və Azərbaycan EA-nın ən mühüm nailiyyətləri siyahısına daxil edilmişdir. Alim üçün bunlar çox böyük göstəricilərdir. Bir neçə elmlər namizədi hazırlamışdır. O həm də gözəl pedaqoqdur, 20 ildən artıq pedaqoji stajı var, fəal ictimaiyyətçidir, Azərbaycan EA azad həmkarlar şurasının təsisçilərindən və həmsədrlərindən biri olmuşdur. Cəbrayıl müəllimin gözəl ailəsi var, bir qız, iki oğul atasıdır.

Cəbrayıl müəllimin kabinetində bir neçə dəfə olmuşam, şirin söhbətlər etmişik. Bir zaman Gığıda geoloqların kabinetində gördüyü mineral nümunələri indi onun öz iş otağında düzülmüşdür, onların barəsində saatlarca danışa bilər. Bu daş parçalarının hərəsində bir cür işartı var. Bunlar böyük arzuların daşlarda közərən işıqlarıdır. M.Ə.Sabirin misrası olmasaydı, bu yazını "Daşlarda közərən işıq" adlandırardım...





1926-2002

## SABİR CƏLAL OĞLU ƏSƏDOV

Elmlər doktoru (1999), kafedra müdiri, professor, pedaqoq, ictimai xadim, jurnalist. Daha çox alim-pedaqoq və jurnalist kimi tanınıb.

## YAŞANMIŞ ÖMÜR KİTABI

Bilirdim ki, Sabir Əsədovla İsrafil Məmmədov uzun illərin dostudurlar. İrəvandan başlanan bu dostluq Bakıda öz yaşamını yaşayır. Vaxtaşırı görüşür, yaradıcılıq əməkdaşlığı edirlər. Birgə yazdıqları bir neçə kitab işıq üzü görmüşdür. Sabir Əsədovun həyat yolu barədə İsrafil müəllimdən gözəl və sanballı yazacaq ikinci qələm sahibi təsəvvürümə gətirə bilmirdim. Ona görə, tərəddüd göstərmədən öz dostu haqqında ürək sözlərini yazmağı ondan xahiş etdim.

O, xahişi böyük həvəslə yerinə yetirdi:

"– Mədhiyyə söyləmək, ideal obraz yaratmaq təmənnasında deyiləm. Sabir Əsədovla aramızda yarım əsrə yaxın bir dözüm möhləti olan, günü bugünədək qənirsiz, boyasız qalan qeyri-adi ülfət var. Qısametrajlı kino lenti, yaxud birpərdəli tamaşa deyil ki, onu bir oturuma seyr etmək mümkün olsun. Əslində, bu yaşanmış, amma yazılmamış qalın bir kitabdır. İlk vərəqini – ilk tanışlıq səhifəsini, lütfən, buyurub oxuya bilərsiniz;

İsti, çox isti yay günü idi. İnstitut müəllmi Əlibəyzadə Bakıya köçürdü. Qapının ağzında beş iri çanta qoyulmuşdu. İkisini özü götürdü, ikisini mavi gözlü, şux qamətli oğlan, biri

də mənim payıma düşdü. Yola düzəldik. Vağzal yaxındaydı. Qatarın tərpənməsinə az qalırdı, lap az. Tələsirdik. Payıma düşən çanta taqətimi üzür, nəfəsimi kəsirdi. Üzümdən axan tər gözümü açmağa aman vermirdi. Çarəsiz qalıb ağır çantanı yerə qoyur, üz-gözümü silir, yenidən yola düzəlirdim. Ancaq ayaqlarım dolaşır, əhvalım qarışır, yenidən dayanmalı, dincimi almalı, tərimi silməli olurdum. Xeyli dala qalmışdım. Mavi gözlü, şux qamətli cavan bunu hiss edib, geri boylandı. Bəxtim gətirmişdi. Nə kökə düşdüyümü tez anladı, yarı zarafat- yarı rişxəndlə: "hıqqınma, çantanı ver bura", – dedi: hər əlində bir çanta biri də qoltuğunda gülə-gülə düşdü qabağa, mən də arxasınca...

Qatar tərpəndi. Mavi gözlü oğlan yerdən əl eləyirdi, biz vaqonun pəncərəsindən. Uluxanlı stansiyasına çatanda Elməddin müəllimə uğurlu yol diləyib, vaqondan endim. Qatar gözdən itənəcən dalınca boylandım. Getdi, görünməz oldu qatar. Görünən, mənimlə qalan, qəlbimi didib-parçalayan bir sual oldu: "Hər gedən qatar bir köçümüzü aparsa, bu İrəvan, görəsən kimə qalacaq, kimin olacaq? Qatar daşıyıb aparır, təyyarə aparır, maşınlar aparır. Gedən çox, gələn yox..." Sonra o mavi gözlü, şux qamətli oğlan yadıma düşdü: "Kimdi, təzə gəlib, yoxsa o da gedəcək? Niyə mənə rişxəndlə baxırdı? Təkəbbürlü, yekəxana cavandı, yəqin? Yox, elə olsaydı, dadıma yetməz, o əzabdan xilas etməzdi məni!.."

Bir ay sonra "Sovet Ermənistanı" qəzeti redaksiyasında işləməyə gəldim. Redaksiya dördüncü mərtəbədəydi. O zaman adət belə idi: azərbaycanlılara mənzili ya birinci mərtəbədə verirdilər, ya da lap sonuncudan. Redaksiyaya da, əvvəl, birinci mərtəbəni rəva görmüşdülər. Sonra nə isə fikirləşib, sonuncu – dördüncüyə qaldırmışdılar. Enli pilləkənlərin başında iri, işıqlı bir otaq var idi. İri, hündür ikitağlı qapısının bir tağı açıq qalmışdı. İçəri keçmək istəyirdim, mavi gözlü, şux qamətli o oğlanla qapı ağzında üz-üzə dayandıq. Qatara tələsmir, kimisə yola salmır, eyni kollektivdə birelli, birpərdəli, birdərdli kimi işləyirdik. O, informsiya şöbəsinin müdiriydi, mən redaktorun köməkçisi. 1955-ci il avqustun 15-i isti bir yay günü beləcə tanış oldum Sabir Cəlal oğlu Əsədovla. Sonradan öyrəndim ki,



Qafan rayonundakı Şəhərcik kəndindəndir. 1926-cı ildə tanınmış maarifçi, el ağsaqqalı Cəlal Zeynalovun ailəsində dünyaya göz açıb.

Bizim dostluğumuz ermənilərin torpaq iddiası uğrunda məkrli mübarizələri illərinə düşdü.

1965-ci ilin aprelindən "Türksüz Ermənistan" yaratmaq, "İtirilmiş erməni torpaqlarını" Ermənistana qaytarmaq, Naxçıvanla Qarabağı Azərbaycandan qoparmaq yolunda haçandan bəri aparılmaqda olan gizli sövdələşmələr açıq-saçıqca məkrli müharibəyə döndü. Otuz səkkiz yaşındaydı Sabir Əsədov o zaman. Kərəminə min şükür, yaradanın! Min şükür, ona görə ki, indi o öz çiynində zamanın sərt sınaqlarından mərdliklə, əsla büdrəmədən keçib gətirdiyi yetmiş illik ömür payının dərin məna, bənzərsiz ruh, ağır idrak yükünü səbr, inam, ümid, qeyrət və dözüm dolu bir yaşamla addım-addım, pillə-pillə yüz illik zirvəyə çatdırmaq əzmindədir.

Min şükür, bir də ona görə ki, soykökünə bağlı olub, atası – Zəngəzur mahalının Qafan bölgəsində ilk əməkdar müəllim Cəlal kişinin əhdinə sadiq qalıb. Tanrı tapşırığını, insanlıq borcunu vicdanla yerinə yetirmək yolunu tutub, sənətlər səltənətinin şah tacı, peşələr üzüyünün firuzə qaşı sayılan müəllimliyi özü üçün əvəzsiz peşə seçib Sabir! Sevib-seçdiyi bu şəhanə peşəyə həmişə sadiq qalıb. Orta məktəbi doğma Şəhərcik kəndində bitirdikdən sonra, Xələc və Quşçulu kəndlərində məktəb müdiri olub, qəlbən sevdiyi şagirdlərə dərs deyib. Şəksiz, bəşər zəkası və təfəkkürünün saf bəhrəsi olan elm, bilik xəzinəsinin sirrini öyrədə bilmək üçün gərək, əvvəlcə, özün öyrənəsən. O, 1951-ci ildə ADU-nun tarix fakültəsinin fəlsəfə şöbəsini bitirərək doğma yurda dönüb və Qacaran orta məktəbində yeni şövqlə dərs deməyə başlayır. 1954-1967-ci illərdə "Sovet Ermənistanı" qəzeti redaksiyasında, əvvəlcə, şöbə müdiri, sonra məsul katib vəzifələrində işləyəndə də, sevdiyi peşədən ayrılmır, İrəvan Pedaqoji İnstitutunda fəlsəfədən dərs deyir, dünyanı olduğu kimi görməyi soydaşlarının uşaqlarına həvəslə təlqin edirdi. Arada bir müddət İrəvan Kənd Təsərrüfatı Texnikumunun direktoru da oldu. Sonra Bakıya köçdü. 1967-1974-cü illərdə

Azərbaycan Ensiklopediyasında "Fəlsəfə və tarix redaksiyası"nın müdiri olanda da müəllimlikdən əlini üzmədi. Nəhayət, 1977-ci ildən indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasında işləməyə gəldi, fəlsəfə kafedrasında böyük müəllim, sonra da həmin kafedranın müdiri vəzifəsinə yüksəldi.

Ömrün mənası illərin sayında deyil, necə yaşanmasındadır. Fəlsəfə elmləri namizədi, tarix elmləri doktoru, jurnalist, publisist, səriştəli tədqiqatçı, Azərbaycan Respublikası İnsan hüquqlarını müdafiə komitəsi sədrinin müavini, iki oğul, iki qız atası, səkkiz nəvə babası, böyük sülalənin ağsaqqalı Sabir Cəlal oğlu Əsədov əmək fəaliyyətinə başladığı 1943-cü ildən bugünədək bilik çırağını əlindən yerə qoymayıb. Ömrünün hər anını gerçəkliyin düzgün dərk edilməsinə, həyatın çılpaq üzünü olduğu kimi göstərilməsinə, tükənməz elm xəzinəsindən yeni nəslin mümkün qədər daha çox incilər mənimsəməsinə həsr eləyib. Bu dönməzliyi o, müəllimlik fəaliyyətində də, əhatə dairəsi geniş olan tədqiqatlarında da əqidə qayəsi kimi qoruyub saxlayıb. "Kim kimdir", "Didərginlər", "Ermənistan azərbaycanlıları və onların acı taleyi", "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası", "Cəlal müəllim", "Zəngəzur qartalı", "Siyasi lətifələr", "Heydər Hüseynov", "Böyük Ermənistan haqqında əfsanə" adlı kitablardan və bir çox qəzet və jurnal məqalələrindən gələn səs Günəşin, Ayın, xəyali ulduzların patetik, ritorik təsviri deyil, erməni təhlükəsi – erməni təcavüzünün ağrısı-acısı getməyən yaralarına, xalqımızın üzləşdiyi ardı-arası gəsilməyən fəlakət və faciələrə qarşı təəssübkeş alim qəlbinin naləsi və fəryadıdır. Tədqiqat mövzusu demoqrafiya, etnoqrafiya baxımından da son dərəcə dəyərli və əvəzsizdir. Alimin son vaxtlar elmi dövriyyəyə daxil olunmuş tədqiqatlarında Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində qərib düşmüş qürbətdə qalan bütün mahal, qəza, şəhər və kəndlərimizin etnik xəritəsi, yaşanış tarixi, acı taleyi konkret dəlillər əsasında, həm də ürək ağrısı ilə təsvir edilmişdir.

"Türksüz Ermənistan", "Dənizdən - dənizə böyük Ermənistan dövləti" yaratmaq siyasətinin ideya əsasları və acı



nəticələri, yaşanmış tarixin tünd boyalarla saxtalaşdırılması, soydaşlarımıza qarşı törədilən mənəvi və fiziki soyqırımı, Azərbaycan türklərinin Ermənistan həyatı haqqında zəngin biliklər verən tədqiqatlar Sabir müəllimin ölçüyəgəlməz zəhmətinin bəhrəsidir; təqdirə, alqışa, yüksək qiymətə, dərin hörmətə layiq əzmkarlığı və vətənpərvərliyinin nəticəsi, qan yaddaşımıza yaşarlıq gətirən bənzərsiz xidmətidir. Bu misilsiz-bənzərsiz xidmət, ölçüyəgəlməz zəhmət, yetkin intelekt, tükənməz nikbinlik, fəal həyat tərzi sayəsində də ictimaiyyətin, oxucuların və dostlarının hörmət və sevgisini qazana bilmişdir.



*Sabir Əsədov (ikinci sıra, sağdan 4-cü) "Sovet Ermənistanı" qəzetinin redaksiya heyəti üzvləri arasında. 1958, noyabr.*

Mədhnamə yazmağın, əlavə keyfiyyətlər axtarıb, ideal qəhrəman obrazı yaratmağın nə mənası?! Tanrı tapşırığının, insanlıq borcunun yerinə yetirilməsi naminə yaşanan ömür payının məna yükü, ruh yükü böyük və bənzərsiz olur həmişə. Hər cür elementlər və mədhiyyələrdən imtina etmək, heç bir əvəzə, mükafata, əlavə keyfiyyətlər axtarıb tapmaq hesabına ideal qəhrəman olmaq "əziyyətinə" məhəl qoymamaq, gərgin əmək, aramsız axtarışlar, sağlam düşüncə, el-obasına ürəkdən bağlılıq, insanlıq borcuna sadiqlik, milli ləyaqətə vəfalılıq, xalqının tarixinə vurğunluq, soydaşlara və oxuculara, tələbələrə və

qaçqınlara doğmalıq, kürsü savaşı məddahlar yarışına qoşulmamaq qoy təcrübəli müəllim və zəhmətkeş alim, gözəl insan, mehriban dost Sabir Əsədovun ömür payındakı məna yükünə, ruh yükünə, öz ürəyincə, bütün doğmalarının diləyincə, bir də bizim hamımızın istəyincə, yeni sanbal, dəyər, məzmun və təravət gətirsin!“

Elə buradaca yadıma düşdü ki, Sabir müəllimin doğma torpağa bağlılığından, qafanlılara göstərdiyi qayğıdan da söhbət açmaq lazımdır. Onun təşəbbüsü ilə "Qırqalası – Qafan Xeyriyyə Cəmiyyəti" təşkil olunub, o həmin cəmiyyətin sədridir. Onun təklifi ilə qafanlıların “Telefon sorğu kitabçası" tərtib olunub, nəşr edilmişdir. Bircə o qalır ki, bu xeyirxah təşəbbüsün ardıcılları daha çox fəallıq göstərsinlər, "Cəmiyyəti" yaşatsınlar. Bu, Sabir müəllimin ən böyük arzusudur!...

**SÖZ ARDI.** Sabir Əsədovun bir arzusu da bu kitabın nəşrini görmək idi. Heyif ki, 2002-ci il iyun ayının 20-də dünyasını dəyişdiyindən onu görə bilmədi.





**1938**

## ƏLƏKBƏR NEMƏT OĞLU QURBANOV

Elmlər doktoru (2000) fakültə dekanı, pedaqoq. Daha çox maarif xadimi, ictimaiyyətçi və alim-pedaqoq kimi tanınıb.

## GƏVƏN YAĞI

Gün işığı üzünə düşəndə oyanıb, dörd yana boylandı. Dağ dalından təzəcə çıxan Günəş düz ona baxırdı. Əvvəl, harada olduğunu kəsdirə bilmədi. Qalxıb oturdu. Nədənsə, burnu gicişirdi. Əlini burnuna apardı. Barmaqları qana bulaşdı. Gecə yatdığı sal daşın üstündə qan laxtalanmışdı. Görünür, ayaz onu əməlli-başlı qurutmuşdu. Torbaya yığdığı gəvən yağını görəndə hər şeyi anladı. İki gün idi ki, gəvən kollarından damla-damla yağ toplamış, lap əldən düşmüşdü. Kurud kəndindən Dərgəməlik deyilən xarabalığa gəlmişdi. Haçansa burada insan yaşamışdı, qədim oba-ulus yeriydi. Yamaclar başdan-başa gəvən kolları ilə dolu idi. Ancaq nə qədər əlləşsə də, kolların gövdələrindən yağ sızmırdı. Yay günü olmasına baxmayaraq, gecənin ayazı onları tamam dondurmuşdu. Eşitmişdi ki, Ordubad bölgəsinin Qorqor kəndi ərazisində bolluca gəvən kolları var. Dərgəməlikdən düz ora səmt götürdü. Bu yollar ona tanışdı. Anası ilə Naxçıvana çox gedib gəlmişdi. Dağdan aşıb, Qorqora çatdı. Doğrudan da, döşlərdə tikanlı gəvən əlindən yerimək mümkün deyildi. Kolların gövdələri çat-çat idi. Gəvənlərin yağı axıb, üstündəcə bərkimişdi. Onları yığmaq asan idi, ancaq gövdələri yenidən deşmək, nisbətən, çətindi.

Bütün günü kolların arasında dolaşdı. Xeyli gəvən yağı toplamışdı. Axşam qaranlıq çökmüşdü, həm də lap əldən düşmüşdü. Heç yana gedə bilməzdi. Sal daşın üstündə uzanıb, dincini almaq istəmişdi. Özü də hiss etmədən yuxuya getmiş, bütün gecəni yatmışdı.

Ayağa qalxdı. Yaxında bulaq vardı; burnunun qanını yudu, üzünə su vurub, yuxusunu dağıtdı...

Elə bil, indi hiss etdi ki, atasızdı, bu yaşa qədər yetim böyüyüb. Bəs necə, atası sağ olsaydı, o, yol pulu qazanmaq üçün beləcə dağa-daşa düşərdimi?!

Bir anlıq atasının cəbhəyə getdiyi günü xatırladı; 1941-ci ilin sentyabr ayının 20-si idi. Üç ay əvvəl, qanlı savaş başlamışdı. Atası Nemət Pirməmmədoğlu da əsgər gedirdi. Ömrünü dağdaşda çobanlıqla keçirmiş, hərbi təlim görməmiş bir adamın cəbhədə taleyi necə olacaqdı?! Bunu heç kəs deyə bilməzdi?! Kurud çayının qırağı ilə gedən yolda dayanmışdılar. Anası Həvva Hüseynqızı ağlayırdı. Balaca bacısı ilə anasının ətəyindən tutmuşdular. Atasının son sözləri heç yadından çıxmırdı;

– Həvva, mal-qaranı aparıb, Naxçıvanda əmim Bəyməmmədə vermişəm. O sizə kömək edəcək. Uşaqlardan göz-qulaq ol!..

O, atasının ayaqlarını, sanki indi görürdü. Ayaqları getmirdi, onu güclə sürüyüb aparırdı. Bəlkə də, bu səbəbdəndi ki, qanlı vuruşların birində onu özündən, əvvəl, ayaqları Mozdokda mərminin qurbanı oldu. Bu dəhşətli hadisəni müharibədən sağ qayıtmış Məmli kişi danışırdı. Gözlərini atasının ayaqlarından çəkdi. Baxışları çayın axarında axıb getdi...

N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Kimya-biologiya" fakültəsinin dekanı, Ələkbər Nemət oğlu Qurbanovun həyatında belə anlar az olmamışdı. 1938-ci ilin avqust ayının 20-də Qafan bölgəsindəki Kurud kəndinin Çimənyurd yaylağında dünyaya göz açmışdı. Atası cəbhəyə gedəndə onun üç yaşı vardı. Anası Həvva Hüseynqızı bölgənin Keypəşin kəndindən idi, balaca bacısı ilə onu böyütmək üçün həyatın minbir ağrısına dözməli oldu. Atasının əmisinə tapşırdığı mal-qara da əlli-ayaqlı getdi...

Əlacsız qalan ana 1946-cı ildə uşaqlarını da götürüb,



Qubadlının, əvvəl, Hal kəndinə köçdü. Lakin həmin kənddə qala bilmədilər. Burada çəltik əkildiyindən ağcaqanad çox olurdu. Yerli sakinlər qızdırmadan əzab çəkirdilər. Yaxşı ki, atasının kəhər atı qalırdı. Anası bu atla köçlərini kənddən-kəndə aparırdı. Bir il sonra Naxçıvanın Əbrəqonus kəndinə köçməli oldular. Ələkbər həmin kənddə məktəbə getdi və 1957-ci ildə 10-cu sinfi bitirdi...



*Üç pedaqoq, alim (soldan): Ələkbər Qurbanov, Bəşir Fərəcov, Bəhlul Ağayev. 1997-ci il.*

Yenidən doğma Kürud kəndinə qayıtdılar. Ələkbər təhsilini davam etdirməyə can atırdı. Yoxsulluğun üzü qara olsun! Buna imkan verirdimi?! Kəhər atı da daşqıya vermişdilər. Özü belə deyir: – İki il anamla birgə qoyun otardım. Elə bil, Çimənyurd yaylağı mənim taleyimə yazılmışdı. 1958-ci ildə kimya sənayesini sürətlə inkişaf etdirmək haqqında mərkəzdən verilən tələb bu elmə həvəsimi daha da artırdı. Qorqor kəndindən yığdığım iki kiloqram gəvən yağı mənim təhsilimi davam etdirməyimdə böyük rol oynadı. O illərdə gəvən yağına mühüm əhəmiyyət verilirdi. Deyilənə görə, Şimala uçan təyyarələrin benzininə qatırdılar ki, donmaqdan qorusun. Gəvən yağını satıb, yol pulunu qazandım və Bakıya gəldim...

Ələkbər Qurbanov 1959-cu ildən hazırda çalışdığı universitetin kimya-biologiya fakültəsinə qəbul olundu. Beş il

gecəli-gündüzlü tələbəlik çağlarının əzab- əziyyətini çəkdi. 1964-cü ildə ixtisaslı kimya müəllimi kimi Qafana qayıtdı. Tanınmış maarif işçisi İsa İbrahimovun direktor işlədiyi 4 saylı şəhər məktəbində kimya dərslərini aparmaq ona həvalə olundu. İki il orta məktəbdə dərs dedi. 1966-cı ildə yenidən Bakıya qayıtdı və analitik kimya üzrə aspiranturaya qəbul edildi. Kimya fənnini nə qədər yaxşı bilsə də, bu sahənin nəzəri əsaslarını daha dərindən mənimsəməyə və yeni tədqiqat aparmağa böyük ehtiyacı vardı. 1969-cu ildə ona assistent işləməyə icazə verdilər. Bu, Ələkbər Qurbanova nəzəri biliklərini pedaqoji fəaliyyəti ilə əlaqələndirməyə geniş imkanlar açdı. Radiaktiv maddələr üzrə apardığı tədqiqatı 1971-ci ildə başa çatdırdı. Həmin ilin fevral ayında dissertasiya müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi aldı. Bir neçə il adi müəllim kimi mühazirələr oxudu. 1975-ci ildə Ələkbər Qurbanov "Analitik və fiziki-kimya" kafedrasında dosent vəzifəsini tutdu. O, ictimai işləri də böyük səylə aparırdı. 1959-cu ildən taleyini bağladığı Pedaqoji Universitetdə ayrıca nüfuz qazanmışdı. Sonradan tutduğu vəzifələr də bunu aydın göstərir. 1981-1988-ci illərdə dekan müavini vəzifəsində çalışdı. 1994-cü ildə ödənişli fakültə açılanda onun ilk dekanı Ələkbər Qurbanovu seçdilər. 1997-ci ildən isə indiki vəzifəsində – "Kimya-biologiya" fakültəsinin dekanı kimi fəaliyyət göstərir. 8 dərsliyin və bir sıra metodiki vəsaitlərin, 50-dən çox elmi məqalənin müəllifidir. Uzun illər üstündə işlədiyi doktorluq dissertasiyasını 2000-ci il noyabr ayının 7-də müdafiə etmişdir. Bir çox fəxri fərman və medallarla təltif olunmuşdur.

Ələkbər Qurbanov gözəl ailə başçısıdır; 3 qızı, bir oğlu var. Qızlarından biri kimya üzrə ixtisas sahibidir.

İllər arxada qalır, Ələkbər müəllim isə Zəngəzur torpağını heç zaman unuda bilmir; orada uşaqlığını qoyub gəlibdir...





**1966**

## MANSUR OYANDUR OĞLU BÜNYATOV

Elmlər doktoru (2002), məhkəmə-tibbi eksperti, hüquqşünas. Daha çox məhkəmə-tibbi ekspertizası üzrə ixtisaslı mütəxəssis və rəhbər işçi kimi tanınıb.

### İSTƏK

Onu fikir götürmüşdü; Bakı şəhəri, Yasamal rayonundakı 52 saylı məktəbi bitirmiş, hansı ali məktəbə qəbul olunacağı barədə axşamdan bəri götür-qoy edirdi. Riyaziyyatı pis bilmirdi, fizikadan xoşu gəlirdi. Orta məktəbdən aldığı təhsildən əlavə, atası Oyandur müəllimdən ingilis dilini də dəyərincə öyrənmişdi. Ancaq yenə qəti qərara gəlmək onun üçün çətin idi. Atasının dediklərini bir də xatırladı:

- Oğul, baban Məmmədqulu Qafan bölgəsində tanınmış sınıqçı idi. Neçə-neçə adamı şikəst olmaqdan qurtarmışdı. İslam adında bir oğlanı ayı qayadan atmış, hər iki qolu, bir qıçı sınmış, belinə sivri daş batmışdı. Baban onu bal, ərinmiş yağ, bir də qara keçə ilə sağaltdı. Ədalət adında bir oğlan uca söyüd ağacından yıxılmış, çənə, üz sümükləri tamam əzilmişdi. Atam onun da normal sağalmağına kömək göstərdi. Əmimoğlunu ki tanıyırsan, professor Nurəli Bünyatovu deyirəm, məşhur cərrahdır, sümük vərəmini müalicə etməkdə ad çıxarıb. Mən də istəyirəm, sən həkimlik oxuyasan, adamların sağlamlığını qoruyanlardan olasan!..

- Anası Roza xanım onun sözünə qüvvət verdi:

- Gözümün işığı, atan düz deyir, mənim də istəyim səni həkim görməkdir...

- Mansur ata-anasına heç bir söz deməmiş, sakitcə qalxıb, o biri otağa keçmişdi. Axı fizika müəlliminin də sözlərini unutmurdu: « - Mansur, ali təhsil alsan, yaxşı fizik ola bilərsən!».

Çox götür-qoy etməyə dəyməzdi, ata-ana istəyincə həkim olmalı idi! Bax, beləcə, bir gecədəki söhbətdən sonra, sənədlərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki Azərbaycan Dövlət Tibb Universiteti) verdi. İmtahanlardan uğurla çıxıb, «Müalicə-profilaktika» fakültəsinə qəbul olundu. Yaxşı bilirdi ki, instituta qəbul edilmək hələ həkim olmaq istəyinin ilkin mərhələsidir. Bunun üçün səylə çalışmaq, gecə-gündüz oxumaq, müəllimlərin dəyərli tapşırıqlarına diqqətlə qulaq asmaq, təcrübə dərslərini səmərəli keçirmək lazımdır. Altı il gəlib keçdi; çətin sınaqlar, yuxusuz gecələr arxada qaldı. 1989-cu ildə institutu fərqlənmə diplomu ilə bitirdi, müalicə həkimi ixtisası qazandı. Onu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin «Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya» elmi-təcrübi tədris birliyinə işə göndərdilər. Bu ona bir az qəribə gəldi; axı ixtisasca müalicə həkimi idi, xəstəxanalarda çalışmalıydı. Həmin elmi müəssisədə isə iş tamam başqa yönümdə qurulmuşdu. Atası Oyandur müəllim də bunu tərəddüdlə qarşıladı:

- Oğul, bu iş sənin üçün çox çətindir, orada çalışmaqdan ötrü gərək hüquqşünas ixtisasın da olsun!

Lakin Mansur Bünyatov çətinlikdən qorxmadı, 1989-1990-cı illərdə həmin birlikdə həkimlik təcrübəsi (internatura) keçdi. 1990-cı ilin avqust ayından onu həkim-patoloq vəzifəsinə təyin etdilər. İki ilə yaxın çalışdı, təcrübə topladı. Elmi dərəcə almadan irəli getmək olmazdı. Odur ki, 1992-ci ilin noyabr ayında N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun «Məhkəmə təbabəti» kafedrasının aspiranturasına girdi. Beş il professor Rafiq Yusiflinin rəhbərliyi altında «Türklərin differensial termik və termoqravimetrik müayinələri, onların məhkəmə tibbi əhəmiyyəti» mövzusu üzərində işlədi.

Maraqlı təcrübələr apardı, məhkəmə əməliyyatlarının uğurla nəticələnməsi işində böyük fəallıq göstərdi. Bütün bunlar namizədlik dissertasiyasının da vaxtında yazılıb, başa



çatdırılmasına ciddi təsir göstərdi. Onun gəldiyi elmi nəticələr və ümumiləşdirmələr bu sahənin mütəxəssislərini tamamilə qane edirdi. O, 1997-ci ilin aprel ayında dissertasiya müdafiə edib, «Məhkəmə təbabəti» ixtisası üzrə tibb elmləri namizədi alimlik dərəcəsi aldı.



*Mansur Bünyatov (II cərgə, sağdan birinci) Azərbaycan Tibb Universiteti "Məhkəmə-təbabəti" kafedrasının əməkdaşları arasında. 1991-ci il.*

Hələ aspirant olduğu illərdə, daha doğrusu, 1995-ci ildən «Məhkəmə təbabəti» kafedrasında assistentlik vəzifəsinə də təyin olunmuşdu.

Bir məsələ də onu həmişə düşündürürdü; iş sahəsi üzrə mütləq ikinci ixtisas qazanmalı idi. Odur ki, 1994-cü ildə M.Rəsulzadə adına Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olundu. Qəbul kağızını atasına göstərəndə onun uşaq kimi necə sevindiyini indi də səmimiyyətlə xatırlayır.

Mansur Bünyatov üç il müddətinə həm işləyir, həm dərs deyir, həm də hüquq fakültəsində təhsilini davam etdirirdi. Nəhayət gözlənilən məqam çatdı, vaxt özünü yetirdi. O, daha bir istəyinə 1998-ci ildə qovuşdu; hüquqşünas ixtisası qazanmaq barədə diplom aldı. Həmin il onun yaşam yolu

üstündə yeni bir işıq yandı; Azərbaycan Respublikası Səhiyyə Nazirliyi kollegiyasının qərarı ilə sentyabr ayının 26-sından «Məhkəmə-tibbi Ekspertiza və Patoloji Anatomiya» elmi-təcrübi-tədris birliyinə ekspertiza işləri üzrə direktor müavini vəzifəsinə təyin olundu. İndi bu vəzifəni təmkin və bacarıqla yerinə yetirir.

1998-ci il Mansur Bünyatovun yaşam yoluna uğurlu bir zaman kəsiyi kimi daxil olur. Belə ki, həmin il Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra, İ.Seşenov adına Moskva Tibb Akademiyasının məhkəmə təbabəti kafedrasında qiyabi doktoranturaya qəbul edildi. Rusiyanın baş məhkəmə tibb eksperti, əməkdar elm xadimi, professor V.V.Tomilini və tibb elmləri doktoru, professor S.A.Korsakovu ona elmi məsləhətçilər təyin etdilər. Üç il onların dəyərli məsləhətləri ilə ciddi tədqiqat apardı. Axtarışlar və araşdırmalar öz səmərəsini verdi; 2002-ci ildə «Hündürlükdən yıxılma zamanı insan bədənində əmələ gələn xəsarətlərin biomexanikası» mövzusunda başa çatdırdığı dissertasiyasını müdafiə edib, tibb elmləri doktoru alimlik dərəcəsi aldı.

Mansur Bünyatov yalnız alimlik dərəcələrinin yüksəlməsinə can atmırdı. O, eyni zamanda, öz ixtisasının təkmilləşməsi qayğısına qalırdı. 1994-cü ildə onu üç ay müddətinə Böyük Britaniyaya ezam etdilər. İngilis dilini yaxşı bildiyinə görə, Şotlandiyanın Dandi şəhərində ixtisas kurslarını uğurla keçdi.

Elə həmin ildən sonra, ayrı-ayrı xarici ölkələrdə keçirilən müxtəlif konfrans və konqreslərdə iştirak etməyə başladı. Belə ki, Şimali İrlandiyanın Belfast (1994), Birləşmiş Ərəb Əmirliyinin Əbu Dəhəbi (1995), İtaliyanın Genuya (1996), Finlandiyanın Helsinki (2000) şəhərlərində keçirilən Beynəlxalq yığıncaqların iştirakçısı oldu və bəzi konqreslərdə böyük maraqla qarşılanan çıxışlar etdi.

Mən onunla görüşdüyüm zaman bir həkim-patoloq kimi, cinayət hadisələrinin açılmasının məhkəmə ekspertizasından maraqlı fakt söyləməsini xahiş etdim. O dedi:

- 1996-cı il idi. Bir yaşlı qadını qətlə yetirib, meyidini yandırmışdılar. Hadisə yerində bir dəstə tük və bir parça sümük yanığı qalmışdı. Həmin tükləri müayinə etməyi mənə



tapşırdılar. Müayinədən sonra, həqiqətən, tüklərin yaşlı qadına məxsus olduğu aydınlaşdı və cinayət açıldı.

Mansur Bünyatov 1966-cı ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. Bu şəhərdə boya-başa çatıb, təhsil alıb, yüksək vəzifəyə yüksəlib. Lakin baba yurdu – Zəngəzurda da olub. İkinci sualım bu barədə idi:

- O dağları unutmaqmı olar?! Çəməndağından tutmuş, Gəzbelə qədər bütün dağları atamla gəzmişəm, yer adlarının çoxu yadımdadır – deyə cavab verdi.

- Onun gözlərində o yerlərə bir də dönmək istəyinin ifadəsini oxudum…



## RAFAEL ƏBÜLFƏZ OĞLU TAĞIYEV

Elmləri doktoru (2003), tədqiqat institutu direktoru, radio mühəndisi, pedaqoq. Daha çox kosmik tədqiqatları sahəsində bacarıqlı mütəxəssis və rəhbər işçi, ali təhsil müəssisələrində pedaqoq kimi tanınıb.

## GÖYDƏN YERƏ BAXANDA...

Bakı aeroportundan səmaya qalxan təyyarə şığıyıb buludların üstünə çıxdı və şimala doğru səmt götürdü. Qarşıda sonsuz və gözlənilməz bir boşluq açılırdı. Bu sonsuzluqdan keçən yol həyatın keşməkeşli yollarına oxşamırdı. Burada təyyarəni uçuşdan saxlayacaq kiçik bir qaraltı belə yox idi...

Neçə gündən bəri həyəcanlı anlar keçirən Rafael sakitcə oturub, təyyarənin girdə pəncərəsindən bu sonsuzluğa baxırdı. Özlüyündə bu hamar yolu həyatın, yaşamın əyrim-üyrüm cığırları ilə müqayisə edirdi. Bunlar bir-birinə bənzəmirdi. Yaşam cığırları çətin idi, qarşıya addımbaşı maneələr çıxırdı, onları bir-bir dəf etmək üçün bəzən insanın daxili qüvvəsi, varlığını irəliyə aparacaq enerjisi kifayət deyildi. Ona mütləq mühitin özündən təkan verəcək əlavə qüvvə gərəkdi...

40 yaşını yenicə adlayırdı. 1943-cü il noyabr ayının 12-də Bakı şəhərində anadan olmuşdu. Körpəliyi 1941-1945-ci illər savaşının ağır illərinə düşmüşdü. Atası Əbülfəz Tağıyev orqan işçisi idi. Vaxtının çox hissəsi qulluqda keçirdi. Anası Mariya xanım Tağıyeva ilk övladının sağlam böyüyüb, boya-başa çatması üçün hər bir şeyə hazır idi. Rafael 8 yaşında olanda, 1951-ci ildə onu 160 saylı məktəbə apardı, səmərəli təhsil almasından ötrü heç bir köməyini əsirgəmədi. 1960-cı ildə 8-ci sinfi bitirən Rafael texniki peşə məktəbinə girdi və orada iki il ərzində elektrik peşəsinə



yiyələndi. Eyni zamanda, 1 saylı fəhlə-gənclər məktəbində orta təhsilini başa çatdırdı. Həmin illərdə ali məktəbə qəbul olunmaq üçün azı iki il iş stajı tələb olunurdu. Atası onu 2706 saylı avtokalonda avtoelektrik vəzifəsinə işə düzəltdi. Gündüz işləyib, axşam şöbəsində oxumaq və üstəlik musiqi dərsinə getmək o qədər də asan deyildi. Bəzən bunların hamısını çatdıra bilməyəndə və ağır işdən yorğun-arğın geri dönəndə atasına acığı tuturdu, onu belə yorucu işə düzəltdiyinə görə bərk darıxırdı.

Sonralar 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunun elektro-texnika fakültəsinə daxil oldu. İndi bu institut Texniki Universitet adlanır. 1968-ci ildə həmin fakültəni bitirib, radio-mühəndisi ixtisası qazandı. Burada o, Kəngərlinski, Qədimov, Cəfərli, Bəxtiyarov, Şapiro, Cəfərov, Rəfibəyli, İsmayılov kimi professorlardan dərs aldı, texnika sahəsində biliyini daha da möhkəmləndirdi. Axşam şöbəsində təhsil aldığından gündüzlər Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müxtəlif vəzifələrdə çalışdı; 1964-1969-cu illərdə «İstehsalatın əsasları» kafedrasında laborant, 1969-1972-ci illərdə müəllim, 1972-75-ci illərdə baş müəllim kimi fəaliyyət göstərdi...

Rafael Tağıyev 1975-ci ildən öz fəaliyyətini Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutuna bağlamışdır. Ən önəmlisi bu idi ki, burada elmi-tədqiqat işləri ilə məşğul olmağa daha geniş imkanlar açılmış, sevimli müəllimi, hələ institut illərindən radio-texnika elminin sirlərini ona öyrədən Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı, texnika elmləri doktoru Tofiq İsmayılovun rəhbərliyi ilə namizədlik dissertasiyası mövzusunu yazıb başa çatdırdı. Rafael Tağıyev neçə il idi ki, «Peykaltı avtomatlaşdırılmış informasiya-ölçü sistemi» mövzusunda tədqiqat aparırdı.

Rafael Tağıyev xatirlayır:

-«Müdafiə şurasının iclası başladı. Çıxış üçün mənə söz verdilər. Şura üzvləri oturmuşdular. Onlara ötəri nəzər saldım; aralarında Ziman Lvoviç yox idi. Elmi rəhbərim Tofiq İsmayılov demişdi ki, həmin adam müdafiədə iştirak etsə, işləri korlaya bilər. Elə çıxışa başlamaq istəyirdim ki, qapı açıldı, o, əlində portfeli içəri girdi. Bir anlıq özümü itirdim. Elə bil, dilim tutulmuşdu, danışa bilmirdim. Qeydlərimi də hara qoyduğum yadımdan çıxmışdı. Qabaqda qoyulmuş stula doğru yeridim. Birdən stulun üstdəki qeydlərim gözümə sataşdı. Cəld götürüb ötəri nəzərdən

keçirdim və partapartla danışmağa başladım. Gözüm Tofiq müəllimdə idi; o, başını ehmalca tərpətməklə mənə cəsarət verirdi…

Elmi rəhbərim Tofiq İsmayılov, rəsmi opponentlərim, Lenin mükafatı laureatı, texnika elmləri doktoru Selivanov və texnika elmləri namizədi Eqorov da çıxış edib dissertasiyanın elmi məziyyətlərindən danışdılar. Tofiq müəllimin dediyi kimi, hər şey yaxşı qurtardı, yalnız səsvermədə bir nəfər əleyhimə səs vermişdi, o da həmin yəhudi idi. Bu səbəbdən dissertasiyanı əlavə rəyə göndərdilər, təsdiq olunması 6 ay uzandı…»



*Rəfail Tağıyev (sağdan birinci), Sosialist Əməyi Qəhrəmanı Kərim Kərimov, Tofiq İsmayılov və başqaları ilə.*

Bundan sonra Rafael Tağıyevi Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunun direktor müavini vəzifəsinə irəli çəkdilər. O, 1988-ci ilə kimi, bu vəzifə kürsüsünü tutdu. Hazırda isə həmin institutun direktorudur.

Alim bu illər ərzində elmi tədqiqatlarını davam etdirdi və «Peykaltı eksperimentlərin planlaşdırılması, təşkili, idarə olunması və aparılmasının elmi-metodik əsasları» mövzusunda doktorluq dissertasiyasını yazıb başa çatdırdı.

Əvvəlcə, 2000-ci ildə monoqrafiya şəklində nəşr olunan bu



tədqiqat əsərini 2003-cü il 27 iyununda müdafiə edib, texnika elmləri doktoru alimlik dərəcəsi aldı. Müdafiələr necə də bir-birinə bənzəyirdi. Fərqi onda idi ki, buradakı şura üzvlərinin hamısını tanıyırdı. Bəs niyə doluxsundu, bəs niyə bir anlıq nə deyəcəyini kəsdirə bilmədi?! Bunun köklü səbəbi vardı: oturanlar içərisində iki nəfər gözünə dəymirdi. Biri onun alim kimi yetişməsində əvəzsiz qayğılar göstərmiş professor Tofiq İsmaylıov, o biri isə həyat yolundakı çətinlikləri dəf etməyin ilkin yollarını göstərən, atası Əbülfəz Tağıyev.

Birindən tədqiqat işinə dərindən-dərinə yanaşan, səbrli, təmkinli alimlik səriştəsi, o birindən isə mətinlik, dözümlülük nümunəsi nişanə qalmışdı. Hər iki insanın bu ümdə xüsusiyyətləri onun yaddaşına əbədilik hakim kəsilmişdi. Bir də atasının doğulduğu Zəngəzur torpağının unudulmaz xatirələri onun yaddaşını çağdan-çağa təzələyirdi. Bircə dəfə o yerlərdə olmuşdu. Ancaq bu yaddaşın unudulmaz səhifələrinə Qafan bölgəsinin Şəhərcik, Yuxarı Girətağ kəndləri, dağlar, meşələr, yollar, dərələr, hətta ov sərgüzəştləri də düşürdü. Göydən yerə baxan peyklərin müşahidələri ilə Yer qabığındakı təbii ehtiyatlar proseslərini tədqiqata cəlb edib, maraqlı elmi nəticələr aldığı kimi, xatirə səmasına diqqət yetirəndə də gözləri önündə həmin mənzərələr bir daha canlanırdı…



## YAFƏS RƏSUL OĞLU BAXŞƏLİYEV

Kafedra müdiri, pedaqoq. Daha çox ali məktəbdə ictimaiyyətçi və alim-pedaqoq kimi tanınıb.

1940

## ADI MƏKTUBLA GƏLDİ...

Qış hələ sazaqlı günlərini başa vurmamışdı. Keypəşin kəndi kiçik çillə ömrü yaşayır, ağ kürkünə bürünüb, dağ başında sakit-sakit mürgüləyirdi. 1940-cı ilin qışı beləcə sərt gəlmişdi. Sovet-fin savaşının soyuğu bir ilə yaxın idi ki, bu kəndin adamlarını da vahiməyə salırdı. Yaxşı ki, nə radio vardı, nə də qəzetlər vaxtında gəlib çıxırdı. Yoxsa qara xəbərlər adamların dincliyini bir az da əlindən alırdı... Buna baxmayaraq, rayon mərkəzindən göndərilən atüstü xəbərlər bu kəndə də gəlib çıxırdı...

Fevral ayının 5-i idi. Rəsul kişinin evində sevinclə qəm baş-başaydı; oğlu olmuşdu, sevinirdilər, böyük oğlu Muxtarı cəbhəyə çağırmışdılar - qəm içindəydilər. Muxtarı həmin gün apardılar. Ata-ana gecə-gündüz onun fikrini çəkdi, onun taleyini düşündü. İstəyirdilər ki, uşağa adı Muxtar qoysun. Həm də gərək, qonşu kənddə yerləşən sovet idarəsində qeydiyyatdan keçirəydilər, kitaba yazdıraydılar. Üç ay keçdi. Muxtardan səs-soraq yox idi. Onu ailənin ilki hesab edirdilər. Muxtarın varlığı ata-anaya böyük təsəlli, sabaha umud işığı idi.

Quşqanadlı məktub uçub, onların əllərinə qondu. Məktub çırpındı, üçgünc qanadını açdı, nigarançılıqdan döyünən



ürəkləri kimi. Muxtar yazırdı: "-Əziz ata-ana! Hələ ki, sağ-salamatam. Fin savaşı başa çatmaqdadır. Üzünü görmədiyim qardaşımın adını "Yafəs" qoyun. Qoy o, gələcəyin tanınmışlarından olsun!"

Ata-ananın ürəyi yerinə düşdü. 1940-cı il fevral ayının 5-də varlığa göz açan uşağa bu adı verdilər. Bu adla çağırmağa başladılar. Bir sözlə, Yafəs Rəsul oğlu Baxşəliyevin adı məktubla gəldi, məktubla həyata vəsiqə aldı. Həyatda sonrakı adları özü qazandı, özü yaşatdı, istedadı bacarığı, insanlarla xoş ünsiyyəti ilə..

Muxtara təkcə ona ad verən böyük qardaş kimi deyil, ailənin qayğısını çəkən atasının əvəzi kimi baxdı, bütün ömrü boyu ağsaqqalı hesab etdi. Bu da səbəbsiz deyildi. Muxtar cəbhədən - iki müharibənin odu-alovu içindən geri dönəndən az sonra, atası Rəsul dünyadan getdi. Ailənin bütün ağırlığı onun çiyinlərinə düşdü. Həm müəllim işlədi, həm də təhsilindən qalmadı. 1947-ci ildə Yafəsi ilk dəfə məktəbə də o apardı. Birinci sinifdə Talıb müəllim dərs deyirdi. Hərflərin çoxunu öyrənmişdi, şifahi hesablamanı beş barmağı kimi bilirdi. Ona görə, ilk gündən müəlliminin sevimli şagirdlərindən biri oldu. İllər bir-birini əvəz etdikcə ona dərs deyən müəllimlər də dəyişdi, hərəsindən biliyin, təhsilin bir sahəsini öyrəndi. Ancaq fənlər arasında ayrıseçkilik salmadı, hamısına eyni maraqla, eyni həvəslə yanaşdı.

1954-cü ildə doğma kəndlərindəki 7 illik məktəbi bitirən Yafəs Baxşəliyev 1957-ci ildə Gığı kəndində orta təhsilini başa çatdırdı, həm də gümüş medalla. Qarşıda isə hansı ali məktəbə daxil olmaq məsələsi dururdu...

Özünün dediklərindən:

-Hələ kəndimizdə olanda döşdən bir daş tapmışdım. İçi işım-işım işıldayırdı. Onu geoloqlara göstərdim və onları tapdığım yerə apardım. Öz aralarında nə danışdılar, bilmirəm, bir neçə gündən sonra, bura lağım açan maşın gətirdilər. Mən də dayanıb, maşının torpaqda yarıq açmasına tamaşa edirdim. Çox sevinirdim. Axı buradakı faydalı qazıntı yatağını mən kəşf etmişdim. Sonradan məlum oldu ki, həmin yerdə molibden yatağı var. Özümü mədən tapan geoloq sanırdım. Qət etmişdim

ki, mütləq universitetin geologiya fakültəsinə qəbul olunmalıyam. Lakin gümüş medalı İrəvandan gec göndərdilər. Mən Bakıya gələndə artıq sonuncu qəbul imtahanları aparılırdı. Yalnız Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə müsabiqə yolu ilə qəbul edirdilər. Qardaşım Muxtar məsləhət gördü ki, sənədləri ora verək.

Heç yadımdan çıxmaz; müsabiqəni üç nəfər aparırdı (sonradan öyrəndim ki, onlar rektor Mehdixan Vəkilov, riyaziyyatın atası Qara Bəhram və dosent Aqil Salayev imişlər). Cavablarım onları tamamilə qane etdi və mən fizika-riyaziyyat fakültəsinin tələbəsi oldum.

Beşillik tələbəlik illəri arxada qaldı. Yafəs Baxşəliyev 1962-ci ildə institutu bitirib, fizika və riyaziyyat müəllimi ixtisası qazandı. Onun təyinatını Laçın rayonuna verdilər. Bu bölgədə işləmək onun ürəyincə idi; həm dağlıq bölgə idi, suyu, havası gözəldi, həm də özündən böyük qardaşı Baxşəli Baxşəliyev orada həkim işləyirdi. İki qardaş baş-başa verib, çalışacaqdılar. Bir il Pircahan kəndində müəllimlik etdi. Sonra onu Kürdhacı kənd məktəbinə göndərdilər...

Özünün xatirəsindən:

- Kürdhacı kənd məktəbində müəllimlərin əksəriyyəti yerli, biz iki nəfər müəllim isə gəlmə idik, qalmağa yerimiz də yoxdu. Bizə Fitat adlı bir qarının evinin zirzəmisində qalmağı məsləhət bildilər. Əlacımız nəydi? Qalmalıydıq. Arvad da söz verdi ki, xörəyimizi-çörəyimizi bişirəcək. Əvvəllər, doğrudan da, bizə yaxşı baxdı. Xörək-çörəyimiz vaxtlı-vaxtında hazır olurdu. Ancaq bir məsələ vardı; bulaq evdən bir az, aralıdan axırdı, suyu səhəngdə gətirirdi. Bu da onu çox yorurdu. Odur ki, suyu da bizə cirə ilə verməyə başladı. Mən bu vəziyyətlə bağlı bir şer yazdım:

*Yatacaq yerimiz oldu zirzəmi,*
*Saldı xəstəliyə oranın nəmi.*
*Artırdın qəlbimdə qüssəni, qəmi,*
*Baxmadın sözümə, ay Fitat nənə!*



*Əzəl başdan suyu saldın cirəyə,*
*Səhəngi də sarımışdın dirəyə,*
*Dedin, sabah gələcəkdir gərəyə,*
*Kül atdın gözümə, ay Fitat nənə!*

Əlbəttə, bu zarafat idi, bir müddət sonra, onunla mehribanca görüşüb, başqa evə köçdük...

Yafəs Baxşəliyev iki il Laçın bölgəsində çalışdı. Sonra onu Respublika Maarif Nazirliyinin əmri ilə Bakı Xalq Maarif Şöbəsinin sərəncamına göndərdilər. Ona Bakı şəhərindəki 54 saylı axşam məktəbində dərs deməyə icazə verildi. Yafəs Baxşəliyev, eyni zamanda, Sumqayıtda Neftkimyaavtomatlaşdırma Elmi-Tədqiqat Layihə İnstitutunda işə girdi və iki ilə yaxın orada çalışdı.



*Yafəs Baxşəliyev (sağdan beşinci) "Ali cəbr və həndəsə" kafedrasının üzvləri arasında. 1997-ci il.*

1965-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunun riyaziyyat kafedrasında boş qalan yeri tutmaq üçün müsabiqə elan olunmuşdu. O da sənədlərini təqdim etmək istədi. Lakin onun sənədlərini götürmədilər.

Özünün söylədiklərindən:

- Məndən tələb etdilər ki, müəllimlərinin birindən zəmanət gətirməlisən. Mən Bəhram Yusifzadənin (Qara Bəhramın)

yanına getdim. Məni mehribanlıqla qarşıladı. Əziz müəllimim zəmanət əvəzinə, məsləhət verdi. Bildirdi ki, bizim kafedrada qiyabi aspirantura yeri var, ora qəbul ol! Mən onun məsləhətindən çıxmadım. Elə o vaxtdan taleyim öz doğma institutumla bağlandı. Aspiranturaya qəbul olduqdan bir il sonra, məni "Ali cəbr və həndəsə" kafedrasına baş laborant vəzifəsinə işə götürdülər. 1968-ci ildən müəllim, 1971-ci ildən baş müəllim, 1981-ci ildən dosent vəzifələrində çalışmışam. 1975-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışam. 1999-cu ildən "Cəbr və həndəsə" kafedrasına müdir seçilmişəm...

Yafəs Baxşəliyev 3 dərsliyin, metodiki vəsaitlərin və elmi məqalələrin müəllifidir.

Bir ailə başçısı kimi, övladlarının da ali təhsil alması qayğısına qalmışdır. Atasının adını daşıyan böyük oğlu Rəsul M.Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini, kiçik oğlu Elnur Neft Akademiyasını bitirmişdir. Qızı isə həkimdir.

Yafəs müəllim, eyni zamanda, poetik duyuma malik olan bir adamdır. Mənə elə gəldi ki, bu daha çox yüksək riyazi təfəkkürlə bağlıdır...





1934

## HÜSÜ MİRZƏXAN OĞLU HƏSƏNOV

Geoloq-mühəndis, ictimaiyyətçi. Daha çox axtarış-planalma partiyalarında rəhbər işçi, geoloji xəritələr tərtibçisi kimi tanınıb.

## DƏLİDAĞA QAR YAĞMIŞDI...

O, küləyin vıyıltısından oyanan kimi, çadırın kiçik pəncərəsinin örtüyünü qaldırıb, çölə baxdı. Qar dənizinin içində qalmışdılar. Gecə aramsız yağan qar çadırı yarıya qədər örtmüşdü. Bir tərəfi qayaya sökəkli idi, yoxsa külək qanadına alıb, kim bilir, hansı dərənin dibinə atacaqdı. İki nəfər idilər. Yoldaşları şəhərə getmişdilər. Azuqə və materiallar gətirəcəkdilər. Qar yolları tutdu. Güman ki, qayıtmaqları bir neçə gün çəkəcəkdi. Onlar gəlincəyə qədər, halları necə olacaqdı?!

Hüsü Həsənov hələ də heç nədən xəbərsiz kimi yatan yoldaşını səslədi:

– Ə, Məsim, nə yatırsan, qalx, dünyadan xəbərin yoxdu, qarın içində qalmışıq?!

O da kiçik pəncərənin pərdəsini qaldırıb, çölə baxdı və tələsik bağladı. Çünki külək qarı içəri üfürürdü... Başını bulayıb, əllərini yellədi. Sonra keçib yerində oturdu və umudsuz-umudsuz Hüsü Həsənovun üzünə baxdı:

– Nə yeməyimiz var, nə də yanacağımız... Acından, soyuqdan batasıyıq...

Hüsü Həsənov bir söz demədi, sakitcə geyinməyə başladı.

Yoldaşı da ona baxıb geyindi və balaca beli götürüb, çölə çıxdılar. Çadırın yanlarını tutan qar qalağını kürüyüb atdılar. Bu o qədər də asan deyildi, kürüdükcə külək yenidən doldururdu. Qayıdıb çadıra girməli oldular və sırıqlıları möhkəm-möhkəm geyinib, gözləməyə başladılar...

Bir neçə saat beləcə çəkdi. Duman oyalandı. Dəlidağın zirvəsindən Günəş boylandı. Onlar çadırdan çölə çıxdılar. Külək səngimişdi. Günəşin qızılı şəfəqlərindən qar örtüyünə bürünmüş dağların zirvələri par-par yanırdı. Çadırın dörd yanı heyvan ləpirləri ilə naxışlanmışdı. Görünür, səhərə kimi, burada hansı heyvanlarsa dolaşırmış. Bu ara iki keygidar filitləyə-filitləyə dövrələnib, yaxındakı qayanın döşünə qondu. Yoldaşı sevincək qayıdıb, çadıra girdi və bir an keçməmiş, əlində ov tüfəngi bayıra çıxdı. O, yaxındakı daşa sinib, nişan aldı. Tüfəngin açılmağı ilə geygidarlardan birinin qanad çırpa-çırpa qarın içinə düşməyi bir oldu. Hüsü Həsənov cəld irəli qaçdı və quşun ayaqlarından tutub, göyə qaldırdı. O, şirin Qafan ləhcəsində qışqırmağa başladı:

- Qağa, daha ac qalmarıq, yeməyə ətimiz var!..

Onlar keygidarı kəsib yoldular. Ancaq bişirməyə ocaq yox idi. Hüsü Həsənovun təklifi ilə patronlardan birindən qırmaları tökdülər. Sonra əski qırığı təpib, sırıqlılardan birinin üstünə atəş açdılar. Sırıqlı od aldı. Çırpıları töküb, ocaq alışdırdılar. Bununla da keygidarın ətini bişirib, üç gün qənaətlə yedilər. Geoloq yoldaşları vaxtında haraya çatdılar...

Bir geoloq-mühəndiis kimi, 40 ildən artıq axtarış-planalma işlərində səmərəli fəaliyyət göstərən Hüsü Həsənovun bu yolda qarşılaşdığı minbir çətinlikdən yalnız həmin hadisə barədə söhbət açdım. Bu hadisə isə 1957-ci ilin noyabr ayında olmuşdu. Onda, universiteti yenicə bitirən gənc geoloqu avqust ayının 1-dən Kəlbəcərin Dəlidağ ərazisində çalışan axtarış-planalma partiyasına baş kollektor vəzifəsinə təyin etmişdilər.

Yaxşısı budur ki, onun həyat və fəaliyyət yolunun şərhinə lap körpəliyindən başlayım...

Hüsü Mirzəxan oğlu Həsənov 1934-cü il avqust ayının 18-də Qafan bölgəsinin Yuxarı Gödəkli kəndində varlığa göz açıb. Bir yaşı tamam olmamış atası Mirzəxan dünyasını dəyişib. Üç



qardaş - Feyzi, Xəlil, Hüsü və iki bacı - Səriyyə, Münəvvər anaları Gilə Orucqızının himayəsində qalıblar.

Böyük qardaşı Feyzi Həsənov davaya getməmişdən əvvəl, kolxozda hesabdar işləyirdi. Cəbhəyə gedəndən sonra, qardaşı Xəlili onun yerinə təyin etmişdilər. Lakin bir il keçməmiş, onu da apardılar. Gilə Orucqızı oğlu Feyzidən heç bir soraq ala bilmədi. Xəlildən isə 1943-cu ilin fevral ayında qara kağız gəldi. Dnepr çayı sazilində yerləşən Konstantinovka kəndi uğrunda gedən döyüşlərdə həlak olmuşdu. Xəlilin ölümü ilə bağlı bir xatirə Hüsü Həsənovun heç zaman yadından çıxmır:

- 1970-ci il idi. Ukraynanın Velikolipetixinsk rayonundan məktub göndərmişdilər ki, Konstantinovka kəndində Qələbənin 25 illiyi münasibətilə burada həlak olanların şərəfinə abidə ucaldılır. Bizi abidənin açılışına dəvət edirdilər. Bacım Səriyyə ilə ora getdik. Qarlı bir gün idi. Abidənin açılışına xeyli adam toplaşmışdı. Biz də bacımla bir yanda dayanmışdıq. Bir müharibə veteranı bizə sarı gəlib, salam verdi. O, şəhadət barmağı ilə məni göstərib dedi:

- Sən Xəlil Həsənovun qardaşısan?! Mən onu çox yaxşı xatırlayıram...

Mən tutulmuşdum. Başımın hərəkəti ilə onun sözünü təsdiq etdim. Qucaqlaşıb öpüşdük. Həmin abidənin qranit daşına Xəlilin də adı həkk olunmuşdu...

Qanlı müharibədə iki oğlunu itirən ana bütün umudunu Hüsüyə və qızlarına bağladı...

Hüsü Həsənov 7 illiyi doğma kəndlərində bitirdikdən sonra, 1948-1951-ci illərdə Qafan şəhərindəki 1 saylı məktəbdə orta təhsilini başa çatdırdı. Həmin illərdə Azərbaycan Dövlət Universitetini qurtarıb, bölgəyə gələnlər vardı. Onların pencəyinin yaxasında universitet nişanını görən Hüsü Həsənov arzuya düşdü ki, onun da belə bir nişanı olsun. Bir il sonra, sənədlərini universitetin fəlsəfə-tarix fakültəsinə verdi. Lakin tarix fənnindən "yaxşı" qiymət aldığına görə, müsabiqədən keçmədi. O zaman tələbə qəbulu komissiyasının sədri olan professor Qoşqar Əhmədovun təklifi ilə yeni açılmış geoloji-coğrafiya fakültəsinə qəbul olundu. Üç ildən sonra, bu fakültə mühəndis-geoloq ixtisası üzrə formalaşdırıldı. Odur ki, 1957-ci

ildə universiteti bitirəndə ona mühəndis-geoloq ixtisası diplomu verdilər. O dövrün mövcud qaydalarına uyğun olaraq ixtisaslı kadrları keçmiş SSRİ məkanının müxtəlif bölgələrinə işləməyə göndərirdilər. İş elə gətirdi ki, Hüsü Həsənovla bərabər, dörd nəfəri Azərbaycanda saxladılar.



*Hüsü Həsənov (soldan birinci) Trabzon şəhərində türk həmkarları arasında. 1997-ci il.*

Hüsü Həsənov dörd ay işləmişdi ki, qar yağmuruna düşdü. Baş idarəyə qayıtdılar. İdarənin rəisi M.Mustafabəyli onu Xanlar bölgəsindəki geoloji-kəşfiyyat partiyasının rəisi təyin etdi. Onun partiyası Xanlar kərpic zavodu üçün 25 illik gil ehtiyatı yatağının yerini müəyyənləşdirdi və dəqiq hesablamalar apardı. Bu, Hüsü Həsənovun axtarış-planalma sahəsində ilk uğurlu nəticəsi idi. Lakin o daha çox regional geoloji işlərdə çalışmağa meyl edirdi. Ona görə də bir müddət Tutğun, Kəlbəcər axtarış-planalma partiyasında geoloq, Daşkəsən ekspedisiyasında baş geoloq, Alaqaya, Soyuqbulaq, Zar axtarış-planalma partiyalarında baş geoloq vəzifələrində bacarıqlı mütəxəssis kimi özünü göstərdi. 1965-ci ildə Hüsü Həsənov Mardakert axtarış-planalma partiyasına rəis təyin olundu. Bundan sonra, müntəzəm surətdə müxtəlif geoloji partiyalarına başçılıq etmişdir. Onun rəhbərliyi ilə respublika



ərazisinin ayrı-ayrı bölgələrində çox qiymətli faydalı qazıntı və sənaye əhəmiyyətli xammal yataqları aşkara çıxarılıb, ehtiyat mənbələri hesablanıbdır. Bu xidmətlərinə görə, dəfələrlə təşəkkürlər alıb, əməyi mükafatlarla qiymətləndirilib. Hüsü Həsənov 1981-ci ildə istehsalatdan ayrılmadan üzərində işlədiyi elmi-tədqiqat işini başa çatdırıb və müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi alıbdır. 1964 və 1984-cü illərdə keçirilən Beynəlxalq Geoloji konqreslərin iştirakçısı olub, diplom və gümüş medalla təltif edilibdir. Hələ 1947-ci ildə ona "Şərəfli əməyə görə" medalı verilmişdi. Sonrakı illərdə "Əla kəşfiyyatçı" döş nişanı və müxtəlif yubiley medalları da alıbdır.

Hüsü Həsənov Azərbaycan geoloqlarını Türkiyədə təmsil edən nümayəndələrdəndir. 1996-cı ildə geologiya komitəsinin sədri Ə.M.Şəkinskinin təşəbbüsü ilə o, Türkiyəyə göndərilmiş, Şərqi Anadolu və Palantökən dağında türk geoloqları ilə həmin ərazinin geoloji quruluşunun öyrənilməsi və xəritəsinin tərtibində bir neçə il işləmişdir. Bu işi indi də davam etdirir.

Hüsü Həsənov bu yaxınlarda rus dilində çap olunmuş "Azərbaycan geologiyası" çoxcildliyinin birinci kitabını mənə göstərdi. O, akademik A.Əlizadənin redaktorluğu ilə nəşr edilən bu kitabın müəlliflərindən biridir. Hazırda respublika ərazisinin geoloji xəritəsinin müasir tələbata uyğun tərtibçilərindəndir. Ürəkdən inanır ki, bu xəritə neçə-neçə yeraltı sərvətin kəşfi və istismarında mühüm rol oynayacaqdır.

Hüsü Həsənov öz ömür yolunda dəfələrlə qar-çovğun görüb, şaxtaya, soyuğa düşübdür. Lakin bunlar onun torpağa, ixtisasına və başlıcası isə ailəsinə-övladlarına olan sevgisi ilə əriyib gedibdir. Bu sevgi isə ilk mayasını sevimli anasından və doğma Zəngəzur torpağından alıbdır...

# MAARİFİN GUR İŞIĞINDA





# CƏLAL ƏSƏD OĞLU ZEYNALOV

Əməkdar müəllim (1939), maarif xadimi, ictimayyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim və təcrübəli rəhbər işçi kimi tanınıb.

**1896-1963**

## XATİRƏ İŞIĞI SOZALMAYACAQ...

Oğuz eli Zəngəzur ötən əsrin sübhündə Azərbaycanımızın indiki Ermənistana qatılan ən iri bölgəsi, Qafan da bölgənin ən iri rayonudur. Bu bölgənin təbiətinin "əcəb seyrangahı var!" Ətəkləri bir-birinə calanan karvan-karvan dağların göylərə dirəklənmiş zirvələrində daim qartallar qıy vurar, tərçiçəkli, çil kəklikli meşələri, çəmənlikləri könül oxşayar. İnsansevər, hünərvər, ağıllı-kamallı, dinli-imanlı sakinləri çox olub bu bölgənin. Əsəd kişi də onlardan biriydi. Halal əməyi, ülvi istəyi, şirin diləyi ilə hörmət qazanmışdı, din-iman sahibi olmuşdu, seçilib sayılırdı.

Ad-san qazanmaq, seçilib-sayılmaq, din-iman sahibi olmaq asan iş deyil, amma əlçatandır. Bir şərtlə ki, arzuların da diləklərin də çin ola! Əsəd kişi axşamdan səhərədək gözünü qırpmadan göylərə boylanır, tanrı dərgahından niyyət diləyir, könlündən keçənləri dilinə gətirmədən təlaş içində, ürək döyüntüsü ilə qonşu qapının açılmasını gözləyirdi. Elə bil, gecənin qaranlığı əriyib getmək istəmir, sübhün işıqları süzülüb gəlmək bilmirdi, bir gecə bir ilə dönmüşdü. Axır ki, intizar



pərdəsi çəkilib getdi, açılan qapıdan hər şeyi unutduran bir səs gəldi:

– Oğlun oldu, ocağın nurla doldu! Gözün aydın, Əsəd kişi!..

Dalısını eşitmir, ya eşitməyə məhəl qoymur, ya da buna ehtiyac duymurdu. Niyyəti çin olmuşdu, arzusuna qovuşmuşdu Əsəd kişi. Daha göylərə üz tutmur, tanrı dərgahına yalvarmır, könlündən keçənləri gizlətmədən özü özü ilə danışırdı:

– Cəlal qoyacağam adını! Qoy o da adı kimi cah-cəlallı olsun, qoy adı ilə böyüyüb, boya başa çatsın!

Onda, XIX əsrin sonuna cəmi dördcə il qalırdı. Qafan bölgəsinin Şəhərcik kəndində dünyaya göz açdı Cəlal. Doqquz yaşına çatanda başqa kəndlər kimi, onun doğma Şəhərciyi də oda qalandı, qana boyandı. Daşnaklar idilər bu vəhşilikləri törədənlər. Sakinlər pərən-pərən düşdülər, didərginlik çağlarını yaşamalı oldular. Yalnız bir ildən sonra, kəndə qayıda bildilər. Evlər yenidən quruldu, ocaqlar alovlandı, çıraqlar yandı. On bir yaşı tamam olmuşdu Cəlalın. Oxumağa həvəsi çox böyükdü; atası onu kənd mollasının yanına apardı. Bir ilə yaxın molladan ərəb əlifbasını öyrəndi. Dini kəlamları əzbərlədi. Lakin dini kəlamlarla irəli getmək olmazdı. Yaxın kəndlərdə dünyəvi bilik verən məktəb yox idi. Ona görə, Şəhərcikdən xeyli aralı Dəymədağlı kəndində yerləşən erməni dilində məktəbə getməyə başladı. Bir il də orada erməni dilində oxudu.

Bu məktəb də onu təmin etmədi. Bakıya getməyi qərara aldı. Lakin Bakıya getmək o qədər də asan deyildi. Dəmir yolu, ancaq Horadiz stansiyasına kimi çəkilmişdi. Qafandan ora çatmaq üçün gərək 70-80 km yolu piyada gedəydin. Atası Əsəd kişi fəhlə idi, dəmir yolunun çəkilişində işləyirdi. Onun köməkliyi ilə Horadiz stansiyasınadək getdi və sonra qatarla Bakıya çatdı. O zaman Bakıda rus-tatar məktəbləri fəaliyyət göstərirdi. Onu ikiillik rus-tatar məktəbinə qəbul etdilər. Məktəbdə dərslər rus dilində keçilirdi. Ona görə, bütün diqqətini rus dilini öyrənməyə yönəltdi. İki ilə başqa elmlərlə yanaşı, riyaziyyatı da mükəmməl öyrəndi. Müəllim işləmək həvəsi ilə kəndə qayıtdı. Lakin o geri dönəndən az sonra, atası

Əsəd kişi bu dünyadan köçdü. Ailənin bütün ağırlığı onun üzərinə düşdü. Odur ki, anasını, bacısını və kiçik qardaşı Hüseyni dolandırmaq üçün Qafan mis mədənində işə girdi. Heç bircə il işləməmişdi ki, yenidən ara qarışdı. Qəddarlıqda ad çıxarmış daşnak əsgərləri Zəngəzurun bir sıra azərbaycanlılar yaşayan kəndlərini viran qoyduqdan sonra, gəlib Şəhərciyə çatmışdılar. Kəndin kişiləri ayağa qalxmışdılar. Andranikin və Njdehin təlim görmüş silahlı dəstələri ilə vuruşmaq o qədər də asan deyildi. Ancaq kəndin igidləri ermənilərin həmlələrinin qarşısını ala bildilər. 22 yaşlı Cəlal Zeynalov da onların sırasında idi. Kəndin ağsaqqalı Namazalı kişi onları ərzaq və silahla təmin edirdi.

Hiddətlənən ermənilər evləri top atəşinə tutmağa başladılar. Camaat kəndi tərk edib, Qırqalası deyilən istekamın qayalarına sığındı. Yenidən qaçqınlıq başladı. Bu qaçqınlıq gənc Cəlal və onun anası Gülpəri nənəyə də yeni müsibət gətirdi. Kəndin mal qarasını ermənilərdən qoruyarkən başından yaralandı, anasının ayağına isə güllə dəydi. 1918-ci ilin noyabr ayı idi. Dağlara qar düşmüşdü. Belə bir çağda qaçqınlar Açağu-Yuxarı Girətağ-Gığı-Kurud-Ordubad istiqamətində ac-susuz, payi – piyadə Naxçıvana doğru hərəkət etdilər. Şəhərcik kəndinin ağsaqqallarından olan, hazırda Bakıda məskunlaşan Nemət Bağırov o dəhşətli günləri belə xatırlayır:

– Deyirlər, uşağın yaddaşı möhkəm olur, o qanlı-qadalı günlərdə mənim 12 yaşım vardı. Elə hadisələr görmüşəm ki, indi də gözümün önündən getmir. Onda, düz altı gün qarlı dağlarla yol getdik. Qarın içində bir qaraltı gördüm. Ona yaxınlaşanda tüklərim ürpəşdi. Ana yıxılıb ölmüşdü, körpəsi isə heç nə hiss etmədən onu əmirdi. Qışqırıb qabaqda gedən bir dəstə adama sarı yüyürdüm. Kim kiməydi? Elə bil, məni heç kəs eşitmirdi. Hərə öz canının hayındaydı. Çarəsiz özümüzünkülərin yanına qayıtdım. Bir az gedir, oturub, nəfəsimizi dərir, yenidən yolumuza davam edirdik. Yolda itki verə-verə, axırı ki, gedib, Ordubadın Əylis kəndinə çıxdıq və iki ilə yaxın həmin kənddə yaşadıq...



Cəlal Zeynalov özü isə o ağır günlərdən belə yazır:

"– Başqa maneələrə baxmayaraq, Əylisdə yaşayarkən anam Gülpəri mərdliklə bizim ailəmizi saxladı. Mən işləmək qabiliyyətimi itirdiyim üçün anam öz əməyi ilə bizi dolandırdı. Bununla belə, imkan tapıb, bizim qohumlarımızın birisi Bakıya getdiyi zaman məni də ona qoşub, müalicə üçün göndərdi. Biz Ordubaddan Bakıya piyada getdik. O zaman artıq Azərbaycanda Sovet Hakimiyyəti qurulmuşdu. Ağdamda qaçqın kimi, Qızıl Ordu hissəsinin komandirinə müraciət etdim. Qarnizonun böyüyü mənə bir vəsiqə verərək pulsuz müalicə olmaq üçün Bakıya göndərdi. Bakıda həmin göndərişi qaçqınlar şöbəsinə verib, onlardan müalicə talonu, geyim paltarı və yorğan-döşək, aşxanaya talon, ikinci dərəcəli əlil və pensiya kitabçası aldım. 8 ay müalicə olunandan sonra, yenə Ordubada – Əylis kəndinə qayıtdım..."

Qaçqınlar bir də 1921-ci ilin yayında Şəhərciyə dönə bildilər. Bundan iki il sonra, kənddə ilk ibtidai məktəb açıldı. Sonralar məktəbin 40 illik yubileyi münasibəti ilə hazırladığı məruzəsində kənddə birinci sinfin açılmasını belə təsvir edirdi Cəlal müəllim:

"– Kənddə məktəb açmaq üçün, demək olar ki, heç bir şərait yox idi. Bina yox, məktəb avadanlığı, kitab yox, dəftər yox, lakin oxumağa həvəsi olan istedadlı yeniyetmələr çox idi. Bir gün kəndin ağsaqqalları ilə məsləhətləşərək iyirmi nəfərdən artıq uşağı siyahıya alıb, bir yerə yığdım və birinci sinfi təşkil edib dərsə başladım. Yer olmadığı üçün kəndin ağsaqqalı Molla Süleyman kişinin balaca bir otağında stolsuz, stulsuz yerdə, palazın üstündəcə oturaraq məşğələni keçdik. İlk şagirdlər Dadaş Orucəliyev, Nurəli Qurbanov, Bəhlul İmaməliyev, Cahangir Rüstəmov, Həsənalı Həsənov, Əbil Rzayev, Şıxəli Zeynalov, Hüseyn Zeynalov, bacım qızı Xədicə Mustafayeva və başqaları idilər..."

Cəlal Zeynalovun yazdığına görə, Şəhərcikdə məktəb binası 1924-cü ildə tikilmiş və bu bölgədə ilk dünyəvi məktəblərdən olmuşdu. Onun pedaqoji fəaliyyəti də həmin məktəbdən

başlayır. 1930-cu ildə Cəlal Zeynalovu Yuxarı Girətağ məktəbinə direktor təyin etdilər. Yeddi il həmin kənddə işlədi. 1937-ci ildə isə Şəhərcikdə ilk orta məktəb açıldı. Cəlal Zeynalov yenidən öz doğma kəndinə qayıtdı. İlk orta məktəbin ilk direktoru vəzifəsinə də onu məsləhət bildilər. Bilik aşılayan, həyat fəlsəfəsini, namusla yaşamaq yolunu gənc nəslə göstərən maarif xadimi kimi respublikada tanındı. Orta məktəbin direktoru işləməyindən ikicə il keçməmiş, bölgənin azərbaycanlı müəllimləri içərisində ilk "Əməkdar müəllim" fəxri adını ona verdilər. Hər yerdə onu haqlı olaraq müəllimlər müəllimi, maarif fədaisi adlandırmağa başladılar. Şüurlu həyatının bütün mənalı anlarını, ömür payının yadda qalan bütün günlərini bu şərəfli adın doğruldulmasına həsr etdi. Özünütəbliğ və özünütəqdim azarına tutulanlara "nadürüst", rütbələnmək hərislərinə "nakişi" dedi. Bərəkət toxumu səpən rəncbərlər kimi, o öz qadir və qabil yetirmələri ilə, yetirmələri də öz müəllimləri ilə fəxr edib, öyündülər.

Müəllimlər müəlliminin zəngin həyat təcrübəsindən, pedaqoji mərifəti və məharətindən, təkminləşmiş nümunəvi iş üslubundan, nəcib əxlaqi kefiyyətlərindən yerli-yataqlı söhbət açmaq məqamına çatanda qulağıma qeyri-adi səs gəldi:

– Qələmi yerə qoy, – dedi, indi məni dinlə! Məddahların alqışlarından, rütbələnmək yarışından nağıl söyləmək yetər. Məktəb bambaşqa mətləbdir. Məktəb-millət, əxlaq, kökəbağlılıq, tale, əqidə və bilik deməkdir. Bunu dərk edən millətin sabahı nurlu olar, qüdrəti basılmaz qalar. Xalqın xoşbəxtliyi də, bədbəxtliyi də məktəbdən başlanar. Qeyrətə gəlin, üzünüzü məktəbə sarı döndərin!..

Tanıdım, tanış səs idi! Ən ağır anlarda belə təmkinini pozmayan, minbir dərdə mərdliklə sinə gərən, lakin oğul itgisinə dözməyən Cəlal Zeynalovun ruhundan qopub gələn təlaş, həyəcan, həm də qüssə dolu bir səs! Xəyal məni əzablı, faciəli, hüzn dolu bir məkan, bir məqam, bir ana calamışdı. 1960-cı ilin payızı idi. Cəlal müəllimin sevimli oğlu, əziz balası, Tanrı vergisi Taryelin tabutunu Leninqraddan İrəvana gətirdilər.



Oradan da Şəhərciyə apardılar. Politexnik İnstitutunun beşinci kurs tələbəsi Tariyel istehsalat təcrübəsi zamanı qəza nəticəsində həlak olmuşdu. Qəm dəryasına düşmüş, ata əl qaldırıb oynayırdı. Ahından, ruhundan qopan fəryad bu oldu:

– Tariyel!.. oğlum!..

Bundan heç üççə il keçməmiş, dünyasını dəyişdi Cəlal müəllim. Dəyişdi ki, əziz balasına qovuşsun. Dəyişdi ki, bir daha ayrılmasın ondan. Dəyişdi ki, o dünyada da muğayat olsun, keşik çəksin balasına! Şəhərcikdə qoşalaşdı iki məzar. Birində oğul, birində ata! Birində "1939-1960", o birində "1896-1963" tarixləri!..



*Cəlal Zeynalov (soldan ikinci) müəllim dostlaorı arasında. 1930-cu illər.*

**Söz ardı**: İsrafil müəllimin ürək yanğısı ilə qələmə aldığı bu yazısına əlavə etmək istəməzdim. Ancaq hiss etdim ki, qəmli sonluqla bitən yazıya Cəlal müəllimin şahidi olduğum fərəhli bir anını da artırmalıyam. 1955-ci il idi, Şəhərcik orta məktəbinin 8-ci sinfində oxuyurdum. Bir gün məktəbin bütün müəllim və şagirdlərini bizim sinfə yığdılar. Bir azdan müəllimlər də gəldilər. Bircə Cəlal müəllim oturmuşdu. Məktəbin direktoru Nurəli Qurbanov yığıncağı açaraq bildirdi

ki, Cəlal müəllim Lenin ordeni ilə təltif olunub, indi həmin ordeni ona təqdim etmək üçün toplaşmışıq. O öz müəllimi barəsində xoş sözlər söyləyəndən sonra, ordeni qutusundan çıxarıb, Cəlal müəllimin pencəyinin yaxasına sancdı. İndi onun sinəsini iki orden bəzəyirdi. Alqış sədaları qopdu. Cəlal müəllim çıxış etdi. Hayıf ki, dedikləri yadımda qalmayıb, alqış səslərindən eşitmək olmurdu. Bircə onu xatırlayıram ki, Cəlal müəllim danışdıqca ayaq üstə dayanmış qızları Sona müəllimə və Gilə müəllimə (hər ikisi mənə dərs deyirdi) ağlayırdılar, sevincdən ağlayırdılar. Oğlu Tariyel isə (o doqquzuncu sinifdə oxuyurdu) şagirdlərin içərisində durmuşdu. Əl çalıb atasını alqışlayırdı...

Mənə elə gəlir ki, bölgədə ilk "Əməkdar müəllim" fəxri adına layiq görülən Cəlal müəllim olduğu kimi, Lenin ordeni alan ilk müəllim də odur. Ona görə, bu epizodu hafizəmdən bura köçürdüm.

1996-cı ildə Cəlal müəllimin anadan olmasının yüz illiyi tamam oldu. Bu münasibətlə mən də "İki kəndin bir oğlu" adlı şer yazdım. Həmin şer belə başlayırdı:

**Açdım xatirəmin son dəftərini,**
**Bir aydın varaqda mən onu andım.**
**Ömrünün işıqlı sətirlərini**
**Oxuya-oxuya geri boylandım...**

Cəlal müəllim kimi, şəxsiyyətlərin isə xatirə işığı heç zaman sozalmır...





## CAHANGİR BƏNDƏLİ OĞLU RÜSTƏMOV

Əməkdar müəllim (1940), maarif xadimi, ictimayyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim, rəhbər işçi kimi tanınıb.

**1911-1962**

## 51 İL YAŞADI...

Şəhərcik orta məktəbində cəmi bircə il oxumuşam. Səkkizinci sinifdə mənə dərs deyənlərdən Nurəli müəllimi, Bəhlul müəllimi, Sona müəlliməni, Mədət müəllimi və bir də Cahangir müəllimi böyük hörmətlə,dərin səmimiyyətlə xatırlayıram. Xatirə dəftərimin səhifələrində hər birinin öz yeri, öz isti nəfəsi yaşanmaqdadır. Bu xatirələrin işığından mən həmin o bircə ilə - 1954-cü ilə baxıram və bu işıqda əziz Cahangir müəllimin obrazı bütün aydınlığı ilə gözlərimin önündə canlanır. Mən Şəhərciyə təzə gəlmişdim. Cahangir müəllim də sevimli sənətinə yenidən başlamışdı. Çətin illərin ağırlıqlarını hələ də çiyinlərində gəzdirir, müəllimlik sənətininin ayrılığından doğan iztirablar ürəyini ağrıdırdı. İlk günlərdən ona rəğbətim artdı. Çünki həm sinif rəhbərimiz idi, həm də sevdiyim fənni-ədəbiyyatı tədris edirdi. Az keçmədi ki, məni şagirdlərin razılığı ilə sinif nümayəndəsi seçdi. Onun yaxın köməkçilərindən oldum. Məktəb üzrə ədəbiyyat dərnəyini o aparırdı. Mən də həmin dərnəyin fəal üzvlərindən idim. Hər sinif öz divar qəzetini buraxırdı. Bizim sinfin də divar qəzetini Cahangir müəllimlə birlikdə hazırlayırdıq.

Qəzetin may nömrəsi, xüsusilə böyük hay-küyə səbəb oldu.

İmtahanlar yaxınlaşırdı. Ona görə, Cahangir müəllim tənqidi bir məqalə yazmış, yaxşı oxumayan şagirdlərin çoxunun adını çəkmişdi. Sonra bir şerdə yenə onları tənqid etmişdi. Şerin iki misrası yadımda qalıb:

**Əzəl başdan, deyək hər bir nöqsandan,**
**Dərs zamanı olan danışıqlardan...**

Buna cavab olaraq mən də bir şer yazmışdım. Həmin yazının yalnız sonuncu iki misrası xatirimə gəlir:

**Aradan qaldıraq bütün bu nöqsanları,**
**İnamla çalışıb, verək imtahanları...**

Əlbəttə, o illərdə orta məktəbdə imtahanlara çox ciddi fikir verilirdi. Ədəbiyyatdan inşalar, riyaziyyatdan yazılı imtahanlar, xüsusən çətin aparılırdı. Cahangir müəllim də həm sinif rəhbəri kimi, həm də ədəbiyyatı tədris edən şəxs kimi, bu məsələyə çox məsuliyyətlə yanaşırdı. O istəmirdi ki, rəhbərlik etdiyi sinfin şagirdləri imtahanları kəsirlə başa vursunlar. Heç yadımdan çıxmaz; ədəbiyyatdan yazılı imtahanda M.P.Vaqifin "Görmədim" müxəmməsindən inşa yazmışdım, şifahi imtahanda isə yenə həmin müxəmməsi əzbər söyləməli oldum. Cahangir müəllim həm yazıya, həm də cavabıma "beş" qiymət vermişdi. O mənim yaddaşımda işıqlı bir insan kimi yaşayır...

Bütün bunları xatırlaya-xatırlaya Cahangir müəllimin yeganə oğlu, neft mühəndisi Fikrət Bəndəliyevlə görüşdüm. O, atası haqqında çox kövrək xatirələr danışdı:

– Atam 1911-ci ildə Qafan bölgəsinin Şəhərcik kəndində yoxsul bir ailədə anadan olub. Bəndəli kişinin üç uşağından biridir. İlk təhsilini kənd məktəbində alıb. 1927-ci ildə İrəvan Türk Pedaqoji Texnikumuna daxil olub və 1931-ci ildə müəllimlik ixtisası alıb. Texnikumda Nurəli Qurbanov, dayım Həsənalı Həsənov, Əbil Rzayev, Bəhlul Bayramov və başqaları ilə birlikdə oxuyub.

1931-ci ildən sonra,bir neçə il Yuxarı Girətac kənd məktəbində dil və ədəbiyyatdan dərs deyib. Bir müddət Gödəkli yeddiillik məktəbinin direktoru vəzifəsində işləyib. 1941-ci ilə



kimi, alman-sovet savaşının başlandığı ilə qədər Şəhərcik məktəbinin müəllimi olub.Ömrünün sonrakı illəri dözülməz hadisələrlə bağlıdır...

...1952-ci il idi, ayı yadımdan çıxıb.10-cu sinifdə oxuyurdum. Qəfildən sinfin qapısı açıldı.Təbərrik müəllimə içəri girib, üzünü mənə tutdu:

– Fikrət, gözün aydın, atan gəlib!..

Hansı müəllimin dərsi olduğunu da unutmuşam. Söz Təbərrik müəllimənin ağzından çıxar-çıxmaz, ildırım sürəti ilə özümü çölə atdım. Heç soruşmadım ki, haçan gəlib, hara gəlib, yaxud indi haradadır? Maşın yolu ilə üz tutdum Qafana sarı. Arxadan, ya da öndən gələn maşınlara, yoldan keçənlərə fikir vermirdim. Bəlkə də, ömrümdə ilk dəfə idi ki, belə sürətlə qaçırdım. Bircə fikrim vardı; nə olur olsun, təki atama çatım!.. Yol uzunu sürücülər mənə heyrətlə baxırdılar, keçənlər təəccüblə süzürdülər. Mənsə qaçırdım, hey qaçırdım...

Qafan bazarına yetişib, özümü ora-bura çaldım. Elə bilirdim ki, elə indicə atamla üz-üzə gələcəyəm, o, bazarda oturub, məni gözləyir... Tanış adam axtarırdım ki, soruşum. Bazarda kəndimizdən olan Abış kişi məni saxlayıb, həyəcanla xəbər aldı:

– A bala, nə olub, hara qaçırsan, qan-tərin içindəsən?!

Tövşüyə-tövşüyə ona dedim:

– Abış dayı, atam gəlib, atam gəlib, görməmisən?!

O məni sakitləşdirməyə çalışdı:

– Ay bala, mən səhərdən burdayam, elə bir xəbər olsaydı, eşidərdim. Özünü ələ al, görək nə məsələdi?

Abış dayı ilə xeyli fırlandıq, kimdən soruşduq, "gördüm" deyən olmadı. Bazarın yaxınlığındakı daşın üstündə oturub bir az dincimi aldım. Sonra yenidən kəndə doğru səmt götürdüm...

Kəndin ayağına çatanda rahat nəfəs aldım, kiminlə rastlaşırdım, mənə gözaydınlığı verir, bildirirdi ki, atan gəlib evdədir. Yorulmağıma baxmayaraq, evə dırmaşan yoxuşu birbaşa çıxdım. Kəndin adamları tökülüşüb bizə gəlmişdilər. İçəridə, bayırda yer yox idi. Məni irəli buraxdılar. Atam, anam Gülbaharın yanında oturmuşdu. Necə görüşdüyümüz yadımda qalmayıb, bircə onu xatırlayıram ki, atamın qolları arasından hönkürə-hönkürə

çıxdım...

Sonradan öyrəndim ki, Kərəm kişi atama Qafanda rast gəlib, kəndə birgə çatıblar. Birdən-birə evimizə gətirmək istəməyib, Cəfərli məhəlləsindəki öz evinə döndərib. Kərəm kişinin bu ağsaqqallığını sonradan başa düşdüm. Axı atam cəbhəyə gedəndən neçə il sonra, anam ağır xəstəliyə düçar olmuşdu. Onu qəfildən görsəydi, bəlkə də, dözə bilməzdi...

...Atamı cəbhəyə yola salanda mənim altı yaşım vardı, hələ məktəbə getmirdim. Məndən kiçik iki bacım, bir də nənəm anamın himayəsində qaldıq. Anam bizi saxlamaq üçün özünü oda-közə vurdu, gecə-gündüz əlləşdi. Axırda, xəstələnib, yorğan-döşəyə düşdü. Nənəmin ağlamaqdan gözləri tutuldu. Atam bütün bunları birdən-birə bilsəydi, dözə bilərdimi? Sözsüz ki, yox!Onsuz da, o, sağ qalmaq üçün odun-alovun içindən çıxmış, dözülməz ağrılara dözmüşdü. Krım cəbhəsindən mənim adıma kiçik bir məktub göndərmişdi. Hayıf ki, məktubu saxlaya bilməmişik. Məzmunu yadımdadır: "Oğlum Fikrət! Gözlərindən öpürəm. Həsənalı dayının yaralanıb, qayıtdığını eşitdim. Bəlkə də, taleyin hökmü beləymiş. Təki sağlıq olsun, dava qurtarar, yenə görüşərik. Anandan, nənəndən, bacılarından müğayət ol! Dərslərinə yaxşı fikir ver!"

Onun bu məktubu mənim həyata vəsiqəm oldu. Nə iş görsəm, onun məktubunu ilkin xatırlayırdım. On bir il atamın həsrətini çəkmişdim. Bu illərdə onun başına nələr gəlməmişdi; Krım cəbhəsində yaralanmış, əsir düşmüşdü. Almanların əsir düşərgəsindən qaçmış, amma sovet ordusuna qoşulan kimi, həbs edib, Sibirə-sürgünə göndərmişlər. Adam düşünündə dəhşətə gəlir; sovet torpağı uğrunda vuruşasan, qan tökəsən, axırda da səni qarlı-şaxtalı tayqa meşələrində ucuz fəhlə qüvvəsi kimi işlədələr?!

Atam qayıdandan sonra, bir il müxtəlif işlərdə çalışdı. Mən də məktəbi bitirdim və Azərbaycan Sənaye İnstitutuna imtahan verib, qəbul olundum. O, isə ömrünün axırına kimi, öz sənətindən ayrılmadı. 1940-cı ilin 13 noyabrında ona xalq maarifi sahəsindəki xidmətlərinə görə, "Əməkdar müəllim" fəxri adı verilmişdi. Sona qədər də bu adı şərəflə daşıdı.

Atamın adı gələndə hər yerdə mənə hörmət və ehtiram göstərirdilər. Bir hadisə heç vaxt unudulası deyil; instituta



yenicə qəbul olunmuşdum. Partiya tarixindən bizə Bəhlul Yusifov dərs deyirdi. İlk dərsdə jurnaldan soyadlarımızı bir-bir oxuyub, ayağa qaldırdı və hansı bölgədən olduğumuzu xəbər aldı. Biləndə ki, mən Qafan bölgəsindənəm, dedi:

– Mən İrəvan Türk Pedaqoji Texnikumunun direktoru olanda Qafandan yaxşı tələbələrim vardı. Sən kimin oğlusan?

Cavab verdim ki, Cahangir Rustəmovun.

Gözlüyünü çıxarıb, bir daha mənə nəzər saldı:

– Cahangir Rustəmov mənim ən yaxşı tələbələrimdən idi. İndi sağdırmı?



*Cahangir Rüstəmov (birinci sıra, ortada) İrəvan Pedaqoji Texnikumunun tələbələri arasında. 1930-cu il.*

Başımın hərəkəti ilə sağ olduğunu bildirdim. Atam haqqında xoş sözlər eşitdiyimdən uçmağa qanadım yox idi. Bəhlul müəllim bizə bir il dərs dedi. Məni görəndə atamı soruşar, salam söyləməyi tapşırardı...

Atam cəmi əlli bir il yaşadı. Görünür, keçdiyi yolun əzab-əziyyəti, məşəqqətli çağlar onun sağlamlığını vaxtından əvvəl, əlindən almışdı. 1962-ci ildə dünyasını dəyişdi. Onun dəfn gününü yaxşı xatırlayıram: bölgənin ziyalıları axışıb gəlmişdilər. Onun nə qədər hörmət və ehtirama layiq görüldüyünün bir daha şahidi oldum.

Məzarlıqda bir neçə adam danışdı. Hərə ürək ağrısı ilə öz sözünü söylədi. Bölgənin tanınmış maarif işçisi Bahadur İsmayılov göz yaşı içərisində dedi:

– Mən arzu etmişdim ki, Cahangirin çiynində gora gedim, ancaq tərsinə oldu. Həyatda elələri var ki, yaşasalar da, ölüdürlər, elələri də var ki, ölsələr də, daim yaşayırlar. Cahangir bu gün bizim aramızdan getsə belə, o hər zaman diridir, o bizim aramızdadır, o heç vaxt unudulmayacaq!..

Bölgənin tanınmış jurnalisti Abdulla İbrahimov isə öz müəllimi haqqında ürək sözlərini belə ifadə etdi:

– Cahangir Rustəmov sevimli müəllimlərimdən biri olub. 30-cu illərdə mən Yuxarı Girətağ kənd məktəbində oxuyurdüm. O zaman Cahangir müəllim bizə dil və ədəbiyyatdan dərs deyirdi. Təmkinli danışığı,səmimi rəftarı vardı. Onun dərslərini böyük səbrsizliklə gözləyirdik. Şagirdlərə elə qayğı ilə yanaşardı ki, elə bilərdin, valideyn öz övladını dindirir, ona öyüd verir, davranış öyrədir. Mən həyatda Cahangir müəllimdən çox şey öyrənmişəm, onun məzarı önündə baş əyirəm. Əlvida, əziz müəllimim, rahat uyu!

Fikrət Bəndəliyev sözünə ara verib, köks ötürdü:

– İndi neçə ildir ki, atam dünyasını dəyişib. Onun nəvə-nəticələri var. Onlara babaları haqqında iftixarla söhbət açıram...





## AĞABALA QULAMALI OĞLU BABAYEV

Əməkdar müəllim (1954), maarif xadimi, ictimaiyyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim, təcrübəli rəhbər işçi kimi tanınıb.

1916-1970

## SOL ƏLLƏ YAZILMIŞ DƏFTƏR

O günü qalın qar yağmışdı. Dağlar ağappaq idi. Yol-iz görünmürdü. Gığı kəndindən bir insan axını dağların qarlı yollarına düşmüşdü. Bu yerləri yaxşı tanıyan, dizi diri kişilər qarı yara-yara yol açır, onların arxasınca arvad-uşaqlar gedirdilər. Qulamalı kişinin ailə üzvləri də bu axının içində idi. Qabağa düşmüşdü; ardınca anası – yaşı yüzü haqlamış Xeyransa qarı əl ağacına söykənə-söykənə yeriyirdi. Onun arxasınca Qulamalı kişinin böyük oğlanları Məcnun və Fərman gedirdilər. Lap arxadan isə ömür-gün yoldaşı Mahpəri arvad gəlirdi; iki yaşlı Ağabalanı dalına bağlamışdı, qucağında qırxı təzəcə çıxmış Heydəri aparırdı. Ayaqlarını güclə atırdı, hərdən büdrəyir, ana qayğısı ilə körpələrini anıb, qəddini düzəldirdi. Qulamalı kişinin bir gözü arxada idi; arvadını büdrəyən görəndə özünü toplamağa çalışır, bacarmırdı:

- Ay Mahpəri, körpəni at, körpəni at!..

Bu yanıqlı səs qayalara düşürdü, qarlı dərələrdə əriyib yox olurdu. Ana özünü eşitməməzliyə vurur, canını dişinə tutub, axından geri qalmamağa çalışırdı. Ordubada doğru gedən yollar isə uzanır, uzanırdı...

Ordubadda ailənin qaçqınlıq çağları ağır keçdi; kənddən kəndə düşdülər, dözülməz günlər yaşadılar. Mahpəri arvad tez-tez xəstələnirdi, qarlı-boranlı yollar, aclıq, ehtiyac onu haldan salmışdı. Körpə Heydərə günlərlə süd verə bilmirdi...

Neçə ayı dözülməz həyat keçirdilər. Xeyransa qarı oğluna yalvarırdı ki, ata yurdu Ballıqaya kəndinə köçsünlər, orada onun qohumları yaşayırdılar. Onlara da köməkləri dəyər. Əlacsız qalan Qulamalı kişi Qubadlı bölgəsinin Ballıqaya kəndinə köçməli oldu. Bir il də orda qaldılar. Mahpəri arvad ağrılara, acılara tab gətirməyib, dünyasını dəyişdi. Körpə Heydər yeddi aylığından yetim qaldı...

Neçə vaxtdı, Ağabala müəllim barəsində xatirə söyləyəcək bir adam gəzirdim. Dedilər ki, qardaşı Heydər sağdır. Soraqlaşıb ünvanını tapdım. Yeni Günəşli qəsəbəsində təzə mənzil veriblər. Həm özü müharibə əlili, həm də oğlu Bəhram Qarabağ savaşı veteranıdır. Qırxlı çağında qaçqınlıq ağrılarını yaşayan Heydər kişi ilə 82 yaşında görüşdüm. İllərin qara yelləri neçə kərə başının üstündən əsib keçsə də, dözümlü olub, mərd dayanıb, indi çoxsaylı nəvəli günlərini yaşayır.

Onun söhbətlərindən öyrəndiyim bunlardır: ulu babaları İsmayıl özü Qara Yaqubun nəslindəndir. Atası Qulamalı kişi İsmayılın nəvəsi, Babanın oğludur. Qulamalının anası Xeyransa arvad Qaçaq Nəbinin doğmaca xalasıdır. Baba kişi onu Ballıqaya kəndindən gətirib. Qaçaq Nəbi Gığı kəndindən keçəndə həmişə onlarda qalarmış.

Ballıqayadan qayıdandan az sonra, Qulamalı kişi ömrünü uşaqlarına tapşırıb. Böyük qardaşlar Məcnun və Fərman ailənin qayğısını çəkməli olublar. Lakin bu azmış kimi, 20-ci illərin sonlarına yaxın Məcnun da dünyadan gedib. Ağabala ilə Heydəri böyütmək qayğısı tamamilə Fərmanın üzərinə düşüb. O, çobanlıq edir, qoyun saxlayır, bunun hesabına ailəni dolandırırdı.

1930-cu il idi. Gığı kəndində məktəb açılmışdı. Ağabalanın yaşıdları məktəbə yazılırdılar. Artıq onun 14 yaşı vardı. Bir neçə il də keçsəydi, oxumağı çətinləşəcəkdi. Ona görə, Fərman qardaşı Ağabalanı da məktəbə qoydu, "mən oxuya bilmədim,



barı, sən oxu, bir yana çıx!"-dedi.

Ağabala böyük həvəslə məktəbə getdi. İlk müəllimi Sisyan bölgəsinin Urud kəndindən gəlmiş Məmməd İsgəndərov oldu (M.İsgəndərov sonralar həm Ermənistanda, həm də Azərbaycanda mühüm rəhbər vəzifələrdə çalışıb-R.T.).

1932-ci ildə Heydər də məktəbə getdi. İndi qardaşları Fərmanın işi daha da çətinləşdi. Vəziyyət gündən-günə ağırlaşırdı. Mal-qaranı da əlindən alıb, kolxozun malı etmişdilər. Bir neçə il belə keçdi.Fərman gördü ki, iki uşağı oxutdurmaq çətindi, ona görə, Ağabalanı beşinci sinifdən qaytarıb, çobançılığa göndərdi. Həmin illərdə Gığı kənd yeddiilllik məktəbinin direktoru Yuxarı Girətağ kəndindən gəlmiş Həbib İsmayılov idi. Ağabala əlaçı oxuyurdu. Belə bir şagirdin məktəbdən uzaqlaşdırılmasına direktor dözə bilməzdi.Odur ki, Fərmanı kənd sovetinə çağırıb, xeyli danladı, hətta Ağabalanı məktəbə göndərməsə, məhkəməyə verəcəyi ilə hədələdi. Fərman Ağabalanı həmin günün səhəri məktəbə göndərdi, elə o vaxtdan bir daha təhsildən yayınmadı. Heydər kişinin dediyinə görə, qardaşı Həbib İsmayılovun bu xeyirxahlığını həmişə yada salar və onu minnətdarlıqla xatırlardı.

1937-ci il idi. Ağabala 7-ci sinfi əla qiymətlərlə bitirmişdi. Tay-tuşlarından bəziləri İrəvana oxumağa gedirdilər. Ancaq qardaşı Fərmanın onu oxutdurmağa imkanı yox idi. Təhsili də yarımçıq qoymaq insafsızlıq olardı. Fərman çox götür-qoy etmədi. İki erkəyi vardı, onları ordubadlılara satıb, Ağabalanı Yusif kişinin oğlu Əsgərlə İrəvana yola saldı. Hər ikisi İrəvan Pedaqoji Texnikumuna daxil oldu...

1940-cı ildə Ağabala texnikumu bitirib, kəndə qayıtdı. Onu Qafanın Xələc kənd məktəbinə müəllim təyin etdilər. Bir il orada işlədikdən sonra, Kurud kənd məktəbinə dəyişdilər. 1942-ci ilə kimi , orada çalışdı. Həmin il isə səfərbərliyə alıb, cəbhəyə apardılar...

Heydər kişi cəbhə xatirələrini ağlaya-ağlaya danışırdı:

– Ağabalanın cəbhəyə getməsindən xəbərim olmamışdı. Axı mən İrəvanda ikiillik baytarlıq kursunu bitirdikdən sonra,

kolxozda briqadir işləmişdim. 1940-cı ildən isə əsgərliyə çağırmışdılar. Davanı Ukraynanın Pervomaysk şəhərində qarşıladım. Bizim hərbi hissənin əsgərləri vuruşa-vuruşa geri çəkilirdilər. Nikolayev şəhərində yaralandım. Şimali Qafqazın İzbirk şəhərində müalicə olunduqdan sonra, yenidən cəbhəyə göndərdilər. Evdən, qardaşlarımdan heç bir sorağım yox idi. Krımdan Kalininqrada qədər 416-cı dviziyanın tərkibində döyüş yolu keçdim. Ancaq Latviya döyüşlərində sağ qolumdan yaralandım. Məni Moskvaya, oradan da Kuybışevə apardılar. Sonuncu dəfə Berzinsk şəhərində müalicə olundum. Lakin yaram çox ağır idi, Qafana qolumda gips qayıtdım...

İstədim ki, burada gipsi sökdürüm, qolu sarıqlı kəndə getmək ürəyimcə deyildi. Gecə qatarlı Piri müəllimgildə qaldım. Səhəri birgə həkimə getdik. Məsləhət bilmədilər, ona görə, qolu sarıqlı getməli oldum...

Yaxşı xatırlayıram, 1944-cü ilin dekabr ayının 24-ü idi.Üçqat ağrı içində kəndə qayıdırdım; Piri müəllimgildə demişdilər ki, qardaşlarının hər ikisi sağdır, ancaq Ağabalanın sağ qolunu kəsiblər, Fərman isə sağ qolundan yaralanıb...

Kəndə yetişdim, qardaşlarım qarşıma yüyürdülər. Qucaqlaşdıq, hönkürdük, bir qolla bir-birimizə sarıldıq. Bizi zorla ayırdılar. Ağabala dedi:

– Mənim sağ qolum iki qardaşımdır, onlar qayıdıblar, bəsimdir!

Ağabala Babayev bu görüşdən bir il əvvəl, geri dönmüşdü. Mozdok döyüşlərində yaralanmış, Soçidə sağ qolunu kəsmişdilər. Doğma məktəbində müəllim işləyirdi. Amma birdən-birə sol əllə qələm tutması olduqca çətin idi. Odur ki, sol əli ilə yazmağı öyrənməliydi. Saatlarca oturub, sol əllə yazmağı vərdiş eləyirdi. Heydər kişi onun bir dəftərini yadigar saxlayır. Bu dəftər Ağabala Babayevin sol əllə tutduğu dərs planlarıdır. İlk baxışda xətti sezmək o qədər də asan deyil! Deməli, insan çalışanda öz istəyinə yetişər, bir şərtlə ki, inamın, iradən olsun!

1950-ci ildə onu Kığı orta məktəbinə direktor təyin etdilər. Ali təhsil almağı da unutmadı; iki il sonra, Bakıda Pedaqoji



İnstitutu qiyabi yolla bitirdi. İxtisasca tarixçi idi. Həm tarixdən dərs deyir, həm də əsrin acı günlərini yaşayırdı. Bir müddət kolxozun partiya təşkilatının katibi də işlədi. Lakin onun əsas vəzifəsi, gənc nəslin təlim-tərbiyəsi idi. 20 il həmin məktəbin direktoru oldu. Ömrü vəfa etsəydi, sözsüz, uzun müddət öz vəzifəsindən ayrılmayacaqdı...

1954-cü ildə ona xalq təhsili sahəsində xidmətlərinə görə, "Əməkdar müəllim" fəxri adı verildi. Ağabala Babayev bölgə üzrə dördüncü azərbaycanlı müəllim idi ki, bu ada layiq görülürdü.



*Ağabala Babayev (solda) müəllim dostu Nurəli Qurbanovla birlikdə. 1950-ci il.*

Müharibə veteranı kimi, onu vaxtaşırı orden və medallarla təltif edirdilər. Bunlar ona sevinc gətirmirdi, şadlıq bəxş etmirdi, yalnız ömrünün qara günlərini yada salırdı. Onu sevindirən, ürəyini iftixar hissi ilə dolduran başqa məsələlər idi. Dərs dediyi şagirdlərinin uğurları, ad-san qazanmaları həmişə onun sevincini artırırdı. Belə şagirdlər isə bir deyil, beş deyil, onlarla idilər...

Rayonun rəhbər təşkilatları içərisində nüfuzu vardı. Bu təşkilatların bir çoxunun rəhbər orqanlarının üzvü seçilmişdi.

Ağabala Babayev 1970-ci ilin oktyabr ayının 15-də öz

dünyasını dəyişdi. Tabutunu doğma məktəbin binasından qaldırdılar. Dəfn mərasiminə bölgənin ətraf kəndlərindən xeyli adam gəlmişdi. Əlbəttə, onların içərisində Ağabala müəllimin həmkarları, dostları və keçmiş şagirdləri də vardı. Onlar yaxşı dost, gözəl müəllimlə son dəfə vidalaşırdılar.

O, eyni zamanda, qayğıkeş bir ata idi. İndi Bakıda 3 oğlu, iki qızı yaşayır. Qızları Şərqiyyə və Gülnar atalarının sevimli müəllimlik sənətini davam etdirirlər.

Ağabala Babayevin doğmalarının və şagirdlərinin yaddaşlarında şirin xatirəsi yaşayır, bir də Heydər kişinin illər boyu əzizləyə-əzizləyə qoruduğu sol əlin nişanəsi dərs planı dəftəri...

**SÖZ ARDI.** Heydər kişi bu yazını oxuya bilmədi; bir neçə il öncə, dünyasını dəyişib... Ruhuna min hörmət!...





1918-1988

## HƏSƏN ABIŞ OĞLU ŞƏKƏRƏLİYEV

Əməkdar müəllim (1957), maarif işçisi, əmək veteranı, el ağsaqqalı. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim, təcrübəli rəhbər işçi kimi tanınıb.

## "BU SƏNƏTƏ ELƏ BAĞLANMIŞAM Kİ..."

"Qafan" qəzetinin 1988-ci il, 5 aprel tarixli nömrəsində bir nekroloq dərc olunmuşdu. Orada xəbər verilirdi ki, qocaman müəllim Həsən Şəkərəliyev dünyasını dəyişib. Sonra isə qeyd edilirdi: " Parlaq xatirəsi onun yetirmələrinin, iş yoldaşlarının qəlbində əbədi yaşayacaqdır!" Lakin onun hansı gündə dünyaya göz yumduğu göstərilmirdi. Övladları həmin nekroloqu kəsib saxlamış, üstündə atalarının vəfatı tarixini dəqiq göstərmişdilər:

"26. III. 1988, saat 10"

Bu, Həsən Şəkərəliyevin dünya işığına son dəfə baxdığı, varlığa vida etdiyi son zaman kəsiyidir. 70 illik həyat yolunu isə özü belə şərh edir:

“1918-ci ilin əvvəllərində Zəngəzur qəzası, Qafan bölgəsindəki Pürülü kəndində yoxsul ailədə anadan olmuşam. 1919-cu ildə daşnaklar kəndimizi dağıtmışdılar. Atam Abış Şəkərəli oğlu Mehrəliyev (1879-1969) və anam Nuricahan Əziz qızı Mehrəliyeva (1885-1980) minbir əzab-əziyyətlə bizi Naxçıvana aparmışdılar. Bir ilə yaxın orada baş girləmişik. 1920-ci ildə Qubadlı bölgəsinin Xocahan kəndinə pənah aparmışıq. Kəndin ağsaqqalı Əliş bəy bizə böyük xeyirxahlıq

göstərmiş, ailəmizin dolanışığı üçün öz köməyini əsirgəməmişdi. 1921-ci ildə yenidən kəndimizə qayıtdıq. Uşaqlığım Pürülü kəndində keçib.

Kəndimizdə məktəb yox idi. Ona görə, məni 1925-ci ildə Baharlı kəndindəki ibtidai məktəbə qoydular. İlk müəllimim Əbülfəz Bəxtiyarov olub. Sonrakı siniflərdə isə Qafan bölgəsində öncül maarif işçisi kimi ad çıxarmış Bahadur İsmayılov mənə dərs deyib. Qafan şəhər məktəbində 5-ci sinfi bitirdikdən sonra, xəstə olduğum üçün bir il məktəbə getməmişəm.

1931-1933-cü illərdə Qafan bölgəsinin Yuxarı Girətağ kəndindəki Kolxoz Gənclər Məktəbində oxumuşam. Bu məktəbi bitirənlər aqronomluq və baytarlıq ixtisaslarına da yiyələnirdilər.

1933-cü ildə kəndimizdə yay müəllimlər kursu təşkil olunmuşdu. Həmin kursa məni müdir təyin etdilər. İlk əmək fəaliyyətim buradan başlayır. 1934-cü ilə kimi Gığı və Kurud kəndlərində həm bağça müdiri, həm də müəllim kimi çalışdım. O zaman müəllimim Bahadur İsmayılov rayon Maarif Şöbəsinin təlimatçısı idi. Onun məsləhəti ilə 1934-cü ildə İrəvan Pedaqoji Texnikumuna daxil oldum. 1937-ci ildə texnikumu əla diplomla bitirdim. Məni Mığrı bölgəsinə göndərdilər. Orada isə Aldərə kənd məktəbində dərs hissə müdiri vəzifəsində işləməli idim. Lakin Qafan rayon Maarif Şöbəsinin təkidi ilə öz kəndimizə qayıtdım. Bir il Pürülü kənd ibtidai məktəbinin müdiri vəzifəsində çalışdım. 1938-ci ildə məni Gığı kənd orta məktəbinə dərs hissə müdiri və riyaziyyat müəllimi təyin etdilər. 1954-cü ilə qədər həmin vəzifədə çalışdım.

O zamandan Gığı kənd orta məktəbinin riyaziyyat müəllimiyəm. Bu sənətə elə bağlanmışam ki, ondan ayrılmaq heç təsəvvürümə gəlməz! Uzun illər müəllimlərin avqust müşavirələrində mühazirələr oxumaqla riyaziyyat bölməsinə rəhbərlik etmişəm. Müəllimlərin və 8-10-cu sinif şagirdlərinin təkmilləşdirmə kurslarında dərs demişəm. Rayonda keçirilən riyaziyyat üzrə bir sıra olimpiadaların münsiflər heyətinin üzvü seçilmişəm.

Müəllim işləməklə bərabər, ali təhsil almağı da



unutmamışam. 1946-cı ildə İrəvan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşam. 1948-ci ildə Ermənistanda yaşayan azərbaycanlılar deportasiyaya məruz qaldılar. Bu tarixi cinayətin nəticəsində mənim təhsil aldığım institut da Bakıya köçürüldü.

1949-1951-ci illərdə öz təhsilimi Bakıda davam etdirdim.

İstər çalışdığım məktəbin, istərsə də kəndin ictimai işlərində fəallıq göstərmişəm. 1957-ci ildə "Əməkdar müəllim", 1979-cu ildə isə "Baş müəllim" fəxri adlarına layiq görülmüşəm. Bir sıra medallar, döş nişanları, Fəxri fərmanlar və "Əmək veteranı" medalı ilə təltif olunmuşam.



*Həsən Şəkərəliyev (ortada) Gığı kənd orta məktəbinin müəllimləri arasında. 1950-ci il.*

Böyük bir ailəyə başçılıq etmişəm. 3 oğul və 4 qız böyütmüşəm. Onların təhsil almasına və ailə qurmasına ayrıca qayğı ilə yanaşmışam. İndi bir baba kimi, iftixar hissi keçirirəm ki, 21 nəvəm var...

Bir də ona görə ürəkdən sevinirəm ki, dərs dediyim şagirdlərdən neçə-neçə yüksək ixtisas sahibi yetişib, 20-dən çox dissertasiya müdafiə edib, alimlik dərəcəsi alanlar var!.."

Həsən Şəkərəliyev öz şərəfli həyat yolu barədə qeydlərini 1981-ci il, mart ayının 10-da yazıya almışdı. Lakin o bilmirdi ki,

onun xatirəsini əziz tutanları, onun ürəkdən bağlandığı müqəddəs müəllimlik sənətini yaşadanları gələcəkdə nələr gözləyir! O, kommunist partiyasına, Sovet hökumətinə inanmışdı, bütün əməyini xalqın aldandığı bir quruluşun təbliğinə həsr edirdi. Ağlına gəlməzdi ki, belə bir quruluşun gizli millətçi sütunlarına söykənən erməni-daşnak tör-töküntüləri onun əzizlərini öz doğma yurdlarından didərgin salacaqlar! Həsən Şəkərəliyev qaçqınlıq, didərginlik illərini, repressiya çağlarını, müharibənin dözülməz ağırlığını, köçürülmə hədə-qorxusunu görmüşdü. Bunları yada saldıqca ürəyi göynəyirdi. Ancaq onun vəfatından heç onca ay keçməmiş, azğınlar yenidən azğınlıq törətdilər; əzizləri, doğmaları, yerliləri öz torpaqlarına həsrət qoydular. Həsən müəllimin isə ruhu həmişəlik o dağlarda dolaşacaqdı.





1912

## AĞƏLİ İSMAYIL OĞLU BƏDƏLOV

Əməkdar müəllim (1960), ictimai xadim, jurnalist. Daha çox pedaqoq-jurnalist və maarif xadimi kimi tanınıb.

### ALTI YAŞI OLANDA

60-cı illərdə Damba qəsəbəsindəki 231 saylı məktəbdə müəllim işləyirdim. Əmim Məhəmməd Əzizov həmin məktəbin direktoru idi, məni də öz yanına aparmışdı. Elektrik qatarı ilə gedib-gəlirdim. Mənim kimi dərs demək üçün gedib-gələn müəllim çox idi. Qafan bölgəsindən bir müəllimlə də tanış olmuşdum (adı yadımdan çıxıb). Zirə qəsəbə məktəbində dərs deyirdi. O mənə danışmışdı ki, hazırda "Azərbaycan müəllimi" qəzetinin redaktoru olan Ağəli Bədəlov bizim bölgədəndir, özü də mənim qohumumdur. Düzü, o çağdan Ağəli müəllimlə tanış olmaq, oturub onunla üz-üzə söhbət etmək istəyində olmuşam. Ancaq elə bir məqam düşməyib. Qafan bölgəsinin tanınmış adamlarından kitab tərtib edəndə burada Ağəli müəllim barəsində yazı verməyi vacib bildim. Onunla görüşməyi həmkarım Bahadur İsaqoğlu öz öhdəsinə götürdü. Deməyəsən, Ağəli Bədəlov 87 yaşı olmasına baxmayaraq, indi də 132 saylı məktəbdə öz pedaqoji fəaliyyətini davam etdirirmiş. O, 1997-ci ildə nəşr olunmuş "Çətin yollardan keçən illər" adlı kitabı Bahadur müəllimə vermiş və demişdir: "-Burada mənim haqqımda kifayət qədər yazılıb, istifdə edə bilərsiniz!"

Doğrudan da, kitabda gedən yazılarla tanış olduqca, elə bil, Ağəli müəllimlə üz-üzə söhbət edirdim. Onun Qafan bölgəsindəki yer adlarını dəqiqliklə yadında saxlaması mənə xoş təsir bağışladı.

Anadan olmasının 85, pedaqoji fəaliyyətinin 65 illiyi münasibətilə buraxılmış, jurnalist həmkarı Bahəddin Yunusovun tərtib etdiyi bu kitabda daha nələr yoxdu: şagirdlərinin, jurnalist dostlarının xatirə-yazıları, özünün müxtəlif illərdə qələmə aldığı məqalələrdən seçmələr, fotoşəkillər və s. Bunlar tanınmış maarif xadiminin həyat yolunun ən önəmli, ən məşəqqətli anlarını özündə əks etdirir...

Altı yaşında olanda Ağəli Bədəlov ömrünün çox ağır və dəhşətli çağlarını yaşayıb; azğın daşnak guruhunun qanlı əlləri doğma kəndini dağıdıb, əziz atası İsmayılı, sevimli anası Sonanı öldürüb, qohumlarını, yaxınlarını qətlə yetirib. Yetimlik illəri də o çağdan başlayıb.

**Özünün "Faciələr abidəsi" yazısından:**

"- Səbahəddin Eloğlunun "Zəngəzur hadisələri" kitabında maraqlı yazılardan biri də Dorhnu faciəsi barədədir. Bu mənim doğulduğum kənddir. Kitabı oxuduqca türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsildikdən sonra, qaçıb İrəvana gəlmiş Andronik Ozanyanın Zəngəzurda azərbaycanlıları qırdırması, el-obalarından qovdurması yenidən gözlərimin önündə canlandı.

"Zəngəzur hadisələri" bir daha acı xatirələri yada saldı. Dorhnu olduqca gözəl, səfalı, bağlı-bağatlı kənd idi. Çoxlı yaylaqları vardı; Kölgəli, Gölqırağı, Dəyələr, Daşbaşı, Saycahan, Təpəsər, İncəbel, Oğlannıca, Dəvəboynu... Zəngəzurlular bu yaylaqlarda dincəlməyə gəlirdilər. Ermənilər sonralar kəndin adını dəyişib, Andraşad (Meşəli) qoyublar. Burada azərbaycanlılarla ermənilər birgə yaşayırdılar. 1918-ci ildə bu birgə yaşayışa son qoyuldu, ermənilər azərbaycanlıları topa, tüfəngə tutub, qılıncdan keçirib, öz ev-eşiklərindən, isti yuvalarından qovdular.

Dorhnu ilə yanaşı, Hünüt, Qaradığa, Oxdar, Dorvus, Çobanlı və başqa kəndlər də yerlə yeksan oldu, evlər qarət edildi. Qaçan qaçdı, imkanı olmayanlar qırıldılar.



Yadımdadır, səhər saat 10 olardı. Bacımla əmimgilə gedirdik. Onlara yenicə çatmışdıq ki, kəndi hər tərəfdən atəşə tutdular. Bacımla birlikdə qonşu Hünüt kəndinə, bibimin yanına qaçdıq. Camaatı bu kənddən də qovdular. Camat üz qoydu meşələrə, dağlara. Dağların zirvələrindən tamaşa etdikdə kəndlərin yandırılıb, qarət olunduğunu aydınca görürdük.

Kitabda adı çəkilən Qaraş mənim bibim oğlu idi. O, cəsur, igid, qorxmaz bir oğlan idi. Sərrast atəşlə ermənilərə layiqli cavab verirdi.

Ermənilərin əlindən canımızı qurtarmaq üçün qaçıb qonşu Qubadlı rayonunun kəndlərinə getmişdik.

Bu qaçhaqaçda yaxın adamlarımızı, valideynlərimizi də itirmişdik. Kimsəsiz qalmışdıq. Bibim bizi Xanlıq kəndində yetimxanaya verdi. Bura təzə təşkil edildiyindən çox kasıb idi. Biz gecə alaçıqların içində yatırdıq. Bir dəfə bibim bizə baş çəkib, qayıdanda körpüdən yıxılıb, suda boğuldu. Biz kimsəsiz qaldıq..."

Sözsüz ki, bu hadisədən sonra, Ağəli Bədəlovun günləri daha ağır və acınacaqlı keçib. Həmin günləri adi sözlərlə təsvir etmək də çox çətindir. Lakin taleyin bu dözülməz sınağından qaçmaqmı olardı?! Ömür yolunun sonrakı illəri çox zaman Ağəli Bədəlovun özünün dözüm və iradəsindən, istedad və bacarığından asılı olub.

**M.Əbdülovun "Mənalı həyat yolu" yazısından:**

– Kimsəsiz, yetim qalan Ağəlini Qubadlı rayonundakı Xanlıq kəndində açılmış yetimxanaya verirlər. Sonradan yetimxana Qaryagin (indiki Füzuli - R.T.) rayonuna, oradan da Ağdama köçürülür və burada möhkəmlənir. Beləliklə, Ağəlinin uşaqlıq illəri yetimxanada – uşaq evində keçir.

Bir neçə il ötəndən sonra, Bakının Ramana kəndində yaşayan, neft mədənlərində fəhləlik edən yaxın qohumu Nağı Hacıyev Ağəlini Ağdamda tapır və Bakıya - öz yanına gətirir. Onun himayədarlığı ilə Ağəli 1924-cü ildə Sabunçudakı 23 saylı məktəbdə təhsil almağa başlayır. 1929-cu ildə o, Ağdamda yenicə açılmış pioner düşərgəsinə göndərilir. Bir neçə ay pioner baş dəstə rəhbəri işləyir. Həmin ilin sentyabr ayından isə Laçın qəsəbəsindəki kəndli gənclər məktəbində oxuması məsləhət

görülür. Bu məktəbdə hər şey dövlət hesabına idi. Oxumaqla yanaşı, rayon komsomol komitəsində məktəb şöbəsinin müdiri vəzifəsində də çalışır.

1930-cu ildə yenidən Ağdama qayıdan Ağəli Bədəlov ali məktəb kursunu bitirib, Azərbaycan Ali Pedaqoji İnstitutunun dil-ədəbiyyat şöbəsinə qəbul olunur. Ən önəmlisi odur ki, o burada Əbdürrəhim bəy Haqverdiyev, Bəkir Çobanzadə, Əli Nazim, Mehdi Mehdizadə, Mikayıl Rəfili, Əli Sultanlı, Hənəfi Zeynallı kimi tanınmış alim və pedaqoqlardan dərs alır, təhsil ocağının ictimai həyatında fəallıq göstərir.

Ağəli Bədəlov 1933-cü ildə pedaqoji institutda ali təhsilini başa çatdırır və Ağdama göndəriş alır. O, Ağdam Pedaqoji Texnikumunda dil və ədəbiyyat dərslərini aparmağa başlayır və 1939-cu ilin sentyabr ayına kimi burada çalışır.

... 1939-cu ilin oktyabr ayında Ağəli Bədəlov Bakıya köçür və "Gənc işçi" qəzeti redaksiyasında işə girir.

1941-ci il iyun ayının 20-də rayon hərbi komissarlığı onu 45 günlüyə hərbi toplanışa göndərir. Lakin hərbi məşqlərdə bircə gün iştirak edə bilir. İyunun 22-də başlanan qanlı-qadalı savaş onu da cəbhəyə getməyə məcbur edir. Düz beş il ağır döyüşlərin iştirakçısı olur...

... 1946-cı ilin yanvar ayından ordudan tərxis edilir. Əvvəlcə, partiya komitəsinin təbliğat-təşviqat şöbəsində işləyir, altı aydan sonra isə rayon maarif şöbəsinin müdiri təyin olunur. Eyni zamanda, Bakıdakı 190 saylı məktəbdə sevdiyi müəllimlik sənətini davam etdirir. Onun maarif şöbəsində təlim-tərbiyə sahəsində apardığı səmərəli işi ictimaiyyət tərəfindən hörmət və rəğbətlə qarşılanır. Ağəli Bədəlovun beş dəfə rayon və Bakı şəhər Sovetinə deputat seçilməsi də bu hörmətin real nəticəsi idi.

1953-cü ilin ilk ayından onu "Azərbaycan müəllimi" qəzetinin redaktorunun müavini təyin edirlər. İki il bu vəzifəni uğurla aparır. 1955-ci ildən qəzetin redaktorluğu ona tapşırılır. O, 1966-cı ilin may ayının 18-nə kimi həmin qəzetə redaktorluq etmişdir.

...Ağəli Bədəlov ayrı-ayrı vaxtlarda Bakıdakı 4 saylı internat məktəbinin direktoru, 7 saylı məktəbin direktoru vəzifələrində



də çalışmışdır. 1974-cü ilin iyun ayından təqaüdə çıxsa da, 132 saylı məktəbdə dərs deyir.

1960-cı ildə ona "Əməkdar müəllim" fəxri adı verilmişdir. Eyni zamanda, "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif edilmiş, əməyi bir neçə orden və 15-dən çox medalla qiymətləndirilmişdir...

**B.Yunusovun "İşıqlı adam" məqaləsindən:**

"- Ot kökü üstə bitər, deyiblər. Ağəli müəllimin ailəsinin timsalında bunu aydın görürük. Həyat yoldaşı, respublikanın əməkdar müəllimi Tovuz xanım bütün ömrünü müəllimlik peşəsinə sərf etdi, şərəflə dünyasını dəyişdi. Oğlanları Tariyel və Eldar, qızı Tamella elmlər namizədi kimi müxtəlif ali məktəblərdə, qızı Sona orta məktəbdə dərs deyirlər, yalnız kiçik oğlu İsmayıl iqtisadçı peşəsini seçibdir. Ağəli müəllimin... ömrünün zirvəsindən arxaya boylananda illərin açdığı naxışlar daha aydın görünür, gözlərimiz önündə böyük bir ümman canlanır. Mənalı ömrün səhifələrini vərəqlədikcə dərin fikrə dalır və deyirsən: minlərin, on minlərin məhəbbətini qazanmış bu nurlu kişi dünyanın ən işıqlı adamıdır..."

Mənə elə gəlir ki, Ağəli müəllimdən bəhs açan belə yazılar bunlarla bitmir. Onun həyat və fəaliyyətinin işığında bundan sonra daha maraqlı yazılar qələmə alınacaq...



## ƏLİŞ ALLAHVERDİ OĞLU QARAYEV

Əməkdar müəllim (1960), maarif xadimi, ictimaiyyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim, rəhbər işçi kimi tanınıb.

**1922-1989**

## QAZANGÖL YOLUNA GÜZGÜ TUTMUŞDU...

Dan yerinin ala-toranlığında Gərd kəndindən iki atlı yola düşdü; onlardan biri Allahverdi kişi, o biri isə Əbdüləli kişi idi. Oğlanları Əliş və Əhmədi oxumaq üçün İrəvana yola salmağa aparırdılar. Atlar Ərimməz dağına doğru gedirdi. Oğlanlar da atlılardan geri qalmamağa çalışırdılar...

1937-ci ilin sentyabr ayının ortaları idi. Bu il Əlişlə Əhməd İrəvan Pedaqoji Texnikumuna qəbul olunmuşdular. Dərslər bir az gec başlanacaqdı. İrəvanda 15-20 gün qalmağa yerləri yox idi, hələ texnikumun yataqxanası təmir edilməmişdi. Qatarla Naxçıvana gəlib, oradan dağ yolları ilə piyada hərə öz kəndinə dönmüşdü. İndi həmin yolları əksinə cözələyirdilər...

Əliş Əhmədlə yanaşı yeriyirdi; gah qabağa boylanır, gah da çönüb kəndə baxırdı. Ürəyində iki duyğu baş qaldırmışdı; təhsilini davam etdirmək həvəsi onu irəli çəkir, kənddən, ata-anasından, qardaş-bacısından ayrılmaq qorxusu yerişini yavaşıdırdı. Bacısı Firuzə olmasaydı, bəlkə də, bu gün yola düşməz, oxumaqdan biryolluq qalardı...

Təzə şalvar geymişdi. Allahverdi kişinin onu tikdirməkdən ötrü neçə gündən bəri nələr çəkdiyini xatırladıqca atın üstündə gedən atasına minnətdarlıq duyğusu ilə baxırdı.



Allahverdi kişi oğlunu İrəvana yola salmaq üçün kimdənsə pul tapmalı idi. Neçə vaxtdı, soraqlaşırdı. Gümanı Ordubadın Üstüpü kəndindən olan Məşədi Əsədə gəlirdi. Bilirdi ki, o, təzə yaylağa köçüb. Bəlkə, pul yalnız onda ola; varlı-karlı adamdı, alqı-satqıda da əli pis gətirmirdi. Əliş üçün bir erkək saxlamışdı, qət eylədi ki, onu Məşədi Əsədə 150 manata satsın. Məşədi Əsəd isə xeyirxah adamdı; uşağını oxumağa göndərmək istədiyini bilən kimi, heç erkəyə baxmadan Allahverdi kişiyə 170 manat vermişdi. Kişi ömrü boyu bu xeyirxahlıqdan övladlarına danışardı...

Əlişin təzə şalvarını Gödəkli kəndindən olan dərzi Azada tikdirmiş, haqqını da həmin puldan ödəmişdi. Pulun qalanını isə anası Mina arvad Əlişə vermişdi ki, saxlasın. Birdən yola düşəndə yadından çıxar. İki gün əvvəl, kənddə toy idi. Əliş təzə şalvarını geyib, toya getmişdi. Toydan qayıdanda, necə olmuşdusa, pulu itirmişdi. Səhərisi evdə böyük çaxnaşma düşdü; axtarmadıqları, baxmadıqları yer qalmadı. Lakin pul tapılmadı ki, tapılmadı. Olacaqlı kimi, gecə yağış da yağmışdı. Kim bilir, pul yolda düşmüşdüssə, yağış suları onu dərənin hansı qatına aparıb atmışdı?! Əliş eyvanda oturub, dalğın-dalğın dağlara baxırdı. Keçən gün harada gəzdiyini, hansı yerlərdə olduğunu yadına salmağa çalışırdı. Fikir onu götürmüşdü; pul tapılmasa, İrəvana gedə bilməyəcək, təhsili yarımçıq qalacaq, bir şam kimi alışan həvəsi sönəcək!...

Elə bu vaxt bacısı Firuzənin səsi onu xəyaldan ayırdı:

– Qağa, tapmışam, pulu tapmışam!

– Evdəkilər hamısı çölə tökülüşdü. Firuzə bir dəstə islaq pulu əlində tutmuşdu. Əliş yerindən dik qalxıb, bacısını bağrına basdı, onu öpdü. Yoluna sel-su yağdıran qara bulud dağıldı, fikri ayazıdı, üzünə-gözünə təbəssüm qondu. Bu pul itə bilməzdi, Məşədi Əsəd onu xeyirxahlıqla vermişdi! Xeyirxahlıqla görülən iş isə həyatda heç zaman itmir!..

Yol dağlar gözəli Qazangölün qənşərindən keçirdi. Artıq onun yaxınlığında idilər. Səhərin şəfəqi göyün üzündə əks olunurdu. Yollardan süzülən işıq selləri bu göl-qazana səpələnirdi. Əlişə elə gəlirdi ki, dünyanın heç bir yerində belə sirli-sehrli, gözəl-göyçək göl mənzərəsi yaranmayıb. Uşaq

düşüncəsində onu sehrli güzgüyə bənzədirdi. Sanki Qazangöl yaranışdan yolçuların yoluna güzgü tutur. O bu güzgüdə öz həyat yolunun da əks olunduğunu zənn edirdi. Bu yolun başlanğıcı Gərd kəndindən İrəvan şəhərinə qədər gedib çatırdı. Onu qabaqda yeni və şərəfli təhsil illəri gözləyirdi...

Dibəkli yaylağından keçib, Ərimezdən aşdılar və atları Culfa çayı boyunca düz İlanlı dağa qədər sürdülər. Sonra Nehrəm kəndinin yanından ötüb, Naxçıvan stansiyasına yetişdilər. Hələ qatar gəlməmişdi. Əliş atasıgildən ayrılıb, vağzala girdi. Qatarın gəlmə və yoladüşmə vaxtını öyrənib, onların yanına döndü. Bu ayıqlığını görən Allahverdi kişi gözdolusu oğlunu süzdü, ürəyindən isti bir duyğu keçdi: "Əliş balam başı palaz altda qalan oğul deyil!"

Həmin günün axşamı Naxçıvan-Gərd yolu ilə iki atlı geri qayıdırdı; iki atlı, iki ata! Oğullarını maarif işığı, bilik nuru ardınca yollamışdılar. Bu yol Gərdin yolları kimi enişli-yoxuşlu, əyrim-üyrüm, dolama-dolama idi. Hər oğul bu yolu yora-yora keçə bilməzdi. Ancaq atalar oğullarına inanırdılar.

Üçcə il keçmədi ki, oğullar geri döndülər. Allahverdi kişi bu işə mat qalmışdı: "uşaqları məktəbdən qovublarmı? Bəlkə, oxumaqları yarımçıq qalıb?!"

Əliş atasını başa saldı ki, əlaçı oxuduğumuz üçün bizi müəllim işləməyə göndəriblər. Ancaq bu, incə bir dövlət siyasətinin nəticəsi idi; repressiya qadağaları zamanı saysız-hesabsız müəllim kadrlarını aradan götürmüşdülər, bir çoxlarını isə hərbi qulluğa səfərbərliyə almışdılar. Bu siyasətin üstünü ört-basdır etmək üçün tələbə gənclərlə onların yerini doldururdular. Siyasət başqa, həyatın tələbi başqa. 1939-cu ilin oktyabr ayından Əliş və Əhməd gənc müəllim kimi fəaliyyətə başladılar...

Əliş müəllimin ömür yazısı məndədir; qardaşı Səməd Qarayev gözəl xətlə, səliqə ilə yazıb. Lakin onun həyat yolunu təfsilatı ilə öyrənməliydim. Doğma Zəngəzur torpağı ilə bağlı məqamlar məni daha artıq maraqlandırır. Böyük oğlu Əziz Qarayevə zəng çalıram. Beş ildən çoxdur ki, tanıyıram; mühəndisdir, respublikanın hərbçiləri və orqan işçilərinin geyim və paqonlarını bəzəyən ulduzları və başqa nişanları



yaradan yeganə mütəxəssis kimi tanınır. Mənə qalsa, ona "ulduz mühəndisi" deyərdim. Əliş müəllim haqqında yazmaq istədiyimi bildirirəm. Bu fikri çoxdan gözləyirmiş kimi təşəkkür edir. Deməyəsən, hər il avqust ayının 19-u, yaxud 20-də atasının xatirə gününü keçirir. Bu il də avqustun 19-da Səməd əmisinin oğlunun Hövsan qəsəbəsindəki bağ evinə toplaşacaqlar. Məni də ora dəvət etdi...



*Əliş Qarayev (soldan birinci) və Səməd Qarayev (sağdan birinci) Gərd çayı sahilində müəllim yoldaşları arasında.*

Vədələşdiyimiz həyətdə Əliş müəllimin xatirə gününə yığışmışıq. Doğmaların və yaxınların çoxu buradadır; Əliş müəllimin ömür-gün yoldaşı Mələk xanım, oğlanları – Əziz, Ramiz, Füzuli, Elxan, Natiq; qızları – Təzəgül, Rəhilə, nəvələri – Xalidə, Zaur, hətta nəticəsi, körpə Leyla, qardaşı Səməd müəllim, onun ömür-gün yoldaşı Bəyim xanım, qızları Esmira, kürəkəni Əli...

Maşınlara oturub, məzarlığa yollanırıq. Əliş müəllimin məzarı ilə yanaşı, bir gənc də uyuyur. Bu, Səməd müəllimin vaxtsız dünyasını dəyişmiş oğlu Şirinin məzarıdır. Səməd müəllim iki nisgil yaşayır; qardaş ağrısı, oğul itgisi. Bu ağrı mənim də ürəyimdən keçir; hayıf ki, həyatda Əliş müəllimlə üz-üzə gəlməmişəm, başdaşıyla üz-üzəyəm. Xatirə üçün şəkil çəkdiririk. Əliş müəllimin xatirəsini əziz tutanlara baxanda bu ağrıdan böyük təsəlli tapıram...

Yenidən yaşıl həyətə qayıdırıq. Bürküdür, bir anlıq özümüzü

Vana yaylağında hiss edir, quyu suyundan üzümüzə vurub sərinləşirik. Bağçada hər şey Səməd müəllimin səliqəsindən, yaşıllıq yaratmaq səriştəsindən xəbər verir. Ağsaçlı Səməd müəllimlə cavan tut ağacının kölgəsində üz-üzə oturmuşuq. Yazımın əvvəlindəki qeydləri də o mənə danışıb. Həyatın hər üzünü görüb Səməd müəllim; acılı-şirinli günlər yaşayıb, sinəsi sözlə, açılmamış xatirələrlə doludur. Onun Əliş müəllim barəsində yaddaş dəftərində yazılanları dinləyirəm:

– Bizim ulu babamız Məlik Allahqulu Cəbrayıldan köçüb, Mahmudlu kəndində məskunlaşıb. Onun üç oğlu varmış; soyadımızı daşıdığımız Qara həmin kişinin nəvəsidir. Atamız Allahverdi isə Qaranın oğludur. Anamız Mina arvad Gərd kəndindən idi. Atası Şirini və əmisi Əhmədalını ermənilər öldürmüşdülər. Qayınatasının evi boş qalmasın deyə atam 1923-cu ildə Gərd kəndinə köçmüşdür. Biz 4 qardaş, beş bacı həmin kənddə dünyaya göz açmışıq. Böyük qardaşımız Əliş isə 1922-ci ilin iyun ayında, el yaylaqda olanda Vanada doğulub. O, 8 yaşında – 1930-cu ildə məktəbə gedib. İlk dərsini Gığı kəndindən olan İdris müəllimdən alıb. Sonra iki il Zəngilanın Gilətağ kəndindən gəlmiş Əbülfət müəllim ona dərs deyib. Onu da deyim ki, Əliş mənim üçün təkcə qardaş deyildi, qayğı çəkənim və məsləhətçim idi. Ondan cəmi yeddi yaş kiçiyəm, 1929-cu ildə doğulmuşam. Həyatda onun məsləhəti olmadan bircə addım da atmamışam. 1939-1945-ci illərdə Gığı orta məktəbində oxuyanda beş il mənim fizika-riyaziyyat müəllimim olub. Yaxşı yadımdadır, 1946-cı ildə birgə İrəvana getmişdik. İnstituta girmək istəyirdik. Əliş sənədlərini İrəvan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə verdi. Həmin fənləri yaxşı bilməyimə baxmayaraq, o mənə məsləhət gördü ki, dil və ədəbiyyat fakültəsinə imtahan verim. Çünki eyni fənlər üzrə ixtisas qazansaydıq, dərs deyəndə işlərimiz çətinləşə bilərdi. Mən dil və ədəbiyyat fakültəsinə qəbul olundum. Qiyabi oxuyurduq. Üç il İrəvana bir yerdə gedib-gəldik. Sonra institutun fakültələrini Bakıya dəyişdilər. Biz ali təhsilimizi Bakıda tamamladıq. 1946-1948-ci illərdə Əlişlə birgə Gığı orta məktəbində müəllim işləmişəm. Sonra doğma kəndimizdəki məktəbdə dərs deməyə başladım. Bir neçə il



keçdi. Məni ibtidai təhsilimi aldığım məktəbə direktor təyin etdilər. Artıq məktəb yeddiillik idi. 1960-cı ilə qədər həmin vəzifəni apardım. Əliş də təkcə dərs deməklə qalmırdı. 1954-cü ildə onu Gığı orta məktəbinin dərs hissə müdiri vəzifəsinə irəli çəkdilər. Eyni zamanda, rayon sovetinə deputat seçildi. İş elə gətirdi ki, onun ardınca 1957-ci ildə mən də rayon sovetinin deputatı oldum. 1989-cu ilə kimi, müntəzəm olaraq bu ictimai vəzifəyə seçilmişəm. 1960-cı ildə məni məktəb direktorluğundan Gərd kolxozunun sədrliyinə dəyişdilər. Bir neçə il ötəndən sonra, 1964-cü ildə Əliş Gərd yeddiillik məktəbinə direktor göndərildi. Bu illərdə artıq kolxozlar ləğv edilmiş, yeni sovxozlar yaradılmışdı. Dörd il sovxozun partiya təşkilatı katibi vəzifəsini apardım. 1969-cu ildən isə məni sovxoza direktor təyin etdilər. Elə bil, Əlişlə vəzifə üstündə yarışa girmişdik. Həmin il onu da Müsəlləm orta məktəbinə direktor göndərdilər. Bir il orada işlədi. Sonra Zeyvə qəsəbə orta məktəbinin direktorluğu ona tapşırıldı və qaçqınlıq çağlarına kimi, öz vəzifəsini inamla, şərəflə yerinə yetirdi. Xidmətləri nəzərə alınıb, hələ 1960-cı ildə ona "Əməkdar müəllim" fəxri adı verilmişdi. Sonra "Şərəf nişanı" ordeni ilə təltif olundu...

Sovxozun direktorluğu ilə bərabər, mənə bir sıra ictimai vəzifələr də tapşırılmışdı. Bir ayağım rayon mərkəzində idi; müntəzəm olaraq rayon partiya komitəsinin plenum üzvü seçilirdim. 1970-1983-cü illərdə isə büro üzvü idim. Qafan rayon İcraiyyə Komitəsi ilə də sıx əlaqə saxlayırdım. Axı sovxozun direktoru kimi, işim bu komitə ilə bağlı idi. 1973-1989-cu illərdə həmin komitənin üzvü olmuşdum. Bütün bu xidmətlərimə görə, məni Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etmişdilər. Əliş bunu biləndə gülə-gülə dedi:

– Qağa, bircə addım da məndən geri qalmırsan ha!

Qardaşım Əlişin unudulmaz xatirəsi mənə daim əzizdir...

Bayaqdan Səməd müəllimin söhbətinə diqqətlə qulan asan Mələk xanım da üzünü mənə tutdu:

– Oğul, Əliş müəllim özgə cür adamdı; həlim təbiəti,sadə xasiyyəti ilə çoxlarından seçilirdi. O təkcə öz övladlarının atası deyildi, el atası idi, el ağsaqqalı idi. Son illərdə ermənilərin

azğınlığından yaman əsəbiləşirdi. Torpağa, adamlara o qədər bağlanmışdı ki, ayrılmaq istəmirdi. Səməd qağa olmasaydı, kim bilir, başımıza nələr gələcəkdi?! Bura gələndən heç bircə il də dözmədi, elə hey o yerlərdən danışardı... On bir ildir ki, Əlişsiz qalmışıq...

Əliş müəllimin böyük oğlu Əziz Qarayev mənimlə yanaşı oturmuşdu. Əlində sarı bir çiçək vardı. Həzin xatirələrin söyləndiyi məqamda sarı çiçək tamamilə yerinə düşmüşdü.

– Mən həyatda nə qazanmışamsa, nəyə nail olmuşamsa, atamla Səməd əmiyə borcluyam.Onların ömür yolu və həyat təcrübəsi mənim üçün həmişə örnək olub, onların açdığı cığırın işığı ilə getmişəm, yenə də gedəcəyəm...

Mənə elə gəldi ki, Əliş müəllim sağ olsaydı, ömür yoluna ilk güzgü tutan Qazangöl haqqında aşağıdakı misraları pıçıldardı:

**Xəyal uçar... çəkər məni Qazangölə,**
**Gözəlliyi qayalara yazan gölə...**
**Gözüm yaşı qora dönüb giləl67ənər,**
**Göz yaşımdan göl qazanı siləl追ənər...**

– Ruhun şad olsun, Əliş müəllim!





**1923**

## SƏRİYYƏ MİRZƏXAN QIZI HƏSƏNOVA

Əməkdar müəllim (1965), maarif xadimi, ictimayyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim, rəhbər işçi kimi tanınıb.

## ÜÇQARDAŞ TUT AĞACI

O, dörd il bundan əvvəl, məskunlaşdıqları Bakıxanov qəsəbəsindəki həyətdə qol-budaq atmış tut ağacının kölgəsində oturmuşdu. Yazçağı idi, tutun tumurcuqlarından yamyaşıl yarpaqlar açılmışdı. Nəvələri ağacın kölgəsində oynayırdılar. Dalğın idi; neçə ay qabaq, ömür-gün yoldaşı Bəşir Həsənovu bu tut ağacının altından son mənzilə yola salmışdı. Bu həyətə köçəndən, sanki tut ağacına heç fikir verməmişdi. Ağacın torpaqdan qalxan cadar -cadar gövdəsinə diqqət yetirdi, baxışları əyrim-üyrüm budaqlarla axıb səmaya qovuşdu. Bu ağac da üçqardaş idi, lap Yuxarı Gödəkli kəndindəki evlərinin qapısında ucalan ağac kimi, eynən, Hünüt kəndində gördüyü tut ağacı təki. Bu oxşarlıq hardandı belə?! Tut ağacları onun taleyinəmi yazılıb?! Bəlkə, insanların taleyi kimi, ağacların da taleyi bir-birinə bənzəyir?!

1923-cü ilin oktyabr ayında Yuxarı Gödəkli kəndində anadan olmuşdu. Onda, güz çağı idi, ağacların yarpaqları saralıb tökülürdü. O isə varlığa yenicə göz açmışdı. Böyüyüb yaşa doldu.1929-cu ildə kəndlərində məktəb açılmışdı, onu da məktəbə apardılar. İlk dərsini Nuru müəllimdən aldı. Sonra

Bəhlul Bayramov, İslam Süleymanov, Niftalı Qəhrəmanov kimi müəllimlər ona dərs dedilər...

Nədənsə, tut ağacına baxa-baxa 30-cu illəri xatırladı, uşaqlıq çağları yadına düşdü, kövrəldi, gözləri yaşardı...

Böyük qardaşı Feyzi qapılarında belə bir tut ağacı basdırmışdı. Ağac üçbudaq idi; bir ilə həmin budaqlardan təzə pöhrələr göyərmiş, qalxıb böyümüşdü. Bir gün məktəbdən qayıdanda qardaşı Feyzinin təzə pöhrələri kəsdiyini gördü. Onun yanına qaçdı. Qardaşı bu pöhrələrə calaq vurmuşdu. Barmağı ilə saydı; düz yeddi calaq idi. Feyzidən maraqla soruşdu:

- Qağa, niyə yeddi calaq, artıq olmaz?

Feyzinin dedikləri indiki kimi yadındadır:

- Bacı, bu bizim soykök ağacımızdır; yeddi qardaş, üç bacıyıq. Bax, bu, Xəlil, bu, Həzi, bu, Hüsü, bu, mən, bu, Sofya, bu, Münəvvər, bu, da sən! İndi ağacı becərmək və qorumaq sənin öhdənə düşür...

O gündən ağaca qulluq etməyə başladı; hər səhər ona su verdi, heyvanlardan qorudu. Ağac ildən-ilə böyüdü, qol-budaq atdı, şaxələndi; yeddi qardaş, üç bacı kimi...

Kənddə məktəb binası tikilməmişdi; gah Almurad kişini köhnə damında, gah qocaman palıd ağacının kölgəsində, yay aylarında isə xırmanda qurulmuş alaçıqda dərs keçirdilər. Yeddi il məktəb illəri beləcə gəlib ötüşdü; bu illərdə yeddibudaq tut ağacı da böyüdü, Səriyyə Həsənova da yaşa doldu. Bu illərdə atası Mirzəxan kişi dünyasını dəyişdi, yeddi budaqdan birini-qardaşı Həzini itirdilər...

1936-cı il idi; yeddiilliyi qurtarmışdı. Tay-tuşları İrəvana oxumağa gedirdilər. O da təhsilini artırmaq istəyirdi. Anası Gilə arvadın da, böyük qardaşı Feyzinin də razılığını almışdı. Ancaq anası yenə nigarançılıq çəkirdi; "qız xeylağı gedib, qərib yerdə necə baş çıxaracaq, tanış yox, qohum yox, qardaş yox ?!" Bir yandan da arxayın idi, qaynı oğlanları Dadaş, Adil və İsmayıl da onunla gedirdilər. Onlar hər yerdə qıza dayaq ola bilərdilər...

1937-ci ilin avqust ayında Qafandan İrəvana oxumağa bir dəstə gənc yola saldılar; 18 nəfər idilər-17-si oğlan, yalnız biri qız. O bircə nəfər qız Səriyyə Həsənova idi. Onlar Qafandan



Bakıya, oradan Tbilisiyə, sonra isə İrəvana getməliydilər. Qatar yolu yalnız belə idi.

İrəvan Pedaqoji Texnikumuna qəbul olundular. Lakin onlara bildirdilər ki, hələ dərslər sentyabr ayının 15-də başlayacaq. Ona görə qafanlı uşaqlar qatarla Naxçıvana gəlib, dağ yolları ilə qayıtdılar. Yolda çox əziyyət çəkdilər. Bircə o yadında qalıb ki, gecə Bəyəhmədli kəndində gecələdilər. Sonra Acıbac, Keypəşin, Pəyhan kəndlərindən keçib, Gığıya çatdılar, oradan hərə öz kəndinə getdi.

Texnikumda iki il, bir ay oxudu. Sevimli müəllimləri Əziz Əzizovu, Zaman Vəliyevi, Ələşrəf Bayramovu, Məmməd Həsənovu, Müzəffər Nəsirlini və başqalarını dərin hörmətlə xatırlayır. Onlardan aldığı bilik və təcrübə ömrü uzunu onun köməyinə gəlmişdi.1939-cu ilin oktyabr ayında üçüncü kursda ikən dərslər təzəcə başlananda Əliş Qarayev, Əhməd Azadəliyevlə birlikdə onu da texnikumdan azad edib, müəllimliyə göndərdilər. Səriyyə Həsənova öz doğma məktəbində dərs deməyə başladı və əlli ilə yaxın xalq təhsili sahəsində xidmət göstərdi.

1940-cı ildə qiyabi yolla texnikumu bitirdi. Artıq ailə həyatı qurmuşdu, ömür-gün yoldaşı Bəşir Həsənov Qafan şəhər xalq məhkəməsinin sədri idi. Ona görə, Səriyyə Həsənova iki ilə yaxın şəhər məktəbində dərs dedi. Bəşir Həsənov səfərbərliyə alınıb, cəbhəyə göndəriləndən sonra, yenidən kəndə qayıtdı...

Onu məktəbin dərs hissə müdiri vəzifəsinə təyin etmişdilər. İşi çox idi, həm dərs deyir,həm də kolxoza kömək edirdi. Qardaşları Feyzi və Xəlili də əsgər aparmışdılar. Anası Gilə arvadın o illərdə nələr çəkdiyini düşündükcə indi də ürəyi göynəyir...

Feyzinin calaq vurduğu üçqardaş tut ağacı böyümüşdü, həyətin yarısını öz çətiri altına almışdı. Anası ev işlərinin çoxunu o ağacın altında görürdü. Sinəsi bayatı, xalq deyimləri ilə dolu idi.Onun nehrə çalxaya-çalxaya söylədiyi bayatıları heç zaman unuda bilmir:

**O tayda mal mələdi,**
**Bu mal nə kal mələdi.**

**Yol azdım, nabələdəm,**
**Haray, bir yol bələdin!**

**Yol keçdim qırağınan,**
**Gül biçdim orağınan.**
**İtirdim cüt balamı,**
**Gəzirəm sorağınan!**

Səriyyə Həsənova yaxşı bilirdi ki, anası Feyzi və Xəlil üçün ağlayır, onların həsrəti ilə belə yanıqlı-yanıqlı bayatılar deyir. O da ağlayırdı, o da sızlayırdı. Ancaq anasının yanında özünü toxdaq saxlayır, qəmini büruzə verməməyə çalışırdı...



*Səriyyə Həsənova (ikinci sıra, sağdan 2-ci) müəllim və şagirdlər arasında. 1970-ci il.*

1943-cü ildə ona "Maarif əlaçısı" fəxri adı verildi. 1949-cu ildə isə "Rəşadətli əməyə görə" medalı ilə təltif olundu.

1941-1945-ci illər savaşı sona çatdı. Qardaşları geri dönmədilər. Ömür-gün yoldaşı Bəşir Həsənov sağ-salamat qayıtdı. Onlar yenidən Qafan şəhərində işləməyə başladılar. Ermənilər hər yandan onlara təzyiq göstərirdilər. Ona görə, 1947-ci ildə biryolluq Hünüt kəndinə köçdülər. Oxdar yeddiillik məktəbinin (sonradan səkkizillik olmuşdu) dərs hissə müdiri



olmaqla yanaşı, müəllimlik peşəsini də davam etdirdi.

O, texnikumu bitirmişdi, ali təhsil almaq isə vacib idi. Həmin il İrəvan Pedaqoji İnstitutunun müəllimi Fərhad Fərhadov Qafana gəlmişdi. O, ali təhsili olmayan müəllimləri institutda oxumağa dəvət edirdi. Səriyyə Həsənova da yazıldı. Onu imtahansız dil və ədəbiyyat fakültəsinə qəbul etdilər. İki il qiyabi oxudu. Sonra institut Bakıya köçürüldü. 1951-ci ildə ali təhsilini bitirib, "Azərbaycan dili və ədəbiyyatı müəllimi" ixtisası qazandı...

Qəribə idi; Hünüt kəndindəki evlərinin qapısında da böyük tut ağacı vardı. Həmin ağac da üçqardaş idi, çətiri həyəti tutmuşdu. Yuxarı Gödəklidəki tut ağacının kölgəsində uşaqlığı keçmişdi. Hünütdəki ağacın çətiri altında övladlarını böyüdürdü. Bu tut ağacların onun taleyinəmi yazılmışdı?!

Xalq təhsili sahəsindəki xidmətlərini nəzərə alıb, 1965-ci ildə Səriyyə Həsənovaya "Əməkdar müəllim" fəxri adı verdilər. Bir il sonra, Oxdar səkkizillik məktəbinin direktoru təyin olundu və 1979-cu ilə qədər öz vəzifəsinin öhdəsindən ləyaqətlə gəldi. Fəal ictimaiyyətçi idi, müntəzəm olaraq kənd sovetinin deputatı seçilərdi...

Çətin illərin əzab-əziyyətini yaşamışdı, hər cür ağırlıqlara dözmüşdü. Ancaq 1988-ci ildən sonra başlanan qaçqınlıq çağlarının ağrılarını çəkmək iki-üç qat çətindi. Ona elə gəlirdi ki, üçqardaş tut ağaclarının kölgəsində ömrünün ən gözəl çağlarını qoyub gəldi...

Yox! Yeni həyətdəki tut ağacı nə qədər onlara bənzəsə də, onun kölgəsində keçən günlər, ötən çağlar əvvəlkilərə oxşamırdı. Bircə təsəllisi vardı, qızı Gülşən Məmmədova ali məktəbdə dərs deyir, burdakı tut ağacının altından məktəbə yollanan nəvələri babanın da, nənənin də sevimli sənətini yaşadırlar.

O, tut ağacının kölgəsində oturmuşdu. Keçən illərin acılı-şirinli xatirələri onu öz qoynuna almışdı.



## NÜSRƏT XEYBƏR OĞLU ŞIXALIYEV

Əməkdar müəllim (1967), maarif xadimi, ictimaiyyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim və təcrübəli rəhbər işçi kimi tanınıb.

**1928-2003**

## ÖMRÜN 48 İLİ

Sinifdə tarix dərsi idi. Nüsrət müəllim növbəti mövzunu - "SSRİ-nin yaranması və onun tarixi əhəmiyyəti"ni şagirdlərə izah edirdi. Gənc müəllim öz dərsini o çağların tələblərinə uyğun şəkildə qurmuşdu. Hər bir cümləsini ölçülüb-biçilmiş tərzdə söyləməyə çalışırdı. Əvvəlcədən, məşğələyə ciddi hazırlaşdığından mövzunun şərhində heç bir yanlışlığa yol verə bilməzdi. Şagirdlər təzə müəllimlərinə diqqət kəsilmişdilər. Dərsdən-dərsə onun təlim üsuluna alışırdılar. Bu gün də onu böyük maraqla dinləyirdilər. Sinifdə tam sakitlik idi, onlar yalnız müəllimin suallarına cavab verirdilər. Sakitliyin bir səbəbi də məktəb direktorunun məşğələdə iştirak etməsi idi. Direktor təzə müəllimin necə dərs keçməsi ilə maraqlanırdı. Dərsdən sonra onu yanına çağırıb, dedi:

– Nüsrət müəllim, dərsindən çox razı qaldım, ancaq SSRİ-in yaranmasını aparıb 1922-ci ilə çıxardın, bəs bilmirsən ki, SSRİ hələ 1917-ci ildə yaranıb?

Nüsrət müəllim adi tarixi hadisəni dəqiq bilməyən bu erməni soyundan olan direktora çəkinmədən cavab verdi:



– Xeyr, yoldaş direktor, 1917-ci ildə Böyük Oktyabr sosialist inqilabı baş verib, Rusiyada Sovet hökuməti qurulub. SSRİ-nin yrranması isə, məhz 1922-ci ilə aiddir!

Direktor başını aşağı salıb dinmədi. Nüsrət müəllim sonradan öyrəndi ki, bu direktorun heç orta təhsili də yoxdur. Keçmiş partiya işçisi kimi, bu vəzifəyə təyin ediblər...

Həmin hadisə 1951-ci ilin sonlarında Qafan şəhərindəki 1 saylı məktəbdə olmuşdu. Nüsrət Şıxalıyev bir neçə ay idi ki, burada dərs deyirdi. Onun pedaqoji fəaliyyəti də bu məktəbdən başladı...

1928-ci il oktyabr ayının 23-də Şəhərcik kəndində, bölgənin tanınmış ağsaqqalı Xeybər Zeynalovun ailəsində varlığa göz açmışdı. Atası Molla Şıxalının üç oğlundan biri idi. O biri oğlanları Şıxəli və Ağaəli yaşda ondan kiçikdilər. Ona görə də, atasının ölümündən sonra, evin qayğıları da Xeybərin üzərinə düşmüşdü. Ali təhsili olmasa da, gənc yaşlarından qayğı çəkməyi, dost tutmağı, başqasına kömək əli uzatmağı öyrənmişdi. Hələ 30 yaşından kəndin başıçıxan kişilərindən sayılırdı. Odur ki, onu 1924-cü ildən kənd sovetinin sədri seçmişdilər. Xeybər kişi öz uşaqlarını da bu ruhda tərbiyə etməyə çalışırdı. Onun istəyi belə idi: gərək qonaqsevər, çörəkverən olasan, hörmət edəsən ki, hörmət də görəsən! Həyatda, ancaq yaxşılıq etməyə çalış, bunu bacarmasan, heç vaxt pisliyə səy göstərmə! Çalış, çoxlu dost qazan, dostu olmayan adam qanadsız quş kimidir!..

Körpəlik çağlarından atasından bu öyüdləri, bu nəsihətləri çox eşitdi Nüsrət. Həyatda ona oxşamağa çalışdı, onun öyüdlərini özünə örnək bildi. Səkkiz yaşına çatanda-1936-cı ildə onu məktəbə qoydular. İlk müəllimi əmisi Şıxəli Zeynalov oldu. Əmisini çox istəyirdi, hərdən atası acıqlananda onun yanına qaçardı. Məktəbə gedəndən sonra, onu bir müəllim kimi sevməyə, hörmət etməyə başladı. Bu hörmət və səmimiyyət qarşılıqlı idi; əmisi də onu övladı, şagirdi təki əzizləyirdi. Heç yadından çıxmaz; bir dəfə atası Xeybər kişi, nə olmuşdusa, ona acıqlanmışdı:

– Get, oxusan da, səndən heç bir şey çıxmayacaq!

Ancaq əmisi onun saçını sığallayıb, demişdi:

– Yox, Xeybər, Nüsrət balam, gələcəyin ən gözəl müəllimlərindən olacaq!

Əmisinin bu sözləri həmişəlik onun yaddaşına həkk olundu, bütün ömrü boyu yaxşı müəllim olmağa can atdı, bilik və bacarığını bu yönümdə köklədi. Hayıf ki, əmisi ona cəmi ikicə il dərs dedi.

Nüsrət, Səttar müəllimi də yaxşı xatırlayır. Əmisindən sonra iki il ondan dərs almışdı. Hər iki müəllimi 1941-1945-ci illər savaşından qayıtmadı. Ağəli əmisini də onda itirdi. Qardaş itkiləri Xeybər kişini sarsıtdı. Yaxşı ki, bütün kəndin qayğısını ona tapşırdılar; 1943-cü ildən kolxozun sədri təyin olundu. İndi o, böyük oğlu Nüsrətə kiçik qardaşı təki baxırdı. Şıxının (Şıxəli müəllimi belə əzizləyirdilər!) dediyi kimi, deyəsən, Nüsrətdən bir şey çıxacaqdı. Dərslərindən əla qiymət alması Xeybər kişini bu qənaətə gətirirdi.

1946-cı ildə Nüsrət orta məktəbi bitirdi. Qarşıda ali təhsil almaq kimi, çətin bir yol dururdu. Bu yolu keçmək üçün özündə daxili inam, dözüm və dərin bilik sahibi olmalıydın. Bunlar onun xarakterinə xas idi. Sabaha inam hissi ilə Bakıya gəldi. Bir kənddən dörd nəfər idilər; Sabir Əsədov, Şahsuvar Ələkbərov, Nuşirəvan İbrahimov, bir də o. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin nəzdində yeni fəlsəfə şöbəsi açılmışdı. Məsləhətləşib, dördü də sənədləri həmin şöbəyə verdilər. Ali təhsil almağın yeni yolu açıldı...

Fəlsəfə şöbəsi barədə tarix elmləri doktoru, professor Sabir Əsədovun "Gecikmiş venetka" kitabçasında oxuyuruq: "Bu şöbə universitetin tarix fakültəsinin nəzdində yenicə yaradılmış fəlsəfə şöbəsi olub. Zaqafqaziya respublikaları arasında Azərbaycan Dövlət Universitetində yaradılan bu şöbənin təşəbbüskarı Azərbaycanda fəlsəfə elminin əsasını qoyan, Elmlər Akademiyasının ilk təmsilçilərindən biri, fəlsəfə elmləri doktoru, akademik Heydər Hüseynov olmuşdur.

Fəlsəfə üzrə ixtisaslı kadrlar hazırlayan bu şöbəyə birinci



tələbə qəbulu 1945-1946-cı dərs ilində bizim qrupun qismətinə düşmüşdür. Çox qəribədir ki, urbanizasiyanın (kənddən şəhərə axın) tərsinə dövran etdiyi, yəni şəhərdən kəndə əhali axınının artdığı bir dövrdə fəlsəfə şöbəsinə qəbul olan tələbələrin coğrafiyası da çox genişlənmişdir. Tələbələrdən cəmi iki nəfər Bakıdan, qalan 28 nəfəri Azərbaycanın rayonlarından, Qərbi Azərbaycandan və Gürcüstandan idi. Onu da deyim ki, cins etibarı ilə qrup yekcins, yaş etibarı ilə çox rəngarəng idi. 30, hətta 40 yaşında olan tələbələr vardı. 12 nəfəri ordudan tərxis olunanlar idi. Tələbələr arasında kapitanadək hərbi rütbəsi olanı vardı..."

Bax, belə bir qrupda ali təhsil aldı Nüsrət Şıxalıyev. Beş il müddətində Heydər Hüseynov, Cəlal Qasımov, Məmməd Şıxlı, Həsən Dadaşov, Mirəli Axundov, Məmməd Yerevanski, Ənvər Əhmədov, Möhbalı Qasımov, Həmid Əfəndiyev və başqa tanınmış filosof və pedaqoqlar ona dərs dedilər. Tələbəlik illərinin çətinliklərinə dözdü, fəlsəfənin, ictimai elmlərin əsasına dərindən yiyələndi. 1951-ci ildə diplom işini uğurla müdafiə edib, doğma Qafan bölgəsinə qayıtdı. Yuxarıda dediyim kimi, şəhərin bir saylı beynəlmiləl məktəbinə müəllim təyin olundu. Düşünürəm ki, erməni millətindən olan direktor ona dərs deyən alimlərdən, heç olmasa, bir neçəsini tanısa idi, Nüsrət Şıxalıyevin dərsini dinləyəndən sonra, gülünc sual verməzdi. Nüsrət müəllim isə ictimai elmlərin əsaslarını mükəmməl mənimsəmişdi, o hər sual verənin qarşısında aciz qalmazdı. Ancaq ermənilərlə bir kollektivdə müəllim işləmək bir o qədər də asan deyildi. Beş il beləcə dərs dedi, pedaqoji təcrübəsini artırdı. Artıq onu ixtisaslı müəllim, təlim-tərbiyənin üsullarının yaxşı bilicisi kimi tanıyırdılar. 1956-cı ildə Nüsrət Şıxalıyevi rayon Maarif Şöbəsinin inspektoru vəzifəsinə irəli çəkdilər. Lakin sevimli ixtisasından, pedaqoji fəaliyyətindən də geri qalmadı.

Onun Azərbaycan məktəbləri üzrə inspektorluğu nə az, nə çox, 32 il çəkdi. 1988-ci il hadisələri baş verməsəydi, bəlkə də, yenə davam etdirərdi. Nüsrət Şıxalıyevin bu vəzifəyə təyin

olunması illər boyu Azərbaycan məktəblərinə qarşı ermənilərin ögey münasibətinə zərbə vurdu, onunla hesablaşmağa başladılar. 32 ildə 6 müdir dəyişdi, ancaq heç biri Nüsrət Şıxalıyevin Azərbaycan məktəblərinə qəyyumluğunun önünə sədd çəkə bilmədi. Yaxşı xatırlayırdı: 1983-cü il idi, xəbər tutdu ki, Arsevanik erməni məktəbinin köhnə invertarlarını Aşağı Gödəkli məktəbinə vermək istəyirlər. Həm də direktor Bəkir Paşayevi məcbur edirlər ki, gedib gətirsin. Müdirin yanına girib, kəsgin şəkildə öz etirazını bildirdi. Məcbur olub, yeni inventarı Aşağı Gödəkli məktəbinə verdilər. Belə misallar onun inspektorluğu çağında çox olmuşdur. Nüsrət Şıxalıyevin Azərbaycan məktəblərinə köməyi sosial və məişət qayğıları ilə bitmir. O, sözün həqiqi mənasında, bu sahədə uzun illər ideoloji mübarizə aparmışdır. Bir dəfə İrəvandan məktəblərdə ideoloji tərbiyənin vəziyyətini yoxlamaq üçün Əmiryan soyadlı bir nəfərin sədrliyi ilə xüsusi komissiya Qafana gəlmişdi. Komissiyanın üzvləri məktəblərə gedir, dərslərdə iştirak edir, fikir mübadiləsi aparırdılar. Qafan şəhərinin Çeremuşka deyilən hissəsində yerləşən erməni məktəbinə getmişdilər. Ədəbiyyat dərsində iştirak etməli oldular. Müəllim X.Abovyanın "Ermənistanın yaraları" romanını tədris edirdi. O, türklərlə ermənilərin mübarizəsini 1915-ci ilin uydurma genosidi ilə bağlamağa çalışdı və şagirdlərdə bütün türk xalqlarına, o cümlədən yerli azərbaycanlılara qarşı düşmənçilik hissləri oyatmağa səy göstərdi. Dərsin müzakirəsi zamanı Nüsrət Şıxalıyev bu məsələyə qarşı çıxdı, İrəvandan gələn komissiyasının sədri də onu müdafiə etdi. Lakin o, yaxşı bilirdi ki, Əmiryan üzdə özünü belə göstərir, dar məqamda onlar bir-birinin arxasını yerə vurmazlar, başqa sözlə, "it itin ayağını tapdalamaz!" Bu onun hər gün qarşılaşdığı hadisələrdən yalnız biridir. Halbuki, belə hadisələr tez-tez olurdu.

Nüsrət Şıxalıyevin inspektor işlədiyi müddətdə beş azərbaycanlı səkkizillik məktəbi orta məktəbə, iki ibtidai məktəb isə səkkizilliyə çevrildi. O, eyni zamanda, fəal ictimayyətçi idi; 1963-1966-cı illərdə ictimai əsaslarla Rayon



Maarif Həmkarlar İttifaqının sədri olmuşdur. Bundan başqa bir sıra ictimai və partiya təşkilatlarının işində öz səyini əsirgəməmişdir.



*Nüsrət Şıxaliyev (ikinci sıra, sağdan 1-ci) müdavimlər arasında. 1949-cu il.*

1967-ci ildə Nüsrət Şıxalıyevə "Əməkdar müəllim" fəxri adı verilmişdir. Yaxşı işinə görə, qramota, fəxri fərman və mükafatlara layiq görülmüşdür.

Nüsrət Şıxalıyev 1988-ci il hadisələrindən sonra, Bakı şəhərində məskunlaşmışdı. Lakin burada da öz sevimli sənətini davam etdirmiş, təqaüdçü olmasına baxmayaraq, Nizami rayonundakı 70 saylı məktəbdə dərs demişdi. Üst-üstə götürdükdə o, ömrünün 48 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdi. Bu, az müddət deyil! El ağsaqqalı Xeybər Zeynalovun ailəsində böyüyüb, boya-başa çatan Nüsrət müəllim gözəl ata idi, ömür-gün yoldaşı, bölgədə təcrübəli həkim kimi hörmət qazanmış Gülzar xanımla birgə 4 oğul, iki qız böyütmüşdülər. Onlardan ikisi müəllim, biri həkim, o biriləri isə başqa ixtisas sahibidirlər.

**SÖZ ARDI.** Bu yazı neçə il əvvəl qələmə alınmışdı. Hayıf ki, Nüsrət müəllim kitabın nəşrini görə bilmədi. O, 2003-cü ilin iyun ayında dünyasını dəyişdi.



## QABİL ABIŞ OĞLU HƏSƏNOV

Əməkdar müəllim (1987), maarif xadimi, ictimaiyyətçi. Daha çox xalq təhsili sahəsində ixtisaslı müəllim və təcrübəli rəhbər işçi kimi tanınıb.

**1931**

## QUMRU NƏNƏNİN NAĞILLARI

İş elə gətirib ki, bu yazımı da xatirə ilə başlamaq istəyirəm. Xatirə 1957-ci ilin iyul ayından yaddaşıma həkk olunub...

Texnikumda oxuyurdum. Yay tətili günləri başlandığından kəndimizə gedirdim. Bakı-Qafan vaqonunda yerimi tapıb, yenicə oturmuşdum. Bu hində bir qarayanız gənc əlində çamadan kupeyə girdi. Salam verdikdən sonra, soruşdu:

– Qafana gedirsən?

Başımı tərpətməklə cavab verdim. O isə çamadanı üst yerə qoyub, əlavə etdi:

– Onda, yolumuz birdir. Mən də Qafana gedirəm...

Qatar taqhataqla yerindən tərpəndi, vaqonun işıqları yandı. Üzbəüz otursaq da, bir müddət dillənmədik. Hiss etdim ki, o da mənim kimi azdanışandır. Yanımızda başqa adamlar da vardı. Sözsüz ki, ilk dəfə tanış olanların söhbət etməsi üçün bir "açar" lazım gəlir. İlk "açar" kiçik şer kitabı oldu...

O, cibindən bir kitab çıxarıb, stolun üstünə qoydu. Gözüm o andaca adını aldı: "Söhrab Tahir. Ay işığında". Bununla da söhbətimiz öz axarını tapdı. Kitaba yazılan müəllif avtoqrafından adını da öyrəndim: "Qabil".



Qabil Həsənovla ilk tanışlığım belə başladı. Yol uzunu "Ay işığında" kitabındakı şerləri oxuya-oxuya bir-birimizi daha yaxından tanıdıq. Öyrəndim ki, Qabil Həsənov Baharlı kəndindəndir. Həmin il Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Təyinatını Yerevan Dövlət Pedaqoji İnstitutuna veriblər. Hətta sevimli müəllimi, professor Muxtar Hüseynzadənin məktubunu da aparırdı. Məktubda onun barəsində yazılan sətirlər indi də yadımdadır: "Sizin instituta göndərdiyim Qabil Həsənov, həqiqətən, qabil oğlandır. Dilçilik sahəsində mənə nə qədər inanırsansa, eynilə Qabilə inana bilərsən!.."

O vaxtdan həmin məktubun kimə ünvanlandığı və Qabil Həsənovun Yerevanda nə üçün işləyə bilməməsinin səbəbi mənə qaranlıq qaldı.

İş elə gətirib ki, 43 il sonra onun haqqında yazmalı oluram və ömür yazısı, pedaqoji fəaliyyəti ilə daha ətraflı tanışlığa imkan yaranıb. Bu tanışlıqda isə qardaşı Surxay Həsənovun (Dünyasını dəyişib, ruhuna min hörmət!) böyük rolu oldu. Surxay müəllimlə söhbət zamanı bir məsələ məni daha artıq təsirləndirdi; deməyəsən, onun ilk müəllimi atam Təhməz Əzizov olub. Atamı hörmətlə xatırladı və onun barəsində xoş sözlər söylədi...

Surxay müəllimin söhbətləri əsasında Qabil Həsənovun ömür yolu və pedaqoji fəaliyyəti barədə qeydlər edirəm.

O, 1931-ci ilin sentyabr ayında varlığa göz açıb.Doğulduğu kəndin Qarabaş olduğunu yazmaq daha doğrudur, çünki 1938-ci ildə həmin kənddə yaşayan ailələri büsbütün Baharlıya köçürüblər. Qafan bölgəsindəki bir sıra kəndlər kimi, Qarabaşın da, yalnız adı qalıb. Qabil Həsənovun atası Abış kişi qarabaşlı Həsənqulunun oğludur. Anası Saray İsmayılqızı isə Mığrı bölgəsinin Tağəmir kəndindəndir. Evin son beşiyi olan Qabil Həsənov 1938-ci ildə Baharlı məktəbinin 1-ci sinfinə gedib. Məktəbin direktoru Yuxarı Girətağdan gələn Ələkbər Məmişov idi. İlk müəllimi isə yenə həmin kənddən Murad Nuriyev olub. Bu məktəbdə Qabil Həsənova Bəhlul Bayramov, Məhəmməd Həsənov, Kərim İmaməliyev, Həsənalı Həsənov kimi müəl-

limlər dərs deyiblər. Lakin o, ilk dərsini nənəsi Qumrudan alıb. Qumru nənənin sinəsi sözlə, nağılla dolu idi. Körpə Qabili dizinin üstündə oturdar, nağıllar, bayatılar, əhvalatlar söylərdi. Bəzən körpə onun dizinin üstdə yuxuya gedər, şirin-şirin laylalarından xumarlanardı. Qabil Həsənov Qumru nənəsinin nağıllarından, yaddaşından heç zaman silinməyən söhbətlərindən çox şey öyrəndi. Nənəsi ona Qarabaş kəndindən olan el şairi Babaoğlu Məmmədquludan da danışar, qoşmalarından əzbər söylərdi. Qabil onun yüzbaşıya yazdığı qoşmanı daha çox xoşlardı. Yuxarı Girətağlı Niyazalı yüzbaşıya müraciətlə yazılmış bu qoşmanın qəribə yaranma tarixi vardı.

...Məmmədqulu Bakıda neft mədənlərində fəhlə işləyirdi.Hərdən yay aylarında kəndə gələrdi. Gənc çağları idi. Şux geyinib, kəndə çıxardı. Bəzən yolunu Baharlı kəndinə də salar, cammat arasında şən söhbətlər aparar, qoşmalar söylərdi. Onun bu hərəkətləri bir çoxuna xoş gəlməzdi. Kimsə yüzbaşıya ondan şikayət etmişdi. Bir gün Məmmədqulu eşitdi ki, yüzbaşı onu Baharlıya çağırır. Ondan şikayət olduğunu o saatca başa düşdü. Bilirdi ki, şər atılıbsa, onu döydürəcək. Ona görə, yüzbaşının adına bir qoşma dedi. Qəribə idi, bu qoşmanı eşidəndən sonra, Niyazalı yüzbaşı onu bağışladı. Qabil Həsənov körpəlikdən həmin qoşmanı əzbər bilirdi.

*Gəl, sənə söyləyim tərif, yaraşıq,*
*Çıxsam qənşərinə, tanı, yüzbaşı!*
*"Xoş səfa" dilimdə qaldı yarımçıq,*
*Görəmmədim bir pünhanı, yüzbaşı!*

*Nə yaşın var, çox çəkmisən qalmaqal,*
*Anadan əmdiyin süd olsun halal.*
*Göy çəmən üstündə, başında cəlal,*
*Seyr edəsən gülüstanı, yüzbaşı!*

*Sənin o xəyalın ha çaydı, çeşmə,*
*Ürütbən artıqdı, aşağı düşmə.*
*Ədalət divan et, haqqıdan keçmə,*
*Narə salma şirin canı, yüzbaşı!*

Qumru nənənin nağılları onda sözə, söz sənətinə ayrıca



həvəs oyatmışdı. Baharlı məktəbində təhsil aldığı illərdə isə ədəbiyyatdan dərs deyən Bəhlul müəllim bu həvəsi daha da artırdı. 1945-ci ildə yeddiillik məktəbi bitirdi. Təhsilini davam etdirmək istəyirdi. Lakin müharibənin və ağır illərin ailələrə gətirdiyi ehtiyac boşluğu onun da bu istəyi önünə sədd çəkdi. Çomağı götürüb, çobanlığa başladı. Balaca heybəsinin bir gözündə çörək olanda, bir gözündə nağıl kitabı, dastan gəzdirdi. Günlərinin çoxu Dulan, Dəvəboynu, Qırxlar, Vana, Çola kimi yaylaqlarda keçdi. Qumru nənənin nağıllarını güllü-çiçəkli, çaylı-bulaqlı, dərəli-təpəli, qayalı-zirvəli dağların qoynunda aradı, yaşıl yamacların cığırlarında oxudu.



*Qabil Həsənov (soldan birinci) tələbə yoldaşları arasında. 1953-cü il.*

Üç-dörd il təhsildən ayrılmış Qabil Həsənov 1949-cu ildə yenidən məktəbə qayıtdı. O, Kığı kənd orta məktəbinin qaynar qoynuna düşdü. Burada Nurəli Qurbanov direktor idi, tanınmış təcrübəli müəllimlər dərs deyirdilər. Elə bil, heç üç-dörd il bundan əvvəl, məktəbdən ayrılan şagird deyildi. Yeni həvəslə, yeni maraqla dərslərinə davam edib, müəllimlərindən biliklərin əsaslarını öyrəndi...

1952-ci ildə Kığı kənd orta məktəbini əla qiymətlərlə bitirən Qabil Həsənov sənədlərini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə verdi və qəbul olundu. Burada Məmməd Arif, Cəfər Xəndan, Məmməd Cəfər, Feyzulla Qasımzadə, Muxtar Hüseynzadə, Məmmədhüseyn Təhmasib kimi alim-pedaqoqlardan dərs aldı. Təhsildə əlaçı olduğu kimi, universitetin ictimai həyatında da fəal iştirak etdi. Onu qrupun sinif nümayəndəsi seçmişdilər. Həm müəllimlərin, həm də tələbələrin böyük hörmətini qazanmışdı. Professor Muxtar Hüseynzadənin qeyd etdiyim məktubdakı səmimi sözləri, sanki bütün müəllimlərinin onun barəsində fikirləridir.

Qabil Həsənova Yerevan Pedaqoji İnstitutunda iş vermədilər. Bəlkə də, kiminsə xoşuna gəlməyib ki, professor onun haqqında belə xoş sözlər yazıb. Bəlkə də, məsələnin kökləri daha dərinlərə gedir?!

O, doğma bölgəyə qayıdıb, Qafan şəhərindəki 1 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatından dərs dedi. Az bir zamanda rayon Maarif Şöbəsi kollektivinin hörmətini qazandı, onu şöbənin inspektoru seçdilər. 1961-ci ilə kimi, Qafan şəhərində çalışdı. 1962-ci ildən isə Baharlı səkkizillik məktəbinə direktor təyin olundu. O, Baharlının ilk ali təhsilli mütəxəssisi idi. İllər keçəndən sonra, doğma məktəbin direktorluğu da ona tapşırılmışdı. 1983-cü ilə qədər direktor işlədi, məktəbdə təlim-tərbiyə işinin yüksək səviyyədə aparılması üçün heç bir səyini əsirgəmədi. Onun xidmətləri yüksək qiymətləndirilmiş, müxtəlif fəxri fərmanlar, təşəkkürlər və medallar almışdı. 1987-ci ildə isə həyatında daha önəmli bir hadisə baş verdi. Ona respublikanın əməkdar müəllimi adı verildi. Bir müddət Zeyvə qəsəbəsindəki 5 saylı məktəbdə dərs dedi. 1988-ci ilin hadisələri ilə bağlı Sumqayıt şəhərinə köçməli oldu. Şəhərdəki 16 saylı məktəbdə öz pedaqoji fəaliyyətini davam etdirdi.

Qızı Validə və oğlu Səlahəddin də ataları kimi müəllimdirlər.

Qarabaş və Baharlı kəndləri isə Qumru nənənin nağılarına dönüb...





## SƏMƏD ALLAHVERDİ OĞLU QARAYEV

Maarif işçisi və ictimaiyyətçi. Daha çox ixtisaslı müəllim, məktəb direktoru, təsərrüfat başçısı və el ağsaqqalı kimi tanınıb

**1929**

## “MƏNƏ QAZANGÖLDƏN, VANADAN SÖZ AÇ!”

1988-ci ilin fevral ayı idi. Müntəzəm oxuduğum «Ədəbiyyat və incəsənət» qəzetinin 19 fevral tarixli nömrəsində şair Hafiz Baxışın «Burda, burda» və «Getdim» adlı şerləri dərc olunmuşdu. Birinci şeri o, Qafanın Çaykənd (Mahmudlu) kəndindən qayıtdıqdan sonra qələmə almışdı. Şerin bir bəndi diqqətimi çəkdi:

*Gəldim, salamlayım Günəş doğanı,*
*Bostan becərəni, inək sağanı,*
*Cavan ayrıldığım Səməd qağanı*
*Gördüm gur saçları çal, burda, burda!*

Desəm ki, Səməd müəllimi Hafiz Baxışın bu şerindən tanımışam, səmimiyyətimə inanın! Çünki hörmət əlaməti olaraq böyüklərə müraciət etdiyimiz «qağa» sözünü Hafiz Baxış elə məharətlə yerində işlədib ki, çalsaçlı Səməd müəllimin obrazı o saatca adamın təsəvvüründə canlanır və bu deyimi uzun müddət unuda bilmirsən…

Onunla ilk görüşüm isə böyük qardaşı Əliş Qarayevin xatirə günündə oldu. Bu barədə «Qazangöl yoluna güzgü tutmuşdu…» adlı yazıda təfsilatı ilə qeydlər etdiyimdən bir daha təkrarlamaq istəmirəm. Bircə onu deyirəm ki, həmin yazının təsirli

çıxmasında Səməd müəllimin də böyük xidməti oldu, ürək yanğısı ilə söylədiyi maraqlı həyat epizodları yazının əsasını təşkil etdi. O danışdıqca mənə elə gəlirdi ki, yalnız qardaşı haqqında gördüklərini və bildiklərini söyləmir. Əliş müəllimin yerinə, keçən illərin ağrı-acısını öz ürəyində daşıyır, yoxluğuna inanmır, xeyirxah əməllərini yaşatmağı özünə borc bilir. Səməd müəllimlə söhbətlərim elə canlı, elə təsirli alınırdı ki, təəssüratımı şerlə ifadə etməli oldum. Heç bilmədim, aşağıdakı yazı necə yarandı:

*Səməd müəllim, oturmuşuq üz-üzə,*
*Xəyal qanadlanıb, dağları süzə,*
*O yerdə yaşını çatdıran yüzə*
*Babadan, atadan, anadan söz aç,*
*Mənə Qazangöldən, Vanadan söz aç!..*

*... Dolan gözlərini yaşaran gördüm,*
*Qəm sevinc bürcünü aşıran gördüm.*
*Mən Əliş müəllimi yaşayan gördüm,*
*Çağsız itirdiyin qardaşdan söz aç,*
*Ürəkdən çıxmayan sirdaşdan söz aç!*

*Bu da bir yazıdır, tapdı bizləri,*
*Bağladı yolları, pozdu izləri.*
*Qapansın həsrətin açıq gözləri,*
*Diləyə açılan ürəkdən söz aç,*
*Ürəkdən boylanan çiçəkdən söz aç!*

*Çökməyək önündə kədərin, yasın,*
*Torpağa sevgimiz yetim qalmasın!*
*Danış, xatirəni illər almasın,*
*Babadan, atadan, anadan söz aç,*
*Mənə Qazangöldən, Vanadan söz aç!*

O mənə çox mətləbdən söhbət açmışdı, xatirələr söyləmişdi, doğma yurdun gözəl təbiətini dağ-dağ, yaylaq-yaylaq, bulaq-bulaq, çay-çay, meşə-meşə, çiçək-çiçək göz önünə çəkmişdi. Ancaq bütün bunları bir şerdə ifadə etmək mümkündürmü? Söhbətlərdən hiss edirdim ki, onun sinəsi sözlə



doludur, ürəyi o torpağa sevgi üstündə köklənib. Tərifə layiq ömür yolu keçsə də, özündən qənaətlə danışır, söhbəti daha çox Əliş müəllmin üzərinə çəkirdi. Məndə belə bir qənaət hasil olmuşdu ki, Səməd müəllimin söhbətlərindən təkcə bir-iki oçerk deyil, bütöv kitab yazmaq olar. Onun mənalı həyat yolundan və varlığa ayıq baxışından gələcək nəsillər öz səmərəli payını götürə bilərlər...

Şeri, əvvəl, «Yağmur» kitabına daxil etdim, sonra Əliş müəllimin oğul nəvəsi Zaurun toy məclisində səsləndi, elə bilirəm ki, çox yerinə düşdü. Sonra isə həmin şer Səməd müəllimin yenicə işıq üzü görmüş «Qazangöl həsrəti» kitabına salınıb. Bu kitabı tələsik vərəqləyib, yerə qoyur və ürəyimdə bir yüngüllük duyuram; şerdə ifadə etmək istədiyim bütün istəklərim burada geniş və əhatəli şəkildə verilib.

Kitaba ön söz yazan, professor Təhməz Quliyevin qeydlərində oxuyuram:

« - Əsərin müəllifi S.Qarayev bütün ömrünü ata-baba yurdu olan Gığı dərəsində keçirmiş, orada öz xalqına ağsaqqallıq etmiş, axırıncı 20 ildə (1968-1988-ci illərdə) Gığı sovxozunda direktor işləmiş, belə bir tarixi sənəd xarakterli xatirə yazmağı da qarşısına məqsəd qoymamışdır. Ancaq ayrılıq hissi, düşmənə qalmış Vətənin həsrəti, qəriblik hissi, məsuliyyət hissi müəllifi bu kitabı yazmağa vadar etmişdir.

Burada əsas məqsəd odur ki, gələcək nəsil bu əsəri oxuyarkən bilməlidir ki, Zəngəzur bizim ata-baba yurdumuz, Vətənimiz olub, gec-tez biz o yerə qayıdacağıq...».

Məndən olsa, professorun qeydlərinə əlavə kimi deyərdim ki, Səməd müəllim xatirələrini yazmayıb, sözün həqiqi mənasında, Zəngəzur torpağının bir bölgəsinin məlumat mənzərəsini göz önünə çəkib. Mənim üçün çox xoşdur ki, Səməd müəllim yaxşı tanıdığım, bəziləri ilə yaxından mənəvi dost olduğum adamlar haqqında səmimi söhbətlər açır, onları əziz qonaq kimi qarşılayıb yola saldığı illəri hörmətlə xatırlayır. Professor İbrahim Bəxtiyarov, şair Hafiz Baxış, ictimai və dövlət xadimi Bilal Kərimov, general Teymur Bünyatov, professor Nurəli Bünyatov və başqaları belə hörmətli qonaqlardan olmuşlar. Xoşuma gələn cəhət odur ki, Səməd

müəllim onlara hörmət etdiyi, zəngin qonaqlıqlar verdiyi barədə bir kəlmə də yazmır, həmin adamlardan fəxrlə, qürurla söhbət açır. General Teymur Bünyatov haqqında aşağıdakı fikirlər, yalnız ona səmimiyyətdən irəli gəlir: «Mərhum general T.Bünyatov Vətənini, xalqını sevən, mərd kişi idi, o, Bakıya qayıdan baş Girətağ kəndinə - öz dədə-baba yurduna gedər, 1-2 gün orada qalar, kəndliləri ilə görüşərdi.

Allah ona rəhmət eləsin!»

Səməd müəllimin həmin kitabda mənim atam və anam barəsində xoş sözlərinə görə də dərin minnətdarlığımı bildirirəm.

Onun özünün isə çox qısaca ömür yazısı var; 1929-cu ildə Gərd kəndində anadan olub. 1945-ci ildə Gığı orta məktəbini bitirib, elə həmin il də müəllimlik fəaliyyətinə başlayıb. Bir il sonra, ilk təhsil aldığı məktəbə dəyişdirilib, əvvəl, müəllim, 1950-ci ildən yeddiilliyin direktoru vəzifəsində işləyib, İrəvanda qəbul olunduğu pedaqoji institutu 1953-cü ildə Bakıda bitirib.

1960-cı ildən kənd təsərrüfatı sahəsində çalışıb; kolxoz sədri, partiya təşkilatı katibi və 20 ilə yaxın sovxoz direktoru vəzifələrində çalışıb. Bununla bağlı rayonun bir sıra ictimai təşkilatlarına üzv seçilib, mühüm tapşırıqların həllində böyük fəallıq göstərib və vaxtaşırı əməyi qiymətləndirilib. Bunlar hamısı öz yerində.

Ancaq məndən soruşsalar, çəkinmədən deyərdim ki, Səməd müəllimin bölgədə böyük nüfuz sahibi olması, hörmət mərtəbəsində özünə layiqli yer tutmasının əsas səbəbi, apardığı vəzifələr deyil, gördüyü xeyirxah işlər, ətrafındakı insanlara qayğı və münasibət, torpaq təəssübkeşliyidir. «Dağ kimi sərt olur dağ adamları, amma ki, mərd olur dağ adamları» - deyən şair Məmməd Arazın poetik fikirləri Səməd müəllim kimi adamlara aiddir. Bir məsələ də gün kimi aydındır ki, o, uşaqlıqdan bu dağları qarış-qarış gəzməsəydi, təmiz havasını, çiskinli, dumanlı günlərini sevməsəydi, adamlarına sonsuz sevgi bəsləməsəydi, belə hörmət sahibi olmazdı. Mən bilərəkdən onun maarif sahəsindəki fəaliyyətindən, təsərrüfat başçısı kimi gərgin işindən az yazıram, insanların yaxın dostu



olduğunu göstərmək istəyirəm. Ona müraciətlə yazdığım şerdə bir göl, bir yaylaq və bir dağ adı çəkmişdim. Amma görün, «Qazangöl həsrəti» kitabında xatırlanan nə qədər yer adı var?! Özü doğru yazır ki, elimizin həsrəti, təkcə Qazangöl həsrəti deyil, Qazangöl çayının axdığı vadidəki ən qədim kəndlərin... həsrətidir. Mən də əlavə edib, deyərdim ki, bu bütün Zəngəzur bölgəsinin həsrətidir. Bu nisgili o indi də yaşayır və bundan sonra da yaşayacaqdır!



*Səməd Qarayev (soldan birinci) akademik Fəraməz Məqsudov və başqaları ilə Çaykənddə. 1981-ci il.*

Səməd müəllimin torpağa, onun adamlarına sevgisində bir cəhət də qabarıq görsənir; o hamının sevincinə və nisgilinə şərik çıxmağı çoxlarından yaxşı bacarır, bu da onun hörmətini, ağsaqqallıq heysiyyətini qat-qat artırır.

Səməd müəllim ömrünün nəvəli-nəticəli çağlarını yaşayır. Onun 10 nəvəsi, 3 nəticəsi var. Bunlar hər biri babalarının minbir əziyyətlə böyüdüb boya-başa çatdırdığı, ali təhsil almaları üçün heç bir köməyini əsirgəmədiyi övladlarının ailələrində varlığa göz açmışlar. Nəvələrindən birinə babasının, birinə isə Bəyim nənənin adını veriblər. Qoy adları ilə yaşasınlar!

# SÖZÜN, SƏSİN VƏ GÜCÜN QÜDRƏTİ





## HÜSEYN ZƏNGİLİ (HÜSEYN SÜLEYMAN OĞLU BÜNYATOV )

Tənqidçi, pedaqoq. Daha çox pedaqoq kimi tanınıb.

**1911-1942**

## SƏNGƏRDƏ YAZILAN MƏKTUB

Neçə gün davam edən aramsız döyüşlər ara vermirdi. Havadan boğucu barıt qoxusu gəlirdi. Torpağın sinəsi qazım-qazım, yara-yara açılmışdı. Göyün üzündə tüstü topaları hələ də qalmaqda idi. Bir əsim küləyə bənd idi ki, axıb buludlara qarışsın...

Döyüşçülər köndələn qazılmış səngərlərin nəm torpaqlarına söykənib mürgüləyirdilər. Kim bilir, yuxunun hansı aləminə çəkilmişdilər. Hüseyn Bünyatov gözlərini açanda bir anlıq duruxdu. Səngərə göz gəzdirdi; nədənsə, doğma kəndin dərələrindəki yarılğanları xatırladı, uçqunları göz önünə gətirdi, onların törətdikləri fəlakətlər onu dəhşətə saldı. Davanın açdığı bu səngər-yarılğanlar da fəlakət yolunun başlanğıcı deyildimi?!

Neçə gün qabaq, evdən məktub almışdı. Əsgər köynəyinin döş cibinin düyməsini açdı və büküb səliqə ilə orada gizlətdiyi üçkünc məktubu çıxartdı. Məktubu bir neçə dəfə oxudu, qəhər onu boğdu, bir anlıq gözlərini yumdu...

Yadına gəldi ki, döyüşdən əvvəl, bu məktuba cavab yazmaq istəmişdi. Ancaq qəfildən ara qarışdığından məktub yarımçıq qalmışdı... Onu cibindən çıxarıb, dizinin üstündə yazmağa başladı...



"Əziz Nəni, Savış, Hüsnü və Süleyman! I. XII-da yazdığın məktubu aldım. Oxudum, həm sevindim, həm də... Ömrümün axır çağlarında sizə axır məktub yazıram və sizi öpürəm. Əcəl bizi yaxalayıb. Bu gün, ya da sabah yox olacağıq. Sizi ananıza, ananızı sizə, hamınızı isə babanıza və qəricənizə tapşırıram. Göndərdiyiniz pul çatmadı, bizə qismət olmadı, geri tələb edin...

... Savışın yazdığı xüsusi məktubu qoynumda saxlayıram, qoy o da mənim qanıma bulansın. Əlbət, belə imiş... Hər üçünüzü son dəfə öpürəm. Sizə cansağlığı arzu edirəm...

Məktubu üçkünc qatlayıb, ünvanı yazdı: ("... Qafan rayonu, Yuxarı Girətağ kəndi, Nənəxanım Bünyatovaya!)

Üç övladı vardı; böyük oğluna Güney Azərbaycanın uca dağı Savalanın adını vermişdi - "Savış" deyirdi; qızına, anası Hüsnücahanın adını vermişdi - "Hüsnü" deyirdi; kiçik oğluna atası Süleymanın adını vermişdi - "Sülüş" deyirdi, ancaq məktubda atasının adını bütöv yazdı. Bəlkə də, bu, evin ən kiçik kişisini böyük görmək arzusundan irəli gəlirdi.

Məktubları qoynunda gizlətdi. Poçtalyon gələn kimi yola salacaqdı....

Ürəyində azca yüngüllük hiss etdi. Doğulduğu Yuxarı Girətağ kəndi, o dağlar, o yaylaqlar göz önündən gəlib keçdi. Ömrü boyu bu yetimliyin acısını çəkmişdi; bu "ölüm" səngərində ölümdən qorxmurdu, uşaqlarının yetim qalacağından daha çox dəhşətə gəlirdi...

Talelər necə də bir-birinə oxşar idi; onlar da iki qardaş, bir bacı olmuşdular. Bacısının adı Bahar, kiçik qardaşının adı isə Rəcəb idi. Üçü də kiçik yaşlarından yetim qalmışdı. Qohumlarının sayəsində böyüyüb, boya-başa çatmışdılar. Bacısı ərə verilmiş, qardaşı ilə Bakı şəhərində təhsil almışdılar. Bakıda oxuduğu və təhsil aldığı illəri yaxşı xatırlayırdı; yaxın qohumu Bəşir Bünyatovun köməkliyi ilə, əvvəlcə, fabrik-zavod məktəbində oxumuş, sonra isə Bakı darülmüəllimində təhsilini davam etdirmişdi. Əlaçı olduğundan orada müəllim kimi saxlanmışdı. Dövrü mətbuatla sıx əlaqə saxlayırdı; həm ədəbiyyat dərnəklərinə gedir, həm də kiçik publisistik yazılar və şerlərlə çıxış edirdi. O illərin dövri mətbuatı səhifələrində onun

"Z", "Zəngili", "B.Zəngili", "H.B.Zəngili" kimi imzalarla müxtəlif səpkili yazıları dərc olunmuşdu. Dövrün tanınmış sənətkarları Hüseyn Cavid, Abdulla Şaiq, Mikayıl Müşfiq, Qantəmir və başqaları ilə tez-tez görüşməsi, onlarla yaradıcılıq söhbətləri aparması onu bütün varlığı ilə ədəbiyyata bağlamışdı. Ara-sıra şerlər yazar, şairlərin yenicə nəşr olunmuş kitabları haqqında resenziya dərc etdirərdi. O zaman sıxma-boğmaya salınan şair Almaz İldırımın ilk şerlər kitabı barədə resenziyanı o yazmış və nüfuzlu mətbuat orqanı sayılan "Kommunist" qəzetinin 1931-ci il, 2 mart tarixli nömrəsində dərc etdirmişdi. Bundan sonra, şair Səməd Vurğunun ilk şerlər toplusu olan "Şairin andı" kitabına eyni adda resenziya "İnqilab və mədəniyyət" jurnalının 1931-ci il, 3-4 cü il birləşmiş nömrəsində verilmişdi. Mikayıl Müşfiqin "Küləklər" ("Hücum" jurnalı, 1931 № 7-8) və Abdulla Faruqun "Üfüqlər qızaranda" kitabları ("Gənc bolşevik" jurnalı, 1932 № 7-8) barədə də resenziyalar dərc etdirmişdi.

İlk qələm təcrübələrindən bir neçə şerini müxtəlif mətbuat səhifələrinə çıxara bilmişdi...

Bakıda təhsil aldığı və işlədiyi illər acılı-şirinli xatirələrlə dolu idi. Onları xatırlayanda nə qədər sevinirdisə, bir o qədər qüssələnirdi. Hökumət orqanlarının müntəzəm surətdə təqib etdikləri şair Almas İldırım haqqında məqalə yazdığına görə, onu da izləməyə başlamışdılar. 1933-cü ildən sonra, bu təzyiq daha da güclənmişdi. Qohumlarının təkidi ilə Bakını tərk etməli oldu. Yenidən doğma kəndinə döndü.

Bir müddət Qafan bölgəsindəki Gığı kəndində kitabxanaçı işlədi. Sonra müxtəlif kəndlərdə, o cümlədən dünyaya göz açdığı doğma Yuxarı Girətağ kəndinin məktəbində dərs deməyə başladı. Öz sənətinə ürəkdən bağlı idi; biliyini şagirdlərə həvəslə öyrədirdi... Hayıf... Hayıf ki, bu qanlı müharibə onun ömrü kimi, sevimli sənətini də yarımçıq qoydu...

Əsgərliyə yola düşdüyü günü bir də xatırladı; tutğun bir gün idi, kəndin ayağındakı təpənin üstündə tikdirdiyi evindən üzü aşağı düşürdü. Arvad-uşaq ağlaşırdı, göylər qan-yaş tökürdü. Övladlarının üzünə baxa bilmirdi, addımlarını güclə atırdı...

Ağcagabda ayaq saxlayıb, son kərə dağlara baxdı; Qazmayurdun sal qayasını, Çıraqbalının haça zirvəsini, Erkəckeçməzi,



Göygədiyi son kərə süzdü... Ürəyinə dammışdı ki, bu gediş son gediş, bu görüş son görüşdü...

**Hüseyn, 10. 01. 42"**



*Son məktub, son fotoşəkil. Hüseyn Zəngili ailə üzvləri ilə. 1940-cı il.*

Gözlərindən axan iki damla yaş üzünü yandırdı. Hansı ildəsə yazdığı şerin misralarını pıçıldamağa başladı:

*Mən necə ayrılım başı dumanlı*
*Sıldırım dağlardan, göy çəmənlərdən?*
*Mənimçün nə qədər əzizdir, bilsən*
*Bu doğma yurdumuz, bu əziz Vətən!*

*Mən necə ayrılım aylar uzunu*
*Həsrətin çəkdiyim uca dağlardan?*
*Sən özün bilirsən, nə deyim bunu;*
*Çətindir ayrılmaq qoca dağlardan...*

...Yaxında partlayan mərmi onu xəyaldan ayırdı. Qanlı döyüşlər yenidən qızışmışdı... Məktubu isə bir az bundan əvvəl poçtalyon aparmışdı...



## HAFİZ BAXIŞ (HAFİZ HƏBİB OĞLU BAXIŞOV)

Şair, rejissor, aktyor, jurnalist. Daha çox şair, radio və televiziya verilişləri rejissoru kimi tanınıb.

**1932-1989**

## BİR SÖYÜD BASDIRIN...

O, bülbül cəh-cəhinə yuxudan oyandı. Səhər açılmışdı. Çəməndağından boy göstərən Günəşin qızıl şəfəqləri kəndi nura bələmişdi. Uca qayalar, dikdirlər və hündür ağaclar sapsarı donunu təzəcə geymişdi. Kəndin qarşısındakı Burudəyə dağı Bülbüllü meşəsindən tutmuş Qızılqayaya kimi işıq zolağı qurşamışdı. Günəş qalxdıqca bu zolaq da kəndə doğru uzanacaq, qürub çağı isə Çıraqbalı dağını aşıb, toranlığa qovuşacaqdı...

Qalxıb pəncərəyə yanaşdı. Göyümtül qaya bülbülü pəncərə önündə ucalan, salxım saçlarına tumurcuqlar düzülmüş söyüd ağacına qonmuşdu. Elə bil, Günəşin səhər nəğməsini ötürdü... Yenicə açılan yarpaqlar və düymələnmiş tumurcuqların üzündə zərif bir işartı əks olunurdu...

Bayıra çıxdı. Addım səslərini duyan göyümtül bülbül uçub, evin arxasındakı qayalığa qondu. O, söyüd ağacının altında dayanıb, bülbülün arxasınca xeyli baxdı...

Neçə il idi ki, göyümtül qaya bülbülü salxım saçlı söyüdlə sirdaşlıq edirdi. Bu söyüd ona əziz idi, doğma idi; anası Narınc xanım söyləmişdi ki, "o səninlə yaşıddır, atan öz əli ilə basdırıb". Atası Həbib davaya gedəndə on yaşı vardı; əmələli-



başlı xatırlayırdı. Ona görə də ailənin ilkin uşağı kimi ata yoxluğunu, ata həsrətini daha çox hiss edirdi. Söyüd ağacı da ona bir təsəlli idi. Ancaq söyüdə baxanda, nədənsə, atasını xatırlayır, atasının siması gözündə canlanırdı. Bundan neçə il keçəcək, Hafiz Baxış adlı şair kimi tanınanda kəndindən uzaqda yenə söyüd ağacını yadına salacaq və yazacaqdı:

*...Bir söyüd basdırın qəbrimə yaxın,*
*O mənim sevgilim olsun üstümdə.*
*Salxım saçlarını hey axın-axın*
*Darasın üstümdə, yolsun üstümdə...*

Bəs Hafiz Baxış söyüd ağacını nə zaman yada salmışdı; bir atası Həbib İsmayılovu həsrətlə xatırlayanda, bir də bəstəkar dostu Ələkbər Tağıyevin vaxtsız ölümündən sarsılanda. Ata həsrəti barədə bir neçə şer, hətta həmin adda poema qələmə almışdı. (Hayıf ki, "Ata həsrəti" poemasının əlyazması itmişdir). Bəstəkar dostunu itirəndə isə "Bizim dost itirən vaxtımız deyil!" - deyə fəryad etmiş, "Deyəsən" və "Vaxt olar..." adlı şerlərində bu böyük kədəri ifadə etməyə çalışmışdır:

*Hafiz, nə bəlalar çəkdi gör başın,*
*Necə çatılmasın heyrətlə qaşın?*
*Getdi könül dostun, könül sirdaşın;*
*Könlündən keçəni kimə deyəsən?!*

Doğrudan da, bəstəkar dostunu itirmək onun üçün nə qədər ağır idi. Onun könül sözlərini ürək tellərində dindirən dost idi Ələkbər. Necə də bir-biri ilə sənət dilində danışa bilirdilər! Bu da şirin-şirin nəğmələrin yaranmasına səbəb olurdu. "Xızı dağları", "Azərbaycan oğluyam", "Eşqimi sönməyə qoymayam", "Qəşəngdir!", "Mənim dünyam", "Olmaz" kimi onlarca populyar mahnı bu yaradıcılıq ünsiyyətindən meydana gəlməmişdimi?! Hafiz Baxış dostunun ölümündən az sonra "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi xatirəsində yazırdı: "Xoşbəxtəm ki, dost olmuşam bu dünyada Ələkbərlə.

Sonradan, çox sonradan belə bir qənaətə gəldim ki, nə zamansa onsuz da baş tutmalıymış bu dostluq. Mayası varmış bunun. Sən demə, tale əllərimizdən tutub, bizi sehrli bir aləmə aparırmış, bir-birimizdən xəbərsiz..."

Poeziya ilə musiqi dost etmişdi onları. Bu dostluq adi dostluq deyildi. Ürəkləri ehtizaza gətirən, insanlara mənəvi qida verən, incə duyğulardan maya tutmuşdu bu dostluq, illər keçdikcə böyüyür, qol-budaq atır, söyüd ağacı kimi saçaqlanırdı. Uşaqlıqda gördüyü o göyümtül bülbüldən öyrənmişdi nəğmə deməyi Hafiz. Ömrünün hansı çağındasa, nəğməkar bir dost tapdı. Birini Yuxarı Girətağ kəndində itirdi, birini Bakı şəhərində. Onun "dost itirən" çağıydımı? Tale ona istedad çələngini bağışlamışdı; müğənnidən tələb olunan tenor səsə malik idi — istəsə, gözəl xanəndə olardı. Kino və teatr aktyorluğu fakültəsini bitirmişdi; musiqili teatrda aktyor işləyə bilərdi. İti qələmi vardı; bacarıqlı jurnalist kimi fəaliyyət göstərirdi. Gözəl tar çalır, piano dilləndirirdi; ifaçılıq ardınca getmədi. Rejissorluq yolunu tutdu; radio və televiziya verilişləri hazırladı; efirdən və mavi ekranda tez-tez xoş sədası eşidildi. "Arzu saatı", "Nəğməli sətirlər", "Muğam" kimi verilişləri kimin yadında qalmayıb?! "Muğam" televiziya verilişləri barəsində ayrıca danışmağa dəyər. Bu verilişlərdə rejissor yaradıcılığının hansı qabarıq çalarları üzə çıxmırdı? Poeziya ilə musiqinin, səhnə ilə ifaçılığın məharətlə qurulmuş vəhdəti cəlbedici bir ahəng yaradırdı. Tamaşaçılar uzun müddət onun təsirindən ayrıla bilmirdilər. İndi ara-sıra "Muğam teatrı" verilişlərinə baxanda yenidən bu təsirə qapılıram. (Hayıf ki, həmin verilişlərin lentləri saxlanmayıb, hansı "qaraürəkli" isə onların məhv edilməsinə göstəriş verib(?))

Nəhayət, Hafiz Baxış istedadı poeziyada parlayıb yandı: nəğməkar şair kimi tanındı. Ələkbər Tağıyevlə dostluğu yaradıcılığın bu yönümünü daha maraqlı, daha səmərəli etdi; lirik şerdən epik poeziyaya meyl gücləndi. "Zirvə", "Dağlar üçün darıxmışam...", "Altı qardaş, bir bacı", "Ata yurdu", "Qara yel əsdi..." kimi poemaların qələmə alınması buna canlı sübut idi... Onun "Azərbaycan oğluyam" və "Sona bülbüllər" adlı iki poeziya toplusu nəşr olunmuşdu ("Eşqimi sönməyə qoy-



maram...", "Dağlar üçün darıxmışam..." və "Bu torpağa bağlıyam" kitabları ölümündən sonra çap edildi). Ancaq Yazıçılar Birliyinin üzvü deyildi. Bu sıradan dostu Ələkbər Tağıyevlə taleyi belə gətirmişdi. Neçə-neçə populyar mahnının müəllifini Bəstəkarlar İttifaqı üzvlüyə qəbul etmirdi(?).

Hafiz Baxış söyüd ağacına həsrət rəmzi kimi baxırdı. "Söyüdə yar həsrətli, taleyi acı" - deyirdi. Göyümtül bülbülü, sevimli atasını və sənət dostunu itirəndə də söyüd ağacını xatırlamışdı. Bülbülə nəğmə qoşanda onun yanıqlı misralarında bu həsrəti duymamaq mümkün deyil:

*Bir el nəğməsini oxudun, Qədir,*
*Qəlbimə illərin sükutu axdı.*
*O illər mənim də xatirimdədir,*
*Oxudun, keçmişlər üzümə baxdı.*
*Gəldi bircə-bircə cana, bülbüllər,*
*Sona bülbüllər...*

O illər - dava illəri idi, o illər - Hafizin atasını itirdiyi illər idi... Bu itki ömrü boyu onu izlədi, ata həsrəti şer və poemalarda aparıcı motivlərdən birinə döndü. Göyümtül bülbülü itirdi,- dözdü, sevimli atasını-anasını itirdi, - dözdü, dostunu itirdi, - dözdü, niskilləri ürəyinə saldı, ürəyində yaşatdı... Ancaq bir itkiyə dözə bilmədi. Bütün varlığı ilə sevdiyi, uşaqlıq çağlarından könül bağladığı Burgurşad dağlarını bu dağların qoynunda yetim qalan Yuxarı Girətağ kəndini itirəndə... Həmişə dağlarla görüşüb qayıdanda deyərdi:

*... Ağla, ey gözlərim, bax intizarla,*
*Üz-üzə durmusan ana diyarla.*
*Zirvənin başında ağaran qarla*
*Göz yaşı tökmədən olmur görüşmək,*
*Yamandır Vətəndən aralı düşmək!...*

*Yollar çəkib məni şirin bir dilə,*
*Aparır ardınca hey pillə-pillə.*
*Hər ötən bülbülə, hər açan gülə*
*Göz yaşı tökmədən olmur görüşmək.*
*Yamandır Vətəndən aralı düşmək!...*

*Karvanım düzlərdən keçir kədərlə,*
*Hal-əhval tuturam hər qarış yerlə.*
*Suyundan içdiyim sər çeşmələrlə,*
*Göz yaşı tökmədən olmur görüşmək,*
*Yamandır Vətəndən aralı düşmək!..*

O sevə-sevə tərənnüm edərdi bu dağları, gülə-gülə görüşər, ağlaya-ağlaya ayrılardı. Lakin 1988-ci ildən sonra daha sevimli dağlarının üzünü görə bilmədi. Erməni işğalçıları onu dağlara, doğma kəndinə həsrət qoydular. Bu ağır itkiyə dözmədi ürəyi, dözə də bilməzdi. Axı ömrü boyu itki, həsrət notları üstündə köklənmişdi...



*Növbəti televiziya verilişindən sonra.*
*Hafiz Baxış (sağdan birinci) sənət dostları arasında. 1980-ci il.*

Radio və televiziya şirkəti işçilərinin etiraz mitinqi keçirilirdi. Tribunaya qalxan hər kəs həyəcanla, nifrətlə, ehtirasla danışır, ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq tamahını yamanlayırdı. O da çıxış etdi, qəzəbli sözlər söylədi, ermənilərin, onlara qəyyumluq edən rusların ünvanına nifrətlər yağdırdı... Tribunadan düşdü... Qəzəb və nifrət hissləri bütün varlığını titrətdi...

Jurnalist dostu Qulu Kəngərli bu hadisədən doqquz ay sonra "Vətən səsi" qəzetində onun son anlarından yana-yana belə yazırdı: "... Gözümün qabağında keçindi danışa-danışa. Ürəyi partlayandan sonra, dediyi söz qulağımda səslənir: "Hanı bizim qeyrətimiz, hanı bizim namusumuz?! Bu hadisələr nə vaxta qədər belə davam edəcək?! Nə vaxta qədər mərkəzi hakimiyyət hadisələrə birtərəfli yanaşacaq? Bunu deyib çökdü. Özü kresloya, əcəli çiyinlərinə. Bir də ayağa durmadı. Tabutda apardılar evə..."

Onu Sumqayıt məzarlığında, anası Narınc xanımın qəbri ilə yanaşı, torpağa tapşırdıq. Qəbrinə yaxın bir salxım söyüd əkilib. Deyirlər, onu Hafizin özü basdırıb. Külək əsdikcə söyüdün salxım saçları onun məzarı üstünə qoyulmuş baş daşını yelpikləyir. Elə bil ki, bu salxım saçlar Hafiz Baxışın həzin misralarını bütün məzarlığa pıçıldayır:

*Bir söyüd basdırın qəbrimə yaxın,*
*O mənim sevgilim olsun üstümdə...*



## ABDULLA FƏTULLA OĞLU İBRAHİMOV

Əməkdar jurnalist, pedaqoq və ictimaiyyətçi. Daha çox jurnalist kimi tanınıb.

**1918**

## ƏSƏD DÜZÜNDƏ DOĞULAN KÖRPƏ...

Abdulla müəllimin özünü tanımamışdan əvvəl, imzasını tanımışam. 50-ci illərdə bölgə müxbiri kimi, "Sovet Ermənistanı" qəzeti səhifələrində müxtəlif səpkili yazılarına müntəzəm rast gələrdim. Amma onun kəndimizin qarşısındakı Burudəyə dağında varlığa göz açdığını bilmirdim. Bunu onunla söhbət zamanı öyrəndim. Xatırladım ki, 1918-ci ildə qaçqınların Burudəyənin Əsəd düzündə toplaşmasını "Qaraqapı" poemasında bibimin dilindən təsvir etmişəm:

**Elə bil ki, yas yeriydi Burudəyə,**
**Ağlaşırdıq, dizimizə döyə-döyə.**

**-Dağların başı qanlı,**
**Torpağı, daşı qanlı,**
**"Qardaş" deyib sızlaram,**
**Gözümün yaşı qanlı!..**

Həyatın ağılasığmaz, ağrılı bir məqamı idi; bir tərəfdə arvadların şivəni, uşaqların qışqırtısı, yaralıların sızlartısı dağı-daşı başına götürmüşdü, o bir yanda - Əsəd düzünə söykəkli qayanın dibində varlığa körpə göz açırdı... Bu körpə haqqında söhbət



açdığım, jurnalist Abdulla İbrahimov idi... İndi onun yaşı səksəni adlayıb. Ömrünün 50 ildən çoxunu qələm çalmağa - jurnalistlik fəaliyyətinə həsr edib. Buna arxayın olduğumdan həyat yolunun önəmli çağlarını yazmağını öz öhdəsinə buraxdım. O, xahişimi yerinə yetirdi və belə bir yazı təqdim etdi: "-Körpəlikdən məni həm "Çölü", həm də "Çoban"- deyə çağırardılar. Bunun heç fərqinə varmazdım. Elə bilirdim ki, özgə uşaqları kimi, mənim də iki adım var; biri "əzizləmək" üçün, biri də əsl ad. Səkkiz yaşım olanda anam Tutubəyim əlimdən tutub, məktəbə apardı. Məktəbin müdiri sonradan bölgədə məşhur pedaqoq kimi tanınan Cəlal Zeynalov idi. O məni başdan-ayağa mehribanlıqla süzüb, əli ilə saçımı sığallaya-sığallaya soruşdu:

- Adın nədir, bala?

Mən dinmədim. Əvəzimə anam cavab verdi:

- Cəlal qağa, adı Çobandır, biz "Çölü" çağırırıq...

Cəlal müəllim heyrətləndi:

- "Çölü" nədir, ay bacı, uşağa əməlli-başlı ad qoya bilməzdiniz?!

Anam üzünü yana döndərdi:

- Cəlal qağa, qaçahaqaçlıq vaxtı çöldə, Əsəd düzündə doğulub, adını belə çağırdıq...

Cəlal müəllim gülümsündü:

- Bala bu gündən sənin adını Abdulla qoyuram. Kim "Çölü", ya da "Çoban" çağırsa, cavab vermə!

O gündən sinif jurnalına adım "Abdulla" kimi yazıldı və bütün ömrüm boyu bu adı daşıdım. Ancaq Əsəd düzündə doğulmağım müəmmalı bir hadisə idi. Bunu anamdan mütləq öyrənməli idim. Evə çatan kimi, anamın üstünə qaçdım:

- Əsəd düzü haradır, mən niyə orada anadan olmuşam?

O çağdan 70 ildən çox keçib, ancaq anamın söylədikləri olduğu kimi yadımdadır:

"- Ağır günlər idi, bala, iki ilə yaxın qaçqınlıq keçirdik, əzablar-əziyyətlər gördük, od ayaqladıq, başımıza olmazın müsibətlər gəldi... Erməni azğınları bizə dinclik vermirdilər: hər iki gündən bir kəndə hücum çəkir, dikdirlərdən güllələr yağdırırdılar. Ona görə də arvad-uşağı yığıb, Qırqalasının arxasına apardılar. Daşnaklar yallara top çıxarıb, kəndi topa

tutmağa başlayanda ta bizim kişilər tab gətirə bilmədilər. Məsləhət oldu ki, Yuxarı Girətağ kəndinə sarı yeriyək. Yolumuz meşələrdən keçirdi. Açağu kəndinin üstündən keçib, Ala adlanan meşəyə girdik. Güclə ayaqlarımı sürüyürdüm. Ağırayaqdım. Neçə yerdə büdrədim, oturub nəfəs dərdim. Şəhərcikdən çıxanda Dağdağan pirinə yalvarmışdım. Yuxarı Girətağ kəndində, yolumuzun üstündə Kəkilli pir vardı: ona da üz tutdum; "-Kəramətinə qurban olum, ay Kəkilli pir! Dörd oğul itirmişəm. Hələ dünya işığına çıxmamış bu balamı özün qoru!" Bilmirəm, bala, bəlkə, pir mənim yalvarışımı eşitdi, Tanrı səni yanığıma yamaq verdi?! Yuxarı Girətağ kəndindən adamlar üz tutmuşdular qənşərdəki dağa sarı. Biz də onlara qoşulduq. Əsəd düzü deyilən düzəngahda o qədər adam vardı ki, ağız deyəni qulaq eşitmirdi. Sən orda dünyaya gəldin..."

Mən Şəhərcikdə böyüyüb, boya-başa çatmışam. Ancaq Yuxarı Girətağ kəndinin də taleyimdə öz doğma yeri var. Bu təkcə o ərazidə varlığa göz açmağımla məhdudlaşmır. İş elə gətirib ki, ömrümün daha üç ili həmin kəndlə bağlanıb. İbtidai təhsil aldıqdan sonra, yuxarı siniflərdə oxumaq istəyirdim. Lakin yeddiillik məktəb yalnız Yuxarı Girətağ kəndində idi. Ona görə də üç il orada oxumalı oldum. Hər dəfə məktəbdən çıxanda Əsəd düzünə baxırdım və anamın söylədiklərini xatırlayırdım. Məhəmməd Əzizov, Əli Möhsünov kimi sinif yoldaşlarım vardı. Onlarla kənd ərazisinin çox yerini gəzmişəm; meşələrdən qarağat, alça, əzgil yığmışam, qayaların döşündən quşəppəyi dərməyimiz heç yadımdan çıxmaz. Yetişmiş quşəppəyinin dadını mən hələ heç bir meyvədə duymamışam. Mənə həlim təbiətli müəllimlər dərs deyib; Həbib İsmayılov, Hüseyn Bünyatov kimi insanları unutmaqmı olar?! Ədəbiyyata, yazı-pozuya marağımı mənə Hüseyn müəllim təlqin edib. Yuxarı Girətağ məktəbini bitirdikdən sonra, əvvəlcə, İrəvana gedib, Kənd Təsərrüfatı Texnikumuna qəbul olundum. Lakin oranı yarımçıq qoydum. Bakıda yeni Siyasi Maarif Texnikumu açılmışdı. Ora girdim. İki kurs oxumuşdum ki, kəndə qayıtdım. İbtidai sinif müəllimi kimi Şəhərcik məktəbində dərs deməyə başladım. Müəllimliyə çox böyük həvəsim vardı. Lakin müharibə həvəsimi gözümdə qoydu. 1941-ci ilin dekabrında hərbi səfərbərliyə alındım. Bakıdan



başlayan cəbhə yolum Avstriyanın Vyana şəhərində sona çatdı...

1946-cı ilin fevralında ordudan tərxis olundum. Rabitəçi kimi xidmət göstərmişdim, orden və medallarla təltif edilmişdim...



*Abdulla İbrahimov (soldan birinci) jurnalist həmkarları arasında. 1980-ci il.*

Elə bilirdim ki, yenidən sevimli müəllimlik sənətimə qayıdacağam. Lakin məni Qafan rayon mədəniyyət şöbəsində inspektor vəzifəsinə göndərdilər. Qəzet redaksiyasında işləmək, yaxud jurnalist olmaq heç ağlıma da gəlməzdi. 1947-ci ilin oktyabrında mədəniyyət şöbəsindən rayonda çıxan "Mis uğrunda" qəzeti redaksiyasının Azərbaycan şöbəsinə müdir təyin olundum. Bu illərdə Ermənistandan azərbaycanlıların köçürülmə kompaniyası gedirdi. Qəzetdə bu yönümdə təbliği yazılar verilməli idi. Mən isə bununla heç cür razılaşa bilmirdim. Redaktoru dəyişdilər, az sonra isə Azərbaycan şöbəsi bağlandı. Mən "Sovet Ermənistanı" qəzeti ilə əməkdaşlıq etməyə başladım. Qəzetin redaktoru C.Vəlibəyov məni 1952-ci ilin avqust ayının 1-dən Zəngəzur bölgəsi üzrə xüsusi müxbir təyin etdi. O çağdan başlayaraq, mənim jurnalistlik fəaliyyətim bu qəzetlə bağlandı. Bir bölgə müxbiri

kimi, öz vəzifəmin öhdəsindən gəlsəm də, hiss edirdim ki, seçdiyim sənət üzrə ali təhsil almalıyam. Texnikumda oxumağım yarımçıq qalmışdı, orta məktəbi də bitirməmişdim.

1954-cü ildə Bakıya getdim. Texnikumun (sonradan bu məktəb Kitabxanaçılıq Texnikumu adlanırdı - R.T.) rəhbərliyinə ərizə yazıb, bir cəbhəçi kimi imtahan verdim. Texnikumun diplomu ilə BDU-nun jurnalistika fakültəsinə daxil oldum və qiyabi ali təhsil aldım...

1971-ci ildə qüsursuz işimə görə Fəxri Fərmanla təltif olunmuşam. 1985-ci ildə müsabiqənin qalibi kimi ikinci mükafata layiq görülmüşəm. 1986-cı ildə isə "Əməkdar jurnalist" adını almışam. Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm. Lakin bunların heç biri ahıl çağımda doğma torpağımdan ayrıldığımı unutdura bilməz. Təsəllim ondadır ki, qədim Zəngəzur torpağı və onun əmək adamları barəsində yazdığım saysız-hesabsız yazılar mətbuat səhifələrində özünə yer tapıb. Mən o yazılarda ömrümün qızıl anlarını əritmişəm...".

Onu da deyim ki, Abdulla müəllim indi də qələmini yerə qoymayıb. Ara-sıra dövri mətbuat səhifələrində siyasi hadisələrə dair məqalələrlə çıxış edir. O, eyni zamanda, Nərimanov rayon müharibə və əmək veteranları şurasının plenum üzvüdür. Hərbi-vətənpərvərlik işinin təbliği sahəsində böyük fəallıq göstərir...





**RAFİQ YUSİFOĞLU**
**(RAFİQ YUSİF OĞLU ƏLİYEV)**

Şair-jurnalist, ədəbiyyatşünas, pedaqoq. Daha çox şair və jurnalist kimi tanınıb.

**1950**

## "ŞAİRDİRSƏ, BABASINA ÇƏKİB..."

1986-cı ilin noyabr ayı idi. İşimlə bağlı "Molla Nəsrəddin" jurnalını vərəqləyirdim. 1930-cu ilə aid nömrələrdən birində "Zəlili bulaq" adlı şerə rast gəldim. Çox hissəsini anamdan öyrənib, əzbər bildiyim bu şerin müəllifi məni çox maraqlandırdı; sonda "İstot" imzası vardı. Şeri köçürüb, anama göstərdim. Bildirdi ki, bu şeri mənim orta məktəb müəllimim Nuşirəvan Kərimov yazmışdı. Bu imza ilə dərc olunmuş bütün şerləri köçürdüm. Eyni üslubda, lakin özgə imza ilə verilmiş əsərlər də vardı. Mənə məlum idi ki, Nuşirəvan Kərimov şair Qasım Qasımzadənin də ilk müəllimlərindən olub. Ona görə, şerləri onun yanına apardım. "İstot" kimin imzasıdır" adlı kiçik məqalə də yazmışdım. Qasım müəllim şerləri oxuyub, çox sevindi. Əlavə etdi ki, Nuşirəvan müəllim haqqında yazmaq lazımdır. Bir həftə sonra, mənə zəng edərsən. Vədələşdiyimiz vaxt onunla telefonda danışdım. Dedi ki, "Ədəbiyyat və incəsənət" qəzetinin növbəti nömrəsində sənin məqalənlə birgə mənim də xatirəm dərc olunacaq. Şerləri Nuşirəvan müəllimin nəvəsi, "Göyərçin" jurnalında şöbə müdiri işləyən Rafiq Yusifoğluna vermişəm, onunla əlaqə saxla...

Doğrudan da, bir həftə sonra qəzetin 1986-ci il, 12 dekabr tarixli nömrəsində mənim məqaləmlə birlikdə Qasım müəllimin də maraqlı bir xatirəsi dərc olundu. Qasım Qasımzadə yazırdı: "Rəşid müəllimin Nuşirəvan Kərimovu yada salıb, onun indiki

ədəbi-pedaqoji ictimaiyyətə məlum olmayan fəaliyyətinə dair faktlar üzə çıxarıb, mənim istəkli müəllimim barəsində söhbət salması qəlbimi riqqətə gətirdi. Xəyalım ömrümün uşaqlıq çağlarına qayıtdı..." Sonra isə qeyd edirdi: "İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir..."

Elə o çağdan Rafiq müəllimlə dostlaşdıq. Hər dəfə redaksiyalara gedəndə mütləq onunla görüşər, şerdən, sənətdən, elmdən söhbət açırdıq. Poetik duyumu düşüncəmlə, elmi təfəkkürü idrakımla uyardır. Deməyəsən, başqa bir səbəb də bizi doğmalaşdırıb; bir gün söhbət zamanı mənə dedi ki, babam Seyidəli də Qafan torpağının Oxdar bölgəsindəndir. Daşnaklar Dorhnu kəndini dağıdandan sonra, Qubadlının Çardaxlı kəndinə köçüblər...

Onu da deyim ki, mənim "Göyərçin" jurnalında şerlərimin və kiçik hekayələrimin dərc edilməsində Rafiq Yusifoğlunun ayrıca qayğısı olub. Yaradıcılığı ilə tanışam, xoşuma gələn, özünəməxsus cəhətləri çoxdur. Lakin məqsədim onun əsərlərini təhlil etmək, yaxud elmi fəaliyyəti barədə fikir yürütmək deyil. Məqsədim odur ki, tərtib etdiyim bu kitabda Qafan bölgəsindən olan tanınmış adamlar arasında onun da adı çəkilsin. Odur ki, mənə təqdim etdiyi yaşam yazısını özünün adından burada verirəm:

"1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində anadan olmuşam. Qubadlı orta məktəbini bitirdikdən sonra, 1966-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə qəbul edilmişəm. 1970-ci ildə təhsilimi başa çatdırıb, 1985-ci ilədək Sumqayıt şəhərində müəllim işləmişəm.

1978-1982-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşam. 1984-cü ildə "Azərbaycan poemasının inkişaf problemləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışam.

1985-1996-cı illərdə "Göyərçin" jurnalı redaksiyasında, əvvəlcə, şöbə müdiri, sonra məsul katib vəzifələrində çalışmışam. Hazırda həmin jurnalın redaktoruyam. 1996-1997-ci illərdə Azərbaycan Dövlət Teleradio şirkətində şöbə müdiri olmuşam.

1966-cı ildən dövri mətbuatda bədii əsərlər, elmi və publisistik məqalələrlə çıxış edirəm.

"Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" (rus dilində), "Bahar qatarı", "Dədə Qorqud" və "Xatirə gəcavəsi"



kimi kitablarım nəşr olunmuşdur.

1998-ci ildə "Poema: axtarışlar, perspektivlər" adlı monoqrafiyam çapdan çıxıb. Bunun əsasında doktorluq dissertisiyası müdafiə edəcəyəm.

Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm. "Ətirli düymələr" kitabım mükafata layiq görülüb.

Ata babam Seyidəli Seyidibrahim oğlu əslən Qafan bölgəsinin Dorhnu, ana babam Nuşirəvan Kərimov isə Sisyan rayonunun Sofulu kəndindəndir..."

Qeyd etməyi vacib sayıram ki, Rafiq Yusifoğlu ictimai işlərdə də həmişə fəallıq göstərib.



*Rafiq Yusifoğlu (sağdan birinci) yazıçı dostları ilə məktəblilərin görüşündə. 1986-cı il.*

1995-ci ildə 41 saylı dördüncü Sumqayıt seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd göstərilməsi buna canlı misaldır. Seçkidə qələbə qazana bilməsə də, dövri mətbuat səhifələrində haqqında bir sıra tanınmış adamların yazıları dərc olunub. Onlardan bəzi məqamları yazıya əlavə edirəm:

Nizami Xudiyev (professor) – "Rafiq Yusifoğlu institutumuzun ən çox çap olunan tələbə şairi idi. Yazıçı İsmayıl Şıxlı, tənqidçi Əhəd Hüseynov, şairlərdən Xəlil Rza, Zahid Xəlil onun şerlərini bəyənir, istedadlı qələm sahibi kimi yetişəcəyinə böyük ümid bəsləyirdilər..." ("168 saat" qəzeti);

Tofiq Mahmud (şair) - "Onun ən yaxşı şer kitablarından biri də "Ocaq yeri" adlanır. Kökə, torpağa, həyata bağlılığı, təbiətin

gözəlliyi, adət-ənənəmizə məhəbbət bu kitabın əsas aparıcı motivləridir. Son illərdə çap olunan "Aylı cığır" kitabı uşaqlar üçün nəzərdə tutulsa da, hamı üçün maraqlıdır..." ("Həyat" qəzeti);

Şamxəlil Məmmədov (jurnalist) – "Uşaq psixologiyasına dərindən bələdlik, sadəlik və təbiilik, bədii-estetik fikir tutumu R.Yusifoğlunun şerlərinin başlıca məziyyətlərindəndir. O, ciddi sosial-ictimai mövzularda qələm məhsulları ilə də böyük oxucu marağı qazanmışdır...("Azərbaycan müəllimi" qəzeti).

Rafiq Yusifoğlu özü isə babası Seyidəliyə ithaf etdiyi "Qaranquş seyid quşudur" şerinin epiqrafında yazır:

"Qaranquşa seyid quşu deyirlər. Nə üçün? Bəlkə, elə onun üçün ki, köçəridi? Ulu seyidlər, imam övladları – Seyidibrahim, Seyidəli! Bəlkə, Siz də qaranquş döşündə baharı gətirdiyi kimi, insanlara, ulu Tanrının övladlarına sevinc gətirmək arzusu ilə Ərdəbildən Ecanan dərəsinə, Oxdara; Ecanan dərəsindən Çardaxlıya; Çardaxlıdan Qubadlıya; Qubadlıdan Sumqayıta, Bakıya gəlib çıxmısınız? Nəvələriniz, nəticələriniz sizin pak adınızı qoruyub saxlayırsa, narahat olmağa dəyərmi? Nəsil öz mənəvi saflığını zamanın çirkablar burulğanından xilas eyləyə bilibsə, deməli, bəşərin yolu cənnət yoludur...

**...Günəş üçün nə fərqi var,**
**Ya tülu, ya da ki, qürub?!**
**Baba, qərib evimizdə**
**Qaranquşlar yuva qurub...**

Rafiq müəllim bu şerinin də salındığı və 1998-ci ildə nəşr olunan "Həsrət köçü" poetik toplusunu armağan gətirmişdi. Onu belə bir aftoqrafla mənə bağışladı: "Əziz Rəşid müəllim, gün o gün olsun ki, həsrət qaldığımız doğma torpaqlarımızda görüşə bilək! 22. X. 1999"

Gözəl arzudur!..





1934-1997

## ƏLİ MƏHƏMMƏD OĞLU MEHDİYEV

Opera solisti, müğənni, pedaqoq. Dahi çox opera solisti və pedaqoq kimi tanınıb.

### TARIN TELLƏRİ DİNƏNDƏ...

1964-cü ilin əvvəlləri idi. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı nəzdində seçmə komissiyası yaradılmışdı. Komissiyanın əsas məqsədi teatr üçün yeni ifaçılar aşkarlamaq və qocaman sənətkarları əvəz edəcək istedadları səhnəyə cəlb etmək idi. Təcrübə göstərirdi ki, təşəbbüs yeni-yeni istedadların aşkara çıxarılması üçün ən doğru yoldur...

Komissiyanın növbəti yığıncağı idi. Səhnəyə bir müğənni çıxdı. Tar və kaman çalanlar öz yerlərini tutmuşdular. Məşhur sənətkar Bəhram Mansurovun tarı dilləndi. "Zabul segahı"nın ürəyəyatımlı xalları səhnəni başına götürdü. Müğənni aram-aram, aydın bir səslə oxumağa başladı. Tarın səsinə uyar ifası və xalları yerli- yerində vurmasından duymaq çətin deyildi ki, sənətdə naşı deyil, müəyyən yol keçib. Səsinin tembri, ifaçılıq məharəti və gözəl musiqi duyumu komissiya uzvlərini tamamilə razı saldı. Onu Opera və Balet Teatrına qəbul etdilər...Bu, Əli Mehdiyev idi...

O, 1934-cü ilin iyun ayının 17-də Qafan bölgəsinin Yuxarı Gödəkli kəndində doğulmuşdu. Atası kənd müəllimi idi. Ən böyük arzusu oğlunu özü kimi müəllim görmək istəyirdi. Başlanan qanlı-qadalı savaş Məhəmməd müəllimi onun təhsili ilə müntəzəm məşğul olmağa imkan vermədi. Birinci il idi ki,

oğlunu həvəslə məktəbə aparmışdı. 1941-ci ili də tədris ili kimi başa çatdıra bilmədi. Onu cəbhəyə apardılar. Ancaq çoxları kimi, Əlini də o ağır illərdə anası Teliş böyütdü, oxutdu. Qanlı-qadalı illər arxada qaldı. Atası Məhəmməd müəllim qayıtdı. Sevimli sənətini davam etdirməyə başladı.



M.Manomayevin "Şah İsmayıl" operası. Əli Mehdiyev Şah İsmayıl və Simuzər Hatəmova Ərəb Zəngi rollarında. 1960-cı il.

Əli kənddə 7 illiyi bitirdikdən sonra, Qafan şəhərindəki orta məktəbdə təhsilini davam etdirdi. Onun üçün bütün keçilən fənlər eyni idi. Birini o birisindən fərqləndirməzdi.

1951-ci ildə ali təhsil almaq üçün atası onu Bakıya göndərdi. O illərdə çoxları neft mühəndisi olmağa can atırdılar. Əli də bu məqsədlə sənədlərini Azərbaycan Sənaye İnstitutuna verdi. Qəbul olunsa da, bircə il oxuya bildi. Burada təhsilini davam etdirmək ürəyincə olmadı. İnstitutu yarımçıq buraxıb, kəndə qayıtdı.

1954-cü ildə onu əsgəri xidmətə çağırdılar. Lakin xəstələndiyindən 1957-ci ilin iyun ayında, vaxtından əvvəl, ordudan tərxis olundu. O oxumalı idi, ali təhsil almalı idi...

1958-ci ildə yenidən Bakıya gəldi və indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika və ümumi texniki fənlər fakültəsinə qəbul olundu. 1964-cü ildə ali məktəbi bitirib, orta məktəbdə fizika və texniki fənlər müəllimi ixtisası qazandı. Onun təyinatını Ticarət Texnikumuna verdilər.Bir neçə il öz ixtisası üzrə müəllim işlədi...



Bəs necə oldu ki, belə bir ixtisas sahibi, incəsənət aləminə düşdü, opera solisti səviyyəsinə yüksəldi? Həyatda istedad və həvəs həmişə öz üstünlüyünü göstərir. Əli Mehdiyevin uşaqlıqda səsi vardı. Lakin özünə inam hələ doğmamışdı. Tar çalmağa meyl salandan sonra, müğənniliyə həvəs daha da gücləndi. Boş vaxtlarında həzin-həzin tar çalar, pəsdən oxuyardı. Onun ifası hələ özünün deyildi, kimisə xatırladırdı, kiminsə ifasına bənzəyirdi...

İllər keçdikcə bu xatırlanma, bu bənzəyiş də tez sovuşub getdi. Heç kəsə oxşamayan Əli Mehdiyev ifası yarandı. Ali təhsil illərində həm universitetin tələbələr ansamblında, həm də 1960-cı ildən Azərbaycan Dövlət Vokal Ansamblında çıxış edirdi. Oxuduğu xalq mahnıları tezliklə öz pərəstişkarlarını tapdı. Onun ifası musiqi ictimaiyyətinin nəzərini cəlb etməyə başladı. Artıq 1963-cü ilin iyun ayından o, Azərbaycan Dövlət Filarmoniyasına dəvət olunmuşdu. Bir ilə yaxın orada solist kimi konsertlərin önəmli iştirakçılarından biri sayıldı.

1964-cü ildən sonra, Əli Mehdiyevin ifaçıq sənətində yeni üfüqlər açıldı. Məşhur operalar-da baş rolların ifası ona etibar edildi. İlk rolu "Leyli və Məcnun" ope-rasında Məcnun oldu. Bu tamaşa Əfrasiyab və Şəmsi Bədəlbəyli qar-daşlarının nəzarəti altın-da hazırlanırdı. Birinci tamaşa uğurla keçdi. Məcnun ifaçıları sırasına biri də gəldi. Opera sevənlər bundan böyük şadlıq tapdılar, onu dö-nə-dönə alqışladılar. Bu-nun ardınca "Əsli və Kərəm" də - Kərəm, "Şah İsmayıl"da -Şah İsmayıl, "Aşıq Qərib"də -Aşıq Qərib rollarının bənzərsiz ifaları Əli Mehdiyevə dərin hörmət qazandırdı, gələcəyə inamını artırdı.

Opera və Balet teatrı hər yay qastrol səfərlərinə çıxırdı. Bunlardan onun üçün ən çox yadda qalanı Naxçıvan Muxtar Respublikasına və Gəncə şəhərinə səfəri oldu. Əli Gəncədə bir həftə ərzində dalbadal verilən tamaşalarda baş rolların ifaçısı oldu, üstəlik konsertlərdə də iştirak etdi.

O, yeni- yeni rolları oynamaq arzusunda idi.Ona Naxçıvan Muxtar Respublikasının "Əməkdar artisti" fəxri adı verilmiş, bir sıra fərmanlarla təltif olunmuşdu.

Lakin taleyin amansız hökmü isə bütün diləklərinin önünə keçilməz sədd çəkdi. Əli Mehdiyev ağır bir xəstəliyə

tutulmuşdu. Daha ona oxumağa icazə verilmirdi. 1981-ci ildən operadan ayrılmalı oldu...

Neçə ilin əziz sirdaşı- sevimli tarından isə ömrünün sonuna kimi ayrılmadı. Böyük təsəllini tarın varlığını ehtizaza gətirən tellərində tapdı...Bir də ara-sıra qoşduğu torpaq həsrətli şerlərində...

Əli Mehdiyev öz həsrət duyğularını doğma kəndinə yazdığı şerlərinin birində belə ifadə edirdi:

***Gecə yuxum yoxdu, gündüz qərarım,***
***Ey mənim Vətənim, dövlətim, varım!***
***Sən mənim ürəyim, şirin canımsan,***
***Qeyrətim, şöhrətim, həm də şanımsan!***

***Yer şarı bir üzük, sən onun qaşı,***
***Səndən ötrü axar qanlı göz yaşı.***
***Xəyalən gəzirəm sizdə hər zaman;***
***Peyvasdıq, Armudlar, ey Hətəmdaşı!***

***Bir yanın Kırmındır, bir yanın Süsən,***
***Səndən heç olarmı inciyən, küsən?!***
***Ey güllü-çiçəkli bağçalar, bağlar,***
***Sizi yada salcaq gözüm qan ağlar...***

1997-ci ildən tarın telləri susub, Əli Mehdiyevin barmaqlarının həsrətini çəkir. Onun xatirəsi isə ürəklərin tellərində səslənir...

"Şuşanın dağları", "Süsən -sünbül", "Yar bizə qonaq gələcək", "İrəvanda xal qalmadı", "Alma almaya bənzər" kimi xalq mahnılarının,"Qarabağ şikəstəsi", "Zabul segahı", "Mahur hindi", "Mirzə Hüseyn segahı" təki muğamların onun ifasında valları və lent yazıları tanınmış müğənninin və opera solistinin bənzərsiz səsini daima yaşadacaq. Bu isə Əli Mehdiyevin doğmalarına, övladlarına, saysız-hesabsız pərəstişkarlarına mənəvi yüngüllük, yoxluqdan doğan təsəllidir.. .İndi harda tar dillənsə, onu xatırlayır, onu hörmətlə yada salırıq... Əli Mehdiyevin sənətkar dostları arasında da böyük hörməti vardı.



Onlardan bəzilərinin ürək sözlərini yazıya əlavə etməyi lazım bilirəm.

**Zeynəb Xanlarova** *(Respublikanın xalq artisti, millət vəkili)*

Əli Mehdiyev gözəl insan kimi yadımda qalıb. 1961-ci ildən opera səhnəsində çıxış edirdim. Ancaq onu 1964-cü ildən tanıdım. O illərdə yeni Leyli və Məcnun ifaçıları axtarırdılar. Hər səsi olan Fikrət Əmirov və Əfrasiyab Bədəlbəyli kimi korifeylərin qarşısında çıxış edə bilməzdi.

Bir gün maestro Niyazi Azərbaycan Dövlət Pedaqoji İnstitutuna getmişdi. Orada müəllimlər ona demişdilər ki, bizdə gözəl səsi olan bir tələbə təhsil alır. Niyazi Əli Mehdiyevə qulaq asmış və bəyənmişdi. Sonra da, onu Opera və Balet teatrına dəvət etmişdi. Operada isə Fikrət Əmirovla Bəhram Mansurov onu dinləmişdilər...

Bir dəfə məşqə gələndə mənə xəbər verdilər ki, Zeynəb, bu dəfə sənin Məcnunun gözəl bir oğlan olacaq. Mən də onlara cavab verdim:

- Mən hər Məcnunun Leylisi ola bilmərəm!...

Düzünü deyim ki, Əli Mehdiyevi görən kimi bəyəndim; gözəlliyi, qəddi-qaməti Məcnuna layiq idi. Onunla məşq etdim, çox xoşuma gəldi, ürəyimə yatdı. Sonra neçə-neçə tamaşada birgə çıxış etdik...

O mənim oxuduğum mahnıları çox sevirdi.

Kiçik bir bloknotu vardı; məni görən kimi, fürsət tapıb, mahnıların sözlərini həmin bloknota köçürərdi...

Əli Mehdiyev sənətinin vurğunu idi. O, səhnə, musiqi üçün yaranmışdı. Xəstəlik ucbatından səhnədən ayrılanda böyük boşluq hiss olundu. İndi onu xatırlayanda bu boşluğu daha aydın görürəm...

**Arif Babayev** *(Respublikanın xalq artisti)*

Mən Əli Mehdiyevi böyük ürək ağrısı ilə yad edirəm. O bizim ən yaxın sənət dostumuz idi. Uzun illər bir yerdə işləmişdik, uğurlu tamaşalarda çıxış etmişdik, müxtəlif qastrol səfərlərində olmuşduq. Onun gözəl səhnə yoldaşlığı, yüksək mədəniyyəti, qayğıkeş, səmimi münasibəti var idi. Opera və Balet Teatrının kollektivi onun

xətrini çox istəyirdi. O məndən iki il əvvəl, səhnəyə gəlmişdi. Hər bir rolunu özünəməxsus cizgilərlə bəzəyərdi. Odur ki, tamaşaçıların sevimlisi olmuşdu. Yaxşı tar çalırdı. Bu ona, xüsusən "Əsli və Kərəm" operasında Kərəm rolunu uğurla ifa etməyə imkan verirdi. Axı Kərəm saz çala-çala oxuyurdu....

Hayıf ki, ağır xəstəlik bu imkanı onun əlindən aldı və səhnəyə çıxışına son qoydu.

Oğluna kiçik toy edirdi. Məni də çağırmışdı. İndi yadıma düşəndə azca təmkinlik tapıram, nə yaxşı ki, mən də həmin şənlikdə iştirak etmişdim...

**Gülxar Həsənova** *(Respublikanın xalq artisti)*

Əli Mehdiyev haqqında düşünəndə, elə bil, doğma balamı, əziz qardaşımı xatırlayıram. Onda elə insani cəhətlər var idi ki, heç vaxt unutmaq olmur. Böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı. Hörmət etməyi və hörmət qazanmağı bacarırdı. Ona görə də, az müddətdə teatrın yaradıcı kollektivinin üzvləri arasında böyük nüfuza malik idi...

Mən onu opera səhnəsi üçün əsl tapıntı hesab edərdim. Bir aktyor kimi, bu sənətə tez bir zamanda yiyələnmişdi. Odur ki, də, Məcnun, Şah İsmayıl, Kərəm və Aşıq Qərib rollarını məharətlə ifa edirdi. Öz məlahətli səsi ilə tamaşaçıları, sanki ovsunlayırdı...

Bir dəfə Gəncədə qastrol səfərində idik. Bəzi ifaçılar toya, bəziləri konsertə getmişdilər. Bütün ağırlıq Əli Mehdiyevin üstünə düşmüşdü. Belə ki, fasilə vermədən bütün tamaşalarda çıxış etməli oldu, üstəlik konsertlərdə də oxuyurdu.

Bir xatirəni də unuda bilmirəm; "Şah ismayıl" tamaşasını göstərirdik. Əsas rollarda Firəngiz Əhmədova, Əli Mehdiyev və mən oynayırdıq. Çıxanda xəbər verdilər ki, tamaşaçılar arasında Bolqarıstandan qonaqlar var, qrim paltarlarını soyunmayın, birgə şəkil çəkdirəcəyik.

Doğrudan da, bolqar yazıçısı Stefan Qrudov öz ailə üzvləri ilə gəlmişdi. O, səhnə arxasına gəlib, bizi təbrik etdi. Əli Mehdiyevin ifası çox xoşuna gəlmişdi, onu qucaqlayıb öpdü...

Əli Mehdiyev təmiz ürəkli bir insan idi. O heç bir zaman heç bir sənətkara paxıllıq etməzdi...



**SÖZ ARDI.** May ayının 25-də Teleteatrda böyük canlanma vardı.Teatrı sevənlər və musiqi pərəstişkarları tanınmış müğənni, öz ifaçılıq bacarığı ilə opera sənətimizdə pozulmaz izlər qoyan Əli Mehdiyevin anadan olmasının 70 illiyi təntənəsinə toplaşmışdılar. Tamaşa zalına şirin bir musiqi yayıldı. "Qarabağ şikəstəsi"nin ürəkləri ehtizaza gətirən melodik axarı gur-gur guruldadı. Oxuyan Əli Mehdiyev idi...

Səhnədə onun sənət dostları; bəstəkar Azər Rzayev, xalq artistləri Arif Babayev, Canəli Əkbərov, İslam Rzayev, opera müğənniləri Səfa Qəhrəmanov və Sahibə Əhmədova əyləşmişdilər. Təntənəli gecənin aparıcısı, şair Vüqar Əhməd unudulmaz səhnə xadiminin həyatı və sənət yolu barədə qısaca danışdı. Sonra bir-bir sənət dostlarına söz verdi. Maraqlı idi ki, onlar həm Əli Mehdiyev haqqında xatirə söyləyir, həm də mahnı və muğamlardan parçalar ifa edirdilər.

Opera müğənniləri Sahibə Əhmədova və Səfa Qəhrəmanovun ifasında M.Maqomayevin "Şah İsmayıl" operasında Ərəb Zəngi ilə Şah İsmayılın dueti səsləndi.

Professorlar Eldar Abasov və Cəbrayıl Azadəliyevin Əli Mehdiyevlə bağlı xatirələri böyük maraqla qarşılandı.

Əli Mehdiyevin həmyerliləri "Lalə" qızlar ansamblının üzvü Rəhilə Bəndəliyeva, Məhərrəm Həsənov və müğənninin bacısı oğlu Nəbi Məmmədovun oxumaları gecənin iştirakçılarına xoş təsir bağışladı. Sonda, Əli Mehdiyevin qardaşı Qabil Mehdiyev çıxış edib, qohumları adından tədbirin iştirakçılarına öz minnətdarlığını bildirdi. Gecədə müğənninin ifasında lent yazıları səsləndi.

Gözəl sənətkarların xatirəsi beləcə yad olundu. Onun xatirə işığı isə heç zaman sozalmayacaq.



## ASYA BAXIŞ QIZI SULTANOVA

Bəstəkar, əməkdar incəsənət xadimi, professor, pedaqoq.
Daha çox yaradıcı musiqi xadimi və ictimaiyyətçi - pedaqoq kimi tanınıb.

**1923**

## "ÇOX GÖZƏLDİR, QIZIM!"

Professor Baxış Sultanovun fotoşəklini almaq üçün onun qızı tibb elmləri namizədi, Azərbaycan Dövlət Tibb Universitetinin dosenti Elmira xanım Sultanova ilə görüşdüm. O mənə Sultanovlar ailəsi barədə əlavə məlumat verdi:

—Sultanovlar Zəngəzurda tanınmış nəsillərdəndirlər. Atamgilin həm Bəxtiyarlı, həm də Armudlu kəndlərində torpaqları olub. Babası Niftəli bəy çar Rusiyası qoşunlarında xidmət edirmiş, polkovnik rütbəsinə kimi yüksəlib. Qafan bölgəsindəki mis mədənlərinin bir hissəsi onlara məxsus idi. 1905-ci ildə daşnaklar Armudlu kəndini dağıdandan sonra atamgilin ailəsi birdəfəlik Bəxtiyarlı kəndinə köçdülər. İsmayıl bəyin böyük bir ailəsi olub, onlar iki bacı, yeddi qardaş imişlər. Onu da deyim ki, Niftəli bəyin də üç oğlu, on qızı varmış. Atam İsmayıl bəyin ilk oğlu idi. O, Şamaxıda, Novoçerkasskda təhsil aldığı illərdən maraqlı epizodlar danışırdı. Bunların çoxu "Çarpazlaşan qılınclar" kitabında verilib.

Anam Zəhra İrəvanın "Sarı Rəcəblilər" deyilən tanınmış tayfasından idi. Atası Cabbar Rəcəbli "Neft şirkəti"ndə tərcüməçi işlədiyindən təhsilini Tehranda "Amerika kolleci"ndə almışdı. Fars dilində lirik şerlər yazardı. Biz ailədə üç bacı olmuşuq, böyük bacımız Leyla körpə ikən həyatdan köçüb. Məndən yaşlı bacım, bəstəkar Asya xanım Sultanovadır, Moskvada yaşayır.

Bu məqamda ağlıma bir fikir gəldi; tərtib etdiyimiz kitaba kökü Qafan bölgəsindən olan bəstəkar barəsində də yazı daxil etmək.

Ona görə Elmira xanımdan xahiş etdim ki, Asya xanımın uşaqlığı və ilk təhsil illəri barədə danışsın:

-Evimiz indiki "Nizami" metrosuna yaxın idi. Ona görə Asya xanım ilk təhsilini 174 saylı məktəbdə alıb. Eyni zamanda, musiqi məktəbinə də gedirdi. Onun musiqi duyumu mütəxəssisləri tamamilə qane edirdi. Mənə elə gəlir ki, dahi bəstəkar Üzeyir Hacıbəyov onun not yazısının üzərində təsadüfi avtoqraf qoymayıb. Asya xanım həm orta məktəbdə, həm də musiqi təhsilində əlaçı idi. Yadıma gəlir ki, uşaqlıqdan şəkil çəkməyi xoşlayardı. Onun çəkdiyi şəkillər evimizdə böyük sevinclə qarşılanardı. Lakin o, bəstəkarlıq yolunu tutub, bu yolda da uğurlar qazandı, indi də Moskvada yaradıcılığını davam etdirir...

İkinci dəfə görüşəndə Elmira xanım mənə "İki sahil" qəzetinin iki nömrəsini gətirmişdi. Bu nömrələrdən Asya xanım Sultanova ilə qəzetin müxbirinin Moskvada və Bakıda müsahibələri dərc olunmuşdu. Mən "Böyük bəstəkar" adlı müsahibəni yazıya əlavə kimi verməyi məqsədəuyğun saydım. Çünki bu müsahibə, bilavasitə Asya xanımın özü ilə aparılmışdı.

Adilə Qocayeva. "Böyük bəstəkar" (müsahibə) "İki sahil" qəzeti: "Asya xanım Sultanovanın həyat və yaradıcılıq bioqrafiyası o qədər mürəkkəb, keşməkeşli və rəngarəng çalarlarla zəngindir ki, onun haqqında nəsə bir söz demək məsuliyyət tələb edir. Və mən bu məsuliyyəti duyaraq Moskvada onunla görüşüb yaradıcılıq söhbəti aparmağı qət etdim. Evinə telefon açdım, fikrimi bilib, səmimiyyətlə qəbul etdi. Görüşdük. 40 il Moskva şəhərində yaşamasına baxmayaraq, azərbaycanlılara məxsus istiqanlılığını və qonaqpərvərliyini qoruyub saxlayıb. Evinin sadə görünüşündən hiss olunur ki, təmtərağı sevmir. Dörd saatlıq söhbətimizdən də başa düşdüm ki, həyatının hər dəqiqəsini Azərbaycan incəsənətinin inkişafına və onun təbliğinə həsr etmiş bir bəstəkar - vətəndaşdır. Söhbət əsnasında onun tükənməz enerjisinə, böyük yaradıcılıq ehtirasına və vətənpərvərlik ideyalarına qibtə etməyə bilmədim. Asya xanım maqnitafona yaxınlaşdı, mərhum müğənnimiz Rəşid

Behbudovun ifasında özünün bəstələdiyi, insana qəlb rahatlığı gətirən həzin "Payız" mahnısını səsləndirib, çay tədarükünə keçdi. Asya xanım qarşıma hərəsi həyatın bir anı olan xeyli şəkil və Bakı, Moskva qəzetlərində onun haqqında dərc olunmuş qalaq-qalaq qəzet tökdü. Bir şəkil diqqətimi cəlb etdi. Dahi bəstəkarımız Qara Qarayev Asya xanımın konsertindən sonra ona gül verirdi. Şəklə diqqətlə baxdığımı görüb dedi:

– Qara Qarayevlə tez-tez görüşür, incəsənət barədə söhbətlər aparırdıq. O, sənətimə böyük hörmət edir və həmişə məni ruhlandırırdı.

A.Sultanova Bakıda, vaxtilə neftçi-geoloqların ağsaqqalı, elmlər doktoru, professor Baxış Sultanovun ailəsində dünyaya göz açıb. İlk təhsilini xüsusi musiqi istedadlı uşaqlar oxuyan məktəbdə, Y.O.Semyonovanın fortepiano sinfində alıb. I sinfi bitirəndən sonra filarmoniyada ilk konserti olub. Filarmoniyanın tamaşa salonunda ağbantlı bir qız tamaşaçıların alqışları altında fortepianoda bir mahnını 2 dəfə ifa edir. Böyük bəstəkarımız Ü.Hacıbəyov o gecə "Bülbül" musiqisinin notu üzərində bu sözləri yazmışdı: "Çox gözəldir, qızım! O gün olsun ki, saçların iri əsərlər yolunda ağarsın".

Asya xanım məktəbi bitirəndən sonra bir il sonra Azərbaycan Dövlət Konservatoriyasına, B.İ.Zeydmanın bəstəkarlıq sinfinə daxil olur. Böyük bəstəkarımız Q.Qarayevin yaradıcılığı ilə tanışlıq onun həyatında dönüş yaradır. O, bəstəkarlıqla məşğul olmağa başlayır.

A.Sultanova ilk Azərbaycan qadınıdır ki, 1951-ci ildə Çaykovski adına Moskva Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini - V.Şebalin və Y.Qolubeyevin sinfini bitirib. Bir il sonra konservatoriyanın böyük konsert salonunda gənc bəstəkarın ilk müstəqil əsəri - görkəmli dirijorumuz Niyazinin rəhbərliyi ilə "Segah" muğamı əsasında "Azərbaycan" odası səsləndi və müəllifinə şöhrət gətirdi.

A.Sultanova Azərbaycanın əməkdar incəsənət xadimi, Moskva Bəstəkarlar İttifaqının üzvü, Moskvadakı Azərbaycan mədəniyyət mərkəzinin yaradıcısı və onun vitse-prezidentidir. 15 sənədli filmə musiqi yazıb. 30-dan çox uşaq mahnısının və 50-dən artıq estrada mahnısının müəllifidir. Bakı Kukla teatrının iki tamaşasına, S.Vurğunun "Aygün" poemasına musiqi yazıb. Onun musiqisi janr etibarilə müxtəlifdir. Vaxtilə mərhum Rəşid Behbudov onun bir neçə mahnısını sevə-sevə ifa edib. Onlardan



biri, bizim birlikdə, qulaq asdığımız həzin "Payız" idi. Asya xanımın bir neçə mahnısı - "Yolunu gözlədiyim", "Əgər sən mənimlə olsan" və "Bakının ulduzları" görkəmli müğənni M.Maqomayevin repertuarını bəzəyir. A.Sultanovanın mahnılarını məşhur estrada müğənniləri T.Miansarova, Brjevskaya, Urazbayeva, Selivanov, Mulerman, Kirkorov (Bolqarıstan) və başqaları ifa edirlər. Tamilla Mahmudovanın xahişi ilə "Əsgəranə" adlı böyük bir konsert pyesi yazmışdır.

Söhbət əsnasında o mənə mahnılarını almaq üçün Cənubi Afrikadan gəlmiş məktubu göstərdi.

– Xarici ölkələrdə konsertləriniz olubmu?

– Bolqarıstanın Sofiya və Polşanın Varşava şəhərlərində konsertlər vermişəm. Bu konsertlərdən sonra onlar mənim mahnılarımı alıblar.

A.Sultanovanın mahnıları milli elementlərlə zəngindir. Bu cəhətdən "Ay gözəl" lirik mahnısı xüsusilə seçilir.

Bütün varlığıyla Vətənə, torpağa, milli adət-ənənələrimizə bağlı bəstəkar "Vağzalı" və "Tərəkəmə" oyun havalarını fortepiano üçün yazıb.

O həm də maraqlı kamera instrumental əsərlərin müəllifidir. Onlardan "Sonato" fortapiano üçün "Tokkato" və "Sonatino" məşhurdur. Onun vətənpərvərlik ruhunda yazdığı irihəcmli "Vətənlə söhbət", "Vətən haqqında", "Vətəni tərənnüm edirəm" mahnıları diqqətəlayiqdir.

– Asya xanım, həyatınızın çox hissəsini uşaqların musiqi qabiliyyətlərinin üzə çıxarılmasına həsr etmisiniz. Hansı uşaq mahnılarının müəllifisiniz?

– Mən həm Bakıda, həm də Moskvada rus və Azərbaycan dillərində xeyli uşaq mahnıları bəstələmişəm. "Qaranquş", "Tonqal", "Pinti qız", "Sərçələr", "Nağaraçı", "Üzüm bağı", "Yelləncək", "Tənbəl", "Tut məni", "Çəkici vur", "Gilənar", "Xəzər", "Təqsir məndədir", "Vals oynayaq" və s. onlarla mahnım radio dalğalarından və televiziya ekranlarından tez-tez səslənir.

A.Sultanovanın əsərləri, nəinki Azərbaycan və Rusiya, eləcə də vətənimizin sərhədlərindən çox-çox uzaqlarda səslənir.

Onun bəstələdiyi mahnıların ruhunu Şərq və Avropa musiqiçilərinin sintezi təşkil edir.

– Asya xanım, əgər keçmişə qayıtmaq mümkün olsaydı, yaradıcılığınızda xoşunuza gəlməyən detalları dəyişərdinizmi?

– Keçmişə boylananda yaradıcılığımda xoşuma gəlməyən

çox şeylər var, amma heç nəyi dəyişməzdim. Çünki hər yaşın öz tələbi var və mən o tələbdən doğan bir ruhla yazmışam. Hiss edirəm ki, indi daha yaxşı yazıram.



*Asya Sultanova (sağdan birinci) bacısı Elmira xanımla "İki sahil" qəzetinin müxbiri Aynur Qocayevaya müsahibə verir. 2000, yanvar.*

– Son vaxtlar nə üzərində işləyirsiniz?

– İkiseriyalı "Konstantin Simonov" filminə musiqi yazmışam. "Süita" və "Vals" üzərində çalışıram. 5 vals yazmışam. Azərbaycan xoru üçün mahnılar yazmağı planlaşdırmışam. Moskva şəhəri azərbaycanlıların milli-mədəni muxtariyyətinin xətti ilə Moskvanın ayrı-ayrı rayonlarında Azərbaycan dilində məktəblər açmaq istəyirik.

Böyük bəstəkar A.Sultanova yaradıcılığının kamillik dövrünü yaşayır. Onu hələ qabaqda neçə-neçə yazılmamış əsərlər gözləyir.

Pillələri enib, Moskvanın Qorki küçəsinə çıxıram. Küçə boyu addımladıqca düşünürəm: "Kaş hər bir azərbaycanlı Vətəni üçün Asya xanımın gördüyü işlərin heç olmasa, yarısı qədər bir iş görəydi..."





1958

## RƏHİLƏ MÖHBALI QIZI BƏNDƏLİYEVA

Müğənni, "Lalə" qızlar ansamblının solisti. Daha çox xalq mahnıları, muğam və populyar nəğmələrin ifaçısı kimi tanınıb.

## QAYALARA YAZILAN SƏS

Kövşən meşəsinə yaz gəlmişdi. Yaşıl otların, əlvan çiçəklərin, budaqlarda göz açan tumurcuqların ətri hər tərəfi bürümüşdü. Kol dibindən boylanan bənövşənin, otların arasında nazlanan nərgizlərin qoxusu adamı məst edir, şirin duyğularını oyadırdı. Dərə aşağı köpüklənə-köpüklənə Kurud çayı axırdı. Qarşıda əzəmətli qayalar ucalırdı. Çayın çağlayan nəğmələri o qayalarda əks-səda verirdi. Bu səslərə meşədən yüksələn şirin bir səs də qoşuldu:

Qarlıdır çöllərimiz,
Gözəldir ellərimiz...

Adama elə gəlirdi ki, təbiət bu səsə qulaq kəsilib, quşlar da susub, çay da səngiyib, qayalarınsa heyrətindən matı-qutu quruyub, bu səsi köksünə yazır, bunsuz həmin səsi əks etməzdi ki!..

Səs isə başqa bir melodiya üstdə köklənirdi:

Gözəldir yurdumun yaşıl düzləri,
Zümrüdlü gölləri, göy dənizləri...

Oxuyan səkkiz yaşlı Rəhilə Bəndəliyeva idi. Kövşən meşəsindən qızlarla çırpı yığmağa getmişdi. O isə çırpı

yığmaqdan əvvəl, bir kum bənövşə dərmiş, qızları başını toplayıb, radio dalğalarından və nəğmə dərslərində öyrəndiyi mahnıları oxuyurdu. Onun səsi qayalara düşür, Kurud kəndinə yayılırdı...

Evə gələndə anası Əzət Dadaşqızı (o, Şəhərcik kəndindəndir - R.T.) onun üstünə düşdü:

– Ay bala, nəydi, yenə səsin dağı-daşı başına götürmüşdü, utandığımdan kənd içinə çıxa bilmirəm?!

– Ay ana, niyə utanırsan, oxumağın nəyi pisdi ki?!

– Bala, axı, qız uşağısan, olmaz...

Rəhilə başını aşağı salıb, evə girdi. Ancaq bilirdi ki, anası bu sözü ürəkdən demir, atasının onu danlayacağından ehtiyat edir. Anasının da gözəl səsi vardı, oxusaydı, bəlkə də, radio dalğalarında çıxış edən müğənnilərdən olardı. Anasının səsini o yaşatmalıydı...

**"İki sahil" qəzetinə müsahibədən:**

– Musiqiyə həvəsim birinci sinifdə oxuyandan olub. Nəğmə dərslərində müəlimim Osman Poladov mahnıların solo hissəsini mənə oxudardı... Anam danışır ki, mənə ad qoydu olanda təsadüfən radionu açıblar. Diktor elan edib ki, "oxuyur Rəhilə Həsənova". Bibim deyib ki, mən bu qızın adını Rəhilə qoydum. O vaxtlar kəndimizdə ancaq aşıq görərdim. Müğənniləri isə radioda dinləyərdim. Radionu açanda Qədir Rüstəmovun oxuduğu "Sona bülbüllər"i eşidəndə, elə bil, mənim dünyam dəyişirdi. Bu səsin sahibini görmək üçün az qalırdım, radionu sındıram. Atama yalvarırdım ki, gəl bunu aç, görüm, bu oxuyan kimdi. Bir də o vaxtlar Rəhilə Həsənovanın sazla oxuduğu mahnıları çox sevirdim. Yadımdadı, onun ifa etdiyi "Qarlıdı çöllərimiz" mahnısını əzbərləmişdim, hər yerdə onu oxuyurdum. Onu da deyim ki, orta məktəbdə yaxşı oxumurdum. Müəllimlər səsimə görə qiymət yazırdılar...

Bəndəliyevlər ailəsi 1970-ci ildə Bakının Hövsan qəsəbəsinə köçdü. Rəhilə 6-cı sinifdən həmin qəsəbədəki 196 saylı məktəbdə təhsilini davam etdirdi. Şəhər mühiti onun müğənniliyə olan marağını birə on qat artırdı. Orta məktəbdə keçirilən ayrı-ayrı şənlik gecələrində ifa olunan mahnılar, başlıcası isə bir zaman yalnız səslərini efir dalğalarından eşitdiyi



sevimli müğənnilərin çıxışlarını mavi ekrandan seyr etmək bu həvəsi daha da qüvvətləndirirdi. 1975-ci ildə orta məktəbi bitirdi. Elə həmin il indiki Aşıq Ələsgər adına Mədəniyyət sarayında dərnəyə yazıldı. Yeni mahnılar öyrəndi, ifa tərzini gündün-günə təkmilləşdirdi. Eyni zamanda, A.Zeynallı adına musiqi məktəbinə imtahan verdi, lakin qəbul ola bilmədi. Yaşının azlığını bəhanə edib götürmədilər. Bir il dərnəyə gedib gəldi. 1976-cı ildə onun müğənni olmaq arzusu yolunda önəmli bir imkan açıldı. Bakıda "Oxu, tar!" musiqi müsabiqəsi keçirilirdi. Rəhilə Bəndəliyeva bu müsabiqəyə ciddi hazırlaşdı və "Aman, təklik əlindən" adlı xalq mahnısı ilə iştirak etdi. İlk dəfə idi ki, belə bir müsabiqənin iştirakçısı olurdu. Onun çıxışı münsiflər heyəti üzvlərini tamamilə qane etdi. O, "Oxu, tar!" müsabiqəsinin qalibi oldu. Bu qələbə onu daha da ruhlandırdı. Yenidən A.Zeynallı adına musiqi məktəbinə imtahan verib, qəbul olundu. Muğam üzrə müəllimi Vahid Abdullayev idi. Ondan muğamların sirlərini öyrənməyə başladı. Hərdən mavi ekranda "Lalə" qızlar ansamblının çıxışlarını seyr edirdi. Onda bu ansamblın üzvü kimi mahnılar ifa etmək arzusu oyandı. Arzusunu ansamblın bədii rəhbəri Ceyran Haşımovaya bildirdi. Ceyran xanım onu mehribanlıqla qarşılayıb dedi:

– Qızım, bizə müraciət edən çoxdur. Gələrsən, mahnıları ifa edərsən. Əgər səsin bizim ansamblın ifa tərzinə uyğun gəlsə, səni üzvlüyə qəbul edərik.

Rəhilə Bəndəliyeva sınaq üçün "İstəyirəm, görəm səni" aşıq mahnısını, N.Musayevin "Axtarma məni" və Ə.Tağıyevin "Qəşəngdir!" bəstələrini ifa etdi. Onun ifasını bəyəndilər. Oxuması, ilk növbədə, bədii rəhbər Ceyran Haşımovanın xoşuna gəldi. Musiqi məktəbinin ikinci kursunda ikən onu "Lalə" qızlar ansamblına qəbul etdilər...

İndi o zamandan neçə il keçir. Bu illər ərzində onun müğənnilik fəaliyyəti heç zaman bu ansambldan ayrı olmayıb...

**"İki sahil" qəzetinə müsahibədən:**

– Mən bu ansambl haqqında bir az geniş danışmaq istəyirəm. Çünki "Lalə" qızlar üçün bir məktəbdir. Deyərdim ki, müğənni yetişdirmək Ceyran xanımın peşəsidir. Bu ansambla nə qədər qız gəlibsə, Ceyran xanım hamısına ana olub, müəllimlik edib.

Mən bu ansamblda oxuya-oxuya ailə qurmuşam, iki övladım olub. Ceyran xanımın analıq qayğısı sayəsində sənətimi atmamışam. İlk dəfə televiziyanın mavi ekranına "Oxu, tar!" müsabiqəsində çıxmışam. Sonrakı çıxışlarım "Lalə" qızlar ansamblı ilə olub...



*"Lalə" qızlar ansamblının növbəti çıxışı; oxuyur solist Rəhilə Bəndəliyeva. 1999-cu il.*

Rəhilə Bəndəliyeva bu ansamblın tərkibində Azərbaycanın bütün rayonlarında, Naxçıvanda, Türkmənistanda, Özbəkistanda, Qazaxıstanda, Gürcüstanda, Rusiyanın bir sıra şəhərlərində, o cümlədən Moskva, Novosibirsk və Ulyanovskdə verilən konsertlərdə məharətlə çıxış edib, öz ifası ilə dinləyicilərin böyük rəğbətini qazanıb. "Doğru yol" partiyasının dəvəti ilə Türkiyədə olmalarını unuda bilmir. Kars bölgəsindəki çıxışları yaddaşında şirin bir xatirəyə dönüb. Deyir ki, orada bizə südlü aş verdilər. Uşaqlığımı xatırladım, kəndimiz gözümün önünə gəldi, anamın bişirdiyi, ləzzətlə yediyim südlü aş yadıma düşdü, məni dönə-dönə alqışladılar; "Qaçaq Nəbi", "Apardı sellər Saranı..." kimi xalq mahnılarını oxumağımı xahiş etdilər. Mən onların xahişini həvəslə yerinə yetirdim.

Hazırda "Lalə" qızlar ansamblı "Azərneftyanacaq" İstehsalat



Birliyinin Mədəniyyət evində öz fəaliyyətini davam etdirir. Müəssisənin rəhbərliyi ansambla qayğı göstərib, mədəniyyət evində şərait yaradıb. Mən ora gedəndə ansamblın üzvləri məşq edirdilər. Buna baxmayaraq, həm Rəhilə xanımla, həm də ansamblın bədii rəhbəri, respublikanın əməkdar artisti Ceyran xanım Haşımova ilə söhbət etdim. Ansamblın bədii rəhbəri, Rəhilə xanım barəsində ürək sözlərini belə ifadə etdi:

– Rəhilə xanım Bəndəliyeva ansambla üzv qəbul olunduğu gündən mənim xoşuma gəlib. İndi respublikada məşhur müğənnilər kimi çıxış edənlərdən bir çoxu ilk addımlarını bizim ansamblda atıb. Rəhilə xanım yeganə müğənnidir ki, ilk gündən fəaliyyətini bizimlə bağlayıb, ansambldan ayrılmayıb. O, milli musiqimizə bağlı ifaçıdır. Ona görə də, xalq mahnıları, muğam təsnifləri, aşıq gözəlləmələri onun ifasında təbii səslənir. Rəhilə xanım heç vaxt səsinə uyğun gəlməyən mahnıları oxumaz. Onun ifa tərzi, səhnə mədəniyyəti ansamblın ümumi ruhuna tamamilə uyğundur. Müğənni daim axtarışdadır, yeni-yeni mahnıların ifası ilə öz repertuarını zənginləşdirir. Bu da dinləyicilərin rəğbətini qazanmaq üçün əsas şərtdir.

Rəhilə Bəndəliyeva, sanki Ceyran xanımın sözünü tamamladı:

– Kasetimi buraxmaq istəyirəm. Ona "Dağlar" adı vermişəm. Bu da dağlar diyarı Zəngəzurun Kurud kəndində 1958-ci ilin yaz çağında doğulmağımla bağlıdır. Qoy mahnılarımı dinləyən hər bir kəs, eyni zamanda, mənim doğma torpağım Qafan bölgəsini xatırlasın...

Rəhilə Bəndəliyevanın ilk səsi isə əzəmətli Kurud qayalarına yazılmışdı...

**SÖZ ARDI.** Sonradan öyrəndim ki, müğəninin kasseti "Təki sən unutma!" adı ilə buraxılmışdır.



## AYNURƏ MƏDƏT QIZI MEHDİYEVA

Televiziya verilişləri diktoru, pedaqoq. Daha çox diktor kimi tanınıb.

1977

## "QALDI Kİ, QALDI..."

Teleteatrın tamaşa zalı ağzınacan adamla dolu idi. Çoxu da gənclərdi. Televiziya verilişlərini aparmaq üçün diktor seçimi başlanmışdı. İlk dəfə idi ki, respublika üzrə belə böyük seçim keçirilirdi. 2000-dən çox gənc öz istedad və bacarığını nümayiş etdirməli, onlardan 7 nəfəri müsabiqənin qalibi olmalı idi. Həyəcanlı dəqiqələr, təlaşlı anlar keçirdi.

Diktor elan etdi:

- Aynurə Mehdiyeva!..

O, bir anlıq özünü itirdi, gözləri alacalandı. Asta-asta səhnəyə çıxıb, mikrofona yaxınlaşdı. Təhsil illərində imtahanlar vermişdi, ancaq heç zaman belə sınaq önünə çıxmamışdı. Münsiflər heyətinə ötəri nəzər saldı; orada televiziya verilişlərinin mahir aparıcıları, yaxşı tanıdığı, sənətlərinə pərəstiş etdiyi diktorlar: Sabir Ələsgərov, Sabir Axundov, Ofelya Sənani və başqaları oturmuşdular. Bütün nəzərlər ona dikilmişdi, Özünü topladı, nəfəsini dərdi, evdə dönə-dönə məşq etdiyi qoşmanı aramla söyləməyə başladı. Zala ani sükut çökdü; böyük sənətkar, söz ustadı Aşıq Ələsgərin şirin misraları mikrafona axdı:



Durur nişanası Ağrı dağında,
Nuhun qiyaməti qaldı ki, qaldı.
Yarı tərəqqidi, yarı tənəzzül,
Çoxunun qisməti qaldı ki, qaldı.

Özü öz işini bilməyən nadan
İbrət eyləməzmi şahdan, gədadan?!
Hatəm nə müddətdi, gedib dünyadan,
Bizə səxavəti qaldı ki, qaldı.

Ələsgər dönmədi öz ilqarınnan,
Biri xilaf deyil yüz ilqarınnan,
Sazınnan, sözünnən, düz ilqarınnan
Ellərdə söhbəti qaldı ki, qaldı...

Asta-asta gəlmişdi, asta-asta da səhnədən çıxdı. Elə bil, Aşıq Ələsgər "Çoxunun qisməti qaldı ki, qaldı..." misrasını bu müsabiqə üçün deyibmiş. Kaş onun da "qisməti" qalaydı, istəyi yerinə yetəydi, 7-lərdən biri olaydı. Bir-birindən maraqlı çıxışları izlədikcə həyəcanı daha da artırdı; doğrudanmı, münsiflər heyəti onun ifasını bəyənəcək, o biri turlarda iştirak etməyə razılıq verəcək?! Sevə-sevə əzbərlədiyi qoşmanın misraları ürəyinə umud işığı səpirdi...

Beləcə üç turdan keçdi. Lakin nəticəsini demək çətin idi. O qədər gəncin içindən qalib çıxmaq asan deyildi. Aynurə müsabiqənin nəticələrini gözləməyə başladı...

Mədət müəllimlə Tamara xanım Bakıda bir-birini xoşlamış, Bakıda ailə həyatı qurmuşdular. Şəhərdə yaşayır, şəhərdə işləyirdilər.

O il olmazdı ki, yay aylarını doğma Gıği kəndində keçirməsinlər. 1976-cı ilin yayı gənc ailəyə sevinc gətirdi. İlk övladları doğma kənddə varlığa göz açdı. Oğlan idi, adını Rahim qoydular. 1977-ci ilin yayını da ikiqat sevinclə yaşadılar. İkinci övladları dünyaya gəlmişdi. Qız idi, adını Aynurə qoydular.

O ildən sevincə sevinc qarışdı, qayğı üstünə qayğı gəldi. Qardaş-bacı qoşa böyüdü, qoşa boya-başa çatdı. Ana

nəvazişindən, ata qayğısından birinə nə pay düşdüsə, o birinə də o paydan qismət oldu. Ana oğluna nə öyrətdisə, ata qızına tövsiyə etdi. Ata qızına nə tövsiyə etdisə, ana oğluna o kök üstündə öyüd-nəsihət verdi. Rahimin 7 yaşı, Ayunurənin 6 yaşı tamam oldu. Oğul məktəbə getməli idi, qız da ondan geri qalmazdı; şer də bilirdi, yazı da yazırdı, oxu da oxuyurdu, hələ hesab da hesablayırdı. Ata-ananın bir qərarı oldu; hər ikisi birgə məktəbə getsin, hər ikisi bir oxusun!

Doğrudan da, Rahimlə Aynurə 1983-cü ildə Bakı şəhərinin 39 saylı məktəbinin birinci sinfinə birgə getdilər, bir partada oturdular, bir-biri ilə bəhsəbəhs oxudular. Qardaş bilməyəndə bacı öyrətdi, bacı bilməyəndə qardaş əl uzatdı, hər ikisi bilməyəndə ata-ana müəllimlik etdi. Evdə ilk müəllimləri ata-ana oldusa, məktəbdə ilk dərsi Amalya xanım dedi, üç il ondan öyrəndilər, onun təlimindən bəhrələndilər...

1993-cü ildə qardaş-bacı orta məktəbi birgə bitirdi. Eyni zamanda, beş il musiqi təhsili aldılar. Təhsili davam etdirmək lazımdı. Ata-ananın məsləhəti ilə Nərimanov rayonunda yenicə açılmış 43 saylı Avropa litseyinin biologiya fakültəsinə girdilər. Ata-ana övladlarını həkim görmək istəyirdi. Bir il sonra həmin litseyi bitirsələr də, bu arzu ardınca getmədilər. Aynurənin özünün etiraf etdiyi kimi "qandan qorxduğum üçün həkim olmaq istəmədim!" Görünür, illər keçdikcə ata-ananın müəllimlik sənəti onlara da sirayət etmişdi. Hər ikisi müəllimlik sənətini seçdilər. Hər ikisi N.Tusi adına Azərbaycan Pedaqoji Universitetinə daxil oldu. Rahim "Tarix" fakültəsinə, Aynurə isə "Pedaqogika və psixologiya" fakültəsinə. Bir il sonra, qiyabi təhsil aldığından Aynurə Nərimanov rayonundakı 73 saylı orta məktəbdə ibtidai sinif müəllimi kimi, ilk əmək fəaliyyətinə başladı. Asan deyildi, çətinlik çəkirdi; hiss edirdi ki, pedaqoji təcrübəsi çatışmır, ali təhsili başa çatdırmayıb. Ancaq ata-ananın pedaqoji təcrübəsi, orta məktəbdə və litseydə dərs deyən müəllimlərdən müşahidə etdiyi təlimləri əlindən tuturdu, yoluna işıq salırdı... İki il beləcə dərs dedi, təcrübə topladı, hörmət qazandı...



Aynurənin uşaqlıqdan bir istəyi vardı; gizli-gizli bu istəyi yaşayırdı, heç kəsə bildirmirdi. Evdə tək olanda güzgü önünə gələr, şer deyər, mətn oxuyar, özünü televiziya verilişləri diktoruna bənzətməyə çalışardı. Bu yalnız həvəs idi, bənzəyiş idi. Diktor olmağın isə çətin yolları mövcuddu...

1997-ci ilin avqust ayı idi. Mavi ekranda elan verdilər: Azərbaycan Dövlət Televeziya və Radio verlişləri şirkəti gənc diktorların seçim müsabiqəsini elan edir. Bu xəbər Aynurənin istəyi yoluna işıq zolağı saldı. Evdə heç kəsə bildirmədi; öncədən nə demək olardı, birdən müsabiqədən keçməyə qabiliyyəti çatmaz, onun ifasını bəyənməzlər?! Hər halda, sınaqdan keçmək pis olmazdı, özünə aydınlaşardı ki, bu istəyinə çata bilər, yoxsa, yox?! Bu niyyətlə sabahısı şirkətə getdi. Onu qocaman diktor Sabir Axundovun yanına göndərdilər. Sabir müəllim onunla söhbət etdi və xoşbəxtlikdən, müsabiqədə iştirakına icazə verdi. Aynurə evə qayıdan kimi, bu xəbəri anasına söylədi. Anası məsləhət bildi ki, müsabiqə üçün Aşıq Ələsgərin "Qaldı ki, qaldı..." rədifli qoşmasını hazırlasın. Elə də etdi. Görünür, aşıq şerinin sehrli misraları da uğurun qazanılmasında öz təsirini göstərdi. Evdə heç kəs inanmırdı ki, Aynurə böyük bir müsabiqənin qalibləri sırasında ola bilər. Onun özü də inamsızlığa qapılmışdı. Mavi ekranda qalibləri elan etmişdilər. Onun xəbəri olmamışdı. Qohumları, tanışları zəng edib, ata-anaya göz aydınlığı verirdilər... O isə həmin gecə sevincindən yata bilmədi. Səhəri şirkətə - Sabir Axundova zəng vurdu. Deməyəsən, axtarırmışlar. Sabir müəllim onu təbrik etdi və sənədlərini götürüb, təcili şirkətə gəlməsini söylədi. Aynurənin uçmağa qanadı yox idi. Heç bircə saat keçməmiş Sabir müəllimin yanında oldu. Yeddi nəfər qalibin - Zamirə, Aynur, Şəfəq, Nəsimi, Vüqar və Elxanla yanaşı, onun da adı yazılmışdı...

İndi Aynurənin qanadı vardı; istəyin zirvəsində qanad açmışdı. Onu tanınmış diktor, gözəl sənətçi Tamilla Ələkbərovaya təhkim etdilər. Tamilla xanım Aynurənin mavi ekrana çıxması üçün öz köməyini əsirgəmədi, öz məsləhətləri ilə onu çıxışa hazırladı. Aynurə 1997-ci ilin 31 oktyabr gününü

heç bir zaman unutmayacaq. Həmin gün Tamilla xanım onu tamaşaçılara təqdim etdi. Aynurə televiziyanın ikinci kanalında verilişlərin proqramını oxudu. Bu mavi ekranda ilk çıxışı idi.



*Aynurə Mehdiyeva (soldan birinci) sənətçi həmkarları arasında. 1998-ci il.*

"Xəbərlər" proqramına isə bir neçə ay sonra çıxdı. Birinci xəbərin mətni belə idi: "Dünən Azərbaycan respublikasının prezidenti Heydər Əliyev Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Pakixira Toqonu qəbul etmişdir. Söhbət səmimiyyət şəraitində keçmişdir..."

İndi Aynurə Mehdiyeva "Xəbərlər" proqramının əsas aparıcılarındandır. Onunla şirkət binasının vestübülündə oturub, sənətə necə gəlməsi barədə sual-cavab aparırdım. Təsadüfən televeziyanın veteran diktoru, tanınmış sənətçi Roza Tağıyeva söhbətimizin üstünə çıxdı. Ondan öz həmkarı haqqında ürək sözlərini söyləməsini xahiş etdim. Roza xanım dedi:

-Bilirsiniz, diktorluq elə bir peşədir ki, onu mənimsəmək üçün illər lazımdır. Mən 40 ildən artıqdır ki, işləyirəm, amma özümü hələ də yetkin sənətçi saymıram. Aynurə iki ilə yaxındır, bu sənətə gəlib. Başqa sözlə, sənətçi kimi ilk addımlarını atır. Buna baxmayaraq, öz çalışqanlığı və məsuliyyət hissini



gözləməyi ilə seçilir. Artıq ən "ağır" veriliş sayılan "Xəbərlər"i aparır. Bu isə çox böyük uğurdur. Mən onun gələcəyinə böyük umudla baxıram. Bir də çox mərifətli, tərbiyəli, təvazökar və diqqətcil olması xoşuma gəlir. Görünür, müəllim ailəsində böyüməsinin az təsiri olmayıb. Mən Aynurəyə həyatda xoşbəxtlik, seçdiyi bu gözəl sənətində uğurlar diləyirəm!..

**HAŞİYƏ:** Mən Aynurə Mehdiyevanın bu sənətə gəlişində xüsusi xidmətləri olan, Azərbaycanın diktor sənəti veteranları Sabir Axundov və Sabir Ələsgərova da müraciət etdim. Onların ürək sözlərini bura əlavə edirəm:

Respublikanın xalq artisti Sabir Ələsgərov:

- Azərbaycan Dövlət Televiziyasının diktoru olmaq çox şərəfli və məsuliyyətli bir işdir. Bizim diktorlar kollektivinin gözəl ənənələri vardır. Kollektivə qəbul olunan hər bir gənc diktor, ilk növbədə, bu ənənələrdən bəhrələnməli, müntəzəm öyrənməlidir. Başqa sözlə, bura həm iş yeri, həm də məktəbdir. Ona görə, bu sənətə yeni gələnlər təcrübəli diktorlardan oxu və ifa tərzini mənimsəməlidirlər. Yalnız bir şərtlə; hər bir kəsin öz yolu, öz oxu və ifa tərzi olmalıdır, onları yamsılamağa çalışmamalıdırlar. Diktorlar kollektivinə son illər bir sıra istedadlı gənclər gəlmişlər. Onlardan biri də Aynurə Mehdiyevadır. O, çox qısa bir müddətdə kollektivin arzu olunan üzvü olmuşdur. Az danışıb, çox öyrənən gənclərimizdəndir. Uğurlu gələcəyi var. Qoy sevimli sənəti ömür yoluna gur işıq salsın!..

Qocaman diktor Sabir Axündov:

- Diktorluq həm maraqlı, həm də mürəkkəb və ağır sənətdir. Bu iş istedad və həvəsdən əlavə, yüksək intelektual səviyyəyə və dərin məlumata sahib olmağı tələb edir. Bunun üçün diktor öz üzərində müntəzəm çalışmalı, bilik və məlumatını genişləndirməklə yanaşı, davranışana da xüsusi diqqət yetirməlidir.

Aynurə xanım haqqında mənim qənaətim belədir ki, az müddət ərzində o özünü istedadlı bir gənc kimi göstərib, öz üzərində səylə çalışır, sənətinə böyük məsuliyyətlə yanaşır. Bütün bu keyfiyyətlər isə göstərir ki, o gələcəkdə televiziya tamaşaçılarının rəğbətini qazana biləcəkdir...

## NİFTALI TANRIVERDİ OĞLU QULİYEV



İdmançı, Beynəlxalq dərəcəli hakim, pedaqoq-məşqçi. Daha çox idmançı və maarif xadimi kimi tanınıb.

**1948**

## "BUĞAC YUMRUĞU"

*Durca xanın oğlu yalqız, saymaz durdu,*
*Təpinəndə düz alnından yumruq vurdu;*
*Bir də, bir də qolazladı yumruğunu,*
*Buğa çökdü çırpa-çırpa quyruğunu,*
Dədəm Qorqut!..

Bu bənd "Dədəm Qorqut" epos-poemasındandır. Bir nüsxəsini avtoqrafla dostum Niftalı Quliyevə armağan etmişdim. Yadıma düşdü ki, həmin əsərdə Buğacın buğanı yumruqla vurub, yerə sərməsini təsvirə çalışmışam.

Boynuma alıram ki, dostum barəsində yazmaq istəyirdim. "Yumruq savaşı" idman növündən o qədər başım çıxmadığından nə münasib ad tapır, nə də yazıya başlaya bilirdim...

Kitab əlimdən tutdu. Düşündüm ki, futbolda "Axilles dabanı" ifadəsi olduğu kimi, Azərbaycanın boks idmanı sahəsində də, bəlkə, "Buğac yumruğu" deyimini işlədək?!

O, Zəngəzur mahalının Qafan bölgəsindəki Çanaqçı kəndində sadə bir ailədə varlığa göz açıb. Ağlı kəsəndən



Qənimət meşəsinin ildırıma köksgərən iri gövdəli ağaclarını görüb, Burgurşad dağlarının sıra-sıra sal qayalarına tamaşa edib, həzin-həzin çağlayan köpüklü dağ çaylarının şirin laylasına qulaq kəsilib. Bu təkrarsız mənzərələr, gözoxşayan gözəlliklər onda hər kəsə nəsib olmayan güc-qüvvət, özündə sonsuz inam yaradıb, ömrü boyu təbiətdən aldığı ölçüyəgəlməz qıvraqlığı nəyəsə, harasa sərf etmək ehtiyacı duyubdur. Bir sözlə, Niftalı Quliyevin qolundakı güc, yumruqlarındakı zərbə, özündəki çeviklik, dözümlülük onunla birgə doğulub, onunla birgə boy atıbdır...

Təbiətindəki çılğınlıq, demək olar ki, hər gün üzə çıxırdı. Məktəbdə uşaqlarla dava-dalaş salardı, dinc otura bilmirdi, müəllimləri lap cana yığmışdı. Məktəbin direktoru Səriyyə xanım onu möhkəmcə danlayar və deyərdi:

"- Niftalı, sənin yerin gec-tez türmədir!"

Ona cavab verməsə də, hərdən öz-özünə düşünərdi:

- Yox, əziz müəllim, yox! Mən türmədə oturmaq üçün dünyaya gəlməmişəm! Mən idmançı olmağa doğulmuşam! İdmançı olacağam! Dəcəlliyim bu həvəsdən irəli gəlir!

Doğrudan da, Niftalı Quliyev bu yolu seçdi, bu yolda uğurlar qazandı. Önəmlisi odur ki, idman sahəsindəki nailiyyətlərini təhsillə uyğunlaşdırıb, bacarıqlı müəllim, səriştəli məşqçi kimi də yetişdi. Mən onunla görüşəndə "Təhsil" Respublika İdman Mərkəzi direktorunun birinci müavini idi.

"Mərkəz"də onunla ömür yolu, "yumruq savaşı" yarışlarında qazandığı saysız-hesabsız uğurlar barədə xeyli söhbət etdik. Suallarıma dolğun və sərrast cavabları xoşuma gəldi:

- Kənd məktəbini bitirdikdən sonra, Sumqayıt şəhərinə gəldim. Şəhərdəki 13 saylı məktəbdə təhsilimi davam etdirməklə yanaşı, idmanın ağır atletika növü ilə məşğul olmağa başladım. Məşq zalında boks qrupu da təlim keçirdi. Bu qrupa məşqləri milliyyətcə alman olan Boris Moor adlı bir nəfər aparırdı. Nədənsə, boks məni daha çox özünə cəlb edirdi. Odur ki, bir gün həmin məşqçiyə yanaşıb, fikrimi ona bildirdim. Mənə diqqətlə nəzər sala-sala razılıq verdi. Bəlkə də, uca boyum, qollarımın pırrtaq əzələləri yaxşı boksçu olacağıma onda inam yaratmışdı..

1965-ci ildə boks üzrə məşqlərə başladım. Boris Moor mənə çox şey öyrətdi, mahir məşqçi kimi, idmanın bu sahəsinin qəribə, cazibədar sirlərini açıqladı...

Elə həmin il Azərbaycan birinciliyi uğrunda boks yarışlarında iştirak etdim. İndi o çağlardan neçə il keçir, ancaq ilk çıxışlarım yadıma düşəndə ağlamağım gəlir; yarışlar Bakıda Əloyunları stadionunda keçirilirdi. Birinci dəfə rinqə çıxmağıma baxmayaraq, dalbadal üç boksçuya üstün gəlib, finalda iştirak etmək hüququ qazandım. Sevincim hədsiz idi. Finaldakı çıxışım hər şeyi alt-üst etdi. Rəqibim Kamran Qasımov məndən yaşlı və ağırçəkili idi. Həm də idman ustası adını almışdı. Görünür, bütün bu amillər mənə güclü psixi təsir göstərdi: mən həmin boksçuya uduzdum. Bir həftə özümə gələ bilmədim; ağladım, ağladım, ağladım... Uduzmağım mənə çox ağır gəlirdi. Sanırdım ki, idmanın bu növü ilə məşğul olmağa daha gücüm çatmayacaq. Artıq yeni məşqçim vardı; o məni ruhdan düşməyə qoymadı. Ona ömrüm boyu minnətdaram...

Mən arada sual verdim:

- Yəqin ki, həmin məşqçi olmasaydı, daha boksla vidalaşardınız?

O, ani olaraq fikrə getdi. Sonra:

- Güman ki... Amma inanmıram, axı uşaqlıqdan idmançı olmağı qət etmişdim. Sonrakı çıxışlarım da bunu sübuta yetirdi; mən idman sahəsinə təsadüfi gəlməmişdim...

...İki ilə yaxın gərgin məşq etdim. 1967-ci ildə Respublikanın yığma boks komandasına daxil oldum. Həmin ili uğurlu çağlarımdan hesab edirəm. Latviya Respublikasının Oloyne şəhərində açıq birincilik keçirilirdi. Bu turnirdə Azərbaycan yığma komandasının üzvləri də iştirak edirdilər. İlk dəfə idi ki, belə bir birincilikdə yarışa qoşulurdum. Böyük həyəcan içindəydim. İki rəqiblə qarşılaşmalı oldum. Onu da deyim ki, hər ikisi təcrübəli və peşəkar boksçu idi. Buna baxmayaraq ikisinə də qalib gəlib, bürünc medal qazandım. Bu, eyni zamanda, uzaq Baltik dənizi sahillərində Azərbaycan yığma komandasının ilk uğurlarından idi...

Niftalı Quliyev həmin il Sumqayıt Politexnik Texnikumuna girmişdi. 1970-ci ildə oranı bitirdi. Lakin ixtisası ardınca



getmədi. İdman sahəsi onu özünə doğru çəkirdi. Götür-qoy etmədən sənədlərini Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna verdi. Təhsil almaqla yanaşı, həm boks üzrə məşqçi işləyir, həm də yarışlarda iştirak edirdi. Dəfələrlə Azərbaycan çempionu və bir sıra Beynəlxalq turnirlərin qalibi olmuşdu. "Spartak" İdman Cəmiyyətində məşqçi kimi çalışdığı illəri unuda bilərmi?

Onun yetirmələri Cahangir Hüseynov, Əli Dadaşov, Oleq Dudkin, Şakir Manafov, Elşad Sadıqov və başqaları keçmiş SSRİ məkanında müxtəlif yarışların qalibi, yaxud mükafatçıları olmuşdular. Hamısı Respublika yığma boks komandasına daxil idilər və "idman ustası" adını almışdılar...

Niftalı Quliyev 1973-cü ili də ömür kitabının işıqlı səhifələrindən sayır. Həmin il Respublika yığma boks komandası tərkibində Moskva şəhərinin açıq birinciliyində iştirak etmişdi. Boksda nadir hadisələrdən hesab olunan dalbadal beş idmançıya qalib gəlmiş, Qızıl Medal qazanmışdı. Eyni zamanda, SSRİ İdman ustalığı normasını yerinə yetirərək "İdman ustası" fəxri adına layiq görülmüşdü...

Əlbəttə, bütün bu yüksək idman nəticələri və məşqçilik fəaliyyəti səmərəsiz qala bilməzdi. 1992-ci ildə ona boks üzrə "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" adı verildi. 1998-ci ildən isə "Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəçisi və İdman xadimi" adını daşıyır.

Niftalı Quliyev boks üzrə Beylənxalq dərəcəli hakim kimi də məşhurdur. 1971-ci ildən bu sahədə fəaliyyət göstərir, necə deyərlər, həmin çağdan onun rinqdən hakimlik hökmü eşidilir. İlk çağlar şəhər və respublika birincilikləri yarışlarını idarə edirdi. 1973-cü ildə isə Milli dərəcəli hakim adı almış, beynəlxalq yarışları idarə etmək hüququ qazanmışdır. Bundan başqa, 1992-ci ildə Krım-Çuk şəhərində keçirilən Ukrayna boks çempionatı yarışlarını inamla idarə etdiyinə və nəzəri imtahanların sınağından məharətlə çıxdığına görə, Avropa Boks Federasiyası Assosiasiyasının (EABA) hakimi adına layiq görülüb. 1996-cı ildən isə Dünya Boks Federasiyasının təqdimatı ilə Türkiyənin İstambul şəhərində boks hakimliyi üzrə imtahan verən Niftalı Quliyevə Beynəlxalq dərəcəli hakim

(AİBA hakimi) adı verilib. Bu da o deməkdir ki, Dünya, Olimpiya və Avropa birincilikləri yarışlarını idarə edə bilər.

Göstərməliyəm ki, Respublikamız müstəqillik əldə etdikdən sonra, bu ada ilk dəfə Niftalı Quliyev layiq görülüb.

Niftalı Quliyev 1999-cu ildə yaradılmış Azərbaycan Boks Federasiyasının vitse prezidentidir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru, professor Ağacan Əbiyevin sədr olduğu bu federasiyaya onunla birgə bacarıqla rəhbərlik edir.



*Niftalı Quliyev (soldan birinci) Beynəlxalq Boks Federasiyasının rəhbəri və hakimləri arasında. Minsk, 1998-ci il.*

Azərbaycan İdman tarixinə önəmli səhifələr yazan, boksun inkişafında misilsiz xidmətləri olan Niftalı Quliyev tez-tez uşaqlığını, ilk təhsil aldığı kənd məktəbini, sevimli müəllimlərini xatırlayır. Səriyyə müəllimənin sözlərini yada salıb gülümsəyir: "- Yox, əziz müəllimim, mən türmədə oturmaq üçün dünyaya gəlməmişəm!..."

Onun böyük bir arzusu da var; hazırda üzərində tədqiqat işi apardığı namizədlik dissertasiya mövzusunu başa çatdırmaq!

Söhbətimizin sonunda soruşdum ki, övladlarından onun



yolunu davam etdirən varmı? Qətiyyətlə cavab verdi:

- Var! Kiçik oğlum Elxan boksçudur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Bir sıra yarışların qalibidir!..

Mənsə həm ataya, həm də oğula məsul yarışlarda, idmanın bu çətin sahəsində yeni-yeni uğurlar dilədim...

Niftali Quliyev indiyə kimi, Polşa, Danimarka, Slovakiya, Macarıstan, Xorvatiya, Rumıniya, İtaliya, Bolqarıstan, Yunanıstan, Türkiyə, İran kimi ölkələrdə Beynəlxalq boks yarışlarını idarə etmişdir. Bir neçə il əvvəl isə, Tailanda olmuş və "Dünyanın ən yaxşı hakimi" fəxri adını almışdır. Onu yeni-yeni Beynəlxalq yarışlar gözləyir...

# KİTABA DÜŞƏNLƏR


**Müəllifdən (Rəşid Təhməzoğlu)** ... 3

**UCALIĞA APARAN CIĞIRLAR** ... 7
Sabir adına bağda söhbət — Bəşir Bünyatov ... 9
Dağlar qoynunda doğulmuşdu — Ənvər Əlixanov ... 13
Yarımçıq nekroloq — Umud Süleymanov ... 19
Qatar göynərtisi — Ələkbər Süleymanov ... 22
Məzarlıqda son görüş – Mənzilə Rzayeva ... 29
Ömrün oxşar çağları – Əlipənah Rzayev ... 33
Axar su duruluğu — Bilal Kərimov ... 38
Uzaqda yanan işıq — Saleh Muradov ... 45
Bayrağı enməyə qoymadı – Lüdviq Muradov ... 52
"Nağıllaşan ömür" — Mirağa Əliyev ... 58
Qatarından ayrılan durna — Bəşir Həsənov ... 64
Son məktubu Sivaşdan gəldi — İmaş İmaməliyev ... 68
"Özüm dediklərimi yaz!" — Fatma Əzizova ... 72
Xalqa xidmət amalı — Eldar Abasov ... 78
Həyatın sürət qatarı — Zülfüqar Kazımov ... 83
Açıq qalan pəncərələr — Xudayət Cabbarov ... 89
Su aydınlıqdır – Oqtay Əsədov ... 93
Tanrıyoxuşu — Bəşir Fərəcov ... 97
Yarımçıq evin sonbeşiyi – İlyas Məmmədov ... 103
Qızılqala parıltısı – Aydın Piriyev ... 110
Yuxusu çin olmuşdu — Murad Fərəcov ... 116

**ULDUZ QONAR ÇİYİNLƏRƏ** ... 121
Ucalıq pilləsində – Məhəmməd Əlizadə ... 123
"Başını dik tutsun Çıraqbalımız!" — Teymur Bünyatov ... 127
"Özgə uşaqları ocaq yandırar!" — Murad Hüseynov ... 133
Yaşa dolan ulduzlar — Nurəddin Həsənov ... 138
Yetmiş yaşına az qalırdı — Şəmsi Rəhimov ... 144





Yolu da adı kimi — Aydın Bünyatov ... 147
Telefon söhbəti — Həsən Şahmuradov ... 151
"Qaçaq" Novruzun oğlu — Bayram Novruzov ... 157
Bir telefon zəngi — Əvəz Əsədov ... 163
Çözələnən düyünlər—Rəşid Səfərov ... 169
Qrad qəlpəsi — Telman Həsənov ... 174

**ZƏKA AYDINLIĞI** ... 179
Böyüklüyü sadəliyindən doğurdu — Baxış Sultanov ... 180
Sümüyü kəsən cərrah bıçağı — Nurəli Bünyatov ... 186
Nobel mükafatını ala bilərdi — Qəhrəman Qəhrəmanov ... 190
Yaddaşlardan silinməz – Mikayıl Heydərov ... 195
Ürəyi dözmədi — İbrahim Bəxtiyarov ... 200
Bir xatirə yada düşdü — Əsəd Əsədov ... 204
Dustağın ikinci tanrısı — Baxşəli Baxşəliyev ... 209
Epiqraf — Bəhlul Ağayev ... 213
Göy rəngli su — Arif Əfəndiyev ... 218
Göyqurşağı — Arif Şəkərəliyev ... 222
Uzaq Amerikadan soraq — Eylaz Babayev ... 227
"Səməni, saxla məni!" — Səfixan Həsənov ... 231
Ata yolu — Bağır Süleymanov ... 236
Atamın adaşı — Təhməz Quliyev ... 240
"Mənim bağım, baharım" — Cəbrayıl Azadəliyev ... 245
Yaşanmış ömür kitabı — Sabir Əsədov ... 251
Gəvən yağı — Ələkbər Qurbanov ... 257
İstək — Mansur Bünyatov ... 261
Göydən yerə baxanda — Rəfael Tağıyev ... 266
Adı məktubla gəldi — Yafəs Baxşəliyev ... 270
Dəlidağa qar yağmışdı — Hüsü Həsənov ... 275

**MAARİFİN GUR İŞIĞINDA** ... 281
Xatirə işığı sozalmayacaq... – Cəlal Zeynalov ... 282
51 il yaşadı... – Cahangir Rüstəmov ... 289

Sol əllə yazılmış dəftər – Ağabala Babayev........................295
"Bu sənətə elə bağlanmışam ki" — Həsən Şəkərəliyev......301
Altı yaşı olanda — Ağəli Bədəlov......................................305
Qazangöl yoluna güzgü tutmuşdu — Əliş Qarayev.............310
Üçqardaş tut ağacı – Səriyyə Həsənova..............................317
Ömrün 48 ili — Nüsrət Şıxəliyev........................................322
Qumru nənənin nağılları – Qabil Həsənov..........................328
"Mənə Qazan göldən, Vanadan söz aç"—Səməd Qarayev.....333

**SÖZÜN, SƏSİN VƏ GÜCÜN QÜDRƏTİ**.......................339
Səngərdə yazılan məktub — Hüseyn Zəngili.......................340
"Bir söyüd basdırın..." — Hafiz Baxış................................344
Əsəd düzündə doğulan körpə — Abdulla İbrahimov...........350
"Şairdirsə, babasına çəkib" — Rafiq Yusifoğlu...................355
Tarın susan telləri — Əli Mehdiyev.....................................359
"Çox gözəldir, qızım!" — Asya Sultanova..........................366
Qayalara yazılan səs — Rəhilə Bəndəliyeva........................371
"Qadı ki, qaldı..." — Aynurə Mehdiyeva.............................376
"Buğac yumruğu" — Niftalı Quliyev...................................382





## RƏŞİD TƏHMƏZOĞLU (QULİYEV RƏŞİD TƏHMƏZ OĞLU)

1939-cu il may ayının 30-da Zəngəzur (Qaraqapı) mahalının Qafan (Qapan) bölgəsindəki Yuxarı Girətağ (Aratağ) kəndində müəllim ailəsində anadan olmuşdur.

Səkkizillik məktəbi bitirdikdən sonra, 1955-59-cu illərdə Azərbaycan Kommunal Tikinti Texnikumunda, 1962-1968-ci illərdə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsində (axşam şöbəsi) təhsilini davam etdirmişdir. 1964-1968-ci illərdə orta məktəbdə Azərbaycan dili və ədəbiyyatından dərs demişdir. 1968-1987-ci illərdə arxiv quruculuğu sahəsində baş elmi işçi, şöbə rəisi, elmi işlər üzrə direktor müavini, direktor vəzifələrində işləmişdir. 1987-ci ilin may ayından Azərbaycan MEA sistemində çalışır.

Rəşid Təhməzoğlunun 1958-ci ildən dövri mətbuat səhifələrində bədii, elmi və publisistik əsərləri dərc olunur. O, 1996-cı ildə "Əhməd Cəmilin yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. "Üzeyir Hacıbəyov" foto-albomunu, "Səhnədən keçən yollar", "Sevdim Azərbaycanı...", "Bakıya gedirəm...", "Dik gedib, dik gəlirsən!" və başqa kitabların tərtibçisidir. 1996-cı ildə onun "Qara qapı" poeması da daxil olmaqla "Ay sevənin, sevənin!" adlı ilk poetik toplusu üzü görmüşdür. 1999-cu ildə "Dədəm Qorqut" epos-poeması, 2001-ci ildə isə "Yağmur" adlı yeni poeziya toplusu nəşr edilmişdir. Bundan sonra "Başını dik tutsun Çıraqbalımız", "Körpələrədir sözüm" və "Günəş işığı" kitabları çıxmışdır.

Bu, müəllifin birinci publisistik əsərlər toplusudur

Nəşriyyatın direktoru: *Zahid Məmmədrzayev*

Texniki redaktoru: *Mübariz Xəlilov*
Korrektoru: *Gülnar Həsənova*

Yığılmağa verilmişdir 06.02.2004
Çapa imzalanmışdır 17.06.2004
Formatı: 60x90 $^{1}/_{16}$.
Şərti çap vərəqi 24,5.
Sifariş 58.

Təhməzoğlu Rəşid
**Ucalıq yurdu**
(Azərbaycan dilində)
Bakı, **"Qismət"** , 2004.